LƏTİF ŞÜKÜROĞLU

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ORDU QURUCULUĞU

Bakı - 2018

Kitab Respublika Veteranlar Təşkilatı Rəyasət Heyətinin 2018-ci il 30 mart tarixli qərarı ilə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibəti ilə çap olunur.

Baş məsləhətçi: RVT-nin sədri, general-polkovnik T. Ağahüseynov.
Məsləhətçi: hərbi jurnalist, ehtiyatda olan mayor Ə.Teymurov.
Rəyçilər: filologiya elmləri doktoru, professor B.Əhmədov,
tarix üzrə fəlsəfə doktoru N.Maksvell.
Redaktor: H.Babayev.

Kitabda Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində və mövcud olduğu dövrdə ordu quruculuğu sahəsində görülmüş işlərdən, Hərbi Nazirliyin, hökumətin, parlamentin, digər dövlət orqanlarının bu istiqamətdə həyata keçirdikləri tədbirlərdən, Azərbaycan Silahlı Qüvvələrinin ölkənin etibarlı müdafiəsinin təşkili, yerlərdə hakimiyyət dayaqlarının möhkəmləndirilməsi, Qarabağda, Zəngəzurda və qərb sərhədlərində erməni təcavüzünün qarşısının alınmasındakı fəaliyyətindən bəhs olunur. Cümhuriyyət ordusunun yaranmasında yaxından iştirak etmiş hərbi xadimlərimizin həyat və fəaliyyəti də silahlı qüvvələrin formalaşmasındakı iştirakları kontekstində kitabda əksini tapmışdır. Mövzunun, eləcə də, hərb tariximizdə danılmaz xidmətləri və yeri olan həmin şəxsiyyətlər barəsindəki məqalələrin işlənməsində tədqiq edilən dövrə aid zəngin arxiv və mətbu materiallardan, sənədlərdən, Cümhuriyyət ordusunda xidmət etmiş hərbçilərin memuarlarından, bu günədək aparılmış tədqiqatların nəticələrindən və s. mənbələrdən istifadə olunmuşdur.

Nəşriyyat
İSBN

Müəllifdən

100 yaşlı Azərbaycan Silahlı Qüvvələri Azərbaycan Xalq Cümhuriyyəti ilə yaşıddır. Təşkilinə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından bir qədər əvvəl başlanılsa da, ilk müstəqil dövlətimizin mövcud olduğu dövrdə formalaşdığına görə sözün tam mənasında onu Cümhuriyyətin yetirməsi adlandırmaq olar.

Son vaxtlar alim və tədqiqatçılarımızın Böyük Britaniya, Fransa və digər dövlətlərin arxivlərində apardıqları araşdırmaların artıq ictimaiyyətə açıqlanan nəticələri də bu qənaətlərimizi əyani təsdiq edir. Artıq elmi dövriyyəyə daxil edilmiş bir sıra sənəd və materiallar Cümhuriyyətin qısa zaman kəsiyində necə böyük uğurlara imza atmasının, onun qurucularının millətə və dövlətə xidmət naminə hansı fədakarlıqlar göstərdiklərinin növbəti sübutu olmaqla qəlbimizi iftixarla doldurur. Biz də həmin yeni məlumat və faktlara istinadla bu müqəddəs işin bir parçası olan ordu quruculuğu prosesinə təkrar şahidlik etmək niyyəti ilə yola çıxdıq.

Bir sözlə, çoxsaylı arxiv materiallarına, 1918-1920-ci illər mətbuatının bir sıra məlumatlarına, Cümhuriyyət qurucularının məqalə və çıxışlarına, eləcə də alim və tədqiqatçılarımızın əsərlərinə istinadən Cümhuriyyət ordusunun yaradılması istiqamətində atılmış addımları, görülmüş ardıcıl tədbirləri ümumiləşdirmək, yenidən dəyərləndirməklə oxuculara çatdırmağa çalışdıq. Kitabda Cümhuriyyət dövründə ordunun yaradılması prosesinə birbaşa rəhbərlik etmiş dövlət və hərbi xadimlərimizin genişmiqyaslı tarixi fəaliyyəti, Cümhuriyyətin süqutundan sonrakı taleləri barədə söhbət açılır. Bununla Azərbaycan fədailəri qarşısında sonsuz minnətdarlı borcumuzu cüzi də olsa yerinə yetirə biləcəyiksə, nə xoş

bizə... Bu həm də Azərbaycanın ordu quruculuğu sahəsində zəngin təcrübənin müasir mərhələdə mümkün istifadəsi üçün öyrənilməsi və bu təcrübədən düzgün nəticələrin çıxarılması baxımından əhəmiyyətli ola bilər.

Cümhuriyyət dövründə nizami ordu quruculuğunun başlıca xüsusiyyəti onun Şərqdə ilk demokratik dövlət quruluşunun mahiyyətini ifadə edən mütərəqqi və çağdaş dəyərlərə uyğun şəkildə həyata keçirilməsi idi. Azərbaycanda müasir silahlı qüvvələrin təşkili sahəsində ilk uğurlu təcrübə olan Cümhuriyyət ordusu hərbi tariximizdə tamamilə yeni səhifə açmaqla müstəsna əhəmiyyətli bir hadisə oldu.

İlk müstəqil dövlətimizin yadigarı olan Azərbaycan Ordusu barəsində neçə-neçə dəyərli elmi və publisistik əsərlər yazılıb, sənədli filmlər çəkilib, televiziya və radio verilişləri hazırlanıb. Ancaq bütün bunlarla yanaşı, məlumatlar və faktlar şəklində müxtəlif arxivlərdə, o dövrün canlı şahidlərinin xatirə və qeydlərində, bir sözlə məlum və gizli mənbələrdə öz tədqiqatçılarını gözləyən hələ nə qədər üzə çıxarılmamış həqiqətlər var. Həmin həqiqətlərə işıq tutulduqca, Cümhuriyyətin, bu kontekstdə Azərbaycan Silahlı Qüvvələrinin keçdiyi tarixi yol barəsində təsəvvürlərimiz daha da dolğunlaşacaq və aydınlaşacaqdır.

Milli Ordumuza məhəbbətlə

Azərbaycan Cümhuriyyəti xalqın milli mənəvi, tarixi, fəlsəfi irsidir; zaman keçdikcə bu irs yenidən öyrənilir, araşdırılır və millətin bugünü, gələcəyi üçün dövlətçiliyin ideoloji bazası rolunu oynayır. Cümhuriyyət irsində Azərbaycan ordusunun yaranması və formalaşması məsələləri isə ayrıca bir səhifədir. Elə bir səhifə ki, dövlətin yaranması ilə onun müharibəyə və müxtəlif münaqişə ocaqlarına cəlb edilməsi cəmi bir neçə il əvvələdək vətəndaşları orduya çağırılmayan bir xalqın qısa zamanda ordu quruculuğunda qazandığı uğurların məcmusudur. Bu mənada Lətif Şüküroğlunun «Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu» kitabı bu mərhələdə Azərbaycanda silahlı qüvvələrin formalaşdırılması tarixinin öyrənilməsi sahəsində mühüm yer tutur. Cümhuriyyətin qurulmasından sonra onun varlığı və gələcəyi birbaşa ordudan asılı idi. Ordu dövlətin yaşamasının əsas təminatçısı olduğundan onun təşkili və formalaşması prioritet istiqamətlərdən birini təşkil edirdi. Doğrudur, ordu quruculuğu uzun sürən, çətin və mürəkkəb bir prosesdir. Lakin son dərəcə çətin şəraitdə demokratik bir dövlət qurmağı bacaran Cümhuriyyət yaradıcıları qısa müddətdə milli ordunu nəinki formalaşdırmış, həm də müxtəlif yerlərdə uğurlu hərbi əməliyyatlar aparmağa müvəffəq olmuşdular. Bu uğurlar dövlətin digər sahələrdə apardığı quruculuq işlərinə də öz təsirini göstərmiş, orduya arxalanaraq liderlər dövlətin gələcəyi üçün önəmli siyasi qərarlar vermişlər. Ona görə də, Cümhuriyyət irsindən danışarkən ordu quruculuğuna nəzər yetirməmək mümkün deyil.

Aydındır ki, sovet dövründə Cümhuriyyət ordusu haqqında nə isə yazmaq, onun təşkili prosesi ilə bağlı faktlar

ortaya çıxarmaq mümkün deyildi. O dövrdə Cümhuriyyətin heç adı çəkilmir, həmin dövr müsavat dövrü adlandırılırdı. Halbuki Müsavat partiyası parlamenti təşkil edən partiyalardan biri idi və dövlətin adı var idi: Azərbaycan Xalq Cümhuriyyəti. Cümhuriyyəti danan, onu başqa bir adla adlandıran sovet ideologiyası onun ordusu haqqında isə bir kəlmə belə danışmır, yazmırdı. Sanki nə Cümhuriyyət olmuşdu, nə də onun ordusu... Yalnız ötən əsrin 90-cı illərinin əvvəllərində ordunun varlığı ilə bağlı bəzi məqalələr dərc olunmağa başlandı, az da olsa, Cümhuriyyət ordusunun yaranması və bu prosesdə iştirak edən generallar haqqında yazılar ortaya çıxdı. O zaman L.Şüküroğlu ilə birgə işlədiyimiz «Xalq ordusu» qəzetində milli ordunun tarixi ilə bağlı arxivlərdən çətinliklə əldə etdiyimiz məqalələr, milli ordu əsgərlərinin şəkillərini dərc edirdik. Bunlar Cümhuriyyət ordusunun yayılan ilk şəkilləri idi. Yadımdadır ki, Cümhuriyyət dönəmində «Azərbaycan» qəzetində çap olunmuş «Əsgəran alındı» məqaləsini qəzetimizdə yenidən vermişdik. Amacımız bu idi ki, tarix təkrar olunsun, Əsgəranın, işğal olunmuş torpaqların alınması müjdəsini verək...

Əlbəttə, bunlar ordu quruculuğunun tarixinə dair dəryadan bir damla idi. 1990-cı illərdə Azərbaycanda milli ordu quruculuğu prosesində bu cür yazılar uğurlu təcrübə ola bilərdi. Lakin bütövlükdə götürdükdə Cümhuriyyət ordusu haqqında pərakəndə yazılar olmaqdan başqa bir şey deyildi. Fundamental tədqiqatların yazılması müəyyən zaman və sistemli araşdırmalar tələb edirdi. Yaxşı ki, sonrakı dövrdə Azərbaycanın ilk müstəqil dövlətinin mövcud olduğu illərdə milli ordunun yaranması, formalaşması, ayrı-ayrı rəhbərləri, generalları haqqında bir çox araşdırmalar aparıldı, dəyirli tədqiqat işləri meydana çıxdı. L.Şüküroğlunun 2000-ci ildə çap olunmuş iki cildlik "Cümhuriyyət hökuməti repressiya

məngənəsində" kitabı da bu qəbildən olan tədqiqatlar sırasında idi.

L.Şüküroğlunun sonrakı fəaliyyəti bu və ya digər dərəcədə ordu və təhlükəsizlik məsələləri ilə bağlı oldu. Sərhəd qoşunlarında işlədi və Cümhuriyyətin sərhəd siyasəti haqqında fəlsəfə doktorluğu üzrə dissertasiya müdafiə edərək alimlik dərəcəsi aldı. Lakin bununla da kifayətlənmədi, içindəki Cümhuriyyət sevgisi bu zəngin irsə yenidən nəzər salmağı zəruri etdi. Artıq bir neçə müddətdir ki, L.Şüküroğlunun Cümhuriyyətin quruculları ilə bağlı silsilə yazıları «525-ci qəzet», "Respublika", «Kaspi», "Azərbaycan veteranı" və digər mətbuat orqanlarında dərc olunur, Azərbaycan Dövlət İnformasiya Agentliyində və başqa saytlarda yayılır. Bu araşdırmalarda həm Cümhuriyyətin ordu quruculuğu yolunda fəaliyyəti, həm də ordu rəhbərliyinin ölkənin müdafiəsini, təhlükəsizliyini təmin etmək məqsədi ilə gördüyü işlər faktlarla, sənədlərlə təsdiqini tapır. Müəllif arxiv materiallarına əsasən Cümhuriyyət rəhbərlərinin ordu quruculuğu sahəsində gördüyü işləri ümumiləşdirməyə və elmi nəticələr çıxarmağa çalışır. Bu araşdırmaların bir kitab şəklində nəşr edilməsi Cümhuriyyətin və onun ordusunun yaranmasının yüz illiyinə bir töhfə hesab oluna bilər.

Tədqiqatda iki istiqamət başlıca yer tutur; ümumi ordu quruculuğu ilə bağlı görülən işlər və ordu qurucularının portret oçerkləri. Bu iki istiqamət müəllifə imkan verir ki, Cümhuriyyətin ordu quruculuğu prosesini bütün parametrləri ilə əks etdirə bilsin. L.Şüküroğlunun kitabı faktların zənginliyi, mənbələrin dəqiqliyi, təhlillərin dərinliyi və obyektivliyi, hadisələri düzgün dəyərləndirilməsi, obyektiv qənaətlər çıxarılması baxımından indiyədək ordu quruculuğuna həsr olunmuş tədqiqatlar arasında layiqli yer tutur. Düşünürəm ki, Cümhuriyyətə, onun

ordusuna sevgi tədqiqatın bu şəkildə ortaya çıxmasına imkan yaratmışdır. M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.Y.Yusifbəyli, Ə.M.Topçubaşov, N.S.Şeyxzamanlı, M.Y.Cəfərov kimi siyasilərin ordu məsələsinə xüsusi fikir vermələri və bu istiqamətdə fəaliyyətləri, Cümhuriyyət hökumətinin ordu quruculuğuna dair qərarları və onların həyata keçirilməsi yolunda problemlər kitabda dolğun əksini tapmışdır. Kitabda türk ordusunun Qafqazda və Azərbaycanda həyata keçirdiyi misssiyaya və Cümhuriyyətin müdafiə edilməsində roluna da aydınlıq gətirilir. Müəllifin Hərbi Nazirliyin yaradılmasını ordu quruculuğu prosesində yeni bir mərhələ hesab etməsi təkcə tədqiqatçı qənaəti kimi səslənmir, həm də hökumətin məqsədyönlü işinin nəticəsi olaraq qiymətləndirilir. Ordu quruculuğu prosesinin ən kiçik məsələlərinə belə diqqət yetirilir. Azərbaycan dilinin orduda işlənilməsi, tərbiyə işləri, hərbi salamlaşmanın aparıması, qeyri-azərbaycanlı zabitlərin tez bir zamanda zəruri sözləri öyrənib işlətmələri kimi kiçik təfərrüatı belə tədqiqata cəlb edərək münasibət bildirilir. Milli hərbi kadrların hazırlanması məsələsi də diqqətdən kənarda qalmır. Ən çox diqqəti cəlb edən məsələlərdən biri ordunun formalaşmasının son mərhələsidir. Bu mərhələ ona görə əhəmiyyətlidir ki, Azərbaycan Cümuriyyətinin varlığına təhdidlər məhz bu zamanlar daha da güclənməyə başlamışdı. Yanvar-aprel aylarını əhatə edən bu mərhələ bütün təfsilatı, gerçəklikləri və ziddiyyətləri ilə təhlil edilir.

Azərbaycanın ilk ordu generalları Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, eləcə də, ordu quruculuğunun digər memarları Süleyman bəy Əfəndiyev, Həbib bəy Səlimov, Masey bəy Sulkeviç, Murad Gəray Tlexas kimi hərbçilər, Fətəli Xan Xoyski, Nəsib bəy Yusifbəyli, Xosrov bəy Sultanov kimi

siyasi xadimlər haqqında portret oçerklərin verilməsi kitabı daha məzmunlu və dəyərli edir.

L.Şüküroğlunun bu tədqiqatı böyük zəhmətin nəticəsidir; müəllifin bir elm adamı olmaqdan başqa, peşəcə ordu və təhlükəsizliyin praktik məsələləri ilə məşğul olması onun sanbalını artırmış olur. Kitabda Cümhuriyyətə və ordu quruculuğunda əməyi keçənlərə sonsuz müəllif sevgisini görməmək olmur. Görünür, buna görə də tədqiqatını «Azərbaycan fədaisi olmuş böyük şəxsiyyətlərimiz qarşısında sonsuz minnətdarlıq borcu» ilə onlara həsr etmişdir. Cümhuriyyətə və onun qurucularına olan bu sevgi onu arxivlərə aparmış, səbrlə, təmkinlə faktları toplamış, ortaya yeni və sanballı bir tədqiqat əsəri çıxarmışdır. L.Şüküroğlunun bu araşdırması indiyədək ordu quruculuğuna həsr olunmuş bütün tədqiqatlardan fərqlənir.

Bu araşdırmadan da görünür ki, Cümhuriyyət qurucuları bütün istiqamətlərdə dövlət quruculuğu yolunda dönmədən çalışmış, xalqın və dövlətin təhlükəsizliyini təmin etmək üçün ordu quruculuğu prosesini başa çatdırmağa çalışmışdır. Ancaq tarixi şərait, həm də bəzi obyektiv və subyektiv səbəblər bu prosesi başa çatdırmağa və dövləti qırmızı imperiyanın caynaqlarından xilas etməyə imkan verməmişdir. Lakin onların gördüyü nəhəng iş, qoyduqları zəngin irs yolgöstərən bir məşəl olaraq bizi həmişə irəliyə aparacaqdır!..

Bədirxan ƏHMƏDLİ,
filologiya elmləri doktoru, professor

Giriş

Çoxəsirlik dövlətçilik tarixinə malik olan Azərbaycan xalqının hərbi birliklər yaratmaq, nizami ordu qurmaq sahəsində zəngin təcrübəsi və ənənələri vardır. Qədim mənbələrdə bunu sübuta yetirən onlarca fakt və məlumatlar artıq tarixçi alimlərimiz tərəfindən aşkarlanaraq elmi ictimaiyyətə təqdim edilmişdir. Belə ki, Azərbaycan ərazisində eramızdan əvvəl IV minilliyin sonları – III minilliyin əvvəllərindən başlayaraq Urmiya hövzəsində yaranmış ilk dövlət qurumları və ya etnik-siyasi birliklər bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynamaqla, malik olduqları hərbi birliklərlə öz torpaqlarını xarici təcavüzlərdən uğurla qoruyurdular. Sonrakı dövrlərdə (eramızdan əvvəl I minillikdə –eramızın I minilliyinin əvvəllərində) Azərbaycan torpaqlarında mövcud olmuş Manna, İskit şahlığı, Atropatena və Albaniya kimi qüvvətli dövlətlər də "bütün regionda baş verən hərbi-siyasi hadisələrdə yaxından iştirak edir, Azərbaycan torpaqlarını ələ keçirməyə çalışan qüvvətli qonşularına qarşı uğurla mübarizə aparırdılar".[1]

Hərbi iş sahəsində təcrübəsini tarixin sonrakı mərhələlərində daha da təkmilləşdirən Azərbaycan dövlətləri yeni tarixin 11-ci yüzilliyindən etibarən dəfələrlə nizami qoşun yaratmaq təşəbbüsündə olmuş və bir çox hallarda bunu bacarmışlar. Böyük Səlcuq imperatorluğunun süqutundan sonra qüvvətlənən Şirvanşahlar və Eldənizlər dövlətləri,

1 Mahmudov Y. Azərbaycan: qısa dövlətçilik tarixi, B., "Təhsil", 2005, s. 9-10

Azərbaycan sülalələri tərəfindən idarə olunan Qaraqoyunlu, Ağqoyunlu və xüsusilə Səfəvi dövlətləri dövrün hərbi yeniliklərini mənimsəyərək nizami ordu quruculuğunda daha da böyük uğur qazanmışlar.[2]

Bu ənənələr Əfşarlar, Qacarlar zamanında da davam etdirilmiş, sonuncu türk dövlətinin parçalanmasından sonra ölkə ərazisində yaranmış ayrı-ayrı xanlıqlar da öz silahlı qüvvələrinə malik olmuşlar. Təəssüf ki, Azərbaycanın Rusiya və İran dövlətləri arasında Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci) müqavilələrinin bağlanması ilə ikiyə parçalanması nəticəsində hərbi ənənələrin inkişafına son qoyulmuşdur. Ölkənin həm cənubunda, həm də şimalında işğalçı qüvvələrin yeritdiyi siyasətin başlıca məqsədlərindən biri Azərbaycanı, onun xalqını özünümüdafiə imkanından mərhum etmək olduğundan, nəinki ordunun, hətta azərbaycanlılardan ibarət azsaylı hərbi birliyin yaradılması mümkün olmamışdır. Azərbaycanın çar Pusiya tərəfindən ilhaq edilmiş şimal hissəsində bu siyasət daha sərt şəkildə aparıldığından azərbaycanlılar Birinci dünya müharibəsinə qədər hərbi mükəlləfiyyətdən də kənar saxlanmışlar. Fərdi təşəbbüslər istisna olmaqla, onlar çar ordusunda xidmətə çağrılmamışlar.

Bu vəziyyətə son qoyulması yalnız çar Rusiyasının süqutundan və Cənubi Qafqazda idarəçiliyin dəyişməsindən sonra mümkün oldu. Xüsusi Zaqafqaziya Komitəsi (XZK) və Zaqafqaziya Seyminin tərkibində Azərbaycanda ilk hərbi qüvvələrin formalaşdırılmasına başlandı. Ancaq Azərbaycanın nizami ordusunun yaradılması, hərbi strukturların təşkili üçün real şərait yalnız Azərbaycanın ilk müstəqil demokratik

2 Yenə orada s. 27-29

dövlətinin – Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə yarandı.

Cümhuriyyət ordusunun yaradılmasını şərtləndirən amillərdən danışarkən, öncə bu qüvvələrin formalaşmasına qədər Azərbaycanda və onun ətrafında mövcud olmuş tarixi şəraiti dərindən təhlil etmək və qiymətləndirmək lazımdır. Digər tərəfdən, Şərqin ilk demokratik respublikasının – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının hansı tarixi, siyasi proseslərin nəticəsi olduğunu aydınlaşdırmadan, bu dövlətin istənilən siyasi, hərbi, yaxud iqtisadi qurumunun təşkili barədə fikir yürütmək birtərəfli yanaşma olardı. Doğrudur, milli tarixşünaslığımızda Cümhuriyyətin yaranmasına qədərki və onun təşəkkül tapdığı dövrlə əlaqədar çoxsaylı elmi araşdırmalar aparılmış, həmin dövrü dolğun əks etdirən dəyərli elmi tədqiqatlar, monoqrafiyalar, elmi məqalələr yazılmışdır. 20-ci əsrin əvvəllərindən etibarən, xüsusilə 1905-ci il 1-ci rus inqilabından sonra Cənubi Qafqaz da daxil olmaqla Rusiya imperiyasının milli ucqarlarında ictimai-siyasi proseslərin təhlilinə, milli şüurun oyanmasına, milli mətbuatın inkişafına, ictimai təşkilatların, siyasi partiyaların yaranmasına və təşəkkülünə həsr edilmiş elmi-tədqiqat işlərində milli dövləti olmayan xalqların, o cümlədən Azərbaycan xalqının milli azadlıq, müstəqillik uğrunda mübarizəsi geniş təsvir edilmişdir.

Həmin elmi araşdırmaların başlıca nəticələrindən biri budur ki, Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizəsi, əslində, bütünlüklə XX əsrin əvvəllərinin hadisəsi sayıla bilməz. Bu mübarizənin təməli həqiqətdə ölkənin ikiyə parçalanması ilə nəticələnmiş Rusiya və İran dövlətləri arasında Gülüstan və Türkmənçay müqavilələrinin bağlanması ilə qoyulmuşdur. Sonrakı dövrdə bu mübarizə müxtəlif mərhələlərdən keçmiş, tarixi ədalətsizliyə və xalqın

hüquqlarının son həddə qədər məhdudlaşdırılmasına qarşı açıq, yaxud gizli formalarda baş verən etirazlarla ifadə edilmişdir. Rusiyanın tərkibinə daxil edilmiş Şimali Azərbaycanda çarizmə, onun «parçala və hökm sür» müstəmləkəçilik siyasətinə qarşı bu etirazlar milli ictimai fikir tariximizin yeni mərhələyə qədəm qoyduğu XIX əsrin ikinci yarısından, xüsusilə milli ədəbiyyatda tənqidi realist düşüncənin inkişafı, yeni janrların, o cümlədən dramaturgiyanın, milli teatr və milli mətbuatın yaranmasından sonra daha geniş və məzmunlu xarakter almağa başlamışdır.

Ümumiyyətlə, çar Rusiyasının tərkibində muxtariyyət hüquqları belə tanınmayan, müxtəlif ərazi idarəetmə vahidlərinin daxilində idarə olunan Şimali Azərbaycanın tarixi əraziləri, mərhələ-mərhələ onun tərkibindən çıxarılmışdır. Eyni siyasət Azərbaycanın cənubunda da aparılmış, nəticədə Azərbaycan 20-ci əsrin əvvəllərinə qədər artıq xeyli ərazi itkisinə məruz qoyulmuşdur.

Türkmənçay müqaviləsindən başlayaraq Azərbaycan torpaqlarında ermənilərin yerləşdirilməsini məqsədyönlü şəkildə həyata keçirən çar Rusiyası sonradan həmin ərazilərdə Ermənistan dövləti yaradılmasına zəmin hazırlayırdı. Türkmənçay müqaviləsinin 3-cü maddəsinə görə, İran tərəfi Arazın hər iki tərəfindəki ərazilər üzrə İrəvan və Naxçıvan xanlıqlarını Rusiya imperiyasının tam mülkiyyətinə güzəştə gedirdi. Göründüyü kimi, İrəvan xanlığı həmin dövrə qədər İran daxilində xanlıq kimi mövcud olmuş, Azərbaycanın ayrılmaz tərkib hissəsini təşkil etmişdir. Azərbaycanda ilk müstəqil respublika qurulanda artıq İrəvan xanlığı bütünlüklə, Naxçıvan xanlığının isə bir sıra əraziləri ermənilərə hədiyyə edilmişdi. Bundan sui-istifadə edən ermənilər həmin dövrdə

digər əraziləri də öz dövlətlərinə daxil etməyə çalışmış və bəzi hallarda buna müvəffəq olmuşdular.

Azərbaycan xalqının müstəqilliyə nail olmaq uğrunda apardığı mübarizə XX əsrin əvvəllərində bütün sahələrdə – siyasi, ictimai, iqtsadi, sosial və mədəni sahələrdə daha məqsədyönlü xarakter almağa başladı. Bu isə cəmiyyətin müxtəlif təbəqələrinin, xüsusən də ziyalıların baş verən proseslərdə iştirakını sürətləndirməklə, onların böyük bir hissəsinin yetkin siyasi dünyagörüşə yiyələnməsinə, daha fəal insanların xalqın azadlığı uğrunda mübarizəyə qoşulmasına səbəb olmuşdur.

Görkəmli dövlət xadimi Ə.M.Topçubaşov Azərbaycan türklərinin rus idarəsi altında olduqları zaman belə ictimai-siyasi proseslərdən kənarda qalmadıqlarını, Rusiyanın müxtəlif xalqlarının nümayəndələrinin təmsil olunduğu Dövlət Dumasında iştirak etdiklərini və burada yaradılan «müsəlman parlamento firqəsi»ndə Azərbaycandan seçilmiş deputatların fəallıq göstərdiklərini vurğulayırdı.[3]

XX əsrin əvvələrində Rusiya kimi nəhəng, çoxmillətli bir ölkədə baş qaldıran etiraz dalğasının güclü xarakter aldığı mərkəzlərdən birinin məhz Bakı olması, əslində, təsadüfi deyildi, xalqın əsasən iqtisadi hüquqları uğrunda mübarizəsinin dönməz xarakter aldığını göstərirdi. Müxtəlif siyasi cərəyanların açıq və gizli fəaliyyət meydanına çevrilməkdə olan sənaye Bakısında iqtisadi tələblərlə aparılan mübarizənin çox qısa müddətdə siyasi tələblərə keçə biləcəyi ehtimalları Qafqaz canişinliyinin ciddi narahatlığına səbəb olmuşdu. Bu narahatlığın təməlində dayanan başlıca amillərdən biri, sözsüz ki, həmin ərazidə yaşayan müsəlman türk əhalisinin heç zaman Rusiya işğalı ilə barışmaması, öz

3 Hərbi bilik jurnalı, 1996 № 4, s. 85-86

azadlığını nə vaxtsa geri qaytaracağına bəslədiyi ümidlərlə bağlı idi. Doğrudur, yeni formalaşmaqda olan siyasi qüvvələrin böyük əksəriyyəti hələ kifayət qədər aydın siyasi mübarizə proqramına malik deyildi. Onların təmsil olunduqları siyasi dərnək və təşkilatların mübarizə metodları və məqsədləri müxtəlif idi. Ancaq bir həqiqət artıq yəqinləşməkdə idi: çarizmin öz müdafiəsi üçün təşkilatlandırdığı qüvvələr istisna edilməklə, mübarizəyə qoşulmuş bütün milli qüvvələr çar üsul-idarəsinin Rusiyanı xalqlar həbsxanasına çevirdiyini artıq 1-ci rus inqilabı dövründən etibarən qəbul edirdi. Rusiyanın hər vasitə ilə qoruyub saxlamağa çalışdığı mövcud vəziyyət uzun müddət davam edə bilməzdi. M.B.Məmmədzadə həmin qüvvələri mürtəce mühafizəkarlar, millətçi liberallar və inqilabçı millətçilər olmaq üzrə üç ictimai məzhəb və üç ictimai qüvvəyə bölürdü.[4]

Digər tərəfdən, bu dövrdə Bakıda «Rusiya Müsəlmanları İttifaqı», «Hümmət», Gəncədə «Difai» kimi təşkilatların fəaliyyət göstərməsi, gələcəkdə azadlıq və müstəqillik uğrunda siyasi mübarizənin aparıcı qüvvələri olacaq yeni liderlərin meydana çıxması, yeni təmayüllərin yaranması çarizmə qarşı mübarizənin geniş xarakter alaraq, artıq pərakəndəlikdən siyasi cəhətdən təşkilatlanmış formaya keçdiyini göstərirdi. 1911-ci ilin oktyabrında "Müsəlman demokratik müsavat partiyası"nın, onunla təqribən eyni vaxtda digər siyasi partiya və təşkilatların yaranması, Gəncədə milli qüvvələrin fəallaşması xalqın öz məqsədləri uğrunda mübarizədə daha geniş miqyasda təşkilatlanması cəhdləri sayıla bilərdi.

M.Ə.Rəsulzadə «Milli Azərbaycan hərəkatının xarakteri» əsərində iki tarixi hadisənin Rusiya müsəlmanlarının siyasi

4 Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, Bakı, 1992, 246 (1) s., s. 36

həyatındakı inkişafın iki mühüm mərhələsini təşkil etdyini göstərirdi: 1905-ci ildə Nijni-Novqorod şəhərində toplanan Müsəlman konfransı ilə 1917-ci ilin Moskva konfransı. Bu iki konfransda rusiyalı müsəlmanların siyasi istəkləri ifadə olunmuşdur. Birinci konfransda taktika etibarılə rus liberalizminin təsiri altında siyasətin milli kültür, mədəni və hüquqi haqlara nail olmaq, Moskva konfransında isə Rusiyanın milli ərazi muxtariyyətlərinə parçalanması tələbi dayanırdı. Hər iki konfransda siyasi qərarın formulunu Azərbaycan nümayəndələri vermişdilər.[5]

1917-ci il fevral inqilabından sonra yerlərdə milli mübarizə daha da genişlənmiş və Cənubi Qafqaz xalqları, o cümlədən azərbaycanlılar xüsusi fəallıq göstərməyə başlamışdılar. Yaranmış tarixi şəraitin irəli sürdüyü yeni şərtlər daxilində bu xalqlar da özlərinin idarəetmə formalarını müəyyənləşdirmək barədə düşünərək bu istiqamətdə müəyyən addımlar atmağa başlamışdılar. Belə bir vaxtda N.Yusifbəylinin rəhbərliyi altında Gəncədə "Türk ədəmi-mərkəziyyət» partiyası yaradıldı. İlk vaxtlar federativ şəkildə qurulacaq Rusiyanın tərkibində Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizə aparan bu partiya çarizmin milli ucqar sayaraq yüz ildən bəri əsarət altında saxladığı bir ölkədə onun qurtuluşu naminə çarpışmağa qadir insanların olduğunu göstərmişdi.

Professor Anar İsgəndərov yazır: "Fevral inqilabından sonra açıq fəaliyyətə keçmiş Müsavat Partiyası Azərbaycanda siyasi qüvvələr arasında daha çox diqqət çəkirdi. Müsavat Partiyası federativ Rusiyanın tərkibində Azərbaycana milli-ərazi muxtariyyəti və 20 yaşına çatmış azərbaycanlı

5 Rəsulzadə M.Ə. Milli Azərbaycan hərəkatının xarakteri, «Azərbaycan yurd bilgisi» jurnalı, 1934, №24, s.164-165

vətəndaşlara seçki hüququ verilməsi ideyasını irəli sürürdü. Gəncədə N.Yusifbəylinin başçılıq etdiyi Türk Ədəmi-Mərkəziyyət Partiyası, Əlimərdan bəy Topçubaşovun və Fətəli xan Xoyskinin başçılıq etdikləri Müstəqil Demokratik qrup, RSDFP-nin yerli təşkilatı - "Hümmət", Gəncədəki İttihadi-İslam Partiyası ilə Bakıdakı Rusiya Müsəlman Partiyasının qalıqlarından yaranmış "İttihad" Partiyası fəaliyyətini genişləndirir. N.Yusifbəylinin rəhbərlik etdiyi partiya Rusiya dövlətinin muxtar ərazilərin federasiyasına çevrilməsi ideyası ilə çıxış edirdi".[6]

Çar üsul-idarəsinin dağılması nəticəsində ölkədə hakimiyyət yeni yaradılmış müvəqqəti hökumətə keçmişdi. Yerlərdə mərkəzi hakimiyyətin təsirinin hiss edilmədiyi bir vaxtda Dövlət Dumasının Cənubi Qafqazdan olan deputatlarının təşəbbüsü və müvəqqəti hökumətin qərarı ilə bu bölgəni idarə etmək üçün deputatların üzvlüyü ilə Xüsusi Zaqafqaziya Komitəsi yaradılmışdı. Cənubi Qafqaz xalqlarının milli mənafelərinə uyğun olan bu Komitə müvəqqəti hökumətə bağlı olsa da, yaranmış vəziyyətdə yerli idarəçilik məsələlərində müstəqil addımlar ata bilirdi.

Qeyri-sabit şəraitdə Cənubi Qafqazın digər xalqları kimi Azərbaycan xalqı da gələcəyinin müəyyənləşdirilməsi qayğısına qalmaq məcburiyyətində idi. Bu niyyətlə milli burjua nümayəndələrinin və müxtəlif siyasi cərəyanları təmsil edən nüfuzlu şəxslərin iştirakı ilə 1917-ci il martın 16-da Bakıda keçirilən iclasda Milli Büronun seçilməsi məsələsi müzakirə edildi. Bəzi nümayəndələr bu təklifin, ümumiyyətlə, milli zəmində hansısa təşkilatın yaranmasının əleyhinə çıxdılar. Ancaq uzun sürən müzakirələrin gedişində 1917-ci il mart

6 İsgəndərov A. Müsəlman Şərqində ilk demokratik dövlət - Azərbaycan Xalq Cümhuriyyəti, "Azərbaycan" qəzeti, 2018-ci il, 22 may

ayının 29-da Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin seçilməsi mümkün oldu. Bu qurumun başlıca məqsədi Azərbaycanda milli qüvvələrin birliyinə nail olmaq idi. Komitənin bütün müsəlmanlara müraciətində əldə edilmiş azadlığı qorumaq və ondan məqsədəuyğun surətdə istifadə etmək ideyası öz əksini tapmışdı.

Müvəqqəti İcraiyyə Komitəsinin rəhbərliyinə ziyalılardan Ə.M.Topçubaşov, M.H.Hacınski, M.Ə.Rəsulzadə, F.X.Xoyski, neft sənayeçilərindən H.Z.Tağıyev, Ə.Ş.Əmircanov, Ş.Əsədullayev və başqaları daxil edilmişdilər. Komitənin sədri Məmməd Həsən Hacınski, sədr müavini Məhəmməd Əmin Rəsulzadə seçilmişdi.

Bundan sonra yerlərdə milli komitələrin yaranması prosesi sürətləndi və təşkilatlanma ilə yanaşı, xalqın maariflənməsi istiqamətində də xeyli işlərin görülməsi mümkün oldu. Gəncə, Şuşa, Şamaxı, Şəki, Lənkəran, Quba, Naxçıvan və başqa yerlərdə milli komitələr yaradılmışdı. Bütün bunlar xalq arasında Müvəqqəti İcraiyyə Komitəsinin nüfuzunu artırırdı. 1917-ci il mayın 21-də ərzaq komitələrinə keçirilən seçkilər bunun əyani nümayişi oldu. Həmin seçkilərdə Bakı şəhərinin azərbaycanlı əhalisinin, demək olar ki, hamısı yekdilliklə, ümumi seçicilərin isə 51,6 faizi Komitənin siyahısına səs vermişdi. Bakıdakı uğur rəqibləri, xüsusilə ermənilərin daha çox təmsil olunduqları sol təmayüllü siyasi birlikləri təşvişə salmışdı.

Millətin gələcəyini «ittihad və təşkilat yolu» ilə bağlayan Komitənin qarşısına qoyduğu ən yaxın vəzifələrdən biri, özünün proqram məqsədlərini müəyyən etmək üçün ümummüsəlman qurultayını çağırmaq idi.[7]

7 İbrahimova A.Z. Azərbaycan Böyük Oktyabr sosialist inqilabının hazırlanması dövründə. Mart – oktyabr 1917-ci il. B., ADU, 1988, s.80

1917-ci il aprelin 15-20-də Bakıda Ə.M.Topçubaşovun sədrliyi ilə Azərbaycan, Gürcüstan və Şimali Qafqazda yaşayan türk-müsəlman əhalisinin müxtəlif ictimai təşkilatlarını təmsil edən təxminən 300 nümayəndənin iştirak ilə Müsəlmanların birinci ümumqafqaz qurultayı keçirildi. Müvəqqəti hökumətə və müharibə məsələsinə münasibət bildirilən qurultayda Qafqazda müsəlman milli komitələrinin və onların rəhbər orqanlarının təşkili haqqında qərar qəbul edildi. Bu qərarın icrasının həvalə olunduğu Bakı Müsəlman İctimai Təşkilatları Komitəsi Bakı Müsəlman İctimai Təşkilatları Şurasına çevrildi. 33 nəfər üzvdən ibarət olan Şuranın tərkibinə müxtəlif müsəlman milli partiyalarının, ictimai-siyasi təşkilatların, mədəni-maarif müəssisələrinin və həmkarlar ittifaqlarının üzvləri daxil edildi. Şurada siyasi partiyaların hər birinin (hümmətçilər istisna edilməklə) üç, həmkarlar ittifaqlarının, mədəni-maarif və xeyriyyə cəmiyyətlərinin hər birinin iki, rayon komitələrinin bir nümayəndəsi vardı. Şəhər və kənd kooperativlərinin, neft sənayeçilərinin, tacirlərin, ziyalıların, tələbələrin, ruhanilərin, Bakı qarnizonu müsəlman əsgərlərinin təmsilçiləri də Şuranın tərkibinə daxil oldular. Gizli səsvermə yolu ilə Bakı Müsəlman İctimai Təşkilatları Şurasının rəhbər orqanları Komitə və İcraiyyə Bürosu seçildi. Onlardan biri Şimali Qafqaz və Dağıstanı, digəri isə Bakı mərkəz olmaqla Cənubi Qafqazı təmsil edəcəkdi.

Qarşısında Qafqaz müsəlmanlarının siyasi seçimini, fevral inqilabından nələr gözlədiklərini ortaya çıxarmaq kimi mühüm vəzifə duran qurultay ilk dəfə olaraq Azərbaycanın siyasi şəklinin təyini məsələsini də müzakirə etmişdi. Qızğın müzakirələrdən sonra müsəlman millətlərinin mənafelərinə ən uyğun idarə tərzinin Rusiyada coğrafi muxtariyyət (federativ-ərazi prinsipi) əsasında təşkilatlanmış demokratik

bir cümhuriyyətin yaradılması olduğu barədə qərar qəbul olunmuşdu ki, bu da o dövr üçün irəliyə doğru çox mühüm addım sayıla bilərdi.[8]

Qafqaz müsəlmanlarının qurultayında Rusiyanın tərkibində Azərbaycana muxtariyyət verilməsini qəti şəkildə tələb edənlər həmin vaxtdan etibarən digər qüvvələrdən kəskin şəkildə ayrılmış durumda idilər. Müsəlmanların ümumqafqaz qurultayı Rusiya müsəlmanlarının siyasi həyatında mühüm rol oynadı, siyasi proseslərin həmin mərhələsində onların mənafelərini ifadə edərək, Rusiya müsəlmanları milli hərəkatının gücləndirilməsi yollarını, demokratik respublika prinsplərinə söykənən dövlət quruluşu seçimini müəyyənləşdirdi.[9]

Muxtariyyətlə bağlı Y.V.Çəmənzəminli yazırdı: "Biz, Azərbaycan türkləri, bir millətdən ibarət olub, geniş bir torpağa malik olduğumuz üçün muxtariyyət binası qurmaq istəyirik. Ölkəmizin sərhədi Dərbənd şəhərindən tutmuş Osmanlı məmləkətinə qədər və Batumdan tutmuş Xəzər (Kaspi) dənizinin qiblə tərəfinədəkdir. Paytaxtımız Bakı şəhəri olacaq. Çünki, bu şəhər bizə həmişə yol göstərib və bizə kömək əli uzadıb".[10]

Qurultayın bütövlükdə Qafqaz müsəlmanları, xüsusilə, Azərbaycan üçün çox böyük əhəmiyyəti vardı. Çünki ona qədər Bakıda yaradılan idarəetmə orqanlarının, təşkilatların, cəmiyyətlərin, demək olar böyük əksəriyyətinə ya rus, ya da erməni nümayəndələri rəhbərlik edirdilər. Azərbaycanlıların

8 МИА АН Азербайджанский научный архив,
инвентар № 2143. с. 14
9 Azərbaycan tarixi 7 cilddə, 5-ci cild, B., Elm, 2001, s. 276
10 Çəm ənzəminli Y.V. Müstəqilliyimizi istəyiriksə.
B., Gənclik,1994, s. 28

mənafeyini müdafiə edən təşkilatlar isə Müsavat Partiyası və Müsəlman Milli Şurası idi.

1917-ci il mayın 1-11-də Moskvada keçirilən Ümumrusiya müsəlmanlarının birinci qurultayı əsasən Rusiyanın hansı idarəçilik formasına malik olacağı məsələsinə həsr olunmuşdu. Qurultayda, – "Rusiya daxilində millətlərə ərazi-milli muxtariyyəti" şüarı demokratik qüvvələr tərəfindən müdafiə edildi. Qurultay eyni zamanda, Müəssislər Məclisinə seçkilərdə «Müsəlman Demokratik Cəbhəsi» yaratmağı qərara aldı və müstəqil müsəlman idarələri təşkil edilənə qədər işləri tənzimləyəcək Mərkəzi Şura yaratdı. Qurultayda türk-müsəlman əhalinin təhlükəsizliyinin qorunması üçün "Hərbi qurumlar haqqında" qətnamə də qəbul edildi. Qurultayın qərarı ilə müsəlman əsgər və zabitlərdən ibarət hərbi hissələrin təşkili general-leytenant Masey bəy Sulkeviçə həvalə olunmuşdu.

1917-ci il iyulun 12-də Müsəlman Milli Komitəsinin sədri Ə.M.Topçubaşov, onun müavinləri M.H.Hacınski və M.Ə.Rəsulzadə, katibi M.M.Vəzirov seçildilər. Milli Komitənin sədri Ə.M.Topçubaşov 1917-ci il avqustun 12-də Moskvada Kerenskinin sədrliyi ilə Müvəqqəti hökumətin ümumrusiya müşavirəsində Rusiya müsəlmanları adından çıxış etmiş, həmin mərhələdə Rusiya müsəlmanlarının milli-mədəni muxtariyyət məsələsini, Müəssislər Məclisi toplaşandan sonra isə müsəlman xalqlarının öz müqəddəratını təyin etməsi haqqında məsələ qaldıracaqlarını bildirmişdi. Bu bəyanatlar təsadüfi səsləndirilmirdi, çünki başlıca məsələ Azərbaycanın gələcək quruluşu məsələsi idi. Azərbaycan nümayəndələri Müəssislər Məclisinə daxil olmaq fikrində idilər. Müsəlman Komitəsi aprel ayındakı birinci müraciətində "müsəlmanlar üçün dövlət idarəetmə formasının demokratik respublika quruluşu olduğunu bildirmiş, bütün müsəlmanları Milli-Siyasi

Şura ətrafında birləşməyə və Müvəqqəti hökuməti müdafiə etməyə çağırmışdı".[11]

Yeri gəlmişkən, Bakıda fəaliyyət göstərən Müsəlman Milli Şurası Cənubi Qafqaz milli şuraları içərisində ən nüfuzlusu idi.

1917-ci il oktyabrın 26–31-də Bakıda "Müsəlman demokratik müsavat» partiyası ilə "Türk ədəmi-mərkəziyyət» partiyasının birləşərək yaratdıqları "Müsavat" partiyasının birinci qurultayından sonra "Azərbaycana muxtariyyət" şüarı altında hərəkat daha da genişləndi və tezliklə gələcək müstəqil ölkənin hər yerindən ona tərəfdarlar çıxdı. «Beləliklə, fevral inqilabının qələbəsindən sonra Azərbaycanda, hər şeydən əvvəl, milli hərəkatın daha kütləvi və siyasi səciyyə alması, konkret iqtisadi tələblər irəli sürülməsi, milli dövlətçilik ideyası ətrafında əhalinin bütün təbəqələrinin birləşməsi kimi cəhətləri ilə fərqlənən tamamilə yeni mərhələ başlandı».[12]

Bu dövrdə Azərbaycanda milli silahlı qüvvələrin yaradılması istiqamətində hələ konkret addımlar atılmasa da, Rusiyanın Birinci dünya müharibəsindən çıxması ilə əlaqədar Qafqaz cəbhəsinin dağılmağa başlaması həmin qüvvələrin təşkli məsələsini aktuallaşdırmışdı. Rusiyanın imperiya ordusunda xidmət edən əksər Azərbaycan zabitləri də hərbi xidməti davam etdirmək, yaxud artıq başıpozuq qüvvəyə çevrilməkdə olan həmin ordudan tərxis olunmaq dilemması qarşısında qalmışdılar. Kimlər üçünsə bu seçim cəmi bir neçə həftə, kimlər üçünsə bir neçə ay çəksə də, onların əksəriyyətini eyni məqsəd birləşdirirdi - Azərbaycana qayıtmaq, vətənin müdafiəsi naminə yaradılması zəruri olan hərbi qüvvələrin təşklində peşəkar kimi yaxından iştirak etmək. General-

11 Газ. Каспий, Баку:1917, 31 марта
12 Azərbaycan tarixi 7 cilddə, 5-ci cild, Bakı, Elm, 2001, s. 286

leytenant Əliağa Şıxlinski, general-mayor Xəlil bəy Talışinski, polkovniklər Süleyman bəy Əfəndiyev, Əmənulla Mirzə Qacar, Həbib bəy Səlimov və başqaları bu vətənpərvər insanların ilk sıralarında dayanırdılar. Əlbəttə, istənilən silahlı qüvvənin təşkili hər şeydən əvvəl, xalqın siyasi iradəsi və geniş dəstəyi olmadan mümkün deyil. Azərbaycan xalqı özünün qabaqcıl siyasət adamlarının timsalında bu iradəni artıq qəti şəkildə ortaya qoymağı bacarmış və onun reallaşdırılması məqsədi ilə tədbirlər görmək üçün hazır olduğunu nümayiş etdirmişdi. İndi sıra xalqın iradəsinə və köməyinə arxalanaraq onun müdafiəsi üçün zəruri olan silahlı qüvvələrin yaradılması istiqamətində addımlar atmağa qadir peşəkar hərbçi kadrlara çatmışdı.

Azərbaycanın ilk müstəqil təhlükəsizlik orqanı – Əksinqiab ilə mübarizə Təşkilatının rəisi Nağı Şeyxzamanlı "Azərbaycan istiqlal mücadiləsi xatirələri" adlı əsərində yazırdı: "1906-cı ildə deputatlarımız azərbaycanlılardan da rus ordusuna əsgər alınması üçün bir təklif vermişdilər. Çar idarəsi isə bizlərə etimad etmədikləri üçün bu təklif rədd edildi. Şübhəsiz ki, bu təklif qəbul olunsaydı, azərbaycanlılar da digərləri kimi hərbi təlim və tərbiyə görmüş olacaq, hərbi bir kadr yetişdiriləcək və lazım olduqda mühüm rol oynamış olacaq idi. Məsələn, hadisələrin gedişində Bakıda milli hakimiyyət dərhal qurula biləcək idi və cümhuriyyəti elanımız bir il gecikməyəcək idi".[13]

Bütün bunlar göstərir ki, Azərbaycanda milli silahlı qüvvələrin yaradılması tarixi–siyasi proseslərin nəticəsi olmaqla, xalqın müstəqil dövlət quraraq müqəddaratını təyin etməsi və öznümüdafiə hüququnu reallaşdırması zərurətindən irəli gəlmişdir.

13 Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri" "Azərbaycan" nəşriyyatı, B., 1997. s.10

Mövzunun tarixşünaslıq baxımından işlənməsinə gəlincə, Cümhuriyyət dövründə ordu quruculuğu, onun müxtəlif istiqamətləri, ölkənin müdafiəsinin təşkili və s. aspektlərin əksini tapdığı elmi əsərlər, (o cümlədən monoqrafiyalar və dissertasiyalar) geniş sayda olmasa da, mövzu əsasən işlənmişdir. Əlbəttə, bu sırada Azərbaycan MEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu tərəfindən hazırlanaraq müxtəlif illərdə çap olunmuş "Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar, 1918-1920-ci illər" (1998), "Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti 1918–1920" (1990), "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası", 1-ci və 2-ci cildlər (2004-2005), 7 cildlik "Azərbaycan tarixi"nin, 5-ci cildi (2001), Азербайджанская Демократическая Республика, (Отв. редактор Агамалыева Н), (1998), Азербайджанская Демократическая Республика (1918-1920), Армия, (1998), Азербайджанская Демократическая Республика (1918-1920) Внешняя политика, (1998), Азербайджанская Демократическая Республика (1918-1920) Законодательные акты, (1998), Азербайджанская Республика. Документы и материалы 1918-1920 гг. (под ред. Дж.Б.Кулиева), (1998) və s. xüsusi qeyd olunmalıdır. Bu kitab və ensiklopedik nəşrlərdə mövzunun əsas istiqamətləri qısa formada olsa da işlənmiş, ordu quruculuğu prosesi təhlil obyektinə çevrilmişdir. Ancaq obyektivlik naminə o da qeyd edilməlidir ki, bu nəşrlərdə tədqiqat obyekti kimi Cümhuriyyət dövrü tam götürüldüyündən dövlət quruculuğunun ayrı-ayrı istiqamətləri, o cümlədən ordu quruculuğu barəsində ümumi şəkildə bəhs olunmuş, onun ətraflı təhlili verilməmişdir. Əslində, prosesin konkret mərhələləri ilə bağlı tədqiqatın aparılması məqsəd kimi qarşıya qoyulmamışdır.

Ayrı-ayrı müəlliflərə gəlincə, onlar arasında birbaşa mövzunun tədqiqi istiqamətində monoqrafiya və digər elmi əsərlər yazanlar da, mövzuya Cümhuriyyət dövrünün və hadisələrinin təhlili, hökumətin, parlamentin, yaxud digər dövlət orqanlarının fəaliyyətinin işlənməsi kontekstində yanaşanlar da vardır. Bu müəlliflər arasında tarix elmləri doktoru M.Süleymanovun "Azərbaycan Ordusu (1918-1920)" (1998), "Qafqaz İslam Ordusu" (1999), "Mehmandarov" (2000), professor A.İsgəndərovun "Azərbaycan Xalq Cümhuriyyəti" (2003), "Azərbaycan həqiqətləri: 1917-1920"(2012), professor N.Yaqublunun "Bakının qurtuluşu" (2008), "Türkiyənin azərbaycanlılara müstəqillik mücadiləsində dəstəyi" (2009), tarix üzrə fəlsəfə doktorları H.Osmanlının "Şimal sərhədləri və Bakı rayonunun müdafiəsi tarixindən" (1999), L.Şüküroğlunun "Azərbaycanın sərhəd mühafizəsi tarixindən (1918–1920-ci illər), (1999), A.Aşırlının "Cümhuriyyət dövrü mətbuatında Qafqaz İslam Ordusu" (2007), «Cümhuriyyət dövründə səfərbərlik və hərbi çağırış» (2018) monoqrafiya və kitablarını, professor A.İsgəndərovun, professor B.Əhmədovun, filologiya elmləri doktoru V.Quliyevin, tarix elmləri doktorları P.Darabadinin, N.Əliyevin, polşalı alim T.Svyatixovskinin, tarix üzrə fəlsəfə doktorları N.Maksvelin, N.Məmmədzadənin, K.İsmayılovun, V.Qafarovun, H.Nərimanoğlunun, mərhum tədqiqatçı M.Əliyevin və başqalarının məqalələrini göstərmək olar. Ancaq M.Süleymanovun "Azərbaycan Ordusu (1918-1920)" monoqrafiyası istisna edilməklə həmin tədqiqatlarda mövzu birbaşa deyil, əsasən digər problem və məsələlərin kontekstində işlənmiş, ordu quruculuğunun konkret istiqamətləri və mərhələləri tam şəkildə tədqiqat obyektinə çevrilməmişdir. M.Süleymanovun monoqrafiyasının çapından ötən 20 ildə isə xeyli arxiv sənədi və digər faktoloji material

elmi dövriyyəyə daxil olduğuna görə, mövzunun daha konkret və ətraflı işlənməsinə ehtiyac yaranmışdır. Şübhəsiz, alim və tədqiqatçılarımız bundan sonra da öz sözlərini deyəcək, daha sanballı elmi tədqiqat əsərlərinin meydana çıxmasına nail olacaqlar.

Mövzu ilə bağlı xeyli publisistik və memuar xarakterli əsərlər də yazılmışdır. Bunlardan Ş.Nəzirlinin "Azərbaycan generalları", 1991, "Cümhuriyyət generalları" (1995), "Tam artilleriya generalı Səməd bəy Mehmandarov" (1997), "General Yadigarov qardaşları" (2004), "1920-ci ildə Qarabağ döyüşləri" (2009), L.Şüküroğlunun "Cümhuriyyət hökuməti repressiya məngənəsində", 2 cilddə, (2000) və s. kitabları qeyd etmək olar. Bu kitablarda Cümhuriyyət dövründə ordu quruculuğu prosesi və silahlı qüvvələrimizin tarixi əsasən Azərbaycanın ayrı-ayrı hərbi xadimlərinin fəaliyyəti kontekstində araşdırılmışdır. Tədqiqatlara müxtəlif arxivlərdən və digər mənbələrdən əldə olunmuş çoxsaylı faktların və geniş məlumatların cəlb edilməsinə baxmayaraq, onlar qeyd edilən mövzunun işlənməsi məqsədilə sistemləşdirilməmiş, bu iş məqalə və oçerk şəklində olan hər bir materialın tərkibində ayrılıqda görülmüşdür. Əlbəttə, bu yanaşma həmin əsərlərin dəyərini qətiyyən azaltmır. Əksinə, müəlliflərin seçdikləri forma qarşıya qoyulmuş məqsədə tam uyğun olmaqla, Cümhuriyyət ordusunun qurulmasında müstəsna xidmətlər göstərmiş hərbçi xadimlərimizin xalqa daha yaxından tanıdılmasına imkan verir.

Mövzu ilə bağlı üçüncü qrup tədqiqat işləri memuar şəklində dərc olunmuş kitab və məqalələrdir. Tədqiqatlar və əldə olan materiallar göstərir ki, Cümhuriyyət hərbçiləri arasında çox məhdud sayda şəxs memuar yaradıcılığı ilə məşğul olmuşdur. Bunun başlıca səbəbi bir çox müəlliflərin

də haqlı olaraq qeyd etdikləri kimi Cümhuriyyət ordusu zabitlərinin əksəriyyətinin bolşevik terroruna məruz qalması ilə əlaqədardır. Xilas üçün başqa ölkələrə mühacirət etmək məcburiyyətində qalan hərbçilərin də çoxu bu və digər səbəbdən memuar yazmaqla məşğul olmamışdır. Öz xatirələrini qələmə almış az bir qism olmuşdur ki, bu gün hərb tariximizin bəzi qaranlıq məqamlarına həm də onların yazdıqları əsasında işıq tuturuq. Memuarlar arasında Ə.Şıxlınskinin "Xatirələrim" (1984, Azərnəşr) əsəri xüsusilə seçilir. Çünki, bu əsərdə Cümhuriyyətdən əvvəlki dövrdə, Cümhuriyyət dövründə və ondan sonrakı illərdə Azərbaycanda ordu quruculuğu, hərbi sahədə baş verən hadisələr peşəkarlıqla qələmə alınmışdır. Digər müəlliflər arasında Gəncə üsyanının rəhbərlərindən, polkovnik Cahangir bəy Kazımbəyovun, polkovnik İsrafil bəy İsrafilovun, Cümhuriyyətin süqutu ərəfəsində Azərbaycan hərbi məktəbini yenicə bitirərək Türkiyəyə mühacirət etmiş gənc zabit Əjdər Qurtulanın, Müsəlman korpusunun süvari divizionunda xidmət etmiş Mirəziz Seyidlinin (könüllü) adlarını qeyd etmək olar. Türkiyədə və digər ölkələrdə bizə məlum olmayan dərgilərdə, başqa mətbuat orqanlarında memuar xarakterli yazıların çap edildiyini, hansısa arxiv sənədlərinin arasında qeydlərin saxlandığını də istisna etmək olmaz.Həmin memuar xarakterli əsərlərin ən mühüm cəhəti onların Cümhuriyyət dövründə və ondan əvvəlki mərhələdə ordu quruculuğu prosesində birbaşa iştirak etmiş şəxslər tərəfindən qələmə alınmasıdır. Bəzi yazılarda hansısa səbəbdən göstərilən istiqamətdə Azərbaycanda 1917-1920-ci illərdə atılmış addımlar barədə faktlar arxiv materialları ilə üst-üstə düşməsə, hətta müəyyən şübhə doğursa belə onların qiyməti qətiyyən azalmır, çünki müəlliflər ordu quruculuğu prosesinin canlı şahidləridir.

I. fəsil. Cümhuriyyətin yaranması ərəfəsində və dövlət quruculuğunun ilk aylarında Azərbaycanda silahlı qüvvələrin təşkili

1.1Azərbaycan silahlı qüvvələrinin yaradılması istiqamətində ilk addımlar

Tarixi həqiqətdir ki, çar Rusiyasının tərkibinə birləşdirildikdən sonra azərbaycanlılar məqsədli şəkildə hərbi xidmətə çağrılmırdılar. Hərbi mükəlləfiyyətdən kənarda saxlanıldığından Azərbaycanda ordu yaradılması, hərbi sahənin inkişafı üçün vacib olan bir sıra məsələlərin həllində ciddi problemlər vardı.

Cümhuriyyət Ordusunun zabiti olmuş, İsrafil bəy Yadigarov (İsrafilbəyli) mühacirət zamanı qələmə aldığı, "Горцы Кафказа" jurnalının 1932-ci il 31-ci nömrəsində dərc etdirdiyi xatirələrində yazırdı: "Məlum olduğu kimi, Cənubi Qafqazın digər müsəlmanları kimi azərbaycanlılar da çarizm dövründə hərbi mükələfiyyət hüququna malik deyildilər. Bunun müqabilində isə xəzinəyə xüsusi vergi ödəyirdilər. Dövlət Dumasındakı təmsilçilərimizin hərbi mükəlləfiyyət hüququnun azərbaycanlılara da şamil edilməsi ilə bağlı dönə-dönə səsləndirilən çağırış və müraciətlərinə baxmayaraq, rus hökuməti bu tələbimizi daim cavabsız buraxırdı. Heç şübhəsiz, belə münasibətin səbəbi bizim coğrafi vəziyyətimiz - qardaş

türk dövləti ilə sərhəddə yaşamağımız idi. Birinci Dünya müharibəsinə qədər vəziyyət bu qayda ilə davam etdi".[14]

Bu vəziyyəti düzgün qiymətləndirən Azərbaycanın siyasi xadimləri Fevral inqilabından sonra Rusiyanın Müvəqqəti hökumətinə müraciət edərək milli ordunun yaradılmasına icazə istəmişdilər. Lakin bu müraciətə cavab verilməmişdi. Həmin problemlər arasında silah-sursat, hərbi ləvazimat çatışmazlığını, peşəkar hərbçi kadrların son dərəcədə az olmasını xüsusi qeyd etmək olar. Hərbçi kadrlar baxımından mövcud potensiala gəlincə, bu sahədə çalışan azsaylı peşəkar kadrların əsas hissəsi bu işi könüllü şəkildə seçənlərdən ibarət idi. Həmin kadrların yetişməsinə, Rusiyanın iştirak etdiyi müharibələr də müəyyən təsir göstərmişdi. Belə ki, Birinci dünya müharibəsi illərində cəbhənin müxtəlif ərazilərində xidmət edən yüksək rütbəli azərbaycanlı zabitlərlə yanaşı, azərbaycanlı gənclərdən təşkil edilmiş «Tatar süvari alayı»ı da döyüşlərdə iştirak etmişdi. Alay Qafqaz xalqlarının nümayəndələrindən ibarət böyük knyaz Mixail Aleksandroviçin komandanlıq etdiyi Qafqaz yerli diviziyasının tərkibinə daxil idi. 6 alaydan ibarət olan bu diviziyanın təqribən beşdə bir hissəsi azərbaycanlılardan, qalanları isə Qafqazın müxtəlif müsəlman xalqlarının nümayəndələrindən təşkil olunmuşdu. Müharibə cəbhələrində heyrətamiz igidliklər göstərən, qorxmazlığı, cəsarəti ilə fərqlənən döyüşçülərin vuruşduğu həmin diviziyanı rus şovinistlər həqarətlə «dikiyaya diviziya» (vəhşi diviziya) adlandırırdılar. Müharibənin gedişində formalaşdırılan bu hərbi birləşmə çarlıq rejimi dövründə Azərbaycanda hərbi qüvvələrin təşkili istiqamətində ilk addım sayıla bilər.

14 "Горцы Кафказа", 1932, № 31, s.13-18

Ancaq azərbaycanlılar Birinci dünya müharibəsi cəbhələrində təkcə bu diviziyanın tərkibində xidmət etmirdilər. Hələ rus-yapon müharibəsi dövründə və ondan əvvəl hərbçi bacarığı və döyüş ustalığı ilə şöhrət qazanmış yüksək rütbəli azərbaycanlıların əksəriyyəti tamam başqa qoşun birliklərinin tərkibində xidmət edirdilər. Onlar arasında artıq qoşun, diviziya komandanı, qərargah rəisləri olanlar, hərbi birliklərin tərkibində başqa yüksək vəzifə tutanlar var idi. «Tatar süvari alayı»ının fərqləndirici cəhəti isə onun şəxsi heyətinin mütləq əksəriyyətinin məhz azərbaycanlılardan, tərkibində olduğu diviziyanın isə müsəlmanlardan ibarət olması ilə bağlıydı. Bu isə Azərbaycana gələcək silahlı qüvvələrin formalaşdırılması sahəsində müəyyən təcrübə qazanmaq imkanı yaradırdı.

Diviziyanın dünya müharibəsinin gedişində formalaşdırılması bu imkanı daha da artırır, ona əlavə bir üstünlük qazandırırdı. Çünki onun əsgər və zabitləri sadəcə hərbi xidmət yolu keçmir, bu sahənin cətinliklərini qanlı döyüşlərin gedişində öyrənir, hərbi işin incəliklərini mənimsəyirdilər.

Nağı bəy Şeyxzamanlı "Azərbaycan istiqlal mücadiləsi xatirələri" əsərində diviziyanın tərkibində şərəfli döyüş yolu keçmiş azərbaycanlılardan ibarət alayın vətənə geri döndükdən sonra Gəncədə baş tutmuş görüşü barədə yazır: "2 ay keçmədən bir hərbi qüvvə halına gələn "Difai" təşkilatının köməyi ilə Gəncə Milli Komitəsi rusların 218-ci və 219-cu ehtiyat alaylarının silahlarını alaraq əsgərlərini şəhərdən dəmiryolu vasitəsilə çıxartdı... Rusların tatar alayı dedikləri Azərbaycan alayı da Cəncəyə vasil oldu. Böyük meydanda sıraya düzüldülər, ətrafa xalq toplandı... "Difai" firqəsinin adından söz mənə verildi. Mən dedim: "Əziz və qəhrəman qardaşlarım, siz könüllü yığılaraq rus ordusu ilə birlikdə

almanlarla vuruşmağa gedərkən sizdən bir heyət bizim gizli təşkilatımıza gəlmişdi. Xeyli danışdıq, mübahisə etdik. Könüllü olaraq cəbhəyə gedişinizi xalqın bəyənməməsi sizə söyləndi. Siz isə dediniz ki, müharibəyə getməkdə məqsədiniz ruslara yardım etmək deyil, sadəcə olaraq müharibə görmək və hərbi üsulları öyrənməkdir. Siz haqlı çıxdınız, göstərdiyiniz hərbi qabiliyyətinizi mətbuat yaza-yaza bitirmədi. Rus imperiyası çökdü. Rusiya anarxiya içində dağılan kimi rus ordusu da cəbhəni tərk etdi. Əsgərlər zabitlərini öldürdülər. Hərbi intizam deyilən şey qalmadı, lakin siz öz zabitləriniz ilə birlikdə milli ənənə və adətimizə sadiq qalaraq böyük bir intizam içində xalqımızın önündə durursunuz, xalqımız sizi bağrına basır ".[15]

General-leytenant Əliağa Şıxlinski «Xatirələrim» kitabında azərbaycanlıların qəhrəmanlıq səhifələrindən biri barəsində yazır: "1916-cı ilin noyabr ayında general-leytenant Huseyn xan Naxcıvanskinin komandası altında olan bizim süvarilərimiz alman suvarilərini darmadağın etmişdilər".

Ümumiyyətlə, Birinci dünya müharibəsində xidmət etdikləri müxtəlif hərbi hissələrdə döyüş əməliyyatlarında yaxından iştirak edən general-mayor Əliyarbəy Haşımbəyov, general-mayor Firudin bəy Vəzirov, polkovniklər: İbrahim ağa Usubov, Davud bəy Yadigarov, Cavad bəy Şıxlinski, Şahzadə Əmir Kazım bəy Qacar, Əmənulla xan Qacar, podpolkovniklər Şirinbəy Kəsəmənski, Rüstəm bəy Şıxlinski və başqaları azərbaycanlıların döyüş və sərkərdəlik bacarıqlarını nümayiş etdirmişdilər.

1917-ci ilin oktyabrında Petrburqda bolşeviklərin hakimiyyəti çevrilişlə ələ keçirməsindən sonra Rusiyada

15 Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri, "Azərbaycan", B., 1997. s. 26-28

vəziyyətin yenidən dəyişməsi keçmiş əyalətlərdə, o cümlədən Azərbaycanın yerləşdiyi bölgədə yeni şərait yaratmışdı. Keçmiş imperiyanın mərkəzində idarəetməni ələ keçirmiş bolşevik sovet rejimini tanımayan Xüsusi Komitənin fəaliyyəti dayandırılmışdı. Faktiki hakimiyyət boşluğuna səbəb olan bu vəziyyətdən çıxış yolu arayan Azərbaycan, gürcü və erməni nümayəndələri noyabrın 11-də Cənubi Qafqazı idarə etmək üçün Tiflisdə bolşevik hakimiyyətinə heç bir tabeçiliyi olmayan Zaqafqaziya Komissarlığının yaradılması qərarına gəldilər. Razılığa əsasən noyabrın 15-də tərkibi elan edilən yeni hökumətin sədri gürcü menşeviki Y.P.Gegeçkori oldu. "Noyabrın 26-da Müəssislər Məclisinə seçkilər keçirildi. Bu seçkilərdə gürcü menşevikləri 11, müsavatçılar 10, daşnaklar 9, müsəlman sosialist bloku 2, bolşeviklər, ittihadçılar və eserlər hərəyə 1 yer əldə etdilər. Seçkilərin gedişində aydın oldu ki, Azərbaycan əhalisinin böyük əksəriyyəti "Müsavat"ın irəli sürdüyü ərazi muxtariyyəti ideyasını müdafiə edir".[16]

Seçkilərdən sonra Cənubi Qafqazın üç iri millətini təmsil edən hakimiyyətin dayaqları bir qədər möhkəmlənsə də, özünü müstəqil hesab edən Zaqafqaziya Komissarlığının onu müdafiə edəcək ordusu yox idi və yerli strukturları formalaşmadığından idarəçilik mexanizmləri hələ işlək vəziyyətdə deyildi. Digər tərəfdən, Rusiyada yeni yaranmış hakimiyyəti tanımaması ona bolşeviklərin təzyiqlərini getdikcə artırırdı. Bu münasibətdən doğan gərginlik və hökumətin daxilində müəyyən məsələlərlə bağlı meydana çıxan fikir ayrılıqları onun fəaliyyətini çətinləşdirirdi.

Vəziyyəti sabitləşdirməyə çalışan Zaqafqaziya hökuməti 1917-ci il dekabr ayının 5-də Ərzincanda Osmanlı dövləti ilə

16 İsgəndərov A. Müsəlman Şərqində ilk demokratik dövlət - Azərbaycan Xalq Cümhuriyyəti, "Azərbaycan" qəzeti, 2018-ci il, 22 may

barışıq sazişi imzaladı. 1914-cü il oktyabrın 29-da başlayan Osmanlı - Rusiya müharibəsinin sona çatması anlamına gələn, Osmanlı və Rusiya qoşunları arasında gedən müharibədə anlaşılmaz vəziyyətə son verən bu sazişə əsasən rus qoşunları Qafqaz cəbhəsindən geri çəkilməyə başladı. Sazişə görə, tərəflər arasında elə həmin gün demarkasiya xətti müəyyən edilməli, tərəflər öz ordularının strateji yerdəyişməsinə yol verməməli və xüsusən, türk ordusu Qafqaz cəbhəsindən Mesopotamiyaya aparılmalı idi. Həmçinin Qara dənizdə vuruşan ölkələrin hərbi gəmiləri arasında hərbi əməliyyatlar da dayandırılırdı. Rusiya ilə Mərkəz dövlətlər arasında ümumi barışıq sazişi imzalanacağı halda, onun maddələri Qafqaz cəbhəsi üçün də məcburi olacaqdı. Osmanlı Baş komandanlığı həmin sazişi Sovet Rusiyası ilə deyil, Zaqafqaziya Komissarlığı ilə imzalamaqla, dolayısı ilə onu bir hökumət kimi tanımış olurdu.

Qafqaz cəbhəsinin dağılması faktı ilə üzləşən və bunu qəbul etməkdən başqa çıxış yolu olmayan Rusiya Ərzincan sazişinə əsasən qoşunlarını işğal altında saxladığı Şərqi Anadolu torpaqlarından çıxarmaq, geri çəkilmək məcburiyyətində qaldı. Rus qoşunlarının həmin əraziləri tərk etməsi öz silahlı qüvvələrini formalaşdırmaq istəyən Cənubi Qafqaz xalqları üçün əlverişli şərait yaradırdı. Bundan maksimum yararlanmaq istəyən Zaqafqaziya Komissarlığı milli şuralarla birgə silah, sursat və təchizat probleminin həlli üçün "Cəbhənin silahları Zaqafqaziyada saxlanılmalıdır" şüarı ilə çıxış edərək, ləğv olunan Rusiya hərbi hissələrinin əmlakının Cənubi Qafqazda saxlanılmasına çalışırdı. Komissarlıq yaranmış vəziyyətlə əlaqədar 1917-ci il dekabrın 19-da Qafqazdakı rus ordusunun tərxis olunması və bu əsasda milli qoşun hissələrinin təşkil edilməsi haqqında sərəncam imzalamışdı. Bu məqsədin reallaşdırılması üçün azərbaycanlılar, gürcülər və ermənilərdən

təşkil olunmuş Millətlərarası Hərbi Şura da Qafqaz cəbhəsi qoşunlarının ümumi qərargahı ilə qarşılıqlı razılaşmaya əsaslanan bir sıra qərarlar qəbul etmişdi. Həmin qərarlara uyğun olaraq ləğv edilmiş hərbi hissələrin öz əmlakını hansı milli hissələrə təhvil verməli olduğu müəyyənləşdirilmişdi. Bunlar əslində Cənubi Qafqaz xalqlarının silahlı qüvvələrinin formalaşdırılması istiqamətində atılan ilk addımlar idi.

"İlk addım kimi üç piyada diviziyasından, atlı briqadadan və ərazi polklarından ibarət olan erməni ordusu yaradıldı. Erməni və gürcü milli ordu hissələrinin yaradılması bir qədər asan idi, çünki Qafqaz cəbhəsində rus ordusunun tərkibində kifayət qədər erməni və gürcü könüllü hərbi dəstələri fəaliyyət göstərirdi. Zaqafqaziya cəbhəsindən tərxis olunmuş əsgərlərin əksəriyyəti erməni idi. Onlar nəinki silah satır, hətta özləri də bu orduya yazılırdılar. Digər tərəfdən, çar ordusunda qulluq edən silahlı erməni partizanları müsəlmanlara qarşı təbliğat aparmaqla məşğul idilər. Erməni Milli Şurası kifayət qədər var-dövlətə malik olduğu üçün Qafqaz cəbhəsindən tərxis olunmuş rus əsgərlərindən çoxlu miqdarda silah ala bildi".[17]

Qafqaz cəbhəsindəki rus qoşunlarının acınacaqlı vəziyyətini Müvəqqəti hökumətin Qafqaz Süvari Korpusunun komissarı Yemelyanov və onun müavini tərəfindən 1917-ci ilin avqustundan 1918-ci ilin fevralına qədər cəbhə komissarı Donskoya göndərilən məlumatlar və telqramlar da təsdiq edir. Yemelyanovun 1918-ci il 29 yanvar tarixli radioteleqramında deyilirdi: "Korpusun köçürülməsi qaydasında gedir. Hissələr pul tələb edirlər, pula kəskin ehtiyac var. Üzvləri müxtəlif hissələrə dağıldığından və yetərsay olmadığından Korpus komitəsi bağlandı"[18]

17 Yenə orada
18 ARDA, f. 2894, s. 6, iş 21, v. 27

1.2 Müsəlman Korpusunun yaradılması

Əsasən azərbaycanlılardan ibarət ilk hərbi birləşmənin yaradılması barədə rəsmi qərar Zaqafqaziya Komissarlığı tərəfindən 1917-ci il dekabrın 11-də qəbul edilmiş qətnamə hesab olunur. Belə ki, bu qətnamənin qəbulundan əvvəl Fətəli xan Xoyski Zaqafqaziya Komissarlığının rəhbərliyi qarşısında nizami Azərbaycan ordusunun yaradılması haqqında məsələ qaldırmış və 1917-ci il noyabrın 15-də Komissarlığın sədri Y.P.Gegeçkori rəsmi olaraq məsələyə müsbət münasibət bildirmişdi. Qətnamə layihəsinin hazırlanmasıda F.X.Xoyskinin özünə həvalə edilmişdi. «Zaqafqaziya Müsəlman kol ordusu təşkil etmək haqqında» 7 bəndlik qətnaməni Komissarlığın sədri 1917-ci il dekabrın 11-də imzalamış və əmrin icrası F.X.Xoyskiyə tapşırılmışdı. Həmin qətnaməyə əsasən dekabrın 19-da 5 və 7-ci Qafqaz nişançı firqələrindən ibarət olan 6-cı ordu korpusunun müsəlman korpusu (qol ordu) ilə əvəz edilməsi barədə Qafqaz cəbhəsi qoşunlarının baş komandanı tərəfindən əmr verilmiş, komplektləşdiriləcək korpusun komandiri vəzifəsinə general-leytenant Əliağa Şıxlinski təyin edilmişdi. Korpus təşkil edildikdən sonra müsəlmanlardan alınan əsgəri verginin ləğv edilməsi haqqında Zaqafqaziya komissarlığının dekreti veriləcəkdi.

General-leytenant Əliağa Şıxlinski "Xatirələrim" kitabında bu barədə yazırdı: "1917-ci il noyabrın on beşində mən Qafqaza gəldim. Oz xalqımın baş verə biləcək xarici təsirlərdən və daxili iğtişaşlardan qorunmasına xidmət etmək arzusu ilə Azərbaycan korpusu təşkil etməyi lazım bilib, Tiflisdə oz qərargahımı duzəltməyə başladım".

Zaqafqaziya Komissarlığının qərarından sonra Müsəlman Milli Şurasının təşəbbüsü ilə Gəncədə, Bakıda, Lənkəranda və Tiflisdə müsəlman hərbçilərinin yığıncaqları keçirilmişdi.

Nağı Şeyxzamanlı adını çəkdiyimiz əsərində Cənubi Qafqazda milli korpusların yaradılması barədə yazırdı: "Rusiyanın vəziyyətini yaxşı bilən müttəfiqləri İngiltərə və Fransa idi. Bu iki böyük dövlət Qafqaz cəbhəsini erməni və gürcü əsgərləri ilə doldurmağa çalışdılar və Qafqazı idarə edən Seym hökumətinə də gürcü, erməni və azərilərin hərəsindən bir hərbi korpus yaradılması qərarını verdilər. Azərbaycan nümayəndəliyi bu qərarı Gəncə Milli Komitəsinə bildirdi.

Rus ordusunun ehtiyat silahları Tiflisdə anbarda saxlanırdı. Gürcülər hərbi korpus qurmaq məqsədilə paylarına düşən silahları aldılar. Ermənilərin paylarına düşən silahlar da İrəvana göndərildi. Ancaq bizə silah verilmir və qatarla Azərbaycandan keçən rus əsgərlərinin silahlarının bizə aid olduğu və bunları almamız gərəkdiyi bildirilirdi. Doğrudan da, bu qatarların hərəkətləri əvvəlcədən teleqrafla Gəncə Milli Komitəsinə bildirildi. Ancaq bu vaxt ingilis və fransız diplomatları ilə hərbi nümayəndələrin Tiflisdə olduqlarını gizli olaraq öyrəndik. İngilislər və fransızlar gürcü və ermənilərdən aldıqları pullarla erməni və gürcü hərbi dəstələrini hazırlamaqla məşğul idilər. Ancaq axırda bir şey çıxmadı. Pullar və əziyyətlər puça çıxdı".[19]

1917-ci ilin sonlarında, 1918-ci ilin əvvəllərində Müsəlman Korpusunun qərargahı Tiflisdə yerləşdiyi üçün bütün təşkilati işlərə buradan rəhbərlik edilirdi. Korpusun qərargahına aşağıdakı struktur bölmələr daxil idi: ümumi

19 Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri, "Azərbaycan" nəşriyyatı, B., 1997. s. 55

qərargah, ləvazimat rəisi xidməti, topçu müfəttişi xidməti, istehkam rəisi xidməti, ober-kvartirmeyster xidməti, növbətçi zabit şöbəsi, tibb xidməti və baytar həkimi xidməti.

Qafqaz cəbhəsidə rus ordusundan qalan silah-sursatın hər üç xalqın nümayəndələri arasında bərabər bölünməli olmasına baxmayaraq, həmin silah və hərbi sursatın böyük hissəsini bolşeviklər və ermənilər ələ keçirdilər. Bu, əslində qabaqcadan görülən tədbirlərin nəticəsi olmaqla, Azərbaycana qarşı çevrilmişdi. Buna Bakı Soveti İcraiyyə Komitəsinin bolşevik hərbi hissələrinin təşkili məqsədilə 1918-ci il yanvar ayının ilk günlərində qəbul etdiyi tərxis olunaraq Bakıdan keçən hərbçilərin tərksilah edilməsi qərarı ilə də əlavə stimul yaradılmışdı. Təsadüfi deyildi ki, hələ dekabrın 21-də Bakı Soveti İcraiyyə Komitəsi Qırmızı Qvardiyanın təşkil olunması barədə qərar qəbul etmiş və Qara şəhərdə, Balaxanıda bu qvardiyanın ilk dəstələri yaradlmışdı.[20]

Razılaşmalara görə, Yelizavetpolda (Gəncə) yerləşən 219 saylı alay özünün bütün əmlakını burada formalaşmaqda olan Tatar alayına təhvil verməli idi. Ancaq 219 saylı alay 1917-ci il dekabrın 14-də aldığı əmri yerinə yetirməkdən imtina etdi. Nəticədə başqa əlacı qalmayan Gəncə Müsəlman Şurasının fəalları güc tətbiq etməklə alayın şəxsi heyətini tərksilah edərək, ərzaq, ləvazimat anbarlarını ələ keçirdilər. Bu əməliyyat Müsəlman Korpusunun hərbi təchizatı sahəsində uğurlu addımlarından biri oldu.

Bütün bunlar və ordudan tərxis olunan əsgərləri oz sıralarına cəlb etmək üçün bolşeviklərin apardığı təbliğat işi müsəlman əhaliyə qarşı hazırlanan ciddi, təhlükəli planlardan xəbər verirdi. Həmin planların yaxın müddətdə həyata keçiriləcəyi ehtimalı milli qüvvələrdə narahatlıq doğururdu.

20 ARDA, f. 2898, s. 2, iş 22

Gözlənilən təhlükə ilə əlaqədar hazırlıq tədbirləri görməyə çalışan Azərbaycan fraksiyası Zaqafqaziya Komissarlığı tərəfindən Şəmkir stansiyasında yerləşən rus alayının tərksilah olunması barədə qərar çıxarılmasına nail oldu.

Həmçinin Azərbaycandan keçən rus ordusunun bir qrupunun silahları Şəmkir və Dəllər stansiyasında könüllü surətdə Gəncədən gələn Müsəlman Milli Şurasının üzvlərinə təhvil verilməli idi. Bu işə doktor X.Rəfibəyov və A.Səfikürdski rəhbərlik edirdilər. Əvvəla, tərksilah öz qaydası ilə gedir, tərksilah olunmuş əsgərlərə Bakıya getmək üçün şərait yaradılırdı. Lakin yanvarın 9-dan sonra eşelonlar tərksilahdan imtina etdi. Bu müqavimət Tiflisdən eşelonları müşayiət edən gürcü Abxazava və müsəlman korpusunun komandiri Maqalovla bolşeviklərin təsiri altında olan rus əsgərləri arasında 1918-ci il yanvar ayının 10-12-də güclü toqquşma ilə nəticələndi. Hər iki tərəfdən ölənlər və yaralananlar oldu. Bakı Sovetinin bolşevik rəhbərliyi şəhəri müsəlman "əksinqilabçılarından" təmizləmək adı altında Şəmkir əhalisini tərksilah edərək milli qırğın törətdilər. Ancaq bu əməliyyat nəticəsində götürülən 20 top, 70 pulemyot və 15000 tüfəng Müsəlman Korpusunun silah təchizatını xeyli yaxşılaşdırdı.

Korpusun silah-sursat təhcizatı və s. çətinlikləri ilə yanaşı, şəxsi heyətinin komplektləşdirilməsi ilə bağlı problemlər də vardı. Bu sırada milli zabit kadrlarının, xüsusilə kişik zabit heyətinin çatışmazlığı qeyd edilməlidir. Doğrudur, müsəlman milli şuraları mövcud çətinliklərin aradan qaldırılmasında öz köməyini əsirgəmirdilər. Şəxsi nümunələr də az deyildi. Belə ki, Ə.Şıxlinski komandir təyin edilməzdən əvvəl milli qoşun hissələrinin təşkili üçün topladığı zəruri əşyaları Korpusa təhvil vermişdi. Müsəlman ictimai təşkilatlarının fəalları qoşun hissələrinin təmanıtı üçün silah-sursatı da satın da

alırdılar. Tiflisdən Həmzət bəy Xəlilov da öz vəsaiti hesabına Müsəlman Korpusuna silah, ərzaq, geyim əşyaları ilə kömək etmişdi. O, hətta balakənlilərdən ibarət kiçik bir dəstə də yaratmışdı. Həmzət bəyin oğlanları, ali təhsilli zabitlər Rüfət və Ramazan da Korpusun sıralarına daxil olmuşdular.

1917-ci il dekabrın 26-da Qafqaz cəbhəsi baş komandanlığının əmrinə əsasən üç piyada diviziyası, atlı briqada və ərazi alayından ibarət erməni korpusunun yaradılması Azərbaycan korpusunun təşkilini daha da sürətləndirməyi tələb edirdi. Əslində daşnak general Foma Nazarbəyovun təşkilatçılığı altında ermənilər Tiflisdə erməni korpusunun yaradılması ilə bundan xeyli əvvəl məşğul olmağa başlamışdılar. Artıq həmin vaxt Andranik, Qaregin Nijde, Dro Kanayanın könüllü erməni milli dəstələri bölgədə cinayətkar fəaliyyətlərini genişləndirirdilər.

Qafqaz cəbhəsinin ləğv olunmuş 5-ci və 7-ci diviziyalarının tərkibinə daxil olan hissələr də Zaqafqaziya Komissarlığının razılığı ilə bölgəni tərk edərkən öz əmlakını yaradılmaqda olan müsəlman hissələrinə təhvil verməli idilər. Ancaq ləğv olunan hissələrin əksəriyyəti, bir tərəfdən, bolşevik təbliğatının, digər tərəfdən də şovinist hissələrin təsiri altında silah və əmlakını könüllü surətdə təhvil vermək istəmirdilər. Belə hissələrin bəzilərinə qarşı imkan daxilində, güc tətbiq edilirdi. Məsələn, Lənkəranda formalaşdırılan milli qoşun dəstəsi Müsəlman Şurasının fəalları ilə birlikdə qəza bolşeviklərinin təsiri altında olan 4-cü və 7-ci sərhəd alaylarını tərksilah etdi. Elə orada "Milyutin" gəmisində İrandan geri qayıdan Rusiya əsgərləri milli qüvvələr və Prişibdən (indiki Göytəpə) çağırılmış Kərim bəy Şahtaxtinskinin başçılıq etdiyi şahsevən dəstələri tərəfindən tərksilah olundular. Bu zaman Rusiya hərbçilərindən 6 pulemyot, 3 min tüfəng, 85 min güllə,

10 qutu bomba götürüldü. Yanvarın 15-də isə milli silahlı qüvvələrlə şahsevən süvariləri Astara sovetinin 60 nəfərlik milis dəstəsini tərksilah etdi və əmlakını əlindən aldı.

Müsəlman milli qoşun hissələrinin təşkilində qarşıya çıxan digər çətinlik kadr və səfərbərlik məsələsi idi. Korpusun tərkibinə daxil olan hissələrin şəxsi heyətinin yalnız azərbaycanlılardan və digər müsəlmanlardan komplektləşdirilməsi çağırış işinin lazımi səviyyədə qurulmasını tələb edirdi. Bir tərəfdən, azərbaycanlıların uzun illər boyu hərbi xidmətə çağırılmaması, digər tərəfdən də, çağırışı təşkil edəcək orqanların yoxluğu bu məsələnin həllində çətinliklər yaradırdı. Bununla belə, Müsəlman Korpusunun tərkibinə könüllü yazılan azərbaycanlılar da az deyildi. Könüllülər arasında dağıstanlılar da vardı.

Müsəlman Korpusu zabitlərinin əsas bazasını ruslar təşkil edirdilər. Onların sayı korpus zabitlərinin ümumi sayının təqribən üçdə ikisi qədər idi. Təşkilati işlərin əsas hissəsi də onların əlində idi. Korpusa rus zabitlərinin cəlb edilməsi həm könüllülük, həm də komanda əsasında, çar Rusiyası dövrü qaydalarına uyğun aparılırdı. Korpusun zabit heyətində azərbaycanlıların və digər müsəlman xalqları nümayəndələrinin sayını artırmaq məqsədlə Qafqaz cəbhəsində xidmət edən azərbaycanlılar və digər müsəlman zabitlər hərbi xidmətə çağırıldılar. Sayca o qədər çox olmasalar da, Korpus komandanlığı bu kadrlardan daha səmərəli istifadə etməyə, onları komanda vəzifələrində yerləşdirməyə çalışırdı. Həmin zabitlərin arasında sonradan Cümhuriyyət ordusunda general-mayor rütbəsinə yüksəlmiş Həbib bəy Səlimov, Murad Gəray Tlexas, Süleyman bəy Əfəndiyev, Əmənulla Mirzə Qacar kimi zabitlər də var idi.

Müsəlman Korpusu Zaqafqaziya Komissarlığına tabe olan Qafqaz cəbhəsi qoşunlarının tərkib hissəsi sayıldığından zabitlərin rütbələri də Zaqafqaziya Komissarlığı hökumətinin qərarı ilə artırılırdı. Müsəlman Korpusunun sıralarında bir neçə general xidmət edirdi. General-leytenant Ə.Şıxlinski, general-mayor X.Talışinski və general-mayor Ağausubov da onların arasında idi.

Milli zabit kadrlarının hazırlanmasına mühüm məsələ kimi yanaşan Korpus komandanlığı bu məqsədlə Bakıda müvafiq tələblərə cavab verən hərbi məktəb açmağı planlaşdırırdı. Ə.Şıxlinski və qərargah rəisi polkovnik Mençukov aşağı rütbəli milli zabitlərin çatışmaması ilə əlaqədar 1918-ci il fevralın 6-da Qafqaz cəbhəsi qoşunlarının Baş komandanına raportla müraciət edərək, Bakıda 1-ci Müsəlman diviziyasının nəzdində milli hərbiyyə məktəbinin açılmasına razılıq verilməsini xahiş etmişdilər. Qafqaz cəbhəsi qoşunları baş komandanlığı qaldırılan məsələyə razılıq versə də, təşkilati işlərin uzanması və bölgədə cərəyan edən gərgin hərbi-siyasi proseslər nəticəsində milli hərbiyyə məktəbi yalnız Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından sonra fəaliyyətə başladı.

Müsəlman Korpusunun tərkibində hər biri dörd alaydan ibarət iki nişançı diviziya vardı. Bundan başqa Korpusun tərkibinə 1-ci və 2-ci topçu briqadaları, üç süvari alayından ibarət xüsusi müsəlman süvari briqadası, müsəlman istehkam taboru, müsəlman süvari batareyası, müsəlman mortir (gödək lüləli top) və park divizionu, ikinci müsəlman mortir parkı və s. birləşmələr daxil idi.

Korpus komandanlığı bütün məsələləri, hətta hərbi xidmət rejiminin müəyyən dəyişikliklərlə müsəlman həyatının qaydaları ilə uyğunlaşdırılmasını da diqqətdə saxlamağa

çalışırdı. Belə ki, həftənin cümə gününün Korpusun şəxsi heyəti üçün istirahət günü olması qərara alınmışdı.

Rusiya ordusu nizamnamələrinin yenidən işlənməsi, Müsəlman Korpusunun xidməti iş və məişət şəraitinə uyğunlaşdırılması qərara alınmış və bunun üçün xüsusi komissiya yaradılmışdı. Komissiya qısa müddət ərzində nizamnamələrdə dəyişiklik edilməsi barədə təkliflər hazırlayıb komandanlığa təqdim etməli idi.

Osmanlı dövlətindən hərbi yardım alınması ilə bağlı ilk müraciətlər də məhz həmin günlərdə edilmişdi. 1918-ci ilin yanvar ayında Nağı bəy Şeyxzamanlı qardaş ölkənin yeni formalaşmaqda olan milli hərbi hissələrinin təşkilinə kömək göstərməsi məqsədi ilə əsirlikdən azad olunmuş türk zabiti Hüsaməddin bəylə (Tugsavul) birgə Gəncədən yola çıxmışdı.

1918-ci il yanvarın 5-də çağrılmış Ümumrusiya Müəssislər Məclisinin bolşeviklər tərəfindən buraxılması ona bəslənən böyük ümidləri puça çıxarmaqla, vəziyyəti daha da gərginləşdirdi. Sabitlik yaratmaq səyləri nəticə verməyən Zaqafqaziya Komissarlığı hökuməti 1918-ci il fevralın əvvəllərində istefa verməli oldu. Milli qüvvələr artıq çıxış yolunu Cənubi Qafqazın Rusiyadan tamamilə ayrılaraq, tam müstəqil dövlət olmasında görürdülər.

Müstəqillik meyillərinin artması bolşevik Rusiyasının yardımı ilə təkcə Bakıda və ətraf ərazilərdə deyil, bütün Azərbaycanda ağalıq etmək istəyən Bakı Sovetini, onun rəhbəri S.Şaumyanı müsəlman əhaliyə qarşı zorakılıq əməllərini kütləviləşdirməyə sövq edirdi. Bu əməllər milli qoşun hissələrində xidmət edən zabit və əsgərlərə qarşı münasibətdə özünü daha qabarıq büruzə verirdi.

Bolşeviklər hərbütün vasitələrlə Azərbaycanda milli hərbi hissələrin yaradılmasının qarşısını almağa çalışırdılar.

Bunun nəticəsi idi ki, 1918-ci il fevralın 24-də Bakıda 1-ci Müsəlman nişançı alayının təşkil edilməsi üçün general-mayor X.Talışinskinin rəhbərliyi ilə 1-ci nişançı diviziyasının buraya gəlmiş qərargah zabitləri dərhal, elə vağzaldaca həbs edildi. Ancaq bu xəbərin azərbaycanlı əhali arasında çox böyük narazılığa səbəb olduğunu görən və narazılıqların geniş miqyas alacağından çəkinən bolşeviklər müsəlman zabitləri həbsdən azad etməyə məcbur oldular. Buna baxmayaraq, mövcud vəziyyət, xüsusilə "İsmailiyyə"də yerləşən müsəlman diviziyasının qərargah üzvlərinin hər addımının izlənməsi Bakıda milli hərbi bölmələrin tam leqal şəkildə təşkilinə imkan vermirdi. Ətraf yerlərdə də bu işin həyata keçirilməsi asan deyildi. Ancaq çox çətin şərtlər altında olsa da, milli qüvvələr bəzi hərbi bölmələrin yaradılması işinin öhdəsindən gələ bilirdilər.

Yaranmış şəraitdə hərbi birləşmələr yaratmaq zərurətini düzgün qiymətləndirən azərbaycanlıların təşəbbüsləri bu qüvvələrdə xüsusi narahatlıq doğururdu. Bununla bağlı Ə.M.Topçubaşov yazırdı: "Ermənilərlə gürcülərin keçmiş rus ordusunun bütün yaraqlarını işlədə bilən əsgərlərdən ibarət milli diviziyası olsa da, müsəlmanların öz ordusunu yaratmaqdakı ilk addımlarını başqaları, daha çox da bolşeviklər yağıcasına qarşıladılar".[21]

Azərbaycanda cərəyan edən hadisələr, daşnak-bolşevik irticasının güclənməsi isə Müsəlman Korpusunun tezliklə formalaşmasını və Azərbaycan xalqının müdafiəsini təmin etməyə qadir səviyyəyə çatmasını tələb edirdi. Daşnak-bolşevik qüvvələrinin maneçilikləri ilə yanaşı, zəruri maddi-texniki bazanın olmaması, kadr və çağırış problemləri, hərbi

21 Topçubaşov Ə.Ə. Azərbaycan Cümhuriyyətinin yaradılması. B., Təknur, 2013, s. 45

infrastrukturun yoxluğu da milli hərbi hissələrin təşkilini xeyli çətinləşdirirdi. Bunun nəticəsi idi ki, Müsəlman Korpusunun Cümhuriyyətin yaranması ərəfəsində daşnak-bolşevik təhlükəsinin qarşısını almaq imkanı yox idi.

1918-ci ilin fevralında Rusiya Müəssislər Məclisini tanımaqdan imtina edən Cənubi Qafqaz deputatlarının təşəbbüsü ilə Tiflisdə Zaqafqaziya Seymi təşkil edildi. Seymdə Azərbaycanın siyasi partiyalarının 44 nümayəndəsi var idi. Bu qurum çox qısa müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, ümumən regionda yeni müstəqil dövlətlərin təməlinin qoyulması yolunda uğurlu təşəbbüs idi. Lakin Seym erməni hərbi biləşmələrinin həmçinin bolşeviklərin dəstəyi ilə azərbaycanlı əhaliyə qarşı törətdiyi soyqırımların qarşısının alınması üçün heç bir tədbir görmədiyinə görə müsəlman fraksiyaların etimadını qazana bilmədi. Seymin həmin fraksiyalarının ("Hümmət"dən başqa) aprelin 7-də fövqəladə iclasında Azərbaycanda yaranmış dramatik vəziyyət ətraflı müzakirə olunmuş, əksəriyyətini menşeviklərin təşkil etdiyi Tiflis hökumətinin Bakı bolşevikləri ilə əlbir olub, Bakı istiqamətinə göndərilən azsaylı qüvvəni lazımi silah və sursatla təmin etmədiyi, V.Leninlə gizli danışıqlar apardığı qeyd olunmuşdu. Artan müsəlman qırğınları ilə bağlı qəti tədbirlər görmək vaxtının çatdığını bildirən nümayəndələr Qafqazın müstəqilliyi məsələsində qəti mövqelərinin Seymdə təmsil olunmuş bütün partiyaların nəzərinə çatdırılması üçün iclas çağrılması qərarına gəlmişdilər.

İki ay sonra, 1918-ci il aprelin 22-də Seymin müstəqilliyi elan edildi və aprelin 26-da Seym keçmiş Rusiyanın bu mühüm bölgəsində hakimiyyətin idarə olunması sahəsində tamamilə yeni bir addım ataraq Zaqafqaziya Federativ Demokratik Respublikası hökumətini yaratdı. Ancaq Seymə daxil olan

millətlərin nümayəndələri arasında mənafe ayrılığı və digər səbəblər bu qurumun çox yaşamasına imkan vermədi. Bir tərəfdən bu millətlərin nümayəndələri ittifaq yaradıb, Seymdə zahirən dostluq və qardaşlıq qurur, digər tərəfdən isə daşnaklar Zəngəzurda, eləcə də İrəvanda türk kəndlərini viran qoyub, əhalisini qətlə yetirirdilər. Seymdə ərazi, sərhəd və müdafiə məsələləri barəsində ciddi fikir ayrılıqları vardı və bu məsələlər bir çox hallarda ciddi qarşıdurmalara səbəb olurdu.[22]

Ölkələrin öz gələcəkləri, xüsusilə müdafiə sahəsində seçimləri ilə bağlı fərqlər onlar arasında ziddiyyətləri daha da dərinləşdirirdi. Belə ki, Türkiyə dövləti 1918-ci il martın 3-də Sovet Rusiyası ilə Almaniya arasında bağlanmış Brest-Litva müqaviləsinin nəticəsi olaraq Qarsı, Batumu və Ərdəhanı azad etmişdi. Bu vəziyyəti Gürcüstana qarşı təhdid hesab edən gürcülər Almaniya ilə siyasi danışıqlara başladılar. Bu arada Seymin «Müsavat» fraksiyası da türklərlə məxfi əlaqəyə girərək, Bakının azad olunmasını xahiş edirdilər.[23]

Brest-Litva müqaviləsinə görə, Qərbi Ukrayna və Qərbi Belorusiya torpaqları Almaniyaya keçirdi. Əslində Rusiya bu müqaviləni bağlamaqla vaxtilə S.Şaumyana Osmanlı ərazisində "Türkiyə Ermənistanı" yaratmaq haqqında vermiş olduğu 1918-ci il 11 yanvar tarixli 13 saylı dekretdən imtina etməyə məcbur oldu.

Müstəqil cümhuriyyətlərin yaranması ərəfəsində Seym daxilində müvəqqəti bir araya gəlmiş Cənubi Qafqazın hər üç millətinin qeyd olunan fərqli maraqları onlar arasında vəziyyəti daha da gərginləşdirir, gələcək münaqişələrin təməlini qoyurdu. Həmçinin Rusiyanın Qafqazın hər hansı müstəqil dövlət şəklində ondan ərazicə ayrılması ilə heç vaxt

22 Наджафов Б. Лицо врага. История Армянского национализма в Закавказье в конце XIX - начале XX века, Б., 1993, с. 28-29
23 İsmayılov R. Azərbaycan tarixi, B., 1993, s. 129-130

razılaşmayacağı barədə mövqeyi hər üç xalqdan ilk öncə öz aralarında, daha sonra isə digər qonşuları ilə (Türkiyə, İran), bu məsələləri yoluna qoymaq üçün səylərini artırmağı tələb edirdi.

Bu məqsədlə, Seymin bütün fraksiyaları 1918-ci il martın 14-də Türkiyə ilə Trabzon danışıqlarına başladılar. Bu danışıqların başlıca əhəmiyyəti Rusiyanın parçalanmasından sonra Cənubi Qafqazın, o cümlədən Azərbaycanın sərhədlərinin müəyyənləşdirilməsi istiqamətində ilk rəsmi addımlar atılması oldu. Bağlanacaq sülh müqaviləsinin Türkiyə ilə 1914-cü il sərhədlərinin bərpa edilməsinə əsaslanması razılığına gəlinməsi nəzərdə tutulurdu.[24]

Bununla əlaqədar A.Çxenkelinin bəyanatında hökumətin əsas vəzifələrindən birinin respublikanın sərhədlərinin müəyyənləşdrilməsindən ibarət olduğu göstərilmişdi. Aprelin 10-da Seym təmsilçiləri Trabzon danışıqlarında Brest-Litva müqaviləsinin şərtlərini qismən qəbul etməyə razılıq versələr də, 3 gün sonra bu danışıqlar nəticəsiz bitdi.

Türkiyənin razılığı ilə 1918-ci il mayın 11-də Batumda yeni sülh konfransı işinə başladı. Danışıqlarda tərəflər arasında ərazi-sərhəd məsələləri də daxil olmaqla müxtəlif problemlərin həlli yolları müzakirə ediləcəkdi. Ancaq ermənigürcü birləşmələri ilə döyüşlərdə qan axıdılması ilə əlaqədar Türkiyə tərəfi artıq Brest sazişində nəzərdə tutulandan əlavə ərazilərin

– Tiflis quberniyasının Axalsix, Ahalkələk rayonlarının, Aleksandropol və Eçmiədzinin bir həssəsinin ona verilməsini, dünya müharibəsi qurtaranadək Transqafqaz dəmiryolundan istifadə hüququ tələb edirdi. Yaranmış vəziyyətlə əlaqədar

24 Насиров Т. Борьба за власть в Азербайджане (1917-1920 гг.), Б., 1993, с. 84

Seym konfransın işini başa çatdıra, problemləri çözə bilmədi. Konfransda qaldırılan həmin məsələlər milli respublikaların öz müstəqilliyini elan etməsindən sonra onların hər biri tərəfindən ayrı-ayrılıqda davam etdirildi.

Belə ki, mayın 26-da Seymin sonuncu iclasında gürcü nümayəndələri bu qurumdan çıxıb, Gürcüstanın müstəqilliyini elan etdilər. Onların planlarından xəbərdar olan Azərbaycan nümayəndələri bir gün əvvəl, mayın 25-də F.X.Xoyskinin sədrliyi ilə Seymin müsəlman fraksiyasının axşam iclasını keçirmişdilər. Mayın 27-də isə Seymin müsəlman fraksiyası yaranmış vəziyyətlə əlaqədar fövqəladə iclas çağırdı. Uzun müzakirələrdən sonra Müvəqqəti Milli Şura yaratmaq qərara alındı. M.Ə.Rəsulzadə Milli Şuranın sədri, H.Ağayev və M.Seyidov isə sədrin müavinləri seçildilər. İşlərə rəhbərlik etmək üçün Milli Şuranın 9 nəfərdən ibarət icraiyyə orqanı yaradıldı. Fətəli xan Xoyski İcraiyyə Komitəsinin sədri seçildi. 1918-ci il mayın 28-də Tiflisdə Milli Şura Azərbaycan dövlətinin müstəqilliyi haqqında "İstiqlal Bəyannaməsi"ni qəbul etdi.

Dövlət müstəqilliyinin elan edilməsi ərəfəsində yaranmış tarixi şəraitin mühüm təyinedici amili olan siyasi vəziyyətdən danışarkən həmin dövrdə, xüsusilə 1918-ci ilin yanvar ayından başlayaraq İrəvan Bakı, quberniyalarında, Qubada, Zəngəzurda, Naxçıvanda və digər yerlərdə ermənilər tərəfindən azərbaycanlıların soyqırıma məruz qoyulmasına, yaşayış məntəqələrinin dağıdılmasına, talan edilməsinə də münasibət bildirilməlidir. Bir çox ərazilərdə bolşeviklərin iştirakı və birbaşa dəstəyi ilə törədilmiş həmin kütləvi qırğın və talanların nəticələri çox acınacıqlı olmuşdur.[25]

25 ARDA, f. 970, s.1, iş 144, v 66-67

Rus ordusunun Qafqaz cəbhəsindən çıxarılması ilə yaranan cəzasızlıq şəraitindən istifadə edən erməni hərbi birləşmələri 1918-ci ilin martına qədər təkcə İrəvan quberniyasında 199 kəndi dağımış, 100 mindən artıq türk-müsəlman əhalini məhv etmişdi. Bu ərazidə yaşayan əhalinin bir qismi isə ölümdən qurtularaq Osmanlı ordusunun nəzarəti altında olan torpaqlara qaçmışdı.

1918-ci ildə Bakıda hakimiyyət uğrunda mübarizə əsasən milli qüvvələrlə daşnak-bolşevik qüvvələri arasında gedirdi. Eserlər və menşeviklər də mübarizənin gedişində daşnak-bolşeviklərlə birləşmişdilər. M.B.Məmmədzadə yazırdı: "Rus məmurlarına, rus, erməni fəhlələrinə və əsgərlərinə istinad edən menşevik, eser, kadet, daşnak və bolşevik olmaq üzrə müxtəlif siyasi firqələr ətrafında birləşən Azərbaycandakı ruslar "Müsavat"ın yaratdığı hərəkat qarşısında daxili mübahisə və mübarizələrini unudub "Müsavat"a qarşı vahid cəbhədə birləşdilər".[26]

S.Şaumyan 1918-ci il martın 3-də Stalinə yazdığı məktubda Bakının sürətlə hərbiləşdirilməsinin zəruriliyini vurğulayaraq Qafqaz Ordusunun Bakıda cəmləşdirilməsini, hərbi donanmanın yenidən gücləndirilməsini təklif edirdi. O, daşnakları silahlandırmağı vacib məsələ hesab edərək Stalindən, daşnaklar üçün top məsələsinin elə rəsmiləşdirilməsini xahiş edirdi ki, məsələnin qəti həlli Bakıda ondan asılı olsun. Bakıda bu zaman Birinci dünya müharibəsindən qayıdan 8 min silahlı erməni toplanmışdı. Qafqaz cəbhəsindən, habelə İrandan dönən rus əsgərləri də Bakıya yığışmışdılar. Beləliklə mart qırğını ərəfəsində Bakıda 20 minə yaxın düşmən qüvvəsi cəmləşmişdi. Bolşeviklər nəinki Bakı şəhərində çoxsaylı erməni silahlı dəstələrinin olmasına göz yumur, hətta hər

26 Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. B., Nicat,1992, s. 70

vasitə ilə buna şərait yaratmağa çalışırdılar. Məqsəd isə milli qüvvələrin sıxışdırılması ilə Azərbaycanın müstəqilliyə gedən yolunun qarşısının alınması, Bakıda idarəçiliyin özlərinə yaxın bildikləri qüvvələrin əlində qalmasına nail olmaq idi. S.Şaumyanın tapşırığı ilə martın 29-da şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisində Lənkərana qayıtmaq istəyən müsəlman zabit və əsgərlərin tərksilah olunmaları təxribatının başlıca məqsədi də, azərbaycanlıları cavab hərəkətlərinə sövq etməklə onlara qarşı soyqırım həyata keçirmək üçün bəhanə əldə etmək idi. Belə ki, Lənkərana yola düşməkdə olan gəmi bolşeviklər tərəfindən tərkisilah edilmişdi. Silahların qaytarılmasına söz verən Bakı Soveti hökuməti bunun əksinə olaraq qarşıda gözlənilən döyüşlərə rəhbərlik etmək uçün S.Şaumyan, A.Çaparidze Q.Korqanov, İ.Suxartsov, S.Saakyan, M.Yolçiyanın daxil olduğu inqilabi müdafiə komitəsi yaratdı.

Bununla Leninin direktiv göstərişlərini həyata keçirən S.Şaumyan 1918-ci ilin mart-iyul aylarında daşnak silahlı dəstələrindən və bolşevik-erməni hərbi birliklərindən istifadə edərək Azərbaycanda kütləvi qətliamlar törətdi. Bakı, Şamaxı, Quba, Cavad, Lənkəran və başqa qəzalarda müvəqqəti olsa da hakimiyyətini quran Bakı Sovetinə tabe olan həmin qüvvələr minlərlə yaşayış məskənini dağıtmış, dinc insanları amansızcasına qətlə yetirmiş, onların əmlakını qarət etmiş və mədəniyyət abidələrini dağıtmışdırlar.

"Bolşeviklər 1918-ci il martın 30-da Bakı şəhəri və onun rayonlarının İnqilabi Müdafiə Komitəsini yaratdılar. Erməni daşnakları bolşevik bayrağı altında, əlverişli mövqedən istifadə edərək, əvvəlcədən hazırladıqları plana uyğun olaraq, Bakı şəhərində 1918-ci il matrın 30-dan aprelin 1-nə kimi, dörd gün ərzində türk xalqına qarşı qırğın törətdilər ki, bu da minlərlə insanın ölümü ilə nəticələndi".[27]

1918-ci ilin mart soyqırımından sonra Bakıda hakimiyyətə tam sahiblənən S.Şaumyan və əlaltıları bolşevik Rusiyasının dəstəyi ilə daşnak-erməni hərbi qüvvələrini (sayı 18 mindən çox) yaratmağa nail oldular. Onların qarşısına qoyulan başlıca vəzifə Azərbaycanın müstəqilliyinə yol verməmək, bolşevik hakimiyyətinin təsir dairəsini mümkün olduğu qədər, hətta bütün ölkə üzrə genişləndirmək idi. S.Şaumyan Gəncə üzərinə yürüşə başlamazdan əvvəl V.Leninin tapşırığı ilə Bakı Soveti adından türk qoşunlarının Azərbaycana yolunun bağlanması üçün Gürcüstan hökumətinin başçısı N.Jordaniyaya müraciət etmişdi. Daşnak rəhbər bolşevik hökumətinin mesajını N.Jordaniyaya çatdıraraq, türk qoşunlarını Gürcüstan ərazisindən Azərbaycana buraxmayacağı təqdirdə, Sovet Rusiyasının bu olkənin müstəqilliyini tanıyacağını vəd edirdi. Bakı neftinə xüsusi maraq göstərən almanlar Bakının tutulmasına mane olmaq məqsədilə Osmanlıların beşinci diviziyasının Gürcüstan dəmir yolu ilə Gəncəyə gəlməsini qadağan etdikdə, Qafqaz diviziyası Mürsəl paşanın rəhbərliyi ilə Gümrü-Dilican-Ağstafa yolunu döyüşlə keçməyə məcbur oldu.

1918-ci il aprelin 3-dən 16-nadək Şamaxı şəhərinə və ətraf kəndlərə hücum edən ermənilər Şirvanda, Bakıda

27 Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. B., Azərnəşr,1992, s. 228

törətdikləri qırğınları davam etdirdilər. Stepan Lalayevin başçılıq etdiyi erməni milli birlikləri Mədrəsə kəndindən Şamaxını topa tutdular. Qanlı əməliyyatlar nəticəsində Şamaxı və onun 58 kəndi dağıdılıb, talan olundu, əhalisinin böyük bir hissəsi erməni qəddarlığının qurbanı oldu. Həmin müddətdə Şamaxıda Bakı Sovetinin tabeliyindəki erməni qoşunları tərəfindən 7 min adam öldürülmüşdü.

Bakı bolşevik təşkilatının və Bakı Sovetinin Quba qəzasına göndərdiyi hərbi dəstələr aprelin 23-də Qubada sovet hakimiyyəti qurulduğunu elan edərək Hərbi inqilab komitəsi yaratdılar. Bundan yararlanan quldur Hamazaspın və Korqanovun başçılıq etdiyi cəza dəstələri mayın 1-də Qubada azərbaycanlılara qarşı soyqırıma başladı. 9 gün davam edən talan, qətl və qarətlər nəticəsində Qubada 4 mindən çox dinc sakini qəddarcasına qətlə yetirildi. Soyqırımın ilk günü 713 nəfər, ikinci günü 1012 nəfər azərbaycanlı öldürülmüşdü. May ayında Gəncə istiqamətində hərəkət edən Kommuna ordusunun birləşmələri isə iyunda Şamaxı qəzasının salamat qalmış əhalisinə yenidən divan tutaraq, xeyli insanı qanına qəltan etdilər. Tam dəqiqləşdirilməmiş məlumatlara görə, həmin qanlı hadisələr nəticəsində öldürülən azərbaycanlıların sayı 50 min nəfərdən artıq idi.

Bu qətliamları durdurmaq üçün fasiləsiz çarə arayan və yaranmış imkandan dərhal bəhrələnməyə çalışan Azərbaycan nümayəndələri 1918-ci il mayın 14-də Batum konfransında Cənubi Qafqaz sülh heyəti başçısından Bakı Xalq Soveti qoşunlarının Gəncəyə doğru hərəkətinin qarşısını almaq üçün türk qoşunlarının Cənubi Qafqaz ərazilərinə keçməsinə razılıq verməsini tələb etdilər. Bu əsnada ingilis qoşunları Bakını tutmaq üçün 2 aydan artıq idi ki, hərəkətə keçmişdilər. Belə ki, müttəfiqlərin qərarına uyğun olaraq Bağdaddan bu məqsədlə

Qafqaz istiqamətinə yol alan ingilis generalı Denstervill 1918-ci il fevralın 18-də öz məiyyəti ilə birlikdə artıq Ənzəliyə çatmışdı.

Mayın 14-də Türkiyə təmsilçisi Xəlil bəy Bakı istiqamətində hərəkət edən ingilis qoşunlarını dayandırmaq üçün türk qoşunlarının Qafqaza buraxılması haqqında Batum konfransı sülh heyəti başçısına nota təqdim etdi. Söhbət bir aydan artıq müddətdə formalaşdırılmasına başlanmış Qafqaz İslam Ordusundan gedirdi.

Cümhuriyyətin elan olunması ərəfəsində - 1918-ci ilin fevral-aprel ayları ərzində Osmanlı dövlətinin təşəbbüsü ilə Qafqaz İslam Ordusunun yaradılması istiqamətində bir sıra işlər görülmüşdü. 1918-ci ilin fevralında İstanbulda Türkiyə Hərbi Nazirliyində təşkil olunmuş komissiyada Qafqaz İslam Ordusunun qərargahı üçün 20 nəfərlik bir tərkib seçilib müəyyənləşdirilmişdi. 1918-ci il martın 25-də Türk Silahlı Qüvvələrinin tüm generalı hərbi rütbəsi verilmiş Nuru Paşanın bu ordunun komandanı kimi Qafqazlarda Osmanlı padşahı adına əsgəri və siyasi fəaliyyət göstərə biləcəyini bildirən fərman verilmişdi. 1918-ci il aprel ayının 5-də Osmanlı dövlətinin hərbi naziri Ənvər paşa Qafqaz İslam Ordusunun təşkili və vəzifəsinə dair təlimatı təsdiq etdi. Bu rəsmi sənədlə yeni yaradılacaq ordunun qarşısında dayanan vəzifələr, onun fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdi. Bundan üç gün sonra Nuru Paşa VI ordudan 149 zabit, 488 gizir və əsgər qüvvəsi ilə Mosuldan Azərbaycana doğru hərəkətə başladı. Səfər zamanı ərzaq və s. çətinliklər nəzərə alınaraq bütün qüvvə 20-30 nəfərlik dəstələrə bölünmüşdü. Azərbaycan ərazisinə gəldikdən sonra osmanlıların beşinci piyada diviziyası və general Ə.Şıxlinskinin başçılıq etdiyi müsəlman milli korpusu əsasında Qafqaz İslam Ordusu yenidən təşkil edildi. Artıq

1918-ci il iyunun əvvələrində Nuru Paşanın rəhbərlik etdiyi orduda türklərdən və azərbaycanlılardan ibarət 15 min əsgər və zabit vardı.

Tiflisdə nəşr olunan "Возрождение" qəzeti yazırdı ki, Vehib paşa Cənubi Qafqazı, o cümlədən xüsusən Azərbaycanı bürüyən anarxiyanı nəzərdə tutaraq demişdi ki, Bakını tutmaq və müsəlmanları xilas etmək üçün türk ordusunun göndərilməsi zəruridir.

1918-ci il mayın 20-də Nuru Paşanın bölüyü Azərbaycanın Zəngəzur bölgəsinə daxil oldu və əhali tərəfindən sevinc və rəğbətlə qarşılandı. Mayın 24-də türk qüvvələri Cəbrayıl-Ağdam-Tərtər yolu ilə Yevlağa gəlmiş, burada böyük qarşılanma mərasimi olmuşdu. Həmin gün axşam Yevlaxdan yola düşən Nuru Paşa mayın 25-də Gəncəyə daxil olmuş, şəhər əhalisi tərəfindən böyük təntənə ilə qarşılanmışdı. M.Ə.Rəsulzadə həmin gün müdhiş bir anarxiyaya məruz qalmış, digər tərəfdən də, bolşevik təcavüzü ilə təhdid olunan Gəncənin Nuru Paşanı göydən enmiş xilaskar bir mələk kimi qarşıladığını yazmışdı.

Bu hadisələrlə eyni vaxtda 1918-ci il mayın 21-də Gəncəyə doğru hücuma keçən düşmən qüvvələrlə Müsəlman Korpusunun Hacıqabul ətrafına gətirilmiş hərbi birləşmələri arasında ilk toqquşma baş verdi. Müsəlman Korpusu qüvvələrinə tatar süvari alayı, nişançı alay, knyaz Maqalovun başçılıq etdiyi Borçalı süvari alayının bir bölüyü, Şəki süvari alayının iki bölüyü, Ləzgi süvari alayı, Azərbaycan könüllüləri dəstəsi, Xan Naxçıvanskinin süvari dəstəsi daxil idi. Müsəlman Korpusunun tərkibində gürcü korpusunun bir təlim taboru və pulemyot komandası da var idi. Həmin hərbi qüvvələrə ümumi rəhbərlik knyaz Maqalova tapşırılmışdı. Bununla belə, Bakı Soveti hərbi birləşmələrinin əsas zərbə qüvvəsinin bu

istiqamətə yönəldilməsi nəticəsində hələ tam formalaşmamış Müsəlman Korpusunun hissə və bölmələri düşmənin qarşısını saxlaya bilmədi. Say və hərbi texnika cəhətdən böyük üstünlüyə malik olan daşnak-bolşevik qoşunları Hacıqabul ətrafındakı müdafiəni yararaq, Gəncəyə doğru irəliləməyə başladılar. Daşnakların üstünlük təşkil etdiyi silahlı birləşmələr yerli müsəlman əhaliyə qarşı görünməmiş vəhşiliklər törədirdi. Yaranmış şəraitdə Azərbaycan dövləti etibarlı müdafiənin təşkilində və ərazi bütövlüyünün təmin edilməsində daha güclü dəstək almaq məcburiyyətində qaldı. Azərbaycan xalqını növbəti faciə və qırğınlardan qurtarmaq üçün yeganə çıxış yolu Osmanlı Türkiyəsindən rəsmi sazişə əsaslanan hərbi yardım almaq idi. Çünki yaranmış vəziyyətdə daşnak-bolşevik qüvvələrini durdurmağın başqa yolu qalmamışdı.

Bu baxımdan «Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Cumhuriyyəti arasında dostluq müqaviləsi»nin (1918-ci il 4 iyun) bağlanması ölkənin hərbi təcavüzdən müdafiəsinin təşkili baxımından xüsusi əhəmiyyət kəsb etdi. Həmin müqavilənin 4-cü maddəsində İmperator Osmanlı hökuməti Azərbaycan Respublikası hökumətinə qayda-qanunun və ölkənin təhlükəsizliyinin təmin olunmasına ehtiyac duyulduğu təqdirdə, hərbi qüvvə ilə kömək etməyi öhdəsinə götürdüyünü bildirirdi. Müqavilənin 5-ci maddəsində o dövrdə böyük əhəmiyyət daşıyan bir məsələyə toxunulurdu:

«Azərbaycan Respublikası hökuməti həmin ərazilərin hüdudlarında silahlı quldur dəstələrinin təşkilinə ciddi-cəhdlə mane olmağı və bu ərazidə sığınacaq tapmış quldur dəstələrini tərksilah edib, zərərsizləşdirməyi öz öhdəsinə götürür».[28]

Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.H.Hacınski Osmanlı dövləti ilə bağlanmış müqavilə

28 ARDA, f. 894, s. 2, iş 88, v. 1-3

əsasında hərbi yardım göstərilməsi üçün Azərbaycan Respublikası adından Türkiyə hökumətinə müraciət etdilər. Məqsəd Azərbaycan ərazisində öz başlıca vəzifələrinin icrası naminə fəaliyyətə başlaması üçün milli hökumətə müvafiq şəraitin yaradılması idi. Osmanlı hökuməti tərəfindən müqaviləni Ədliyyə naziri Xəlil bəy, 3-cü ordunun komandiri Vəhib Paşa imzalamışdılar. Azərbaycanın müraciətini müsbət cavablandıran qardaş dövlət dərhal lazımi tədbirlər gördü. Türk hərbi qüvvələrinin yeni dəstəsi, 5-ci Qafqaz diviziyası (diviziyanın komandiri Mürsəl bəy idi – L.Ş.) Gümrü və Qazax istiqamətindən Azərbaycana yardım üçün hərəkət etdi. Bu qüvvələr iki qrup halında Qazaxa gəlmişdir.

1-ci qrup: Diviziya qərargahı; 10-cu Qafqaz alayı; 9-cu Qafqaz alayına mənsub 26-cı tabor; Dağ topçu taboru; İstehkam bölüyü; Teleqraf taqımı; Orkestr bölüyü; Cəmi: 147 zabit, 1812 əsgər; 698 heyvan.

2-ci qrup: 13-cü Qafqaz alayı; Dağ topçu taboru; Səhiyyə bölüyü: 24-cü səyyar xəstəxana; Səyyar mətbəx taqımı: Cəmi: 110 zabit, 2763 əsgər, 668 heyvan.

Osmanlı ordusu Cəlaloğlu, Sadaxlı, Kəmərli, Aslanbəyli, Qazax istiqamətində hərəkət edərək 1918-ci il iyunun 11-də birinci qrup, bir gün sonra isə ikinci qrup Qazaxa gəldi. Qazaxda Azərilər türk ordusunu tarixdə görünməmiş bir sevinc və səmimiyyətlə qarşıladı. [29]

29 (İstefada olan podpolkovnik Rüşti. Bakı yollarında. Hərbi məcmuə. №93, səh. 24-25).

1.3 Cümhuriyyətin ilk aylarında ordu quruculuğu

1918-ci ilin iyunundan etibarən yerlərdə dövlət orqanlarının yaradılmasına başlayan Azərbaycan hökuməti Qafqaz İslam Ordusunun imkanlarından maksimum istifadə etməyə çalışırdı. Ölkənin müdafiəsinin təmin edilməsi üçün bu ordu vasitəsi ilə həyata keçirilən ilk mühüm tədbir Azərbaycan hökumətinin Tiflisdən Gəncəyə köçürülməsi üçün müvafiq təhlükəsizlik tədbirlərinin görülməsi oldu. İyun ayının 17-də Gəncədə Azərbaycan Cümhuriyyətinin F.X.Xoyskinin başçılığı altında ikinci hökumət kabinəsi təşkil olundu. Cümhuriyyətin ilk aylarında ölkə ərazisində ciddi döyüşlərin getdiyi bir vaxtda milli qoşun hissələrinin formalaşdırılması üçün normal şərait olmasa da, bütün imkanların səfərbər edilməsi ilə həm ordu quruculuğunda, həm də müstəqil hakimiyyətin formalaşdırılmasında yeni mərhələ başlandı.

Ordunun yaradılması istiqamətində atılmış ən mühüm addımlardan biri Əlahiddə Azərbaycan Korpusunun yaradılması oldu. 1918-ci il iyunun 26-da Nazirlər Şurasının qərarı ilə Müsəlman Korpusu Əlahiddə Azərbaycan Korpusu adlandırıldı və yeni əlverişli şəraitdə Silahlı Qüvvələrin təşkili istiqamətində növbəti mərhələ başlanmış oldu. Korpusun strukturu yenidən qurulmuş, onun tərkibindəki diviziya qərargahları ləğv edilmişdi. Bu vaxt qarşıda duran başlıca vəzifə Bakının əsasən ermənilərdən ibarət daşnak və bolşevik qüvvələrindən azad edilməsi olduğundan Korpusun fəaliyyəti Qafqaz İslam Ordusu ilə əlaqələndirilirdi. Məhz bununla bağlı idi ki, Bakı uğrunda qanlı, intensiv döyüşlərin aparıldığı, hərbi əməliyyatların şəhərə yaxın ərazilərdə getdiyi dövrdə bütün qüvvələrin vahid mərkəzdən istiqamətləndirilməsi məqsədilə Qafqaz İslam Ordusu komandanı 1918-ci il avqustun 13-də

Əlahiddə Azərbaycan Korpusu qərargahının fəaliyyətinin müvəqqəti dayandırılması barədə əmr imzalamışdı. Həmin əmrlə Korpusun tərkibindəki hissələr birbaşa Qafqaz İslam Ordusu komandanlığına tabe etdirilmişdi. Hərbi qüvvələrin vahid komandanlıq tərəfindən idarə edilməsi zərurətindən irəli gələn bu addım döyüşlərin gedişinə müsbət təsir göstərdi. Həmin vaxtadək müşahidə olunan bəzi pərakəndəliklərə tamamilə son qoyulması düşmənə qətiyyətli zərbələr vurulmasına imkan yaratdı. 1918- ci il sentyabrın 15-də Bakı daşnak-bolşevik qaragüruhundan azad edildikdən bir neçə gün sonra Əlahiddə Azərbaycan Korpusunun qərargahı fəaliyyətini bərpa etdi. General- leytenant Əliağa Şıxlinski Korpusun komandiri, polkovnik Həbib bəy Səlimov isə qərargah rəisi kimi öz vəzifələrini tam səlahiyyətlə yerinə yetirməyə başladılar.

Korpusun tərkibində yenidən təşkil olunmuş iki piyada diviziyasından birinciyə 9-cu Qafqaz alayının komandiri albay (polkovnik) Cəmil Cahid bəy (sonralar Türkiyənin müdafiə naziri olmuşdur – L.Ş.), ikinciyə isə Qafqaz İslam Ordusunun qərargah rəisi olmuş Nazim bəy komandir təyin edilmişdi. Bu diviziyaların hər birinin tərkibində üç piyada alayı vardı. 1918-ci il oktyabrın ortalarında artıq 1-ci diviziyanın tərkibində üç süvari alayı, bir sərhəd və bir topçu alayı var idi. Həmin vaxt Qafqaz İslam Ordusu komandanının tabeliyində 4-cü Azərbaycan süvari alayının da formalaşdırılmasına başlanmışdı. Bununla yanaşı, Əlahiddə Azərbaycan Korpusunun tabeliyində 1-ci ağır topçu taboru, 1-ci haubitsa taboru, teleqraf bölüyü, dəmir yol taboru və təyyarə dəstəsi də var idi. Başqa bir dəyişiklik hərbi hissələrdə yazışmanın Azərbaycan dilində aparılmasının məcburi şərt kimi irəli sürülməsi idi. Əlahiddə Azərbaycan Korpusu komandirinin əmri ilə hissələrdə və hərbi idarələrdə Müsəlman Korpusunun

möhürləri yenilənmiş, möhürlərdəki rus qoşun hissələrinə məxsus ikibaşlı qartalın təsviri, dövrəsindəki hissənin adı və nömrəsini əks etdirən rus dilində yazılar dəyişdirilmişdi. Gümüş manatlıq ölçüsündə olan yeni möhürlərin ortasında səkkizguşəli ulduz və aypara təsviri olmalı, yuxarı kənarı boyunca isə həm rus, həm də Azərbaycan dilində hissənin adı və nömrəsi yazılmalı idi.

Türk hərbçilərinin birbaşa iştirakı və dəstəyi ilə müstəqilliyin təminatçısı olan milli Silahlı Qüvvələrin yaradılması istiqamətində də xeyli işlər görüldü. Ordu quruculuğuprosesininsürətləndirilməsinəmüntəzəmyardımlar göstərən Osmanlı dövlətinin hərbi naziri Ənvər paşanın bu sahədə müstəsna xidmətləri xüsusi qeyd edilməlidir. Belə ki, o, Azərbaycan Silahlı Qüvvələrinin təşkili üçün 2 milyon türk lirəsi həcmində birdəfəlik yardım etmiş, bundan əlavə Qafqaz İslam Ordusu zabit və əsgərlərinin əmək haqqı üçün ayda 50 min lirə ayrılmasına göstəriş vermişdi.

Ordu quruculuğunun təməl şərtlərindən sayılan çağırış və səfərbərlik işlərinin daha səmərəli təşkili istiqamətində görülən tədbirlər yeni yaradılan hərbi hissələrin komplektləşdirilməsinin sürətləndirilməsinə imkan verdi. Bu dövrdə bir sıra bölgələrdə könüllü xalq dəstələri də təşkil edilmiş, Bakı uğrunda döyüşlər zamanı ətraf kəndlərdə toplanmış həmin könüllü qrupların bir hissəsi Maştağa dəstəsində birləşdirilmişdi. Türkiyə və Azərbaycan hərbi qüvvələrinin birgə səyləri nəticəsində 1918-ci ilin iyun-avqust aylarında Gəncə ermənilər tərksilah edildi. Ordunun silah-sursat, digər hərbi ləvazimat, ərzaq, geyim və s. təminatına, yeni təşkil olunan hissələrdə xidmət üçün müvafiq şəraitin yaradılmasına diqqət artırıldı. Bütün bu işlərin görülməsi hökumətin normal fəaliyyəti üçün yerli idarəetmənin təşklinə nail olunmadan mümkün deyildi. Buna

görə də ordunun təşkili prosesi ümumdövlət quruculuğunun tərkib hissəsi kimi onunla paralel aparılırdı. Bu prosesin lazımi qaydada getməsi üçün Cümhuriyyət hökuməti vaxtında qərarlar qəbul edir və onların həyata keçirilməsinə çalışırdı.

Həmin dövrdə Cənubi Qafqazda, ümumən keçmiş çar Rusiyası ərazisində çox mürəkkəb və gərgin şərait mövcud idi. Azərbaycan dörd bir tərəfdən ciddi təhdidlərlə üzbəüz qalmışdı: şimal, şərq və cənubdan bolşevik və «vahid və bölünməz» Rusiya tərəfdarları (Denikin), eyni zamanda, quldur basqınları ilə əlaqədar İranla sərhədlərdəki ağır vəziyyət, qərbdən ən təhlükəli və məkrli düşmən olan ermənilərin hərəkətləri Azərbaycan dövlətinin varlığını təhlükə altına almışdı. Hökumət yaranmış gərgin vəziyyəti nəzərə alaraq, iyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etmişdi. 1918-ci ilin iyulun 11-də isə milli orduya çağırış haqqında əmr verilmiş və 1894-1899-cu illərdə anadan olmuş 19-24 yaşlı oğlanlar səfərbərliyə alınmışdı.

Düşmən qüvvələr də fəaliyyətdə idilər. Bakı Sovetinin ixtiyarında olan, mütləq əksəriyyəti ermənilərdən ibarət hərbi birləşmələr iyunun 12-də Kürdəmiri işğal edib, Göyçaya yaxınlaşdılar. Bu qüvvələrə qarşı döyüşün intensivliyini, effektivliyini təmin etmək və Bakıya doğru hərəkəti sürətləndirmək üçün Nuru Paşa orduda islahatlar apararaq, onu iki cinahda yenidən qruplaşdırdı. Bu addımı şərtləndirən əsas amil ordu hissələri arasında əlaqəni təmin etməkdən ibarət idi. Çünki Göyçay-Şamaxı-Bakı şose yolu və Tiflis-Bakı dəmir yolu boyunca hərəkət edən qoşun hissələri məsafəcə bir-birindən daha da uzaqlaşırdılar. Belə bir vəziyyətdə ordunu çevik idarə etməkdə, hücumları əlaqəli şəkildə davam

etdirməkdə problemlər yarana bilərdi ki, bunu da öncədən aradan qaldırmaq lazım gəlirdi.[30]

Göyçay ərazisində qanlı döyüşlər (təkcə Qaraməryəmdə milli qüvvələr 220 nəfər itki vermişdilər) iki həftədən çox davam etdi. Ciddi müqavimətlə üzləşən düşmən Türkiyədən göndərilən əlavə qüvvələrin və Azərbaycan könüllülərinin hesabına məğlub edildi. Qafqaz-İslam Ordusunun Göyçay ətrafındakı qələbəsi hadisələrin gedişini tamamilə milli hökumətin xeyrinə dəyişməklə, Azərbaycanın şərq hissəsinin, o cümlədən Bakının daşnak-bolşevik işğalından azad edilməsinə ilk zəmin yaratdı. Məhz həmin döyüşlərin gedişində sarsıdıcı zərbələr alan düşmənin müqaviməti tamamilə qırıldı. Bolşevik-daşnak birləşmələrini darmadağın edən Qafqaz İslam Ordusunun Bakı istiqamətində başlatdığı azadlıq yürüşündə növbəti şanlı qələbə iyul ayının 20-də mühüm strateji məntəqə olan Şamaxı şəhərinin azad edilməsi oldu. Düşdüyü acınacaqlı durumdan bir daha özünə gələ bilməyən Bakı Soveti iyulun sonunda fəaliyyətini dayandırmaq, acı məğlubiyyətini istefa verməklə pərdələmək məcburiyyətində qaldı. Başılıca məqsədə çatmaq üçün Qafqaz İslam Ordusu Bakıya doğru hərəkətini davam etdirdi. İyulun 31-nə keçən gecə düşmənə sarsıdıcı zərbələr endirən Ordunun H.Səlimovun komandirlik etdiyi "Şimal" qrupu sübhə yaxın Heybət stansiyasından təxminən iki kilometr şimala doğru yüksəkliyi tutdu. İntensiv hücumlardan sonra Xırdalan qəsəbəsini azad edən Türk-Azərbaycan əsgərləri Sumqayıta daxil oldular.

Şəhəri əldə saxlamaq üçün çar polkovniki L.Biçeraxovdan yardım almaq ümidləri doğrulmayan Bakı Sovetinin bəzi qüvvələri, xüsusilə daşnaklar 1918-ci il avqustun 1-də eser və menşeviklərlə birləşərək "Sentrokaspi" diktaturası ("Mərkəzi

30 Süleymanov M. Azərbaycan ordusu. B., 1998, s.107

Xəzər Diktaturası") adlanan mürtəce bir qurum yaratdılar və vaxt itirmədən ingilisləri Bakıya çağırdılar. Ancaq bu manevr də nəticə vermədi. "Sentrokaspi"çilər, Birinci Qafqaz Qırmızı Korpusu, həmçinin avqust ayının əvvəllərində L.Denstervil başda olmaqla Bakıya daxil olan ingilis hərbi qüvvələri də şəhəri Qafqaz İslam Ordusunun hücumundan müdafiə etmək iqtidarında deyildi. İngilis qüvvələrinin bir qrupu, sayı təqribən 240 nəfərə çatan dəstə avqustun 4-də polkovnik Stolsun başçılığı altında Bakıya gəlmişdi. Şəhərin xristian əhalisi, xüsusilə ermənilər geyim və davranışları ilə daha çox parad iştirakçısı təsiri bağışlayan ingilisləri orkestrin sədaları altında təntənəli şüarlar, gül-çiçəklə qarşılamışdı. Ancaq ingilis əsgərlərinin sayının azlığını görən ermənilər tez də məyus olmuşdular.

Gəncə hərbi məktəbinin zabit və əsgərləri

Denstervill və onun qərargahı avqustun 17-də Bakıya gəldi. "Mərkəzi Xəzər Diktaturası" rəhbərlərinin vədinə baxmayaraq, cəbhə ingilislərə tabe etdirildi. Hərbi hissələrə nəzarəti və Bakının müdafiəsini bütövlükdə ixtiyarına alan Denstervill qoşunların yenidən qurulmasını məqsədəuyğun sayaraq tədbirlər görməyə başladı. O, yerli qoşunları etibarsız

silahlı dəstələr saymaqda haqlı idi. Çünki əsasını ermənilərin təşkil etdiyi 22 tabordan ibarət bu qüvvələr ingilislərin Bakıya gəlişindək vaxtlarının çoxunu eyş-işrətdə keçirirdi. Ona görə də cəbhənin ən vacib, müdafiə olunmalı hissələrində ingilis qoşunları mövqe tutmağa başladılar.

Qafqaz İslam Ordusunun avqustun 5-dən Bakı üzərinə intensiv hücumları qarşısında dayana bilməyən "Sentrokaspi" diktaturası və dəstəkçi qüvvələr geri çəkildi. Bayılı ələ keçirən milli hissələr Bibiheybət və Qurd qapısı istiqamətlərindən mərkəzə doğru xeyli irəlilədi. Ancaq toplar mərmisiz qaldığından piyada hissələrin sürətli hərəkətini davam etdirmək mümkün olmadı. Bundan istifadə edən düşmən qısamüddətli də olsa, uğur qazandı. Qafqaz İslam Ordusunun hissələri Bibiheybət və Qurd qapısı istiqamətlərində geri çəkilmək məcburiyyətində qaldı.

Bu vaxt orduda ruh düşkünlüyü yaranacağından ehtiyat edən ziyalılar döyüşçülərin özünə inamını gücləndirmək, döyüş ruhunu yüksəltmək üçün avqust ayının 10-da türk əsgərlərinə belə bir müraciət hazırlayıb göndərdilər:

"Neft və milyonlar səltənəti adlanan Bakının qapıları önündə neçə gündür qələbə quşunun qanadlarını tutmaq istəyən türk ordusuna. Bu gözəl şəhəri azad edə bilməsəniz, türkün və onun ordusunun şərəfini indi dayandığınız xəndəklərin içində basdırmış olacaqsınız. Əgər siz bu sərvət və qızıl şəhərini azad edə bilməsəniz, Qafqaz türkləri və Türküstan müsəlmanlarının ürəyinə sancılmış xəncərin üzərinə "Heyif ki, türk bizə köməyə gəlmədi" cümləsi yazılacaq. Qafqaz fəryad edəcək, Türküstan ağlayacaq... Ey türk əsgəri! Əgər sən bu şəhəri almasan, Bakıda sənin üçün hazırlanan süfrələr qonaqsız qalacaq, sənin üçün tikilən geyimi düşmənin geyinəcək. Sənin üçün verilən qurbanlar qəbul edilməyəcək, sənin üçün kəsilən qurbanlar

düşmənə qalacaqdır. Əgər sən bu şəhəri ala bilməsən, İslam gəlinlərinin duvaqlarını kafirlər yırtacaq, yenə mübarək İslam qanı qırmızı şərablar kimi vəhşi işgəncələrin yolunda axacaqdır. Sənin zəfərin üçün dua edən əlləri zalımlar kəsəcəkdir. Əgər sən bu şəhəri ala bilməsən, qadınlar saçlarını yolacaq, ağlını itirəcəkdir. İndiyə qədər axan qanlar boş yerə axmış olacaq, sən də bu toz-torpaqlı yerlərdə pərişan və səfil olacaqsan, türkün gözlərini çıxarıb iplərə düzən düşmənləri şənləndirəcəksən. Fəqət sən, ey türk əsgəri! İngilislərin gücünü öz gücünlə Çanaqqalada darmadağın etdin. Ən böyük döyüş gəmilərinin böyük mərmilərinə sinə gərdin. Quttuləmmarədə 14000 əsir götürdün. Qarşındakı düşmənin çoxunu, ermənilər, bəlkə, Azərbaycandan, Qarsdan bəri qabağına qataraq bu şəhərə qədər sıxışdırdın. Türk adını yüksəldən Çanaqqala, Quttuləmmarə, Qalisiya, Rumıniyadan sonra Qafqaz gələcək və Bakı şəhəri də igidlik tacının bir almaz qaşı olacaqdır. Al Bakını! Vətənə bir almaz ərməğan et! [31]

Həmin vaxt diplomatik cəbhədə də əsl müharibə vəziyyəti mövcud idi. Berlində üç aya qədər davam edən Almaniya–Rusiya danışıqlarında bu ölkələr arasındakı gizli sövdələşmədən (1918 il 27 avqust tarixli saziş) xəbər tutan, İstanbulda olan Azərbaycan nümayəndələri Almaniyanın Türkiyədəki səfirliyinə etiraz notası təqdim etdilər. Notanın surəti Türkiyə Xarici İşlər Nazirliyinə, Avstriya-Macarıstan və Bolqarıstan səfirliklərinə, həmçinin bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə də verildi.

Tədqiqatçı-alim Akif Aşırlı "Cümhuriyət dövrü mətbuatında Qafqaz İslam Ordusu" kitabında türk müəllif Şevket Sürəyya Aydəmirin "Makedoniyadan Orta Asiyayadək

" 525-ci qəzet, "15 sentyabr - Anadolu və Qafqaz türklərinin əbədi qardaşlıq günü" H.Nərimanoğlu, 11.09.2018.

Ənvər Paşa” əsərinə istinadla yazır: “Gürcüstanda artıq öz hərbi kontingentini yerləşdirən Almaniya hələ 1918-ci ildən Qafqazı planlarına daxil etməklə Gürcüstanın zəngin marqans ehtiyatlarını, Ermənistanın mis mədənlərini və zəngin Bakı neftini ələ keçirmək üçün fəaliyyətə başlayaraq Qafqaza hərəkətdə Osmanlı imperatorluğuna, onun hərbi gücünə arxalansa da, sonradan mövqeyini dəyişdi. Çünki bu qədər zəngin təbii ehtiyatlara təkbaşına sahib olmaq niyyətində idi. Türkiyə isə Qafqazda olan müsəlmanların, eyni dildə danışan qardaşlarının bolşevik-erməni təhlükəsindən xilası və onların milli haqlarının qorunması üçün yaradılmış Azərbaycan Xalq Cümhuriyyətini qorumaq üçün Azərbaycanın milli hərbi qüvvələri və könüllüləri ilə birgə savaş meydanında döyüşürdü. Alman siyasi dairələri Azərbaycan türklərini tatar adlandıraraq, türksoylu olmadığı iddiası ilə çıxış edir, Osmanlı dövlətini təhdid edir, Qafqaz İslam Ordusunun Bakıya doğru hərəkətini dayandırmaq istəyirdi”.[32]

1918-ci ilin sentyabrında yaranmış beynəlxalq vəziyyət Bakının tezliklə azad olunmasını zəruri edirdi. Almaniya ilə Rusiya arasında 27 avqust sazişindən sonra Bakı ətrafında döyüşlər yenidən qızışdı. Bu zaman İstanbulda olan M.Ə.Rəsulzadə Almaniya və müttəfiqlərinin Birinci dünya müharibəsində məğlubiyyəti və yeni siyasi vəziyyətlə bağlı Bakının nəyin bahasına olursa-olsun azad edilməsini və buna Osmanlı dövlətinin köməyi ilə nail olmağın mümkünlüyünü qeyd edirdi. Onun qənaətincə, “əgər biz buna tezliklə nail ola bilməsək, əlvida, Azərbaycan deməli olacağıq”.

M.Ə.Rəsulzadə məhz bu məqsədlə bölgəyə təcili olaraq Osmanlı dövləti tərəfindən yeni hərbi qüvvələrin

32 Aşırlı A. Cümhuriyət dövrü mətbuatında Qafqaz İslam Ordusu, Nurlan, B., 2007, s. 30

göndərilməsini istəyirdi. Bu təkidlər avqust ayının 13-də 107-ci Qafqaz türk alayının 1200 nəfər canlı qüvvə və 12 pulemyotla Azərbaycana gəlməsi ilə nəticələndi. Avqustun 27-də isə 15-ci türk diviziyasının Azərbaycana göndərilməsi qərara alındı. Həmin qüvvələrin gəlişindən sonra Türkiyə Şərq orduları qrup komandanı Xəlil Paşa da Bakı civarına gəlməli, şəhər üzərinə sentyabrın 11-nə planlaşdırılmış həlledici döyüşü izləməli idi. Qafqaz İslam Ordusu qərargahının əməliyyat planına görə isə, Bakı sentyabrın 14-ü gecə saat 2-də başlanan həlledici döyüşlə azad olunmalı idi.

Qafqaz İslam Ordusunun zabitləri şəfqət bacıları ilə birlikdə. Gəncə, 1918

Qafqaz İslam Ordusu güclü müqavimətə baxmayaraq, sentyabrın 15-də dörd mindən artıq əsgər və zabit şəhid vermək bahasına da olsa, Qurban bayramı günündə Bakını düşmənlərdən azad etdi. Bakının alınması uğrundakı son döyüşdə ən çox itkini 56 və 109-cu alaylar vermişdi. Bununla da, 1918-ci il mayın 28-dən sonrakı dövrdə Azərbaycanın həyatında ikinci mühüm hadisə baş verdi. İki gün sonra isə Azərbaycan hökuməti tam heyətdə paytaxt Bakıya köçdü.

Həmin günlər Bakı uğrunda gedən qızğın döyüşlərin iştirakçısı olmuş 5-ci Qafqaz piyada diviziyasının alay komandiri yarbay (polkovnik-leytenant) Rüştü bəy sonralar çap etdirdiyi "Böyük Hərbdə Bakı yollarında. 5-ci Qafqaz piyada firqəsi" kitabında yazırdı: "5-ci Qafqaz firqəsi heç ana vətəndəki döyüşlərdə belə, Azərbaycanda olduğu qədər çətin, qanlı itkilərə uğramamışdı. Həm din, həm də irqini qurtarmaq üçün, mənsub olduğu ordunun qəhrəmanlıq dastanını yerə salmamaq üçün əsgər və zabit heyəti səylə çalışmış, qan axıtmış və canlarını fəda etmişdilər. İstiqlalına vurğun Anadolu türkü, nəhayət, qonşu və qardaş millətin istiqlalını da çətin mübarizələr ilə təmin və azərbaycanlılara təhvil verirdi. Sentyabrın 13-dən 14-nə keçən gecə bütün firqə heç yatmamışdı. 5 avqustdakı məğlubiyyətin acısını çıxarmaq və intiqam almaq üçün hər kəs hücum vaxtının gəlməsini səbirsizliklə gözləyirdi. Axır ki, gözlənilən o saat gəlmiş və kontingent gecənin dərin qaranlıqları içində gündüzdən bələdlənmiş Heybət-Bakı dəmir yoluna doğru axmağa başlamışdı. Bu dəfə Bakının ələ keçiriləcəyinə hamıda inam var idi. Ruh yüksəkliyi hökm sürürdü. İlk qumbara səsləri düşmənin ilk mövqelərinə çatıldığından xəbər verirdi». [33]

Fətəli Xan və Cümhuriyyətin digər rəhbərləri Bakının alınmasını müstəqilliyin əldə edilməsinə bərabər bir addım kimi qiymətləndirir və bu qənaətlərində qətiyyən mübaliğəyə yol vermirdilər. Çünki o dövrdə dünyanın ən mühüm neft sənayesi mərkəzlərindən biri olan bu şəhərin müstəqil dövlətin paytaxtına çevrilməsinin gənc respublikanın mövcudluğu üçün həm çox böyük siyasi, iqtisadi, həm də mənəvi-psixoloji əhəmiyyəti vardı.

33 Rüşdü, Böyük Hərbdə Bakı yollarında.
5-ci Qafqaz piyada firqəsi" s. 202-203.

"Azərbaycan" qəzetinin ilk sayında "Bakının süqutu" başlığı altında xeyli sayda təbrik teleqramları dərc olunmuşdu:

"Qafqaz İslam Ordusu komandanı səadətli Nuru Paşa həzrətlərinə. Təhti komandanızda olan cəsur türk əsgərləriniz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşməndən xilas edildiyi münasibətilə millətin zati ali hümiyyət pərvərənələrinizi dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğunu ərz etməklə iftixar edirəm, efendim. Heyəti vükəla rəisi Fətəli xan.[34]

Qafqaz İslam Ordusu Bakıda

Qəzetin həmin sayında Azərbaycanın hökumət başçısı Şərq orduları qrup komandanı Xəlil Paşaya da təbrik teleqramı ünvanlamışdı: «Bakının, Azərbaycanın istiqbalının səadətini təmin edəcək və türk aləminin ikinci bir İstanbulu olmağa layiq bir mərkəzin türkün cəngavər, namuslu övladlarının qəhrəmancasına hücumları sayəsində düşmənlərdən xilası münasibətilə zati ali hümiyyət pərvərənələrini ən səmimi bir surətdə təbrik edirəm».

Qafqaz İslam Ordusunun hücumunu intensiv izləyən «Возраждения» qəzeti avqustun ilk günlərində yazırdı:

34 "Azərbaycan» qəzeti, 1918. № 1. 15 seniyabr

"Bakının süqutu barədə ilk teleqramı daxili işlər naziri Cavanşir və Nuru Paşa alıb. Elə həmin gün də Nuru Paşanın Bakıya doğru hərəkətinə tələsik hazırlıq işləri görülüb. Vağzalda türk orkestrinin Bakıya yola salınması müşahidə olunub. Türk ordusunun Bakının ətrafında olmasına dair teleqram Yelizavetpolda iyulun 31-də gecə alınıb. Bakıya 20 verst qalmış türklər döyüşə-döyüşə şəhər ətrafına daxil olublar. Bakının alınması barədə məlumatın qəbulundan dərhal sonra Azərbaycan hökuməti öz qərargahını neft səltənətinin paytaxtına köçürməyə başlayıb. Bakının alınması istəyi əhalinin müsəlman hissəsində alqışlarla, ruh yüksəkliyi ilə qarşılanıb".[35]

Bakıdakı türk şəhidliyi abidəsi

Bakının oyuncaq Sentrokaspi qüvvələrindən təmizlənməsi münasibətilə çıxış edən hökumət başçısı Fətəli xan Xoyski demişdi: "Bizim də həyatda yaşamağa, bizim də azad yaşamağa hüququmuz vardır. Heç bir zirehli maşın, hidroplan, aeroplan, kanonerka, məftilli çəpər, mina və sairə texniki qurğu, heç bir qüvvə və onların havadarları tarixin təbii axarına mane ola bilmədilər. Bakının 50 minlik qoşun

35 «Возрождения», 1918, № 158, 6 октября

və texnika ilə birlikdə kiçik bir qüvvənin həmləsi qarşısında süqutu başqasının fəlakəti üzərində öz xoşbəxtliyini qurmaq istəyənlərə ibrət dərsi olmalıdır".[36]

Bakının azad edilməsinin Tələt Paşanın Berlində apardığı danışıqlara müsbət təsir göstərməsi nəticəsində sentyabrın 23-də Almaniya-Osmanlı protokolu imzalandı. Protokola görə Almaniya 27 avqust sazişindən imtina edir, Azərbaycanı diplomatik cəhətdən tanıyacağını, onun müstəqilliyinin Sovet Rusiyası tərəfindən tanınmasına yardım göstərəcəyini vəd edirdi. Türkiyə isə Sovet Rusiyasının Azərbaycanın müstəqilliyini tanıyacağı halda, öz qoşunlarını Brest sülhünə görə müəyyən edilmiş sərhədlərə çəkəcəyini öhdəsinə götürürdü.

1918-ci ilin payızında Birinci dünya müharibəsinin başa çatması, Almaniya-Türkiyə blokunun məğlub olması rəsmi sazişlə təsdiqləndi. Məğlubiyyət ərəfəsində Azərbaycan Cümhuriyyətinin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula gələn Ə.M.Topçubaşov oktyabr ayında Türkiyənin rəsmi dairələri ilə bir sıra görüşlər keçirdi. Oktyabrın 30-da yalnız Türkiyə üçün deyil, Azərbaycan üçün də son dərəcə ağır olan Mudros barışığı (1918) imzalandı. Barışığa görə Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli idi. Türkiyənin nəzarəti altında olan Cənubi Qafqaz dəmir yolu müttəfiqlərin nəzarətinə verilirdi. Türkiyə, eyni zamanda, Bakının müttəfiqlər tərəfindən işğal edilməsinə etiraz etməməli idi. Noyabrın 4-də Ə.Topçubaşov Mudros barışığının Azərbaycana aid maddələri ilə bağlı Türkiyə Xarici İşlər Nazirliyinə etiraz notası verdi.

Yaranmış şərait ölkədə sabitləşməkdə olan vəziyyətin yenidən gərginləşməsinə yol aça bilrdi. Digər tərəfdən, qeyd etmək lazımdır ki, Azərbaycan Hökuməti Bakıya köçdükdən

36 "Azərbaycan" qəzeti, 1918. № 2, 19 sentyabr

sonra da ölkənin ərazi bütövlüyü tamamilə təmin olunmamışdı. Belə ki, cənubda Lənkəran qəzasında müxtəlif antiazərbaycan qüvvələrin fəaliyyəti milli hakimiyyətin yerli strukturlarının yaradılmasına imkan vermirdi. Qarabağda isə erməni silahlı birləşmələrinin azərbaycanlı əhaliyə qarşı vaxtaşırı törətdikləri qırğınlar və bölgənin idarəçiliyində əsas söz sahibi olmağa çalışan erməni milli şurasının həmin dəstələrin cinayətkar əməllərinə rəvac verən fəaliyyəti vəziyyətin sabitləşməsinin qarşısını alırdı. Bütün ölkə ərazisində qayda-qanunu bərpa etməyə, idarəetmə orqanlarının normal işləməsi üçün şərait yaratmağa çalışan hökumət hər iki bölgədə təxirəsalınmaz tədbirlər görmək məcburiyyətində idi. Bu istiqamətdə qətiyyətli tədbirlərdən biri də Qafqaz İslam Ordusu tərəfindən Qarabağda həyata keçirildi. Azərbaycanın Birinci piyada diviziyası və türk hərbi bölmələrindən təşkil edilən həmin qüvvələrin komandiri artıq qeyd etdiyimiz kimi, polkovnik Cəmil Cahid bəy idi. Hərbi əməliyyatların gedişində həmin bölmələr separatçı erməni qüvvələrinə ağır zərbələr vuraraq, qısa müddət ərzində Qarabağda Azərbaycan hakimiyyətinin bərqərar olmasına şərait yaratdılar. Ancaq türk hərbi qüvvələrinin Azərbaycanı tərk etməsi ilə əlaqədar bu əməliyyatların eyni sürətlə davam etdirilməsi, Qarabağın erməni separatçılarından tam təmizlənməsi mümkün olmadı. Ölkənin müdafiəsinin təşkili ilə bağlı bütün ağırlığı öz üzərinə götürmək məcburiyyətində qalan Azərbaycan hökuməti ümumdövlət mənafelərini nəzərə alaraq müstəqil Silahlı Qüvvələrin formalaşdırılması tədbirlərini daha da intensivləşdirdi. Bu məqsədlə hələ oktyabrın 23-də Nazirlər Şurası Hərbi Nazirliyin yaradılması haqqında qərar qəbul etmişdi. Həmin qərarla hökumətin sədri Fətəli Xan Xoyski hərbi nazir, tam artilleriya generalı Səməd bəy Mehmandarov isə onun müavini vəzifəsinə təyin olunmuşdu.

1.4 Hərbi Nazirlik – Cümhuriyyətin milli ordu quruculuğu prosesində yeni mərhələ

Ordu quruculuğunun gücləndirilməsi məqsədilə 1918-ci il noyabrın 1-də Hərbi Nazirliyin bərpa edilməsi qərara alındı. Hərbi Nazirliyin təşkili ilə bağlı məsələlər bu işin peşəkarlarını hələ müstəqilliyin ilk günlərindən düşündürürdü. Azərbaycan Dövlət Arxiv Fondunda saxlanılan, vaxtilə Azərbaycanın hərbi dühaları tərəfindən irəli sürülən layihə və təkliflər bunun əyani təsdiqləridir. Belə layihələrdən birini Azərbaycan Korpusunun komandanı general Ə.Şixlinski hazırlamışdı. Ə.Şıxlinskinin 1918-ci il dekabr ayının 13-də Gəncədən göndərdiyi məlumatdan aydın olur ki, yeni Azərbaycan ordusunun layihəsini hazırlayan peşəkar hərbçi onun strukturunu (korpuslar əvəzinə ənənəvi diviziyaların yaradılması) müəyyən edən sxem tərtib edib. O, hərbi nazir vəzifəsinə böyük təcrübəyə və təhsilə malik zabitin təyin edilməsini tövsiyə edirdi.

1918-ci ilin payızında Azərbaycan ətrafında vəziyyət son dərəcə gərginləşmişdi. Gənc müstəqil dövləti beşiyindəcə boğmaq istəyən qüvvələr, xüsusilə Rusiyada öz hakimiyyətlərini möhkəmləndirən bolşeviklər müxtəlif planlar cızır, yerli dəstəkçilərini bu məqsədin həyata keçirilməsi üçün səfərbər edirdilər. “Sovet Rusiyası, eyni zamanda, hələ 1918-ci ilin noyabrından Bakını və bütün Cənubi Qafqazı ələ keçirmək üçün konkret hərbi hazırlıq tədbirləri görməyə başlamışdı. Rusiya hərbi-inqilab şurasının qərarı ilə 11-ci və 12-ci orduların, həmçinin Həştərxan - Xəzər donanmasının daxil edildiyi ayrıca Xəzər-Qafqaz cəbhəsi yaradılmışdı. Bakını ələ keçirmək, bütün Şimali Azərbaycanı (habelə Cənubi

Qafqazı) işğal etmək üçün "Bakı əməliyyatı" adlı xüsusi hərbi əməliyyat planı hazırlanmışdı".[37]

Yaranmış şəraitdə ordunun təşkili dövlət quruculuğunun mühüm tərkib hissəsi, hətta dövlətin yaşamasının zəruri şərti idi. Tarixi şərait ölkənin müdafiəsinin təminatı, ərazi bütövlüyünün qorunması üçün zəruri və təxirəsalınmaz addımların atılmasını tələb edirdi. Təsadüfi deyildi ki, Nazirlər Şurasının sədri Fətəli Xan Xoyski Parlamentin 1918-ci il dekabrın 26-da keçirilən beşinci iclasında (sədr Həsən bəy Ağayev, katib Əhməd Cövdət Pepinov) "Yeni hökumətin təşkili" məsələsinin müzakirəsi ilə bağlı çıxışında deyirdi: "Siz bilirsiniz ki, beş illik cahan müharibəsindən sonra sülh konfransı qarşısında bizim ən mühüm məsələmiz, istiqlalımız məsələsi olacaqdır. Bu istiqlaliyyəti təsdiq etdirməyi bu halətdə siz bu hökumətə tapşırırsınız. Bu ağır vəzifəni öhdəmizə alırıq. Hökumət hamı vəzifələrdən qabaq, bu istiqlaliyyəti göz bəbəyi kimi müdafiə və mühafizə etməyi özünə borc bilir".[38]

F.Xoyski həmin başlıca vəzifənin necə reallaşdırılacağı barədə fikirlərini də açıqlayırdı: "Məlumdur ki, xariciyyə nəzarəti başqa dövlətlər ilə həm siyasi, həm ticari rabitə yapmalı və həm də sülh ilə işləri əmələ gətirməlidir. Amma sülh ilə əmələ gətirmək o deyildir ki, hökumət özü üçün bir qüvvə hazırlamayacaq. Gərək hər bir dövlət daima özünü müdafiə etmək üçün qüvvə hazırlasın. Ona görə bizim də həm xarici düşmənlərimizə qarşı bizim istiqlalımıza hücum edənlərə qarşı müdafiə edəcək bir qüvvəmiz olsun. Keçmişdə sabiq hökumət belə bir qüvvə təşkili üçün çalışmışdır. Bunun üçün bir təşkilat, bir hazırlıq yapmışdır. İş başında adam qoymuşdur. Şükürlər olsun ki, bir az vaxtdan sonra bunlar əmələ

37 Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, C. I. /Baş red. Yaqub Mahmudov. B., 2004, Lider nəşiriyyatı. s.46
38 ARDA, f. 895, s. 1, iş. 1, v. 50-57

gələcəkdir. Keçmişdə xətalar olmuşsa, şimdidən sonra heç bir xəta olmamalıdır. Əsgəri qüvvə təşkili üçün lazımi tədbirlər ittixaz edilmişdir. Ona görə də ümidvar oluruq ki, parlament bizə yardım edib lazım gələn büdcəni qəbul edəcəkdir".[39]

Hərbi nazir S.Mehmandarov (sağda) və hərbi nazirin müavini Ə.Şıxlinski

Hərbi Nazirliyin bərpasından sonra, ilk növbədə, pərakəndə olan hissələri möhkəmləndirmək, onları vahid rəhbərlik altına gətirmək üçün mərkəzi hərbi idarəetmə orqanlarının təşkilinə diqqət yetirildi. Hökumətin və Hərbi Nazirliyin ölkənin müdafiəsinin təşkili və ordu quruculuğu istiqamətində birgə fəaliyyəti nizami qoşun hissələrinin yaradılması üçün möhkəm zəmin oldu. Hərbi Nazirliyin təşkili barədə hökumət qərarından iki həftə sonra, noyabrın 15-də ordunun Ümumi Qərargahının təsis edilməsi barədə S.Mehmandarov müvafiq əmr imzaladı. Qısa müddətdə Hərbi Nazirliyin müxtəlif struktur bölmələrdən ibarət aparatı formalaşdırıldı. Nazirliyin stukturuna Ümumi qərargah, Ləvazimat, Topçu, Hərbi-tibb, Hərbi-baytar idarələri, General-kvartirmeyster şöbəsi və digər struktur bölmələr daxil idi.

39 Yenə orada

Mudros barışığına əsasən, 1918-ci il noyabrın 17-də ingilis generalı Tomsonun başçılıq etdiyi müttəfiq qoşunları Bakıya daxil oldular. Tomsonun tələbi ilə o, şəhərə girməzdən əvvəl türk qoşunları kimi Azərbaycan qoşunları da Bakını tərk etdilər. Başlıca səbəb general Tomsonun iqtisadi və hərbi-siyasi baxımdan mühüm strateji mərkəz saydığı Bakıya tam nəzarət etmək istəyi ilə bağlı idi. Müstəqil Azərbaycan hökumətini tanımaq istəməyən ingilis generalı bu hökumətin nəzarəti altında olan hərbi qüvvələrə etibar etmirdi. Ancaq Hərbi Nazirliyin Bakıdan kənarda fəaliyyət göstərməsinə də etiraz etmirdi. Buna görə 1918-ci il noyabrın 22-də Gəncəyə köçən Hərbi Nazirlik fəaliyyətini burada davam etdirdi.

Hərbi Nazirliyin Gəncəyə köçürülməsi, Bakıda yerləşən hökumətin digər strukturları ilə qarşılıqlı fəaliyyətdə müəyyən çətinliklər yaradırdı. Bir sıra hallarda ordunun təşkili ilə bağlı operativ qərarların qəbulunun ləngiməsi, onun formalaşması prosesinə təsir göstərirdi. Ancaq bütün bunlara baxmayaraq, Hərbi Nazirliyin səmərəli fəaliyyətinin təşkil olunması ordu quruculuğunun ardıcıl davam etdirilməsinə zəmin yaratdı. Nazirlik rəhbərliyinin hərbi işin incəliklərinə bələdliyi, yüksək təşkilatçılıq qabiliyyəti qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verdi. Bütün bunların nəticəsi idi ki, Cümhuriyyət Silahlı Qüvvələrinin əsas bölmələrinin təşkili məhz Hərbi Nazirliyin Gəncədə yerləşdiyi dövrdə reallaşdı.

Hərbi Nazirliyin fəaliyyətə başlamasına qədər ölkənin mövcud milli hərbi hissə və birləşmələri vəziyyətlə əlaqədar, əsasən, Gəncədə və Qarabağda yerləşdirilmişdi. Nazirlik Gəncəyə köçdükdən bir neçə gün sonra - 1918-ci il noyabrın 27-dən dekabrın 3-dək vəziyyətlə şəxsən yerində tanış olmaq üçün hərbi nazirin müavini S.Mehmandarov Gəncə və Qarabağda yerləşən qoşun hissələrinə gedərək, onlara baxış

keçirdi. Həmin yoxlamaların nəticələri barədə hərbi nazirin müavini 1918-ci il dekabrın 5-də 8 saylı əmr imzaladı. Əmrdə deyilirdi: "Birinci Tatar süvari alayına noyabrın 27-də baxış keçirdim. Alayın komandiri polkovnik Hacıbəylinskidir. Adamların görünüşü qəmgindir, pis təsir bağışlayırlar, geyim və ərzaq təminatı yaxşı deyil. Yemək pisdir və bölgüyə əsaslanmır. Alay komandiri qeyd edilən bütün nöqsanların aradan qaldırılması üçün tədbirlər görsün. Dekabrın 2-də Tərtər ərazisində yerləşən İkinci Qarabağ süvari alayının hissələrinə yoxlama baxışı keçirdim. Baxışa piyada şəkildə 2-ci pulemyot bölüyü və süvari komandası çıxarılmışdılar. Alayın komandiri polkovnik Əfəndiyevdir. Adamlar isti gödəkcə, gen şalvar, papaq geyinmişdilər. Alayda hamıya gödəkçə çatmır, şinellər yoxdur. Uzunboğaz çəkmələr çox azında var, o da şəxsidir. Dekabrın 3-də mən Ağdamda və ətrafında yerləşən hissələrlə tanış oldum. Qərargah komandası cəmi 25 nəfərdir. Onlardan 20 nəfəri əsgər geyimindədir, qalanları əllərinə düşəni geyiniblər. Hərbçi təsiri bağışlamırlar. Tüfəngi doldurulmuş şəkildə saxlayırlar. Dərhal güllələrin ancaq qarovulda dayananlara verilməsi üçün tədbir görülsün. 4-cü dağ batereyası 51 nəfər və 50 atdan ibarətdir. Batereya komandiri kapitan Nəbibəyovdur. Adamların görkəmi yaxşıdır, hərbçi təsiri bağışlayır və gümrah görünürlər. Yaxşı qidalanırlar, çörək əladır. Şəxsi heyətin yerləşdiyi bina təhlükəli vəziyyətdədir. Park açıq səma altındadır. 5-ci dağ batareyası. Batareya Ağdam çaxır zavodunun həyətində yerləşir. Mənim gəlişim və baxışa hazırlıq barədə heç kim məlumatlı deyil. Adamlar toplaşmayıblar. Təcrübəsizlik dərhal gözə çarpır".[40]

Əmrdə bütün bu nöqsanlar qeyd edilməklə onların aradan qaldırılması üçün konkret tapşırıqlar verilmişdi.

40 ARDA, f. 2894, c. 1, iş 1, v. 6

Hərbi hissələrə baxış zamanı, həmçinin müstəqil dövlətin qoşunlarında xidmət edən bütün əsgər və zabitlərdən dərhal Cümhuriyyətə sədaqət andı içmələri tələb edildi.

Nizami ordu quruculuğu üçün əsas olan silahlı qüvvələrin peşəkar özəyinin gücləndirilməsi məqsədilə ilk tədbirlərdən biri kimi vaxtilə çar ordusunda xidmət etmiş zabitlərin ordu sıralarına cəlb edilməsi işi daha da sürətləndirildi. S.Mehmandarovun hərbi nazirin adından imzaladığı 1918-ci il 15 dekabr tarixli 15 saylı əmr məhz bu məqsədə xidmət edirdi: "Adları aşağıdakı siyahıda qeyd olunan generallar, qərargah zabitləri, ober-zabitlər Azərbaycan Respublikası qoşunları sıralarına xidmətə qəbul edilir, adlarının qarşısında göstərilən tarixdən etibarən pul və digər təminatları ayrılır:

Cümhuriyyət Ordusunun bir qrup zabiti

1. Polkovnik Şahzadə Məmməd Qacar – Artilleriya briqadasının komandiri, 25 noyabrdan.

2. Polkovnik Qauzen - Tədris taborunun komandiri, 6 dekabrdan.

3. Polkovnik Qoroşenko - 1-ci piyada diviziya qərargahının rəisi vəzifəsinin müvəqqəti icraçısı, 12 dekabrdan

4. Polkovnik İvanov - Hərbi Nazirliyin komendantı vəzifəsinin icraçısı, 5 dekabrdan.

5. Polkovnik Klimentov – vəzifəyə təyin olunmaq üçün Hərbi Nazirliyin sərəncamına göndərilir.

6. Podpolkovnik Əliyev – Hərbi-topoqrafiya şöbəsi rəisi vəzifəsinin icraçısı, 4 dekabrdan.

7. Vəzirov – Yelizavetpol (Gəncə) qəzasının Hərbi rəisi vəzifəsinin icraçısı, 1 dekabrdan.

8. Şahzadə Sədrəddin Qacar – 1-ci piyada diviziyasına, 24 noyabrdan.

9. Podpolkovnik Kazımbəyov – Tədris taboru komandirinin müavini, 28 noyabrdan.

10. Podpolkovnik Kodin - Ümumi Qərargahın böyük yavəri vəzifəsinin icraşısı, 12 dekabrdan".[41]

Həmin əmrlə 39 nəfər ordu sıralarına qəbul edilmişdi. Hərbi nazirin 1919-cu il 3 fevral tarixli, 55 saylı əmri ilə isə 95 nəfər (onların 90 nəfəri hərbi rütbəli şəxs idi) xidmətə qəbul olunmuşdu.

General Mehmandarovun Gəncə şəhərində artıq hərbi nazir kimi imzaladığı 1919-cu il 3 yanvar tarixli 4 saylı əmrdə deyilirdi: "1918-ci il dekabr ayının 25-də mən Azərbaycan Respublikasının hərbi naziri təyin olunmuşam, bunu Hərbi İdarəyə elan edirəm.

Azərbaycan Korpusunun komandiri general-leytenant Şıxlinski Nazirlər Şurasının 1918-ci il 29 dekabr tarixli qərarı ilə hərbi nazirin müavini təyin olunub.

Hərbi Nazirliyin hissələrinin, idarələrinin, müəssisələrinin ştatlarının və əmək haqqı təminatı cədvəllərinin işlənib hazırlanması üçün hərbi nazirin müavini general-leytenant Şıxlinskinin rəhbərliyi ilə aşağıdakı üzvlərdən ibarət komissiya

41 ARDA, f. 2894, c. 6, iş 20, v. 1

yaradıram: süvari diviziyasının rəisi general-mayor Şahzadə Qacar, Baş Qərargahın növbətçi generalı vəzifəsinin icraçısı polkovnik Qaytabaşı, Artilleriya briqadasının komandiri Şahzadə general-mayor Məmməd Mirzə Qacar, Artilleriya İdarəsinin rəisi general-mayor Tlexas, 1-ci Tatar süvari alayının komandiri polkovnik Ağalarov, Mühəndis şöbəsinin rəisi polkovnik Vəkilov. Komissiyanın işində iştirak edirlər: Baş Qərargahın rəisi polkovnik Səlimov, Ləvazimat İdarəsinin rəisi polkovnik Serebrennikov.

Komissiya Baş Qərargahda toplanır və bu il yanvar ayının 15-də axşam saat 6-da öz işinə başlayır.

Göstərilən vaxta qədər bütün şöbə, idarə və müəssisə rəisləri onlara həvalə olunmuş hissələrin ştatları barədə öz təkliflərini bu Komissiyaya təqdim etsinlər.

Azərbaycan Respublikasının hərbi hissələri üzrə geyim formasının işlənib hazırlanması bu Komissiyaya həvalə olunur.

Komissiya öz işini bu ilin 31 yanvarına qədər başa çatdırsın və yekun qərar üçün mənə təqdim etsin.”[42]

Nazirin əmrində geyim forması ilə bağlı verilən göstərişlər vaxtında yerinə yetirildi. Milli ordunun geyim formasının hazırlanması məqsədilə general-leytenant Əlağa Şıxlinskinin rəhbərlik etdiyi xüsusi komissiya yaradıldı. Komissiyanın öz işnin öhdəsindən bacarıqla gəlməsi nəticəsində milli ordu quruculuğunda atılan mühüm addımlardan biri Silahlı Qüvvələrin 1919-cu il yanvarın 11-dən yeni hərbi geyim formasına keçməsi oldu. Milli hərbi geyim formasına keçilməsi şəxsi heyətin vətənpərvərlik ruhunun yüksəldilməsinə müsbət təsir göstərirdi. Sonrakı vaxtlarda da hərbi geyim və davranış qaydalarına əməl edilməsi nazirlik rəhbərliyinin daim diqqət mərkəzində saxladığı məsələlər

42 ARDA, f 2894, s. 6 iş 2, v. 4

sırasında idi. Hərbi nazirin 1919-cu il 15 iyul tarixli, 323 saylı əmri də bu baxımdan maraq doğurur: “Zabitlər kimi, əsgərlər arasında da Azərbaycan ordusunda qəbul olunmuş geyim formasına uyğun gəlməyən geyimdə olanlar, həmçinin qırmızı lampası daşıyanlar var. Bütün hərbi hissələrin komandirlərinə və rəhbər şəxslərinə qəti əmr edirəm göstərilən halları ciddi nəzərə alsınlar və onun aradan qaldırılması, qəbul edilməmiş geyim formasının qarşısının alınması üçün ən təsirli tədbirlər görsünlər. Belə şəxslər barəsində şəhər komendantları Baş Qərargaha məlumat versinlər”.[43]

Milli ordunun bir qrup zabiti

Silahlı Qüvvələrdə geyim forması ilə bağlı, Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi M.Y.Cəfərova 1918-ci il dekabrın 14-də yazdığı 309/85 saylı məktubunda Baş Qərargah rəisi aşağıdakıları bildirirdi: “Azərbaycan qoşunlarında geyim formasının necə olacağı hələ tam müəyyənləşməyib. Hələlik rus zabit və əsgərlərinin formasının, fərqlənmə nişanlarının saxlanması ilə poqonların üzərində müsəlman (türk - L.Ş.) dilində “Azərbaycan” sözü yazılmaqla geyinilməsinə icazə verilib. Yaxın vaxtlarda həm zabitlər, həm də əsgərlər üçün

43 ARDA, f. 2894, s. 6, iş 4, v. 19

yeni geyim formasının hazırlanması ilə məşğul olacaq xüsusi komissiya yaradılacaqdır və bu məsələ barədə mən Sizi məlumatlandıracağam. Hərbi nazirin əmri əsasında məlumat verirəm”.[44]

Bütün çətinliklərə baxmayaraq, orduya çağırış işi də yeni sistem əsasında qurulmağa başlanmışdı. 1918 il dekabrın 25-də Səməd bəy Mehmandarov hərbi xidmətə çağırışı yaxşılaşdırmaq məqsədilə xalqa müraciət etdi. Hərbi nazirin Azərbaycan və rus dillərində çap edilərək əhali arasında yayılan müraciətində türk qoşunlarının Azərbaycanda olduğu zaman çağırış işində yol verilmiş nöqsanlara, o cümlədən, hərbi hissələrdə əsgərlərə qarşı fiziki güc tətbiq edilməsinə, əsgərlərin ağır məişət şəraitinə toxunulur, onların aradan qaldırılması üçün görülən qətiyyətli tədbirlərdən bəhs olunurdu:

“İndi isə qoşun düzəltməyi öz öhdəmə götürmüşəm və cəmi vətəndaşları, istər fəqir, istər dövlətli, əsgərliyə çağırıram. Hər kəs ki, bir dövlətli uşağını qələmdən salıb azad etsə, böyük cəzaya düçar olacaqdır və burası da məlum olsun ki, əsgərlər yaxşı geyinəcəklər və yeməklərinin də yaxşı olmağına mən çox çalışıram. Otaqları isti olacaq və hər bir əsgər üçün ayrı yorğan-döşək hazırlatmışam”.[45]

Çağırış məsələlərinin həllində ciddi problemlərin olmasına, ordunun xidmətə yeni gələn qüvvələrə böyük ehtiyac duymasına baxmayaraq, hərbi nazirin məruzəsi əsasında Nazirlər Şurası 1919-cu il yanvarın 18-də ailənin tək valideyni olan şəxslərin və xalq müəllimlərinin hərbi mükəlləfiyyətdən azad olunmaları barəsində qərar qəbul etmişdi. Bu qərar hərbi nazirin 1919-cu il 31 yanvar tarixli, 53 saylı əmri ilə nazirlik

44 ARDA, f. 2898, s. 1 iş 20, v. 13
45 Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, C. I. /Baş red. Yaqub Mahmudov. B., 2004, Lider nəşiriyyatı. s.55

üzrə elan olunmuşdu. Yeri gəlmişkən, həmin əmrlə Nazirlər Şurasının çağırışla bağlı daxili işlər nazirinin təqdimatı ilə qəbul etdiyi başqa bir qərar da elan edilmişdi. Həmin qərara görə Zəngəzur qəzasında yaranmış fövqəladə vəziyyətlə əlaqədar xüsusi göstəriş olana qədər bu qəzada yeni çağırışçıların toplanması işi dayandırılırdı.[46]

Hərbi Nazirliyin təşkilinə və ordu quruculuğuna birbaşa rəhbərlik edən Səməd bəy Mehmandarovun yerli hərbi hissələrdə xidməti işin və qoşunların ümumi vəziyyətinin öyrənilməsi məqsədilə növbəti tanışlıq səfəri onun Xalq Cümhuriyyətinin 3-cü hökumətində hərbi nazir vəzifəsinə təyin edildikdən sonrakı tarixə, 1919-cu il yanvarın 24-nə təsadüf etmişdir. Həmin gün hərbi nazir tərəfindən imzalanan 46 saylı əmrdə aşağıdakılar qeyd olunurdu: “Qazax, Ağdam, Nuxa və Zaqatalada yerləşən hərbi hissələrdəki vəziyyətlə tanış olmaq üçün yola düşür və bu müddətdə Hərbi Nazirliyin idarə olunması vəzifəsini müavinim general-leytenant Şıxlinskiyə həvalə edirəm”.[47]

Ordunun vəziyyəti ilə birbaşa yerlərdə tanış olan hərbi nazir hələ kifayət qədər komplektləşdirilməmiş, təminat-təchizat məsələlərində xeyli çatışmazlıqlar olan, xidməti işin təşkilində çətinliklərlə üzləşən hərbi hissələrin komandirllərinə lazımi tövsiyələr verir, tələbkarlıq göstərməklə yanaşı, onları hərtərəfli dəstəkləyirdi. 1919-cu ilin ilk aylarında belə səfərlərin, qəfil yoxlamaların intensiv davam etməsi bütün səviyyələrdən olan komandirlərin məsuliyyət hissini artırır, onları xidməti vəzifələrin icrasına daha peşəkarlıqla yanaşmağa sövq edirdi. Bunun nəticəsində bir neçə ay ərzində əksər hərbi hissələrdə

46 ARDA, f. 2894, s. 6, iş 2, v. 50
47 ARDA, f 2894, s. 6 iş 2, v. 40

vəziyyət xeyli dəyişmiş, xidməti işdə rəhbərliyin diqqətini cəlb edən uğurlar əldə olunmuşdu.

Üçüncü hökumətin fəaliyyətə başlamasından bir neçə gün sonra general Tomsonun adından Bakıda yeganə təsirli hakimiyyət kimi Azərbaycan koalisiya hökumətinə etimad göstərildiyi bildirilən bəyannamə yayıldı. Britaniya komandanlığı rus və erməni milli şuralarının ciddi səylərinə baxmayaraq, bu qənaətə vəziyyətlə yaxından tanışlıqdan, Azərbaycan hökumətinin Azərbaycan xalqı tərəfindən müdafiə olunduğunu gördükdən sonra gəlmişdi.

Cümhuriyyətin üçüncü hökumtinin ilk addımlarından biri dekabrın 28-də Paris Sülh konfransına göndəriləcək nümayəndə heyətinin tərkibini müəyyən etmək oldu. Hökumətin təqdimatı ilə təşkil edilmiş nümayəndə heyətinə tanınmış siyasi xadim, Azərbaycan parlamentinin sədri Ə.M.Topçubaşov rəhbərlik edirdi. Bu zaman İstanbulda olan Ə.M.Topçubaşov Türkiyənin rəsmi dairələri və İstanbuldakı İngiltərə, ABŞ, İtaliya, İsveç, İran, Hollandiya, Rusiya, Ukrayna və Ermənistan hərbi və diplomatik nümayəndələri ilə faydalı görüşlər keçirirdi. Bu görüşləri Azərbaycan nümayəndələri may ayı ərzində Parisdə də davam etdirdilər. Böyük Britaniya, Polşa, Gürcüstan, Dağlılar Respublikası, Ermənistan və İran nümayəndələri ilə görüşlər də faydalı oldu.

II fəsil. Ordu quruculuğunda mühüm mərhələ

2.1. Silahlı Qüvvələrinin formalaşdırılmasında ardıcıl və planlı fəaliyyətin təşkili

1919-cu il yanvarın 10-da Hərbi Nazirlikdə Müvəqqəti Hərbi Şura yaradıldı. Onun tərkibinə piyada və süvari diviziyalarının rəisləri, Ümumi Qərargahın, Topçu, Ləvazimat və Mühəndis idarələrinin rəisləri, general-kvartirmeyster, növbətçi general və tapşırıq generalı daxil idi. Hərbi Şuranın iclaslarına hərbi nazir, yaxud onun müavini sədrlik edəcəkdi.

Hərbi-sanitar, Hərbi-veterinar, Hərbi məhkəmə hissələrinin rəisləri Hərbi Şuranın iclaslarında onların rəhbərlik etdikləri sahələrə dair məsələlər müzakirə ediləndə həlledici səslə iştirak edirdilər. Şura ordunun təminat-təchizat, təlim-tərbiyə, yerləşmə, tədris və s. məsələlərinin həlli ilə bağlı təcili surətdə tədbirlər görməyə başlamalı idi.

Qeyd edilirdi ki, bir çox hərbi hissələrin rəisləri tabeliklərində olanlara məzuniyyət və ezamiyyələrin verilməsində özbaşınalığa yol verir, tez-tez özlərinin birbaşa rəislərini qoyub yuxarı instansiyaya müraciət edirlər.[48]

Hərbi nazir S.Mehmandarovun və Baş Qərargah rəisi H.Səlimovun imzaladıqları 21 saylı əmrdə deyilirdi: "Göstərilənlərin aradan qaldırılması üçün bütün tədbirlərin görülməsini əmr edirəm. Əgər bunun üçün birbaşa rəisin səlahiyyətləri yetərli olmazsa, mənə müraciət edilsin".

48 ARDA, f. 2894, s. 6, iş 2, v. 13

Hərbi Şuranın Əsasnaməsi, daimi tərkibi təsdiq edilənədək Müvəqqəti Hərbi Şura hərbi qanunvericilik və ordu quruculuğunun təşkili sahəsində mühüm məsələlərin müzakirəsi, müvafiq qərarların qəbulu ilə məşğul olmalı idi. Bir neçə ay sonra yaradılan Hərbi Şuranın tərkibinə nazirlə birlikdə 11 nəfər daxil idi. Onlardan 7 nəfər tutduqları vəzifəyə görə, 3 nəfər nazirin əmri ilə (bu şəxslərin vəzifə görə təminatı diviziya rəisinin vəzifəsinə uyğun idi) təyin olunurdular. Şuranın iclasları hərbi nazirin, ya da onun müavininin sədrliyi ilə keçirilməli idi. Nazirliyin digər idarə və xidmət rəisləri onların xidmət sahələrinə aid məsələlərin müzakirəsi zamanı iclaslara dəvət edilə bilərdilər.[49]

Ordunun formalaşdırılması tədbirləri sırasında hərbi və müdafiə məsələləri ilə bağlı hökumət və Parlament səviyyəsində qərarların, qanunların qəbul edilməsi böyük əhəmiyyət daşıyırdı. Cümhuriyyət Parlamentinin açılışının birinci ildönümü münasibətilə 1919-cu il dekabrın 7-də keçirilmiş yüz dördüncü təntənəli iclasda (sədr - Həsən bəy Ağayev, katib - Əhməd Cövdət Pepinov) Parlamentin ötən dövrdəki fəaliyyətini ümumiləşdirən Həsən bəy Ağayev qeyd ediridi: "Bir ilin ərzində Parlamentin 104 iclası olmuşdur. Hesab etsəniz, 3 gündən bir iclas olar. Bu fəaliyyət indiyə qədər Parlament və siyasi təcrübələrə atılmamış bir millət üçün az bir fəaliyyət deyildir. Bu iclaslardan ikisi tarixi, ikisi təntənəli, biri fövqəladə olmuşdur. Bu bir ilin ərzində 104 iclasda Parlamentimizə 205 qanun daxil olmuşdur, Parlamentimiz dövlətimizin və millətimizin əsaslarını möhkəmləndirməyə səy etmişdir. Parlamentimiz öhdəsinə götürdüyü müqəddəs vəzifəni layiqincə yerinə yetirmişdir. 205 qanunun 113-ü qəbul edilmiş, 40-ı komisyonlarda müzakirədə, 17-si növbədə

49 ARDA, f. 2894, s. 1, iş 23, v. 42

müzakirədə, 16-sı rədd edilmişdir. Parlament öz tərəfindən 18 layiheyi-qanuniyyə təqdim etmiş, 15-i qəbul edilmiş, biri hələ müzakirədə, 2-si rədd edilmişdir. İndiyə qədər Parlamentə gələn qanunların 82-si maliyyə nəzarətindən, ədliyyədən 31-i, daxiliyyədən 24-ü söhhətti-ümumiyyədən 6-sı, xariciyyədən 9-u, poçta-teleqrafdan, təriq və məabirdən 2-si, nafiədən 8-i, hərbiyyə nəzarətindən 9-u, dövlət müfəttişliyindən 1-i, ziraət və əmlakdan 11-i, məsai nəzarətindən 11-i, maarif nəzarətindən 19-u. Bunlar bir ilin ərzində Parlament tərəfindən qəbul edilmiş qanunlardır".[50]

Göründüyü kimi Parlamentin fəaliyyətinin yalnız birinci ilində ordu quruculuğu və ölkənin müdafiəsinin təşkili ilə bağlı 9 qanun qəbul edilmişdir. Bunlardan biri Parlamentin növbədənkənar əlli birinci iclasında (27 iyun 1919-cu il) Azərbaycanla Gürcüstan arasında 1919-cu ilin iyun ayının 16-da bağlanmış hərbi – müdafiə sazişinin ratifikasiyası ilə bağlı olmuşdur.[51]

1919-cu il dekabr ayının 7-dən Cümhuriyyətinin süqutuna qədərki dövrdə isə hərbi və müdafiə sahəsi ilə bağlı daha iki qanun layihəsi və bir sıra məsələ Parlamentin müzakirəsinə çıxarılmış, müvafiq şəkildə baxılmışdır. Beləliklə, Cümhuriyyət Parlamentinin fəaliyyəti dövründə, bütün mənbələrdə qeyd edildiyi kimi, 9 deyil, 11 qanun layihəsi ali qanunvericilik orqanının iclaslarının gündəliyinə salınmış, müzakirədən keçirilərək, qəbul olunmuşdur.

Bunlar arasında "Hərbiyyə nəzarəti haqqında" qanun layihəsi (25 fevral 1919-cu il, on altıncı iclas), "Zabit namizədlərinin maaşlarını müəyyən etmək" üçün qanun layihəsi (17 mart 1919-cu il, iyirmi dördüncü iclas), "Əsgəri

50 ARDA, f. 895, siy. 1, iş 177, vər. 90-92
51ARDA, f.895, siy. 1, iş. 94, vər. 143, 160

nizamnaməsinin tamamlanması" layihəsi (3 aprel 1919-cu il, iyirmi altıncı iclas), "Məhkəməyi-hərbiyyə qanunu" (7 aprel 1919-cu il, iyirmi yeddinci iclas), "Hərbiyyə və maarif nəzarətləri ştatları haqqında" qanun layihəsi (14 aprel 1919-cu il, iyirmi doqquzuncu iclas), "Əxzi-əsgər idarələri təşkili haqqında" qanun layihəsi (15-26 may 1919-cu il, otuz səkkiz-qırx birinci iclaslar), "Əsgəri xidmətinin müddəti barəsində" qanun layihəsi (16 iyun-29 iyul 1919-cu il, qırx səkkizinci və altmışıncı iclas), "Təbiblərin orduya çağırılması haqqında" qanun layihəsi (19 iyun 1919-cu il qırx doqquzuncu iclas), "Azərbaycan ordusu məmurlarının yeni maaş miqdarları haqqında" qanun layihəsi (18 sentyabr 1919-cu il, yetmiş dördüncü iclas), "Bakı mövqe komandanlığının təşkil və ştatı haqqında" qanun layihəsi (13 oktyabr 1919-cu il, səksən üçüncü iclas), "Gəncə şəhərində hərbi zavod açılması haqqında" qanun layihəsi (16 fevral 1920-ci il, yüz iyirmi beşinci iclas), "Şuşa şəhərində hərbi-feldşer məktəbi açmaq haqqında" qanun layihəsi (26 aprel 1920-ci il, yüz qırx dördüncü iclas) göstərmək olar.

Parlament iclaslarında, həmçinin ölkənin müdafiəsi, xüsusilə Qarabağda, Zəngəzurda, cənub, qərb və şimal sərhədlərində yaranmış təhlükəli vəziyyətlərlə bağlı müzakirələr aparılmış, müxtəlif fraksiyaların bu məsələlərlə əlaqədar hökumətə ünvanladıqları suallar cavablandırılmışdır.

Parlament tərəfindən mart ayının 1-də Hərbi Nazirliyin ştatı və əmək haqqı cədvəli təsdiq olunmuşdu. Hərbi nazirin 1919-cu il 9 mart tarixli əmri ilə həmin qərarın bütün qoşun hissələrində dəqiq icra edilməklə, işdə rəhbər tutulması tapşırılmış, həmçinin orduda xidmət edən bütün hərbi

qulluqçulardan qəbul olunmuş geyim formasına əməl etmələri tələb olunmuşdu.[52]

Bu qanun və qərarların qəbulu, hərbi sahənin normativ-hüquqi bazasının yaradılması istiqamətində atılan digər addımlar dövlətin müdafiəsinin təminatı üçün zəruri təsisatların təşkilinə, hərbi sahədə fəaliyyətin tənzimlənməsinə imkan verirdi. Parlament ölkə daxilində və ətrafında baş verən prosesləri müdafiə və təhlükəsizlik kontekstində daim dəyərləndirməklə cavadeh dövlət orqanlarının fəaliyyətini milli-hərbi (müdafeyi-milliyə) komissiya (sədri «İttihad» partiyasının başçısı Q.Qarabəyli) çərçivəsində əlaqələndirir, qarşıda duran vəzifələri vaxtında və düzgün müəyyənləşdirməyə, müvafiq qanunvericilik təşəbbüslərinin irəli sürülməsinə çalışırdı. Xüsusi diqqət mərkəzində saxlanılan bu məsələlərin müzakirəsi zamanı hökumət sədri və hərbi nazir vaxtaşırı iclaslara dəvət edilirdilər. Parlamentin hərbi məsələlər üzrə komissiyasının üzvləri və digər millət vəkilləri hərbi hissələrə, obyektlərə, gərgin döyüşlərin aparıldığı bölgələrə gedir, ümumordu miqyaslı tədbirlərdə iştirak edirdilər.

Hərbi Nazirliyin ştatı və əmək haqqı layihəsi Parlamentə təqdim edilməzdən əvvəl Nazirlər Şurasının 1919-cu il 19 fevral tarixli iclasının müzakirəsinə çıxarılmışdır. Müzakirələrdən sonra məsələ ilə bağlı hərbi nazirin məruzəsini əsas tutaraq qəbul edən Hökumət layihənin düzəlişlər nəzərə alınmaqla Parlamentin təsdiqinə göndərilməsi barədə qərar qəbul etmişdi.[53]

Parlamentin 1919-cu il 25 fevral iclasında məsələ ilə bağlı müzakirələrdə hərbi nazir S.Mehmandarov da çıxış etmişdir. Bu çıxış nazirliyin fəaliyyətinin təşkili, ordunun

52 ARDA, f. 2894, s. 6 iş 1, v. 126
53 ARDA, f. 2894, s. 1 iş 35, v. 9

şəxsi heyətinin hazırlanması, təminat-təchizat və s. məsələlərə nazirin necə məsuliyyət, peşəkarlıq və həssaslıqla yanaşdığını bir daha təsdiq edirdi: "Bu gün sizə təqdim olunan heyət və maaş miqdarı ən vacib olan əqsamindən tərtib verilmişdir.

Bunu müzakirə edərkən bu mülahizələr də nəzərdə tutmalıdırki; 1.Cəbhədə bulunmuş bütün zabitan ordu tərəfindən onlara verilmiş əşya, yer və başqa ləvazimati-hərbiyyə deyil, kəndi əşyalarını dəxi tamamən qeyb etmişlər. Bu qism şeyləri yenidən düzəltmək üçün bir manatlıq nəsnəyə 3-dən 100 manata qədər pul verilməlidir. 2. Hamıya ağır bir təsir edən bahalıq ziyadəsincə zabitana sui-təsir etməkdədir. Ailələrindən uzaq düşüb, kənd və kəsəklərdə yaşamağa məcbur olan zabitan iki ev məsarifi təyini məcburiyyətindədirlər. 3. Əsgərə təlim və ölümə kimi varmağa hazırlıq tərbiyəsi üçün dəvət olunmuş zabitan əsgər nəzərində sahibi-nüfuz və şərəf olmalıdır. Bunun üçün zabitan yalnız mərifət cəhətincə deyil, zahirən dəxi əsgərə hüsni-təsir bəxş olmalıdır. Onun əlbəsəsi daima təmiz və faxir olması vacibdir. Zabitan əlbəsəsi üçün nə qədər bahalı şeylər gərək olduğu hamının məlumudur. 4. Azərbaycanın iqtidarlı və təcrübəli zabitanə ehtiyacı ziyadədir. Müstəqil yaşayan millət ordusuna rus ordusunda məmuriyyətdə bulunmuş yabançı millətlərdən zabitan dəvəti məcburiyyətindəyiz. Bu xüsusda olduqca diqqətli intixab lazımdır. Əsgərlərin ədəmi-mövcudiyyətini və əsgərlik tərbiyəsi görməmiş əhalidən əsgər toplanmasını nəzərə alırsaq, yeni ordu təşkilatı üçün ən təcrübəli və iqtidarlı zabitan lüzumiyyəti icab edər və bu növ iqtidarlı və zabitan lüzumiyyəti icab edər hər bir hökumət dairəsində artıq maaşlar məmuriyyət mümkün olduğu üçün bunları hərbiyyə məmuriyyətinə gətirmək və gətirəndə saxlamaq üçün artıcıq maaş ilə maraqlandırmaq vacib olacaq. 5. Əski müsəlman ərkani-hərbiyyə tərəfindən əski qərar üzrə zabitanə 5 aydan

bəri verilən maaş sentyabr ayında artıq görünürdü isə hal-hazırda zabitanın zəruri ehtiyacatının güc ilə təmin edə bilir. Xırda zabitan üçün isə heç vəch ilə bu maaş kafi olamaz. Hal-hazırda qiymətlərin anbaan təzayüd etdiyində bu yaxın vaxtda maaşların azalması deyil, bəlkə artması məsələsinin qalxması mütəhəmmildir. 6. Maaş alanlara maaşın azlığı daima sui-təsir etməkdədir və şübhə yox ki, keçirdiyimiz vəziyyət nəticəsində əhalinin tərəddüdi və qarışığı dəxi az maaş alanların fəaliyyətinə dəxi sui-təsir edəcək. 7. Zabitanın fəaliyyəti hərb zamanında deyil, təbii halda dəxi ağır bir vəziyyət içərisində keçir. Əsgər ovqat nasalim məhəllələrdə, bəzən (manevra zamanları) açıq havada qar və yağmura baxmayaraq, bəzən ac və susuz yaşamaya məcbur olan zabitan vətən üçün afiyətləri deyil, canlarını belə qurban edir… Fövqüdəki təsvirləri nəzərə alıb ərkani-hərbiyyə tərəfindən qərara alınmış maaşların bu bəyannaməyə əlavə olunmuş layihə üzrə göstərilən təbəddülatı nəzərə almaq şərti ilə baqi olmasına hökumətdən müsaidə istəməlidir".

[54]Hərbi Nazirlikdə məsul vəzifə tutanlar arasında mükəmməl hərbi biliyə və təcrübəyə malik Əliağa Şıxlinski, Həbib bəy Səlimov, Murad Gəray Tlexas, Süleyman bəy Əfəndiyev, İbrahim ağa Usubov, Həmid bəy Qaytabaşı, Cavad bəy Şıxlinski, İbrahim ağa Vəkilov, Feyzulla Mirzə Qacar kimi ali rütbəli zabitlərin olması milli ordu quruculuğunun uğurla aparılmasına müsbət təsirini göstərirdi. 1919-cu ilin əvvəllərindən etibarən orduya belə yüksək keyfiyyətlərə malik zabitlərin qəbulu prosesinin davam etdirilməsi onun formalaşdırılması və xidməti işin təşkili istiqamətində vəzifələrin uğurla yerinə yetirilməsinə şərait yaratdı. Hərbi nazirin 1919-cu il 9 yanvar tarixli əmri ilə polkovnik Novruzov,

54 «Azərbaycan» qəzeti, 1919-cu il 7 mart

1919-cu il 22 yanvar tarixli əmri ilə general-mayor Amaşukeli milli qoşunlarda xidmətə qəbul olunmuş, Novruzov Hərbi Nazirin yanında tapşırıqlar üzrə Qərargah zabiti, Amaşukeli isə süvari diviziyasının Qərargah rəisi vəzifəsinin icracısı təyin edilmişdi. General-mayor Amaşukeli həmin əmrlə özünün birbaşa vəzifələrini yerinə yetirməklə Hərbi Şuranın üzvü də təyin olumuşdu.[55]

Ancaq ilk vaxtlar bəzi yerlərdə zabit rütbəsi olanların həqiqi hərbi xidmətə qəbulu və hərbi vəzifələrə təyinatlarla bağlı müəyyən nizamsızlığın baş verməsi, xüsusilə bu istiqamətdə yuxarı rəhbərliklə razılaşdırılmadan tələsik addımların atılması nazirlik rəhbərliyini narahat edirdi. Bu məsələlərlə bağlı ciddi ölçü götürülməsini zəruri hesab edən hərbi nazir 1919-cu il yanvarın 9-da 16 saylı əmr imzalamışdı. Əmrdə deyilirdi: "Tərəfimdən müşahidə edilmişdir ki, bəzi rəis şəxslər Azərbaycan Respublikası hərbi hissələrinin siyahıları ilə uyğun gəlməyən şəxsləri xidmətə götürür və vəzifələrə təyin edirlər. Rəislərə əmr edirəm, birdəfəlik yadda saxlasınlar ki, onların zabitləri hərbi xidmətə qəbul etmək hüququ yoxdur. Zabitlərin xidmətə qəbulu və vəzifələrə təyinatı mənim razılığımla, müstəsna olaraq Baş Qərargahın səlahiyyətindədir. Buna görə əmr edirəm, əgər hansısa zabitlər Baş Qərargahın və mənim razılığım olmadan hərbi hissələrin tərkibinə daxil ediliblər, təcili olaraq hissəyə qəbul olunduqları və vəzifəyə təyin edildikləri təqdimatlarla qəbuluma gəlsinlər. Rəislər zabitlərin xidmətə qəbulu barəsində mənə təqdimat verə bilərlər və bu təqdimat tərəfimdən yüksək qiymətləndiriləcəkdir."[56]

Əlbəttə, hərbi nazirin kadr seçiminə belə məsuliyyətlə yanaşması və bunu tabeliyində olanlardan da tələb etməsi

55 ARDA, f. 2894, s. 6 iş 2, v. 11
56 ARDA, f. 2894, s. 6, iş 2, v. 9

təsadüfi deyildi. Həmin dövrdə Azərbaycana qarşı təxribat planlarında yer alan istənilən zabit rütbəli şəxs, yaxud şəxslər nəzarətin və müvafiq yoxlamaların olmamasından istifadə edərək yeni formalaşmaqda olan orduya zərər yetirə bilərdi.

Ancaq milli zabit kadrlarının çatışmazlığının problem kimi qalması hərbi hissələrin zabit heyəti ilə tam komplektləşdirilməsinə imkan vermirdi. Bununla bağlı hökumətin 1919-cu il 19 fevral tarixli iclasında məruzə ilə çıxış edən hərbi nazir müsəlman zabitlərin digər dövlət orqanlarında mülki işlərə götürülməsinə yol verilməməsi barədə məsələ qaldırmış və hökumət tərəfindən müvafiq qərar qəbul olunmuşdu.

Azərbaycan Ordsunun rəsmi keçidi

Bu vəziyyətdən çıxış yolları arayan rəhbərliyin hərbi qulluğa qəbul məsələsində Azərbaycan vətəndaşları ilə yanaşı, digər ölkələrin nümayəndələrindən daha çox türk zabitlərin üzərində dayanması təsadüfi deyildi. Azərbaycan ordusunda xidmətə həmişə hazır olan türklərin işə götürülməsinə isə müttəfiqlərin təmsilçisi kimi ölkədə olan ingilis komandanlığı tərəfindən qadağa qoyulmuşdu. Hərbi nazirin 1919-cu il aprelin

21-də Nazirlər Kabinetinə göndərdiyi 1665 saylı təqdimat bunu aydın göstərir. Həmin təqdimata Tiflisdəki hərbi attaşenin 1549 saylı raportunu əlavə edən Səməd bəy yazırdı: "Orduya müsəlman olan türklərin qəbulu çox arzuediləndir. Artıq praporşiklər məktəbinin aprel buraxılışından sonra etibarsız rus zabitlərinin kənarlaşdırılması mümkün olacaq. Onlardan piyada qoşunlarında 5-7 faizdən çox olmayaraq kənarlaşdırılıb. Süvarilərin və artilleriyanın vakant yerləri Krımdan gözlənilən müsəlman zabitlərin hesabına təmin ediləcək. Ancaq türklərin qəbulundan məni hələlik aşağıdakı fikirlər saxlayır:

1) İngilislərin Bakıya daxil olduqdan sonra türklərin Azərbaycan ordusuna buraxılmaması barədə qəti bəyanatı ilə əlaqədar bunun Azərbaycan hökuməti ilə ingilis komandanlığının münasibətlərini gərginləşdirə biləcəyindən ehtiyat edirəm. İngilislər diqqətlə izləyirlər ki, bizm orduda türklər olmasınlar. Bunu Gəncədə cəsusluğa görə həbs edilən xanım Smıslovanın ona verilən tapşırıqlar arasında Gəncədəki türk zabitlərinin sayının müəyyənləşdirilməsi tapşırığının olması barədə ifadəsi də təsdiqləyir. Hərbçilərə Poylu stansiyasında buraxılışların yoxlanması zamanı qanunsuzluğa yol verilməsinə qarşı qəti mübarizə aparmaq tapşırığına gəlincə, bu, Azərbaycana arzuolunmaz elementlərin keçməsinə imkan verən sui-istifadə hallarının qarşını almaq üçündür.

2) Türklər arasında Ağdamda və Zaqatalada (1631 saylı raport) aşkarlanan hallarda olduğu kimi təbliğatçılar da ola bilər".[57]

Sonrakı hadisələr də göstərdi ki, ehtiyatla səsləndirilmiş bu qənaətlər təsadüfi deyildi. İngilislərin türklərə və nəlinki Azərbaycanda, ümumən Cənubi Qafqaz bölgəsində baş verən proseslərdə onların iştirakına olan münasibətləri aydın

57 ARDA, F. 2894, s. 1 iş 26, vər. 16

idi və bu mövqelərini heç gizlətmirdilər də. Türk zabitlərinə gəlincə isə, onların arasında bəziləri kommunist təbliğatına uyduqlarına və müəyyən mənada buna inandıqlarına görə, hərbi hissələrdə xidməti işini can-başla yerinə yetirməklə yanaşı, zərərli kommunist təbliğatı ilə də məşğul olurdular. Müstəqil Azərbaycanın mənafeyinə zidd olduğundan bu işin qarşısı mümkün qədər alınırdı. Hərbi nazirin çıxışlarında və təqdimatlarında dəfələrlə bildirildiyi kimi, ordunun siyasətdən bacardıqca uzaq tutulması, lazım gəldikdə ona qəti surətdə yol verilməməsi tələb edilirdi.

Ordu quruculuğunun sistemli şəkildə aparılması üçün qoşunlarda nizam-intizamın möhkəmləndirilməsi, xidməti işə məsuliyyət hissi ilə yanaşılmasının təmin olunması məqsədilə ardıcıl tədbirlər görülürdü. Bu baxımdan Baş Qərargah rəisi general-mayor H.Səlimovun 1919-cu ilin yanvarında imzaladığı əmrlərdən birində bütün zabitlərə və hərbi rütbə daşıyanlara hərbi nazirin əmri çatdırılaraq, qeyd olunurdu ki, məzuniyyətdən hətta bir gün gecikməklə işə qayıdanlar bütün məzuniyyət müavinətindən məhrum ediləcəklər.

Hərbi nazirin 1919-cu il fevral ayının 9-da imzaladığı 67 saylı əmrdə də xidməti işə münasibətə toxunulurdu: "Tərəfimdən təəssüf ki, bəzi rus zabitlərinin xidmət vəzifələrinə səhlənkar münasibət göstərmələri və spirtli içkilər qəbul etmələri halları müşahidə olunmuşdur. Hərbi hissə rəislərinə əmr edirəm belə hərəkətlərə yol verən zabitlərin xidmətdən azad olunmaları üçün dərhal təqdimat versinlər. Mənim əmrimə baxmayaraq, bəzi hərbi hissələrdə zabitlərin və məmurların xidməti zərurətlə bağlı olmayan müxtəlif ehtiyaclardan irəli gələn ezamiyyələrə göndərilmələri halları vardır. Əmr edirəm təcili olaraq Baş Qərargaha yanvar ayı ərzində neçə nəfərin, hansı zərurətlə ezamiyyəyə göndərildikləri və bu məqsədlə nə qədər

pul xərcləndiyi barədə məlumat versinlər. Xəbərdarlıq edirəm, belə hallara yol verən zabitlər gələcəkdə xidmətədən azad olunacaqlar və mən hökumtdən həmin şəxslərin digər dövlət orqanlarında xidmətə qəbul olunmamalırını xahiş edəcəm”.[58]

Nizam-intizamın möhkəmləndirilməsi üçün bəzən daha sərt tədbirlərə əl atmaq lazım gəlirdi. Hərbi nazirin 1919-cu il 6 fevral tarixli əmri bu baxımdan xarakterik sayıla bilər. Qazax piyada alayında və Azərbaycan Artilleriya briqadasının 4-cü, 5-ci batareyalarında müvafiq olaraq 1918-ci il dekabr ayının 29-31-də və 1919-cu il yanvar ayının 1-3-də baş vermiş qanunsuzluq hallarına görə, hərbi müstəntiq Şahtaxtınskinin və iki nəfər zabitin daxil olduğu xüsusi hərbi-istintaq komisiyası yaradılmışdı. Əmrdə komissiya sədrindən dərhal istintaq hərəkətlərinə başlaması, dindirmələr və işlə bağlı bütün sənədləri hərbi müstəntiqə təhvil verməsi tələb edilirdi.[59]

Xüsusilə ordu quruculuğunun ilk aylarında bəzi hərbi hissələrdə qanunsuzluq halları baş verirdi. Hərbi xidmətlə bir araya sığmayan, böyük qüvvə və vaxt itkisinə səbəb olan belə halların qarşısının alınmasında rəhbərlik barışmaz mövqe tutur, qəti tədbirlər görülməsinə nail olurdu. Bu hadisələrin bəzən kimlər tərəfindənsə məqsədli şəkildə şişirdilməsi hallarına da rast gəlinirdi. Ağdamdakı hərbi hissələrdən birində baş vermiş hadisə bu qəbildən olmuşdu. Ciddi narahat olan hərbi nazir Ağdama bir heyət göndərmiş və həmin heyətin məruzəsindən sonra bu məsələyə xüsusi münasibət bildirməyi lazım bimişdi: “Əvvəlcə oraya Bərdədə olan qoşun ilə general S.Əfəndiyev göndərilmişdi. Sonra müfəssəl təhqiqat icra edilmişdi. Bu işlərin həpsi camaat arasında nalayiq adamların təbliğatından nəşət etmişdir. Mən oraya gedərkən parlament rəisi doktor

58 ARDA, f. 2894, s. 6, iş 3, v. 11
59 ARDA, f. 2894, s. 6, iş 1, v. 55

Ağayev Gəncəyə gəldi, orada əsgərimizə baxdı, hərçəndi məşqdən sonra idi və əsgərlərimiz hazırlaşmamışlardır, fəqət, doktor Ağayev bəyan etdi ki, qətəati-əsgəriyyəmiz hüsni-təsir bağışlamış və çox xoşuna gəlmişlərdir. Tibb və xəstəxana işləri də fəna idi. Lakin indi bu da düzəlir. Təbiblər dəvət etmişik və xəstəxanalar yaxşı qayda ilə təşkil olunurlar. Bir neçə söz də şəxsim ətrafında qaldırılmış səs-küy haqqında da ərz edəcəyəm. Bu sözləri o ağalar danışırlar ki, qoymamışam Azərbaycan xəzinəsinə südlü inək və hərbiyyə nəzarətinə darüləcəzə kimi baxsınlar. Mən bəyan edirəm ki, bu vaxtadək olduğu kimi bundan sonra da tutduğum yol ilə gedəcəyəm və heç bir qüvvə məni bu yoldan çıxara bilməz. Hər kəs məndən sonra nazir olsa görər ki, nə qədər zəhmət çəkilmiş və nə işlər görülmüşdür”.[60]

Dövlət dili olan Azərbaycan dilinin öyrənilməsi, orduda xidməti işdə istifadəsi, Azərbaycan əsgərinin mənsub olduğu xalqın tarixi keçmişi, qəhrəmanlıq nümunələri əsasında tərbiyələndirilməsinə mühüm diqqət yetirilməsi və s. tədbirlər orduda milli məsələlərə xüsusi əhəmiyyət verildiyini göstərirdi. Hərbi nazirin 1918-ci il 27 dekabr tarixli 34 saylı əmri ilə hərbi qulluqçular arasında salamlaşma Azərbaycan dilində aparılırdı. Qeyri-azərbaycanlı zabitlərdən bir ay müddətində, heç olmasa, komanda sözlərinin azərbaycanca qarşılığını öyrənmək və əsgərlərə bu dildə komanda vermək tələb olunurdu. Bu tələbi yerinə yetirə bilməyən zabitlər ordudan xaric edilməli idi. Ancaq bu məsələlərin qısa müddətdə həllini tapmasının mümkün olmaması nəzərə alınaraq, 1919-cu il mayın 16-da hərbi nazirin təqdimatı əsasında Nazirlər Şurası komanda

60 «Azərbaycan» qəzeti, 1919-cu il 7mart

sözlərinin Azərbaycan dilinə tərcümə olunması barədə qərar qəbul etmişdi.[61]

Dil məsələsinin diqqət mərkəzində saxlanıldığını, nazirliyin fəaliyyətində ana dilinin tətbiqi üçün mümkün olan tədbirlərin görüldüyünü Baş Qərargah rəisi general-mayor Səlimovun və növbətçi general polkovnik Qaytabaşının imzaladıqları 1919-cu il 24 aprel tarixli, 29 saylı əmr də aydın göstərir: "Azərbaycan Respublikası Hərbi Nazirliyi üzrə bəzi hərbi hissələrin qərargahlarının, idarələrin, müəssisələrin blank və möhürlərindəki yazılar yalnız rus dilindədir. Türk dili tamamilə unudulub. Hərbi nazir buna diqqət yetirərək əmr edir ki, bütün blank və möhürlərdə göstərilən hissənin adı birinci türk dilində, sonra aşağıda rus dilində verilsin. ".[62]

Ana dilinin tətbiqi məsələlərinə məsuliyyətli yanaşılması Nazirlər Şurasının dövlət dili ilə bağlı hələ 1918-ci il iyunun 27-də qəbul etdiyi qərarın icrası ilə də əlaqədar idi. Həmin qərar görə ölkənin bütün idarə və müəssisələrində, eləcə də məhkəmələrdə rəsmi dövlət dili olan türk dilindən istifadə olunmalı idi. Həmçinin əksər rəhbər işçilərin rus dilli olması nəzərə alınaraq qeyd edilən sahələrdə türk dilinin mənimsənilməsinə qədər rus dilinin işlənməsinə də icazə verilirdi.

Bununla yanaşı, şəxsi heyətin savadlanması, onun əsas hissəsini təşkil edən əsgərlərin ümumi səviyyəsinin yüksəldilməsi üçün də tədbirlər görülürdü. Bu məqsədlə savadsızlığın ləğvi üçün kurslar təşkil edilmiş, həmin kursların aparılmasına təcrübəli mütəxəssislər cəlb olunmuşdu.

S.Mehmandarov şəxsi heyətin savadlı və hazırlıqlı olmasını, öz xalqının tarixini, mədəniyyətini öyrənib

61 ARDA, f. 2894, s. 1 iş 35, v. 26
62 ARDA, f. 2894, s. 6 iş 1, v. 16

mənimsəməsini bütün qadağalara baxmayaraq, hərbi hissələrdə aparılan bolşevik və digər zərərli təbliğatlara qarşı mübarizədə başlıca amil sayırdı. Onun fikrincə: "Bolşevizmə qarşı mübarizənin istiqamətlərindən biri xalq içərisində sağlam milli hisslərin yaradılmasıdır. Azərbaycanın yaranmaqda olan gənc ordusu üçün bu xüsusilə lazımdır. Yalnız azərbaycanlılardan təşkil olunmuş hərbi qüvvələrimiz öz xalqının ümumdünya tarixinin səhifələrinə yazmış olduğu və bizdən daha çox Avropa xalqının xatırlayıb danışdıqları çoxlu igidlikləri, şərəfli döyüş keçmişini bilməlidirlər. Bir əsrdən də artıq davam edən rus ağalığından xilas olmuş türk xalqı bilməlidir ki, biz heç də həmişə əsarətdə olmamışıq, həm də öz iradəmizi Avropa və Asiyaya nümayiş etdirmişik. Güman edirəm türk tarixinin bilicilərindən kiməsə xalqımızın müxtəsər tarixini və bu günümüzə qədər olan ən mühüm hadisələri əks etdirən kütləvi kitabçaların tərtib və nəşr edilməsinin tapşırılması faydalı olardı. Belə kütləvi tarixi nəşrlər xalq arasında və qoşunlarda geniş yayılmalı, bunun üçün hər bir kənd müəllimi, hər bir müsəlman zabit ondan geniş istifadə etməlidir".[63]

Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun yüksəldilməsinə, xalqın tarixi qəhrəmanlıq ənənələrinə uyğun tərbiyə olunmasına böyük əhəmiyyət verən nazirlik rəhbərliyi bu istiqamətdə ardıcıl tədbirlər görürdü.

Piyada və süvari alayları, əlahiddə taborlar və hərbi məktəb üçün döyüş bayrağının təsis olunması bu tədbirlərin ən təsirlilərindən sayıla bilərdi. Hərbi Nazirlik üzrə 1919-cu il dekabrın 8-də imzalanmış bayrağın təsviri ilə bağlı 561 saylı əmrdə onun hansı hissələrdən ibarət olduğu qeyd edilir və ayrı-ayrılıqda həmin hissələrin təsviri verilirdi: "Parçası. Parça

63 Süleymanov M. Azərtac 2018, 23 yanvar https://azertag.az/xeber/Azerbaycan_Xalq_Cumhuriyyeti_dovrunde_ordu_quruculugu-1130835

gümüşü saçaqlarla tamamlanan, kənarları naxışlı mavi rəngli ştof ipəkdən və atlasdan ibarətdir. Tərs üzdə naxış görünməsin deyə parça ikiqatdır. Yuxarı sol küncündə gümüşü saplarla Azərbaycan ulduzu ilə aypara çəkilib. Bayrağın kənarı ilə naxışı Şərqin böyük sərkərdəsi Əmir Teymurun Səmərqənd şəhərindəki qəbrinin üzərindəki təsvirdən götürülmüş xətt işlənib. Parçanın bir üzündə ərəb hərfləri ilə "Azərbaycan", o biri üzündə isə Qurandan ayə - Allahdan kömək olarsa, qələbə yaxındadır – naxışla yazılmalıdır. Parça bayraq dirəyinin yuxarısına 5 santimetr qalmış bərkidilməlidir.

Milli ordunun hərbi oksetri

Lentlər. Qırmızı və yaşıl parçadan eni 15, uzunluğu 10 santimetr olmaqla ucluqları saçaqlarla tamamlanır. Qırmızı lentin ucunda gümüşü saplarla qabı ilə 7 ox, nizə və iki yay çəkilib. Yaşıl lentin ucunda gümüşü saplarla içində oxlarla qab, iki yay, boncuq (hakimiyyət simvolu olan at quyruğu – L.Ş.) və Əmir Teymurun nizəsinin rəsmi işlənib.

Lentlərdəki rəsmlərin oxlar və yayla kombinasiya olunması Şərqin qədim döyüş silahlarını təsvir edir. Yaşıl lentin üzərinə sərhədlərin müdafiəsi, qüdrət və qətiyyət, yüksək

qəhrəmanlıq rəmzi kimi dağ yüksəkliyinin və boncuğun təsviri əlavə edilib.

Lentlər bayraq ağacının yuxarı ucuna bərkidilib.

Bayrağın ucluğu. Beş hissədən ibarətdir: kəsik konus, silindr, kürə, kəsik ellipsoid və nizə.

Bayraq ağacı. 2,6 metr uzunluğunda və 3,7 santimetr diametrindədir. Dəstək gümüşü silindirdən ibarət olub, bayraq ağacının qurtaracağına taxılır. Dəstəyin aşağı və yuxarı qurtaracağı 2,5 millimetrlik qızılı haşiyə ilə əhatə edilib. Daha sonra 1,5 millimetr enində qızılı haşiyə ilə tamamlanmış mavi mina var. Qızılı haşiyə ilə əhatə olunmuş yuxarı künclərdə ulduzlar nəqş olunmuş, aşağı künclərdə isə qızıldan aypara ziqzaq, daha sonra bayrağın rəngləri ilə boyadılmış, kürəciklərlə bəzədilmiş qabarıq gümüşü halqadan keçir. Dəstəyin gümüşü hissəsində bayrağın məxsus olduğu hissənin adı və həmin hissənin yaranma tarixi həkk edilir".[64]

Bayrağın bütün rəmzlərinin xalqın tarixi ilə bağlılığı, hər santimetrində böyük məna yaşatması və birləşdirici gücə malik olması onun dəyərini daha da artırır. Bununla gənc əsgər və zabitlərə kimlərin sələfləri olduqları xatırladılır, öz ulularını unutmayan, milli soy-kökünə bağlı olan igid döyüşçülər Azərbaycan Cümhuriyyətinin, onun xalqının azadlığı, gələcəyi naminə daim hazır olmağa, vətənin düşməndən müdafiəsində sayıq dayanmağa çağrılırdılar.

1919-cu ilin sonlarından etibarən əksər qoşun hissələrində döyüş bayraqlarının tətbiqinə başlandı. Bayraqların layihələri nazirliyin hərbi-topoqrafiya şöbəsində hazırlanmışdı. Xalqın tarixi qəhrəmanlıq ənənələri əsasında, milli rəmzlərdən bacarıqla istifadə olunmaqla hazırlanmış bu bayraqlar milli

64 ARDA, f 2894, s. 1 iş 3, v. 211

dəyərləri əks etdirməklə, verildiyi hərbi hissənin Azərbaycan Ordusuna məxsusluğunu təsdiq edirdi.

Mühüm vəzifələrdən biri milli hərbi kadrların hazırlanması idi. Bu məqsədlə hələ türk qoşunlarının Azərbaycanda olduğu vaxt Gəncədə fəaliyyətə başlamış podpraporşiklər məktəbinin fəaliyyəti yenidən quruldu və onun statusu artırılaraq, Praporşiklər məktəbinə çevrildi.

1919-cu ilin sonunda Praporşiklər məktəbinin əsasında Hərbi məktəb, Azərbaycan ordusu üçün milli hərbi kadrlar hazırlayan İstehkamçılar məktəbi və Hərbi dəmiryolçular məktəbi açılmışdı. Yeni yaradılan məktəblərdən biri də minaaxtaranlar məktəbi idi. 1919-cu il yanvarın 28-də nazir vəzifələrinin icraçısı Şıxlinskinin və Qərargah rəisi Səlimovun imzaladıqları 48 saylı əmrlə yaradılan bu məktəb hərbi xidmətin tam yeni bir sahəsinin mütəxəssislərini hazırlayacaqdı. Əmrdə nazirliyin Mühəndis İdrəsinə tapşırılırdı ki, minaaxtaranlar məktəbinin təşkili üçün təqdim etdikləri təkliflərə uyğun işə başlasınlar. Məktəbin ştatının onun açılması sahəsində işlər başa çatdıqdan sonra elan ediləcəyi bildirilirdi.

Şuşada Cavanşir alayının 1-ci taborunun nəzdində hərbi feldşer məktəbinin açılması haqqında Əsasnaməyə görə müdavimlər burada anatomiya və fiziologiya, daxili, zöhrəvi və s. xəstəlikərin müalicəsi, ilk tibbi yardım, gigiena, dizinfeksiya, farmakologiya və digər sahələr üzrə biliklər ala biləcəkdilər. Onun 1919-cu il oktyabrın 23-də təsdiq edilmiş proqramını hərbi nazirlə birgə hərbi həkimlər Ağakişibəyov və Ağayev imzalamışdılar.[65]

Şəxsi heyətin sağlamlığının qorunması, əsgər və zabitlərin şəxsi gigiyena qaydalarına əməl etmələri üçün müvafiq şəraitin yaradılması, xüsusilə hərbi hissələrdə

65 ARDA, f. 2894, s. 1, iş 23, v. 29

yoluxucu xəstəliklərə qarşı mübarizə aparılması sahəsində Hərbi Nazirliyin nizami qoşunların təşkilinə başladığı ilk vaxtlardan ardıcıl iş aparılırdı. Belə ki, hərbi nazirin 1919-cu il 22 yanvar tarixli 36 saylı əmrində qoşun hissələrinin kiçik tibbi heyətlə təmin olunması məqsədi ilə Gəncə hərbi xəstəxanasında bölük feldşer şagirdlərinin hazırlanması üçün feldşer məktəbinin açılması məsələsi qaldırılmışdı. "Bu məqsədlə 1-ci Cavanşir, 2-ci Bakı, 3-cü Gəncə piyada, 1-ci Tatar, 2-ci Qarabağ süvari alaylarının komandirləri əmri alan kimi dərhal piyada alaylarının hər birindən 15 nəfər, süvari alaylarının hər birindən və artilleriya briqadasından 6 nəfər, İstehkamçılar məktəbindən 1 nəfər savadlı, gələcəyini tibbi işə bağlamaq istəyən əsgəri Gəncə hərbi xəstəxanasına ezam etsinlər. Kursun tədris müddəti 4 aydır".[66]

Hərbi nazirin 1919-cu il 15 aprel tarixli 78 saylı əmrinə görə isə hərbi hissələrin təcrübəli kiçik tibb heyəti ilə təmin edilməsi üçün bütün hərbi hissələrdə 2 aylıq sanitar hazırlığı kurslarının açılması nəzərdə tutulurdu. Həmin kurslarda tədrisin və digər hazırlıq işlərinin aparılması təcrübəli həkimlərə həvalə edilmişdi. Bu məqsədlə hər bir hərbi hissədən dərhal 12 nəfər əsgərin könüllülük əsasında seçilməsi və hissə komandirinin müəyyən etdiyi saatlarda dərslərin başlanması üçün həkimlərin sərəncamına göndərilməsi tələb olunurdu.[67]

1919-cu ilin yayında ölkənin bəzi ərazilərində yoluxucu xəstəliklərin yayılması təhlükəsinin olması, xüsusilə yeni yaradıldığından hələ lazımi şəraiti olmayan hərbi hissələrdə qabaqlayıcı tibbi-sanitar tədbirlər görülməsini zəruri etmişdi. Bu sahədə nazirlikdə işə qəbul edilən tibb kadrları, həkim və digər tibbi heyətlə yanaşı, hərbi hissə komandirləri də bütün

66 ARDA, f. 2894, s. 6, iş 20, v. 38
67 ARDA, f. 2894, s. 6, iş 3, v.192

mümkün vasitələrdən istifadə edirdilər. Hərbi nazirin şəxsi heyətin sağlamlığının qorunması istiqamətində gördüyü çoxsaylı tədbirləri sadalamadan yalnız bir faktı qeyd edək ki, qısa müddətdə əksər hərbi hissələrdə tibb məntəqələri, yaxud ərazi üzrə daha artıq xəstəni qəbul etmək imkanı olan hərbi xəstəxanalar (lazaretlər) açılmışdı.

Hərbi nazirin 1919-cu il noyabrın 15-də imzaladığı 531 saylı əmrdə də şəxsi heyətin sağlamlığının qorunması üçün təcili tədbirlər görülməsindən bəhs edilirdi: "Azərbaycan ordusunda yoluxucu xəstəliklərin yayılması ehtimalını nəzərə alaraq qoşunların bütün hərbi hissə rəislərinə əmr edirəm:

1.Bütün binaarda və ərazidə təmizliyin təmin olunması üçün qəti tədbirlər görülsün.

2.Əsgərlərin səliqə-sahmanlı olmaları daim nəzarət altında saxlanılsın.

3.İçməli suya xüsusi diqqət yetirilməklə, əsgərlərə yalnız qaynadılmış və soyudulmuş su verilsin. Bu məqsədlə bütün hissələrdə qaynadılıb soyudulmuş suyun saxlanması üçün çənlər və qaynadıcı vasitələr olmalıdır.

4.Əsgərlərin zərurət olmadan ərazidən kənara çıxmasına icazə verilməsin, lazım gəldikdə isə nəzarət altında göndərilsinlər.

5.Müəyyən tələbat yerləri təmiz saxlanılmaqla, lazımi qaydada dezinfeksiya edilsin".[68]

Hərbi Nazirliyin rəhbərliyi və müvafiq qurumların rəisləri vaxtaşırı hissələrdə tibbi təminat müəssisələrində xidməti işin təşkili sahəsində vəziyyəti öyrənmək məqsədilə yoxlamalar keçirirdilər. Belə yoxlamalardan biri hərbi nazirin özü tərəfindən keçirilmiş və onun nəticələri ilə bağlı müvafiq tədbirlərin görülməsi məqsədi ilə 1919-cu il yanvarın 24-də

68 ARDA, f. 2894, s. 6, iş 5, v. 34

43 saylı əmr imzalanmışdı: "1919-cu il yanvar ayının 19-da mən stansiyanın yaxınlığında baraklarda yerləşən 210 yerlik Gəncə hərbi xəstəxanasının vəziyyəti ilə tanış oldum. Xəstələr üçün palatalar sahmanlı deyil, pəncərə və qapıların yanı çatlaq olduğundan otaqlar yel çəkir və soyuqdur.

Termometrlər yoxdur. 275 nəfərə yalnız bir vanna var. Halbuki azı üçü olmalıdır. Hesab edirəm ki, yoluxucu xəstələr və dəri-zöhrəvi xəstəliyi olanlar üçün ayrı vanna lazımdır. Xəstələrə qulluq pisdir, dəyişək çatışmır, halbuki yaxınlıqdakı anbarda kifayət qədər dəyişək var. Bu qayğının və işləmək həvəsinin olmamasının nəticəsidir.

Cəmi 26 nəfər sanitar olsa da, nədənsə 6 nəfəri işləyir. Qalanların nə ilə məşğul olduqlarına cavab ala bilmədim. Feldşerlər gözə dəymir, hətta dəri-zöhrəvi xəstələr palatasında da tibb bacıları işləyir. Həkimlərin buna necə yol verdiklərini başa düşə bilmirəm. Buna heç vəchlə yol vermək olmaz.

Yemək. Lazımi qədər qida maddəsi əlavə edilmədiyindən şorba çox duru idi. Ətin keyfiyyəti çox pisdir. Görünür ona baxmırlar, halbuki əti və başqa ərzaqları qazana tökməzdən qabaq onlara həkim növbətçi tibb bacısının iştirakı ilə baxmalıdır. Çörək yaxşıdır, ancaq həkim təyinatı ilə düzgün paylanmır. Sağalanlara çörək normada verilməlidir. Ərzaqları fərq qoymadan haradan, kimdən istəsələr və qiymətinə baxmadan alırlar. Bunları topdan almaq lazımdır.

Gördüklərimdən bu nəticəyə gəlirəm ki, xəstəxananın rəhbərliyi xidməti vəzifələrinə laqeyd yanaşır, xəstələrə qayğı göstərmir. Buna görə də baş həkim Şpakovskini və təsərrüfat müdirini vəzifədən azad edirəm. Tərəfimdən həmçinin müəyyən edilmişdir ki, bəzi xəstələr onlara çatmalı olan əmək haqqını almırlar. Bunu hissə komandirlərinin diqqətinə çatdırıram. Baş həkim vəzifəsinin müvəqqəti icrasını böyük

ordinator Yermolayevə həvalə edir və xəstəxananı qaydaya salmaq üçün ona iki həftə vaxt verirəm”.[69]

Ordunun formalaşmasında çağırış və səfərbərlik işinin böyük əhəmiyyətini nəzərə alan Nazirlik rəhbərliyi bu sahəyə xüsusi diqqət yetirirdi. Hərbi nazirin 1919-cu ilin 5 fevral tarixli, 10 saylı əmrində bu məqsədlə görülən ilk tədbirlər sırasında Cümhuriyyət hökumətinin çağırış və səfərbərlik sahəsində yeni qanun hazırlayıb parlamentdə təsdiq etdirməli olduğu göstərilirdi: “Türk hakimiyyəti tərəfindən Azərbaycan əhalisinin hərbi mükəlləfiyyət keçməsi ilə bağlı müəyyən edilmiş qanun mükəmməl olmadığı və yerli əhalinin ruhuna uyğun gəlmədiyi üçün ləğv edilir. Bu gündən hərbi mükəlləfiyyətlə bağlı işlərdə Azərbaycan hökuməti tərəfindən yeni qanun hazırlanana qədər bu sahədə mövcud olmuş rus qanunvericiliyi rəhbər tutulsun”.[70]

Əlbəttə, S.Mehmandarov türklərin Cümhuriyyətin yaranması ərəfəsində və müstəqil dövlət quruculuğunun ilk aylarında Azərbaycana göstərdiyi xidmətləri, xüsusilə ölkənin müdafiəsi sahəsində fədakarlıqlarını yüksək qiymətləndiridi. Parlamentin 1919-cu il 25 fevral tarixli iclasında hərbi sahədəki vəziyyətə toxunan, bu mühüm məsələ ilə bağlı qarşıda duran vəzifələrdən danışan general Mehmandarov türklərin xidmətlərini də bir daha vurğulamışdı: “Əlbəttə, heç kəs inkar etməz ki, türklər bizim millətimizə nicat verməklə bizə böyük xidmət etmişlərdir. Amma burası, onların hərəkətini tənqid etməyimizə də mane olamaz. Hərbiyyə nəzarəti Gəncəyə köçənədək bizə xəbər verdilər ki, əksər işlərimiz yaxşıdır və çoxlu əsgər yığılır, lazım olan kimi məşq verilir və ilaxır. Mən Gəncəyə belə gözəl ümüdlə getdim. Hər yeri

69 ARDA, f. 2894, s. 6, iş 2, v. 37
70 ARDA, f. 2898, s. 2, iş 1, v. 1

gəzdim, qətati-əsgəriyyəmizə baxdım, fəqət, iş heç də yaxşı deyildi. Əsgərlərimiz əzgin, düşgün bir halda, yeməkləri pis, mənzilləri fəna bir halda, yorğan-döşək yox, onların çoxu xəstə idi. Xəstə əsgərlərin həpsini sağlamlarıyla dəyişməyə məcbur olduq. Qoşun yığmaq işləri yaxşı getmirdi. Rəislər və mouqəf komandanları öz vəziyyətlərindən sui-istifadə edirlərdi. Çox vaxt bir külfətin yeganə çörək gətirənini əsgər alırdılar. Bu iş də camaatı narazı salıb, qoşun yığmaqdan nifrətləndirirdi. Nuru paşa Azərbaycandan gedərkən özü mənim yanıma gəldikdə boynuna aldı ki, əsgərlik barəsində Azərbaycan fəna bir halda qoyulmuşdur. Məlumdur ki, Türkiyə komandanlığı başında duran adamları aldatmışlardı. Türklər gedərkən mənə bilmərrə libas verməmişlərdi. Ona görə mən əsgəri təşkilat ilə bərabər maddi cəhətdən çalışmalı idim. Nəki mümkün idi etdim. Amma türklər külli miqdarda ərzaq şeyləri qoyub getmişlərdir. Külli miqdarda taxıl, heyvan və sair məkulat qalmışdır. Ona görə mən əmr etdim ki, əsgərlərə yarım girvənkə əvəzinə üç rüb ət, girvənkə yarım çörək əvəzinə bir rüb çörək verilsin, xörəkləri öz camaatımızın adət etdiyi kimi olub, onlara dolma, bozbaş və sairə versinlər, həftədə bir dəfə plov verilsin. Bundan əlavə əmr etdim əsgərlərə gündə 6 misqal qənd, yarım misqal çay versinlər. Qızdırma, yatalaq və sairə kimi azar olan yerlərə əsgərlərə su içməmək üçün 9 misqal qənd verilir. Libas məsələsi daha da fəna idi. Gürcüstan hərbiyyə nazirinə kağız yazdım ki, libas məsələsində mənə kömək etsin, mütəəsifanə bir şey çıxmadı. İndi Gürcüstan hökuməti nəzdində siyasi nümayəndəmiz Cəfərovun yanında pulumuz və adamlarımız var ki, parça alsınlar. Bundan əlavə Şuşadan fabrikada yaxşı əsgəri libasa yarar parça toxunur. Haman fabrika ilə müqavilənamə bağlamışıq. Orada külli miqdarda yararlı parça əldə etdik. Bu surətlə bu məsələ də hüsnü-

həll olunacaqdır. Əlbəttə, möcüzə göstərmək olmaz. Amma nəki mümkündür edəcəyəm. Hal-hazırda hərbiyyə nəzarəti smetasının bir qismini təqdim etmişdir. Bütün smeta martda təqdim ediləcəkdir, çünki ərzaq nəzarəti anbarlarında olan şeylərin miqdarını təyin etmək lazımdır. Hərbiyyə nəzarətinin təhti-idarəsində bu saat 3 anbar var: Hacıqabulda, Gəncədə və Ağdamda. İndi hökumətin qərardadına görə ərzaq nəzarəti ixtiyarında olan sair anbarların da həpsi hərbiyyə nəzarətinə veriləcəkdir. Ona görə ərzaq mövcudiyyətini tamamilə hasablamalıdır".[71]

Çağırış və səfərbərlik məslələrinin birdəfəlik kampaniya deyil, hərbi nazirliyin daimi diqqət mərkəzində saxlanmalı başlıca vəzifələrdən olduğu hərbi nazirin Parlamentin həmin iclasındakı çıxışında da əksini tapmışdı: "Mən ümdə diqqətimi əsgər yığmaq işlərinə verdim. Bu vaxtadək əsgər alınmalı olanların siyahısı tərtib verilmişdi. Hər yerdə kasıblar əsgər alınırdılar. Hər yerdə qoşun içində bir dövlətli ya bəy, ya xan oğlu görmədim. Ona görə əmr etmişəm əsgər düşənlərin siyahısı tutulsun və bir surəti hərbiyyə nəzarətinə göndərilsin, tainki yığılanlara diqqət verək. Əxzi-əsgər rəisləri qəzaların həpsində yoxdur. Hal-hazırda əxzi-əsgər idarələri bu yerlərdə mövcuddur. Gəncə və Qazax qəzalarında -1, Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında -1, Ərəş, Şəki və Zaqatala -1, Quba və Bakı -1, Şamaxı və Göyçay -1, Cavad və Lənkəranda-1 və Bakı ilə mədən dairəsinə də biri təyin edilmişdir. Bu surətlə cümlətanı 7 əxz-əsgər rəisimiz var. Qəza əxzi-əsgər idarəsi isə 11-dir. Şikayətlərə baxmaq üçün Azərbaycan əxzi-əsgər idarəsi təşkil edilməsi təhti-qərara alınmışdır. Hal-hazırda bu xüsusda daxiliyyə nəzarəti bir qanun layihəsi tərtib verir. Və yaxın zamanda Məclisi-Məbusana təqdim olunacaqdır.

71 Azərbaycan» qəzeti, 1919-cu il 7 mart

Məlumunuzdur ki, Rusiyada hər yerdə birdən əsgər yığırdılar. Mən bu qaydanı dəyişmişəm. Biz qoşunu tədricən yığan zaman əxzi-əsgər rəisləri orada hazır olaraq düzlüyünə diqqət verəcəkdir. Əsgərlikdən ancaq bu adamlar azad ediləcəklərdir, müəllimlər (çünki məktəblər milliləşmişdir) dəmir yol məktəbi müəllimləri, maşinist, kaçeqar, hökumət mətbəələrinin mürəttibləri və çay süpərsəfanı xidmətçiləri (müqavilənamə vaxtları qurtaranədək). Hal-hazırda 6 ilin əsgəri silah altına çağırılır. Amma güman edirəm ki, bu ilin axırında daha buna ehtiyac olmayacaqdır. Ancaq 2 ilin, yəni

19 və 20 yaşları yığmaq kifayət edəcəkdir. Əsgərlikdən qaçmaq məsələsinə gəlincə, bu da deyilən kimi olmayıb, o qədər də layiqi-əhəmiyyət deyildir. Hər yerdə mükəlləfiyyati-əsgəriyyət tətbiq olunanda belə şeylər olur. Məsələn, 1888-ci sənə mükəlləfiyyati-əsgəriyyə qanunu ermənilərə və gürcülərə təmsil ediləndə çox adam əsgərlikdən qaçırdı. Hələ indi də qaçan çoxdur. Bizdə də çox adam qaçırdı, fəqət, əksilməmişdir. Bu da tədriclə olar. Gəncədə son zamanlar bir adam qaçmışdır. Əhali özü qaçanlara nifrət edir və hətta çox vaxt olmuşdur ki, əsgərlikdən qaçanı döyüb, sonra geri gətirmişlərdir. Güman var ki, müsəlmanlarda olan fitri nizam və ədəbə görə vaxtı ilə heç kəs qaçmayacaqdır. Qətəati əsgəriyyə barəsində məni bağışlayın, əsgəri sirləri açıq danışmazlar".[72]

Hərbi Nazirliyin yaradıldığı ilk gündən görülən tədbirlər nəticəsində əhalinin orduda xidmətə münasibəti dəyişsə də, çağırışla bağlı bəzi problemlər 1919-cu ilin yayına qədər qalırdı. Bu qənaətimizi hərbi nazir və Baş Qərargah rəisinin imzası ilə Nazirlər Kabinetinin sədrinə 1919-cu il aprelin 15-də göndərilmiş 1632 saylı raport da təsdiq edir. Həmin raportda göstərilirdi ki, çağrış üçün nəzərdə tutulan 6 yaş qrupu (18-24

72 Yenə orada

yaş) üzrə yeni çağırışçıların hərbi xidmətə gəlmələrinə tam ciddi yanaşılacağı təqdirdə, ordunun tələbatı artıqlaması ilə ödənilə bilər. "İşin uğuruna başlıca maneə bəylərin və ticarət-sənaye sinfinin nümayəndələrinin övladlarının açıq şəkildə xidmətdən yayınmalarıdır ki, yeni çağırışçılar arasında, demək olar, yoxdur. Əhalinin çaşqınlığı, Vətənin yükünü çəkmək istəməyən zadəgan və tacirlərdən narazılığı getdikcə artır və bəzi yerlərdə ayaqlanmalara yol açmışdır. Bu Qazax və Gəncə qəzalarından hərbi dəstələr göndərilməsini tələb edir."[73]

Səfərbərlik sahəsində vəziyyətin yaxşılaşdırılması, bu işlə məşğul olan şəxslərin peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi üçün xüsusi təlimatın işlənib hazırlanması məqsədi ilə hərbi nazirin vəzifələrini müvəqqəti icra edən general-leytenant M.Sulkeviç tərəfindən 1919-cu il mayın 20-də 257 saylı əmr imzalanmışdı. Həmin əmrdə deyilirdi: "Hərbi nazirin əmri ilə "Azərbaycan Respublikası qoşunlarının səfərbərlik təlimatı"nın işlənib hazırlanması üçün komissiya yaradılsın.

Bu göstərişi yerinə yetirmək məqsədilə komissiyaya təyin edirəm:

Sədr – general-kvartirmeystr vəzifəsinin icraçısı podpolkovnik Zeynalov.

Üzvlər:

1.Baş Qərargah üzrə - rəisin təyinatı əsasında.

2.Baş Qərargahın Baş İdarəsi üzrə - rəisin təyinatı əsasında.

3. Daxili İşlər Nazirliyi üzrə - Gəncə Qubernatorunun təyinatı əsasında".[74]

73 ARDA, f. 2894, s. 1, iş 26, v. 13
74 ARDA, f. 2894, s. 1, iş 4, v. 135

Parlamentin 1919-cu il mayın 26-da keçirilən qırx birinci iclasında (sədr - Həsən bəy Ağayev, katib - Əhməd Pepinov) "Əxzi-əsgər idarələri təşkili haqqında" 12 maddədən ibarət qanun layihəsi müzakirə edilərək 3-cü oxunuşda, səs çoxluğu ilə qəbul olunmuşdur. Əvvəlki üç iclasda müzakirəyə çıxarılmış layihəni Parlamentə komissiya sədri və məruzəçi kimi Qarabəyov təqdim etmişdir.[75]

Qanuna əsasən Əxzi əsgər idarələrinə aşağıdakı vəzifələr həvalə olunurdu: çağırışçıların siyahısının tərtib edilməsi; yoxlanılması; çağırışçıların qeydiyyatı və xidmətə çağırılanların sayı barədə Mərkəzi Əxzi-əsgər İdarəsinə məlumat verilməsi; çağırışçıların hərbi xidmətə çağırılması; tibbi müayinələrinin aparılması; çağırışçıların hərbi xidmətə qəbul edilməsi; məsuliyyətə cəlb edilməli olan çağırışçılar haqqında polis orqanlarına məlumat verilməsi; yerlərdə atların və qoşqu vasitələrinin qeydiyyatının aparılması və onların xidmətə cəlb edilməsi; səfərbərlik planlarının hazırlanması; hərbi xidmət zamanı xəsarət almış əsgərlərin tibbi müayinədən keçirilməsi. Qəza, dairə və şəhər əxzi-əsgər şöbəsinin rəisi yerli qəza rəisi və ya daxili işlər naziri tərəfindən təyin edilmiş şəxs ola bilərdi. Hərbi nazirlik tərəfindən ezam edilmiş zabit və kəndlərdən seçilmiş nümayəndələr qəza əxzi-əsgər şöbələrinin üzvü olmalı idilər. Qanuna əsasən, bütün qəza mərkəzlərində qəza əxzi-əsgər idarələri təsis edilməli, onlar hərbi nazirliklə razılaşdırıldıqdan sonra daxili işlər nazirinin qərarı ilə açılmalı idi. Qəza əxzi-əsgər idarələri tədriclə açıla bilərdi. Lakin qanuna əsasən, Gəncə, Qazax, Nuxa, Tərtər, Cəbrayıl, Bakı, Göyçay, Salyan, Şamaxı, Zaqatala və Şuşa qəzalarında əxzi-əsgər idarələri dərhal açılmalı idi. Qanunla yanaşı, Parlamentin qırx birinci iclasında (26 may 1919-cu il) Mərkəzi Əxzi-əsgər

75 ARDA, f. 895, s. 1, iş. 91, v. 1-39

İdarəsinin və qəza əxzi-əsgər idarələrinin fəaliyyəti üçün zəruri olan büdcə də təsdiq edilmişdi.[76]

Bu qanunun qəbulundan sonra normativ-hüquqi əsasları daha da möhkəmləndirilən çağırış məsələlərinin tam nizama salınması, bu sahədə vəziyyətin yaxşılaşdırılması üçün imkanlar yarandı. Artıq ölkə vətəndaşlarının hərbi mükəlləfiyyəti ilə bağlı məsələlər Rusiyanın, yaxud başqa xarici dövlətin qanunvericiliyi ilə deyil, milli qanunvericiliklə tənzimlənəcəkdi.

Milli ordu hissələrinin Bakıya daxil olması, 1919-cu il 5 aprel

Çağırış və səfərbərlik məsələlərində Daxili İşlər Nazirliyi ilə birgə iş xüsusi qeyd edilməlidir.

Hərbi Nazirliyin strukturları öz fəaliyyətlərini təkmilləşdirdikcə, qoşunların təlim-tərbiyəsi, döyüş hazırlığı yüksəldikcə, ərzaq, silah-sursat və digər vasitələrlə təminatı yaxşılaşdıqca yerlərə nəzarət, hərbi hissələrdə xidməti işin təşkili məsələlərinə daha çox diqqət ayrılması mümkün olurdu. Belə ki, hərbi hissələrdə dəftərxana işinin aparılması, xüsusilə məxfi sənədlərin qeydiyyatı və saxlanması, əmrlərin icrasına nəzarət və s. kimi qaydalara əməl olunması tələb

76 Yenə orada

edilirdi. Hərbi nazirin 1919-cu il 14 mart tarixli 126 saylı əmri bu baxımdan xarakterik sayıla bilər: "Bir sıra hərbi hissələrdə Hərbi Nazirlik üzrə əmrləri almaqla kifayətlənir, hissədə elan etmirlər. Bunun nəticədir ki, mən hərbi hissələrə baxış keçirərkən əksər zabitlərin Hərbi Nazirlik üzrə əmrlərdən xəbərsiz olduqlarını gördüm. Əmr edirəm, mənim verdiyim bütün göstərişlər hissələrdə elan olunsun və mənim əmr və göstərişlərim bütün rütbəlilərə və sıravilərə çatdırılsın".[77]

Ordu quruculuğunun lazımi qaydada davam etdirilməsi, xidməti işin daha yüksək səviyyədə təşkili üçün şərait yaranması zabitlərin maaşlarının vaxtaşırı artırılmasına, nümunəvi xidmətə görə mükafatlandırmaların tətbiqinə və s. tədbirlərin görülməsinə də şərait yaradırdı. Hərbi sahənin inkişafı ilə bağlı hökumət səviyyəsində, eləcə də digər dövlət orqanları tərəfindən Hərbi Nazirliyə göstərilən hərtərəfli kömək də qeyd olunmalıdır. Nazirlər Şurasının, Parlamentin və Dövlət Müdafiə Komitəsinin qərarları və digər normativ sənədləri hərbi sahə ilə bağlı qaldırılan məsələlərə necə operativ reaksiya verildiyini göstərir. Bütün bunlar nazirliyin fəaliyyətinin daha uğurlu təşkilinə, güclü ordu quruculuğuna şərait yaradırdı.

Qoşunlarda təlim-tərbiyə işlərinə, əsgərlərin hərbi işi mənimsəmələrinə xüsusi diqqət yetirilirdi. Bu sahədə bütün səviyyələrdə olan zabit heyətinin üzərinə mühüm vəzifələr düşdüyü nəzərə alınaraq, onların əsgərlərin xidmətə hazırlanmasında yaxından iştirakı tələb olunurdu. Ancaq ordu quruculuğunun ilk aylarında vəziyyətlə əlaqədar hərtərəfli yoxlamalar aparılmadan tələsik işə götürülmüş bəzi zabitlər, əsasən kiçik zabit heyətindən olanlar bu vəzifələrin öhdəsindən lazımınca gələ bilmirdi. Hərbi nazir 1919-cu

77 ARDA, f. 2894, s. 6, iş 20, v. 131

il 18 mart tarixli 133 saylı və 1919-cu il 21 may tarixli 258 saylı əmrlər ilə diqqəti bu məsələlərə yönəldirdi. Birinci əmrdə deyilirdi: "Hazırda ordu sıralarındakı zabitlərin bir çoxu müharibə dövrünün zabitləri olduqlarından və xüsusilə əsgərlərin öyrədilməsi, hissənin döyüşə hazırlanması sahəsində lazımi hazırlıq keçmədiklərindən müvafiq biliyə və təcrübəyə malik deyildirlər. Mən qoşun hissələrinə baxış keçirərkən bunun qoşunların hazırlığına mənfi təsir etdiyinə əmin oldum. Bu boşluğun aradan qaldırılması üçün zabitlərin hərbi hazırlıq dərslərində nizamnamələr və taktika üzrə dərslər piyada hissələrində taborlar, süvarilərdə alaylar, artilleriyada divizionlar üzrə hərbi hissə komandirlərinin ümumi rəhbərliyi və məsuliyyəti ilə aparılsın. Diviziya rəisləri və Artilleriya briqadasının komandiri dərslərin proqramını hazırlayıb təsdiq üçün 31 martdan gec olmayaraq mənə təqdim etsinlər".[78]

İkinci əmrdə nöqsanlar göstərilməklə yanaşı, işinin öhdəsindən gələ bilməyən bir qrup şəxs barəsində müvafiq tədbir görülməsi də əksini tapmışdı: "Qoşun hissələrinin tələsik formalaşdırılması ilə əlaqədar olaraq şəxsi heyətin təlim-tərbiyəsində müvafiq hazırlığı olmayan bir çox zabitlər xidmətə qəbul edilmişlər. Güman etmək olardı ki, 5 ay ərzində onlar bu çatışmazlığı aradan qaldıracaqlar. Təəssüf ki, bəziləri dili bilmədiklərinə və kifayət qədər təcrübələri olmadığına görə gözlənilən xeyiri verə bilmədilər. Buna görə də aşağıda adı çəkilən ober-zabitlər xidmətdən azad edilir və Azərbaycan Respublikası qoşunları siyahısından çıxarılırlar". Həmin əmrlə 10 nəfər kiçik zabit rütbəli şəxs işdən azad edilmişdi.[79]

Silahlı Qüvvələrdə xidmətin təşkilinin normativ-hüquqi bazasının yaradılmasına çalışan Nazirliyin rəhbərliyi mühüm

78 ARDA, f. 2894, s. 6, iş 20, v. 137
79 ARDA, f. 2894, s. 1, iş 4, v. 136

əhəmiyyət kəsb edən bu məsələnin həllinə qısa müddətdə nail olmağın mümkünsüzlüyünü nəzərə alaraq, 1919-cu ilin əvvəlində xüsusi əmr imzalamışdı. Həmin əmrə əsasən, ordunun qanunvericilik bazasının yaradılmasına qədər xidməti fəaliyyətin nizamlanmasında 1917-ci il yanvarın 1-dək keçmiş Rusiya imperiyasında qəbul edilmiş hərbi qanunvericilik aktları qüvvədə saxlanılırdı. Milli hərbi qüvvələrdə xidmətin özünəməxsus cəhətlərinin nəzərə alınması ilə yenidən işlənib təkmilləşdirilən həmin aktlar xidmətin bütün sahələrini tənzimləyən sənədlərdən, o cümlədən hərbi nizamnamələrdən, döyüş təlimatlarından, səfərbərlik, hərbi məhkəmə işlərinin aparılmasına dair təlimatlardan və s. ibarət idi.

Azərbaycan Xalq Cümhuriyyətinin müsabiqəyə təqdim olunmuş "Hərbi xidmətə görə" və "Dinc xidmətə görə" ordenlərinin təsvirləri

Hərbi xidmət sahələrində qanunçuluğun qorunması, mövcud qaydaların və nizam-intizamın pozulması hallarına qarşı müvafiq tədbirlər görülməsi məqsədilə hərbi məhkəmə və hərbi prokurorluq bölmələrinin fəaliyyətə başlaması, onlara ixtisaslı kadrların təyin olunması məsələlərinə də diqqət yetirilirdi. Bu istiqamətdə ilk vaxtlar milli kadrlar çatışmadığından müvafiq vəzifələrə daha çox qeyri-millətlərin

nümayəndələri təyin edilirdilər. Hərbi nazirin 1919-cu il yanvarın 18-də imzaladığı 30 saylı əmr bunu təsdiq edir: "Hərbi Şuranın yeni ştatları təsdiq etməsinə qədər aşağıdakı şəxslər bütün növ təminatlarla Azərbaycan Pespublikasının hərbi hissələrinə xidmətə qəbul edilirlər:

1. General-mayor Dubrovski 1919-cu il yanvarın 12-dən Azərbaycan Hərbi Dairə Məhkəməsinin sədri.

2. Kollej asessoru (çar Rusiyasında mülki rütbə - L.Ş.) Gəncə Dairə Məhkəməsinin prokuroru Yastrebsov 1919-cu il yanvarın 12-dən həmin Hərbi Məhkəmənin hakimi.

3. Titulyar müşavir (çar Rusiyasında 9-cu dərəcəli mülki rütbə - L.Ş.) Gəncə Dairə Məhkəməsinin prokuroru Səfikürdski 1919-cu il yanvarın 16-dan həmin Hərbi Məhkəmənin Hərbi Prokurorunun müavini.

4. Titulyar müşavir Gəncə şəhər Məhkəməsinin mülki şöbəsinin mülki hakimi Şahtaxtınski 1919-cu il yanvarın 12-dən Hərbi Məhkəmənin hərbi müstəntiqi.

5. Gəncə Dairə Məhkəməsi prokurorunun katibi Mateşev 1919-cu il yanvarın 14-dən həmin Hərbi Məhkəmənin katibi."[80]

Yeri gəlmişkən, Azərbaycan Hərbi Dairə Məhkəməsinin sədri general-mayor Dubrovski hərbi nazirin 1919-cu il 14 iyul tarixli, 312 saylı əmri ilə bütün təminatlar saxlanılmaqla iyul ayının 1-dən Hərbi Nazirliyin Hərbi-məhkəmə hissəsinin rəisi təyin olunmuşdu. Həmin əmrə əsasən Hərbi-məhkəmə hissəsinin rəisi yalnız hərbi nazirə tabe idi.

Nazirlər Şurasının 1919-cu il 7 iyul tarixli qərarı ilə, ədliyyə nazirinin müavini Teymur bəy Makinski əmək haqqı həmin ayın 1-dən hesablanmaqla Azərbaycan Hərbi Məhkəməsinin sədri, hərbi müstəntiq saray müşaviri (çar Rusiyasında 7-ci dərəcəli mülki rütbə - L.Ş.) Batalin 1919-

80 ARDA, f. 2894, s 6, iş 2, v. 24

cu il iyulun 14-dən həmin məhkəmənin Hərbi Prokurorunun müavini vəzivəsinə təyin olunmuşdu.[81]

Hərbi nazirin 1919-cu il 29 mart tarixli 44 saylı əmri ilə Baş Qərargahın podpolkovniki Əbilov, Gəncə piyada alayının ştabs-kapitanı İbrahimbəyov və 1-ci Tatar süvari alayının rotmistri Əliyev özlərinin birbaşa vəzifələrini icra etməklə yanaşı, Azərbaycan Respublikası Hərbi Məhkəməsinin müvəqqəti üzvləri təyin edilmişdilər.

1919-cu il yanvarın 23-də Hərbi Nazirlik üzrə 39 saylı əmrlə Ağdamda yerləşən 1-ci piyada Cavanşir alayında, Ağcaqabulda yerləşən 2-ci piyada Bakı alayında və Gəncədə yerləşən 3-cü piyada Gəncə alayında alay məhkəmələri yaradılmışdı. Həmin alay məhkəmələrindən öz iclaslarını 15 fevraldan gec olmayaraq başlamaları tələb edilirdi.

1919-cu ilin martında Azərbaycan Ordusunun idarəetmə orqanlarında mühüm keyfiyyət dəyişikliyi baş verdi. Hərbi nazirin 26 mart tarixli əmrilə Baş Qərargah təsis edildi və general-leytenant Məmməd bəy Sulkeviç onun rəisi təyin olundu. Bu strukturun yaradılması Ümumi Qərargahın qoşunların təlim-tərbiyəsi, müharibəyə hazırlanması, təsərrüfat məsələləri və gündəlik qayğıları ilə eyni vaxtda səmərəli məşğul ola bilməməsi ilə əlaqələndirilirdi. Şəxsi heyətin sayı artdıqca ordunun təminat və təchizat qayğıları da böyüyürdü. Bununla bağlı şəxsi heyətin təlim-tərbiyəsi, döyüş hazırlığı və s. vəzifələr yeni yaradılan Baş Qərargahın səlahiyyətinə, təminat və təchizat məsələləri isə Ümumi Qərargahın səlahiyyətinə verildi. General-leytenant M.Sulkeviç Baş Qərargahın rəisi təyin edildikdən sonra yeni hərbi hissələrin formalaşdırılması prosesi daha da sürətləndi. 2-ci Bakı piyada, 3-cü Şəki süvari alaylarının təşkili tezliklə başa çatdırıldı.

81 ARDA, f. 2894, s. 6, iş 4, v. 18

Hərbi xidmətə cəlb olunan əksər azərbaycanlıların rus dilini bilməmələri və digər tələblər nəzərə alınaraq hərbi nizamnamələrin yenidən və Azərbaycan dilində hazırlanması zərurəti yaranmışdı. Xidmətin təşkili üçün böyük əhəmiyyət kəsb edən bu məsələ barəsində Baş Qərargah rəisi general-leytenant M.Sulkeviç hərbi nazirə 1919-cu il 8 aprel tarixli, 1588 saylı məruzəsində bildirirdi: "Ötən müharibənin nəticələri nəzərə alınaraq və qoşunların mütləq şəkildə döyüş ruhunda hazırlanmaları məqsədi ilə, tamamilə köhnəlmiş nizamnamələrin bu tələblərə uyğunlaşdırılması üçün nizami, piyada, süvari, artilleriya, çöl nizamnamələri, piyadalar və artilleriya üçün atəş təlimatları təcili surətdə nəzərdən keçirilərək yenidən işlənməlidir. İşin əsasını köhnəlmiş formaların təcrid edilməsi, mətnin qısaldılması və sadələşdirilməsi təşkil etməlidir. Bizim əsgərlərin hazırlanmasında çətinlik nəzəriyyədən daha çox təcrübənin mənimsənilməsini, danışıq deyil, əyanilik tələb edir. Həmçinin bizim gənc zabitlərin də hərbi işin əlifbasını mənimsəməyə ehtiyacları var".[82]

Baş Qərargah rəisi daha sonra qeyd olunan nəzamnamələrin və təlimatların işlənməsi üçün Gəncə qarnizonunun zabitlərindən ibarət komissiyaların yaradılmasına icazə verilməsini xahiş edir və öz təkliflərini verirdi. O, həmçinin yaradılacaq hər üç komissiyanın onun nəzarəti altında işləyəcəyinin qeyd edirdi. (Məruzənin mətni barədə general-leytenant M.Sulkeviç haqqında yazılmış məqalədə daha geniş məlumat veriləsəkdir – L.Ş.).

Azərbaycan hökumətinin səmərəli fəaliyyətinin nəticəsində müttəfiq dövlətlərin hərbi komandanlığı 1919-cu il aprelin əvvəllərindən etibarən ölkə Silahlı Qüvvələrinin azsaylı kontingentinin Bakıda yerləşdirilməsinə icazə verdi.

82 ARDA, f. 2894, s. 1, iş 26, v. 12

Bu qərarın qəbul edilməsi hökumətin Azərbaycan xalqının mənafeyinin təmsilçisi olmasına əminliyin ifadəsi idi. Hərbi nazirin 31 mart tarixli əmri ilə Bakıda yerləşəcək hissə və bölmələr dəqiqləşdirildi. Həmin qüvvələrə bir piyada taboru, 400 nəfərlik süvari və bir topçu batareyası daxil idi. Bu qüvvələrə Bakı qarnizonunun rəisi vəzifəsinin də həvalə olunduğu 1-ci Tatar süvari alayının komandiri polkovnik Ağalarov rəhbərlik edirdi. Aprelin 5-də həmin hərbi qüvvələr Bakıya daxil oldu və Salyan kazarmalarında yerləşdirildi. Bu münasibətlə hərbi nazir S.Mehmandarov da Bakıya gəldi. Həmin dövrün mətbuatı və bəzi arxiv sənədləri milli hərbi hissələrin şəhər əhalisin tərəfindən çox böyük təntənə ilə qarşılandığını təsdiqləyir.

Hökumət idarələrinin mühafizəsinin, daha geniş mənada təhlükəsizliyinin təminatı məsələləri də diqqət mərkəzində saxlanılırdı. Digər dövlət orqanlarının kifayət qədər imkan və vasitələrə malik olmadığı bir vəziyyətdə bu vəzifələr də əsasən Hərbi Nazirliyin üzərinə düşürdü. Hərbi nazirin təqdimatı əsasında 1919-cu il aprel ayının 9-da hökumət Nazirlər Şurasının nəzdində 100 nəfərlik atlı mühafizəçi dəstəsinin yaradılması barədə qərar qəbul etmişdi.[83]

Şəxsi heyət arasında xidməti işdə fərqlənən zabitlərin, ümumən hərbi qulluqçuların mükafatlandırılması, müxtəlif təltiflərə, o cümlədən vaxtından qabaq hərbi rütbələrə layiq görülməsi, digər həvəsləndirici tədbirlər onların ruh yüksəkliyini daha da artırırdı. Bu sahədə növbəti qərarlardan biri hökumət tərəfindən aprelin 9-da verilmiş, 3-cü Şəki süvari alayının komandiri, podpolkovnik Şahzadə Xosrov Mirzə Qacar və Gəncə Praporşiklər məktəbinin rəisi, podpolkovnik

83 ARDA, f. 2894, s. 1, iş 35, v. 20

Şirin bəy Kəsəmənski xidmətdə fərqləndiklərinə görə, polkovnik rütbəsinə layiq görülmüşdülər.

Bu qərar Hərbi Nazirlik üzrə 24 aprel tarixli 215 saylı əmri ilə şəxsi heyətə elan olunmuşdu.[84]

Hərbi nazirin müavini Ə.Şıxlinski hərbi nazirə 1919-cu il 25 mart və 18 avqust tarixli müraciətlərində Hərbi Şuranın daha təkmil bir orqana çevrilməsi üçün onun səlahiyyətlərinin daha dəqiq müəyyən olunması və nüfuzunun artırılması məsələlərini qaldırırdı. Onun bu təklif və tövsiyələrinin nəzərə alınması Hərbi Şuranın qəbul etdiyi qərarların icrasına da müsbət təsir göstərə bilərdi.[85]

Hərbi Nazirliyin həmin dövrdə fəaliyyəti təkcə ölkə ərazisində müvafiq müdafiə və təhlükəsizlik tədbirlərinin görülməsi, təcavüz və müdaxilə hallarının qarşısının alınması ilə məhdudlaşmırdı. Nazirlik rəhbərliyi ölkə daxilində yerləşən müxtəlif xarici missiyaların, xüsusilə hərbi təhlükəsizlik baxımından narahatlıq doğuran hərəkətləri barədə dərhal hökuməti məlumatlandırmaqla vaxtında reaksiya verir, Azərbaycanın suveren hüquqlarının qorunması məqsədilə lazım olan tədbirlər görürdü. Hərbi nazir və Baş Qərargah rəisinin imzaladıqları belə raportlardan biri 1919-cu il aprel ayının 15-də (1633 saylı) Gəncədən Nazirlər Şurasına göndərilib. "1919-cu il 2 aprel tarixli, 1553 saylı raportuma əlavə olaraq İngilis komandanlığının bizim hakimiyyətə, onun müəyynləşdirdiyi qayda-qanuna hörmətsiz münasibəti barədə Respublika hökumətinə məlumat verməyi özümə borc bilirəm. Belə ki:

84 ARDA, f. 2894, s. 6, iş 3, v. 27
85 ARDA, f. 2894, s. 1, iş 13, v. 160

1. Bu il aprel ayının 1-də heç bir xəbərdarlıq edilmədən Ağstafa və Gəncə stansiyalarında 100 nəfərdən ibarət induslar (hindlilər nəzərdə tutlur – L.Ş.) komandası peyda oldu.

Əgər İngilis komandanlığı Azərbaycan dəmir yolu ilə göstərilən stansiyalardan keçən eşalon və yüklərinin mühafizəsi üçün tədbirlər görmək istəyirsə, bunu Yollar Nazirliyi və Hərbi Nazirliklə razılaşdıra bilərdi. Çünki bu məqsədlə dəmir yolunda Yollar Nazirliyinə tabe olan sahə mühafizə rəisləri və Hərbi Nazirliyə tabe olan stansiya komendantları var.

Onda qarışıqlıq və anlaşılmazlıq yaratmadan sadəcə dəmir yolunun hər üç orqanının fəaliyyət sahələrini məhdudlaşdırmaqla kifayətlənmək olardı.

İngilis komandanlığına yaxşı məlumdur ki, rəisləri qoyub tabelikdəki şəxslərə tələblərlə müraciət etmək təkcə ümumi nəzakət qaydalarını pozmur, həm də dövlət idarəçiliyində nizamsızlıq yaradır.

2. Gəncə qubernatorunun bu il 10 aprel tarixli, 4958 saylı raportundan (surəti əlavə olunur) görünür ki, ingilislər Azərbaycan ordusunun komanda heyəti ilə görüşlərində yenə diqqəti bizim qoşunların hazırda ermənilər tərəfindən tutulmuş Yeni-Bəyazit qəzasının Zod kəndində görünməsi barədə yalan məlumatlara cəlb etmək istəyirlər. Təcili aydınlaşdırılsaydı.

3.Şuşadakı İngiltərə hərbi missiyası nümayəndəsinin qaldırdığı bu qədər hay-küy, sonra ingilis zabitinin royalda "Tanrım çarı hifz elə" musiqisini ifa etməsi Xankəndi qarnizonunun yalnız ev sahibi ingilislərə nəzakət göstərmək məcburiyyətində qalaraq ayağa qalxan zabit qonaqlarına hörmətsizliyin ən yüksək nümunəsidir.

Mən bütün qüvvəmlə siyasəti Azərbaycan ordusundan qovuram. Onun zərəri barədə danışılmağa dəyməz. Buna baxmayaraq, Şuşa hadisəsi ingilislərin bizə Rusiyanın gələcəyi

ilə bağlı baxışlarını sırımaq siyasətindən xəbər verir. Zənn edirəm ki, bu hadisə izsiz keçə bilməz.

Bakıda hökumətin İngilis komandanlığı ilə münasibətlərinin kəskinləşməsinə yol verməmək üçün qeyd olunan hər üç məsələnin bizim Tiflisdəki nümayəndənin hələlik general Tomsona müraciət etməsindən qabaq onlarla birbaşa görüşüb həll edilməsi daha yaxşı olardı. Qoşma: 2 ədəd raport."[86]

Artıq qeyd etdiyimiz kimi, ordu özünün birbaşa vəzifələrinin icrası ilə yanaşı, ölkədə yerli idaretmənin təşkili, xüsusilə bu məqsədlə müvafiq şəraitin yaradılması ilə yaxından məşğul olurdu. Bu baxımdan Silahlı Qüvvələrin 1919-cu ilin yayında Lənkəran qəzasında fəaliyyəti misal göstərilə bilər. Cümhuriyyət tarixinin ən unudulmaz hadisələrindən biri - Lənkəran qəzasının müxtəlif antiazərbaycan qüvvələrindən təmizlənərək, idarəçiliyin Azərbaycan hökumətinə tabe etdirilməsində milli hərbi xadimlərin, xüsusilə S.Mehmandarov və H.Səlimovun müstəsna xidmətləri vardır. Bir ildən artıq müddətdə dövlət müstəqilliyini əldə etmiş Azərbaycanın ölkənin bütün ərazisində hakimiyyət dayaqlarını möhkəmləndirmək cəhdlərinə baxmayaraq, 1919-cu ilin sentyabr ayına qədər Lənkəran qəzasında hökumətə tabe strukturlar yaratmaq mümkün olmamışdı. Özünü "Muğan respublikası" adlandıran xəyanətkar qüvvələrin və onlara bu işdə havadarlıq edənlərin fəaliyyəti nəticəsində Lənkəran qəzasının 1919-cu ilin iyununa qədər müstəqil respublikanın hüdudlarından kənarda qalması, Azərbaycan hökumətini, onun üzvlərini ciddi narahat edirdi. Hərbi nazir S.Mehmandarovun Lənkəran qəzasının əhalisinə 1919-cu il 4 iyun tarixli müraciətində bu narahatlıq ifadə edilmişdi. Həmin

86 ARDA, f. 2894, s. 1, iş 26, v. 14

müraciətində hərbi nazir hökumətin iradəsi ilə vətəndaş müharibəsini birdəfəlik kəsmək, qayda-qanun yaratmaq, yerli əhalini zalımlardan və qatillərdən qurtarmaq üçün Lənkəran qəzasına dəstə göndərdiyini bildirirdi. Azərbaycan qoşunları onun ayrılmaz tərkib hissəsi olan bu ərazinin bütün millətlərdən olan əhalisi üçün qanunçuluğun və ədalətin müdafiəçisi kimi silahlı qüvvələrin himayəsi altında ölkənin bütün ərazilərində təxirəsalınmadan mülki idarəçiliyi bərpa etməyə gəlirdi. Müraciətdə deyilirdi: «Bununla yanaşı, xəbərdar edirəm ki, hər hansı şura, komitə, yaxud "Muğan respublikası" şəklində heç bir özbaşına təşkilatın olmasına yol verilməyəcəkdir. Lənkəran qəzasında yalnız Azərbaycan Respublikasının hakimiyyəti tanınacaqdır və onun sərancamlarını yerinə yetirməyənlər qiyamçı kimi müharibə dövrünün qanunlarına uyğun məsuliyyət daşıyacaqlar. Xəbərdarlıq edirəm ki, rus əhalisinə qarşı heç bir qarətə və zorakılığa yol verilməməlidir, çünki onlar da qəzanın digər millətlərinin nümayəndələri ilə Azərbaycan Respublikasının bərabərhüquqlu vətəndaşlarıdır. Hər cür silahlı müqavimət ölüm cəzası ilə cəzalandırılacaqdır və qoşuna belə hallarda amansızlıqla fəaliyyət göstərməyi əmr edirəm. Bu barədə bu və ya digər bəhanə ilə əhalini qoşunlara, yaxud hakimiyyətə qarşı qaldıracaq şəxslərin hamısına xəbərdarlıq edirəm. Mən dəstə rəisinə qoşunların əhaliyə heç bir zərər verməməsi və mülki əhaliyə qarşı hər cür zorakılıq edənləri ciddi cəzalındırmağı əmr etmişəm"[87]

Lənkəran bölgəsinin Azərbaycan hökumətinə tabe olmayan qiyamçılardan təmizlənməsi və bölgədə hakimiyyətin bərqərar olunması məqsədilə hərbi nazirin əmrilə Lənkəran dəstəsi yaradılmış və dəstəyə komandanlıq general-mayor Həbib bəy Səlimova həvalə olunmuşdu. Həmin hərbi hissələr

87 ARDA, f. 894, s.10, iş.124, v.15-16

1919-cu il avqustun 12-dən sentyabrın 3-dək Lənkəran əməliyyatında iştirak edərək, ölkənin cənub bölgəsində respublikanın ərazi bütövlüyünün təmin edilməsilə bağlı döyüş tapşırığını uğurla yerinə yetirmişdilər. Lənkəran dəstəsinin qətiyyətli və çevik fəaliyyəti nəticəsində sentyabrın 3-də bölgədəki rus hərbi qüvvələri tərksilah edilmişdi. O dövrdə Lənkəranda vəziyyətin həqiqətən də, gərgin olduğunu göstərən məlumatlardan biri Hərbi Nazirliyin Baş Qərargah üzrə 1919-cu il 19 sentybr tarixli, 420 saylı əmri sayıla bilər. Hərbi nazir S.Mehmandarovun və Baş Qərargahın qərargah rəisi general-mayor Ə.Qaytabaşının imzaladıqları həmin əmrdə deyilirdi: "Lənkəran şəhərinin alınması və həmin rayonda qayda-qanun yaradılması, Azərbaycan hökuməti hakimiyyətinin bərqərar olunması üçün mənim tərəfimdən Ümumi qərargah rəisi, general-mayor Səlimovun komandanlığı altında üç növ qoşun hissəsindən ibarət xüsusi dəstə təşkil edilmiş və Lənkərana göndərilmişdir. Hacıqabuldan Lənkərana və geriyə olan 430 verstlik məsafəni bərk istilərdə bizim gənc ordumuz xəstələr və arxada qalanlar olmadan 15 günə qət etmişdir. Bütün yürüş ərzində dəstədə qayda-qanun pozulmamış, yerli sakinlərdən heç birinə kiçik bir ziyan da vurulmamışdır. Yolboyu şəhər və kəndlərin əhalisi dəstənin zabit və əsgərlərinin nəzakətli davranışını böyük minnətdarlıqla qeyd edirdilər. Mən buna dəstə qayıdandan sonra Lənkərana şəxsi səfərim zamanı əmin oldum. Əsl hərbi görkəmi və nümunəvi nizam-intizamı ilə hamıda güclü təəssürat yaradan dəstə zəngin hərbi qənimətlə Lənkəran qəzasını və Muğanı əzizimiz Azərbaycanın ağuşuna qaytardı, zülmdən və anarxiyadan əziyyət çəkən əhalini sakitləşdirdi və əmin-amanlığı təmin etdi. Bütün bunlar bir damla qan tökulmədən həyata keçirildi. Azərbaycan ordusunun

birinci hərbi yürüşündə özlərini qoçaq və şərəfli döyüşçü kimi göstərən gənc əsgərlərə ürəkdən «sağ ol!» deyirəm".[88]

Hərbi nazir S.Mehmandarov 1919-cu ilin avqust ayında Lənkəranda olarkən bütün qəza sakinlərinə müraciət etmiş, onları qayda-qanunu qorumağa, dinc quruculuq işlərinin aparılmasına dəstək olmağa çağırmışdı.[89]

Ordu quruculuğuna dövlətin xüsusi diqqət yetirməsini maliyyə vəsaitlərinin məhdudluğuna baxmayaraq, hərbi sahənin maliyyələşdirilməsinə ayrılan vəsaitin həcmi də aydın göstərir. Belə ki, hərbi nazirin 1919-cu ilin aprelində ordunun formalaşdırılması üçün büdcədən ayrılacaq vəsaitin miqdarı barədə hökumətə verdiyi təklif təsdiq olunaraq nazirliyə 399,4 milyon manat, dövlət büdcəsinin 27,7 faizi qədər vəsait ayrılmışdı.

1919-cu il iyunun 9-da Nazirlər Şurası ölkə sərhədlərində və daxildə yaranmış təhlükələri nəzərə alaraq, Azərbaycanın dövlət müstəqilliyinin tam etibarlı şəkildə qorunmasına zəmin yaradılması üçün Cümhuriyyət Parlamentinin qərarına uyğun olaraq fövqəladə səlahiyyətlərə malik Dövlət Müdafiə Komitəsinin (DMK) yaradıması haqqında mühüm qərar qəbul etdi. Həmin qərara əsasən Nazirlər Şurası sədrinin başçılıq edəcəyi 5 nəfərdən ibarət Dövlət Müdafiə Komitəsinin tərkibinə hərbi, xarici işlər, nəqliyyat, ədliyyə nazirləri daxil edilmişdi. İclasların səlahiyyətliliyi və qanuniliyi, başqa sözlə yetərsay üçün Komitənin tərkibinə daxil olanlardan 3 nəfərin iclasda iştirakı vacib idi. Sədrin iştirak etmədiyi hallarda iclasa sədrlik onun müəyyən etdiyi şəxs tərəfindən aparılacaqdı.[90]

DMK-nın ölkənin müdafiə məsələləri ilə məşğul olaraq respublika ərazisində hərbi, müharibə vəziyyətləri elan etmək,

88 ARDA, f. 2894, s.1, iş 3, v. 77
89 ARDA, f. 2898, s.1, iş 13, v. 17
90 ARDA, f. 2894, s 1, iş 35, v. 32

ümumi hərbi səfərbərlik keçirmək, könüllü müdafiə dəstələri yaratmaq, həmin vəzifələrin daha uğurla yerinə yetirilməsi üçün yeni strukturlar təşkil etmək və s. kimi geniş səlahiyyətləri vardı. Bu qurumun həm mərkəzdə, həm də yerlərdə həyata keçirilməsi tələb edilən müdafiə və təhlükəsizlik tədbirləri kompleks xarakter daşımalı, konkret nəticələr əldə edilməsinə yönəlməli idi. Azərbaycanın taleyinin müəyyənləşdiyi, ölkənin ciddi problemlər qarşısında olduğu bir vaxtda tərəddüdlər və ləngimələr qəti yolverilməz idi. DMK fəaliyyətinin ikinci günü bütün respublika ərazisində hərbi vəziyyət elan etdi.

Ölkənin müdafiə qabiliyyətinin, təhlükəsizliyinin möhkəmləndirilməsi yolunda atılmış ikinci mühüm addım Azərbaycanda kəşfiyyat və əks-kəşfiyyat işini daha peşəkar səviyyədə, eyni zamanda, mülki təşkilatlar və əhali arasında aparacaq, dövlət müstəqiliyinin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qorunmasında xarici və daxili düşmən qüvvələrin istənilən qara niyyətlərinin qarşısını almağa qadir olacaq, respublikanın ilk müstəqil xüsusi xidmət orqanının - Əksinqilab ilə mübarizə təşkilatının yaradılması oldu. Bu təşkilatın yaranmasına qədər Azərbaycanda yalnız hərbi sahədə kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini həyata keçirən bir qurum mövcud idi. Həmin qurum 1919-cu il mart ayının 28-də Hərbi nazir S.Mehmandarovun və Baş Qərargah rəisi M.Sulkeviçin imzaladıqları 157 saylı əmrlə Hərbi nazirliyin Baş Qərargahının General-kvartirmeyster şöbəsinin tərkibində yaradılmış "Kəşfiyyat və əks-kəşfiyyat" bölməsi idi. "ADR xüsusi xidmətinin yaradılması prosesində hərbçilər və digər dövlət xadimləri xarici ölkələrin çoxillik təcrübəsindən istifadə etməyə çalışırdılar".[91]

91 Cəfərli M., Azərbaycan Demokratik Respublikasının xüsusi xidmət orqanları, B., 1997, s. 8

Dövlət Müdafiə Komitəsi hərbi quruculuq və təhlükəsizliyin təminatı sahəsində həm zəruri olan qərarlar qəbul edir, həm də bu qərarların icrasını təşkil edirdi.

Hökumətin gördüyü qəti tədbirlər nəticəsində təxminən il yarım ərzində, mürəkkəb tarixi şəraitdə, iqtisadi və hərbi bazanın çox zəif olmasına baxmayaraq, kifayət qədər yüksək döyüş qabiliyyətinə malik bir ordu yaradıldı. Konkret addımlara gəlincə, milli Silahlı Qüvvələrin tərkibinə daxil edilən hərbi hissələr barədə aşağıdakı məlumatlar yerinə yetirilən işlərin real həcmini aydın göstərir.

1919-cu il iyunun 5-də hərbi nazirin Nazirlər Şurasına göndərdiyi 3033 saylı məktubda Gəncə quberniyası ərazisində partizan dəstəsinin yaradılması və yerli müsəlman əhalinin silahları ilə xidmətə çağrılması məsələsi qaldırılırdı. Bu təsadüfi bir qərar deyil, erməni quldur dəstələri və silahlı qüvvələrinə qarşı mübarizədə yerli şəraitin nəzərə alınmasının nəticəsi idi.[92]

Ordunun formalaşdırılması sahəsində işlərin uğurlu getməsini təsdiq edən ən etibarlı faktlardan biri 1919-cu il iyunun 25-də Hərbi Nazirlik üzrə imzalanmış 311 saylı əmr sayıla bilər. Həmin əmrdə Gəncə şəhər Qarnizonunun rəisinə tapşırılırdı ki, Ramazan bayramı münasibəti ilə həmin il iyunun 30-da Gəncə şəhər Qarnizonunun bütün hərbi hissələrinin paradını təşkli etsin.[93]

Paris Sülh Konfransının şərtlərinə uyğun olaraq, 1919-cu ilin aprelindən başlayaraq ingilislərin Qafqazı tərk etməyə başlaması (bu proses avqustun ortalarında başa çatdı) ordu quruculuğuna birbaşa Bakı şəhərindən rəhbərlik etmək imkanları yaradırdı. 1919-cu ilin aprelində Bakıda ingilis

92 ARDA, f. 2894, s. 1, iş 26, v. 28
93 ARDA, f 2894, s. 6, iş 4, v. 54

general qubernatorluğunun ləğvi ilə əlaqədar Gəncədə təşkil olunmuş ilk Azərbaycan alayı paytaxtda xalq tərəfindən təntənə ilə qarşılanmışdı. İngilislərin Bakını tərk etməsi Azərbaycanın müstəqilliyini möhkəmləndirsə də, sovet Rusiyasının keçmiş imperiyanı əvvəlki sərhədlər çərçivəsində bərpa etmək istəyini gücləndirməklə ona təhdid yaradırdı. Yaranmış vəziyyət ordu quruculuğunun sürətləndirilməsi ilə ölkənin müdafiəsi sahəsində tədbirlərin intensivləşdirilməsini tələb edirdi.

2.2. Ordu quruculuğu prosesində yeni mərhələ - 1919-cu ilin yayı-payızı

1919-cu ilin yayı ərəfəsində və yay aylarında ölkənin cənub, şimal və qərb sərhədlərində vəziyyətin gərginləşməsi, həmçinin Zəngəzur, Qarabağvə Lənkəran qəzalarında baş verən hadisələr hərbi qüvvələrin formalaşdırılmasını sürətləndirməyi tələb edirdi. Bu dövrlə bağlı hökumət başçısının, xarici işlər nazirinin xarici dövlətlərin Azərbaycandakı müxtəlif missiyalarına, xüsusilə İngiltərə hərbi komandanlığına, qonşu ölkələrin müvafiq dövlət orqanlarına və diplomatik nümayəndəliklərinə, eləcə də yerli idaretmə orqanlarına və təşkilatlarına ünvanladıqları onlarca sənəd, məktub və teleqram vardır. Bizi daha çox Hərbi Nazirliyin rəhbərlərinin məsələlərə münasibəti maraqlandırdığından bu dövlət orqanının rəsmi şəxslərinin həmin dövrə aid yazışmalarından bəhs etməyi məqsədəuyğun sayırıq. Bu baxımdan, Baş Qərargah rəisi M.Sulkeviçin Dövlət Müdafiə Komitəsinə 1919-cu il 26 iyun tarixli, 3152 saylı raportu böyük əhəmiyyətli sənəd kimi qəbul edilə bilər: "Yaranmış siyasi vəziyyət dövlətin müdafiəsinin təşkili üçün təcili və qəti tədbirlərin görülməsini tələb edir. İngilis komandanlığı tərəfindən Dağıstanda çəkilmiş

demarkasiya xətti bizi Könüllü Ordu ilə mümkün toqquşmanın aradan qalxması anlamında sakitləşdirməməlidir. Bu heç bir təbii manesi olmayan, şərti xəttdir və Dağıstanın köməksizliyi ucbatından şəraitin tələb etdiyi istənilən vaxtda Antantanın üstüörtülü razılığı ilə asanlıqla keçilə bilər. Dərbənd ingilislərin razılığı ilə Qızılburun-Zaqatala hərəkət xəttində könüllülərin tutmalı olduqları ərazilərin ilk mərhələsi oldu. Bu, raporta qoşulan "Единая Россия" qəzetinin 8 iyun tarixli, 112-ci sayında tamamilə aydın ifadə olunub.

Qarabağ hadisələri, Lənkəran qəzasında iğtişaşlar şübhəsiz ki, Könüllü Ordunun Dağıstanda peyda olması ilə əlaqəlidir və dövləti təhlükə təkcə şimaldan deyil, cənubdan və qərbdən də gözləyir. Gürcüstanla hərbi saziş Dağıstan və Ermənistanla sərhədlərdə bizim cəbhəni möhkəmləndirdi. Dağıstanın işğalı halında bizim sərhədlər şimala doğru xeyli genişlənir ki, bu da Bakıətrafı ərazilərin müdafiəsini asanlaşdırır. Ancaq digər tərəfdən, bu, bizi azsaylı qüvvələrimizi Dağıstanın mühüm nöqtələrini, Temirxanşuranı və Dərbəndi tutmaq üçün səpələmək məcburiyyətində qoyur. İşğal məsələsi Dövlət Müdafiə Komitəsində ən ciddi müzakirə aparılmasını tələb edir. Xaçmaz dəstəsinin əlimdə olan agentura məlumatına görə, açıq anarxiya var: Şeyxülislam Hacı Əli Akuşinskinin qüvvələri Levaşda, general Xəlilovun qüvvələri Temirxanşurada yerləşiblər. Sonuncunun könüllülər tərəfindən müdafiə olunacağı şübhəsizdir. 40-50 verst məsafənin ayırdığı tərəflər istənilən vaxt toqquşa və bizi də, nə ilə qurtaracağını indi demək mümkün olmayan arzuedilməz daxili müharibəyə cəlb edə bilərlər. Bizi işğaldan əvvəl könüllülərlə hərbi idarənin mütləq iştirakı ilə birbaşa təxirəsalınmaz danışıqlara girməyə məcbur edən də budur. Buna görə də qoşunların Dağıstana yeridilməsinə qədər anarxiyanın aradan qaldırılması, ölkədə

mülki hakimiyyətin qaydaya salınması və öz müsəlmanlarımız arasında qan tökülməsinin qarşısının alınması üçün vəziyyəti hərtərəfli öyrənmək lazımdır".[94]

1919-cu ilin yayında və payızında ordunun yeni hissələrinin təşkili prosesi daha da sürətləndi. Bu dövr milli ordunun yaradılmasında ən məhsuldar dövr sayıla bilər. 1919-cu il iyunun sonu və iyulun əvvəllərində ingilis qoşunları Azərbaycan ərazisini tərk etdikdən sonra Hərbi Nazirliyin rəhbər orqanlarının yenidən Bakıya köçürülməsinə başlandı. Hərbi Nazirliyin aparatı, Ümumi Qərargah və Baş Qərargah Bakıda Krasnovodsk və Merkuri küçələrinin (indiki S.Vurğun küçəsi ilə Azərbaycan prospekti) kəsişməsindəki binada yerləşdirildi.

Baş Qərargahın Ümumi Qərargah rəisi general-mayor H.Səlimov və növbətçi general polkovnik Qaytabaşı məhz bu məqsədlə 1919-cu il 27 iyun tarixli 56 saylı əmr imzalamışdılar: "Hərbi Nazirlik 2 eşalonla Bakı şəhərinə köçürülsün. Birinci eşalon: Ləvazimat, Mühəndis, Hərbi-sanitar, Hərbi-veterinar idarələri və Azərbaycan Hərbi Məhkəməsi. Onun yola salınması 28 iyun axşam saat 6, Bakıya çatması 29 iyun səhər saat 9-10 müəyyən olunsun. Eşalonun rəisi podpolkovnik Əlibəyov təyin edilir.

İkinci eşalon: Ümumi Qərargahın Baş İdarəsi, Baş Qərargah, Yerli briqadalar rəisləri idarəsinin dəftərxanası, Avtomobil hissəsi və mətbəə. Onun yola salınması 1 iyul axşam saat 6, Bakıya çatması 2 iyul səhər saat 9-10 müəyyən olunsun. Eşalonun rəisi polkovnik İvanov, onun müavinləri podpolkovnik Jukovski və podyesaul Uspenski təyin edilirlər. Əmlakın daşınması üçün yük maşınları ayrılacaqdır.

94 ARDA, f. 2898, s. 1, iş 13, v. 1

Yükləmə və boşaltma işləri məhdud vaxt çərçivisində mümkün qədər qısa müddətdə yerinə yetirilsin.

Bütün şöbə rəisləri Bakıya çatmaları barədə dərhal Baş Qərargaha məlumat versinlər".[95]

1919-cu ilin iyun-iyul aylarında Zaqatala və Bakı piyada alayları formalaşdırıldı. Hərbi nazirin 1919-cu il 14 iyul tarixli əmri ilə 1-ci Cavanşir, 2-ci Zaqatala və 3-cü Gəncə alayları 1-ci piyada diviziyasında, 4-cü Quba və 5-ci Bakı piyada alayları isə 2-ci piyada diviziyasında birləşdirildilər. Sonrakı əmrlə Şirvan alayının bazasında 3-cü piyada diviziyasının, 1-ci Tatar, 2-ci Qarabağ və 3-cü Şəki atlı alaylarının bazasında süvari diviziyasının yaradılmasına başlandı.

Bu dövrdə yeni hərbi hissələrin təşkili ilə əlaqədar onlar üçün yeni kazarmaların tikilməsi, mövcud olanların təmiri və qaydaya salınması da az əhəmiyyət kəsb etmirdi. Hərbi nazirin təqdimatı ilə Nazirlər Şurasının 1919-cu il iyul ayının 23-də Salyan kazarmalarının təmir edilməsi üçün nazirliyə 593 min 52 manat vəsait ayrılması barədə qərarı buna misal ola bilər.[96]

1919-cu il iyulun 1-də hərbi nazirin və Baş Qərargah rəisinin imzası ilə Nazirlər Şurasına göndərilən məktubda bildirilirdi ki, Bakıda yerli qarnizonla yanaşı, xarici qoşunların dəstələri də cəmləşib, həmçinin ayrı-ayrı hərbi rütbəlilərin daimi toplandıqları müşahidə edilir. Tez-tez hərbi idarə ilə heç bir əlaqəsi olmayan, lakin hərbi geyimdə olan şəxslərə də rast gəlinir. "Bütün bunlar Bakı şəhərində Tiflis, Kiyev, Varşava kimi digər böyük şəhərlərdə hazırda mövcud olan və vaxtilə mövcud olmuş komendant idarəsinin təsis olunmasını zəruri edir".[97]

95 ARDA, f 2894, s. 6 iş 4, v. 14
96 ARDA, f. 2894, s. 1, iş 35, v. 39
97 ARDA, f. 2894, s. 1, iş 23, v. 4

Bununla hərbi nizam-intizamın gücləndirilməsinə və xüsusilə Bakıda hərbi geyimdə sərbəst hərəkət edən şəxslərə nəzarətin təmin edilməsinə şərait yaradılırdı.

Parlamentin 1919-cu ilin 16 iyun-29 iyul tarixlərində keçirilmiş qırx səkkizinci, qırx doqquzuncu və altmışıncı iclaslarında "Əsgəri xidmətin müddəti barəsində" qanun layihəsi müzakirə və qəbul edildi. Komissiya sədri kimi qanun layihəsi barədə məruzə ilə Qara bəy Qarabəyli çıxış etdi: "İndiyə qədər Rusiya qanunlarına tabe olaraq əsgəri xidmətin müddəti 3 sənə 3 ay olduğu qəbul olunmuşdur. İndi hərbiyyə nəzarəti tərəfindən 3 sənə 3 ay fəzlə bir müddət olduğundan, bu müddəti azaltmaq daha da faydalı olduğundan bir tazə qanun verilir ki, bu müddət iki sənə edilsin. Bu barədə bir çox mülahizələr var. Öylələrdən əsaslıları bunlardır. Əsgərlik müddəti 2 sənə olsa cavanlarımız tez əsgərliyə yazılarlar, az vaxtdan sonra bizim bir sinnidə və ehtiyatda çox əsgərlərimiz olar, bu bir, ikincisi budur ki, ruslar zamanında əsgərliyə gedənlər öz işlərindən və sənətlərdən əsgərlik müddəti uzun olduğu üçün yadırğayırdılar. Amma indi 2 sənəlikdən sonra öz işlərinə tez qayıdıb dəvam edər, bu isə millətimizə iqtisadən böyük zərərdir. Sonra bilirsiniz ki, 19-dan 24 yaşına qədər əsgər alınır. Əgər bu iki ildə bir dəyişsə tez qayıdırlar. Bu mülahizələri nəzərə alıbda hərbiyyə nəzarəti bizə Rusiya qanunlarının əsasında olan bir çox maddələrin dəyişməsini təklif edir. Bu qanun təcili surətdədir". [98]

Layihənin ruscası da parlament üzvlərinə çatdırılmış və təcili baxılaraq qəbul edilmişdir. Uzun müzakirələrə və fikir ayrılıqlarına səbəb olan başlıca məsələ əsgəri xidmətin müddəti barədə olmuşdur. Bütün bunlara M.Ə.Rəsulzadə yekun vuraraq demişdir: "Təbiidir, müddətin 2 il, 5 il olması

98 ARDA, f.895, siy.1, iş 100. vər.1-32

məsələsi fənni bir məsələdir. Bu xüsusda bizdən əvvəl əsgər saxlamaq haqda mədəni dövlətlər və əsgəri mütəxəssislərin rəyi vardır. Hərbiyyə nəzarətində burada söz söyləyənlərdən daha ziyada mütəxəssislər vardır. Onların rəylərinə də əhəmiyyət verməliyik, son əsgəri mütəxəssislər iki sənə üzərində durmuşlar. Və iki sənəni kafi görmüşlərdir. Daha qüvvətli əsgəri təşkilata malik olan və bugün millət müsəlləh olaraq tanınmış olan Germaniyanın məşhur generallarından Fordurğuma yazmış olduğu əsgəri əsərində xidməti-əsgəriyyənin iki sənə olmasını kafi görmüşdür. O halda biz öz hissiyyatımıza qapılıb da müddət haqqında sırf kəndi fikrimizi məyub görməyəlim. Əsgərinin və mütəxəssisi-əsgəriyyənin fikrini nəzərdə tutmaq və münasib görmək lazımdır. Bizə təcrübələr göstərdi ki, başı pozuq, təlim və tərbiyə görməmiş cəmaətlə iş görə bilmərik. Hər bir iman, hər bir etiqad bir səbəbə mərbut olmalıdır. 2 sənə müddəti- əsgəriyyə fikri çox təcrübələrdən sonra vücuda gəlmişdir. Hər bir şeyi mütəxəssislərin rəyi və sonra təcrübələrdən nəticə olaraq hasil olur. Bunun hərbiyyə nəzarətində ki, mütəxəssislər böylə təklif edirlər. Ona görə bu layihəni olduğu kimi qəbul etməyi təklif edərdik. Öylə əsgər düzəltmək lazımdır ki qışla görmüş, silah tutmuş, hüdud bəkləmiş əsgər olsun. Vətən və məmləkət müdafiəsi üçün hüdudlarda dura biləcək böylə əsgərlər lazımdır. O vaxt hökumət də hüdudda gözəl bir ordu görür. Vətən müdafiəsi üçün həqiqi əsgər olmalıdır. Əgər həqiqi əsgərə və möhkəm bir orduya malik olmaq istəyiriksə, iki sənəyi qəbul etməliyik".[99]

1919-cu il oktyabr ayının 7-də hərbi nazirin 459 saylı əmri ilə sentyabr ayında imzalanmış 390 saylı əmrə əlavə olaraq 1919-cu il avqustun 10-dan açılmış sayılan Hərbi dəmir yol məktəbinin müvəqqəti ştatı təsdiq olunmuşdu.

99 Yenə orada

Hərbi Şuranın eyni tarixli iclasında mövqe batareyasının və zirehli avtomobil taqımının, aviasiya taborunun və əlahiddə minaaxtaran bölüyünün ştatlarının təsdiqi barədə Bakı Möhkəmləndirilmiş rayonu və Mühəndis İdarəsi rəislərinin təqdimatları əsasında müvafiq qərarlar qəbul edilmişdi. Yeri gəlmişkən, bu hərbi strukturların bəziləri bir neçə ay əvvəldən faktiki fəaliyyət göstərirdi. Ancaq bu struktur bölmələrin fəaliyyəti, qarşısında duran vəzifələrin yeni tələblər nəzərə alınaraq təşkili ilə əlaqədar ştatlar yenidən hazırlanaraq Hərbi Şuraya təqdim olunmuşdu.[100]

Yeni hərbi hissələrin təşkili ilə bağlı qarşıya çıxan əsas məsələlərdən biri onların hərbi texnika, silah-sursat və digər hərbi vasitələrlə təminatı idi. Bu problemlərin həlli yalnız Azərbaycanın öz imkanları hesabına mümkün olmadığından nazirlik rəhbərliyi həmin vasitələrin əldə edilməsi üçün digər ölkələrlə, xüsusən hərbi-texniki imkanlara malik olan ölkələrlə və qonşu Gürcüstanla danışıqlar aparır, bu sahədə qarşılıqlı əməkdaşlıq münasibətlərindən faydalanmağa çalışırdı. Baş Artilleriya İdarəsinin rəisi general-mayor M.G.Tlexas məhz göstərilən məqsədlə hərbi nazir tərəfindən Gürcüstana göndərilmiş və Azərbaycan ordusunun ehtiyac duyduğu bir sıra hərbi vasitələrin, o cümlədən silahların alınıb gətirilməsinə nail olmuşdu. Hərbi Nazirlik üzrə 1919-cu il sentyabrın 19-da verilmiş 421 saylı əmr bu məsələ barədə idi: "Bir sıra ciddi manelərə baxmayaraq, qısa müddət ərzində, son dərəcədə əlverişli qiymətlərə xeyli dəyərli əmlak alınmış, Gəncə və Bakıya gətirilmişdir. Əldə olunan vasitələrin əksəriyyəti tamamilə yenidir, əvvəllər istifadə edilənlər isə yararlı vəziyyətdədir. Tərəfimdən komissiyanın üzərinə qoyulmuş vəzifəni layiqincə yerinə yetirmiş, böyük enerji və məsuliyyət

100 ARDA, f. 2894, s. 1, iş 15, v. 83

nümayiş etdirmiş general-mayor Tlexasa xidmət adından səmimi təşəkkür elan edirəm. Vasitələrin alınması, qəbulu və göndərilməsinə böyük əmək sərf etmiş komissiya üzvlərinə də təşəkkür edirəm".[101]

1919-cu ilin yayında və payızında əvvəl Denikin, sonra bolşevik təhlükəsinin artması hökuməti müvafiq tədbirlər görməyə vadar edirdi. Xüsusilə Könüllü Ordunun 1919-cu ilin may ayında Dağıstana hücum edərək onu tutması, dəmir yolunda yaranmış vəziyyət, Azərbaycan sərhədlərinin təhdid olunması təcili hərəkətə keçməyi tələb edirdi. Parlamentin 1919-cu il may ayının 26-da keçirilən iclasında M.Ə.Rəsulzadə bu məsələlərə, eləcə də sosialistlərin və digərlərinin təhrikçi mövqelərinə münasibət bildirərək deyirdi: "İstər sağdan, istər soldan olsun, Denikin, istər bolşevik olsun, o tərəfə sərf-nəzər etmək, bütün qüvvəti o tərəfə çəkmək və ona istinadla tədbir görmək, doğru bir siyasət əsəri olmaz. Biz ona şahid olduq ki, Denikin Dağıstanla mübarizə etdiyi bir zamanda, Dağıstan dəmiryolu tətil elan elədi və buna da iqtisadi adı verdi. Bina əsasən, iki tərəfdən təhlükəni görməlidir və kimsədən imdad bəkləməməlidir. Bunu bildikdən sonra hansı təhlükə ortaya çıxacaq olursa onunla mübarizə etməlidir. Müharibə üsulunda bütün cəbhələrə birdən hücum edilməz. Ən eyi əsgər təhlükə nərədən daha qüvvətli gəlirsə orada müdafiəyə hazır olar, bunu bildikdə hökumətə niyə belə etmədin deyərək tənqid etmək və bunların cümləsini birdən görməmək mümkün olmadığını bildiyi halda sual vermək doğru deyildir. Buna görə bütün müşkülat içərisində olduğumuzu nəzərə almaqla bərabər ki, hökümətimiz yenidir, bir çox düşmənimiz var ona qarşı qətiyyət ilə, şiddət ilə hərəkət etmək doğru deyildir. Fəqət, bununla bərabər qətiyyət və şiddət başqadır. Burada təhəssür

101 ARDA, f. 2894, s. 1, iş 5, v. 144

əsərləri göstərildi. Bunları yek digərindən ayırmalıdır. Başa düşdürüb də təhəssür göstərən hökumət özünü yağışdan çıxarıb, yağmura salmaq deməkdir. Azərbaycan istiqlaliyyətini, öz istiqlalımızı mühafizə edəcəyiz... İngiltərə komandanlığı Zaqafqaziya cumhuriyyətlərinə Könüllü Ordu tərəfindən bir təhlükə olmadığını dəfələrlə deyib, təskinlik vermişdir. Fəqət, əks inqilabçı Könüllü Ordusu bütün bu vədlərə baxmayaraq Cəbaliyyun hökuməti üstünə hücum edib, camaatının xahişinin əksinə olaraq Dağıstan torpağını işğal etmiş və bizim sərhədlərimizi təhdid etməkdədir. Dağıstan xalqının hüququnun əks-inqilabçı Könüllü Ordusu tərəfindən vəhşiyanə payimal olması nəticəsi bizim üçün parlaq bir dərsi-ibrət olduğundan və Könüllü Ordunun Azərbaycan hüdudunda dayanması Azərbaycan xalqının canına qəsd, inqilabın səmərələrini məhv edəcəyindən bizim cumhuriyyətimiz üçün böyük bir təhlükə kəsb etdiyindən Azərbaycan Məclisi-Məbusanı elan edir ki, Azərbaycan xalqının elan etmiş və müdafiə etdiyi istiqlaliyyəti bütün xalq bir nəfər kimi əldə silah olaraq indi də əks inqilabçı Könüllü Ordusu tərəfindən qəti və şiddətlə müdafiə edəcəyini elan edir. Parlament fraksiyaları vasitəsilə könüllü dəstələr düzəltmək üçün ciddi səy göstərilsin".[102]

1919-cu ilin payızında təşkil edilən ən mühüm hərbi strukturlardan biri şimaldan, xüsusən dənizdən gözlənilən Denikin və bolşevik təhlükəsinin qarşısının alınması, Bakının tam etibarlı müdafiəsinin təmini məqsədi ilə yaradılmış Bakı istehkamçılar hissəsi (Bakı Möhkəmləndirilmiş rayonu) idi. Bu məsələ ilə bağlı hərbi nazir S.Mehmandarovun 1919-cu il

13 sentyabr tarixli raportu Dövlət Müdafiə Komitəsinin iclasında müzakirə edilmiş, həmin hissənin yaradılmasının məqsədəuyğunluğu barədə qərar qəbul olunmuşdu. Qərarda

102 ARDA, f. 895, siy. 1, iş. 91, v. 1-39

təsis olunacaq Bakı Möhkəmləndirilmiş rayonunun rəisi vəzifəsinin şəhərin hərbi general-qubernatoru vəzifəsi ilə birləşdirilməsi, Bakı şəhər rəisliyi ərazisinin ona tabe etdirilməsi əksini tapmışdı.

Bakının, onun dənizdən və qurudan müdafiəsi, ümumən şimal sərhədlərinin möhkəmləndirilməsi məsələləri hökumət üzvlərini, hərbçiləri bir neçə ay əvvəldən Xəzəryanı ərazilərdə və Dağıstanda yaranmış vəziyyətlə bağlı düşündürürdü. Baş Qərargah rəisi M.Sulkeviç hərbi nazirə "Bakı şəhəri civarının dənizdən müdafiəsi tədbirləri haqqında" 1919-cu il iyul tarixli məruzəsində yazırdı: "Xəzər dənizində yaranmış vəziyyət hər gün bizim üçün, xüsusilə paytaxtımız Bakı üçün əlverişli olmayan istiqamətdə inkişaf edir. Xəzər arxasından və Həştərxandan bolşeviklər, Petrovka tərəfdən könüllülər təhdid edir. İngilislərin yeritdiyi siyasət qeyri-müəyyəndir, bir tərəfdən onlar bizə dostluq münasibəti bəyan edirlər, digər tərəfdən özlərinin silahlanmış gəmilərini könüllülərə təhvil verirlər.

Bakı şəhəri isə dənizdən tamamilə açıqdır və bizim tərəfimizdən onun müdafiəsi üçün heç bir tədbir görülmür. İngilislərin sahil batareyası əgər bizim paytaxtımızı müdafiə edəcəksə, bu yalnız bolşeviklərdən müdafiə olacaq və çətin ki, indiki şəraitdə, özlərinə heç bir təhlükə doğurmadan istənilən vaxt limana girməyə, hətta Bakı şəhər rəisliyi rayonuna desant çıxarmağa imkanı olan könüllülərə qarşı.

Qeyd edilənlər Bakının dəniz istiqamətindən bizə düşmən olan bu və ya digər qüvvənin hücumundan müdafiəsi üçün tərəfimizdən müvafiq tədbirlərin görülməsini tələb edir. Bu tədbirlər aşağıdakılardan ibarət ola bilər:

1.Dəniz istiqamətindən müşahidənin təşkili.

2. Bakı şəhəri civarının dənizdən artilleriya baxımından müdafiəsinin hazırlanması.

3. Dəniz polisinin və liman növbəsinin yaradılması.

4. Bütün hərbi dəniz məsələlərinin Hərbi İdarənin əlində cəmləşməsi".[103]

Məruzədə qaldırılan dörd məsələnin hər biri ilə əlaqədar görüləcək tədbirlər göstərilir, bunların təfərrüatları sadalanırdı. Sonda isə həmin tədbirlərin həyata keçirilməsi üçün tələb olunan maliyə vəsaiti ilə bağlı hesablama təqdim edilirdi. Bu məruzəni mübaliğəyə yol vermədən Bakı şəhəri civarının dənizdən müdafiəsi sahəsində mükəmməl sənəd adlandırmaq olar.

Bakı şəhəri civarının dənizdən və qurudan müdafiəsi ilə bağlı məsələlər həmin vaxtdan sonra da hərbi nazirliyin, ümumən hökumətin diqqət mərkəzində olmuşdur. Hərbi nazirin və Baş Qərargah rəisinin imzaları ilə Dövlət Müdafiə Komitəsinə ünvanlanmış 1919-cu il 1 avqust tarixli, 3904 saylı məktub da bununla bağlı idi. "Bakı möhkəmləndirilmiş rayonunun qurulması ilə bağlı işlərə rəhbərlik üçün tərəfimdən podpolkovnik Vəkilov təyin olunub. Xahiş edirəm yaxın kəndlərdən cəlb edilən fəhlələrə Dövlət Nəzarəti tərəfindən müəyyənləşmiş qiymətlərə uyğun olan ədalətli əmək haqqının ödənilməsinə sərancam verəsiniz".[104]

Baş Qərargah rəisi M.Sulkeviçin və Baş Qərargahın General-kvatirmysteri polkovnik Karqaletelinin adından İkinci piyada diviziyasının rəisinə göndərilmiş 1919-cu il 22 avqust tarixli, 2665 saylı məktub da Bakı civarının müdafiəsinin təşkili ilə bağlı idi: "Bakı şəhəri civarının şimaldan (Xaçmaz istiqaməti) müdafiəsi Sizə tabe olan, birinci dövrdə 5-6

103 ARDA, f. 2898, s. 1, iş 13, v. 3
104 ARDA, f. 2898, s. 1, iş 13, v.16

minlik partizan dəstəsi ilə gücləndiriləcək diviziyaya həvalə ediləcəkdir. Hərbi nazirə məruzə olunması üçün məsələ barəsində ətraflı fikirlərinizi qısa müddət ərzində hazırlayın".[105]

Eyni məsələ ilə əlaqədar M.Sulkeviç Yollar Nazirliyinə 1919-cu il avqustun 22-də 3759 saylı məktubla müraciət etmişdi: "Xahiş edirəm mənə Xəzər dənizinin iki ədəd xüsusi xəritəsinin göndərilməsinə göstəriş verəsiniz. Bunlar sahil mühafizəsinin təşkilinə dair fikirlərimin əksi üçün lazımdır."[106]

Hərbi nazirin və Baş Qərargah rəisinin Dövlət Müdafiə Komitəsinin sədrinə 1919-cu ilin sentyabrında ünvanladıqları 4116 saylı birgə raportda isə deyilirdi: "Könüllü Ordu ilə toqquşmalarla bağlı bizim və Gürcüstanın qoşunları Dağıstanla sərhəd ərazilərdə, Quba qəzasında toplanmaqdadır, Bakı Möhkəmləndirilmiş rayonunda isə öz qarnizonumuz yerləşəcək. Yalama-Bakı-Ələt sahəsində dəmiryolu dənizdən zərbəyə məruz qalıb, buna görə də ordunun toplaşdığı ərazi və dövlət orqanlarının yerləşdiyi Bakı şəhəri ilə müharibənin başlanması, hətta səfərbərlik zamanı dəmiryolu və teleqraf əlaqəsi kəsilə bilər. Buna yol verməmək üçün dərhal aşağıdakı tədbirlər görülməlidir: Quba-Bakı-Şamaxı, Bakı-Şamaxı teleqraf xətlərinin çəkilişinə başlanmalı və əlavə edilən sxemə uyğun olaraq bütün aidiyyatı nəqliyyat yollarında tam qayda yaradılmalıdır. Bu tədbirlər orduya azad manevr imkanı verəcək və arxa cəbhə ilə əlaqəyə şərait yaradacaq. Belə ki, səfərbərliyin elan olunması ilə göstərilən yollar Şamaxının etap xəttində aralıq bazasına çevrilməsinə imkan verəcək".[107]

Bu istiqamətdə digər bir sənəd Dövlət Müdafiə Komitəsi tərəfindən 1919-cu il noyabr ayının 5-də qəbul edilmiş qərardır. Hərbi nazirin 2 noyabr tarixli, 607 saylı raportu əsasında qəbul

105 ARDA, f. 2898, s.1, iş 13, v. 10
106 ARDA, f. 2898, s. 1, iş 13, v. 12
107 Yenə orada

edilmiş həmin qərar Bakı Möhkəmləndirilmiş rayonunun mühəndis işləri üzrə fövqəladə xərcləri smetasının təsdiqi ilə bağlı idi. DMK-nın qərarında deyilirdi: həmin smetaya baxılmasına qədər Hərbi Nazirliyin sərəncamına 2 milyon rubl ayrılsın.[108]

1919-cu ilin oktyabrında hərbi nazir və Baş Qərargah rəisi Azərbaycan Respublikası Artilleriya İdarəsinin rəisi general-mayor Tlexasın 2 sentyabr 1919-cu il tarixli məruzəsi əsasında mövcud idarənin bazasında Baş Artilleriya İdarəsinin yaradılması haqqında Nazirlər Şurasına müraciət etmişdilər. Bu müraciətə həmin struktur bölmənin ştat layihəsi və Əsasnaməsi də əlavə edilmişdi.[109]

Milli ordu hissələri döyüş hazırlığı düşərgəsində, 1919

Adı hələ hərbi nazirin 1919-cu il 9 may tarixli müvafiq əmri ilə Hərbi məktəbə dəyişdirilmiş Praporşiklər məktəbinin zabitləri və hərbi vəzifəliləri hərbi nazirin 1919-cu il 31 oktyabr tarixli, 507 saylı əmri ilə oktyabrın 15-dən həmin məktəbin ştatına keçirildilər. Sonuncu əmrə əsasən Hərbi

108 ARDA, f. 2898, s. 1, iş 13, v. 51
109 ARDA, f. 2894, s. 1, iş 23, v. 7-10

məktəbin Ə.Şıxlinskinin sədrlik etdiyi komissiya tərəfindən hazırlanmış əsasnaməsi (piyada qoşunları və xüsusi hissələr üzrə gündəlik dərs cədvəlləri ilə birgə), ştatı təsdiq edilmiş, polkovnik Şıxlinski Hərbi məktəbin rəisi təyin olunmuşdu.[110]

Qışlaların çatışmaması, geyim, ərzaq çətinliklərinə baxmayaraq, 6-cı Göyçay piyada alayının formalaşdırılması da sürətlə aparılırdı. 1919-cu il oktyabrın sonuna qədər alayın təşkili, demək olar, başa çatdırıldı. 1919-cu ilin sonuna kimi Lənkəran köməkçi (ehtiyat) taboru alaya çevrilərək 7-ci Şirvan alayı adlandırıldı. Həmin il 8-ci Ağdaş piyada alayının və Zəngəzurda yerli əhalidən ibarət xüsusi hərbi hissələrin formalaşdırılması başa çatdırıldı. Süvari, piyada alaylarının, əlahiddə taborların və hərbi məktəbin döyüş bayraqlarının təsviri təsdiq edildi.

Qoşunların ayrı-ayrı hərbi hissələrinin yaradılması prosesi Hərbi Nazirliyin digər istiqamətlərdə apardığı tədbirlərin də sürətləndirilməsini, xüsusilə spesifik fəaliyyət sahələrində xidməti işin təşkili ilə bağlı müvafiq addımların atılmasını zəruri edirdi. Baş Qərargah rəisinin 1919-cu il 11 oktyabr tarixli, 99 saylı əmri bu baxımdan xarakterikdir. Həmin əmrdə Baş Qərargah rəisi tərəfindən bütün hərbi hissələrə, idarə və müəssisələrə Hərbi-topoqrafiya şöbəsindən ödənişli, yaxud ödənişsiz aldıqları bütün xəritələrin dəqiq qeydiyyatının aparılması tapşırılıraq deyilirdi: "Nəzərə almaq lazımdır ki, Azərbaycanda xəritələr istehsal olunmur, onların Gürcüstandan alınması isə ciddi çətinliklər və böyük vəsait hesabına başa gəlir. Buna görə də ölkəmizin və ordumuzun maraqları naminə Hərbi-topoqrafiya şöbəsindən xəritələrin tələb olunmasında, saxlanmasında, qeydiyyatında, istifadəsində və hesabtında,

110 ARDA, f. 2894, s. 6, iş 5, v. 2-3; 26

həmçinin onların hansı sayda və kimə ödənişsiz, yaxud ödənişlə verilməsində qayda yaradılmalıdır.” [111]

Bu əmrdən bir gün sonra hərbi nazirin vəzifələrini icra edən Ə.Şıxlinskinin imazaladığı 466 saylı əmrlə məxfi sənədlərin tərtibi, icrası, mühafizəsi və göndərilməsi ilə bağlı qaydalara ciddi əməl olunması tələb edilirdi.[112]

Yaxud Bakı Möhkəmləndirilmiş rayonunun balansındakı əmlakın, o cümlədən zirehli maşınların, hidroplanların və yük maşınlarının təmiri məqsədilə 70 milyonluq fonddan nazirliyə yarım milyon rubl vəsaitin ayrılması barədə 1919-cu ilin 13 avqustunda hökumət qərarının qəbulu da yuxarıda göstərilən məqsədə xidmət edirdi.[113]

Bütün bunlar ordu quruculuğunun planlı şəkildə aparılması üçün müvafiq şəraitin yaradılması məqsədi güdürdü. Hərbi nazirin 1919-cu il 18 noyabr tarixli, 535 saylı əmrilə Xaçmaz dəstəsi buraxılaraq, onun bazasında Quba dəstəsi yaradıldı. Bu yeni dəstənin tərkibinə Quba qəzasında yerləşən bütün hərbi hissələr daxil ediliridi. Həmin əmrlə Quba dəstəsinə rəis polkovnik Kəsəmənski təyin olunmuşdu, o, eyni zamanda, Quba qarnizonunun rəisi idi.[114]

Nazirlər Şurasının 1919-cu il 24 noyabr tarixli başqa bir qərarı ilə Bakı şəhərində 2-ci dərəcəli intendant əşya anbarı açılmışdı.[115]

Hərbi Şuranın 1919-cu il noyabrın 24-də keçirilən iclasında pulemyotçular hazırlayacaq tədris məktəbinin açılması barədə Baş Qərargah rəisinin 15 noyabr tarixli təqdimatı müzakirə olunmuş, belə bir məktəbin açılması

111 ARDA, f. 2894, s. 6, iş 4, v. 33
112 ARDA, f. 2894, s. 6, iş 4, v. 36
113 ARDA, f. 2894, s. 1, iş 35, v. 43
114 ARDA, f. 2894, s. 6, iş 5, v. 37
115 ARDA, f. 2894, s. 1, iş 35, v. 66

vaxtı çatmış və arzu edilən sayılaraq, təqdim olunan ştatın Hərbi Şuranın düzəlişləri nəzərə alınmaqla qanunvericilik qaydasında təsdiqi üçün Hərbi Nazirlik tərəfindən məsələ qaldırılması barədə qərar qəbul edilmişdi.[116]

Hərbi nazirin 1919-cu il 1 dekabr tarixli, 551 saylı əmri ilə Baş Artilleriya İdarəsinin, Bakı Möhkəmləndirilmiş rayonunun rəisi, Bakının hərbi generel-qubernatoru general-mayor Murad Girey Tlexas tutduğu birinci iki vəzifədən azad edilmiş, 1-ci Artilleriya briqadasının rəisi, general-mayor Şahzadə Məmməd Mirzə Qacar Baş Artilleriya İdarəsinin rəisi, Baş İntendant İdarəsinin rəis müavini polkovnik Əlibəyov Baş Artilleriya İdarəsinin rəis müavini, Hərbi məktəbin rəisi Şıxlinski 2-ci Artilleriya briqadasının rəisi, 1-ci Tatar alayının komandiri polkovnik Sofiyev 1-ci Cavanşir alayının komandiri təyin olunmuşdular.[117]

Üç gün sonrakı 558 saylı əmrlə isə Süvari diviziyasının rəisi, general-mayor Novruzov Quba dəstəsinin rəisi təyin edilmişdi.[118]

Ordu quruculuğu prosesinin daha uğurla davam etməsinə mane olan ən ciddi problem ölkənin bir sıra ərazilərində mövcud gərginliyin artıq münaqişə həddinə keçməsi idi. Belə ki, 1919-cu ilin yayından başlayaraq Zəngəzurda və Qarabağda Ermənistan dövlətinin dəstəklədiyi erməni silahlı qüvvələri tərəfindən törədilən qanlı hadisələr Azərbaycanın məcburi cavab addımları nəticəsində müharibəyə çevrilmişdi.

Xüsusilə, Zəngəzurda rəsmi İrəvanın təhriki ilə Azərbaycan hakimiyyətinə qarşı çıxışların intensiv xarakter alması 1919-cu ilin oktyabr ayında general-mayor Cavad bəy Şıxlinskinin komandanlığı altında ermənilərə qarşı hərbi

116 ARDA, f. 2894, s. 1, iş 15, v. 81
117 ARDA, f. 2894, s. 6, iş 6, v.4
118 ARDA, f. 2894, s. 6, iş 6, v. 7

yürüşün başlanmasına rəvac verdi. Bir aydan artıq davam edən hərbi əməliyyatlar nəticəsində Zəngəzurdakı erməni milli hissələri ciddi məğlubiyyətə uğradıldı. Dığ kəndi ərazisində düşmənin möhkəmləndirilmiş istehkamları dağıdılaraq kənd həmin qüvvələrdən təmizləndi. Ancaq bölgəyə nəzarət edən ingilis missiyasının tələbilə hücum dayandırıdı və 23 noyabr barışığına əsasən erməni hərbi hissələri Zəngəzur ərazisini tərk etdi.

General Cavad bəy Şıxlinskinin 1919-cu il noyabrın 8-də Hərbi Nazirliyə göndərdiyi teleqramda həmin döyüşlər barədə deyilirdi: «Adamların həddindən artıq yorulduqlarını və Dığ kəndini əldə saxlamağın mümkün olmayacağını müəyyənləşdirdikdən sonra, mən qrupu Zabıx çayının şimal sahilinə çəkməyi və əlverişli mövqe tutmağı qərara aldım. Bütün hissələr çayı sağ-salamat keçib müəyyən olunmuş mövqeyi tutdular...

General-mayor Cavad bəy Şıxlinski

Mənim bütün göstərişlərimi yerinə yetirmək üçün Yadigarovun dəstəsi Abdallara gəlib. Qəhrəmanlıqla həlak olan Cavanşir alayının podpraporşiki Muradovun və Zaqatala alayınm praporşiki Qazıyevin böyük cəsurluğunu xüsusi qeyd etməliyəm. Bizim artilleriyada əla döyüş xidmətləri olan podpolkovnik Novruzovun məharətini də unuda bilmirəm. Bizim itki belədir: Zaqatala alayından həlak olan və itkin düşən qırx nəfərdir, əlli nəfəri isə yaralanıb. Cavanşir alayından beş nəfər həlak olub, iyirmi nəfər yaralanıb. Şəki alayından iki nəfər yaralanıb, Qarabağ alayından isə ikisi və

artilleriyaçılardan bir nəfər yaralanıb. Zabitlərdən üçü həlak olub, dördü isə yaralanıb. İtkilərimizin sayını əlavə olaraq yenə Sizə bildirəcəyəm. General Cavad bəy Şıxlinski, Abdallar kəndi».

Məlumat üçün qeyd edək ki, Cümhuriyyət ordusunun qurulmasında ilk vaxtlardan yaxından iştirak etmiş hərbçi kimi Cavad bəy Şıxlinski daim ən mühüm istiqamətlərdə fəaliyyət göstərmiş bilik və bacarığı ilə fərqlənmişdi. Hərbi nazirin müavini general-leytenant Ə.Şıxlinskinin 1919-cu il iyunun 27-də imzaladığı 312 saylı əmrlə o zaman polkovnik rütbəsində olan, 1-ci piyada diviziyasının komandiri Cavad bəy Şıxlinski 1919-cu il iyulun 1-dən Gəncə qarnizonunun rəisi təyin edilmişdir. Həmin əmrdə polkovnik Cavad bəy Şıxlinskiyə və general-mayor Amaşukeliyə o da tapşırılırdı ki, qarnizona aid işlərin təhvil-təslimi barədə nazir müavininə məlumat versinlər.[119]

Qarabağda baş verən hadisələrə gəlincə, bu bölgənin idarə olunmasına cavabdeh Qarabağ General-Qubernatorluğu öz fəaliyyətini Hərbi Nazirliklə əlaqəli şəkildə həyata keçirməyə, mühüm vəzifələrin yerinə yetirilməsində, xüsusilə yerli əhalinin erməni təcavüzündən müdafiəsində onun imkanlarından istifadə etməyə çalışırdı. Hərbi Nazirlik bölgədə sabitliyin təmin olunmasında, hakimiyyət strukturlarının fəaliyyətinə müvafiq şəraitin yaradılmasında 1919-cu ilin yayı və payızında Qarabağ General-Qubernatorluğuna lazımi köməklik göstərmiş, bir sıra tədbirlərin nəinki iştirakçısı, həm də təşəbbüsçüsü olmuşdu. 1919-cu il sentyabr ayının 7-də Baş Qərargah rəisi M.Sulkeviçin və Baş Qərargahın General-kvartirmeysteri Karqaletelinin imzası ilə Qarabağın general-qubernatoru X.P.Sultanova göndərilən 4007 saylı məxfi sənəd

119 ARDA, f. 2898, s. 2, iş 1, v. 324

bu baxımdan xüsusilə əhəmiyyətlidir. Çünki həmin sənəddə yalnız bölgənin müdafiəsi ilə bağlı görülməli tədbirlərə deyil, həm də onun gələcəyinə yönəlik məsələlərə toxunulurdu. Qarabağ məsələsinin sülh yolu ilə həllinə münasibət bildirilən sənəddə daha sonra deyilirdi: "Buna baxmayaraq, Ermənistanın təbii və daimi müttəfiqi olan Könüllü ordu ilə toqquşmalarla bağlı Qarabağda sakitliyin saxlanılması bizim daimi işimiz olmuşdur və olaraq qalır. Hazırda Ermənistandakı vəziyyət elə də təhlükəli deyil, ancaq belə əlverişli vəziyyət həmişəlik davam edə bilməz və biz onun pisləşməsinə hazır olmalıyıq. Ermənilər Qarabağın daimi əldən çıxması ilə barışa bilməzlər və şübhəsiz ki, onu geri qaytarmaq üçün bütün imkanlardan istifadə edəcəklər. Bütün bunlar bizdən səfərbərlik elan olunmasını, Xankəndində və Şuşada qarnizonların gələcəkdə də saxlanmasını və Gorusda ermənilərin müşahidəsinin təşkilini tələb edir. Beləliklə, Qarabağ bizim o qədər də böyük olmayan müntəzəm ordunun cəbhəsindən kifayət qədər qüvvəni çəkə bilər. Ancaq Qarabağ General-Qubernatorluğu rayonunda sabitliyin pozulması ehtimalı var. Bu məqsədlə sonuncu müharibənin təcrübəsi əsasında əla döyüşçülər olan kürdlərdən "Həmdiyyə" süvari və piyada alayları yaratmaqda istifadə edilməlidir. Kürd alaylarının Kiçik Asiya, İran və Mesopotamiya döyüşlərində mətin davranışlarını müharibənin bütün iştirakçıları yekdilliklə etiraf edirlər. Sülh dövründə kürd hərbi hissələri üçün kadrlar hazırlanaraq kürd süvari alayı və atıcı taboru yaradılmalı və hərbi dövrdə 4 tabora çevrilməlidir. Çağırış yaşında olan kürdlər bütün hərbi hissələrdə xidmət edirlər, səfərbərlik elan olunması ilə yeni birləşmələr, alaylar və taborlar yaradılacaqdır. Onların bir hissəsi cəbhəyə ayrılacaq, qalanları isə Qarabağ zonasında qalacaqdır. Bu cür hazırlıqlar üçün kürd hissələri təşkilatları qeyd edilən

əsaslarda formalaşdırılacaqdır. Hələlik piyada və süvari hissələrə neçə nəfər 20-40 yaşlar arasında kürdlərin daxil edilə biləcəyini aydınlaşdırmaq zəruridir. Zati-alinizdən bu məsələ barədə fikirlərinizi bildirməyinizi və rəqəmlərlə bağlı məlumat verməyinizi xahiş edirəm".[120]

Baş Qərargah rəisinin 1919-cu il 6 dekabr tarixli, 117 saylı əmri ilə nazirliyin Bakı şəhərində və Bakı qəzasında yerləşən bütün hərbi hissələri, idarələri, müəssisələri, həmçinin Hərbi məktəb Qarnizon rəisi kimi Bakı Möhkəmləndirilmiş rayonunun rəisinə tabe etdirildi.[121]

Bu məsələ ilə əlaqədar həmin əmrdən 4 gün sonra, 1919-cu il dekabrın 10-da hərbi nazir tərəfindən imzalanmış 568 saylı əmrdə isə deyilirdi: "Hazırda Bakı general-qubernatorluğunun pespublikanın daxili sabitliyi və xarici təhlükəsizliyi üçün çox böyük əhəmiyyət kəsb etməsi kimi mövcud xüsusi şərait nəzərə alınaraq, Bakı rayonunun müdafiəsinin təşkilinin hərbi-texniki hazırlığının general-qubernatorluq tərəfindən müvəqqəti geri alınmasını zəruri edir. Bunula əlaqıdar Bakı hərbi general-qubernatoru general-mayor Tlexası Bakı Möhkəmləndirilmiş rayonunun rəisi vəzifəsindən azad edirəm.

Baş Qərargahın Baş İdarəsinin rəisi general-mayor Səlimov korpus komandiri və Bakı qarnizonunun rəisi hüququna malik olmaqla Bakı Möhkəmləndirilmiş rayonunun rəisi vəzifəsinə təyin edilir.[122]

Qeyd olunan rayonda yerləşən bütün nizami hissələr hər baxımdan korpus komandiri kimi general Səlimova tabedirlər. Baş Qərargahın növbətçi generalı general-mayor Qaytabaşı Baş Qərargahın rəisi vəzifəsinin müvəqqəti icraçısı təyin olunur."

120 ARDA, f. 2898, s. 1, iş 6, v. 30
121 ARDA, f. 2894, s. 6, iş 6, v. 9
122 ARDA, f. 2894, s. 1, iş 15, v. 108

General Ə.Şıxlinskinin sədrlik etdiyi Hərbi Şuranın 1919-cu il 27 dekabr tarixli iclasında Bakı Möhkəmləndirilmiş rayonunda 4 piyada və bir pulemyot bölüyündən ibarət ayrıca qala taborunun yaradılması qərara alınmışdı.[123]

Hərbi Şuranın Baş Qərargah rəisi general-leytenant M.Sulkeviçin sədrliyi ilə keçirilən 1919-cu il 27 dekabr tarixli iclasında isə 888 saylı təqdimat əsasında Bakı Hərbi Limanının və "Astarabad" hərbi gəmisinin ştatlarının təsdiq olunması barədə qərar qəbul edimişdi. Ümimiyyətlə, ordu quruculuğunda ən mühüm nəticələrdən biri 1919-cu ilin yayı və payızında Azərbaycan Xəzər Donanmasının yaradılması istiqamətində tədbirlərin görülməsi idi. 1919-cu ilin avqustunda ingilislərin Azərbaycanı tərk etməsi ilə əlaqədar İngiltərə hərbi gəmilərinin həmin ərazilərdən çəkilməsi ölkəni Denikin və bolşevik təhlükəsi qarşısında əslində müdafiəsiz buraxmışdı. Hərbi donanması olmayan Azərbaycan üçün Xəzər dənizindən gözlənilən istənilən təcavüz faciəvi nəticələr doğura bilərdi. Real təhlükə Hökumət və müvafiq qurumlar tərəfindən Hərbi Dəniz Qüvvələrinin formalaşdırılması prosesini sürətləndirmək üçün təcili tədbirlər görülməsini tələb edirdi. Qeyd edək ki, həmin vaxta qədər Hərbi Nazirlikdə bu qüvvələrin təşkili ilə məşğul olan struktur bölmə belə yaradılmamışdı. Çar Rusiyası dövründə donanma üçün zabit kadrları hazırlayan əsas məktəb kimi Dəniz Kadet Korpusuna oxumağa yalnız nəcabətli zadəgan və zabit uşaqlarını qəbul edirdilər. "Dəniz korpusunun qaydalarına uyğun olaraq, "Məhəmməd dininə ibadət edənlər" müstəsna hallarda "çox yuxarıdan xüsusi icazə ilə" qəbul edilirdi. Bir faktı qeyd etmək kifayətdir ki, donanmanın ən böyük döyüş gəmilərində, o cümlədən "Qars" və "Ərdəhan" gəmilərində faktiki olaraq, ali hərbi təhsil almış

123 ARDA, f. 2894, s. 6, iş 6, v. 9

heç bir azərbaycanlı zabit xidmət etmirdi. Yalnız "Ərdəhan" və "Astrabad" gəmilərində dəniz xidməti kapitanı Həsən Çilingərzadə və birinci dərəcəli kapitan Kitapçızadə xidmət edirdi. Belə bir vəziyyət gəmilərin şəxsi heyətinin tərkibində də özünü göstərirdi. Burada xidmət edən azərbaycanlılar ticarət donanmasından idilər və onların hərbi dəniz xidməti təcrübələri yox idi. Bu amillər donanmanın idarəetmə orqanını yaratmağa imkan vermirdi. Hətta Hərbi Nazirlikdə donanma ilə məşğul olan idarə və ya şöbə yox idi. Xəzər hərbi donanması ilə əlaqədar bütün məsələlər həll olunmaq üçün əvvəllər Nəqliyyat Nazirliyinə verilirdi".[124]

1918-ci ilin noyabrında ingilislər Bakıya gəldikdən sonra Xəzər hərbi donanmasına məxsus "Qars", "Ərdəhan" və "Astrabad" gəmiləri qaçırıldıqları Port-Petrovsk limanından Azərbaycana geri qaytarılsa da, bununla donanma yaratmaq mümkün deyildi. Cənubi Qafqazda fəaliyyətlərini başa çatdıran ingilislərin Britaniya hərbi-dəniz qüvvələrinə məxsus gəmiləri və digər texniki vasitələri denikinçilərə verməsi isə vəziyyəti daha da gərginləşdirmişdi. Belə ki, 1919-cu il sentyabrın əvvəllərində iki ay əvvəlki razılığa əsasən, ingilislər Könüllü Ordunun birinci dərəcəli kapitan A.Sergeyevin komandanlıq etdiyi donanmasına 11 yardımçı kreyser, 12 "Uaythed" minalı sürətli kater, 54 top, 23 minə yaxın mərmi və digər hərbi sursat vermişdi. Buna qəti etiraz edən Azərbaycan Hökumətinin adından Baş Nazir N.Yusifbəyli və xarici işlər naziri M.Y.Cəfərovun imzası ilə 1919-cu il avqustun 1-də Britaniyanın Bakıdakı qüvvələrinin komandanına məktub göndərilmişdi. "Məktubda Xəzər hərbi donanmasının bir hissəsinin "Könüllü Ordu"ya verilməsinin Azərbaycanın

124 Əliyev N, https://azertag.az/xeber/Azerbaycan_Xalq_Cumhuriyyeti_hokumetinin_fealiyyetinde_herbi_deniz_aspektleri-1137851

müstəqilliyinə və ərazi bütövlüyünə birbaşa təhlükə yaratdığı, ona düşmən mövqedə duranları gücləndirdiyi qeyd olunmuşdu. Məktubun sonunda gəmilərin təhvil verilməsi aktının təbii şəkildə əhalinin həyati maraqlarına toxunmaqdan başqa bir şey olmadığı bildirilir, Britaniya komandanlığından xahiş olunurdu ki, Xəzər hərbi donanması hissələrinin Denikinə verilməsi qərarını ləğv etsin. Britaniya ordusunun Bakıdakı komandanlığı bu məktubu İngiltərə Silahlı Qüvvələrinin ali komandanlığına göndərmişdi. [125]

Azərbaycan Parlamentinin 1919-cu il avqustun 18-də keçirilmiş altmış altıncı iclasında Xəzər hərbi donanmasının bir hissəsinin ingilislər tərəfindən Könüllü Orduya verilməsi, Denikin təhlükəsi, ölkənin dəniz sərhədlərinin müdafiəsi və s. məsələlərlə bağlı hökumətə ünvanlanmış sualları cavablandıran xarici işlər naziri M.Y.Cəfərov demişdir: "flotun bir hissəsinin Denikinə verililməsi ilə bağlı hökumət ingilis komandanlığına nota ilə müraciət etdi. Demək olmaz ki, bu, hökumətin bu barədə addımı idi. Hətta Tomson Bakıda, Tiflisdə olanda hökumət onunla müzakiratda idi. Hökumət həmişə deyirdi ki, flotun bir hissəsi Azərbaycanın olsun, tainki, sərhədlərini, paytaxtını müdafiə etsin. Hökumət razı olmaz ki, paytaxtımız dəniz kənarında ola-ola dava gəmiləri bir adamın əlində olsun. O adam kim olursa-olsun Azərbaycan özünü müdafiə etməkdən ötəri gərək onun əlində olsun. General Tomsonun yerinə Kuri yeni gəlmişdi. Hökumətin təklifinə görə onunla müzakiratda bulundum. Qəti bir cavab almadım. May ayının ortasında İtaliya heyəti Tiflisə gəldi. Polkovnik Qabba ilə bu məsələni müzakirə etdim. Qabba söz verib dedi ki, İtaliya komandanlığı Azərbaycana gəlib flotu qəbul edən kimi flotu bizə verəcək. Bundan əlavə də bizə müəllimlər,

125 Yenə orada

instruktorlar da verəcəkdir ki, atmağı və qeyrini bizimkilərə öyrətsinlər. İş belə oldu ki, italyanlar da gəlmədi. Flot qaldı İngiltərədə. İngilislər deyir ki, flot özümüzdə qalacaq, heç kəsə verilməyəcək. Amma axırda aldığımız rəsmi xəbərə görə flotun bir hissəsi Könüllü Orduya verildi. Əvvəl «Rossiya»da bu barədə qeyri-rəsmi xəbər yazılmışdı. Hökumətin əmrinə görə yazıb İngiltərə komandanlığına bu barədə xəbər aldım. Cavab gəldi ki, flotun bir hissəsi verilib Könüllü Orduya. Çünkü flot bolşeviklər əleyhinə düzülüb, indi ki biz gedirik və Denikin də bolşeviklər ilə müharibə edir, ona görə flotun bir hissəsi Denikinə verilir ki, bolşeviklər ilə müharibə eyləsin. O ki qaldı Denikinə verilən flotun Azərbaycan əleyhinə işləyə biləcəyinə, bu barədə rəsmi surətdə məktub var. Denikin özü demiş və yazmış. Və ingilislər də dəfələrlə xəbər verib demişlər ki, biz flotu Denikinə vermirik ki, Azərbaycan əleyhinə işləsin. Biz flotu ona veririk ki, bolşeviklər ilə müharibə etsin. Qəti surətdə əmin edirik ki, bu flot Azərbaycan əleyhinə işləməyəcəkdir. Biz də hökumət dəfələr ilə İngiltərə komandanlığına yazdıq ki, flotdan bir hissəsini də bizə verin. Axırıncı dəfə yazdıq ki, o qədər ki, Denikinə verilib, o qədər də bizə verilsin. Və İngiltərə komandanlığına təklif etdik ki, bizim bu xahişimizi İngiltərə hökumətinə xəbər versin. Amma, ştabdan xəbər almışıq, indiyə qədər cavab yoxdur".[126]

Bu məsələlərlə, xüsusilə flot və xətti-hərb barəsində lazımı təşəbbüslərdə bulunmaları xahişi ilə hökumətin Parisdə olan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşova teleqram vurulduğunu qeyd edən xarici işlər naziri ingilislərin Cənubi Qafqazdan getməsinin çox əlverişsiz bir vəziyyətə təsadüf etdiyini bildirərək deyirdi: "Əlbəttə, böylə mühüm vaxtda ki, bir yandan Könüllü Ordu güclənir, bir yandan flot

126 Arxiv: f. 895, siy. 1, iş. 130, vər. 1-23

onlara verilir. İngilislərin getməyinə görə Azərbaycan və Gürcüstan hökuməti Tiflisdə olan komandanlığa işarə elədi ki, sülh konfransı Zaqafqaziya cumhuriyyətlərinin işlərinə baxana qədər, ingilislər getməsinlər. Dedilər ki, bundan bir şey çıxmaz. Qət olub gərək gedək. Amma sizin bu xahişinizi hökumətimizə məlum eylərik. Bu vaxta qədər də hələ ondan cavab yoxdur. Ancaq əmr alıblar ki, getsinlər. Ona görə də gedirlər. O ki, qaldı qeyri məsələlər, hərbi, siyasi, daxili işlər ki, sualda xəbər alınır. Məndə olan məlumata görə hökumət lazımı iş görür. Nəinki Denikin, sağdan da, soldan da cumhuriyyətimiz əleyhinə olanların hökumət əleyhinədir. Əlbəttə xariciyyə nəzarətində olan işlər barəsində sizə bir çox məlumat verə bilərəm. Hərbiyyə işləri haqqında mən məlumat verə bilmərəm. Bu hərbiyyə nazirinin işidir. Ancaq bu qədər deyə bilərəm, hökumət var qüvvəsilə çalışır. Vətənin müdafiəsi üçün istər hərbi cəhətdən, istərsə siyasi cəhətdən nə lazımdır edir. Əlbəttə, demək olmaz ki, Azərbaycan üçün təhlükə yoxdur. Biz gərək hər zaman bu təhlükəni nəzərdə tutaq. Onun üçün birləşək ki, Azərbaycan milləti öz hüququnu, öz azadlığını, öz istiqlaliyyətini müdafiə etsin".[127]

Ağqvardiyaçı general Denikinin "vahid, bölünməz Rusiya" uğrunda apardığı mübarizə, Azərbaycan şimal, eləcə də dəniz sərhədlərindəki özbaşınalığı başlıca gərginlik mənbəyinə çevrilmişdi. Azərbaycan Hökumətinin tələblərinə baxmayaraq, Denikin ordusu nəinki Dağıstanı tərk etməmiş, Dərbəndi tutaraq Samur çayı və Zaqatalanın şimal sərhədləri üzrə yeni demarkasiya xətti müəyyən etmişdi. İngilis komandanlağına Azərbaycan və Gürcüstanın etirazlarına belə məhəl qoymayan Denikin dənizdə özünü əsl ağa kimi aparırdı. Onun dəniz donanmasının vitse-admiralı

127 Yenə orada

Gerasimovun Azərbaycan hökumətinə 1919-cu il sentyabrın 21-də verdiyi notada Rusiya ilə İran arasında 10 fevral 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsinin 8-ci maddəsinə əsasən yalnız Rusiya və İran Xəzər dənizində ticarət donanması saxlaması, hərbi donanma saxlamaq hüququnun isə ancaq Rusiyaya məxsusluğu bildirilərək Azərbaycan Xəzər donanmasının ləğv edilməsi tələb olunurdu: «Cənubi Rusiya silahlı qüvvələrinin Baş komandanlığı yanında Dənizçilik idarəsi bunu bildirməyi zəruri hesab edir ki, Azərbaycanın hərbi-ticarət gəmilərinin rus bayrağından başqa hər hansı bayraqla üzməsinə yol verməyəcəkdir». Bu əsassız notanı müzakirə edən Azərbaycan Dövlət Müdafiə Komitəsi Xarici İşlər Nazirliyinə Cənubi Rusiya silahlı qüvvələrinin Baş komandanlığının nümayəndəsinə aşağıdakı məzmunda cavab verilməsini tapşırmışdı:

1.Rusiya və İran arasında imzalanmış Türkmənçay müqaviləsi yalnız Rusiya və İran üçün məcburi ola bilər, bu yeni yaranmış dövlətlərə aid deyildir;

2.Xəzər dənizi sahillərində yerləşən Azərbaycanın limanları və ticarət gəmiləri vardır və bu gəmilər Azərbaycan bayrağı altında üzəcəkdir.

Eyni zamanda, Dövlət Müdafiə Komitəsi belə tədbirləri Azərbaycanın suveren hüquqlarına qarşı yönəlmiş akt kimi qiymətləndirərək, Xarici İşlər Nazirliyinə tapşırdı ki, bu məsələ ilə bağlı müttəfiqlərin Ali Komissarlığı qarşısında etiraz notası ilə çıxış edilsin. General Denikinə Azərbaycan donanmasının özgə bayrağı altında üzməsinin mümkünsüz olduğu çatdırılmışdı. Denikinin Xəzərin Azərbaycan sahillərinə, hətta Bakıya hücum edə biləcəyi təhlükəsi xüsusilə narahatlıq doğurmuşdu.[128]

128 ARDA, f. 970, s.1, iş 142, v. 91-93

Bütün çətinliklərə baxmayaraq, Hərbi Nazirliyin rəhbərliyi donanmanın yaradılması üçün mövcud imkanlardan istifadə edirdi. Hərbi dəniz işlərinin vahid hərbi idarə tərəfindən yerinə yetirilməsi məsələsi hələ 1919-cu ilin yayından diqqət mərkəzində idi. Baş Qərargah rəisi M.Sulkeviç hərbi nazirə "Bakı şəhəri civarının dənizdən müdafiəsi tədbirləri haqqında" 1919-cu ilin iyul ayında etdiyi məruzədə bütün hərbi dəniz məsələlərinin Hərbi İdarənin əlində cəmləşməsi barədə təklif irəli sürmüşdü. Bu təklifin reallaşması nəticəsində həmin ilin sonlarında Baş Qərargahın nəzdində 6 ştat vahidindən ibarət xüsusi hərbi dəniz şöbəsi yaradılmışdı. Artıq 1919-cu il dekabrın 5-də Bakı limanında dayanmış "Qars" və "Ərdəhan" kanoner gəmilərini yoxlamaq məqsədilə xüsusi komissiya təşkil olunmuş və həmin gəmilərdən Azərbaycanın sahillərinin müdafiəsində istifadə edilməsi nəzərdə tutulmuşdu.

1919-cu ilin avqustunda ingilislərin Bakını tərk edərkən şəhər limanının idarəçiliyini, hərbi hissələrin radiostansiyalarını, hərbi gəmilərin bir hissəsini və müəyyən qədər hərbi sursatı Azərbaycan hökumətinin sərəncamına təhvil verməsi bu sahədə vəziyyətin müsbət istiqamətdə dəyişməsinə şərait yaratmışdı. Donanmanın yaradılması istiqamətində fəaliyyətlər respublikanın dəniz sərhədlərinin müdafiəsi ilə bağlı atdığı ilk ciddi addım hesab edilməklə yanaşı, həm də Azərbaycanın müstəqil dövlət kimi öz varlığını və haqqını bir daha təsdiq etməsi demək idi. Rusiya tərəfinin bütün etiraz və açıq-gizli hədələrinə baxmayaraq, artıq 1919-cu ilin sonunda bir neçə hərbi gəmi və sualtı qayıq Xəzər dənizində dövlətimizin sərhədlərini qoruyurdu.

"Bütövlükdə isəAzərbaycanın Xəzər hərbi donanmasının tərkibinə 75 mm, 100 mm və 120 mm çaplı toplarla silahlanmış iki kanoner gəmisi – "Ərdəhan" və "Qars", "Astrabad",

"Göytəpə", "Araz", "Nargen" xidməti və yardımçı gəmiləri, "Oryol" nəqliyyat gəmisi, silahlı "Puşkin" paroxodu, lazımi qədər kater var idi. Həmçinin Bakı Dəniz Aviasiyası Məktəbinin bazasında xüsusi hərbi dəniz aviasiyası məktəbi yaradılması üçün müəyyən tədbirlər görülürdü. 1919-cu ilin payızında bu məktəbin maddi-texniki bazası dözülməz halda idi. Bakı şəhər idarəsinin yaratmış olduğu xüsusi komissiya tərəfindən 1919-cu ilin avqustunda məktəbin yerləşdiyi ərazidəki anqarlarda mühərriksiz və pərlərsiz on hidroaeroplan, həmçinin bu aparatlar üçün ehtiyat qanadlar tapılmışdı. 1919-cu il avqustun 19-da hərbi təyyarəçi poruçik Xan Əfşar Temurçin hərbi xidmət üçün Azərbaycan ordusuna qəbul edilmiş, oktyabrın 14-də isə dəniz aviasiyası dəstəsi yaradılmışdı. 1920-ci il yanvarın 26-da Hərbi Şura tərəfindən bu aviadəstənin yeni ştatı təsdiq edilmişdi. Hökumət tərəfindən, həmçinin donanmanın və hərbi dəniz aviasiyasının texniki vasitələrlə təmin olunması sahəsində də bir sıra tədbirlər görülmüşdü. Belə ki, Antantanın Ali Şurasına Paris sülh konfransında təqdim olunmuş memorandumda Azərbaycan hökuməti xahiş etmişdi ki, müttəfiq dövlətlər ordunun təmin edilməsi ilə yanaşı, donanmasının sualtı qayıqlarla, lazımi qədər mərmi ehtiyatları ilə təmin olunmaqla gəmi artilleriyası, limanların tam hərbi-texniki təchizatı, hidroaeroplanlar, məftilsiz teleqraflar, optik cihazlar və digər hərbi-texniki vasitələrlə təmin olunmasına kömək göstərsinlər. O cümlədən, donanmanın təmin olunması üçün altı sualtı qayıq, müxtəlif tipli döyüş katerləri, dəniz artilleriya silahları sifariş edilmişdi".[129]

Həmin müraciətlər bəzi hallarda müsbət nəticə verirdi. Belə ki, 1919-cu ildə general-mayor İbrahim ağa Usubovun başçılığı ilə İtaliyaya səfər etmiş hərbi nümayəndə heyəti

129 Əliyev N, https://azertag.az/xeber/Azerbaycan_Xalq_Cumhuriyyeti_hokumetinin_fealiyyetinde herbi_deniz_aspektleri 1137851

donanmanın ehtiyaclarını ödəmək məqsədilə 6 birtoplu qırıcı-kater, 12 kater, 6 sualtı qayıq, 92 gəmi topu, 10 sahil topu, 200-250 millik radiusda simsiz teleqraf qurğuları və s. alıb gətirmişdi. Bu işin gələcəkdə də davam etdirilməsi, Azərbaycanın həm quru, həm də dəniz sərhədlərinin etibarlı mühafizəsi üçün lazımi tədbirlər görülməsi hökumətin artıq mühüm vəzifələri sırasına çıxarılmaqda idi.

Hərbi Nazirlikdə dəniz xidmətinin təşkili ilə bağlı görülmüş işlər də müəyyən mənada dəniz sərhədlərimizin qorunması funksiyalarının yerinə yetirilməsinə öz müsbət təsirini göstərirdi. Belə ki, əsasən limanlarda və sahil sularında vəzifələrin icrası ilə məşğul olan dəniz xidməti hərbi qulluqçuları dəniz yolu vasitəsi ilə respublikanın strateji əhəmiyyətə malik mal və məhsullarının xaricə daşınmasının qarşısını alır, limanlarda yoxlamalar keçirilməsində iştirak etməklə qanunsuz yollarla və müxtəlif məqsədlərlə Azərbaycana gəlmiş şəxslərin aşkara çıxarılmasında yaxından iştirak edirdilər. Hərbi Nazirliyin Baş Qərargahı üzrə əmrlərin arasında 1919-cu ilin 15 oktyabr tarixli, 470 saylı əmr Azərbaycan Respublikasında dəniz xidmətinin təşkili sahəsində görülmüş işlərin ardıcıllığının təsdiqi baxımından əhəmiyyətli sayıla bilər. Əmrdə göstərilirdi:

General-mayor İbrahim ağa Usubov

"Dəniz xidməti kapitanı Çilingərzadə və ştabskapitan Kitabçızadə birinci hərbi liman komendantının köməkçisi, ikinci isə "Astarbad" hərbi gəmisinin kapitanı kimi bu ilin

dekabr ayından bütün təminatları ödənilməklə Azərbaycan Respublikası Silahlı Qüvvələrində xidmətə qəbul olunurlar. Hərbi nazirin vəzifələrini müvəqqəti icra edən general-leytenant Şıxlınski, Baş Qərargah rəisi general-leytenant Sulkeviç".[130]

Çağırış məsələləri bütün dövrlərdə olduğu kimi, yenə də diqqət mərkəzində saxlanılırdı. Həm yeni hərbi hissələrin yaradılması, həm də nazirliyin üzərinə düşən vəzifələrin artması, xüsusilə Qarabağ və Zəngəzurda hələlik lokal xarakter daşıyan, ancaq hər an genişmiqyaslı müharibəyə keçmək etimalı olan toqquşmalarla bağlı yeni qüvvələr tələb olunurdu. Bu isə çağırış işinin nəzarətdə saxlanması, onun təşklinə diqqətin artırılması yolu ilə mümkün ola bilərdi. Ancaq bəzi arxiv sənədləri göstərir ki, bu sahədə hələ də problemlər qalırdı. Hərbi nazir 1919-cu ilin oktyabr ayında daxili işlər nazirinə ünvanladığı məktubda 5 ay ərzində pul məsələsindən başqa qaldırdığı məsələlərin heç birinin həllini tapmadığını, xüsusilə yerlərdə çağrış məsələsinə kömək göstərilmədiyini yazırdı. Hərbi nazir yerlərdə bu işin səmərəli təşkili üçün həyətlərin siyahısının tutulmasını, mövqelərin möhkəmləndirilməsi işlərinə əhalinin cəlb olunmasını xahiş edirdi. O, çağırış sahəsində bölgələr üzrə vəziyyəti daha aydın göstərmək məqsədi ilə bəzi müqayisələr aparırdı: "Şamaxı qəzası 1800, Kürdəmir 930 nəfər əsgər verib. 800 min müsəlman əhalisi olan Bakı orduya 5 min nəfər əvəzinə cəmi 800 nəfər əsgər verib. 120 000 əhalisi olan Şuşa, Cəbrayıl, Cəvanşir qəzaları 7.200 nəfər əvəzinə cəmi 1902 nəfər əsgər verib".[131]

Silahlı Qüvvələrin formalaşdırılması prosesi 1920-ci ilin sonlarında, əsasən, başa çatdırılmalı, 40 min nəfərlik nizami

130 Şüküroğlu L., Azərbaycanın sərhəd mühafizəsi tarixindən, B., Şirvannəşr, 1999
131 ARDA, f. 2894, s. 6, iş 9, v. 29

ordu yaradılmalı idi. 1919-cu ildə görülmüş işlər və mövcud potensial bu planın uğurla yerinə yetirilməsinin mümkün olacağını göstərirdi. Yaradılması nəzərdə tutulan 40 min nəfərlik nizami ordunun 30 mini piyada, 10 mini isə süvari qoşun hissələrindən ibarət olacaqdı.

Milli ordunun alay komandiri polkovnik İsrafil bəyin 1923-cü ildə "Yeni Qafqasiya" jurnalında çap olunmuş xatirələrində 1920-ci ilin aprel işğalı ərəfəsində Azərbaycan ordusunun sayı barədə aşağıdakı məlumatlar əksini tapmışdır: "Bolşevik işğalına qədər Azərbaycan Avropa hərbi prinsipləri əsasında qurulmuş 30 000 nəfərlik orduya malik idi. Milli orduda 8 piyada, 3 xüsusi piyada alayı, 3 süvari alayı, 3 artilleriya briqadası, 2 zirehli qatar, 6 zirehli avtomobil, 2 hərbi gəmi ("Qars" və "Ərdəhan"), 8 hidroplan vardı. Əgər bu hərbi güclər zamanında tam tərkibdə Dağıstan sərhədində cəmləşdirilə bilsəydi, ölkənin müdafiəsini təmin etmək olardı. Üstəlik də bizim dost və qonşu Gürcüstanla qarşılıqlı müdafiə ittifaqımız vardı. Bu vəziyyətdə XI qırmızı ordunun başıpozuq və qeyri-mütəşəkkil hissələrinin Azərbaycan sərhədlərini keçməsi qeyri-mümkün işə çevrilərdi".

Polkovnik İsrafil bəy "Горцы Кафказа" jurnalının 1932-ci il 31-ci nömrəsində (s.13-18) dərc olunmuş xatirələrində isə hər diviziyanın (istər süvari, istərsə də piyada) 3 alaydan təşkil olunduğunu qeyd edir. O daha sonar yazır: "Piyada alayı 4 atıcı rota və hər biri 8 pulemyotla silahlanmış 3 pulemyot rotası, atlı kəşfiyyatçı dəstəsi, istehkamçılar rotası, rabitə komandası və sıra təliminə cəlb edilməyən hərbi qulluqçular rotası daxil olmaqla 3 batalyondan ibarət idi. Bundan başqa, hər bir alayın yanında batalyonlardakı əsgərlərin hesabına formalaşdırılan tədris komandası və musiqiçilər bölüyü fəaliyyət göstərirdi. Batalyonlardakı süngü sayı 650 nəfərə çatırdı. Süvari alaylarda

və artilleriya hissələrində ştat vahidi köhnə rus ordusunda olduğu kimi idi".

Tarix elmləri doktoru Mehman Süleymanov bu məlumatlarla razılaşmır və "525-ci qəzet"də dərc olunmuş "Polkovnik İsrafil bəyin Azərbaycan ordusu haqda xatirələr"inə sözardı" məqaləsində ordunun sayı barədə aşağıdakıları bildirir: "3 xüsusi piyada alayı və 3 artilleriya briqadası haqqında olan məlumatların dəqiqləşdirilməsinə ehtiyac vardır. Cümhuriyyət ordusunda 2 topçu briqadası var idi. Bundan başqa, əlahiddə topçu hissə və bölmələri var idi və əgər onlar birləşdirilsəydi, bir briqada yaratmaq olardı. Amma rəsmi olaraq 2 topçu briqadası var idi. 3 xüsusi piyada alayının olması haqqında məlumat doğru deyil. Cümhuriyyət ordusunun zamanımıza qədər gəlib çatmış arxivi kifayət qədər zəngindir və ordunun strukturunu bütünlüklə müəyyənləşdirməyə imkan verir. Hətta arxiv sənədlərində Cümhuriyyətin hərbi strukturlarının siyahıları da vardır. Birmənalı şəkildə məlumdur ki, Cümhuriyyət ordusunun tərkibində 8 piyada alayı və 3 süvari alayı var idi. Başqa hər hansı bir alay mövcud deyildi.

Cümhuriyyət ordusunun sayının 30 min nəfər olması ilə də razılaşmaq çətindir. 1920-ci ilin mart döyüşləri ərəfəsində Cümhuriyyət ordusunun ümumi sayının 20-25 mindən artıq olması mümkün deyildi. Əlimizdə dəqiq statistika olmasa da, ən azı piyada və süvari alaylarının ştat sayı məlumdur və bütün ştat vahidləri tam komplektləşdirilmiş olsaydı, onda biz dediyimiz rəqəm alınardı. Amma ordunun sayının artırılması üçün potensial mövcud idi. Hərbi Nazirliyin rəhbərliyi də 1920-ci ilin sonuna kimi ordunun sayının 40 minə çatdırılmasını planlaşdırırdı. Lakin bu iş tədricən görülməli idi. Çünki yalnız çağırışçı yaşına çatan gəncləri toplayıb bir yerə yığmaqla ordu yaratmaq mümkün deyildi. Xidmətə cəlb edilən kontingenti

həm yetərli sayda zabit kadrları ilə, infrastruktura ilə, geyimlə, silahla, ərzaqla, təlim-tərbiyə ilə təchiz etmək lazım idi. Bunlar isə tədricən həll edilməli idi və yalnız bu məsələlər həll edildikdən sonra çağırışçıların sayı artırılmalı idi".[132]

Cümhuriyyət dövrü hadisə və proseslərinə dövlət orqanlarının fəaliyyətinə kifayət qədər bələd olan və bu barədə mühacirət zamanı elimi- tədqiqat xarakterli əsərlər yazmış M.B.Məmmədzadə "Azərbaycan milli ordusunun keçdiyi yollar" məqaləsində yazırdı:

"İstiqlalını elan edən azərbaycanlıların ilk məqsədi milli ordu təşkil etmək idi. Məlum olduğu üzrə azərbaycanlılar çarizm dövründə əsgəri xidmətdən azad idilər. Buna görə də Azərbaycan hökuməti milli ordu təşkil etmək barəsində çox mühüm çətinlik qarşısında qalmışdı. Gürcü və ermənilər Rusiyadan ayrılaraq istiqlal elan etdikləri vaxt hər növ silahla təmin edilmiş milli əsgəri hissələrə malik olduqları bir zamanda azərbaycanlılar yalnız dünya müharibəsinin əvvəllərində könüllü olaraq azərbaycanlılardan təşkil edilən bir süvari alayına malik idilər. Elə bu qüvvət də siyasi həyatımızın ilk titrək və çətin dövründə böyük xidmət göstərən müntəzəm və yeganə əsgəri qüvvəmiz idi. Bu alay partizanlarla bərabər 1918-ci ildə Bakı və Şamaxı müsəlmanlarına hücum edən bolşevik-daşnak ordusunun irəliləməsinə mane olur. Və 1918-ci ildə qardaş Türkiyədən Azərbaycanın köməyinə tələsən Anadolu xilaskarları ilə birlikdə ruslara qarşı bir sırada müharibə edirdi. Azərbaycan Cümhuriyyətinin təşəkkülü əsnasında yalnız

600 nəfərdən ibarət olan bu yeganə qüvvə iki il ərzidə əhalinin qeyrəti ilə təxminən 30 min nəfərlik bir orduya çevrildi".[133]

132 "525-ci qəzet" 2018-ci il, 7 mart
133 "Xalq Ordusu" qəzeti, № 3, 1992-ci il 25 fevral

Əlbəttə, hələlik milli ordunun sayı barədə bütün bu ehtimalları təsdiq və ya təkzib edən arxiv sənədləri, yaxud həmin dövrdə silahlı qüvvələrin formalaşmasına rəhbərlik etmiş şəxslərin məruzə, çıxış, yaxud memuarlarında əksini tapmış faktlar olmadığından hansısa konkret rəqəmlər barədə danışmaq mümkün deyil. İndiki halda Cümhuriyyət dövründə milli ordunun şəxsi heyətinin sayının 25, 30, 40 min nəfər olması barədə müxtəlif vaxtlarda hörmətli alim və tədqiqatçılarımız tərəfindən yazılanlar hələlik konkret elmi təsdiqini tapmamış mülahizələr sayıla bilər.

2.3. Cümhuriyyət dövründə ordu həyatının və vətənpərvərliyin təbliği

Çar Rusiyasının tərkibində nəinki ordusu, hətta kiçik bir hərbi hissəsi olmayan Azərbaycan xalqı onun müdafiəsi məqsədi ilə yaradılan, öz övladlarının xidmət etdiyi ordunu böyük coşqu və məhəbbətlə qarşıladı. Xalq ölkənin paytaxtı da daxil olmaqla bir çox ərazilərini qardaş türk əsgər və zabitləri ilə birgə qısa müddətdə düşmən qüvvələrdən təmizləmiş, Qarabağda, Zəngəzurda, qərb sərhədlərində onu erməni təcavüzündən qoruyan ordunu özünü əsl xilskarı sayırdı. Faktlara istinadən deyə bilərik ki, Cümhuriyyət dövründə müxtəlif bayram günlərində, dövlət tədbirlərində silahlı qüvvələrin rəsmi keçidləri, hərbi paradlar onu izləyənlərin qəlbini riqqətə gətirir, fasiləsiz alqışlarla müşayiət olunurdu.

Belə tədbirlərdən biri - 1920-ci ilin Novruz bayramı haqqında milli ordunun polkovniki İsrafil bəy İsrafilov 1923-cü ildə "Yeni Qafqasiya" jurnalında çap etdirdiyi xatirələrində aşağıdakıları qeyd edir: "1920 sənəsi 22 mart Novruz bayramı münasibəti ilə icra edilən son rəsmi keçidi dəxi təxəttür

etməmək qeyri-mümkündür. Əcəba, hansı azərbaycanlı o məsud günü xatırlamır? Ordunun qabiliyyət və intizamə, mənəviyyatı təsəvvürüb fövqündə idi. Əcnəbi səfirləri az bir zamanda, vasitəsizlik içində, bu qədər münəzzəm təşkilata malik bir əsgəri qüvvət vücudu gətirildiyinə heyran qalırdı. Əhalidən bir çoxu duyduğu fərt məhzuziyyətdən ağlayırdı. O gün Azərbaycanın ən şanlı, ən bəxtiyar günü idi. Fəqət... Fəqət, Azərbaycan Ordusunun son rəsmi-keçidi idi".[134]

Ordu quruculuğunun həqiqətən, həm dövlət, həm də əhali tərəfindən ümumxalq işi kimi qəbul edilməsi Cümhuriyyət dövründə Azərbaycan əsgərinə, Azərbaycan silahlı qüvvələrinə verilən ən yüksək qiymətdir. Bu həmin dövrün ədəbiyyatında parlaq ifadə olunmuşdur. Doğrudur, müstəqil dövlət kimi Cümhuriyyətin qısa ömürlü olması bu münasibətin daha dolğun şəkildə əks etdirilməsinə imkan verməmişdir. Ancaq xüsusilə ədəbiyyat sahəsində Cümhuriyyət ordusunun, Azərbaycan əsgərinin şərəfinə hərbi vətənpərvərlik ruhlu sanballı əsərlər yazılmışdır. Bu mövzularda həmin vaxta qədər artıq kifayət qədər tanınan ədəbiyyat xadimləri, eləcə də gənc ədəbi qüvvələr dəyərli əsərlər yaratmışlar. Onlar qələmlərini yağılar əlində talanan Vətənin xilaskarı olan ordunun tərənnümü, babaların döyüş, mərdlik yolunu davam etdirən Azərbaycan əsgərinin əsl qəhrəman obrazının yaradılması naminə işlətmişlər. Orduya, bayrağa, ümumən hərbi vətənpərvərliyin təbliğinə həsr olunmuş bu şeir, nəsr və dramaturgiya nümunələri say baxımından o qədər çox olmasa da, sanbal və bədii səviyyə baxımından diqqətəlayiqdir.

Filologiya elmlər doktoru, professor Bədirxan Əhmədov "XX yüzil Azərbaycan ədəbiyyatı – mərhələlər, istiqamətlər, problemlər" monoqrafiyasında Cümhuriyyət

134 «Yeni Qafqasiya» jurnalı, İstanbul, 1923-cü il № 14

dövrü ədəbiyyatının təhlilinə də geniş yer ayırmış, ordu həyatı və vətənpərvərlik mövzusunun şair və yazıçılarımızın yaradılıcılığında necə işıqlandırıldığını hərtərəfli araşdırmışdır. B.Əhmədov yazır: "Cümhuriyyət dövrü Azərbaycan ədəbiyyatını ayrıca bir mərhələ kimi götürmək mümkündür. İki ilə yaxın bir dövrün ədəbi prosesini özündən əvvəlki və sonrakı proseslərlə bu və ya digər şəkildə əlaqədə götürmək daha doğru olardı. Bununla belə, dövrün kifayət qədər zəngin ədəbi mənzərəsinin formalaşmışdığını da qeyd etmək yerinə düşərdi. Lakin bu dövr çox qısa olduğu üçün bəzi yazıçı və şairlərin Cümhuriyyət dövrü yaradıcılığı barədə qəti fikirlər yürütmək çətin olur".[135]

Şairlərdən Ə.Cavad, A.Səhhət, M.Hadi, Umgülsüm, Ə.Abid, Ə.Müznib, A.Qayıbov (Nazir), İbrahim Şakir, Davud və başqaları, ədiblərdən Ə.Haqverdiyev, S.Hüseyn, Y.V.Çəmənzəminli, Hekayənəvis, Ə.Həmdi, C.Cabbarlı (həmçinin şair və dramaturq kimi), C.Məmmədquluzadə digər mövzularla yanaşı, vətən, millət, dövlət, bayraq, ordu, əsgər şərəfi, vətənpərvərlik, hərbi şücaət və s. mövzularda da maraqlı əsərlər yazmış, bu dövr yaradıcılıqları ilə Azərbaycan ədəbiyyatına dəyərli töhfələr vermişlər.

Həmin əsərlərin əksəriyyəti milli yaddaşın, milli düşüncənin məhsulu kimi meydana çıxaraq, təkcə təbliğ və təşviq səviyyəsində qalmır, xalqa, onun ayrı-ayrı zümrələrinə milli ruh aşılayır, onları birlik, səfərbərlik, qəhrəmanlıq ovqatına kökləyir. Bu baxımdan, günümüzdə də aktual olan həmin əsərlərdən bəzilərini diqqətə çatdırmağı məqsədəuyğun hesab edirik.

135 Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı – mərhələlər, istiqamətlər, problemlər, "Elm və təhsil" nəşriyyatı, B., 2015, s. 122

A.Şaiq:

Birləşəlim, türk oğlu, bu yol millət yoludur,
Ünlə, şərəflə, şanla tariximiz doludur.
Yürüyəlim iləri, haydı millət əsgəri,
Keçmişiniz şan, zəfər, durmayalım bir geri.

Yıldırımlı gözünüz qan ağlatır düşmənə,
Qorxaq, alçaq xainin bu meydanda işi nə?
Dəniz kibi coşalım, dalğa kibi qoşalım,
Altun ordu iləri! Dağlar, daşlar aşalım.

Ə.Cavad

Ey döyünən ürək, dumanlı səhər,
Bilirmisən bu zor gurultu nədir?
Aç sisli qoynunu, ordumuz gəlir,
Nişanlın qoynuna girər, bismillah!

Ey hərbin taleyi, bizə yol ver, yol!
Sən ey gözəl dəniz, gəl türkə ram ol!
Sən ey sağa-sola qılınc vuran qol!
Qollarına qüvvət gələr, bismillah!

Ey Bakı, sən qorxma, gəldik gələli,
Sənincün atıldıq daim iləri.
Sağ qalanlar annələrə təsəlli,
Şəhidlərin ruhu gülər, bismillah!

Ey düşmən, alnının yazısı qara,
Öldürməz bizləri vurduğun yara,
Yolladığım qurşun ərmağan sana
O kirli alnını öpər, bismillah!

***

Dağa, daşa sancağını öpdürüb,
Duman kibi bu dağları bürüdün!
Dənizlərə salam rəsmi yapdırıb,
Göylərdəki bulud kibi yürüdün.

Yürü, yürü batan günün izinə,
Gülümsəyir doğan günəş yüzünə.

Baş əğdi, bax, toplarının səsinə,
Yad ellərin yıldırımı, şimşəyi,
Orgğun kimi qurumaya başladı,
Səni görən cəlladların biləyi.

Yürü, yürü batan günün izinə,
Gülümsəyir doğan günəş yüzünə.

Qardaşlğın fərmanına baş əyib
Məzlumların imdadına yetişdin.
Qaranlıqda süngün sənə yol açdı
Sən o yoldan muradına yetişdin

Yürü, yürü batan günün izinə,
Gülümsəyir doğan günəş yüzünə.

M.Hadi

Millətin namusu sizdən çox şücaət gözləyir,
Dövləti-növzadi-milli qalibiyyət gözləyir.

Bəkləyir sizdən zəfər atimiz, istiqlalımız,
Şanlı qeyrət, şanlı hümmət, şanlı cürət gözləyir.

Bir baxın nisvani-iffətpərvəri millimizə,
Dideyi-ümmid ilə sizdən həmiyyət gözləyir.

Payimali-düşmən olsunmu çəmənzari vətən?!
Yurdumuz sizdən bu gün çox ali himmət gözləyir.

C.Cabbarlı

Altun köksün hilal-yıldız, işıqları öpüncə,
Zirvəsindən Şah dağının gündoğuşu dinilür.
Rəhm Allahi gözəlliklər tanrısı tək pək incə,
Bir siyaqla könüllərə hey salamlar söylüyür.
O yerlərdə qardaşları, dostları var, pək sevir,
Yaşıl donlu, mavi gözlü, al yanaqlı sevdiyim.

Canalıcı bir görkəmlə dağ başında durunca,
Oxşadıqca bahar yeli açıq-dağnıq tellərin.
Nazlı əlin umuzunda saçlarına vurduqca,
Bir-bir oxşayırsan bütün Turan ellərin.
Altaylardan, Altun dağdan doğma seller bəkləyor
Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim.

Rəmuz ilə dörd bir yanə işıq saçmaq istiyor,
Ara-sıra tərpəniyor, bu kəsik uçmaq istiyor,
Qollarilə türk ellərin bütün qucmaq istiyor,
Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim

Almas Yıldırım

Əlimizdə can qurtaran tüfənglər,
Belimizdə dinamitli fişənglər,
Coşsun yenə əski, poıad ürəklər
Haydı qardaş, sinirlərə qoşalım!

Dalğalanır üç boyalı şu bayraq,
Hürr yaşayır bərəkətli şu torpaq,
Sağlam bir imanla silah alaraq,
Haydı qardaş, sinirlərə qoşalım!

Biz sağ ikən yaşayacaq yurdumuz,
Böyük bir ad qazanacaq ordumuz,
Həpimizin fədakarlıq borcumuz,
Haydı qardaş, sinirlərə qoşalım!

Damarında varsa əgər türk qanı,
Silahınla məhv edərək duşmanı,
Köksünü gər, saxla Azərbaycanı,
Haydı qardaş, sinirlərə qoşalım!

Yuxarıdakı nümunələri və digər şairlərin əsərlərini ədəbiyyatşünaslıq kontekstində təhlil edən professor Bədirxan Əhmədov yazır: “Elə bu nümunələrdən də görmək olur ki, poeziya bu mərhələdə bədii düşüncənin ən geniş yayılmış qolu

kimi ictimai, siyasi fikrin, vətənçiliyin, türklüyün, torpağın qorunması düşüncəsini vətəndaşlarda yaratması, onu istiqlala, vətəni müdafiəyə hazırlaması yönündə də çox işlər görüb".[136]

Azərbaycan şairlərinin bir çoxu ordu həyatı, əsgəri şücaət, düşmənə nifrət, hərbi vətənpərvərlik mövzularında kifayət qədər püxtələşmiş, qüdrətli poeziya nümunələri yaratmış türk şairlərindən, əsasən, M.Ə.Yurdaqul, Namiq Kamal, Tofiq Fikrətdən təsirlənərək də gözəl əsərlər yazmışlar. M.Ə.Yurdaqulun "Ya qazi ol, ya şəhid" şeiri bu baxımdan daha böyük təsir gücünə malik olmuşdur.

Haydı yavrum! Bən səni bu gün üçün doğurdum,
Xamırını yigidlik duyğusuyla yoğurdum.
Türk övladı odur ki, yurda olan torpağı,
Ana irzi bilərək yad ayağı basdırtmaz;
Bir yabançı bayrağı
Azan səsi duyulan heç bir yerə asdırtmaz.
Get övladım, illərcə bən oğulsuz qalayım,
Bu yaralı bağrıma qara daşlar çalayım..
. Haydı oğlum, haydı get,
Ya qazi ol, ya şəhid!..

B.Əhmədov yazır: "Onun açıq mətnlə yazdığı «Vur», «Ya qazi ol, ya şəhid» şeirləri Azərbaycanın bu günü üçün də keçərli olduğundan milli poeziya məkanına təsirsiz qalmayıb. Nə qədər təzadlı da olsa, şair türk xalqını «vurmağa, qan tökməyə çağırır. Lakin bu vuruş düşmənə qarşıdır, millətin, xalqın intiqamından doğur, çünki düşmən bu xalqın torpağına, istiqlalına göz dikib. Türk oğullarını «vur»mağa səsləyən şair deyir:

136 Yenə orada s. 148

Vur, sən də müqəddəs saraylar quran,
Dünyanın dikdiyi bayraq üçün vur.
Hər dinin sevdiyi ədalət üçün
Hər yerdə hayqıran bir haqq üçün vur!

«Vur", eşqin və haqqın zəfərin üçün,
Vur, səndən bax dünya bunu istiyor.
Vur, yerdə bax tarix sənin seyrçin,
Vur, göydən bax Allah sənə «Vur!» diyor.

Vur, çəlik qolların qopana qədər,
Ölüncə eşqinlə, qüvvətinlə vur.
Son düşmən, son kölgə qalana qədər,
Ölüncə kininlə, şiddətinlə vur".[137]

Nəsr nümunələri içərisində vətənpərvərlik və ordu həyatı ilə daha çox bağlı olanları S.Hüseynin "İsmailliyə", Hekayənəvisin "Könüllü", dramaturji əsərlərdən C.Cabbarlının "Ədirnə fəthi", "Trablis müharibəsi, yaxud Ulduz", "Oktay Eloğlu", "Aydın", C.Məmmədquluzadənin "Anamın kitabı", M.Məmmədzadənin "Bakı müharibəsi" (C.Cabbarlının eyniadlı əsəri kimi itmişdir) əsərləri sayılır.

Professor B.Əhmədov haqlı olaraq qeyd edir ki: "İctimai-siyasi, ədəbi, mədəni fikrin formalaşmasında əsas rolu, şübhəsiz, mətbuat oynayırdı. Bunu da qeyd etmək lazım gəlir ki, dövrün, zamanın sosial, siyasi, hərbi amilləri mətbuatda publisistikanı önə çəkdiyindən, bədii söz bir qədər arxa plana keçir. Dövlət quruculuğu prosesi mətbuat və onun vasitələri ilə ədəbiyyata da öz töhfəsini verir. "Azərbaycan", "İstiqlal",

137 Yenə orada səh 145-146

“İttihad”, “El”, “Doğru yol”, “Millət”, “Məktəb”, “Türk sözü”, “Bəsirət”, “Açıq söz”, “Övraqi nəfisə”, “Qurtuluş” və s. mətbuat orqanlarında publisistlərlə yanaşı, yazıçı və şairlər də məqalələrlə çıxış edirdi. “Kommunist”, “Gənc işçi”, “Haqq”, “Zəhmət”, “Əxbar” kimi bolşevik mətbuatı da fəaliyyət göstərdiyindən burada da bəzi ədəbi nümunələrə rast gəlmək olurdu.”[138]

Publisitikada millətin, vətənin, dövlətin, ordu həyatının, vətənpərvərliyin təbliği, gənclərin xalqın tarixi qəhrəmanlıq ruhunda tərbiyəsi və s. yaxın mövzularda yazılar üstünlük təşkil edir. Bu sahədə Ü.Hacıbəyli, M.Ə.Rəsulzadə, C.Hacıbəyli, A.Ziyadxanov, Ş.Rüstəmbəyov, H.Ağayev, H.Şahtaxtlı, Ə.Pepinov, M.Şahtaxtlı, Ş.Qasprinskayanın yazıları diqqəti daha çox cəlb edir. Onlar janrın gündəlik hadisələrə dərhal münasibət bildirmək kimi üstünlüyündən məharətlə yararlanaraq mövcud vəziyyətə daha operativ reaksiya vermiş, mövzuların işlənməsində həyatın nəbzini çevik tutmaqla oxucu ilə birbaşa təmas qura və ona təsir göstərə bilmişlər.

Cümhuriyyət dövründə xeyli sayda hərbi marşlar, mahnılar da yazılmışdır. Bu sahədə daha çox Türkiyə (Osmanlı) ənənələrindən bəhrələnən milli şair və bəstəkarlarımız həm mətn, həm də musiqi baxımından yüksək səviyyəli, təsirli və yaşarı sənət nümunələri yaratmışlar.

Marşlar arasında günümüzlə səsləşdiyi üçün bir qədər dəyişdirilərək vətənpərvərlik tərbiyəsində istifadə olunanları da var. Əli Kaminin yazdığı marş belə nümunələrdən biridir.

Anam bəni yetişdirdi, bu yerlərə göndərdi,
Bu sancağı təslim etdi, Allaha ismarladı.

Boş oturma, çalış dedi, xidmət elə Vətənə,

138 Yenə orada s. 122

Südüm sənə halal olmaz, saldırmazsan düşmənə.

Arş irəli, marş irəli, Qafqazın şanlı əsgəri.
Arş irəli, marş irəli, qafqazlılar dönməz geri.

İtaətdir ilk borcumuz bu torpaqda biləlim,
Bu sancaqda birləşdik biz, siyasətdə öləlim.

Arş irəli, marş irəli, Qafqazın şanlı əsgəri.
Arş irəli, marş irəli, qafqazlılar dönməz geri.

Belə marşlardan biri də 1920-ci ilin martında, Əsgəranda qanlı döyüşlər gedən zaman 18 yaşlı gənc şair Maqsud Şeyxzadə tərəfindən yazılmış «Əsgəran marşı»dır.

Vardı Əsgəranda minlərlə əsgər,
Aslan yavrusu tək sarsılmaz ərlər.
İrəli, irəli ey islamlarım.
Yağı yuvasını dağıdanlarım.

Dəydi top gülləsi yad ordusuna,
İstərəm alaylar dağılıb sına,
İrəli, irəli, ey tərlanlarım.
Geniş üfüqlərə can atanlarım.

Görək mərd çıxacaq neçənci igid?
Laləzar salacaq neçənci şəhid?
İrəli, irəli, türk oğulları.
Sizsiniz qısaldan uzaq yolları.

Bütün bunlar göstərir ki, Azərbaycan ədəbiyyatı, mədəniyyəti Cümhuriyyət dövründə ordu quruculuğunda, Azərbaycan əsgərinin vətənpərvərlik, qəhrəmanlıq, tarixi keçmişə hörmət, gələcəyə inam, düşmənə nifrət ruhunda yetişməsində yaxından iştirak etmiş, yaratdığı sənət nümunələri ilə mənəviyyat xəzinəmizi zənginləşdirmişdir.

III fəsil. Cümhuriyyətin süqutu ərəfəsində Silahlı Qüvvələrin vəziyyəti

3.1. Cümhuriyyət ordusunun qurulmasında son mərhələ

Ordunun sayının 1920-ci il ərzində artırılaraq 40 min nəfərə çatdırılması üçün müvafiq fəaliyyət planı hazırlanmışdı. Bu plana görə, il ərzində aşağıdakı hissələr yaradılmalı idi:

- 9-cu piyada alayı yaradılaraq 3-cü piyada diviziyasının qərargahı təşkil edilməli, 7-ci Sirvan, 8-ci Ağdaş və 9-cu piyada alayları bu diviziyaya tabe etdirilməli idi;
- 4-cü süvari alayı;
- iki haubitsa batareyası;
- haubitsa divizionunun qərargahı;
- bir dağ-süvari batareyası;
- dağ-süvari divizionunun qərargahı;
- üç batareyadan ibarət yüngül səhra divizionu və onun qərargahı;
- hər biri bir bölük həcmində olan dörd məhəlli komanda və hər biri yarım bölükdən ibarət üç məhəlli komanda.

1920-ci il yanvarın 3-də Baş Qərargahın növbətçi generalı, general-mayor Ə.Qaytabaşı və İnspektorluq şöbəsinin rəisi podpolkovnik Pankov tərəfindən Qərargahın yeni strukturunun layihəsi imzalandı. Bu layihəyə görə Qərargaha hərbi nazir, onun müavini, Baş Qərargah rəisi və onların köməkçiləri ilə yanaşı, Növbətçi general İdarəsi, Ümumi, İnspektorluq,

Pensiya bölmələri, bir bölük, General-Kvartirmeyster İdarəsi və onun tərkibində Əməliyyat-kəşfiyyat, Səfərbərlik və yerli qoşunlar, Hərbi nəqliyyat, Nizami və ümumi bölmələr, Rabitə komandası və ixtisaslı əsgərlər, Hərbi-topoqrafiya şöbəsi, Hərbi-məhkəmə hissəsi, baş molla daxil idi. Ordu Qərargahında ümumiyyətlə, 11 general, 33 qərargah zabiti, 25 ober-zabit, 18 məmur, 18 əsgər xidmət edəcəkdi. Qərargahın istifadəsində 16 at, 26 daşıyıcı vasitə olacaqdı. Həmin layihədə Ordu Qərargahının hansı struktur bölmələrdən ibarət olması ilə yanaşı, ştatların uyğun gəldiyi vəzifələr və əmək haqları da göstərilmişdi. Layihənin sonunda belə bir qeyd edilmişdi: "Dəftərxana xərcləri və təsərrüfat-məzuniyyət məsələlərinin Hərbi Şura üzrə müəyyənləşdirilməsi".

Bu layihələrin Qərargahdan başlanması təsadüfi deyildi. Qərargah tam tərkibdə və peşəkarlardan ibarət heyətlə fəaliyyətini qurduqdan sonra üzərinə düşən vəzifələrin öhdəsindən daha yüksək səviyyədə, başlıcası isə planlı şəkildə gələcəkdi. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün belə layihələrin bütün ordu birləşmələri üzrə hazırlanaraq ardıcıl şəkildə həyata keçirilməsi nəzərdə tutlurdu. Nazirlik rəhbərləyinin sonrakı aylarda qəbul etdiyi qərarlar, verdiyi əmrlər ordu quruculuğu planının uğurla yerinə yetiriləcəyinə qəti inam yaradırdı. Ancaq regionda yaranmış şərait, xüsusilə ölkə ətrafında vəziyyətin son dərəcə gərginləşməsi, erməni hərbi birləşmələrinin cənub sərhədlərində və Qarabağda törətdikləri qırğınlar, eləcə də gündən-günə artan bolşevik təhlükəsi bu məqsədin reallaşmasına imkan vermədi.

Bununla əlaqədar Cümhuriyyət Hökuməti ordu quruculuğu prosesini planlaşdırıldığı qaydada yalnız 1920-ci il fevral ayının sonlarına, mart ayının ilk həftəsinə qədər qismən davam etdirə bildi. Həmin tədbirlər prosesin bu mərhələdə necə

aparıldığı və diqqətin daha çox hansı istiqamətlərə yönəldiyi barədə aydın təsəvvür yaradır.

Hərbi Şuranın Baş Qərargah rəisi general-leytenant M.Sulkeviçin sədrliyi ilə keçirilən 1920-ci il 11 yanvar tarixli iclasında Bakı Möhkəmləndirilmiş rayonu rəisinin 1919-cu il 27 dekabr tarixli 888 saylı raportu əsasında Bakı Möhkəmləndirilmiş rayonunun, Bakı hərbi limanı komendantının, "Astarabad" gəmisinin ştatlarının təsdiq olunması barədə qərar qəbul edilmişdi. [139]

Hərbi Şuranın 1920-ci il fevral ayının 11-də keçirilən 6-cı iclasında Hərbi Nazirliyin hissələrinin, qoşunlarının, idarələrinin, təsisatlarının və müəssisələrinin ştatlarını hazırlayan komissiyanın məruzəsi dinlənilmiş, komissiyanın təqdim etdiyi ştatlar Hərbi Şuranın dəyişiklikləri və əlavələri nəzərə alınmaqla qəbul olunmuşdu. Baş Qərargah rəisi general-leytenant M.Sulkeviçin sədrliyi ilə keçirilən həmin iclasın qərarına görə bu ştatlar 1920-ci il yanvarın 1-dən tətbiq ediləcəkdi. Elə həmin iclasda qoşun idarələrinin rəisləri yanında yerli komandaların təşkili barədə Baş Qərargah rəisinin məruzəsi müzakirə edilmiş və məsələ müsbət qarşılanaraq, ştatın baxılmaq üçün komissiyaya təqdim olunması qərara alınmışdı.[140]

Hərbi Şurada müzakirələrdən bir neçə gün əvvəl general-mayor Ə.Qaytabaşı həmin yerli komandaların təşklinin zəruriliyi haqqında mülahizələrini belə əsaslandırmışdı: "Bir illik fəalyyət göstərdi ki, Hərbi Nazirlikdən asılı olmayaraq xidmətə yeni əsgər çağırışının daim fasiləsiz davam etməsi ilə əlaqədar və Hərbi Rəislər İdarəsində əsgər ştatları məhdud olduğundan yeni çağrışçıların hərbi hissələrə yola

139 ARDA, f. 2894. s. 1, iş 16, v. 1
140 ARDA, f. 2894, s. 1, iş 16, v.92

salınması əsgərləri xidməti vəzifələrindən, nizami hazırlıq məşğələlərindən yayındırır. Hərbi hissələrin yuxarıda göstərilən vəzifələrin icrasından azad edilməsi Hərbi Rəislər İdarəsinin nəzdində göndərildiyi hərbi hissələrdə bu işlə yanaşı, qarnizon xidməti görəcək, yerli partizan dəstələri yaradılması, səfərbərlik elan olunanda isə ehtiyat hissələrin təşkili ilə məşğul olacaq yerli komandaların təşkilini son dərəcədə zəruri edir. Layihəsi hazırlanan yerli komandanı iki tipə uyğun təşkil etmək arzuolunandır. Bakı, Gəncə, Şuşa, Nuxa Hərbi rəislər idarələrində bölük heyəti, digər İdarələrdə yarım bölük heyəti şəklində".[141]

Hərbi Nazirlik üzrə 1920-ci il fevralın 17-də 105 saylı əmrlə Baş Qərargahın strukturunun yenidən təşkili üçün Baş Qərargah rəisi, general-mayor Həbib bəy Səlimovun sədrliyi altında, Baş Qərargahın Baş İdarəsinin rəisi, general-mayor Əbdülhəmid bəy Qaytabaşının və Baş Qərargah zabiti polkovnik Karqalatelinin üzv olduğu komissiya yaradıldı. Zərurət yaranacağı təqdirdə komisiya sədri tərəfindən komissiyanın işinə digər şəxslərin cəlb olunmasına da icazə verildiyi bildirilən əmrdə daha sonra qeyd edilirdi: "Ştatların müəyyənləşməsində işçilərin kəmiyyəti deyil, keyfiyyət əsas tutulsun. Belə ki, yaxşı təmin edilmiş yüksək səviyyəli xidmətə götürülənlərin kiçik, ancaq yaxşı aparatına malik olmaq, öz təyinatlarına uyğun gəlməyən, həm də pis təmin olunmuş çoxluqdan daha yaxşıdır".[142]

Baş Qərargahın strukturunun yenidən təşkili, onun fəaliyyətinin təkmilləşdirilməsi qərarı təsadüfi deyildi. Azərbaycan ordusunun yarandığı ilk vaxtlardan fərqli olaraq, onun formalaşdırılmasının sonrakı mərhələlərində

141 ARDA, f. 2894, s. 1, iş 16, v. 96
142 ARDA, f. 2894. s. 6, iş 7, v. 90

idarəetmənin yeni tələblər nəzərə alınmaqla həyata keçirilməsi, xüsusilə birbaşa vəzifələrin icrası sahəsində qərarların daha çevik qəbul edilməsi lazım gəlirdi. Buna görə də hər bir ordunun beyni sayılan Baş Qərargahın yeni şəraitdə qarşısında duran vəzifələrin həm də miqyasına görə fərqlənməsi onun strukturunun bu tələblərə uyğunlaşdırılması zərurətini doğurmuşdu. Təqribən iki həftə sonra, 1920-ci il mart ayının 2-də komissiyanın təqdim etdiyi layihə əsasında Azərbaycan Hökuməti Baş Qərargahın yeni strukturuna uyğun ştatının təsdiqi barədə qərar qəbul etdi.

Hərbi nazirin göstərilən qərarla bağlı əmrində aşağıdakılar qeyd edilirdi: "Mənim təqdimatm əsasında Baş Qərargahla Ümumi Qərargahın Baş İdarəsinin ştatları vahid qərargahda birləşdirilərək, bundan sonra Azərbaycan Ordusunun Qərargahı adlandırılmışdır. Baş Qərargahın Ümumi Qərargahının Baş İdarəsinin rəsi, general-mayor Səlimov mart ayının 1-dən Azərbaycan Ordusu Qərargahının rəisi təyin edilir. Baş Qərargahın rəisi vəzifələrini icra edən general-mayor Qaytabaşı Azərbaycan Ordusu Qərargahının növbətçi generalı təyin edilir. Baş Qərargahın növbətçi generalı vəzifələrini icra edən polkovnik Jilyayev mart ayının 1-dən hərbi nazir yanında tapşırıqlar üzrə general vəzifələri icra edən təyin olunur.

Ordu Qərargahının yeni ştatlarının təsdiqi ilə əlaqədar olaraq Baş Qərargah yanında Yerli Briqadalara Rəhbərlik İdarəsi ləğv edilir.

Hərbi nazirin tapşırıqları üzrə qərargah zabiti vəzifələrini icra edən general-mayor Yadigarov mart ayının 1-dən Ordu Qərargahı yanında ezamiyyələr və tapşırıqlar üzrə general vəzifəsinə təyin edilir.

Bununla Ordu Qərargahının idarə, şöbə və bölmələri rəislərinin tərkibi elan olunur:

General-Kvartirmeyster İdarəsi - Baş Qərargahın General-kvartirmeyster idarəsi vəzifələrini icra edən polkovnik Karqaleteli.

Hərbi-topoqrafiya şöbəsi – şöbə rəisi general-mayor Vəkilov.

Hərbi Nazirliyin Dəftərxanası – Dəftərxana rəisi vəzifələrini icra edən kollej müşaviri Tahirov.

Hərbi məhkəmə hissəsi – hissə rəisi general-mayor Dubrovski.

Növbətçi Generalın İdarəsi: 1.İnspektorluqşöbəsininrəisi podpolkovnik Pankov. 2.Ümumi şöbənin rəisi podpolkovnik Kodin.

3. Mətbəənin müdiri polkovnik Lisyakov.

General-Kvartirmeyster İdarəsi: 1.Səfərbərlik şöbəsinin və yerli qoşunlar şöbəsinin rəisi polkovnik Seyfullin.

2. Nizami və ümumi bölmənin rəisi podpolkovnik Maqrubov.

3. Hərbi məlumatlar üzrə bölmə rəisi vəzifələrini icra edən rotmistr Xudaverdov.

Hərbi Nazirliyin Dəftərxanası:

Maliyyə-hesabat şöbəsi rəisi vəzifəsinin icraçısı kollej asessoru Vəzirov.

Bakı Möhkəmləndirilmiş rayonu qərargahının rəisi polkovnik Hacıbəylinski martın 1-dən General-Kvartirmeyster İdarəsinin əməliyyat-kəşfiyyat bölməsinin rəisi təyin olunur".[143]

Ölkənin maliyyə imkanları yaxşılaşdıqca, hərbi təminat və təchizat işləri də qaydaya salınırdı. Bu özünü hərbi hissələrin geyim və ərzaq təminatında xüsusilə göstərirdi. Hərbi nazirlik bu sahədə hərbiləşdirilmiş dəstə və qüvvələrə malik qubernatorluqlara və qəza idarələrinə da kömək edir, onların

143 ARDA, f. 2894, s. 6, iş 7, v. 108

sifarişi ilə lazımi əşya və geyim tədarük edib göndərirdi. Azərbaycan ordusunun sifarişi ilə bu məqsədlə 1919-cu ilin oktyabrından 1920-ci ilin martınadək hazırlatdırılmış hər biri 500 manat dəyərində olan 1000 ədəd yarımkürk Gəncə qubernatoruna, hər biri 400-500 manat dəyərində olan 2000 ədəd yarımkürk Zaqatala qubernatoruna, hər biri 450 manat dəyərində olan 5000 ədəd yarımkürk isə Ərəş qəza rəisinə göndərilmişdi.[144]

Hərbi Nazirliyin İntendant İdarəsinin rəisi podpolkovnik Əlibəyovun Hərbi Şuraya 1919-cu il iyunun 10-da etdiyi məruzədə əsgərlərin aylıq əmək haqlarının mövcud real qiymətlərə uyğun gəlməməsi, bu səbəbdən onların özlərinə lazım olan zəruri şeyləri ala bilməməsi nəzərə alınaraq, əsgərlərin aylıq əmək haqlarının artırılması məsələsinə baxılması xahiş edilirdi. Bu artımdan sonra sıravilərin əmək haqqı 100, yefreytorların əmək haqqı 110, kiçik unter-zabitlərin əmək haqqı 130, böyük unter-zabitlərin əmək haqqı 150, feldfebellərin əmək haqqı isə 200 rubl olacaqdı.[145]

Ağqvardiyaçılar məğlub edildikdən sonra Şimali Qafqazdan cənuba qaçan denikinçilər 1920-ci ilin mart ayında Azərbaycan ordusuna 20 top, 100 pulyemyot, 9 təyyarə, 15 min tüfəng, 10 milyon patron verdilər.

1920-ci il bolşevik işğalı ərəfəsində Azərbaycan ordusunun əsas döyüş hissələri və birləşmələri aşağıdakılar idi: 8 alaydan ibarət iki piyada diviziyası, 3 alaydan ibarət süvari diviziyası və iki topçu briqadası. Bunlardan başqa, ordunun bir sıra yardımçı hissə, bölmə və müəssisələri də var idi. Hər bir piyada alayı 3 tabordan, hər bir tabor isə dörd piyada bölüyündən və bir pulemyot bölüyündən təşkil edilmişdi.

144 ARDA, f. 2894, s. 1, iş 13, v. 45
145 ARDA, f. 2894, s. 1, iş 13, v. 78

Hər pulemyot bölüyündə 8 pulemyot var idi. Bundan başqa, hər alayda bir süvari kəşfiyyat bölüyü, bir piyada kəşfiyyat bölüyü, bir istehkam bölüyü, bir rabitə-telefon bölüyü və bir qeyri-nizami bölük var idi. Alayların ştat tərkibi eyni deyildi. Məsələn, 1-ci Cavanşir piyada alayının ştat tərkibi 2881 nəfər, 2-ci Zaqatala piyada alayınınkı isə 2834 nəfər idi.

Süvari alayları üç süvari bölüyündən, pulemyot bölüyündən, təlim və rabitə komandalarından ibarət idi. Süvari bölüyünün ştat tərkibi 356 nəfərdən, süvari alayının ştat tərkibi isə 744 nəfərdən ibarət idi.

Topçu briqadaları iki diviziondan təşkil edilmişdi. Bu divizionlardan biri yüngül topçu divizionu, digəri isə dağ topçu divizionu idi. Yüngül topçu divizionunda üç batareya, dağ topçu divizionunda isə iki batareya vardi. Hər batareyanın sərəncamına dörd ədəd top verilmişdi.

Azərbaycan ordusunu silah-sursatla təmin etmək məqsədi ilə hökümət 1920-ci ilin yanvarında hərbi sənaye kompleksinin yaradılması haqqında qanun layihəsini, Gəncədə tikiləcək hərbi zavodun smetasını və ştat cədvəlini hazırlamışdı. Bu zavodun ştat vahidləri barədə Nazirlər Şurasına hələ 1919-cu il oktyabrın 24-də hərbi nazirin və Baş Qərargah rəisinin imzaladıqları 580 saylı məktub göndərilmişdi.[146]

Parlamentin 1920-ci ilin fevralın 16-da keçirilən yüz iyirmi beşinci iclasında gündəliyə salınmış Gəncə şəhərində hərbi zavod açılması haqqında qanun layihəsi (məruzəçi - Ağa Eminov) fevralın 23-də və 26-dakı (127-128-ci iclaslar) müzakirələrdən sonra qəbul edilmiş, hərbi zavodun tikilməsi üçün 670 milyon rubl vəsaitin ayrılması nəzərdə tutulmuşdu. Ümumən, hərbi sənaye kompleksinin yaradılması sahəsindəki planlaşdırılan proqramın həyata keçirilməsi üçün Azərbaycan

146 ARDA, f. 2894, s. 1. iş 23. v. 20-21

hökuməti Antantanın Ali Şurasına memorandum göndərmiş və Gəncə hərbi zavodun müasir texnologiya ilə təmin edilməsini xahiş etmişdi.[147]

Ölkənin müdafiə qüdrətinin möhkəmləndirilməsi üçün Azərbaycan Hökuməti həm də fəal xarici siyasət yeridirdi. Bu baxımdan, istər nüfuzlu dünya ölkələri ilə, istərsə də yaxın qonşularla qarşılıqli əlaqələrin qurulmasına və inkişaf etdirilməsinə səy göstərilirdi. Təkcə bunu qeyd etmək kifayətdir ki, Gürcüstanla hərbi əməkdaşlığı gücləndirmək məqsədi ilə 1919-cu il iyunun 16-da bu ölkə ilə hərbi saziş imzalanmışdı. Sazişi Azərbaycan Hökuməti tərəfindən xarici işlər naziri Məmməd Yusif Cəfərov, hərbi nazir Səməd bəy Mehmandarov və Baş Qərargah rəisi Məmməd bəy Sulkeviç imzalamışdılar. Tiflisdə üç il müddətinə imzalanmış həmin sazişə görə tərəflərlərdən hər hansı biri xarici müdaxiləyə məruz qalarsa, digəri ona kömək göstərməli idi. Tərəflərin razılığına əsasən, 2 həftə ərzində Ermənistana da bu sazişə qoşulmaq hüququ verilirdi. Ancaq Azərbaycan və Gürcüstan torpaqlarına göz dikən Ermənistan bu razılaşmaya qoşulmadı. Göstərilən sazişdən əlavə, Azərbaycanla Gürcüstan arasında hərbi-texniki əməkdaşlıq haqqında da sənəd imzalandı. Həmin sənədə əsasən, Gürcüstan həm hərbi texnika və sursat, həm də hərbi kadrların hazırlanması işində Azərbaycana kömək göstərdi. Gürcüstandan gətirilmiş silah, sursat və digər təchizat vasitələri Azərbaycanın şimal sərhədlərini qoruyan qoşun bölmələrinin maddi-texniki imkanlarını xeyli yaxşılaşdırdı. Hökumətin, o cümlədən Hərbi Nazirliyin gördüyü tədbirlər nəticəsində Azərbaycan ordusunun döyüş qabiliyyəti getdikcə güclənir, ölkənin müdafiə imkanları artırdı.

147 ARDA, f. 895, siy.1, iş 249, vər, 13, 14, 15

ABŞ prezidenti V.Vilsonun təşəbbüsü ilə 1919-cu il mayın 2-də Azərbaycan məsələsi ilk dəfə Paris konfransının Dördlər Şurasının iclasında müzakirə edildi. Mayın 23-də İngiltərə nümayəndə heyətinin üzvü L.Mallet Ə.Topçubaşovu qəbul etdi. Danışıqlar zamanı siyasi, hərbi və iqtisadi vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı. Mayın 28-i günün birinci yarısında Amerika diplomatı H.Morgentau, ikinci yarısında isə prezident V.Vilson Azərbaycan nümayəndələrini qəbul etdi. Danışıqlar zamanı Azərbaycan Respublikasıının memorandumunu V.Vilsona təqdim edən Ə.Topçubaşov: "Azərbaycanın nə Kolçakı, nə Denikini, nə də köhnə Rusiya imperiyasının hüdudlarında hakimiyyəti bərpa etmək niyyətində olan başqa birisini tanımayacağını" bildirdi.

Rusiyadakı ağqvardiyaçı generalların müvəqqəti uğurları şəraitində Parisdəki rus mühacirlərinin fəallaşması Azərbaycan nümayəndələrini daha çevik diplomatik addımlar atmağa sövq edirdi. Bu məqsədlə avqustun 19- da və 26-da sülh konfransının sədrinə məktubla müraciət olundu. Bu sənəddə Qafqazdakı vəziyyət ətraflı təhlil edilir, konfrans qarşısında Denikinin Könüllü Ordusu ilə bağlı üç mühüm tələb qoyulurdu: 1)Könüllü Ordu Dağıstan vilayətinə münasibətdə müttəfiq komandanlığının müəyyən etdiyi demarkasiya xəttini pozmamalıdır; 2) Könüllü Ordu ən qısa vaxtda Dərbənddən çıxmalıdır; 3) Könüllü Ordunun əlinə keçən Xəzər donanmasının gəmiləri Azərbaycan hökumətinə qaytarılmalıdır. Könüllü Ordu ilə bağlı Azərbaycan nümayəndələrinin Parisdə qarşılaşdığı çətinliklər 1919-cu ilin sonunadək davam etdi".[148]

148 Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, C. I. /Baş red. Yaqub Mahmudov. (2004). B., Lider nəşiriyyatı. s. 59

Azərbaycan və Gürcüstan nümayəndələrinin Parisdə keçirdikləri birgə iclasda Qafqaz respublikalarının Böyük Britaniyanın himayədarlığını qəbul etmək qərarına baxmayaraq, ingilislərlə aparılan danışıqlar müsbət nəticə vermədi. Avqustun axırında ingilis əsgərləri Azərbaycanı tərk etdilər. Avropa dövlətləri ilə yanaşı, Qafqaz mandatına namizəd olan ABŞ tərəfindən iyulun 5-də ilk addımlar atıldı. "Sülh konfransının "Onlar Şurası" Amerikanın təqdimatı əsasında polkovnik V.Haskeli Ermənistana ali komissar təyin etdi. V.Haskelin Ermənistana müttəfiqlərin ali komissarı təyin edilməsi Azərbaycan Respublikasının da Amerikanın Qafqaz siyasətinə cəlb edilməsinə təsir göstərdi. Ermənilər bu dəfə Azərbaycana olan ərazi iddialarını ABŞ vasitəsilə həll etmək istəyirdilər. Avqustun axırlarında Bakıda apardığı danışıqlarda V.Haskel Qarabağın və Zəngəzurun Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiq etdi. Bununla belə, V.Haskel təklif edirdi ki, İrəvan quberniyasının cənub hissəsində - Naxçıvan və Şərur - Dərələyəzdə ABŞ general qubernatoru tərəfindən idarə olunan neytral zona yaradılsın. Oktyabrın 24-də Naxçıvanda ABŞ general-qubernatorluğu yaradılması barədə V.Haskelin bəyanatı elan edildi və Amerikalı polkovnik Edmund Delli bu zonaya qubernator təyin edildi. Lakin Azərbaycan Hökumətinin ciddi müqaviməti, Naxçıvan əhalisinin kəskin etirazı nəticəsində amerikalılar öz niyyətlərini reallaşdıra bilmədilər. Polkovnik Edmund Delli Naxçıvanda general-qubernator kimi deyil, sülh konfransının nümayəndəsi kimi fəaliyyətə başladı.

Amerikalıların Ermənistanın mənafeyinə xidmət edən bu təşəbbüsü əslində Cənubi Qafqazdakı Britaniya qoşunları komandanlığının 1919-cu ilin aprel-may aylarındakı hərəkətlərinin davamı idi. Azərbaycan xarici işlər nazirinin

Cənubi Qafqazdakı Britaniya qoşunları komandanlığına 1919-cu il 30 aprel tarixli, 3 saylı məktubunda deyilirdi: "Mənim hökumətimdə olan məlumata görə, Sizin tərəfdən Naxçıvan, Şərur-Dərələyəz, Sürməli rayonlarının və İrəvan rayonunun bir hissəsinin inzibati idarəçiliyinin Qarabağın idarəçiliyinin Azərbaycana verildiyi şərtlər ilə eyni şərtlər əsasında Ermənistan hökumətinə veriməsi nəzərdə tutulur.

Cənubi Qafqaz xalqlarının taleyinin Sülh konfransında necə həll olunacağına qabaqcadan qərar vermədən aşağıdakları bildirməyi zəruri hesab edirəm. Göstərilən rayonların əhalisi tamamilə müsəlmanlardan ibarət olmaqla onunla eyni millətdən olan Azərbaycanın müsəlman əhalisinə daim can atıblar. Buna görə də, yerli əhalinin bir hissəsinin onlardan zorla ayrılması təbii ki, onlarda haqlı narazılıq və qəzəb doğurur. Mənim hökumətim həmin rayonların ərazisinə həmişə Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi baxıb və nəzərdə tutulan tədbir onsuz da çətin və dolaşıq olan sərhəd məsələlərini daha da gərginləşdirə bilər ki, bu da daim respublikaların maraqlarını uzlaşdırmağa, bölgədə qayda yaratmağa can atan İngiltərə komandanlığının maraqlarına uyğun ola bilməz".[149]

Həmin ərazilərin idarəçiliyinin Qarabağla eyniləşdirilməsini yanlış hesab edən nazir Naxçıvan, Şərur-Dərələyəz, Sürməli rayonlarından fərqli olaraq Qarabağda erməni əhalinin heç bir yerdə çoxluq təşkil etmədiyini və bölgənin coğrafi-inzibati fərqliliyini də diqqətə çatdırırdı. Məktubda daha sonra deyilirdi: "Ona görə də inzibati idarəçiliyin nəzərdə tutulan həllinin kütləvi iğtişaşlara səbəb olacağını, Naxçıvan, Şərur-Dərələyəz, Sürməli rayonlarının və İrəvan rayonunun bir hissəsinin müsəlman əhalisinin taleyinin mənim hökumətimə yad olamadığını bilərək,

149 ARDA, f. 2898, s.1, iş 6, v. 3

hökumətin tapşırığı ilə həmin ərazilərin inzibati idarəçiliyinin Ermənistan hökumətinə verilməsi layihəsinə qəti etirazımı bəyan edir, bunu dayandırmağı və sonrakı qərarlar barədə məlumatlandırılmağımı xahiş edirəm".[150]

1919-cu ilin noyabrında Paris müzakirəsində V.Haskelin vəkalətinin Azərbaycana və Gürcüstana şamil edilməsi üçün ABŞ-ın göstərdiyi cəhdlər İngiltərə və Fransanın ciddi müqaviməti nəticəsində baş tutmadı. Keçmiş Rusiya imperiyasının hüdudlarında yaranmış yeni respublikaların taleyində hiss ediləcək dönüş Böyük Britaniyanın Baş Naziri Lloyd Corcun 1919-cu ilin noyabrında İngiltərə parlamentinin icmalar palatasında çıxışı ilə başlandı. L.Corcun çıxışında aydın hiss edilirdi ki, o, Azərbaycanın istiqlaliyyətinin tanınmasına və ona yardım göstərilməsinə tərəfdardır. Britaniya Baş Nazirinin belə mövqeyi Denikinin məğlubiyyətindən sonra bolşevizmin Yaxın və Orta Şərqə yayılmasının qarşısını almaq zərurətindən irəli gəlirdi. 1919-cu ilin noyabr-dekabr aylarında müttəfiqlər arasında aparılan danışıqlar Azərbaycanın müstəqilliyinin tanınmasını artıq reallaşdırmışdı. Bu məqsədlə və Böyük Britaniyanın təşəbbüsü ilə 1920-ci il yanvarın 10-da Paris sülh konfransı Ali Şurasının sessiyası çağırıldı. Bir gün sonra, yanvarın 11-də müttəfiqlərin Ali Şurası İngiltərənin xarici işlər naziri Corc Kerzonuntəklifiiləaşağıdakıməzmundaqərarqəbul etdi: «Müttəfiqlər və Birlik ölkələri Azərbaycan Hökumətini de-fakto tanıyırlar». Azərbaycanın istiqlaliyyətinin Paris sülh konfransı tərəfindən tanınması tarixi əhəmiyyətli hadisə idi.

Könüllü Ordunun məğlubiyyətindən sonra şimal sərhədlərində bolşevik təhlükəsinin artması Azərbaycan Hökumətindən ölkənin müdafiəsi sahəsində tədbirləri daha geniş miqyasda davam etdirməyi tələb edirdi. Bu məqsədlə

150 Yenə orada

qonşu Dağıstana komək göstərilməsi vacib məsələ kimi qarşıya çıxmışdı. Dövlət Müdafiə Komitəsinin 1920-ci il yanvar ayının 6-da keçirilən iclasında qəbul edilən qərar bunu bir daha təsdiq edir. Həmin iclasda Xarici İşlər Nazirliyinə müraciət edən sovet Rusiyasının Azərbaycan və Gürcüstan hökumətləri ilə hərbi sahədə müqavilə imzalanması təklifi müzakirə olunmuş və aşağıdakı qərar qəbul edilmişdi: "Dağıstana münasibət məsələsində. Dağıstanın müdafiəsi və azadlığı, ictimai fikrin Azərbaycanın maraqlarına uyğun istiqamətləndirilməsi və bizim Dağıstandakı fəaliyyətimizə rəhbərlik məqsədilə Dağıstana siyasi cəhətdən hazırlıqlı şəxslər göndərilsin".[151]

Bunun ardınca martın 20-də Azərbaycanla İran arasında əməkdaşlığın bütün sahələrini əhatə edən saziş və müqavilələr imzalandı. Tərəflər arasında imzalanan dostluq müqaviləsinə əsasən, İran Azərbaycan Xalq Cümhuriyyətini de-yure tanıdı. Qısa müddətdə Azərbaycanın Tehranda səfirliyi, Təbrizdə baş konsulluğu, Rəştdə konsulluğu, Ənzəlidə, Məşhəddə vitse-konsulluğu, Xoy və Əhərdə konsul-agentlikləri yaradıldı. Aprelin ortalarında Azərbaycan Parlamenti Böyük Britaniya, Fransa, İtaliya, Amerika Birləşmiş Ştatları, İsveçrə Respublikası, Polşa, Almaniya və Rusiyada diplomatik nümayəndəliklər təsis olunması haqqında qanun qəbul etdi. Azərbaycanda isə İngiltərənin, Belçikanın, Yunanıstanın, Gürcüstanın, Ermənistanın, Danimarkanın, İtaliyanın, Litvanın, İranın, Polşanın, Amerika Birləşmiş Ştatlarının, Ukraynanın, Finlandiyanın, Fransanın, İsveçrənin və İsveçin nümayəndəlikləri fəaliyyətə başlamışdı. Bununla da bolşevik işğalı ərəfəsində Azərbaycan Xalq Cümhuriyyəti təcrid olunmuş vəziyyətdən çıxıb geniş beynəlxalq əlaqələr sisteminə daxil olmuşdu.

151 ARDA, f. 2898, s. 1, iş 6. v. 35

3.2 Uğurlu Qarabağ əməliyyatları və bolşevik təcavüzünə qarşı mübarizə

Cümhuriyyətin beynəlxalq əlaqələrinin genişlənməsi, uğurlu xarici siyasəti hərbi sahədə fəaliyətin daha məqsədyönlü şəkildə təşkilinə şərait yaradırdı. Erməni silahlı birləşmələrinin Qarabağın dağlıq hissəsini Azərbaycandan qoparmaq üçün həyata keçirdikləri təcavüzün qarşısının alınması məqsədi ilə Azərbaycan ordusunun xüsusən 1920-ci ilin mart ayında hərbi əməliyyatlarda qazandığı uğurlar məhz bu istiqamətdə görülən ardıcıl və planlı işin nəticəsi sayıla bilərdi. Ağır döyüşlərin gedişində Sovet Rusiyası, başqa sözlə, bolşeviklərlə daşnak qüvvələrinin sövdələşməsinin növbəti nəticəsi olan təcavüzü dayandırmaqla milli Silahlı Qüvvələr nəyə qadir olduqlarını göstərdilər. Qarabağı ələ keçirərək Azərbaycanın şimal sərhədlərinin müdafiəsinin tamamilə zəiflətmək və bolşevik işğalına əlverişli şərait yaratmaq istəyən düşmənin planlarının qarşısı bir müddətə olsa da, alındı. Azərbaycan torpaqlarını ələ keçirmək üçün daim fürsət güdən ermənilər

Novruz bayramının qeyd edildiyi martın 22-də gecə saat 3-də Şuşa, Xankəndi, Əskəran, Xocalı və Tərtərdə yerləşən qoşun bölmələrinin üzərinə eyni vaxtda hücuma keçdilər. Ancaq ciddi müqavimətlə üzləşən düşmənin cəhdi lazımi nəticəni vermədi. Birinci piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinski erməni silahlı dəstələrinin Əsgəran qalası üzərinə hücumundan sonra Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyliyə göndərdiyi teleqramda yazırdı: "Əsgərlər qalanın bir hissəsini hələ də əllərində saxlayırlar... ya başımızı verəcəyik, ya da Əsgəranı qoruyacağıq".

Bu vaxt Cümhuriyət ordusu Qazax-Gəncə istiqamətində Azərbaycan ərazilərini ələ keçirlməyə çalışan Ermənistanın

silahlı birləşmələrinə qarşı da döyüşlər aparırıdı. Hər iki istiqamətdə təcavüzün qarşısının alınması üçün hərbi nazir S.Mehmandarov Gəncəyə gəlmiş və buradan döyüş əməliyyatlarının aparılmasına rəhbərlik etməyə başlamışdı. Hərbi nazir lazım gəldikdə döyüşlərin getdiyi ərazilərə baş çəkir, cəbhə xəttində vəziyyətlə tanış olur, birbaşa tapşırıq və göstərişlərini verirdi. İntensiv xarakter alan döyüşlər, bir çox hallarda hər iki tərəfdən çoxsaylı itkilərə səbəb olmuşdu.

Qarabağdakı bütün ordu hissələrinin komandiri Həbib bəy Səlimovun həmin günlərdə Hərbi Nazirliyin rəhbərliyinə vurduğu teleqramlar Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu bölgə uğrunda necə qanlı döyüşlərin getdiyini aydın göstərir. Hər iki generalın bu gün həyəcansız oxumaq mümkün olmayan teleqramları yalnız tarixə şahidlik etməklə qalmır, həm də sələflərimizin qürur duyulası vətənpərvərliyindən, qətiyyətindən xəbər verir.

"Hərbi nazirə

Xankəndindən Şuşaya şosse yolu Malıbəyli kəndindən yüksəkliklər vasitəsilə Daşkəndə, cənubda Manaşarx kəndi də daxil olmaqla Şuşakəndədək uzanan erməni mövqelərindən atəşə tutulmuşdu. Həmin mövqelərdə sayı təxminən iki mindən az olmayan əsgərlər, dağ topları və iki pulemyotla silahlanmış Əskərandan çəkilmiş ermənilər, eləcə də bütün ətraf kəndlərdən silahlı adamlar cəmləşmişdilər.

Hücum saat onda üç kolonla başlandı: öndə qubalılar, sağ cinahı ötüb-keçməklə Malıbəylidən, Şuşakənddən şərqə olan yüksəklikdə iki dağ topu olan Tatar alayı, düşmənin sol cinahını Şuşakənd qəbiristanlığı tərəfdən ötüb keçmək üçün kəsə yolla Bakı alayının taboru göndərilmişdi.

Zati-aliniz tərəfindən yaradılan şanlı qoşunlarımız, döyüşlərdə bərkimiş köhnə hissələrə məxsus şücaətlə

vuruşurdular. Döyüşün qəhrəmanları bunlar idi: şığıyaraq Daşkənd yüksəkliyini ələ keçirən qubalılar və bir neçə basqına baxmayaraq, bir an da sarsılmayan və üzərinə düşən hər mərmiyə görə dərhal cavab atəşi açan podpolkovnik Bəhram bəy Nəbibəyovun batareyası.

Bir qrup milli ordu zabiti Qarabağda, 1920

Saat on iki radələrində mənim ehtiyatımın himayəsi ilə bakılılarla birlikdə qubalılar tərəfindən cinahlardan əhatə olunan və çevik həmləyə məruz qalan düşmən sarsıldı və Keşişkəndə tərəf qaçmağa üz tutdu. Saat iyirmi radələrində qoşunların bir hissəsi ilə Şuşaya gəldim. Bütün dəstə bura toplaşır. Qoşunlar üç günlük döyüşlərdən bərk yorulublar və çox güman ki, sabah onlara istirahət verəcəyəm. General Səlimov, 8 aprel 1920-ci il".

Polkovnik İsrafil bəy İsrafilbəyli mühacirət illərində həmin hadisələri xatırlayaraq yazırdı: "1920-ci il martın iyirmi ikisində, Novruz bayramı gecəsi Qarabağ vilayətinin dağ yerlərində məskun ermənilər qiyam edərək «Əskəran kecidi»ni tutdular. Bu səbəbdən də Əskəran cəbhəsinə mirliva Həbib bəy Səlimovun komandanlığı ilə quvvətli bir ordu yeridildi. Aprelin

3-də Azərbaycan ordusu ermənilərə qarşı quvvətli bir hucum etdi. Əcəba, hansı azərbaycanlı o məsud gunu xatırlamır?! Ordunun qalibiyyət və intizamı, mənəviyyatı təsvirolunmaz dərəcədə fovqəladə idi. Xarici aləm az bir muddət ərzində vəsaitsizlik içində bu qədər muntəzəm təşkilatcılığa malik bir əsgəri quvvə vucuda gətirdiyimizə heyran qalmışdı. Əhalidən bir coxu duyduğu həyəcandan ağlayırdı. O gun Azərbaycanın ən şanlı, ən bəxtiyar gunu idi".[152]

Doğrudan da, Cümhuriyyət ordusunun Qarabağın erməni-bolşevik silahlı dəstələrindən və daşnak quldurlarından müdafiəsində göstərdiyi şücaət Azərbaycan əsgərinin yazdığı qəhrəmanlıq səlnaməsinin ən şanlı səhifələrini təşkil edir. Silahlı Qüvvələrimiz bu ağır sınaqdan şərəflə çıxmaqla yanaşı, əzəli Azərbaycan torpaqlarının ələ keçirilməsinə çalışan istənilən gücə qarşı dayanmağa qadir olduqlarını nümayiş etdirdilər. Xalqın iradəsindən doğan bu qələbələr Azərbaycan Hökumətinin, hərbi rəhbərliyin peşəkarlıqla həyata keçirdikləri ardıcıl tədbirlərin nəticəsi, Vətən, millət qarşısında fədakarlıq nümunəsi idi. Cümhuriyyət dövrünün Qarabağ müharibəsi Azərbaycanın hərb tarixinin şanlı səhifəsi kimi daim qürurla anılmalı, hazırda torpaqlarımızın müdafiəsində inamla dayanan əsgər və zabitlərimiz üçün örnək olmalıdır.

Həmin dövrdə erməni-bolşevik birləşmələrinin irimiqyaslı təcavüzü dəf olunaraq Qarabağın Azərbaycandan qoparılmasına imkan verilməsə də, Azərbaycan hərbi qüvvələrinin təqribən 20 min nəfərinin bu regiona və Ermənistanla sərhəd xəttində toplanması səbəbindən sovet Rusiyasının şimaldan başladığı hərbi müdaxilənin qarşısını almaq mümkün olmadı. Belə ki, 1920-ci ilin martında Qarabağda erməni təcavüzünə qarşı hərbi əməliyyatlara

152 Nəzirli Ş., 1920-ci ildə Qarabağ döyüşləri, B., 2009, s. 19

səfərbər olunmuş milli hərbi qüvvələrin qısa müddətdə həmin ərazilərdən çıxarılaraq tamam başqa istiqamətə keçirilməsi faktiki mümkün deyildi.

1919-cu ilin may-iyun aylarından etibarən Parlamentdəki məruzə və çıxışlarında, eləcə də mətbuatdakı yazılarında diqqəti bolşevik təhlükəsinə yönəldən M.Ə.Rəsulzadə sosialistlərin və onların həmfikirlərinin bu istiqamətdə təbliğatını və fəaliyyətini ciddi tənqid edirdi. O, ölkə daxilində kifayət qədər tərəfdarları olduğundan bolşevikləri Azərbaycan istiqlalına qarşı ən təhlükəli və real qüvvə kimi qiymətləndirir, bolşeviklərlə mübarizənin təşkilinə Hökumətin ciddi əhəmiyyətli məsələ kimi yanaşmasını vacib hesab edirdi: "Əgər bu gün bir nəfər Denikin adamlarından tutulursa, kimsə tapılmır ki, gəlib onlar üçün vəsatət etsin. Fəqət, bolşeviklərdən biri tutulursa onlar üçün çox vəsatət edən tapılır. Qapının dabanını çıxardırlar. Bu həqiqi sosialist deyildir. Hökümət istiqlaliyyət nöqteyi-nəzərində durub, sağdan, soldan hansı tərəfdən təhlükə gəlirsə gərək müdafiə etsin... Hökümət tədbirlə iş görür. Əgər işə qəti girişib heç bir şeyə baxmadan, bütün həbsə layiq adamları tutarsa Bakının qismi-mühümmünü həbs etmiş olar ki, bütün əsgərlərimizi onların dövrəsinə düzəcək olursaq yenə yetişməz. Amma belə olmaz, vəziyyəti qiymətləndirməlisiniz. Bizə deyirlər ki, Dağıstana lazımınca yardım etmədik. Bu doğru deyildir. Azərbaycan Məclisi-Məbusanı və hökuməti mümkün qədər kömək etdi. Əgər bu gün Dağıstanda arzu olunmayan əhvallar zühura gəlirsə o da Azərbaycandan da ziyadə özünün vəziyyəti-siyasiyə və ictimaiyəsindəndir".[153]

V.İ.Lenin hələ 1920-ci il martın 17-də Qafqaz cəbhəsinin hərbi-inqilab şurasına Bakının ələ keçirilməsi barədə konkret göstəriş vermişdi. Martın 30-da isə Azərbaycan

153 ARDA, f. 895, siy. 1, iş. 91, vər. 1-39

Xalq Cümhuriyyətini devirmək məqsədi ilə yaradılmış "operativ qərargah"ın sədri Əliheydər Qarayev bu zaman Dağıstanda olan sovet qoşunlarının komandanına teleqram göndərərək bildirirdi ki, «ən yaxın günlərdə Bakıda çevrilişə hazırlaşırıq".[154]

Şimal sərhədlərinin zəif müdafiəsi ilə yanaşı, bolşevik işğalına yol açan digər səbəblər də vardı. Bunlar arsında bir sıra siyasi qüvvələrin separatçı mövqeyi ilə bağlı yeni hökumətin təşkilinin mümkün olmaması və ölkədə mövcud siyasi böhranın dərinləşməsi, sovet Rusiyasından dəstək alan kommunistlərin hakimiyyətə can atması və s. göstərilə bilər.

Qarabağdakı qoşunların şimal sərhədlərinin müdafiəsinə cəlb edilməsi isə həm erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarına təcavüzünün yenidən güclənməsinə ravac verməsi, həm də texniki cəhətdən daha güclü olan bolşevik qoşunlarının qarşısının alınmasının qeyri- mümkünlüyü baxımından məqsədəuyğun deyildi.

Nəticədə aprelin 27-də sovet Rusiyasının hərbi dəstələri Azərbaycan sərhədlərini pozaraq, Bakı istiqamətində irəliləməyə başladılar. Bütün bunlara baxmayaraq, öz hərbi andına və Vətən qarşısında borcuna sadiq qalan Səməd bəy Mehmandarov Birinci piyada diviziyasının komandiri, general-mayor Cavad bəy Şıxlinskiyə teleqramla şimal sərhədlərinin müdafiəsinə hərbi qüvvə ayırması barədə əmr verdi: "Bolşeviklər Yalama stansiyasına hücum etdilər. Onlar dayanmadan irəliləyirlər. Xudatı ələ keçiriblər. Çıxılmaz vəziyyətdəyik. Günü bu gün Qızılburuna Qazaxdan bir tabor və Gəncədən bir tabor göndərməyinizi əmr edirəm. Hər bir taborda ən azı 500 süngü və pulemyot olmalıdır. Yük qatarı

154 Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, C. I. /Baş red. Yaqub Mahmudov. (2004). B., Lider nəşiriyyatı. s. 46

artıq göndərmişik. Həmin hissələrin gəlməsi vaxtını teleqramla bildirin. Biz taborları sabaha gözləyirik".

Qarabağdakı vəziyyəti nəzərə alan hərbi nazir düzgün qərar qəbul edərək kömək üçün qüvvələrin Gəncə və Qazaxdan göndərilməsini lazım bilirdi. Şimal sərhədlərinin qorunmasına, 1920-ci ilin aprel işğalı ərəfəsində orada hansı qüvvələrin yerləşməsinə gəlincə, ilk öncə onu demək olar ki, həmin qüvvələrlə işğalın qarşısını almaq mümkün deyildi. Belə ki, 1920-ci il aprelin 25-nə aid olan bir məlumata görə, şimalda sərhədboyu 4-cü Quba alayının polkovniki knyaz Tumanovun rəhbərliyi altında 4 piyada bölüyü, dağ batareyası və bir zirehli qatardan ibarət qüvvə var idi. Piyada bölüklərindən biri Yalamada, biri Şirvanda, iki bölük və bir batareya isə Xudatda dayanırdı. Zirehli qatarla dəstənin qərargahı da Xaçmazda yerləşdirilmişdi.[155]

İşğalçı 11-ci Qırmızı Ordu Bakı vağzalında

1920-ci il aprel ayının 27-də Azərbaycan Parlamentinin sonuncu, 145-ci, fövqəladə iclası (sədr – Məhəmməd Yusif Cəfərov, katib – Rza bəy Qaraşarlı) keçirildi. Açıq iclasda

155 ARDA, f. 2896, s. 1, iş 7, v. 284

yeni hökumət kabinəsini təşkil etməyin həvalə olunduğu M.H.Hacınski yaranmış vəziyyətlə əlaqədar yerli kommunist firqəsi nümayəndələri ilə aparılan müzakirələr və onların təklifi barədə məlumat verərək demişdi: "Mərkəzi Azərbaycan kommunist firqəsi bizə təklif edir ki, axşam saat 7-yə qədər hökuməti onlara təslim edək. Bununla belə, əmin edirlər ki, onların şərtlərini qəbul etsək, Qırmızı Ordu əsla Bakıya gəlməyəcək və Qırmızı Ordunun Bakıya gəlməməsi üçün onlar əllərindən gələni edəcəklər. Onlar deyir ki, hökumət Azərbaycan kommunistlərinin əlində olarsa, Qırmızı Ordu heç bir vədə buraya gəlməyəcək. Hökumət mexaniki surətdə təslim edilməlidir. Nə kimi məmurlar varsa, hamı öz yerlərində qalacaqdır. Yalnız hökumət başında olanlar kənar edilib, yerlərinə Azərbaycan kommunistləri keçir və müsəlmanlardan başqa orada kimsə yoxdur. Altıncı şərtləri budur: – əgər bu gecə bu məsələ həll olunarsa, onlar bir deklarasiya çıxarırlar ki, Azərbaycan Parlamentinə daxil olan siyasi firqələr bərabər və azad fəaliyyət göstərəcəklər. Onlara qarşı və xüsusən, hökumət üzvlərinə qarşı heç bir xüsusi tədbir görülməyəcək və onlar təqib olunmayacaqlar... Bu gün sərhəddə düşmənə qarşı lazımi qədər mütəşəkkil müdafiəyə hazır deyilik. Hökumətin laqeydliyi nəticəsində Qarabağ dağlarından Yalamayadək sərhəd açıq buraxılmışdır. Bununla belə ictimaiyyətin fikri ilə də razılaşmalıyıq ki, şimaldan heç bir qorxu yoxdur və orada yaşayanlar da Azərbaycan kəndliləri kimi kəndlilərdir və azərbaycanlı kəndlilərin razılığı və istəyi olmasa, heç kəs Azərbaycana soxula bilməz. Cənablar, bu firqə münaqişələri sonu görünməyən mübahisələrə çevrilib. Lakin deyirlər ki, belə fikirlərlə xalqımızın əksəriyyətinin etimadını qazanmaq olar və onların vəzifələri Azərbaycandan keçib Türkiyəni zalım imperialistlərdən azad etməkdir. Əgər məqsəd budursa,

şimaldan gələn qüvvələrin təzyiqi altında hökuməti təslim etməyə nə ehtiyac var? Bir halda ki, türklərin imperializm əsarətindən azad olmasına hamı və o cümlədən biz də sevinirik. Bu fikirə qarşı cümhuriyyət daxilində zidd çıxan olmaz... Fəqət, millətin müqəddaratını bir firqəyə, hətta təzyiq altında belə vermək olmaz. Zira hər kəs, o cümlədən kommunist firqəsi də tamamilə əmin ola bilər ki, Parlament vasitəsilə, yaxud başqa bir mütəşəkkil vasitə ilə öz fikirlərini deyə bilər və qəbuluna da nail ola bilərlər. Əgər bu həyata keçirilərsə, Azərbaycan özünü azad hesab edə bilər".[156]

Ancaq artıq işğal ərəfəsində A.Mikoyan başda olmaqla Bakı bolşevikləri Azərbaycan xalqı adından 11-ci rus işğal ordusunu Azərbaycana dəvət etmişdilər. Razılaşdırılmış plana görə Bakıda bolşevik qiyamının başlanmasından bir-iki gün sonra rus ordusu Azərbaycana soxulmalı idi. Bununla dünya ictimaiyyətində belə bir rəy yaradılacaqdı ki, Azərbaycan hökuməti xarici hərbi müdaxilənin deyil, daxili qiyamın qurbanı olmuşdur. Lakin Bakıda qiyam başlanmamış - aprelin 26-dan 27-nə keçən gecə 11-ci ordu hissələri Azərbaycan ərazisinə soxulub Bakıya doğru irəliləməyə başladılar. Aslan bəy Səfikürdlünün dediyi kimi: "bu vaxta qədər heç bir iş başında olmayan, Parlamentdə oturmayıb, hökumət işində iştirak etməyənlər, indi camaatın müqəddəratının həllinin onlara verilməsini təklif edənlər" bunu bolşevik ordusunun əli ilə etdilər.[157]

M.Ə.Rəsulzadə Müsavat fraksiyasının təslimçiliyin əleyhinə olmasına baxmayaraq, əksər firqələrin tələbi ilə və vətəndaş müharibəsinə yol verməmək üçün, həmçinin kommunistlərin müstəqilliyi müdafiə vədini nəzərə alaraq,

156 Elm», 11 may 1991-ci il, N19-20, səh 3,6
157 Yenə orada

bütün ixtiyarın onlara verilməsinə bir şərtlə tərəfdar olduqlarını bildirir: "kommunistlər istiqlaliyyət, millət və məmləkətimizi layiqincə müdafiə etsinlər. Yox, əgər bunlara əməl olunmazsa, ixtiyarımızı geri alaraq haqqımızı özümüzdə saxlayacağıq".[158]

Ancaq kommunistlər nəinki vədlərinə əməl etmədilər, hətta ölkəni yenidən Rusiyanın vassalı vəziyyətinə salmaqla da qalmayıb, müstəqil dövlətin qurucularını, milli dirçəliş yolunun cığırdaşlarını ən amansız repressiyalara məruz qoydular.

Həmin iclasda Muxtar Mahmudovun dediklərinin doğrulmasını da çox gözləmək lazım gəlmədi. Hökumət yıxılsa da, silah başında olanların böyük bir hissəsi təslim olmadı, müqavimət göstərdi.[159] Hakimiyyətin zorla ələ keçirildiyinə, Parlamentin və Hökumətin buna məcbur edildiyinə əmin olan əhali bacardığı qədər onlara dəstək verdi.

Şimal sərhədindəki azsaylı müdafiə qüvvələri elə təcavüzün baş verdiyi gün düşmənə fədakarlıqla müqavimət göstərsələr də, rus qırımızı ordusunun qarşısını saxlamaq, ölkəni işğaldan xilas etmək mümkün olmadı. İşğalçı 11-ci ordu zirehli qatarlarla Bakının giriş-çıxış yollarını tutdu və şəhərə daxil oldu. Hərbi gəmilərin topları dənizdən parlament binasına tuşlandı.

Azərbaycan Hökuməti aprelin 27-də respublikanın Sovet Rusiyası tərəfindən təcavüzə məruz qaldığı, sərhədlərinin pozulduğu barədə müttəfiqlərin Tiflisdəki nümayəndələri qraf de Martelə, polkovnik Qabbaya və K.Lyükkə təcili məlumat göndərdi. Hökumət müttəfiqlərin nümayəndələrindən xahiş edirdi ki, Azərbaycana yenidən hücum etməməsi üçün Ermənistan hökumətinə təsir göstərsinlər, çünki baş vermiş

158 Yenə orada
159 Yenə orada

təcavüz aktı ilə əlaqədar Hökumət öz qoşunlarını Qarabağdan və Ermənistanla həmsərhəd rayonlardan çıxarır. Müttəfiqlərin nümayəndələri elə həmin gün Ermənistan hökuməti ilə əlaqəyə girdilər. Aprelin 28-də Ermənistan hökuməti bildirdi ki, onların orduları dayandıqları mövqelərdən irəliləməyəcək, Azərbaycana hücum etməyəcəklər. Bunun müqabilində onlar bir sıra şərtlər irəli sürürdülər. Aprelin 27-si gündüz saat 4-də Azərbaycan bolşevikləri 11-ci ordu dəstələrinin Biləcəri stansiyasında dayandığına arxalanaraq, Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Fəhlə Konfransı adından Parlamentə hakimiyyəti təhvil vermək haqqında ultimatum təqdim etdilər. Parlament hakimiyyəti dinc yolla bolşeviklərə vermək barədə qərar qəbul etdi. İşğalçı 11-ci ordu Bakıya daxil oldu, Azərbaycan yenidən Rusiya tərəfindən işğal olundu. Ölkənin dənizdən müdafiəsinə cavabdeh olan Xəzər Donanması 11-ci ordu tərəfindən işğalın qarşısını almaq üçün kanoner gəmilərindən, o cümlədən gözləmə mövqeyi tutan Qars və Ərdahan gəmilərindən atəş açılmadı. Donanmanın döyüş tapşırığını yerinə yetirməməsi burada kommunistlərin öz adamlarını yerləşdirmələri, ilk təşkilatlar yaratmaları ilə bağlı idi. Donanmanın aprel çevrilişində iştirakında Bakı Hərbi ilmanının rəis müavini. sahil batareyaları toplarının sürgülərini çıxartdıraraq onları yarasız hala gətirtmiş Çüngiz İldırım yaxından iştirak etmişdi.

Aprelin 28-də San-Remo konfransında iştirak etmiş Azərbaycan nümayəndələri bu xəbəri alan kimi müttəfiq dövlətlərin Ali Şurasına, İtaliya hökumətinə və xarici dövlətlərin Romada olan səfirliklərinə suveren Azərbaycan dövlətinin Sovet Rusiyasının silahlı qüvvələri tərəfindən işğal olunduğu haqqında nota təqdim etdilər. Sülh konfransına verilmiş notada qeyd olunurdu: "Azərbaycan nümayəndələri ümid edirlər ki,

Sülh konfransı müstəqilliyin bərpa olunmasında Azərbaycana kömək göstərəcəkdir”.[160]

Bu məzmunda notalar və müraciətlər dəfələrlə Millətlər Cəmiyyətinə, dünya siyasətini müəyyən edən dövlətlərə verildi. Lakin bunların elə bir əhəmiyyəti olmadı. Antanta ölkələri Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsini sükutla qarşıladılar. Müstəqilliyi böyük dövlətlər tərəfindən tanınmış Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində iştirakı aprel işğalı ilə sona çatdı. Onun Parisdəki nümayəndələri isə Azərbaycan siyasi mühacirlərinin ilk dəstəsinə çevrildilər.

İşğalçı 11-ci Qırmızı Ordu Bakıda, 1920-ci il 28 aprel

Bolşevik Rusiyasınınistilasınagəlincəisə, buyalnızşimal sərhədlərində və təcavüz günü baş verənlərlə sona çatmadı. 1920-ci ilin may-avqust aylarında Gəncədə, Qarabağda, Zaqatalada, Şəmkirdə və başqa ərazilərdə kütləvi üsyanlar baş verdi. Bu etirazlarda bir sıra hərbi hissələr də yaxından iştirak edirdilər. Qarabağda yerləşən hərbi birləşmələrdən birində baş vermiş ciddi etiraz barəsində 1920-ci il iyun ayının 15-də Hərbi-dəniz Xalq Komissarlığı üzrə imzalanmış 152 saylı

160 Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, C. I. /Baş red. Yaqub Mahmudov. (2004). B., Lider nəşiriyyatı. s. 63

əmrdə deyilirdi: “Müsavat muzdluları tərəfindən təxribata cəlb edilən Qarabağ dəstəsinin əsgərləri Sovet Azərbaycanının fəhlə-kəndli hökumətinə qarşı əks-inqilabın qara bayrağını qaldırmışlar. Keçmiş polkovnik, Qarabağ Dəstəsinin rəisi vəzivəsini icra edən Mahmud Zeynalov özünü diktator elan edərək üsyançıların diqqətini cəlb etmişdir. Sovet Respublikası adından Qarabağ Dəstəsini buraxılmış elan edirəm: Respublika hökumətinə qarşı hərəkətlərindən peşiman olan və Qırmızı Ordunun Qərargahına gələn bütün əsgərlər bağışlanacaqlar. Mərmilər, tüfənglər, odlu silah ehtiyatları Sovet hökumətinin əmlakı kimi toxunulmazdır. Hərbi-dəniz Xalq Komissarı Qarayev. Hərbi rəhbər Stepanov, Qərargah rəisi vəzifəsinin icraçısı Kuznetsov”. [161]

Yeri gəlmişkən, Qarabağda, Tərtərdə, Cavanşir qəzalarında hərbi qüvvələrin iştirakı ilə baş verən üsyanlara rəh bərlikedənşəxslərdənbirihəminvaxtAzərbaycanərazisində olan Nuru Paşa olmuşdur. Nuru Paşa və podpolkovnik Zeynalovun rəhbərliyindəki qüvvələr hətta iyulun 3-də Şuşaya daxil olaraq şəhəri 15 günə yaxın əldə saxlamışdılar.

U.Çörçill sonralar öz xatirələrində yazırdı ki, Cənubi Qafqaza daxil olmuş 20 minlik Britaniya ordusunun yardımı ilə Gürcüstan, Ermənistan və Azərbaycan tam müstəqil olmalı idi və bu müstəqil dövlətlər İrana və Türkiyəyə bolşeviklərin gözlənilən müdaxiləsinin qarşısında durmalı idilər. [162]Ancaq sovet Rusiyası qarşısında əslində müdafiəsiz buraxılan, güclü dövlətlərdən dəstək görməyən hər üç müstəqil dövlət süquta uğradı.

Bununla da Azərbaycanın ilk müstəqil respublikası devrildi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə

161 ARDA, f. 2894, s.1, iş 4, v. 65.
162 Черчилль У. Мировой кризис, səh. 106.

ölkənin müstəqilliyinə və milli mənafelərə xidmət edən ordu quruculuğu da yarımçıq qaldı. Aprel işğalından dərhal sonra Cümhuriyyət ordusunun hissələri ləğv edildi, müstəqillik dövründə milli ordu üçün yaradılmış maddi-texniki baza isə talan olundu. Azərbaycanda altıncı koalisiyalı hökumətin əvəzinə işğalçı ordunun gücü ilə xalqın gələcək faciələrinin səbəbkarı - sovet hökuməti quruldu.

70 ildən artıq davam edən sovet dövründə Azərbaycanın müstəqil ordusu olmadığından azərbaycanlılar Sovet Ordusunda əsasən qeyri-döyüş sahələrində ixtisaslaşan hərbi hissələrdə xidmət göstərdilər. Ölkdə ordu quruculuğu prosesi yalnız Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunduğu 1991-ci ilin 18 oktyabrından sonra mümkün oldu. Qeyd edək ki, Azərbaycan Respublikası müstəqilliyinin bərpası ərəfəsində və müstəqilliyin ilk illərində yenə eyni problemlərlə qarşılaşdı. Qarabağda ermənilərin 1988-ci ildə SSRİ rəhbərliyinin dəstəyi ilə başlatdıqları separatçılıq hərəkatı genişlənərək müharibə səviyyəsinə keçdi. 1991-ci ildən etibarən Ermənistan Respublikasının birbaşa dəstəyi ilə davam etdirilən bu müharibədə Azərbaycanın 20 faizə yaxın ərazisi işğal olundu, ölkə 23 minə yaxın insan itkisi ilə üzləşdi. Azərbaycanın qərbində cənubi-qərbində və cənubunda Cümhuriyyət dövründəki hadisələr sanki yenidən təkrarlandı. Zəngəzur, Naxçıvanla yanaşı, Ermənistanla digər sərhəd ərazilər döyüş bölgələrinə çevrildi. Cənubda eyni separatçılıq hərəkətlərinin bu dəfə etnik zəmində törədilməsinə (Talış-Muğan Respublikası) cəhd göstərildi. Şimalda özünü ləzgi xalqının təmsilçisi hesab edən "Sadval" kimi separatçı təşkilat baş qaldırdı. Azərbaycan Ordusu bu cür çətin, eyni zamanda, gərgin və oxşar tarixi şəraitdə qurulmağa başlandı. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan öz milli Silahlı Qüvvələrini

formalaşdırmağı bacardı. Bu gün Azərbaycan müasir və güclü bir orduya sahibdir.

Nəticə

Mövcud olduğu 23 aylıq qısa müddət ərzində Şərqin ilk müstəqil demokratik respublikası - Azərbaycan Xalq Cümhuriyyəti ölkənin müdafiəsinin və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı məsələlərin həllində ardıcıl, düzgün və məqsədyönlü siyasət yeritmişdir. Həmin dövrdə Cənubi Qafqazda mövcud olan siyasi-tarixi şərait müstəqilliyini yeni elan etmiş dövlətin ərazi bütövlüyünün, təhlükəsizliyinin qorunması, əhalisinin və sərhədlərinin xarici müdaxilərdən müdafiəsi, yerlərdə dövlət quruculuğuna və ölkə iqtisadiyyatının inkişafına əlverişli şəraitin yaradılması zərurəti milli hərbi qüvvələrin formalaşdırılmasını, nizami ordu yaradılmasını şərtləndirən ən vacib amilləri sırasında idi. Əlimizdə olan tarixi materiallar, xüsusilə arxiv fondlarında saxlanılan sənədlər Cümhuriyyət Hökumətinin bu istiqamətdə konkret işlərin görülməsini dövlətin əsas hədəfi hesab etdiyini sübuta yetirməkdədir. Belə ki, Hökumətin müxtəlif vaxtlarda verdiyi çoxsaylı qərar və göstərişlər, ölkə parlamentinin qəbul etdiyi qanunlar, Hərbi Nazirlik üzrə əmr, göstəriş və digər normativ sənədlər, qonşu ölkələrlə bağlanmış ikitərəfli və üçtərəfli sazişlər, regional və beynəlxalq tədbirlər, o cümlədən müşavirə və konfranslar çərçivəsində aparılan və bu istiqamətdə həyata keçirilən digər fəaliyyətlər işlərin sistemli və ardıcıl şəkildə davam etdirildiyini göstərir.

Tarixi ədalət naminə o da qeyd edilməlidir ki, milli ordunun yaradılması Cümhuriyyətin adı ilə bağlansa da, Azərbaycanda ordu quruculuğu prosesi 1917-ci ilin mart-aprel

aylarından başlanmışdır. Doğrudur, həmin vaxtdan müstəqil dövlətin elanına qədər bu proses bir sıra çətinliklərlə əlaqədar, xüsusilə məqsədyönlü dövlət dəstəyi olmadığından ardıcıl və planlı şəkildə aparıla bilməmişdir. Lakin bütün bunlara baxmayaraq, müstəqillikdən təqribən bir il əvvəl başlamış bu təşəbbüslər Azərbaycan xalqının, onun qabaqcıl insanlarının ordu yaratmaq əzminin və iradəsinin ifadəsi kimi dəyərlidir. Belə ki, bir çox vətənpərvər hərbçilər və ziyalılar xalqın müdafiəsi üçün vacib hesab etdikləri qoşun hissələrinin təşkilində, xüsusilə, 1917-ci ilin sonlarından etibarən mümkün olan bütün işlərin görülməsinə çalışmış, şəxsi nümunə, fədakarlıq göstərmişdilər. İlk milli hissələrin formalaşdırılması üçün zəruri sayılan təminat-təchizat məsələlərinin həlli, başlıcası isə silah-sursatın əldə edilməsi üçün keçmiş rus ordusunun ölkə ərazisindəki və buradan keçən hissələrinin tərksilah olunması zamanı baş verənlər bunu bir daha təsdiqləyir. Əksər hallarda silahlı qarşıdurmalar və hətta qısamüddətli döyüşlərlə həyata keçirilən bu proses həmin dövrdə yaradılan Müsəlman Korpusunun silah-sursat təminatının başlıca mənbəyini təşkil etmişdi.

1918-ci ilin yanvar-may ayları ərzində Müsəlman Korpusunun formalaşdırılması ilə bağlı fəaliyyətin daha da genişlənməsi Azərbaycanın öz müdafiəsinin təşkili üçün bir neçə min nəfərlik hərbi qüvvəyə malik olmasına imkan verdi. Həmin ilin mart-aprel aylarında ölkənin müxtəlif ərazilərində Bakı Sovetinin tabeliyində olan, əsasən ermənilərdən ibarət daşnak-bolşevik və digər qüvvələr tərəfindən törədilən soyqırımlar nəticəsində türk-müsəlman əhalinin kütləvi surətdə məhv edilməsi milli qoşun hissələrinin yaradılması zərurətini daha da artırmışdı.

Cümhuriyyətin elan olunmasından sonra ordu quruculuğunda yeni mərhələ başlandı. Yaranmış şəraitdə ölkənin müdafiə etməyə, ərazi bütövlüyünü təmin etməyə qadir olan ordu qurulmasını özünün başlıca məqsədi sayan dövlət bu istiqamətdə ardıcıl və planlı iş aparmaqda qərarlı olduğunu fəaliyyətinin ilk günlərindən etibarən göstərdi. 1918-ci il iyun ayının 26-da Nazirlər Şurasının qərarı ilə Müsəlman Korpusunun Əlahiddə Azərbaycan Korpusu adlandırılmasını bu sahədə atılmış ilk mühüm addım hesab etmək olar.

Bu dövrdə yeni hərbi hissələrin təşkili ilə sıraları genişlənən Azərbaycan qoşunları Qafqaz İslam Ordusu ilə vahid komandanlıq altında birləşərək ölkənin paytaxtını – Bakı şəhərini və ətraf ərziləri daşnak-bolşevik quldurlarından, erməni-rus şovinist qüvvələrindən azad etmək üçün qanlı döyüşlər aparırdı. İyun-sentyabr aylarında Azərbaycan Ordusunun formalaşması qanlı döyüşlərin gedişində baş verirdi. Bu təsadüfi deyildi və sonrakı hadisələr də göstərdi ki, onun gələcək inkişaf perspektivləri daha çox döyüş qabiliyyətli orduya çevrilməsindədir.

1918-ci ilin oktyabr-dekabr aylarında milli qoşun hissələrinin formalaşdırılması prosesi daha ardıcıl və qanunauyğun xarakter almağa başladı. Azərbaycan Hökumətinin oktyabrın 23-də və noyabrın 1-də qəbul etdiyi qərarlar ordu quruculuğunun ilkin istiqamətlərini müəyyənləşdirdi. Bu qərarlar əsasında hərbi məsələlərə cavabdeh struktur – Hərbi Nazirlik və onun mühüm bölmələri təşkil olundu. Bununla, nizami ordunun yaradılması sahəsində səy və təşəbbüslərin daha mütəşəkkil qaydada və peşəkarlıqla həyata keçirilməsinə əlverişli şərait yarandı. Əlbəttə, burada dövlətin birbaşa dəstəyinin artması da qeyd edilməlidir. Artıq ordunun yaradılması ilə bağlı bütün işlərin görülməsi, digər

dövlət orqanları ilə qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi Hərbi Nazirliyə həvalə olunaraq, onun qarşısında konkret vəzifələr qoyulmuşdu.

AXC hökuməti ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, hələ də nəzarətdən kənarda qalan ərazilərdə hakimiyyətin bərqərar edilməsi, mümkün təcavüz və təhlükələrin qarşısının alınması məqsədi ilə təkcə qərarlar verməklə və tədbirlər həyata keçirməklə kifayətlənmirdi. Bu sahədə qonşu dövlətlərlə qarşılıqlı əlaqələrin qurulmasına və inkişaf etdirilməsinə xüsusi diqqət yetirir, bu məsələlərin həllində mövcud fəaliyyəti daim gücləndirməyə və təkmilləşdirməyə çalışırdı. 1918–1919-cu illərdə Azərbaycan Respublikası ilə Şimali Qafqazın Dağlı Xalqlar İttifaqı Respublikası və Gürcüstan Respublikası arasında bağlanan müqavilələr qonşu dövlətlərlə siyasi, hərbi, iqtisadi və s. əlaqələrin hüquqi tənzimlənməsi, lazım gəldikdə birgə müdafiənin təşkili, yaxud qarşılıqlı hərbi yardım göstərilməsi məqsədi daşıyırdı. Bu daha çox həmin vaxt ölkinin şimal sərhədlərindən gözlənilən Könüllü Ordu və bolşevik təhlükəsi ilə bağlı idi. Həm bu, həm də ölkənin cənubi-qərb və cənub ərazilərində, o cümlədən Zəngəzur, Qarabağ və Lənkəran qəzalarında yaranmış gərgin vəziyyət də Hökumətdən bu sahədə atdığı addımları daha da intensivləşdirməyi tələb edirdi. Bütün bunlar Ermənistan dövlətinin birbaşa dəstəyi ilə erməni silahlı dəstələri tərəfindən davam etdirilən təcavüzlərdən əhalini müdafiə etmək baxımından təxirəsalınmaz tədbirlər idi. Azərbaycan Hökuməti ordunun qurulması və müdafiənin təşkili ilə bağlı məsələləri daim diqqət mərkəzində saxlayır, bu istiqamətdə tədbirləri davamlı və sistemli olaraq mərhələ-mərəhələ həyata keçirirdi. 1918-ci ilin dekabr ayından 1920-ci ilin mart ayına qədər Hökumətin və Parlamentin qəbul

etdikləri çoxsaylı qərar və qanunlar hərbi sahədə vahid dövlət siyasətinin uğurla həyata keçirdiyini təsdiq edir. Hərbi Nazirlik rəhbərliyinin ardıcıl və məqsədyönlü fəaliyyəti, ölkdə ordu quruculuğu istiqamətində tədbirlərin miqyasının genişlənməsi 1920-ci ilin ilk aylarında Azərbaycanda 30 min nəfərə yaxın şəxsi heyətə malik qoşun hissələrinin yaradılması ilə nəticələnmişdi.

Hökumətin ordu quruculuğuna belə böyük əhəmiyyət verməsi, hər şeydən əvvəl, Dağıstanın bolşeviklər tərəfindən işğalı və digər səbəblərlə əlaqədar regionda yaranmış gərgin şərait, qərb sərhədlərində, eləcə də Qarabağda vəziyyət və ölkə daxilində baş verən proseslərlə bağlı idi. Bütün bunlar ordunun təşkili və gücləndirilməsi sahəsində tədbirlərə xüsusi diqqət yetirməsini tələb edirdi. Ölkə daxilindəki problemləri həll etməklə yanaşı, dövlətin artıq açıq şəkildə nümayiş etdirilən xarici müdaxilədən müdafiəsi sahəsində konkret addımlar atmaqla respublikanın təhlükəsizliyinə etibarlı təminat yaratmaq mümkün idi.

Yeni hərbi hissələrin təşkili üçün Hərbi Nazirliyin lazımi vasitələrlə təminatı, ümumən, bu sahəyə dövlət büdcəsindən birbaşa vəsaitlərin ayrılması və s. məsələlər hökumətin daimi nəzarətində idi. Xüsusilə hərbi-texniki təchizatla bağlı müəyyən çətinliklərin olmasına baxmayaraq, Hökumət və nazirlik rəhbərliyi bu problemlərin birgə səylərlə həllinə çalışır, əksər hallarda buna nail olurdu. Ümumiyyətlə, dövlətin ordu quruculuğu sahəsində fəaliyyətinin məqsədyönlülüyü mürəkkəb tarixi şəraitdə Azərbaycanın nizami ordusunun təşkililinə şərait yaratmışdır. Qısa müddətdə Cümhuriyyətin Hərbi Nazirliyi peşəkar rəhbərliyinin sayəsində öz üzərinə düşən vəzifələrin öhdəsindən gəlməyə qadir olan, Azərbaycan

xalqının maraqlarına xidmət edən nüfuzlu bir dövlət orqanına çevrilmişdir.

Beləliklə, AXC hökuməti mürəkkəb daxili və xarici siyasi şəraitə və gərginliklərə baxmayaraq, milli ordunun yaradılması və inkişaf etdirilməsi ilə bağlı ardıcıl, məqsədyönlü və kompleks tədbirlər həyata keçirərək, ölkəni müdafi etmək iqtidarında olan silahlı qüvvələrin təşkili sahəsində vəzifələrini layiqincə yerinə yetirə bilmişdir. Bu prosesə 1920-ci ili aprel ayının 27-də Rusiya bolşevik hökuməti, onun işğalçı, 11-ci qırmızı ordusu tərəfindən son qoyulmasaydı, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti nizami və müasir ordu quruculuğu prosesini inamla davam etdirərək öz məqsədinə tam nail olmaqla, ölkəni xarici təcavüzlərdən və daxili təhlükələrdən etibarlı müdafiə etməyə qadir ordu yaradacaqdı.

Cümhuriyyət dövründə Hökumətin hərbi quruculuq və müdafiə sahəsində apardığı siyasətin ümumiləşdirilməsi aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. Azərbaycanda ordu quruculuğu istiqamətində ilk addımlar çar Rusiyasının süqutundan sonrakı aylarda atılmış, bu, 1917-ci ilin sonlarında ilk rəsmi hərbi hissənin – Müsəlman Korpusunun yaradılması ilə nəticələnmişdir.

2. AXC-nin yaranmasına qədər olan dövrdə Azərbaycan xalqının müdafiəsi məsələləri Müsəlman Korpusu tərəfindən həyata keçirilmişdir.

3. AXC-nin yaranması ilə ordu quruculuğu prosesi daha ardıcıl və mütəşəkkil xarakter almış, Azərbaycanın ilk qoşun birləşmələri türk hərbi qüvvələri ilə birlikdə ölkənin ərazi bütövlüyünün təmin edilməsi sahəsində uğurlu fəaliyyət göstərmişdir.

4. Nizami ordunun təşkilinin ölkənin müdafiəsi və təhlükəsizliyinə möhkəm təminat yaradılmasında xüsusi

əhəmiyyəti nəzərə alınaraq, Hökumətin bu istiqamətdə fəaliyyəti daim ardıcıl, məqsədyönlü və kompleks xarakter daşımış, vahid dövlət siyasətinin tərkib hissəsi olmuşdur.

5. Azərbaycanın dövlət sərhədlərində və daxili ərazilərində müdafiə və təhlükəsizlik sahəsində mühüm vəzifələrin yerinə yetirilməsi Hökumət tərəfindən xüsusi olaraq bu məqsədlə təşkil edilmiş Hərbi Nazirliyə tabe silahlı qüvvələr tərəfindən həyata keçirilmişdir.

6. Hökumət nizami ordunun yaradılması sahəsindəki fəaliyyətin hüquqi normalara, müasir standartlara uyğun qurulmasına çalışmışdır.

7. AXC Hökumətinin qonşu və inkişaf etmiş ölkələrlə hərbi və hərbi-texniki əməkdaşlıq istiqamətində fəaliyyəti və təşəbbüsləri Azərbaycanda müasir ordunun yaradılmasına xüsusi əhəmiyətli məsələ kimi yanaşıldığını göstərən tarixi faktdır.

8. Müstəqil dövlət kimi AXC-nin nizami ordusunun mövcudluğu onun dünyanın aparıcı dövlətləri tərəfindən tanınmasına imkan yaradan amillərdən olmuşdur.

9. Ordu quruculuğunun inamla davam etdirilməsi, ölkənin müdafiə potensilanın artırılması, təhlükəsizliyinin təmin edilməsi sahəsində həyata keçirilən ardıcıl tədbirlərlə Azərbaycanın iqtisadi və siyasi maraqlarının qorunmasına şərait yaradılmışdır.

10.Ölkənin şimal və qərb sərhədlərindən gözlənilən təcavüzlərin, həmçinin Zəngəzur və Qarabağda törədilən qırğınların qarşısının alınması məqsədi ilə görülən tədbirlər, yerlərdə dövlət idarəçiliyinin möhkəmləndirilməsi, İrandan keçərək dinc əhalini qarət edən quldur dəstələrinə qarşı qəti mübarizə və s. tədbirlər əhalinin orduya və hakimiyyətə olan inamını artırmışdır.

11. Azərbaycanın xarici müdaxilələrdən, gözlənilən təcavüzlərdən müdafiəsi, daxili təhlükəsizliyinin möhkəmləndirilməsi ilə məşğul olan silahlı qüvvələr öz təyinatına uyğun fəaliyyətlə yanaşı, ölkə sərhədlərnin mühafizəsinin təşkilinə də cəlb olunmuşdur.

10. Nəhayət, müstəqil silahlı qüvvələrin yaradılması və möhkəmləndirilməsi ilə Azərbaycan xalqı öz müdafiəsini təşkil etməyə qadir olduğunu nümayiş etdirmiş, dövlət quruculuğunun bu mühüm istiqamətində tarixi ənənələrin yeni şəraitdə inkişafına nail olunmuşdur.

Lakin ordu quruculuğu istiqamətində həyata keçirilən fəaliyyət nə qədər genişmiqyaslı olsa da, bunun ölkəni təcavüzlərdən qorumaq üçün yetərli olmadığı göstərilməlidir. Ordu quruculuğunun daha yüksək səviyyədə təşkilinə mane olan amillər də mövcud idi. Əlbəttə, bunun daha çox obyektiv və qismən subyektiv səbəbləri vardı:

Birincisi, Rusiya imperiyasının yeritdiyi siyasət nəticəsində müasir ordunun təşkili sahəsində lazımi təcrübənin olmaması, ölkədə peşəkar kadrların son dərəcədə azlığı səbəbindən, ilk mərhələdə məcburiyyət qarşısında bu işə ümumiyyətlə, qeyri-peşəkarların cəlb edilməsi. Bu, eləcə də milli hərbi hissələrdə xidmətə laqeyd yanaşan bəzi hərbçilərin hərəkətləri nəticəsində yaranmış vəziyyət 1919-cu ilin əvvəllərinə qədər davam etmişdi.

İkincisi, həmin dövrdə ölkənin müdafiəsinə və təhlükəsizliyinə həm xaricdən, həm də daxildən çoxsaylı təhdidlər mövcud idi. Bununla bağlı olaraq hərbi qüvvələrin təşkili, ordunun formalaşdırılması prosesi dinc şəraitdə deyil, müharibə və münaqişələrin aramsız davam etdiyi vəziyyətdə gedirdi. 1918-ci ilin iyun-sentyabr aylarında təkcə Göyçay-Şamaxı ərazilərində, Bakıda və ətrafında gedən döyüşlərdə

ordu birləşmələri xeyli canlı qüvvə itkisinə məruz qalmışdı. Ermənistanla Qarabağda, eləcə də Zəngəzurda müəyyən fasilələrlə aparılan müharibələr nəticəsində bu itkilər sonrakı dövrlərdə də qaçılmaz olmuşdu.

Üçüncüsü, ordu özünün birbaşa funksiyalarını yerinə yetirməklə yanaşı, yerli idarəçiliyin təşkilnə, ölkə sərhədlərinin mühafizəsinə və s. vəzifələrin icrasına cəlb olunmuşdu. Bunlar isə əlavə güc və vaxt itkisinə gətirib çıxarır, qarşıya çıxan problemlərin həllinə maneçilik törədirdi.

Dördüncüsü, ölkənin iqtisadi, maliyyə potensialının məhdudluğu səbəbindən müdafiə ilə bağlı tədbirlərin, əsasən maddi təminat, silah-sursat, təchizat məsələlərinin ilk vaxtlarda, xüsusilə 1918-ci ilin oktyabr ayınadək lazımi səviyyədə həllinin mümkün olmaması.

Beşincisi, daxildə siyasi mübarizə pərdəsi altında pozuculuq fəaliyyəti ilə məşğul olan qüvvələrin, xüsusilə bolşeviklərin yaratdığı təhlükənin qarşısının alınması istiqamətində zəruri tədbirlərin görülməsi bəzi hallarda Hökumətin diqqətini digər mühüm məsələlərin həllindən yayındırır, qüvvə və vasitələrin bu istiqamətə yönəldilməsinə səbəb olurdu.

Altıncısı, Azərbaycanın müsətəqilliyinin dünyanın aparıcı dövlətləri tərəfindən birmənalı şəkildə müdafiə edilməməsi (de-fakto tanınmaması), Rusiyanın əvvəlki sərhədləri çərçivəsində bərpasına ciddi səylər göstərilməsi şəraitində Cənubi Qafqazın müstəqil dövlət qurmaqda ən şanslı ölkəsinin təcavüzkar qarşısında faktiki tək qoyulması ordunun hərtərəfli təşkili ilə bağlı məsələlərin həlli sahəsində də ciddi problemlər doğurmuşdu.

Yeddincisi, bolşevik işğalı ərəfəsində ordunun əsas qüvvələrinin Qarabağda müharibəyə cəlb edilməsi nəticəsində

şimaldan xarici müdaxilənin qarşısını almağın qeyri-mümkün olması.

Nəhayət, səkkincisi, AXC-nin süqutu, müstəqil dövlət kimi qısa müddət ərzində yaşaması bütün digər sahələr kimi ölkədə ordu quruculuğu istiqamətində görülən işləri də yarımçıq qoydu.

Fətəli xan Xoyski

Daha çox söz-sənət dühalarının, mədəniyyət və elm adamlarının vətəni kimi tanınmış, bəşəriyyətə bir- birindən nəhəng mütəfəkkirlər bəxş etmiş Azərbaycanın yetişdirdiyi qüdrətli dövlət və ictimai xadimlər də az olmayıb. Belə şəxsiyyətlər arasında 14 yaşında ikən Səfəvilər kimi böyük bir dövlət yaratmağa girişmiş və qısa müddətdə buna nail olmuş, yenilməz sərkərdə, uca hökmdar Şah İsmayıl Xətainin adını çəkmək kifayətdir. Dövlətçilik ənənələrinin kökü eramızdan əvvələ gedib-çıxan, bu tarixi gələnəklərə dayaqlanaraq türk Oğuz elinin mükəmməl idarəçilik sistemini yaratmış və onu "Kitabi Dədə Qorqud" kimi bütün zamanların ən yaşarı söz-sənət abidələrindən sayılan bir dastanda tərənnüm etmiş bugünkü Azərbaycan xalqı XX əsrdə Şərqdə ilk demokratik respublikanın qurucusu olmaqla dövrünün ruhuna uyğun, müasir dövlət qurmaq qüdrətini bir daha təsdiq etdi. Bu baxımdan Azərbaycan Xalq Cümhuriyyəti neçə min illik mədəniyyətə, zəngin dövlətçilik ənənələrinə malik bir xalqın dünya sivilizasiyasına bəxş olunmuş ən dəyərli töhfəsi idi və onun yaradılmasında yaxından iştirak etmiş şəxslər arasında zəmanəsinin sayılıb-seçilən siyasətçiləri, dövlət və ictimai xadimlərindən heç bir səviyyədə geri qalmayan, bəzən onlardan da yüksəkdə dayanan, hər bir millətin iftixar duyacağı nadir simalar vardı. İlk müstəqil respublikanın Nazirlər Şurasının birinci sədri, məşhur əsl-nəcabətli Xoyskilər nəslinin

ən yüksək mənsəbə çatmış nümayəndəsi Fətəli Xan Xoyski bu şəxsiyyətlərin ön sırasında yer tutur. Fətəli Xan Azərbaycanda hökumət qurmağın, Nazirlər Şurasına rəhbərlik etməyin nə demək olduğunu öz fəaliyyəti ilə göstərən, bu sahədə praktik işin təməl daşlarını qoyan bir dövlət xadimidir. Fətəli Xan Xoyski 1918-ci ilin 28 mayından 1919-cu ilin 14 aprelinə qədər üç dəfə ard-arda ona etibar olunmuş ən şərəfli vəzifənin öhdəsindən layiqincə gəlmiş, son dərəcə mürəkkəb və ziddiyyətli şəraitlərdə Azərbaycan hökumətini təşkil etmiş və onun sədri olmuşdur. 1920-ci ilin məlum aprel çevrilişinə qədər müstəqilliyini qoruyub saxlamış Azərbaycan dövlətinin 23 aylıq bir müddətdə siyasi, hərbi, iqtisadi, beynəlxalq sahələrdə qazandığı uğurlarda onun çox böyük zəhməti, danılmaz xidmətləri vardır.

Mən Fətəli Xan haqqında ilk məlumata mərhum tədqiqatçı Mövsüm Əliyevin "Odlar yurdu" qəzetinin 1989-cu il 1-ci sayında dərc edilmiş məqaləsində rast gəlmişdim. Sonralar həmin məlumat "Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti 1918-1920" (Bakı "Gənclik" 1990) kitabçasına salınaraq bir daha geniş oxucu kütləsinə çatdırıldı. "Fətəli xan İskəndər oğlu Xoyski 1875-ci il dekabrın 7-də Şəki şəhərində anadan olmuşdur. Onun atası rus ordusunun general-leytenantı idi. Fətəli xanın əsli Cənubi Azərbaycanın Xoy şəhərindəndir. Xoy xanı olan ulu babası Cəfərqulu xan İran şahı Fətəli xan ilə müharibədə məğlub olduqdan sonra, iyirmi min nəfərlik qoşunu ilə Üçkilsəyə (Eçmiədzinə) sığınmışdı. 1803-1806-cı illər rus-İran müharibələri dövründə rus qoşunlarına qoşulan Cəfərqulu xan imperator I Aleksandr tərəfindən bahalı brilyantla bəzədilmiş qızıl medal və ləleklə təltif edilmişdir. O, 1807-ci ildə Şəki xanı təyin edilmiş və general-leytenant rütbəsinə layiq görülmüşdür. Cəfərqulu xan

1810-cu ildə vəfat etdikdən sonra Şəki xanlığını onun oğlu İsmayıl idarə etmişdir. 1819-cu ildə İsmayılın vəfatı ilə Şəki xanlığı ləğv olunmuş və Rusiyanın tərkibinə qatılmışdır. Bu nəsildən görkəmli sərkərdələr, dövlət xadimləri və çoxlu ali təhsilli ziyalı çıxmışdır.

Fətəli xan Xoyski Gəncə klassik gimnaziyasını bitirmiş, əvvəlcə Gəncədə, sonra isə Suxum və Batum dairə məhkəmələrində müxtəlif vəzifələrdə işləmiş və Kutaisidə dairə məhkəməsində böyük məhkəmə məmuru olmuşdur. 1900-cu il martın 8-də Kutaisi qəza istintaq sahəsinin müdiri, 1907-ci ildə isə Yekaterinodar dairə məhkəməsində prokuror müavini təyin edilməsi Xoyskinin ictimai fəaliyyətində yeni mərhələ olmuşdur. O, Yelizavetpol quberniyasından (Gəncə) 2-ci Dövlət Dumasına nümayəndə seçilmişdir. Fevralın 2-də Peterburqun məşhur Tavriya sarayında toplanan Rusiya parlamentinin iclaslarında çıxış edən Fətəli xan çar hökumətinin Zaqafqaziyada və Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətini tənqid atəşinə tuturdu. O, kadet partiyasının üzvü olmasına baxmayaraq, Dövlət Dumasının müsəlman deputatları fırqəsinə daxil idi. F.Xoyski hökumətdən Rusiyanın müstəmləkə xalqlarına məhəlli muxtariyyət verilməsini tələb edirdi. Onun da iştirakı ilə hazırlanaraq 1907-ci il may ayının 18-də Dumaya təqdim olunan qanun layihəsində Rusiyada milli və dini fərqlərə görə vətəndaşların siyasi və mülki hüquqlarını məhdudlaşdıran qanunların ləğv olunması tələbləri səsləndirilmişdi. Demokratik normalara tam cavab verən bu qanunda Rusiyanın bütün vətəndaşlarının hüquq bərabərliyi, daimi yaşayış üçün yer seçmə azadlığı, şəxsiyyət toxunulmazlığı, mətbuat və söz azadlığı, təhsil hüququ və s. başlıca demokratik dəyərlər öz əksini tapmışdı. Ancaq ikinci Dövlət Duması vaxtından qabaq buraxıldığı üçün

bu qanun layihəsinin qəbul edilməsi mümkün olmadı. Vətənə qayıdan Fətəli xan Dairə Məhkəməsinə, Tiflis Məhkəmə Palatasına müraciət edərək, bu Məhkəmə Palatasına andlı iclasçı qəbul olunmasını xahiş etdi. Bu xahişi nəzərə alan Ədliyyə Nazirliyinin ikinci departamenti Fətəli Xan Xoyskini Tiflis Məhkəmə Palatasının andlı iclasçıları sırasına qəbul olunmasına icazə verdi. O, sonralar müxtəlif illərdə Bakı və Gəncə dairə məhkəmələrində iş kəsmək üzrə andçı-müvəkkil vəzifəsini icra etmişdir. Müstəmləkə siyasətinin rəmzi olan Yelizavetpol şəhəri və quberniyasının yenidən Gəncə şəhəri və Gəncə quberniyası adlandırılması, Qaryagin qəzasının Cəbrayıl qəzası adı ilə əvəz edilməsi, çoxpartiyalı parlament sisteminin yaradılması, Azərbaycan Respublikasının pul və poçt markalarının buraxılması, ana dilində məktəb və seminariyaların açılması və digər mütərəqqi tədbirlər Xoyskinin rəhbərlik etdiyi hökumət kabinələri dövründə həyata keçirilməyə başlanmışdır.

F.Xoyski (1875-1920) haqqında növbəti məlumatlardan biri "Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar 1918-1920-ci illər" ("Elm", 1998) məcmuəsində, aşağıdakı şəkildə verilib: "AR-in dövlət xadimi. Azərbaycanın əsilli ailələrindən birinin nümayəndəsi. Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirib (1901). İkinci Dövlət Dumasına üzv seçilib (1907). Kadet partiyasının üzvü olub. Məhkəmə orqanlarmda xidmət edib. 1917-ci ilin martında Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilib. Zaqafqaziya Komissarlığının üzvü (Zaqafqaziya Komissarlığında müsəlmanların sayı 14, Seymdə isə 44 nəfər idi. Gürcülər Seymdən ayrıldıqdan sonra Zaqafqaziya Müsəlman Şurası 26 mayda özünü Azərbaycan Milli Şurası elan etmişdi. - L.Ş.) və Zaqafqaziya Federativ Respublikasının ədliyyə naziri

olub. 1918-ci ilin mayından 1919-cu ilin martına qədər AR hökumətinə başçılıq edib. 1919-cu ilin dekabrından 1920-ci ilin martına qədər xarici işlər naziri olub. 1920-ci ilin 28 aprelindən sonra Tiflisə gedib. 1920-ci il iyunun ayının 19-da muzdlu qatilin əli ilə öldürülüb".[163]

Bu qısa tərcümeyi-hal qeydlərinin arxasında ilk baxışda görünməyən, adi rəqəmlərin daxilinə sinmiş potensial güc, yaşanmış hər bir ilin neçə on ilə bərabər siqləti haqqında düşünəndə insanı heyrət bürüyür. Belə az müddətdə bir millətin tərəqqisi və özünütəsdiqi yolunda görülmüş saysız-sonsuz işlər, göstərilmiş əvəzsiz xidmətlər qarşısında qəlbin riqqətə gəlir. Sözsüz ki, bolşevik rejimi bu qüdrətindən xəbərdar olduğu üçün Fətəli xanın yaşayış yerini müəyyənləşdirməyə nail olmuş və çevrilişdən heç iki ay keçməmiş öz muzdlu qatillərini tez-tələsik onu aradan götürməyə göndirmişdi. Çünki belə əməl və nüfuz sahibləri durduqca müstəqil Azərbaycan uğrunda çarpışmalar səngiməyəcək, ən amansız cəza tədbirləri qarşısında da öz gücünə inandırılmış xalq qorxub geri çəkilməyəcəkdi. Buna görə də bolşevik hakimiyyəti Fətəli xan kimi şəxsiyyətlərin məhv edilməsi, yaxud mühacirətə getmək məcburiyyəti qarşısında qoyulması ilə xalqı rəhbərlərdən təcrid etmək, asan idarə olunan kütləyə çevirmək niyyətində idi.

Əsrin əvvəllərindən etibarən siyasi fəaliyyətə qoşulan, demokratiya və azadlıq şüarları ilə çar Rusiyasını titrədən qüvvələrin tərkibində ilk təcrübə qazanan Fətəli xan hələ o dövrdə öz yolunu qəti müəyyənləşdirməsə də, bir şey onun üçün gün kimi aydın idi. O, canından artıq sevdiyi millətinə təmənnasız xidmət göstərmək amalı ilə yaşayırdı. Yüksək

163 Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar 1918-1920-ci illər, "Elm", 1998,

təhsil görmüş bu gənc hüquqşünas onu qarşıda gözləyən taledən xəbərdar deyildi. Tale isə ona millətinin tarixində əbədi yaşamaq qisməti yazmışdı. Ancaq bunun üçün o, neçə-neçə sərt sınaqlardan keçməli, özünü həyatın keşməkeşlərində təsdiq etməli idi. Bütün bunlar hələ gələcəkdə baş verəcəkdi. Bəli, tale onu xalqının istiqlalı uğrunda fədakarlıqla çalışmaq, yüz ilə yaxın bir müddətdə Rusiyanın tərkibində müstəmləkə ucqarı kimi alçaldıcı bir addan başqa heç nə əldə etməyən doğma Azərbaycanı tərəqqi və inkişafa qovuşduracaq insanların cərgəsində öz layiqli yerini tutmaq üçün seçmişdi. Yeri gəlmişkən, bəzi müəlliflər Fətəli Xanın fevral burjua inqilabından sonra siyasi mübarizəyə qoşulduğunu bildirirlər, ancaq onun 1907-ci ildə Dövlət Dumasına üzv seçilməsi və təqribən həmin illərdə Kadet partiyasına daxil olması bu qənaətlərin doğru olmadığını göstərir.

Məhkəmə orqanlarında çalışan Xoyskinin əksər dost-tanışlarından siyasi fəaliyyətlə məşğul olanlar, çar hökumətinin nəzərində siyasi cəhətdən səbatsız, hətta təhlükəli hesab olunurdu. O isə artıq öz fəaliyyətini heç bir partiyanın üzvülüyü ilə məhdudlaşdırmaq istəmir, müstəqil siyasətçi kimi formalaşmağı daha üstün tuturdu. Ancaq Kadet partiyasının üzvü olanda da, fevral-burjua inqilabından sonra heç bir partiyaya mənsub olmadan fəal surətdə siyasətə girişəndə də o, daim diqqət mərkəzində idi. Təsadüfi deyildi ki, o dövrdə ən qatı millətçilər sayılan qüvvələr öz fəaliyyətini hansısa siyasi mənsubluq çərçivəsinə salmaq istəməyən Fətəli xanla tam hesablaşır, onu öz sıralarına cəlb etməyə çalışır, keçirdikləri tədbirlərdə məmmuniyyətlə söz verir, fikirlərini dinləyirdilər. Belə tədbirlərdən birində, 1917-ci il oktyabrın 26-dan 31-dək Bakıda keçirilən "Türk ədəmi-mərkəziyyət partiyası "Müsavat"ın birinci qurultayında çıxış edən Fətəli xan burada

irəli sürülən "Azərbaycana muxtariyyət" şüarını qızğın müdafiə etmişdir. Yenə 1917-ci ildə Bakıda çağrılan Qafqaz müsəlmanlarının qurultayında iştirak edərək milli problemlər ətrafında geniş diskussiya aparmışdı. Onun Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin və Zaqafqaziya Seyminin üzvü seçilməsi məhz bu qızğın fəaliyyətin, Azərbaycanın taleyini düşünən milli qüvvələr arasında ən yüksək nüfuza malik şəxsiyyətlərdən olmasının nəticəsi idi.

28 may 1918-ci il. Vətən tarixinin ən müqəddəs və şərəfli günlərindən biri. Neçə min illik dövlətçilik tarixi olan, ancaq son bir neçə yüz ili İran, Rusiya və s. dövlətlərin əsarəti altında inləyən Azərbaycanın bir qrup həqiqi vətənpərvər və qeyrətli övladı Tiflis şəhərində ona öz tarixi haqqını geri qaytarmaq təşəbbüsündə bulundular. Onların sonsuz fəxarət duyğuları oyadan, qəlbləri riqqətləndirən əməllərinin nəticəsi 6 mübarək bənddən ibarət olan Azərbaycanın İstiqlalını mübəyyin Əqdnamə adlanırdı: "Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyyəsi üzündən hasil olan vəziyyəti-hazıreyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarşi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycana dəxi bulunduğu xarici və daxili müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor".[164]

Bu addımla bahəm Azərbaycan Nazirlər Şurası öz işinə başlamış, kabinetin sədrliyi artıq siyasi dairələrdə nüfuzlu şəxs kimi tanınan Fətəli xan Xoyskiyə həvalə olunmuşdu. Müstəqilliyin elan olunmasının səhəri günü Azərbaycan Milli Şurasının yığıncağında çıxış edən yeni hökumətin ilk başçısı qarşıda duran vəzifələrdən, konkret əməli işlərdən danışırdı.[165]

164 ARDA, f. 970, s.l, iş 4, v.1-2
165 ARDA, f. 970, s.l, iş 1, v.51

Bu əməli fəaliyyətin ilk nəticələrindən biri kimi 1918-ci il may ayının 30-da Xoyskinin imzası ilə dünyanın aparıcı dövlətlərinin paytaxtlarına, Konstantinopol, Berlin, Paris, Vyana, Roma, London, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Moskva, Haaqa, Madrid, Stokholm, Kiyev, Oslo, Kopenhagen, Tokio şəhərlərinə, həmin ölkələrin xarici işlər nazirlərinə radioteleqram göndərildi: "Zaqafqaziya Federativ Respublikasının dağılması, Gürcüstanın ondan çıxması ilə Azərbaycan Milli Şurası 28 may 1918-ci ildə Azərbaycanın müstəqilliyini elan etmişdir... Sizi bununla bağlı xəbərdar etməklə, Zati Alilərinizdən bu barədə öz hökumətinizə məlumat çatdırmağınızı xahiş edirəm. Hökumət müvəqqəti olaraq Gəncə şəhərində yerləşir. Xoyski - Azərbaycan Respublikası Nazirlər Şurasının sədri".[166]

Əslində hökumət hələ ölkənin əksər ərazilərində, xüsusilə Bakıda anti-milli qüvvələrin meydan suladığı, digər bölgələrdə gərginliyin mövcud olduğu vəziyyətlə əlaqədar Azərbaycan hüdudlarından kənarda fəaliyyət göstərmək məcburiyyətində idi. Gəncəyə köçmək üçün qızğın hazırlıq işləri gedirdi və bütün səylər bu işin uğurla başa çatdırılmasına yönəldilmişdi. Göstərilən səylər tezliklə nəticə verdi. Azərbaycan Milli Şurası ilə bərabər respublikanın müstəqilliyi yolunda real addımlar atmaq üçün ilk günlərdən geniş əməli işlərə başlayan, fəaliyyətini quracağı dövlətin hüdudları daxilinə keçirməsi üçün möhkəm zəmin yaratmağa çalışan birinci hökumət iyun ayının 16-da öz məqsədinə nail oldu. Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçdü. Bununla Azərbaycan Milli Şurası və hökuməti öz faktiki missiyalarını uğurla yerinə yetirdilər. Ancaq yaranmış digər gərgin vəziyyətlə əlaqədar Milli Şura səhəri gün fəaliyyətini dayandırdı və səlahiyyətlərini

166 ARDA, f.970, s. 1, iş 5, v. 1

müəyyən dövr ərzində yeni təşkil edilmiş Azərbaycanın ikinci hökumətinə verdi.

Yeni hökumətin fəaliyyətə başladığı 17 iyun 1918-ci ildə Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının Azərbaycan əhalisinə müraciətində deyilirdi: "Azərbaycanın müstəqilliyi ilə əlaqədar müqəddəs arzu həyata keçmişdir. Biz inanırıq ki, millətimizin sarsılmaz iradəsi və bizim həmmillətimiz və həmdininiiz olan Osmanlı imperiyasının dəstəyi ilə Vətənimizin xoşbəxt gələcəyi təmin olunacaqdır. Bununla yanaşı, indiki vəziyyətdə gənc respublikamızı həm xaricdən, həm də daxildən ciddi təhlükələr təhdid edir... Belə məsul vəziyyətdə öz üzərinə ölkənin idarə edilməsi kimi ağır bir vəzifə götürmüş Azərbaycan hökuməti ona dövlət orqanlarını vahid əldə cəmləşdirməyə imkan vermək üçün bütün vətəndaşlardan öz gündəlik fəaliyyətləri ilə məşğul olmaqla idarəçilik işinə mane olmamağa çağırır. Bununla hökumət Vətənin səadəti və xilası naminə hökumət qərarlarını yerinə yetirməkdən yayınan şəxslərə qarşı ən sərt təxirəsalınmaz tədbirlər görəcəkdir. Hökumətin ən yaxın vəzifələrindən biri bütün hökumət müəssisələrinin, məhkəmə və məktəblərin milliləşdirilməsidir. Ancaq bu iş dövlət aparatını dağıtmadan, tədricən həyata keçiriləcəkdir. Hökumət ayrıca qərarların qəbuluna qədər bütün hökumət xidmətindən olanları öz əvvəlki yerlərində qalıb işlərini davam etdirməyə dəvət edir. Hökumət milliyyətindən və dinindən asılı olmayaraq Azərbaycanın onun bütün vətəndaşlarının həqiqi vətəni olması üçün bütün tədbirləri görəcəkdir. Bütün əhali qruplarına öz hüquqlarının müdafiəsində o, hərtərəfli dayaq olacaqdır".[167]

Bu tarixi müraciətdən 5 ay sonra 17 noyabr 1918-ci ildə saat 13.30-da Azərbaycan Milli Şurası yenidən fəaliyyətə

167 ARDA, f 895, s.l, iş 29, v. 1

başladı. İlk müstəqillik dövrünün ən ağır və məsuliyyətli günlərində özünü doğrultmuş bu qurumun üzvlərinin bir araya yığılması təsadüfi deyildi. Məqsəd onun artıq əməli işdə sınanmış tərkibi əsasında Azərbaycanda daha təkmil və ardıcıl fəaliyyət göstərəcək qanunvericilik orqanının yaradılması, Azərbaycanın parlamentli idarə üsuluna malik respublika kimi formalaşdırılması idi. Bundan 20 gün sonra, 1918-ci il dekabrın 7-də Parlamentin açılışında çıxış edən Fətəli Xan hökumətin 6 ay ərzində Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsi sahəsində görülmüş çox böyük işlərdən danışır və xüsusilə ölkədə anarxiyanın aradan qaldırılmasını qeyd edir. Özü də bütün bunlar "hökumətin heç bir qoşuna və vasitəyə malik olmadığı şəraitdə həyata keçirilmişdir, - deyir. O, hökumətin 6 aylıq fəaliyyətini belə qiymətləndirmişdi: "Daxildə hərci-mərcdən başqa heç bir şey yox idi. Hətta polis də yox idi. Heç kəsin irz və namusu əmniyyətdə deyil idi. İndi allaha şükür olsun ki, Azərbaycanın hər yerlərində lazımi qədər olmasa da, xalqın malını, canını müdafiə edəcək təşkilatımız var… Fəqət vaxta baxıb tərəziyə qoyulmalıdır ki, bu işləri hansı hökumət və nə vaxt etmişdir? Tarixi, sabiqəsi, əsgəri və xəzinəsi olan hökumətmi? Yaxud iki gündə təşkil olunmuş pulsuz və əsgərsiz hökumətmi? Əgər burasını nəzərə alsanız gorərsiniz ki, nə qədər zəhmət lazım idi. Dəmir yolları işləmirdi, dağılmışdı, vaqon, filan yox idi. Məmləkətin dolanacağı buna bağlı idi. Ona binaən hökumət buna vaxt verdi. Nə qədər olsa, allaha şükür yaz, qış dəmir yolları düzəlib idarə olunur. Poçta, teleqraf yox idi. Bir kağız yollamaq mümkün deyil idi. O vaxt idi ki, maliyyatdan hökumət əlində heç bir şey yox idi. Hökumətə lazım olan idarələrin hamısı başdan-başa dağılmış idi, xidmətçilər qaçmışdılar. İdarələrin adı var isə də, özü yox idi… Zira heç bir tədbir qüvvəmiz və silahımız

yox idi. Bayrağında hürriyyət və əxvət yazmış olan firqələr Bakını əlimizdən almış idi. Azərbaycanın köksü, paytaxtının sahibi olan müsəlman milləti qətliam edilmiş idilər… Bu övzailə bərabər hökumət qarşısında bir çox sair məsələlər də var idi. Xarici işlər bilirsiniz ki, nə halda idi. Qüvvəmiz qədər vəzifəmizi ifa etdik. Hələ çox şey edə bilməmişik, amma bunu cürətlə deyə bilərəm ki, hökumətin nöqsanları ilə bərabər yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur. Millətin hüququ, istiqlalı, hüriyyəti!

Hökumət çalışmışdır ki, öz nüfuzunu millətin gözündə itirməsin. Biz xahiş edirik ki, nöqsanlarımızı bizə göstərəsiniz, tənqidə ixtiyarınız var və tənqid xeyirli şeydir. Parlamentin əsas vəzifəsi də yol göstərməkdir.”. [168]

Həmin nitqində Fətəli Xan mövcud çətinliklərlə üzləşən gənc dövləti dalğalar qoynunda yırğalanan qayıqla müqayisə edərək deyir ki, bu qayığı qayalar arasından elə keçirmək lazımdır, o, büdrəməsin və daşlara toxunub parçalanmasın.[169]

Fətəli xan Xoyskinin Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu yolundakı xidmətləri barəsində dövlət arxivlərində kifayət qədər tədqiq edilməmiş faktiki material, indiyədək haqqında xalqa lazımınca məlumat verilməmiş tarixi sənədlər var. Bunların qətiyyən mübaliğə olmadığına yəqin ki, heç bir azərbaycanlının qəlbində şübhə yoxdur. Ancaq bu da bir həqiqətdir ki, dövlət xadimi, böyük şəxsiyyət barəsində ən doğru bilgilər bir çox hallarda içində yaşadığı dövrün ona göstərdiyi münasibətdə, verdiyi qiymətdə də öz əksini tapır. Müstəqil Azərbaycan dövrünün aynasında Fətəli xanın necə göründüyü aşağıdakı məqamlarda öz dolğun əksini tapıb.

168 168 ARDA, f. 895, s. 1, iş. 1, v. 5-10.
169 Azərbaycan” qəzeti 1918-ci il 17 noyabr

Azərbaycan Parlamentinin fəaliyyətə başlaması ilə gündəmə respublikada yeni hökumətin təşkili kimi son dərəcə aktual bir məsələ çıxmışdı. Müstəqilliyin əldə olunmasından ötən 6 ay 10 gün ərzində Azərbaycanda iki hökumət qurulmuş, bunların hər ikisinə Fətəli Xan sədrlik etmişdi. Ancaq 3-cü hökumət bir qədər fərqli prinsiplər əsasında formalaşdırılmalı, ali qanunverici orqan – Parlament qarşısında cavabdehlik daşımalı, onda təmsil edilən fraksiyaların ümumi razılığı ilə öz işinə başlamalı idi. Dekabr ayının 10-da məhz bu məsələni müzakirə üçün toplaşmış ilk parlament üzvlərimizin hökuməti kimin təşkili edəcəyi ilə bağlı çox asanlıqla yekdil rəyə gəlmiş və Parlamentin sədr əvəzi Doktor Həsən bəy Ağayev Fətəli xan Xoyskiyə Nazirlər Şurasının sədri postunu tutması ilə bağlı 13 dekabr 1918-ci ildə məktubla müraciət etmişdi: “Azərbaycan Parlamentinin bu il dekabr ayının 10-da keçirilən iclasında mənə yeni kabineti təşkil etmək üçün Baş Naziri seçmək və dəvət etmək tapşırığı verilmişdir. Fraksiyaların arzusu, həmçinin siyasi təcrübəyə, Sizin Vətənə və millətə xidmət işində göstərdiyiniz görkəmli fəaliyyətiniz və fədakarlığınıza görə mən Sizdən bu mühüm və çətin işi öhdənizə götürməyi, Baş Nazir vəzifəsini qəbul etməyi və koalisiyalı kabinet yaratmağı xahiş etməyi özümə borc bilirəm. Xahiş edirəm mənim səmimi hörmət və ehtiramımı qəbul edəsiniz. Parlament sədri əvəzi, doktor Ağayev”.[170]

Əlbəttə, Parlamentin yekdil şəkildə dəvəti kimi yüksək bir etimaddan, millətin sayılıb-seçilən insanları tərəfindən belə dəyərləndirilməkdən daha böyük qiymət ola bilməzdi və bu etiraflar qarşısında hədsiz məmnunluq və minnətdarlıq duyğusu keçirmək, bu dəvəti düşünmədən qəbul etmək təbiidir. Ancaq bəlkə də Fətəli xan yeganə insanlardan idi ki, millətə xidmət

170 Arxiv: f.895, siy. 1, iş. 1, vər.50-57

hissini hansısa vəzifə tutmaqla, səlahiyyət sahibi olmaqla bağlamırdı və o, ən sıravi vətəndaş kimi də bu yolda hər cür fədakarlıq göstərməyə, həyatını və sağlamlığını canından artıq sevdiyi Vətəninə verməyə hazır idi.

O, bütün bunlara qəti əmin olduğu və hazırda son dərəcə məsuliyyətli bir dövrdə təklif olunan yüksək postu tutmağa səhhətinin imkan vermədiyi üçün çəkinmədən bu təklifdən imtina etmişdi. Məktubu aldığı günün səhəri Fətəli Xan Xoyski öz cavab məktubunda yazırdı: "Çox hörmətli Həsən bəy! Dünən mən Sizin məktubunuzu aldım. Həmin məktubda Siz bildirirsiniz ki, mənim Vətənə və millətə xidmət işində göstərdiyim keçmiş fəaliyyəti və Parlament fraksiyalarının arzusunu nəzərə alaraq, Parlament qarşısında cavabdeh olan yeni koalisiyalı kabinet təşkil etməyin kimə həvalə olunması seçimi ilə əlaqədar mənim namizədliyim üzərində dayanmısınız. Mənə göstərilən bu yüksək etimada görə dərin minnətdarlığımı bildirir, eyni zamanda çatdırıram ki, səhhətimin ciddi surətdə pozulması səbəbindən bu vəzifəni öz üzərimə götürə bilmərəm, bununla yanaşı lazım gəldikdə bütün qüvvəmi xalqa xidmət işinə sərf etməyi özümə daim mənəvi borc sayacağam. İmkandan istifadə edərək mənim dərin minnətdarlığımı və sədaqətimi qəbul etməyinizi xahiş edirəm. F.X.Xoyski".[171]

Buna baxmayaraq 18 dekabrda Həsən bəy Fətəli Xan Xoyskiyə Nazirlər Şurasının sədri olmaq, koalisiyalı kabinet yaratmaq xahişi ilə yenidən müraciət edir: "Mən ikinci dəfə xalq adından Sizə müraciət edirəm, Vətən üçün belə ağır bir vəziyyətdə hökumət qurmaq kimi məsuliyyətli işdən imtina etməyəsiniz və öz üzərinizə koalisiyalı kabinet təşkil etmək vəzifəsini götürəsiniz. Ümid edirəm ki, mənim xahişimi yerinə

171 "Azərbaycan" qəzeti 1918, 15 dekabr

yetirəcəksiniz, belə ki, Parlament fırqələri yekdil olaraq Sizin namizədliyiniz üzərində dayandılar və Sizi bu postda görməyi israrlı arzu edirlər".[172]

Bu məktubu öz səhifələrinə çıxaran "Azərbaycan" qəzeti 1918-ci il 21 dekabr sayında oxucularına belə bir məlumat verir ki, Fətəli Xan bu israrlı dəvətlərdən sonra hökumət təşkil etməyi öz üzərinə götürdü. Bütün bunlar Fətəli xanın hökumət başçısı kimi, doğrudan da, əvəzedilməz şəxs olduğunu göstərirdi və zəmanəsinin görkəmli dövlət xadimləri onu məhz bu cür şəxsiyyət saydıqlarını qətiyyən gizlətmir, belə bir insanla çiyindaşlıq etməkdən qürur duyurdular. Hökumətin başında durduğu zaman etibarı ilə əslində çox qısa, görülən işlərin həcminə görəsə həsəd və heyrət doğuran müddətdə Azərbaycanın daxili və xarici siyasət məsələləri ilə bağlı problemləri necə həll olunmuşdu?

F.Xoyski 1918-ci il dekabr ayının 7-də Azərbaycan parlametinin açılışında söylədiyi nitqində sanki bu suala cavab verib: "Bu günkü gün Azərbaycan üçün boyük, əziz mübarək gündür ki, yuxumuzda görməzdik, əqlimizə gəlməzdi. Bu gün o gündür ki, muxtariyyəti əlinizə aldınız. Hökumət vəkalətilə özümüzü də sizinlə bərabər təbrik edirəm.".[173]

Əlbəttə, yeni dövlət quruculuğu yolunda Azərbaycanın üzləşdiyi bitib-tükənməz çətinliklərin yalnız bunlardan və ölkəni hər an təhdid edən xarici müdaxilə təhlükəsindən ibarət olduğunu düşünmək azı sadəlöhvlük sayılardı. Çünki nəinki ən yaxın xaricdə və ölkə daxilində, hətta yüksək dövlət postu tutan, parlamentdə təmsil olunan siyasətçilər arasında da müstəqil Azərbaycanın açıq və gizli düşmənləri az deyildi. Elə ən çətini də bu qüvvələrin neytrallaşdırılması, lazım gəldiyi

172 "Azərbaycan" qəzeti, 1918-ci il 21 dekabr
173 ARDA, f. 895, s. 1, iş. 1, v. 5-10.

vaxt onların dağıdıcı fəaliyyətlərinin qarşısına sədd çəkilməsi idi. Çoxpartiyalılıq əsasında formalaşdırılmış Azərbaycan Parlamentində erməni firqəsi, "Daşnaksütyun" fraksiyası, "Hümmət" firqəsi kimi məqam düşdükdə açıq-açığına düşmən siyasəti yeritməkdən çəkinməyən, "Sosialist" firqəsi kimi bolşeviklərə meylli olan, "Slavyan-rus cəmiyyəti" firqəsi kimi əslində keçmiş Rusiyanı bərpa etmək mövqeyinidə dayanan siyasi qruplar fəaliyyət göstərirdi. Məhz belə vəziyyətlə bağlı idi ki, Fətəli xan Parlamentin israrlı xahişlərini nəzərə alıb hökumət qurmaq mandatını götürməyə razılıq verdikdən sonra bir neçə gün fasiləsiz danışıqlar aparsa da, firqə rəhbərləri ilə ümumi razılığa gələ bilməmişdi.

"Azərbaycan" qəzeti müxbirinin F.X.Xoyski ilə yeni kabinet quruculuğu barədə 1918-ci il dekabr ayının 21-də keçirdiyi söhbət tarixi həqiqətlərin üzə çıxıralması baxımdan xüsusi maraq kəsb edir. Bunu nəzərə alaraq, həmin müsahibəni cüzi ixtisarla oxuculara çatdırırıq.

- "Biz ağır dövr yaşayırıq. Qarşıda yeni həyat formaları yaratmaq kimi nəhəng işlər durur və bunun üçün bəzən partiya mənsubiyyətindən, bu və ya digər millətin nümaynədəsi olmasından asılı olmayaraq respublikanın bütün qüvvələrini səfərbər etmək lazımdır. Mən bu niyyətlərlə mümkün namizədlərlə danışıqlara başlamışam. Danışıqlar iki gündür davam edir və mən belə bir kədərli faktı deməyə məcburam ki, parlamentin mənim üzərimə qoyduğu vəzifəni yerinə yetirəcəyimə ümid çox azdır. Mən kabinet yaratmaqdan imtina edəcəyəm.

- İcazə verin öyrənək, hansı səbəblərə görə?

- Səbəblər çoxdur, ən başlıcası, maraqların və tələblərin son dərəcədə ziddiyyətli olmasıdır ki, mən bunları razılaşdırmağın mümkün olacağını görmürəm.

- Milli, yaxud partiya xarakterli tələblər və maraqlar?

- Daha çox şəxsi.

- Danışıqların nəticələri nə vaxt aydınlaşa bilər?

- Bu gün, yaxud sabah. Ancaq təkrar edirəm, mən danışıqların nəticələrinə hədsiz pessimistcəsinə yanaşıram.

- Onda çıxılmaz vəziyyət yaranır. Əgər Siz, parlament fraksiyalarının etimadını qazanmış şəxs bu vəzifənin öhdəsindən gələ bilmirsinizsə, bunu başqası heç bacarmaz.

- Nəyə görə, bəlkə başqası bacaracaqdır. Hər bir siyasi xadimin öz prinsipləri və öz dünyagörüşü var. Mənim dünyagörüşüm kabinet yaratmaqda qarşılaşdığım ziddiyətləri razılaşdırmağa imkan vermir, ancaq ola bilər ki, başqası kəskin ucları yumşaldar və barışıq xəttini tapar. Mən bütün son gücümü toplamağa və vətənin rifahı naminə verməyə hazır olduğumu demişəm, ancaq elə hədlər var ki, mən heç vaxt adlayıb keçə bilmərəm".[174]

- Yeni kabinetin formalaşdırılması ilə bağlı belə çıxılmaz vəziyyətin yarandığını görən bir sıra fırqə sədrlərinin hansı qərara gəldikləri barədə "Azərbaycan" qəzetinin 1918-ci il, 24 dekabr sayında aşağıdakı məlumat dərc olunub: "Dünən parlament firqələri sədrlərinin kabinet yaradılması ilə əlaqədar məsələnin müzakirəsinə həsr edilmiş yığıncağı keçirilmişdir. Konvent senyorları ölkənin indiki məsuliyətli və böhranlı vəziyyətində kabinetin təşkilində sonrakı ləngimələri qəti arzuedilməz hesab edərək, F.X.Xoyskidən onun qarşısında kimin tərəfindən qaldırılmasından asılı olmayaraq, heç bir maneə və şərtlə hesablaşmadan özünün lazım bildiyi kimi təcili surətdə Nazirlər Şurasının təşkilinə başlamağı israrla xahiş etməyi qərara aldı".

174 "Azərbaycan" qəzeti, 1918, 22 dekabr

İki gün sonra Parlamentin növbəti iclasında çıxış edən F.X.Xoyski yeni kabinetin təşkili və hökumətin proqramı barədə hesabat verir. Hökumətin təqdim olunan bəyannaməsində "Başlıca vəzifə bölməsində deyilirdi: "Bizim birinci və əsas vəzifəmiz ... Azərbaycanın müstəqilliyidir".[175]

Təsadüfi deyildi ki, Azərbaycanda koalisiyalı hökumətin təşkili respublikadakı xarici missiyalar, xüsusilə müttəfiq dövlətlərin nümayəndəsi General Tomson tərəfindən də yüksək qiymətləndirilmişdi. Tomson 28 dekabr bəyannaməsində deyirdi: "F.X.Xoyskinin sədrliyi altında koalisiyalı Azərbaycan hökumətinin təşkil edilməsi ilə əlaqədar müttəfiq komandanlıq bu hökumətə Azərbaycan hüdudlarında yeganə yerli qanuni hakimiyyət kimi hərtərəfli köməklik göstərəcəkdir".

Bu bəyannamə müstəqil Azərbaycanın yaşaması üçün ən zəruri beynəlxalq təminatlardan biri kimi xüsusi əhəmiyyət daşıyırdı və ona elə həmin gün dərhal reaksiya verilməsi dövlət adamlarımızın işə münasibətini əyani surətdə göstərir.[176]

Bəyannamənin hökumət və siyasi dairələrdə belə ruh yüksəkliyi doğurması, böyük ümidlər yaratmasının səbəbləri sırasında sözsüz ki, təqribən 40 gün əvvəl eyni şəxsin verdiyi başqa bir qərarın da az rolu olmamışdı. Belə ki, 1918-ci il noyabr ayının 17-də Bakıda hərbi vəziyyət tətbiq olunması barədə məcburi qərar verən general-mayor Tomson özünü hərbi vəziyyətin davam edəcəyi vaxta qədər Bakının hərbi qubernatoru, polkovnik F.Kokkoreli isə müttəfiq dövlətlərin Bakı şəhərində polis komissarı təyin etmişdi. Əslində Azərbaycan hökumətinin bir sıra səlahiyyətlərini məhdudlaşdıran bu qərarın verilməsinin səhəri günü Bakı şəhərinə dünya müharibəsindən qalib kimi dönən ingilis-

175 "Azərbaycan" qəzeti, 1918, 29 dekabr
176 МИА АН Азербайджана, Научный архив, инвент. № 2143

fransız-amerikan dövlətlərini təmsil edən qoşunlar daxil olmuş, əhali arasında müəyyən narahatlıq yaranmışdı. Bunu nəzərə alan Fətəli Xan Xoyski və daxili işlər naziri Behbud Ağa Cavanşir Azərbaycan hökuməti adından şəhər əhalisinə müraciət edərək, onları sakitliyə, qayda-qanunu gözləməyə çağırmışdılar. Həmin hadisələrlə bağlı "Azərbaycan" qəzetinin 18 noyabr 1918-ci il sayında belə bir məlumat dərc olunmuşdur: "Bazar günü, noyabrın 17-də gündüz saat 1-də Bakıya general Tomsonun başçılığı ilə müttəfiq qoşunları daxil olmuşdur. Generalı təmsil etdiyi dövlətlərin qoşunlarının Bakıya, Azərbaycanın paytaxtına daxil olması münasibətilə Azərbaycan hökuməti adından xarici işlər naziri səlahiyyətlərini müvəqqəti icra edən Adil xan Ziyadxanov salamlayaraq demişdir: "Qanla bir-birindən aralanmış, əldən düşmüş və tükənmiş insanlıq üçün dinc əməkdaşlıq zəminində danışıqlar üçün yeni və işıqlı era başlanır".

Əslində isə türklərin Azərbaycandan getməsindən, general Tomsonun başçılığı ilə müttəfiq qoşunları qüvvələrinin Ənzəlidən Bakıya gəlməsindən, eyni zamanda, rus generalı Biçeraxovun ruslar və ermənilərdən ibarət qüvvəsinin də Bakı limanına çıxarılmasından Azərbaycan hökuməti ciddi narahıtlıq keçirirdi. Ayrı-ayrı qüvvələrin yaydıqları müxtəlif məzmunlu bəyannamələrin xalqı çaşdırdığı bir vəziyyətdə hamı hökumətin nə qərar verəcəyini gözləyirdi.

N.Şeyxzamanlı yazır: "Belə bir vəziyyətdə Azərbaycan dövlət rəisi mərhum Fətəli xan general Tomson ilə görüşür. Onların söhbətləri çox mübahisəli və sərt olur. General Tomson Azərbaycan Cümhuriyyətini tanımadığını, müttəfiq olan rusların torpağına gəldiyini söyləyir. Fətəli Xan isə Azərbaycan xalqının qərarı və istəyi ilə Azərbaycan Cümhuriyyətinin və istiqlalının elan edildiyini və bunun bütün dünya dövlətlərinə

bildirildiyini söyləyir. Fətəli Xan sözlərinə davam edərək deyir: "Siz böyük bir millət və böyük bir imperiyasınız. Eyni zamanda, mədəni bir millətsiniz. Bizim istiqlalımızı tanımalısınız", deyir.

Genral Tomson cavabında deyir: "Bu söylədiklərniz siyasi məsələlərdir. İki dövlət arasında ola bilər. Halbuki mən bir əsgərəm". Fətəli xan da: "Madam ki, siz əsgərsiniz, mən də istiqlalını elan etmiş Azərbaycan Cümhuriyyətinin Baş Naziriyəm. Biz sizi bura dəvət etmədik. Sizdən vətənimizi tərk etmənizi tələb edirəm", deyir. Bu cavab qarşısında general Tomson tərcüməçiyə dönərək deyir: "Baş Nazir həzrətlərinə söyləyin ki, hər hansı bir hərbi qüvvəni çıxartmaq üçün hərbi qüvvəyə sahib olmaq lazımdır. Eşitdiyimə görə qurduğunuz Cümhuriyyətinin ordusu yaranmamışdır". Fətəli xan tərcüməçiyə: "General həzrətlərinə söyləyin ki, o yalnız hərbi biliyə malikdir. Ya xalq qüvvələrinin nə olduğunu bilmir və ya hər xalqı Hindistan xalqı kimi zənn edir. Biz Azərbaycan türkləri istiqlalımızı elan etməzdən əvvəl 100 minə yaxın rus əsgərini qüvvələrimiz ilə darmadağın edib sərhədlərimizdən çıxartdıq. Əgər inad edərlərsə, bir ovuc ingilis əsgərini dənizə tökmək xalqımızın qüvvələriylə bir neçə saatlıq işdir. Ancaq, biz nə onlardan pislik görmək, nə də onlara pislik etmək istəyirik" cavabını vermişdi. [177]

Fətəli xan Azərbaycanda ayrı-ayrı hökumət qurumlarının yaradılmasında, xüsusilə ölkənin müdafiəsi, daxili sabitliyin qorunması və xarici siyasət məsələləri ilə bağlı sahələrin inkişaf etdirilməsində xüsusi xidmətlər göstərmişdir. Bu baxımdan belə bir fakt mühüm əhəmiyyət kəsb edir ki, Fətəli xan 1-ci hökumət kabinəsində eyni zamanda, daxili işlər, ikinci

177 Nağı Şeyxzamanlının Xatirələri Bakı, "Qartal" nəşriyyatı, 1997, s. 165-166

kabinədə ədliyyə və müəyyən dövrdə həm də müdafiə, üçüncü kabinədə isə xarici işlər naziri kimi çox vacib sahələrə rəhbərlik etmişdir. Hökumət başçısı kimi onsuz da kifayət qədər işi olan bu insanın həmin postları da tutmasının vəzifə aludəçiliyi ilə heç bir bağlılığı yox idi və yuxarıda göstərilənlər bunu aydın sübuta yetirir. Görünür həmin vəzifələrin kabinet sədrinə həvalə olunması hər şeydən əvvəl ölkə həyatının daxili tələbatından, bu sahələrin müstəqilliyin qorunması və möhkəmləndirilməsində həqiqətən də, daha mühüm sayılmasından irəli gəlirdi. Çünki Azərbaycanın 4-cü hökumətinə başçılıq etmiş Nəsib bəy Yusifbəyli də eyni zamanda, daxili işlər naziri vəzifəsini icra etmişdir. Azərbaycanın üç hökumətində Nazirlər Şurasının sədri olmuş Fətəli xan Xoyski 24 dekabr 1919-cu ildən 1 aprel 1920-ci ilə qədər fəaliyyət göstərmiş 5-ci hökumətdə isə xarici işlər naziri postunu tutmuşdur.

Fətəli xanın necə uzaqgörən siyasətçi və dövlət xadimi olduğunu onun müasirlərindən biri, Azərbaycanın müxtəlif hökumətlərində üç dəfə nazir postu tutmuş M.Hacınskinin 29 dekabr 1930-cu ildə istintaqa verdiyi ifadə bir daha təsdiq edir: "Mən burada Bakıda 1919-cu ilin sonlarında mənimlə İrandan Londona göndərilmiş nümayəndə Mirzə Rza Xanla aramızdakı bir söhbəti də gətirmək istəyirəm. O, Londondan Tehrana gəlmişdi. Hökumət üzvlərinə danışmışdı ki, İngiltərənin Yaxın Şərqdə Türkiyə ilə yanaşı böyük bir müsəlman dövləti yaratmaq planı var. Belə bir dövlətin İran olacağı güman edilir. Nəzərdə tutulur ki, Azərbaycanın arzuladığı formaya uyğun şəkildə Türküstan, Əfqanıstan və Azərbaycan birləşsinlər. O vaxtkı xarici işlər naziri Xoyski ona diplomatik bir cavab vermişdi ki, bu barədə fikirləşmək lazımdır, ancaq sonra hökumət dairələrində biz başa düşdük ki, bu Bakını tutmaq üçün manevr imiş. Bu cavab təəssüf hissi ilə qarşılanmadı".

Yeri gəlmişkən, bir fakta aydınlıq gətirmək istərdik. Fətəli Xan haqqında yazan müəlliflərin əksəriyyəti (bizim tanış olmadığımız materiallar da ola bilər - L.Ş.) onun çox az bir müddətdə Azərbaycanın hərbi naziri olduğunu qeyd etməyiblər. Bu faktın ən sadə təsdiqi isə Nazirlər Şurasının 7 noyabr 1918-ci il tarixli qərarıdır: "Nazirlər Şurası Azərbaycan Respublikasında hərbi nazirlik yaratmağı qərar almışdır; hərbi nazir vəzifəsi Nazirlər Şurasının sədri F.Xoyskiyə həvalə olunmuş, onun müavini isə general Səməd bəy Mehmandarov təyin edilmişdir".

Ümumilikdə isə həm dövrün tələbi, həm də millətin gələcəyini düşündüyü üçün Fətəli Xan gənc respublikanın müdafiə məsələlərini birinci dərəcəli əhəmiyyətə malik məsələlər hesab edir və bu işdə təcrübəli generallarımızın hərtərəfli sərbəst fəaliyyət göstərmələri üçün onlara lazımi şərait yaradılmasına çalışırdı. Hərbi Nazirliyin müvafiq strukturlarının yaradılmasında bu qurumun rəhbərliyinə köməklik göstərilməsi, Gəncədə hərbi məktəbin açılması, yenə müstəqil Azərbaycanın ilk paytaxtı olmuş bu şəhərdə martın 23-də hərbi paradın qəbulunda iştirak və s. onlarla belə faktlar var. Çünki millətini hər cür bəladan qorumağa çalışan bu fədakar insan yaxşı bilirdi ki, güclü ordu qurulmadan Vətənin müstəqilliyini möhkəmləndirmək çətin olacaq.

1918-ci il dekabrın 20-də Azərbaycan Parlamentinin fövqəladə iclası keçirildi. Gündəliyə iki məsələ: Andranikin, onun quldur dəstəsinin Qarabağda törətdiyi vəhşiliklər və erməni-gürcü münaqişəsi ilə bağlı məsələ çıxarılmışdı. İclasda əsas söz sahibi olan Fətəli xan Xoyski çıxış edərək dedi: "... Azərbaycan Respublikasının Bakı əməliyyatı ilə məşğul olmasından istifadə edən Andranik Zəngəzurda vəhşiliklər törətməkdə, bu rayonu müsəlman əhalisindən təmizləməyə

cəhd göstərməkdə davam etdi və bu məqsədlə orada yerləşən müdafiəsiz müsəlman kəndlərinə basqınlar etdi. Sonra Andranik bu əməliyatlarını Zəngəzur qəzasından Şuşa rayonuna keçirdi və onun qızışdırdığı yerli ermənilər Şuşa-Yevlax yolunu kəsdilər və beləliklə Şuşa şəhərinin müsəlman əhalisini olduqca təhlükəli vəziyyətə saldılar. Onda hökumət respublikanın mənafelərini müdafiə etmək, əhalinin həyatını və əmlakını qorumaq məcburiyyətində qalaraq Qarabağa hərbi qüvvələr göndərdi. Qoşunumuz müharibə nəticəsində Andraniki Əsgərandan çıxarıb, tamam Şuşa uyezdindən və Zəngəzur mahalının çox yerindən qovdu. Andranik qaçdı. Bu oktyabr ayında idi. O zaman sakitlik hökmfərma idi. Andranik Gorusda idisə, heç bir fəaliyyətdə bulunmurdu. Noyabrın ortalarında işlər tamamilə dəyişdi və muttəfiqlərin təklifinə görə türk əsgərləri Azərbaycanın hər yerindən çıxıb getdi. Vəziyyət dəyişdi. Noyabrın 25-dən sonra Andranik yenə baş qaldırıb, fəlakətlər çıxarmağa başladı, böyük xətalar əmələ gəldi. Bu xüsusda mənə gələn teleqramlar qəzetlərdə vardı, hamınıza da məlumdur ki, Zəngəzur malahında nə qədər kəndlər dağıldı, yandı, əhaliyə nə qədər böyük zərər və xəsarətlər dəydi, şübhəsiz ki, bu işlərə hökumət laqeyd baxa bilməzdi. Biz öz tərəfimizdən lazım və mümkün olan qədər çalışıb tədbirlər gördük. Onların müqabilinə əsgəri qüvvə göndərilməsi barəsində teleqrafən binagüzarlıq etdik. Eyni zamanda, borc bildim, müttəfiqlər nümayəndəsi general Tomsona məlumat verim. Çünki, o mənə də deyib, qəzetlərdə də xəbər veribdir ki, müttəfiqlərin məqsədi Qafqaziyada sülh və müsalimi dəvam etdirməkdir... O, lazım bildi ki, Qarabağa bir heyət göndərsin ki, onun məktubunu Andranikə yetirsin. Heyət ingilis, müsəlman və erməni nümayəndələrindən ibarət idi. İndiyədək bir nümayəndə heyəti qayıtmayıb və ondan

heç bir xəbər yoxdur. Göründüyü kimi, Qafqaza nümayəndə heyəti göndərmək sistemi həmişə öz məqsədinə nail olmur. Bu Qarabağın müxtəlif hissələrindən erməni quldur dəstələrinin yeni vəhşilikləri barədə bizə daxil olmaqda davam edən teleqramlardan da görünür... General Tomsona lazım gələn məktublar yazılıb, əsgəri qüvvələrimizin silah gücü ilə hərəkət etməsi əmri verilib, bir çox başqa tədbirlər də görülmüş, onların hamısını burada söyləməyə lüzum görmürəm. Andranikin başında olan dəstə çetə və quldur dəstələrindən ibarətdir. Bunların aşkar fikirləri budur ki, Zəngəzur və Şuşa uyezdlərini Azərbaycandan ayırıb. Ermənistana ilhaq etsinlər. Bacardıqları qədər bu yolda işləyirlər. Bunların qarşısına qüvvə göndərdikdə bir müddət sakit olub, yenə fürsət taptıqda öz fikirlərində sabit olub əməllərinə nail olmaqdan ötəri işə başlayırlar. Azərbaycan hökuməti nə keçmişdə, nə də indi ixtilaflı məsələləri silah gücü ilə həll etmək arzusunda olmamışdır. Hərgah belə bir məsələnin həlli üçün silaha sarılmaq lazım gəlmiş isə də, biz özümüz deyil, bizi məcbur etmişlər.

Hökumət tərəfindən ərz edirəm ki, mümkün qədər zərərsiz, qansız, sülh ilə hər məsələnin xitamə yetməsinə çalışmaq, hökumət indi də belə müamilədə bulunacaqdır. Əks surətdə hökumət özü öz gücü ilə, qüvvəsi ilə Azərbaycan Hökumətini hər bir təcavüzdən mühafizə edəcəkdir.[178]

General Tomsonu Qarabağa zirehli maşın göndərməyə məcbur edən də əslində F.Xoyskinin 6 dekabr 1918-ci ildə yazdığı məktub və bu məktuba əlavə olunmuş Qaryagin və Cəbrayıldan aldığı iki teleqram idi. Bu teleqramlarda Zəngəzurda erməni quldur dəstələrinin Andranikin başçılığı altında Azərbaycan kəndlərini amansızlıqla dağıtmalarından, əhalini vəhşicəsinə öldürmələrindən, canını qurtaran bir

178 ". ARDA, f. 895, s. 1, iş. 1, v. 38-48.

qrup əhalinin İrana keçməsindən söhbət gedirdi. Belə bir vəziyyətin Şuşa və Cəbrayıl qəzalarını da gözlədiyi bildirilir və müttəfiqlərin nümayəndəsindən təcili tədbirlər görülməsi xahiş edilirdi.

1918-19-cu illərdə Zəngəzurda, Naxçıvanda və Qarabağda törədilən erməni vəhşiliklərinin qarşısının alınmasında, Andranikin və başqalarının rəhbərliyi altında yerli azərbaycanlı əhaliyə divan tutan quldur dəstələri ilə mübarizə aparılmasında Fətəli xanının çox böyük xidmətləri olmuşdur. O, hökumət başçısı kimi bir tərəfdən diplomatik missiyalar vasitəsilə xarici dövlətlərin diqqətini bu məsələlərə cəlb etmiş, digər tərəfdən, öz niyyətlərindən heç vəchlə əl çəkmək istəməyən ermənilərin ərazimizdən sıxışdırılıb çıxarılması, əhalinin müdafiəsi üçün müvafiq hərbi tədbirlər görülməsinə nail olmuşdur.

Fətəli xanın çoxsahəli fəaliyyəti ilə əlaqədar belə bir faktı xüsusi qeyd etmək istərdim ki, gənc dövlətin gələcəyinin məhz yüksək ixtisaslı kadrlar yetişdirilməsindən asılı olduğunu gözəl bildiyi üçün o, Azərbaycanda ali təhsil ocaqlarının təşkil edilməsinin ilk təşəbbüskarlarından olmuşdur. Dövrünün aparıcı elmi mərkəzlərindən sayılan Moskva Universitetini bitirən bu yüksək intellektli insan ildə yüz, iki yüz gənci xarici dövlətlərdə ali təhsil almaq üçün göndərməklə respublikanın hərtərəfli ixtisaslaşmış mütəxəssislərə olan tələbatını ödəməyin mümkün olmayacağmı görürdü və bütün bu məsələləri zamanında həll etməyi yeganə çıxış yolu hesab edirdi. Professor V.İ.Razumovskinin 1922-ci ildə çap etdirdiyi "Bakı şəhərində universitetin əsasının qoyulması" adlı məqaləsindən məlum olur ki, Azərbaycan Dövlət Universitetinin yaradılması təşəbbüsü F.Xoyskiyə məxsusdur.

Fətəli Xan Xoyski 1920-ci il iyunun ayının 19-da aprel işğalından sonra köçüb yaşadığı Tiflis şəhərindəki İrəvan meydanında «Daşnaksütun» partiyasının üzvləri, muzdlu qatillər Aram Erkanyan və Misak Qriqoryan tərəfindən arxadan atəş açılaraq öldürüldü. Bu sui-qəsdin icraçıları da, sifarişçiləri də eyni məqsəd güdürdülər, Azərbaycanı ona sahib çıxmağa qadir övladlarından məhrum etmək.

Fətəli Xan Xoyskinin məzarı Tiflisdəki botanika bağının ərazisində yerləşən köhnə müsəlman qəbristanlığındadır. Fətəli xan Xoyskinin qətlə yetirilməsi xəbərini 3 gün sonra açıq məmnunluq hissi duyulan «Sovet hökuməti düşmənlərinin qətli" başlığı ilə dərc edən «Kommunist» qəzeti yazırdı: Tiflisdən gəlmiş yoldaş bildirir ki, şənbə günü, iyunun 19-da axşam saat 9-a yaxın Olqinski küçəsinin başlanğıcında mauzerdən açılan atəşlə Fətəli Xan Xoyski və Nəsib bəy Usubbəyov öldürülmüş, Gürcüstan hökuməti qətldə şübhəli bilinən səkkiz nəfəri saxlamışdır».[179]

Nəsib bəyin bu faciəvi hadisədən xeyli əvvəl öldürüldünü bilə-bilə onun adını məqsədli şəkildə Fətəli xanla bərabər çəkir, sanki bununla bu iki qüdrətli şəxsdən qətllərindən sonra da qisas alırdılar.

Xoyskilər nəslindən onlarla məşhur şəxsiyyətlər, Azərbaycanın iftixarı olan dövlət və ictimai xadimlər, şanlı Vətən generalları çıxıb. Bu şəxsiyyətlər arasında üç nəfər haqqında bir qədər ətraflı bəhs etmək istərdim. Onlardan birincisi Fətəli xanın qardaşı, Cümhuriyyət dövründə Gəncə general-qubernatorunun müavini olmuş general Hüseynqulu xan İskəndər oğlu Xoyskidir. Aprel çevrilişindən sonra Hüseynqulu xan Gəncə xanı Cavad xanın nəslindən Əbülfət xanın qızı olan həyat yoldaşı Şirinbəyim xanımı, qızı

179 «Kommunist» qəzeti, N 42, 1920-ci il 22 iyun

Valiyəni, 6 aylıq nəvəsi Abbası götürüb, kürəkəni, məşhur Gəncə üsyanının başçılarından olan polkovnik Cahangir bəy Kazımbəyovla birlikdə əvvəlcə İrana (C.Kazımbəyov sonra geri qayıtmış və 1920-ci il may ayının sonunda sovet hakimiyyəti əleyhinə üsyanın rəhbərlərindən olmuşdu. Gəncə üsyanında bolşeviklər 9 minə yaxın tələfat vermişdilər. Ancaq təxminən 10 gün davam edən qanlı döyüşlərdə 12 min nəfər şəhid verən milli qüvvələr öz istəklərinə nail ola bilmədilər), İrandan isə Türkiyəyə keçmişlər. Cahangir bəy ailəsi ilə Türkiyədən Polşaya köçərək bir müddət Varşavada, sonra isə 1947-ci ildə köçdüyü İtaliyayada yaşamışdır. Hüseynqulu xan da qısa müddət Polşada qalmışdır. Valiyə xanım İstanbulda doğmalarını ziyarət edib geri dönərkən təyyarə qəzasında həlak olmuşdur.

Hüseynqulu xanın 4 oğlu, iki qızı olub. Hüseynqulu xanın ikinci qızı Sima xan Xoyski əslən Gəncədən olan, Türkiyəyə mühacirət etmiş Hacıbaba Gəncəlinin oğlu Məhmətəli Məhmətzadə ilə ailə həyatı qurub, İstanbulda yaşayıblar. Onun oğlu Kərim Məhmətzadə hazırda İstanbulda yaşayır. Hüseynqulu xanın kiçik oğlu 1910-cu ildə Gəncədə doğulmuş Zahid xan Xoyski Nyu-Yorkda yaşamış və burada vəfat etmişdir. Zahid xanın övladları və nəvələri ABŞ-da yaşayırlar. Nəvələrindən biri ulu babaları, 1819-cu ildə ləğv edilmiş Şəki xanlığının ilk xanı Cəfərqulu xanın adını daşıyır. General Hüseynqulu xan Xoyski 1955-ci ildə İstanbulda vəfat etmişdir. O, ömrünün sonunadək Cümhuriyyət ideyaları ilə yaşamış, özü kimi Vətəndən mühacirət edənlərə arxa, pənah, Azərbaycan davası aparanlara dəstək olmuşdur.

Hüseynqulu xan Xoyskinin oğlu İsgəndər xan Xoyski Cümhuriyyətin qurucularından olan, xarici işlər nazirinin müavini, İranda səfir işləmiş Adil xan Ziyadxanın qızı Mahrux

bəyimlə 1930-cu ildə ailə həyatı qurub. Bu evlilik üçün Mahrux xanım İrandan Türkiyəyə mühacirət edib. İsgəndər xan Azərbaycanda gimnaziya, İstanbulda hüquq fakültəsini bitirmiş və təhsil aldığı niversitetdə işləmişdir. Onun qızı Leyla xan və oğlu İsgəndər xan Xoyskilər hazırda İstanbulda yaşayırlar. Bu ailənin dostları arasında Fransadan Türkiyəyə köçmüş Əlimərdan bəy Topçubaşovun qızı Sara xanım Sultanoğlunun ailəsi də olub.

Fətəli Xanın ikinci qardaşı Rüstəm Xan Xoyski Azərbaycaınn üçüncü hökumətində nazir olub. Rüstəm xan aprel çevrilişindən sonra repressiyaya məruz qalmış, bir müddət həbsdə saxlandıqdan sonra, anası Şəhrəbanı xanım Xoyskinin xahiş ərizəsi ilə həbsdən azad edilmişdir.

Haqqında ayrıca söhbət açmaq istədiyimiz üçüncü şəxs Əmir xan Cahangir oğlu Xan Xoyskidir. Əmir xan Fətəli xanın böyük qardaşı Cahangir xanın oğludur. Şəkidə doğulmuşdur. Cümhuriyyət dövründə Bakı qubernatorunun köməkçisi (1-ci müavini), Gəncə qəzasının rəisi, Daxili İşlər Nazirliyinin Qazax qəzasında xüsusi səlahiyyətli nümayəndəsi təyin edilmişdir. 1920-ci ilin aprelində Quba qəzasının qubernatoru olmuşdur. Aprel çevrilişindən sonra Türkiyəyə keçmişdir. Həyat yoldaşı Əfşan xanım Cənubi Azərbaycandakı Maku xanlığının (indiki İran ərazisində xanlıq. Səfəvi hökmranlığı dövründə Çuxursəd bəylərbəyliyinə daxil olan yarımmüstəqil sultanlıqdan ibarət idi. Mərkəzi Maku şəhəri. Xoy, Qaradağ, Naxçıvan, İrəvan xanlıqları və Osmanlı imperiyası ilə həmsərhəd idi. 30 kəndi birləşdirən Maku xanlığını bayat tayfasından olan nəsli hakimlər idarə edirdi) nəslindən olan Cəfər xanın qızı idi. Əmir xanın 12 yaşlı qızı Bəyim, 10 yaşlı oğlu anasının ölümündən sonra qohumlarının himayəsində yaşayıblar. Onlar soyadlarını

dəyişib Cahangirli soyadı götürməyə məcbur olublar. Əmir xan Xoyski 1966-cı ildə İstanbulda vəfat edib.

Fətəli xanı bolşevik rejimi erməni qatillərin əli ilə aradan götürdü. Əslində qanlı rejim üçün özünə düşmən hesab etdiyi bir şəxsiyyətin hansı formada, kimlərin vasitəsilə öldürülməsinin fərqi yox idi. Müstəqil dövləti zorla devirmiş bir hakimiyyət üçün Fətəli Xan da, onun çiyin yoldaşları da düşmən idilər və onlara qarşı bolşeviklərin tətbiq etdiyi bütün aksiyaların əsl həqiqətdə bir adı vardı - repressiya. Bu amansız vasitə ilə həmin insanları həbsxana güncündə divara dayayıb giillələyə də, F.Xoyski kimi erməni qatilləri tərəfindən arxadan vuraraq öldürə də bilərdilər. Ancaq mahiyyət dəyişmirdi və sovet rejiminin mövcud olduğu bütün illər ərzində də bu mahiyyət dəyişməz olaraq qaldı. Azərbaycanın dövlət və ictimai xadimlərinin həyatı bahasına başa gəlmiş terror və kütləvi repressiyalar dalğası 30-cu illərdə daha da yüksəldi və yeni-yeni çalarlar qazandı. 40-50-ci illərdə və sonrakı dövrlərdə isə əslində mahiyyəti dəyişilməz qalan bu siyasətin üsul və vasitələrində dekorativ fərqlər meydana çıxdı. Sovet cəza orqanları mənəvi terrorun ən geniş miqyaslarda tətbiqinə nail olmaqla, bütün cəmiyyəti ümumi nəzarət altında saxlamağa, azad düşüncəni, sağlam fikri buxovlamağa çalışdılar. Onlara bu işdə yardımçı olan milli təfəkkürdən məhrum manqurtlar nəsli Fətəli Xan kimi millət fədailərini xalqa birdəfəlik unutdurmaq, onun müstəqil yaşamaq qüdrətinə malik olmadığını təlqin etmək istəyirdilər və elə bu məqsədlə də ilk repressiya tədbirləri F.Xoyskinin, N.Yusifbəylinin başçılıq etdikləri hökumət kabinetlərinin, Azərbaycan Parlamentinin üzvlərinə qarşı tətbiq olunmuşdu.

Bolşevik təcavüzü 27 aprel 1920-ci ildə Azərbaycanın 5-ci hökumətini devirdi və bununla da qədim bir diyarda

kütləvi qanlar axıdılmasma, insanlar qarışıq milli sayılan hər şeyin məhv edilməsinə başlandı. Azərbaycanın 6-cı milli hökumətinin qurulmasının qarşısı həmin təcavüzlə alındı. Bu hökumətin təşkili həvalə edilmiş M.Hacınski bolşeviklərin onda təmsil olunmasından imtina etmələri səbəbindən tapşırılan işin öhdəsindən gələ bilmədi. 6-cı milli hökumətin əvəzinə Azərbaycanda bolşeviklər hakimiyyətə gəldilər. Xislətlərində həqiqətən də şeytana xas xüsusiyyətlər gəzdirən bolşeviklərin 6-cı hökuməti şərti mənada əvəz etmələri bəlkə də qanunauyğunluq idi. Onlar sonrakı bütün fəaliyyətləri ərzində mifik şeytanın yer üzərində ardıcılları olduqlarını sübuta yetirdilər. Şeytan, Cavidin təbirincə desək İblis bolşevik qiyafəsində Azərbaycanda 27 aprel çevrilişini həyata keçirdi və zorakılıq, şantaj, xəyanətlə ələ aldığı hakimiyyətdən istifadə edərək Azərbaycanda bütün zamanların ən qanlı cinayətlərini törətdi. Şeytan hakimiyyətinin davam etdiyi illər xalqın məhşər günü oldu.

Milli tərəqqi yolunun cığırdaşı - Nəsib bəy Yusifbəyli

"Öz dövlətinizin milli bayrağı altında keçmiş olduğunuz bir sənəlik azad və zəhmətli həyatınız Azərbaycanın böylə tarixi bir günü olduğunu Sizə sözdən artıq izah edir. Siz çarizmin ən ağır tarixini keçirmişsiniz. O, sizin ən gözəl həyatınızı, mədəniyyət və müqəddəs əməllərinizi ayaqları altında tapdamış və məhv etmək istəmişdir. Biz hər bir hüquqdan və mədəni tərəqqiyatdan və ən ibtidai siyasətdən belə məhrum olmuşuq. Bizim gözəl arzularımız qəti surətdə əzilir və ayaqlar altına alınırdı. Sizin nəzərlərinizdən bolşevik hərc-mərcliyi, onun o mənhus dövrü keçmişdir... Bu bir il sənə ərz müddətində biz yorulmadan işlədik və bu işlədiyimiz ilə dövlətimizi möhkəmləndirərək, cəmaətimizin aşağı sinfinə milli dövlət təşkili hissini düşündürdük və göstərdik ki, cəmaət və millət məbuslarının getdikləri yolu doğru və xalqın azad fikir və məsləkidir... Azərbaycanın vətəndaşları! Təhlükə və təhdid hələ dəf olunmamışdır. Bizim üzərimizə qara buludlar gəlməkdədir. Bizim daxildəki hərəkatımız, nizam və asayişimiz təmin edilər isə istiqlaliyyətimizi təhdid edən qüvvələrə yol verməz və rahat və azad yaşamağa malik olarız".

Bu sətirlər Nəsib bəy Yusifbəylinin 1919-cu il may ayının 28-də hökumət adından Azərbaycan vətəndaşlarına müraciətindən götürülmüşdür. Nəsib bəy həmin müraciətlə xalqın ən əziz bayramını təbrik edəndə artıq iki aya yaxın idi ki, müstəqil Azərbaycanın 4-cü hökumət kabinəsinin sədri

idi. Onun kimi millət fədailərinin işıqlı zəkasına, tükənməz enerjisinə və dəyanətinə dayaqlanan qədim məmləkət tarixinin ən şərəfli dövrlərindən birini yaşamaqda, bir il əvvəl qazanılmış müstəqilliyini qoruyub saxlamaq naminə oğullarının göstərdikləri fədakarlıqlara şahid olmaqda idi.

38 yaşlı Nəsib bəy Fətəli Xan Xoyski kimi bir şəxsiyyətdən sonra ikinci dövlət xadimi idi ki, belə yüksək etimad göstərilmişdi. Əlbəttə, onun bu mühüm dövlət postunu tutması təsadüfi deyildi və Nəsib bəyin keçdiyi həyat yolu ona belə yüksək etimad göstərilməsi üçün ən yaxşı zəmanət idi. Əvvəla qeyd edək ki, artıq 17 ildən bəri ölkənin siyasi səhnəsindən düşməyən bu insanın əhali arasında kifayət qədər hörməti vardı. Eyni zamanda, o, müxtəlif zümrələri və qüvvələri təmsil edən Azərbaycan parlamentində çox böyük nüfuz sahibi sayılırdı. Xüsusilə bu ali orqanda Azərbaycanın nicatı yolunda çalışan vətənpərvərlər onu özlərinin inandıqları liderlərdən biri hesab edir, Nəsib bəyin milli ideyalara sədaqətinə, qətiyyətinə, idarəçilik təcrübəsinə (artıq həmin dövrə qədər N.Yusifbəyli müstəqil Zaqafqaziya Respublikası hökumətində tutduğu maarif naziri vəzifəsi də daxil olmaqla dörd dəfə nazir portfeli daşımışdı) və yüksək intellektinə bel bağlayırdılar. Sözgəlişi sadalanmayan bu keyfiyyətlərə həqiqətən də geniş dünyagörüşə və erudisiyaya, möhkəm xarakterə malik olmasını da əlavə etsək son dərəcə mürəkkəb bir durumda Azərbaycanda idarəçiliyin niyə məhz ona həvalə edildiyinə bir daha aydınlıq gətirmiş olarıq.

Barəsində bir qədər geniş məlumatlar çatdırmaqla qeyd edək ki, Nəsib bəy Yusif oğlu Yusifbəyli 1881-ci ildə Gəncədə anadan olmuşdur. Onun atası şəhərin maarifpərvər ziyalılarından idi. Orta təhsilini Gəncə klassik gimnaziyasında başa çatdırdıqdan sonra Nəsib bəy Yusifbəyli 1902-ci ildə

Odessa universitetinin hüquq fakültəsinə daxil olmuş, birinci rus inqilabı ərəfəsində siyasi fəaliyyətə başlamışdır. O, universitetdə azərbaycanlı tələbələr tərəfindən yaradılan Azərbaycan "Həmyerlilər" təşkilatının başçılarından biri idi. Yoxsulluq ucbatından Nəsib bəy Yusifbəyli ali məktəbi dördüncü kursdan atmışdır. Çar hökumət orqanlarının təqiblərindən yaxa qurtarmaq üçün Nəsib bəy Yusifbəyli Krımın Bağçasaray şəhərinə köçmüş və bir müddət orada yaşamış, görkəmli siyasi və ictimai xadim İsmayıl bəy Qaspıralının (1852-1914) redaktor olduğu "Tərcüman" qəzetində məqalələrlə çıxış etməyə başlamışdır. O, İsmayıl bəyin qızı Şəfiqə Sultan xanım Qaspırlı (1886-1975) ilə ailə həyatı qurmuşdur. Nəsib bəy Yusifbəyli həmin illərdə Azərbaycan dramaturqlarının əsərlərini Baxçasarayda tamaşaya qoymuş, özü də əsas rollarda çıxış etmişdir. "Tərcüman" qəzetinin 1907-ci il 13 yanvar tarixli sayında Bağçasaray teatr həvəskarları tərəfindən Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" faciəsinin tamaşaya qoyulduğu, Nəcəf bəy rolunu Nəsib bəyin oynadığı xəbər verilir. Həmin qəzetin materialından aydın olur ki, Nəsib bəy Yusifbəyli o illərdə görkəmli Azərbaycan ədəbiyyatşünası F.Köçərlinin "Azərbaycan ədəbiyyatı" və Hüseyn Əfəndi Qayıbovun (1837-1917) "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" adlı əsərlərinin Bağçasarayda çap olunması üçün çox çalışmışdır. Belə bir faktı da qeyd edək ki, Nəsib bəy Yusifbəyli XX əsr Azərbaycan-Krım ədəbi-mədəni əlaqələrinin əsasını qoyan şəxsiyyətlərdən biridir.

Bundan sonra bir müddət İstanbulda yaşayan Nəsib bəy (1908-ci il) "Türk dərnəyi" adlı cəmiyyətin banilərindən biri olmuşdur. Həmin illərdə Türkiyə mühitindəki "türkçülük" məfhumu altında ötən əsrin sonlarından başlayaraq təşəkkül tapmış milli oyanış və dirçəliş təmayülləri geniş tərəfdarlar

toplamaqda, çağdaş ideyaların milli təfəkkür süzgəcindən keçirilərək həyata tətbiqi yolları araşdırılmaqdaydı. Türkçülüyün təməl daşlarını qoyanların zəngin mənəvi irsinə dayanaraq, onu elmi-nəzəri baxımdan sistemləşdirən və milli özünüdərk səviyyəsinə yüksəldən Əli bəy Hüseynzadə, İsmayıl bəy Qaspıralı, Ziya Göyalp, Əhməd bəy Ağayev kimi şəxsiyyətlər Nəsib bəyin də dünyagörüşünün hərtərəfli formalaşmasına böyük təsir göstərmişdilər. Qısa bir müddət ərzində burada yaşamasına baxmayaraq, Avropaya daha yaxın olan Türkiyə mühiti, ölkənin sözün həqiqi mənasında, qaynayıb-daşan siyasi həyatı onun gələcək dövlət adamı kimi yetişməsində əvəzsiz rol oynamışdı. Nəsib bəyi milli tərəqqi yolunun bayraqdarları sırasına çıxaracaq fəaliyyətinin düzgün istiqamətləndirilməsində həm də o dövrdə qazandığı təcrübənin rolu və köməyi olmuşdu.

Bu qısa qeydlərdən göründüyü kimi Nəsib bəy siyasi mübarizəyə ilk gənclik illərindən etibarən qoşulmuş, müxtəlif təşkilatların yaradılmasında və fəaliyyətində yaxından iştirakına görə imperiya orqanlarının nəzarət dairəsinə düşmüşdür. Hələ kifayət qədər formalaşmamış siyasi baxışlarını sonralar Rusiyada və dünyada baş verən proseslərin təcrübəsini öyrənmək və onların təsiri alında təkmilləşdirməklə gənc Nəsib bəy yetkin bir siyasətçiyə çevriləcək, Azərbaycan milli mücadiləsinin məqsəd və məramını düzgün müəyyənləşdirən ilk ziyalılar nəslinə mənsub olanların ön cərgəsində duracaqdı. Hələlik isə o, çar üsul-idarəsinin təzyiq və təqiblərini "dadamaqda", iqtisadi çətinliklər məngənəsində ola-ola Vətəninin işıqlı gələcəyi barəsində düşünərək qızğın siyasi mübarizə aparmaqda idi.

Nəsib bəy Yusifbəyli 1909-cu ildə İstanbuldan, ona bütün çalarları ilə yaxın və tanış olan doğma Gəncəyə qayıtmışdır.

Həmin vaxtdan etibarən dövrünün aparıcı çağdaş ideyalarına bələdliyi, güclü dövlətlərin yeritdikləri siyasətdən və gizli məqsədlərindən baş çıxarması onun mətbu çıxışlarında və siyasi baxışlarında öz əksini daha dolğun şəkildə tapmağa başlamışdı. Nəsib bəy Rusiya xalqlarının müstəbid rejimə qarşı birgə siyasi mübarizəsinin tez-gec başqa ideyalar, o cümlədən milli azadlıq uğrunda mübarizəyə çevriləcəyini ilk sezən və bu barədə düşünən ziyalılardan biri kimi müxtəlif cəmiyyət və təşkilatların imkanlarından maksimum istifadə ilə gələcək çiyindaşlarını müəyyənləşdirməyə çalışırdı. Onunla bərabər ümumən dünyada gedən proseslərdən xəbərdar olan qabaqcıl Azərbaycan ziyalılarının bir çoxu sinfi mübarizə xəttinin tədricən milli mübarizə xəttinə gətirilməsi yolunda fəaliyyətlərini genişləndirməyə, öz ətraflarına tərfdarlar və ardıcıllar toplamağa səy göstərirdilər.

"Azərbaycan Cümhuriyyəti: sənədlər və materiallar 1918-1920-ci illər" məcmuəsində Nəsib bəy Yusifbəylinin avtobioqrafiyası ilə bağlı ən qısa qeydlərdən də aydın olur ki, o, bir müddət Krımda və Türkiyədə yaşamışdır: "Nəsib bəy Yusifbəyli (1881- 1920) AR-in dövlət xadimi, maarifçi, siyasi xadim. Novorossiysk Universitetinin hüquq fakültəsində oxuyub (1902). Azərbaycanın və Krımın mədəni həyatında fəal iştirak edib. 1908-ci ildə İstanbulda "Türk dərnəyi"nin fəal üzvlərindən olub. Türkiydən qayıtdıqdan sonra (1909) xeyriyyə cəmiyyətlərinin, mədəni-maarif tədbirlərinin fəal təşəbbüskarı və iştirakçısı. 1917-ci ildə "Türk ədəmi-mərkəziyyət partiyası"nın təsisçilərindən biri (1917-ci ildə "Müsavat"la birləşib) olub. 1918-ci ilin mayından təhsil naziri. 1919-cu ilin aprelindən 1920-ci ilin martına qədər AR Nazirlər Şurasının sədri. 1920-ci il mayında Kürdəmir qəzasında quldurlar tərəfindən öldürülüb".

Nəsib bəy eyni zamanda, publisistika ilə məşğul olmaqda, bir çox fikirlərini açıqlamaq üçün bu vasitədən məharətlə istifadə etməkdə idi. Nəsib bəy Yusifbəyli gah "Molla Nəsrəddin" satirik jurnalını müdafiə edən ziyalıların cərgəsinə qoşulur və ziyalıları milli oyanış yolunda böyük xidmətləri olan bu jurnalı haqsız hücumlardan qorumağa çağırır (1909-cu il sentyabr ayının 4-də "Tərcüman" qəzetində (№36) çıxan "Mətbuat" məqaləsində Rusiyada çıxan müsəlman satirik jurnallarından bəhs olunur və "Molla Nəsrəddin"ə xüsusi qiymət verilir. Həmin qəzetin 40-cı sayında 9 sentyabr 1909-cu ildə tatar jurnalı "Yulduz"un redaktoru ilə söhbət edən Nəsib bəy Yusifbəyli "Molla Nəsrəddin"ə hücumların haqsız olduğunu bildirirdi). Gah M.F.Axundovun 100 illiyinə hazırlıqla əlaqədar məqalə yazır, müxtəlif dairələrdə çıxışlar edir, keçirilən bir çox tədbirlərin təşəbbüskarlarından olurdu (Mirzə Fətəlinin gözlənilən yubileyi ilə bağlı 1911-ci il may ayının 20-də "Tərcüman" qəzetində məqalə dərc etdirmişdir). Gah da o illərdə Gəncədə yaradılmış "Müsəlman xeyriyyə cəmiyyəti", "Müsəlmanlar içində maarif cəmiyyəti" və "Aktyorlar cəmiyyəti" kimi ictimai təşkilatların fəaliyyətində yaxından iştirak edirdi. Bütün bunlarla da kifayətlənməyən Nəsib bəy Yusifbəyli "Azərbaycan ədəbiyyat tarixi" adlı əsərinin ayrı-ayrı fəsillərinin yazılması ilə məşğul olmağa da vaxt tapırdı. Bəzi məlumatlara görə o, adını çəkdiyimiz əsəri məhz həmin illərdə yazıb başa çatdırmışdır. Ancaq təəssüf ki, Nəsib bəyin çox böyük zəhmətinin nəticəsi olan bu qiymətli əsərin sonrakı taleyi bilinmir.

Qeyd etdiyimiz kimi, Nəsib bəy Yusifbəylinin siyasi fəaliyyətinin başlanğıcı tələbəlik illərinə düşmüşdür. O, tələbə ikən Nəriman Nərimanov, Xosrov bəy Sultanov, Şahmalıyev qardaşları və Azərbaycanın siyasi həyatında sonralar mühüm

rol oynayacaq başqa şəxslərlə yanaşı "Həmyerlilər" təşkilatının üzvü olmuşdur. Yarandığı vaxt yalnız mədəni-maarifçilik məqsədləri güdəcəyini bildirən bu təşkilat əvvəl həqiqətən də bu işlərlə məşğul olur, ancaq bir qədər sonra onun istiqaməti tamamilə fərqlənməyə başlayır. "Həmyerlilər" universitetdə mövcud olan başqa siyasi təmayüllü təşkilatlar arasında ən fəallarından biri kimi böyük şöhrət qazınmış və xeyli tərəfdarlar toplaya bilmişdi. Tələbələrin getdikcə genişlənən inqilabi mübarizəsindən qorxuya düşən çar hökumətinin 1907-ci ildə müvəqqəti olaraq Odessa universitetini bağlanmasında sözsüz ki, Azərbaycan "Həmyerlilər" təşkilatının da rolu olmuşdu. Tələbəlik həyatının başqa bir nəticəsi isə Nəsib bəyin Cənubi Qafqazda o dövrdə yetişmiş böyük bir inqilabçılar nəsli ilə tanışlığı, onların bir çoxu ilə yaxın əlaqələr yaratması idi. Öz millətlərinin həyatında bu və ya başqa şəkildə iştirak edəcək həmin şəxsiyyətləri onda ümumi bir ideya - çarizm üsul-idarəsinin aradan qaldırılması birləşdirirdi. Sonra isə yollar ayrılacaqdı. Necə ki, Nəsib bəylə Nəriman Nərimanovun və başqalarının yolu ayrıldı, hətta bəzi hallarda çarpazlaşaraq, düşmənçilik həddinə çatdı.

Geniş maarifçilik fəaliyyətinə baxmayaraq, onu daha çox siyasi mübarizə cəlb edirdi. O, yaxşı görürdü ki, müxtəlif siyasi cərəyan və təşkilatların çoxluğu şəraitində Azərbaycanın milli azadlığı uğrunda sonadək mübarizə aparmaq məqsədinə xidmət göstərmək amalında olanlar son dərəcə azdır. Konkret milli ideyalar ümumi mübarizə şüarları arasında əriyib itir, bundan istifadə edən çar haikmiyyəti də əsasən sosial məsələlərdə güzəştə getməklə xalqları başlıca məqsədlərindən yayındırmağa çalışır. Belə yanaşma velikorus şovinizminin yeni formada dirçəldilməsi, milli azlıqların öz müqəddaratını təyin etməsi, özünün siyasi və ərazi idarəetmə formasına nail

olması kimi hüquqların tapdalanması, xalqlar həbsxanasının saxlanması deməkdi. 1917-ci ilin fevral-burjua inqilabı ərəfəsində bu təmayüllər daha açıq-aydın sezilməkdə, əksər qüvvələrin nə uğrunda mübarizə apardıqları, siyasi şüarların arxasında hansı məqsədlərin gizlədildiyi üzə çıxmaqda idi.

Belə bir durumda Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında yaradılmış "Türk ədəmi-mərkəziyyət partiyası" Gəncədə fəaliyyətə başladı. Bu partiya ilk vaxtlar federativ şəkildə qurulacaq Rusiyanın tərkibində Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizə aparırdı. Yeni partiya əhalini öz proqramı ilə tanış etmək üçün şəhərin Şah Abbas məscidinin həyətində böyük mitinq təşkil edir. Bu mitinq "Yaşasın demokratik respublika!", "Yaşasın Azərbaycan muxtariyyəti", "Yaşasın Türk ədəmi-mərkəziyyət partiyası!" kimi tamamilə yeni şüarlar altında keçirilmiş və dünənə qədər çarizmin milli ucqar sayaraq 100 ildən bəri əsarət altında saxladığı bir məmləkətdə onun qurtuluşu naminə çarpışmağa qadir insanların olduğunu göstərmişdi.[180]

Nəsib bəy bu insanların ən ön sırasında dayanmışdı və Gəncə siyasi mühitinin uzun müddət milli ideyaların mərkəzində olmasında onun danılmaz xidmətləri vardır.

Nağı bəy Şeyxzamanlı öz xatirələrində yazırdı: "Gəncəlilər milli mübarizəmizi Milli Komitənin rəhbərliyi alıtında davam etdirməkdə idi. Milli Komitə mübarizəmizi açıq və qapalı görünən məsələlər deyə iki hissəyə ayırmışdı. Açıq məsələləri Ələkbər bəy Rəfibəyli, gizli məsələləri isə Nəsib bəy Yusifbəyli idarə edirdilər". [181]

Yenə də Nağı bəyin xatirələrinə istinadən Milli Komitənin ilk aylarda Azərbaycanda müstəqil dövlət quruculuğu

180 "Baku" qəzeti, №80, 1917-ci il 12 aprel
181 Nağı Şeyxzamanlı.Səh 33

sahəsində oynadığı müstəsna rol barəsində bir məqamı da çatdıraq. 1918-ci ilin iyun ayında Milli Komitənin Gəncədə keçirdiyi toplantıda Nəsib bəy deyir: "Bütün hərəkətmiz zəfərlə nəticələnmişdir. Ancaq bu qəhrəmanca hərakatlar nəticəni əldə etməkdən çox uzaqdır. Bir kərə Azərbaycanın mərkəzi Bakı düşməndən təmizlənməlidir. Çünki başsız bədən olmaz və yaşamaz. Bizim xalq qüvvələrimiz bunun üçün kifayət deyildir. Böyük bir yardıma ehtiyac vardır və bu yardımı da bizə ancaq Osmanlı İmperatorluğu edə bilər. İndi qərar qəbul edib Osmanlı İmperatorluğuna səlahiyyətli bir heyət göndərək. Türkiyədən yardım istəyək". [182]

Çox məhdud sayda üzvlərdən ibarət belə bir nümayəndə heyəti yaradılır və Nağı bəy də ona başçı təyin edilir. Türkiyəyə yola düşmək ərəfəsində Milli Komitə adından Nağı Şeyxzamanlını Osmanlı dövlətinə hərbi qüvvə göndərilməsi xahişi ilə yola salarkən Nəsib bəy ona dedikləri bu dövlət adamının müstəqil Azərbaycanın yaşaması uğrunda necə əzmkarlıqla mübarizə apardığını və bu yolda heç bir halda güzəştə getmədiyini sübuta yetirir. O dövrdə ölkədə yeni qurulmuş hökumətin bütün sahələrdə Türkiyə ilə yaxınlaşmasını az qala ona ilhaq edilməklə eyniləşdirən siyasətçilərdən fərqli olaraq Nəsib bəy Azərbaycanın hər cür mərhumiyyətlərə baxmayaraq, tam müstəqil yaşamasının tərəfdarı idi: "Nağı, sən istiqlal Komitəsinin üzvüsən. Olub-keçənləri Osmanlı dövlətinə anlat və de ki: Millətimiz müstəqil yaşamağı qarşısına məqsəd qoymuşdur və bu yolda hər cür fədakarlığı etmişdir. Azərbaycanın dörddə üçü bu gün rusların hakimiyyətindən qurtarılmış vəziyyətdədir. Onlar zəif yerimiz olan hərbi gücümüzü qüvvətləndirsinlər. Bizə qardaş əli

182 Nağı Şeyxzamanlı.səh 57

uzatsınlar, əlimizdən tutsunlar və istiqlalımızı elan etməmizə köməklik etsinlər. Ancaq, bizi özlərinə ilhaq etmək istəsələr gəlməsinlər. Biz öz düşmənlərimizlə birtəhər hesablaşıb başımıza çarə qılarıq".[183]

Təbii ki, Türkiyə özünün ağır daxili durumuna və Osmanlı imperiyasının sarsılmasından istifadə edən xarici qüvvələrin onu tamamilə məhv etmək planlarına baxmayaraq, çətin gündə Azərbaycandan öz köməyini əsirgəmədi. Nuru paşanın başçılığı altında yola salınmış hərbi gücə (Qafqaz İslam Ordusu) Şərqdə ilk demokratik Cümhuriyyətə hərtərəfli yardım göstərmək tapşırığı verildi. Ümumiyyətlə, tarixin müxtəlif dövrlərində daim öz qanı bir, soyu bir qardaşlarının harayına çatmış türklər növbəti dəfə 1918-1920-ci illərdə Azərbaycanın müstəqil, sivil dövlət qurmasında təmənnasız iştirak etməklə öz missiyalarını layiqincə yerinə yetirmişdilər. Onların yeni Türk Cümhuriyyətlərinin qurulmasında və möhkəmləndirilməsində hər vaxt yardımçı olmağa hazır dayandıqlarını yaxşı bilən Rusiya və sonrakı dövrdə Sovet imperiyası bu dövləti özünün Qafqazda yeritdiyi siyasətə ən başlıca maneə hesab edirdi. Buna görə də, ilk imkan düşən kimi onu aradan qaldırmağa, diz çökdürməyə çalışır və bu yolda istənilən müttəfiqlə işbirliyinə hazır olduqlarını bəzən gizlətməyə də çalışmırdılar. 1945-ci ildə Yaltada 2-9 fevral tarixlərində keçirilən məşhur Krım konfransından sonra Stalin Anastas Mikoyana və Georgi Malenkova ikinci dünya müharibəsində məğlub olmuş Almaniyanın müttəfiqi kimi Türkiyənin müharibədən sonrakı "yenidənqurulması planın hazırlanması" haqqında gizli göstəriş verir. Bu işə xüsusi canfəşanlıqla girişən həmin şəxslərin rəhbərliyi altında qısa müddətdə belə bir plan işlənib hazırlanır. Əksəriyyəti

183 Yenə orada s. 114

milliyətcə erməni, Ermənistan SSR-in vətəndaşları olan kommunistlərdən ibarət rayon və şəhər partiya komitələrinin rəhbər kadrları komplektləşdirilir. Bu kadrlar qırmızı ordu tərəfindən "azad edilmiş Türkiyə Respublikasında türk şəhərlərinin inzibati özəyini təşkil etməli" idilər. Ermənirus planında İstanbulun tutulmasına xüsusi diqqət yetirilirdi. Türkün qatı düşməni olduqlarını əsla gizlətməyənlərin başqa bir arzusu İstanbula öz tarixi adını qaytarıb, onu yenidən Çarqrad adlandırmaq idi. Bu planın yerinə yetirilməsi ilə həm də Bosfordan Dardanelə gəmilərin sərbəst keçməsi üçün yol açılacaqdı. O dövrdə İranda yerləşən sovet qoşunları hissəsi bu "əməliyyat"da sözsüz ki, mühüm rol oynayacaqdı. Ancaq nə yaxşı ki, müttəfiqlərin qəti addımları Sovet imperiyasının bu məkrli planlarının həyata keçməsinin qarşısını aldı. Tale növbəti dəfə türkün bəxtinə güldü və bütün türk dünyasının məhvinə apara biləcək bu niyyətlər düşmənlərin qəlbində gömüldü.

Bir qədər əvvələ qayıdıb qeyd edək ki, fevral-burjua inqilabından sonra yerlərdə milli mübarizə daha da genişlənmiş və Qafqaz xalqları, o cümlədən azərbaycanlılar xüsusi fəallıq göstərməyə başlamışdılar. Həmin ilin aprelində Bakıda çağrılan Qafqaz müsəlmanlarının qurultayındakı çıxışında Nəsib bəy Yusifbəyli Rusiyanın tərkibində Azərbaycana muxtariyyət verilməsini qəti şəkildə tələb etmişdi. May ayında isə o, Moskvada keçirilən Rusiya müsəlmanlarının qurultayının iştirakçısı olmuşdu. Bu qurultaydan sonra M.Ə.Rəsulzadənin başçılıq etdiyi "Müsəlman demokratik müsavat partiyası" ilə Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi "Türk ədəmi-mərkəziyyət partiyası" birləşərək "Müsavat" adını aldı. Partiyanın Gəncə şöbəsinə Nəsib bəy Yusifbəyli rəhbərlik edirdi. Həmin il oktyabrın 26-dan 31-dək Bakıda keçirilən

və siyasi mübarizənin tamamilə yeni mərhələyə qədəm qoyduğunun ilk dəfə bəyan olunduğu "Müsavat" partiyasının birinci qurultayında Nəsib bəy Yusifbəyli yaxından iştirak etmiş və bu qurultayda Azərbaycanın əsas siyasi liderlərindən biri kimi dinlənilmişdir. Belə ki, qurultaydan sonra "Azərbaycana muxtariyyət" şüarı altında hərakat bir qədər də genişlənmiş və tezliklə gələcək müstəqil respublikanın hər yerində ona tərəfdarlar çıxmışdır. Əlbəttə, Azərbaycan uğrunda mübarizəni sonadək aparmaq əzmində olan şəxslər, o cümlədən Nəsib bəy yaxşı bilirdilər ki, bu şüar müvəqqəti bir dövr üçün nəzərdə tutulub və hadisələrin sonrakı inkişaf mərhələsində onlar xalqın neçə on illərlə ürəyində gəzdirdiyi arzusunu açıq şəkildə ifadə edə biləcəklər. Hələlik çarizm üsul-idarəsinin dağıdılmasına baxmayaraq, laxlamış imperiya tam çökməmişdi və onu yeni şəkildə bərpa etməyə can atan müxtəlif qüvvələr manevr etməkdə, Rusiyanı öz keçmiş hüdudları daxilində saxlamaq üçün yollar axtarmaqda idilər. Belə bir vəziyyətdə çar Rusiyasından birdəfəlik qopmağa can atan Cənubi Qafqazın hər üç millətinin nümayəndələrinin ümumi razılığı ilə 1918-ci ilin fevralında Peterburqa getməkdən və Rusiya Müəssislər Məclisini tanımaqdan imtina edən Cənubi Qafqazdan olan deputatlar Tiflisdə Zaqafqaziya Seymi təşkil etdilər. Hər üç xalqın gələcək müstəqil dövlətinin qurulmasına aparan yolda başlıca keçid mərhələlərindən biri olan bu qurum azərbaycanlı, gürcü, erməni millətinin onun tərkibində təmsil edilmiş deputat nümayəndələri üçün dövlət idarəçiliyi təcrübəsinə yiyələnmək baxımından da xüsusi əhəmiyyət daşımışdır. Belə ki, cəmi iki ay sonra, 1918-ci il aprelin 26-da Seym Zaqafqaziya Respublikası hökumətini yaratdı və keçmiş Rusiyanın bu mühüm bölgəsində hakimiyyətin idarə olunması sahəsində tamamilə yeni bir addım atıldı. Bu zaman

Rusiyada hakimiyyəti zorakılıqla ələ keçirmiş bolşeviklərdən fərqli olaraq bu hökumət demokratik normalara uyğun qərarlar qəbul etməyə, Cənubi Qafqaz xalqlarının ümumi mənafelərinin ifadəçisi olmağa çalışırdı. Nəsib bəy Yusifbəyli Zaqafqaziya Seyminin üzvü, yeni yaranmış müstəqil Zaqafqaziya Respublikası hökumətinin maarif naziri idi. Bu həmin dövrə qədər əsasən maarifpərvər ziyalı və görkəmli bir siyasətçi kimi tanınan Nəsib bəyin ictimai dövlət xadimi kimi yetişməsinin başlanğıcı idi və sonrakı illər göstərdi ki, həmin addımın atılması idarəetmə təcrübəsinə yiyələnmək baxımından az əhəmiyyətli olmayıb.

Abbasqulu Kazımzadə, Kərbəlayi Vəli Mikayılov, Nəsib bəy Yusifbəyli, Mirzə Məmməd Axundov, Məhəmməd Əmin Rəsulzadə, Məmməd Əli Rəsulzadə, Tağı Nağıyev

Nəsib bəy Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin birinci hökumət kabinəsində də xalq təhsil naziri vəzifəsini icra etmişdir.

Onun da fəaliyyətinin ən böyük, ən yaddaqalan uğuru, ən müqəddəs günü sözsüz ki, 1918-ci ilin 28 mayında Azərbaycanın müstəqilliyinin elan olunmasıdır. Nəsib bəy həmin günü hər an, hər dəqiqə yaxınlaşdırmaq üçün 17 ilə yaxın

bir müddətdə yorulmadan, usanmadan, təzyiq və təqiblərə dözərək mübarizə aparmışdı. Ona görə həmin müqəddəs günü o, çəkinmədən özünün günü, ömrünün ən xoşbəxt tarixi saya bilərdi. Buna onun haqqı çatırdı. Əlimardan bəy kimi, Məhəmməd Əmin kimi, Fətəli Xan kimi, Xosrov bəy və daha başqa fədakar insanlar kimi...

Nəsib bəyin Azərbaycan qarşısında saymaqla qurtarmayan böyük xidmətləri arasında bir xidməti də var. Onu yenidən xatırlatmaqda başlıca məqsədimiz sələlərinə daim minnətdar olmağa borclu saydığımız bu günkü müstəqil Azərbaycanın qurucusu olan nəslin belə tarixi məqamları dönə-dönə yaddaşına həkk etməsindən ibarətdir. Nəsib bəy 1918-ci ilin mayında Tiflisdə öz müstəqilliyini bütün dünyaya çatdırmış Azərbaycan hökumətinin Gəncəyə köçürülməsi üçün Xosrov bəy Sultanov və Rüstəm bəy Şəfibəyovla birlikdə oraya gedərək ilkin hazırlıq işlərinin aparılmasına nail olmuş və hökumətin köçürülməsi kimi mühüm missiyanı uğurla yerinə yetirilməsinə rəhbərlik etmişdir.

Nəsib bəy Fətəli Xan Xoyskinin başçılıq etdiyi ikinci, üçüncü hökumət kabinələrində də xalq təhsili naziri olmuşdur. Doğrudur, həmin dövr ərzində onun tutduğu vəzifə eyni zamanda dini işlər naziri adlanırdı və bu iki müxtəlif sahənin bir qurumda birləşdirilməsi bir sıra zərurətdən, o cümlədən büdcə vəsaitlərinə qənaət etmək istəyindən doğurdu. Bir sözlə o, Fətəli Xan və Xudadat bəy Məlikaslanovla bərabər Cümhuriyyət hökumətlərinin hamısında təmsil olunmuş yeganə şəxsiyyətdir. Nəsib bəy əvvəlki üç hökumət kabinetində nazir (1918-ci il 28 may - 1919-cu il 14 aprel), sonuncu iki kabinetdə isə Nazirlər Şurasının sədri (1919-cu il 14 aprel-1920-ci il 1 aprel) olmuşdur. Onun həyatının ən gərgin və səmərəli dövrlərindən biri sözsüz ki, Azərbaycan Respublikası

Nazirlər Şurasının sədri təyin olunduğu və bu vəzifəni icra etdiyi müddətə düşmüşdür.

1919-cu ilin 14 aprel günü Azərbaycanın yeni hökumətinin bəyannaməsini parlament üzvlərinə çatdıran Nəsib bəy Yusifbəyli aşağıdakıları bildirmişdi: "Sizin iradənizlə mənim tərəfimdən təşkil edilmiş hökumət üzərinə qoyulan məsuliyyəti yaxşı dərk edir. Öz müstəqilliklərini elan etmiş azərbaycanlılar bu qısa müddət ərzində öz dostları və düşmənləri qarşısında müstəqilliyə layiq millət olduqlarını göstərdilər. Azərbaycanın vəziyyəti günbəgün möhkəmlənir və indi o, iki ay əvvəlkindən daha möhkəmlənmiş vəziyyətdədir... Ancaq müstəqilliklə bərabər qarşımızda heç də az əhəmiyyətli olmayan başqa vəzifələr də durur ki, onların tezliklə həll edilməsini hökumət özünün təxirəsalınmaz və müqəddəs borcu hesab edir. Belə məsələlərdən biri Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır. Sizə məlumdur ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Lənkəran qəzası hələ də yad əllərdədir. 100 minə yaxın vətəndaşımız hər an təhlükələrə, təhqirlərə və təzyiqlərə məruz qalır...".

Nəsib bəy çox doğru olaraq başlıca diqqəti müstəqil Azərbaycanın bütün ərazisində hakimiyyətin bərqərar olunmasına yönəldir və bu məsələnin uğurlu həlli üçün hökumətin ən qəti tədbirlər görəcəyini elan edirdi. Sonrakı aylarda Lənkəran qəzasına general-mayor Həbib bəy Səlimov kimi təcrübəli və cəsur bir sərkərdənin başçılığı altında qoşun göndərilməsi, həmin qəzada oyuncaq Muğan respublikasının aradan qaldırılması və yerli idarəçiliyin tam nəzarətə götürülməsi yeni hökumət sədrinin gənc dövlətin möhkəmləndirilməsi üçün tam qətiyyətlə hərəkət etdiyindən xəbər verirdi. Mühüm addımların atılmasında bundan sonra da əzmkarlıq və qətiyyət nümayiş etdiriləcəyinə kimsədə şübhə

qala bilməzdi. Eyni fikirləri Dağıstanda gedən proseslərə münasibətə də aid etmək mümkündür. Dağıstanın müstəqil yaşamasının, qırmızı Rusiya ilə Azərbaycan arasında bir sədd olmasının vacibliyini nəzərə alan hökumət sədri orada tökülən qanlara həmin bölgədə yaşayan əhalinin böyük əksəriyyətinin milli mənsubiyyətinə görə etirazını bildirməklə yanaşı, məsələyə yalnız dini və etnik yaxınlıq baxımından qiymət verməklə qalmır, Dağıstan və Azərbaycan dövlətlərinin ortaq strateji maraqlarını mühüm amil kimi dəyərləndirirdi. "Mən qeyd etməliyəm ki, Dağlı respublikası ilə bizim aramızda tam anlaşma və həmrəylik mövcuddur. Dağlı respublikası azərbaycanlılar üçün ikinci vətəndir, necə ki, Azərbaycan onlar üçün. Sizə məlumdur ki, Denikinin ordusu Şimali Qafqaza dolmuşdur və yenidən dağıstanlıları və bizi əsarət altına almaq üçün Dağıstanın qarlı zirvələrini qana qərq etmişdir. Ancaq bu o qədər də asan omamışdır. Könüllü Ordunun zalımlarına dağlı qartalların verdiyi dərs bunu təsdiq edir. Qoy bizim qeyrətli dağlı qardaşlarımız şübhə etməsinlər ki, biz həmişə onlarlayıq...".

Bəli, Nəsib bəyin ölkənin yaxın sərhədlərində baş vermiş hadisələrə xüsusi diqqət yetirməsi təsadüfi deyildi, çünki Azərbaycanın şimalında yaranmış təhlükəli vəziyyət sərhədlərin müdafiəsinin təşkili üçün təcili tədbirlər görülməsini və general Denikinin niyyətləri barəsində xarici dövlətlərin xəbərdar olunmasını tələb edirdi. Əks-təqdirdə Dağıstanda öz planlarını reallaşdıran Denikin Könüllü Ordusunu Azərbaycana yeridə, ölkənin müstəqilliyini ciddi təhlükə altında qoya bilərdi.

"Mənim təşkil etdiyim kabinet bütün parlament fraksiyalarının nümayəndələrini özündə cəmləşdirmir, buna görə də təbiidir ki, aranızda bir sıra məsələlərlə bağlı mənimlə

razılaşmayanlar tapıla bilər. Ancaq hökumət öz enerjisini və fəaliyyətini bütün partiyaların Azərbaycanın müstəqilliyində vahid fikirdə olmaları və bu müstəqilliyi möhkəmləndirilməsi üçün həyata keçirdiyimiz tədbirlərdə inam və birgə müdafiə etməklə iştiraklarına yönəldəcəkdir".

Nəsib bəyin yuxarıda istinad etdiyimiz çıxışından götürülmüş bu sətirlər isə onun millət, Vətən, dövlət naminə çalışmağın nə demək olduğuna münasibətinin bariz nümunələrindən biridir. Bəli, bütün siyasi səylər və təşəbbüslər yalnız bir məqsədə yönəldilməli idi və Nəsib bəy tam qüvvəsi, bilik və təcrübəsi ilə buna çalışırdı. Ancaq Azərbaycanın müstəqilliyinin qorunması, gələcəyinin təminatı üçün vacib olan bu amala siyasi qüvvələrin hamısı eyni qədər sadiq idimi? Təəssüf ki, həmin dövrdə millət və dövlər üçün taleyeklü olan bu suala müsbət cavab vermək mümkün deyildi.

N.Yusifbəyli dördüncü hökumətdə həmçinin daxili işlər naziri vəzifəsini yerinə yetirirdi. Hökumət sədrinin eyni zamanda, mühüm bir sahənin rəhbəri təyin olunması hər şeydən əvvəl ölkənin mövcud vəziyyəti ilə əlaqələndirilirdi. 1919-cu ilin aprelindən sonrakı dövrdə ölkə daxilində hakimiyyətin dayaqlarının hərtərəfli möhkəmləndirilməsi ilə vəziyyətin tam sabitləşdirilməsi kursunun götürülməsi sədrin həm də daxili işlər naziri postunu tutması zəruriyyətini doğurmuşdu. Dördüncü hökumətin fəaliyyət göstərdiyi çox qısa müddətdə aydınlaşdı ki, həm strateji istiqamətin müəyyənləşdirilməsində, həm də qeyd olunan təyinatda səhvə yol verilməyib, əksinə düzgün və düşünülmüş addımlar atılıb.

"Azərbaycan" qəzetinin 22 avqust 1919-cu il tarixli sayında daxili işlər naziri Nəsib bəy Yusifbəylinin 22 avqustda ingilislərin Bakıdan getməsi ilə əlaqədar əhali arasında şayiələr yayılmasıiləəlaqədarəhaliyəmüraciətetdiyini, onları sakitliyə,

qayda-qanunu gözləməyə çağırdığını, hökumətin heç bir zorakılığa yol verməyəciyini bildirdiyini yazırdı. Bu mühüm vəzifəni icra etdiyi dövrdə Nəsib bəy respublikada daxili sabitliyin yaradılması üçün bolşeviklərin törətdiyi təxribatların qarşısının alınmasının başlıca məsələlərdən olduğunu dəfələrlə vurğulamış, bu sahədə xeyli işlər görülməsinə nail olmuşdu. Onun həmin aylarda hərbi nazirə və yerli hakimiyyəti təmsil edən qubernatorlara, digər dövlət rəsmilərinə yazdığı məktublar, nazirlik adından göndərdiyi teleqramlar və Dövlət Müdafiə Komitəsinin iclaslarında bu müstəsna səlahiyyətlərə malik qurumun sədri kimi etdiyi çıxışlar bolşevik təhlükəsinə qarşı necə geniş iş aparıldığını əyani surətdə təsdiqləyir. Bu tarixi faktlar barəsində təfərrüatlara varmır, yalnız belə bir cəhəti vurğulayırıq ki, 1920-ci ilin 27 aprelində xəyanət yolu ilə hakimiyyəti ələ keçirən bolşeviklərin birinci növbədə Fətəli Xanı və onu axtarıb, sui-qəsd yolu ilə aradan götürmələrində Nəsib bəyin onlara qarşı amansızlıqla mübarizə aparmasının xüsusi rolu olmuşdu. Bolşeviklər bu "xidmətləri" unuda bilməzdilər və onu öldürmək üçün başqaları kimi haqqında xüsusi qovluqlar yaradaraq düşmən olduğunu sübuta yetirməyə də ehtiyac yox idi, çünki Nəsib bəy açıq-aşkar bolşeviklərin düşməni idi. Bu qənaət özünün ən bariz təsdiqlərindən birini N.Nərimanovun tələbəlik yoldaşına yazdığı 16 iyul 1919-cu il tarixli məktubda tapmışdı:

"Siz, müsəlman ziyalıları, siz Azərbaycanın müsəlman kütlələrinin taleyini həll edənlər, indi hakimiyyətdə olan sizlər yaxşı bilirsiniz ki, çar generalı Denikin sizə nə gətirir və onun şüarı aydındır. O sizə "Allah, çarı hifz elə" himnini oxudacaq və bu himnin sədaları altında sizin Müəssislər Məclisiniz, respublikanızla birlikdə göyə sovrulacaq, onlarla bərabər isə siz özünüz də... İntiqam saatı artıq yaxındır, onda

siz bütün siyasətinizlə bərabər Zaqafqaziya fəhlə-kəndli müsəlmanlarının məhkəməsi qarşısında dayanacaqsınız... Özünüzdə qüvvət tapıb deyin ki, biz rus inqilabının xarakterini başa düşməmişik, biz imperialist müharibəsinin bütün dağıdıcı nəticələrini nəzərə almamışıq, biz səhnədən gedirik, qoy Azərbaycanda sovet hakimiyyəti olsun".[184]

Ancaq N.Nərimanovun yazdığı kimi Nəsib bəy Yusifbəyli məhkəmə qarşısında dayanmadı, Azərbaycanın müstəqilliyinə, xalqın həqiqi hakimiyyətinə qəsb etmiş bolşeviklərin buna cəsarəti çatmadı, onu qatil əli ilə öldürtdülər. Çünki yaxşı bilirdilər, Nəsib bəyin təkcə Gəncəbasarda yüz minlərlə tərəfdarı vardı, "millətə azadlıq və müstəqilliyin nə olduğunu daddıranlar"ın ön cərkəsində olmuş bu şəxsiyyəti asanlıqla susdurmaq mümkün deyildi. Çarə yalnız muzdlu qatilə qalırdı. Nəsib bəy dövlətə, onun müstəqilliyinə və vətəndaşlarının təhlükəsizliyinə qarşı yönəlmiş əməlin kim tərəfindən törədilməsindən asılı olmayaraq, təcili və qəti tədbirlər görməsinin tərəfdarı idi. 1 aprel 1919-cu ildə ona müraciətlə ingilis əsgərlərinin özbaşına hərəkətləri barədə şikayət edən bir qrup Bakı sakini müvafiq ölçü götürülməsini tələb edirlər. "Onlar ingilislərin sərxoşluq etməsindən, teatrda və kinoda çaxır içib, siqaret çəkmələrindən, qadınlara sataşmasından şikayətlənir, "məgər mədəni xalq budur", soruşurlar".

Təcili surətdə tədbir görən daxili işlər naziri Nəsib bəy Yusifbəyli ingilis komandanlığına müraciətlə günahkarların cəzalandırılmasına nail olur.

Ölkə daxilində sabitlik yaranmasına, bir sıra ərazilərdə hakimiyyətin tam bərpa olunmasına baxmayaraq, koalisiyalı əsaslarda formalaşdırılmış hökumət öz fəaliyyəti ilə əlaqədar

184 "Kommunist" qəzeti, 1920, 16 may

bir sıra çətinliklərlə qarşılaşmışdı. Hökumətin təşkilində iştirak etmiş bir sıra parlament firqələri müəyyən şərtlər irəli sürür, kabinetin tərkibində öz mənafelərinə uyğun dəyişikliklərə nail olmağa çalışırdılar. Bu isə hökumətdaxili mübarizələrin kəskinləşməsinə və nəticə etibarı ilə qarşıya qoyulan vəzifələrin tam uğurla həyata keçirilməsinə maneçilik göstərirdi. Məhz belə bir durumda Nəsib bəy Yusifbəyli 18 sentyabr 1919-cu ildə Kabinet sədri kimi Parlament sədrinə məktub yazıb sosialist və "Əhrar" firqələrinin hökumətə etibarı müəyyən şərtlərlə bağladıqları üçün istefa verdiyini bildirir. Bu ciddi bir xəbərdarlıq idi və mövcud vəziyyətdən çıxış yolu axtarılması üçün təcili tədbirlər görülməsini tələb edirdi. Başı daxili münaqişələrə qarışdırılan bir hökumətin lazımi səmərə ilə işləyə bilməyəcəyi aydın idi. Bütün bunları nəzərə alan parlament sədri 22 sentyabrda parlament firqələrinin razılığı əsasında Nəsib bəy Yusifbəyliyə yeni kabinet yaratmaq təklifi ilə müraciət edir. Bu təklif müəyyən müddətdən sonra qəbul olunur və Azərbaycanın beşinci, sonuncu Nazirlər Şurasının tərkibinə kimlərin daxil edilməsi üçün açıq-qapalı müzakirələr başlayır. Nəsib bəy Yusifbəyli oktyabrın sonlarında parlament sədrinə müraciətlə əsas partiyaların (Müsavat, "İttihad" partiyası və bitərəflər) platforması əsasında hökumət təşkil etməyi xahiş edir".[185]

1919-cu il 16 noyabrda yeni hökumətin təqribi tərkibi "Azərbaycan" qəzetində dərc olunur. "Nəsib bəy Yusifbəyli - sədr və daxili işlər naziri, S.Mehmandarov - hərbi naziri, F.Xoyski - xarici işlər naziri, M.H.Hacınski - maliyyə, ticarət və sənaye naziri, X.Xasməmmədov - ədliyyə naziri, R.Kaplanov - xalq təhsili naziri, X.Məlikaslanov - yollar, poçt və teleqraf naziri, M.Rəfiyev - torpaq və himayə naziri,

185 "Azərbaycan" qəzeti, 30 oktabr 1919-cu il

H.Məhəmmədbəyov - dövlət nəzarətçisi. Bu tərkibdə sonra bir sıra dəyişiklər edilmişdi. Belə ki, M.H.Hacınski xarici işlər naziri, 18 fevraldan isə sənaye, ticarət və ərzaq naziri, R.Kaplanov maliyyə naziri, H.Şahtaxtınski təhsil və dini işlər naziri, C.Hacınski poçt və teleqraf naziri, Ə.Pepinov əmək və əkinçilik naziri, M.Rəfiyev səhiyyə və ictimai himayə naziri, X.Məlikaslanov yalnız yollar naziri olmuşdular.

Yeni tərkibin bu şəkildə müəyyənləşdirilərək fəaliyyətə başlaması Nəsib bəyə hökumət təşkili ilə bağlı müraciətdən yalnız üç ay sonra mümkün oldu. Bu müddətdə isə təbii ki, Azərbaycan hökumətsiz qalmamışdı. Cümhuriyyətin dördüncü hökuməti faktiki olaraq 1919-cu ilin sentyabr ayının sonundan etibarən öz fəaliyyətini başa çatdırsa da, yeni hökumətin təşkil olunduğu 1919-cu ilin 22 dekabrına qədər üzərinə düşən funksiyaları yerinə yetirmişdir.

1919-cu il sentyabr ayının son həftəsi Azəraycan tarixinə başqa bir hadisə ilə də düşmüşdür. Qəzetlərdə və arxiv sənədlərində həmin vaxt Nəsib bəy və xarici işlər naziri M.Y.Cəfərovun tez-tez Amerika generalı Xarbordun nümayəndələrini qəbul etdikləri barədə məlumatlar var. Bu məlumatlardan aydın olur ki, general Xarbordun Azərbaycana gəlməkdə məqsədi ölkə həyatının müxtəlif sahələri ilə bağlı informasiyalar toplamaqdır. Məhz bu məqsədlə gəldiyini gizlətməyən məşhur personanın özü ilə bərabər Azərbaycana həmçinin Avropanın bir sıra iri qəzetlərinin jurnalistlərini gətirəcəyi bildirilirdi.[186]

"Azərbaycan" qəzeti 7 oktyabr 1919-cu il tarixli sayında isə iki gün əvvəl baş verənlər barəsində yazırdı: "1919-cu ilin 5 oktyabrında Amerika hökumətinin Zaqafqaziyada komissarı general Xarbord 18 nəfər missiya üzvü, 3 general, 15 nəfər

186 "Azərbaycan" qəzeti 1919-cu il, 30 sentyabr

dövlət həyatının bütün məsələləri üzrə mütəxəssislərlə Bakıya gəlmişdir. O, Nəsib bəy Yusifbəyli ilə siyasi məsələlərlə bağlı xeyli söhbət aparmış və Azərbaycanda yaradılmış qayda-qanundan razı qaldığını, Amerika ilə Azərbaycan arasındakı mövcud ixtilafın tezliklə aradan qaldırılması zərurətindən danışmışdır".

1919-cu ilin son ayları ümumiyyətlə xarici missiyaların, xüsusilə Amerika və İtaliya dövlətlərinin nümayəndələrinin Azərbaycana ciddi maraq göstərmələri, ingilislərdən sonra ümumən Qafqazda nüfuz dairəsi yaratmaq təşəbbüsləri ilə əlamətdardır. Rusiyanın başının daha çox öz daxili problemlərinə qarışdığı bir vaxtda bu cəhdlərin müəyyən uğurlarla nəticələnməsi mümkün idi.

Şərur-Naxçıvan vilayətlərində ermənilərlə azərbaycanlılar arasında silıahlı toqquşma ilə pozulmuş sülhün, əhalinin əmlakı və şəxsi təhlükəsizliyinin bərpası üçün növbəti təşəbbüslərdən biri Amerika dövlətinin nümayəndəsi Vilyam Haskel tərəfindən göstərilir. Hər iki tərəfin bu ərazilərə aid iddialar irəli sürdüyünü və bu dövlətlərin həmin vilayətlərə olan hüquqlarının Sülh konfransı tərəfindən həll edilmədiyini nəzərə alan Haskel bu ərazini idarə edən şəxs kimi 23 oktyabrda Naxçıvanda Amerika general-qubernatorluğu yaradıldığını bildirir və bu məqsədlə 9 maddədən ibarət qərar verilir. Bu qərarın və Amerika nümayəndəsinin bölgədə mübahisəli məsələlərə ilkin yanaşmasını təhlil obyektinə çevirmədən, yalnız bir cəhətə diqqəti yönəltmək istəyirik ki, bütün xarici missiyalar Qafqazda öz nüfuzlarını möhkəmləndirmək üçün ilk əvvəl burada guya mümkün münaqişə ocaqlarını ləğv etmək məqsədi güddüklərini göstərməyə çalışırdılar. Görünür bununla bölgədə yaşayan xalqların daxili problemlərinə daha dərindən nüfuz etməklə onlarla yaxından tanış olmaq, ən başlıcası isə

özləri barəsində sülhməramlı dövlət imici formalaşdırmaq istəyirdilər. Çünki əks halda həmin bölgədəki maraqları ciddi təhlükələrə məruz qalar, nəzərdə tutulan layihələrin reallaşdırılması qeyri-mümkün olardı. Bütün bunların mahiyyətini dərindən başa düşən və incəliklərinə qədər nəzərə alan hökumət rəhbərlərimiz güclü Qərb dövlətlərini təmsil edən xarici missiyalarla son dərəcə ehtiyatla yanaşır və onların imkanlarından istifadə etməklə həm qədim ərazilərimizin işğal edilməsinin qarşısını almağa, həm də bölgədə əmin-amanlıq yaradılmasına nail olmağa çalışırdılar.

Ona görə də yuxarıda göstərilən məqamlarla yanaşı, ingilis baş qərargahının Nəsib bəy Yusifbəyliyə aprel ayının 1-də yazdığı məktubda Gəncə və Ağstafa stansiyalarında ingilis hərbi postları qoyulmasının vacibliyi barədə bildirilməsi ilə də razılaşılırdı. Daxildə və sərhəddinin bir addımlığında kifayət qədər düşməni olan Azərbaycanın özünə yeni əleyhdarlar qazanmasına yol vermək olardımı və belə məqamların nəzərə alınmaması nə dərəcədə ağıllı və düşünülmüş sayıla bilərdi?

22 dekabr 1919-cu ildə yeni hökumətin bəyannaməsini parlamentin 109-cu iclasında elan edən Nəsib bəy Yusifbəyli ötən müddət ərzində dördüncü hökumətin gördüyü işlərin başlıca yekunlarını və qarşıda duran ən mühüm vəzifələri belə səciyyələndirmişdi: "Sizə məlumdur ki, vətənimizin böyük hissəsi yad əllərdə idi. Lənkəran qəzası bizim tərəfimizdən azad edilmişdir... Sizin Lənkəran qəzasına daxil olan hərbi hissələrimizin fədakarlığı ilə fəxr edə bilərsiniz... İkinci məsələ Qarabağ məsələsidir. Qarabağ haqqında danışarkən biz dörd qəzanı nəzərdə tuturuq. Son vaxtlar müxtəlif intriqalarla və fəsadlarla Zəngəzur qəzasının Qarabağdan kənarda yerləşməsini sübut etmək istəyirlər. Yüz və min illərdir ki, Zəngəzur Qarabağın tərkib hissəsidir, Qarabağ

isə Azərbaycanın ürəyidir, buna görə də aydındır ki, bu fəsadlardan bir şey çıxmayacaq. İndi Qarabağın üçdə ikisi bizim əlimizdədir, Zəngəzur qəzasının yarısı isə qiyamçıların əlindədir. Bizə deyirlər ki, ola bilər burada da məsələni sülhlə həll etmək olar və böyük dövlətlərin nümayəndələri bunun tərəfdarıdır. Biz sülhün əleyhinə deyilik. Biz ümumiyyətlə bütün məsələlərin həllində sülhü vasitə seçmişik. Buna görə də gözləməyə hazırıq, təki məsələ sülhlə həll edilsin... Üçüncü məsələ Şərur-Naxçıvan məsələsidir, yaxud əhalisinin əsas hissəsini azərbaycanlılar təşkil edən İrəvan quberniyasının bir hissəsinin məsələsi. Cəsur naxçıvanlılar, şərurlular, vedibasarlılar özləri bu məsələni həll ediblər, öz həyatları, ailələri ilə risk edərək, onlar özləri qalxıb torpaqlarını azad etmiş və vətənlə qovuşmuş və bununla hökumətin işini asanlaşdırmışlar”.[187]

Nəsib bəy Yusifbəyli haqqında, onun Azərbaycan istiqlalında oynadığı rolla bağlı ən dolğun fikirləri Məhəmməd Əmin Rəsuzadə “Odlu Yurd” jurnalının 27 aprel 1929-cu il tarixli, 3-cü sayında ifadə edib. “Nəsib bəy Azərbaycan istiqlal hərəkatının ən çətin anlarında istiqlalçılıq şüarını hər cür tərəddüdlərdən kənar olaraq bütün səmimiyyəti ilə müdafiə edən millətçi zümrənin daima səmimi və imanlı şəxslərindən olmuşdur.”.

Məhz Nəsib bəy kimi görkəmli dövlət xadimlərinin hərtərəfli düşünülmüş siyasət yeritmələrinin nəticəsi idi ki, 11 yanvar 1920-ci ildə müstəqil Azərbaycanın həyatında ən əlamətdar günlərdən biri barəsində əhaliyə böyük təntənə ilə məlumat vermək mümkün oldu. Həmin gün Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Avropa dövlətləri tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması barədə

187 ARDA, f.895, siy.1, iş 177, vər. 18-47.

memorandumu elan olundu. Memorandumda deyilirdi: “Azərbaycan hökuməti və xalqı nəhəng dövlətlər tərəfindən Azərbaycan xalqının müstəqilliyinin tanınması və bununla onun benəlxalq-hüququn bir hissəsinə çevrilməsi faktını dərin məmnunluqla qarşıladılar... Ancaq Azərbaycan xalqının azad və müstəqil mövcudluğunun təmin edilməsi üçün zəruri tədbirlər görülməsə onun bütün əməyi və verdiyi qurbanlar nəticəsiz qala bilər”.[188]

Qəlbi böyük əməllərlə çarpan, milli tariximizin ən şanlı səhifələrindən birinin yazılmasında ilk təşəbbüskarlardan və təşkilatçılardan olmuş, Vətən təəssübünü hər şeydən üstün tutan Nəsib bəyin ömrü yarımçıq qaldı. Cümhuriyyət hökumətinin süqutundan dərhal sonra onunla haqq-hesab çəkməyə tələsən qanlı rejim onu aradan götürmək üçün öz muzdlu qatilini göndərdi. Çevrilişdən cəmi bir neçə gün keçmiş, 1920-ci il mayın əvvəllərində Azərbaycanın hökumət başçısı Nəsib bəy Yusifbəyli Kürdəmir qəzasında Yevlaxın Qarxunlu kəndindən olan Əşrəfin (bəzi mənbələrdə onun başqa, naməlum şəxslər tərəfindən öldürüldüyü bildirilir) yaxın adamları tərəfindən qətlə yetirildi. Onun ölümü 27 apreldə tarixi bir seçim qarşısında qaldığını yetərincə qiymətləndirməyənlər üçün ilk

188 ARDA, f.894, s10, iş 135, v. 5

ciddi xəbərdarlıq oldu. Onlar hansı qüvvə ilə qarşılaşdıqlarını aydın başa düşdülər. Ancaq artıq gec idi. Terror və kütləvi cəza maşını hərəkətə gətirilmişdi. Azərbaycan Cümhuriyyət ideyalarının unutdurulacağı günə qədər düşünən başlardan məhrum olunmalıydı.

Amansız rejimin belə qurbanlarından biri də Nəsib bəyin böyük qardaşı Həmid bəy Yusif bəy oğlu oldu. 1878-ci ildə Gəncədə anadan olmuş Həmid bəy ("Difai partiyasının üzvlərindən biri) Azərbaycan istiqalının əldə edilməsi sahəsində Gəncədə böyük işlər görmüş ziyalılarımızla çiyin-çiyinə çalışmışdı. Eyni zamanda, məhz həmin fədakar və cəsur insanların son dərəcə təhlükəli şəraitdə gecəli-gündüzlü fəaliyyəti nəticəsində Cümhuriyyət hökumətinin Azərbaycan ərazisinə köçürülərək yeni tərkibdə işə başlaması mümkün olmuşdu. Həmid bəyin 1941-ci ilin iyun ayının 16-da Dövlət Təhlükəsizliyi Xalq Komissarlığı tərəfindən antisovet element, qatı türkçü, rus xalqının ünvanına böhtanlar yağdarın və "Müsavat" partiyasının üzvü kimi həbs edilməsi heç də təsadüfi deyildi. Çünki o, sovet hakimiyyətinin ən qatı düşmənlərindən biri Nəsib bəyin qardaşı idi. Buna görə də, hazırda hansı mövqe tutmasından asılı olmayaraq, öz cazasına çatdırılmalı, rejimin daha bir düşmənindən intiqam alınmalıydı. "Bəy ailəsindən mənsub, atası məhkəmə pristavı işləyən, böyük mülkiyyət sahibi, qardaşı Müsavat dövründə Nazirlər Şurasının sədri olan Həmid bəy" 1941-ci il 8 dekabr ittihamnaməsi ilə 5 il müddətinə sürgünə göndərilməklə cəzalandırılmışdır. 1942-ci ilin 11 fevralında SSRİ XDİK yanında Xüsusi Müşavirə Ziyalov və Qriqoryanın (yenə erməni) çıxardığı bu qərarı təsdiq etmiş və onu sürgünə göndərmişdir. Yusifbəylilər nəslinin Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mücadiləyə qoşulmuş daha bir nümayəndəsi - Həmid bəy

sovet imperiyasının həbsxanalarından birində əzab-əziyyətlər və işgəncələr nəticəsində ömrünün ahıl çağında həyata əbədi göz yummuşdur.

Nəsib bəyin birinci nigahından iki övladı olub. İsmayıl bəy Qaspıralının qızı dünyadan vaxtsız keçmiş sevimli adını daşıyan qızı Zöhrə xanım və oğlu Niyaz bəy. İstanbulda yaşayan Zöhrə özünə Göygöl soyadı götürüb. N.Yusifbəyli 1909-cu ildə başqa bir qadınla evlənmişdir. Lakin o, ömrünün sonuna qədər uşaqlarına qayğı göstərmişdir. İ.Qaspıralının yaxın silahdaşı Həsən Səbri Ayvazovun yazdığına görə, N.Yusifbəyli son saatlarında İsmayıl bəyin yatağı başında dayanan doğmalar sırasında olub və İ.Qaspıralı vəsiyyətlərini həm də ona xitabən söyləyib.

Vətəni, milləti canından artıq sevən, milli ideallara həqiqi sədaqətlə xidmət göstərən Yusifbəylilər nəslinin digər nümayəndələri barəsində yəqin ki, gələcəkdə tədqiqatçılar öz sözlərini deyəcəklər. Bu həm də bizim hər birimizin müqəddəs borcudur. Doğma Azərbaycanı tərəqqi və inkişaf yoluna çıxarmış böyük insanlar qarşısındakı hələlik lazımınca ödəyə bilmədiyimiz mənəvi borc. Siyasət və dövlət nəhəngi olmuş Nəsib bəy kimi əvəssiz şəxsiyyətlərimizin həyatı və fəaliyyti barəsində xalqa ən kiçik detallarına qədər bütün həqiqətlər çatdırılmayınca, onların bizlərə necə böyük və tükənməz irs qoyub getdikləri məktəb yaşlı uşaqlarımızdan tutmuş ahıllarımza qədər hər bir kəsə məlum olmayınca, bu borc yerinə yetirilmiş sayıla bilməz.

Azərbaycanın ilk ordu generalı - Səməd bəy Mehmandarov

Tanrı qisməti, alın yazısı. Tanrıdan qeyri kimsə bu qismətdən kimin payına nə düşdüyünü müəyyənləşdirə bilərmi? Bəlkə də insanı min illərlə qədərin hökmünə boyun əyməyə vadar edən ən böyük hikmətlərdən biri elə budur: insan heç vaxt öz taleyinin nə ilə bitəcəyindən xəbərdar olmayıb. Bir günün içində möhtəşəm saraylar, nəhəng abidələr yerlə yeksan olub, abad şəhərlər viran qalıb. Dünyanı qarşısında diz çökdürən cahangirlər bir qəfil zərbədən elə büdrəyiblər, bir daha qədləri düzəlməyib. Yaxud əksinə, hamının vecsiz saydığı birisi fələyin gərdişi ilə kimsənin ağlına gəlməyən mərtəbəyə yüksəlib. Bəlkə buna görə nağıllarda dünyadan sonsuz köçmüş hökmdarın yerinə yeni taxt-tac sahibini seçmək istəyən xalq şahlıq quşu uçurdurdu. Bu quş da qədərin yazısıyla kimin qismətində varsa onun başına qonurdu.



Bir də xalqın, millətin qismətinə düşən, yeri kimsəylə əvəz edilməyəcək, alnına bir parçası olduğu Vətənin taleyində müstəsna rol oynamaq qisməti yazılmış nadir insanlar var. Nə yaxşı ki, Azərbaycanın taleyində belə insanlar az olmayıb. Türk yurdunun bir parçası olan Oğuz elinin bəxti bu sarıdan tanrı sevgisinə daha çox tuş gəlib. Ulu Dədəmiz Oğuz Xaqandan, Alp Ər Tunqadan üzü bəri hərəsi bir elə arxa, dayaq olan, qayalar yaran gücü ilə ağlı tən gələn onlarla başbuğlarımız, öndərlərimiz, sözü dağdan ağır, çiçəkdən zərif ozanlarımız

gəlib gediblər. Özü də təkcə oğuzların deyil, dövrü-qədimdən bütün türk ellərinin bəxti iki şeydə xüsusi gətirib. Türk ellərində həmişə qüdrətli söz, sənət adamları, bir də ən böyük orduları çəkib ardınca aparmağa, ən qəvi düşmənə qalib gəlməyə qabil sərkərdələr olub. Birinci zümrənin varlığı daha çox millətin tanrı sevgisindən, tanrı seçimindən qaynaqlanan saflığının, təfəkkür və təxəyyül zənginliyinin nəticəsidirsə, ikincilərin bu millətə ərmağan edilməsi bütün özəl xüsusiyyətlərlə yanaşı, həm də türkün "Tanrı" deyə sidqi ürəkdən əl açdığı ulu göylərin onu hifz etmək üçün göndərdiyi töhfəsidir.

Səməd bəy Mehmandarov bu milləti hifz etməyə göylərdən göndərilmiş qüdrətli sərkərdələrdən biridir. Tanrı ondan qabaq və sonra da türklərə neçə qüdrətli sərkərdə bəxş edib. Ancaq Səməd bəy bu neçələrin arasında adi sıra nəfəri deyil, onların ən uca mərtəbədə dayananlarından, adı ən ehtiramla çəkilməyə layiq olanlarından biridir. Səməd bəy Azərbaycanın taleyində çox böyük rol oynamış, ilk müstəqil respublikanın 30 min nəfərlik ordusunu yaratmış və bununla da yüz illərdən sonra xalqın əzəli haqlarından biri sayılan özünümüdafiə imkanlarını yenidən özünə qaytarmış bir şəxsiyyətdir. Səməd bəy bənzərsiz, iftixar olunmağa layiq, ancaq eyni zamanda, son dərəcə mürəkkəb və zəngin bir ömür yaşamış insandır. Əsla təsadüfi deyil ki, onun haqqında yazan bütün müəlliflər bu fikirdə olublar və onların hamısının eyni fikrə gəlməsində qəribə heç nə yoxdur. Çünki Səməd bəy sadəcə olaraq on minlərlə, yüz minlərlə adi yaradılmışlardan biri deyildi, o, tanrı tərəfindən bu Vətənin taleyində mühüm rol oynamaq üçün seçilmiş bir şəxs idi və özünün istəyi ilə onun adi bir insan ömrü yaşaması əslində mümkünsüzdü.

Səməd bəy Mehmandarov 1855-ci il oktyabr ayının 16-da Lənkəran quberniyasın Lənkəran şəhərində anadan olmuşdur.

Quberniya katibi işləyən atası Sadıqbəy Qarabağdan köçüb gəlmiş zədagan idi və onun öz oğluna istənilən səviyyədə təhsil verməyə imkanı çatırdı. Buna görə də ilk təhsilini Bakı realnı məktəbində alan Səməd bəyin biliklərə kifayət qədər yiyələndiyi təqdirdə, Qərbin istənilən ali məktəbində oxuması mümkün idi. O isə doğrudan da, hərtərəfli bilik qazanmaq üçün ciddi səy göstərmiş, realnı məktəbin proqramı çərçivəsində öyrədilənləri tam mənimsəmiş, gələcəkdə əldə edəcəyi mükəmməl elmi biliklərin ilkin təməlini yaratmışdı. Ancaq atasının və atasının əmisi oğlu Xanı bəy kimi yaxın qohumlarının tövsiyyələrinə baxmayaraq, 16 yaşlı Səməd mülki təhsil ardınca getmək, sonra quberniya idarələrindən birində hansısa vəzifə tutmaq fikrində deyildi. Bəlkə də məhz bu yolu seçmiş atasının yolunu davam etdirməsi ona daha sakit və uzaqmənzilli bir həyat bəxş edə bilərdi. O isə bunu istəmirdi, ona görə də bu sayaq təkliflərə eyni konkret cavabı verirdi, "yox". Damarlarında qanı qaynayan bu coşğun gəncin məqsədi tamam başqa idi. O, hərbçi olmaq, millətini əsgəri xidmətə belə layiq görməyən bir dövlətdə rütbələr almaq, çiyinlərində fərqləndirici zabit ulduzu gəzdirmək istəyirdi. Yalnız şöhrət xatirinəmi, yaxud hərbçi geyiminin Qafqazın bir parçası olanAzərbaycan kimi "milli ucqar" sayılan məmləkətdə xarici görünüşcə cəlbedici olduğu üçünmü? Bəlkə bu sənətin arxasınca düşməsində yaşına uyğun bir macəraçılıq həvəsi də vardı, yoxsa, gənclik romantikası idimi onu çəkən? Bütün bu sualların da bir cavabı vardı: xeyr. Tək özünə məlum idi ki, bu yolu təsadüfi seçməyib, hələlik axıradək izah edə bilməyəcəyi hisslər, onu istiqamətləndirən güclü daxili istək məhz bu addımı atacağına qəti inam yaratmışdı. Özü də bu inamından onu kimsə döndərə bilməzdi, çünki bu yol tanrı qisməti ilə cızılmışdı, hərbçi ömrü yaşamaq onun alın yazısı idi.

Seçimində qəti israr edən Səməd 16 yaşında ikən Peterburqda yerləşən ikinci Konstantinovka artilleriya məktəbinə daxil olur və 1875-ci ildə təhslini uğurla başa vurur. Qarşıda isə onu uzun və ağır hərbi xidmət illəri gözləyirdi. Bu illərin çox böyük bir hissəsini o qanlı müharibələrdə, ölüm-dirim savaşlarında keçirəcək, Vətəndən xeyli uzaqlarda olacaq və ən başlıcası təmsil eldiyi millətin adını həmişə ucaldacaqdı. Hələlik isə 1875-ci il idi və Peterburqda yunkerlər məktəbini yenicə bitirmiş Səməd bəy ilk təyinat yerinə göndərilirdi. Ancaq ilk addımdan özünü nizam-intizamlı və bacarıqlı kadr kimi göstərən Səməd bəyin podporuçik rütbəsi alması üçün o qədər də müddət lazım gəlmir.

Elə həmin ilin dekabr ayında ona bu rütbəni verirlər. Bir neçə müddətdən sonra isə xidmətdə xüsusi fərqləndiyinə görə, o, üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif edilir. "Odlar yurdu" qəzetinin 13 iyul 1989-cu il tarixli 13-cü sayında böyük sərkərdənin həyatının bundan bir qədər sonrakı dövrü, daha kokret desək 15 il keçəndən sonrakı xidmət illəri haqqında yazan M.Əliyev aşağıdakı məlumatları çatdırırdı: "Səməd bəy 1890-cı ildə kapitan rütbəsi almış, 1891-ci ildə isə ikinci dərəcəli "Müqəddəs Stanislav" ordeninə layiq görülmüşdür. 1894-cü ildə Səməd bəy hərbi komandanlığın əmri ilə Varşava hərbi dairəsinin sərancamına göndərilmşdir. 1896-cı ildə o, ikinci dərəcəli "Müqədds Anna" ordeni ilə təltif edilmişdir. 1898-ci ildə podpolkovnik rütbəsi alan Səməd bəy Mehmandarov Zabaykalye artilleriya diviziyasının komandiri təyin edilmişdir. O illərdə diviziya Mancuriyada yerləşirdi. 1900-1901-ci illərdə Çində antiimperialist hərəkatının yatırılmasında Səməd bəy Mehmandarovun komandir olduğu diviziya da iştirak etmişdir. Lakin Səməd bəy Mehmandarov silahsız Çin əsgərlərinə atəş açmağa razı olmamışdır. 1901-

ci ildə S.Mehmandarov polkovnik rütbəsi və üçüncü dərəcəli "MüqəddəsVladimir" ordeni, habelə üstündə "Qəhrəmancasına fərqlənməyə görə" sözləri yazılmış qızıl qılınc almışdır. Rus-yapon müharibəsi zamanı Port-Artur şəhərini qəhrəmancasına müdafiə edən Səməd bəy Mehmandarov 1904-cü il oktyabr ayının 22-də general-mayor rütbəsinə və dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeninə layiq görülmüşdür. 1907-1910-cu illərdə Səməd bəy Mehmandarov 3-cü Sibir ordusunda artilleriya rəisi işləmişdir. 1908-ci il iyulun 13-də hərbi xidmətlərinə görə ona general-leytenant rütbəsi verilmişdir.

Birinci dünya müharibəsində Səməd bəy Mehmandarov Varşava əməliyyatı istiqamətində olmuş və payızda burada rus qoşunları almanlar üzərində tam qələbə çalmışdılar. Bu və başqa cəbhələrdə göstərdiyi sərkərdəlik məharətinə görə Səməd bəy Mehmandarova 1915-ci il martın 22-də artilleriya üzrə tam general rütbəsi verilmişdir (bu müasir Silahlı Qüvvələrdə ordu generalı rütbəsinə bərabərdir - L.Ş). 1917- ci ilin aprel ayında Səməd bəy istehfaya çıxmışdır. Bu zaman o, Rusiyanın "Stanislav", "Anna", "Vladimir" və "Georgi" ordenlərinin bütün dərəcələrinə layiq görülmüş, İngiltərə, Fransa, Rumıniya və İranın ordenlərini almışdı. İstefaya çıxdıqdan sonra Vladiqafqaz şəhərində yerləşən mənzilində sakit həyat sürən Səməd bəy Mehmandarov 1918-ci ilin sentyabrında Bakıya gəlmiş, 1918-ci ilin oktyabrından hərbi nazirlikdə işləməyə başlamış və həmin il noyabrın 7-də hərbi nazirin müavini, dekabrın 25-də isə hərbi nazir təyin edilmişdir.

Bir qədər əvvələ qayıdıb qeyd edək ki, Müsəlman Korpusunun yaranmasından sonra, xüsusilə 1918-ci ilin ilk aylarında Birinci dünya müharibəsi cəbhələrindən qayıdan azərbaycanlıların özlərinə lider kimi qəbul etdikləri şəxslərdən biri Səməd bəy Mehmandarov idi. Ancaq həmin

vaxt bu qüdrətli sərkərdə Azərbaycanda olmadığından onlar Səməd bəyin yaxın silahdaşı, tanınmış böyük sərkərdə Əliağa Şıxlinskinin ətrafına toplaşmışdılar. Döyüşkən Azərbaycan generalitetinin rəhbərlik etdiyi milli korpusun sıaları sürətlə artmış, gələcək ordunun əsas qüvvələrinin formalaşdırılması prosesi sürətlənmişdir.

Azərbaycan Ordusu üçün milli hərbçi kadrların hazırlanmasına xüsusi əhəmiyyət verən Səməd bəy 1918-ci ilin iyul ayında Gəncədə açılmış podpraporşiklər məktəbinin 1919-cu ilin əvvəllərində Bakıya köçürülməsi, onun əsasında Azərbaycan ilk hərbi məktəbinin təşkil edilməsi barədə əmr imzalayır. Onun digər əmrləri ilə xüssusi ehtiyac duyulan istehkamçı və hərbi feldşer məktəbləri də təşkil olunmuş, Gəncədə hərbiləşdirilmiş dəmiryolu məktəbi fəaliyyətə başlamışdı. 1920-ci ilin yanvarında bu məktəblərə müdavim hazırlayan xüsusi hərbi təmayüllü kadet korpusu yaradılmışdı.

Əlbəttə, Səməd bəyin Azərbaycanın sovetləşməsinə qədərki həyatının çox böyük və hərbi xidməti ilə bağlı ən başlıca dövrünü əhatə edən bu tarixlərin arasında onun 1903-cü ilin əvvəllərində Jitomirli Yelizaveta Nikolayevna Teslavla ailə qurması, elə həmin il yeddi aylıq topçu zabitləri məktəbində təhsil alması, Port-Arturda qalanın xəyanətkarcasına təslim edilməsindən sonra rus-yapon mülıaribəsində əsir düşərək 1904-1906-cı illərdə Yaponiyaya aparılıb və buradan Portsmut müqaviləsi bağlandıqdan sonra qayıtması və bir sıra digər mühüm faktlar öz əksini tapmayıb.

Səməd bəy Mehmandarovu bu gün millətin həqiqi iftixarına çevirən xidmətlərin böyük əksəriyyəti onun ilk müstəqil dövlətimizin Hərbi Nazirliyində göstərdiyi fəaliyyətlə bağlıdır. Həmin fəaliyyətin nə dərəcədə səmərəli olduğunu isə təkcə bir fakt – 1918-ci ilin iyununda bütün hərbi qüvvəsi tam

formalaşmamış bir Korpusdan ibarət olan Azərbaycanın 1920-ci ilin aprelində 30 min nəfər nizami orduya malik olması aydın göstərir. Səməd bəy Azərbaycan dövlətinin müdafiəsi ilə məşğul olacaq müvafiq hərbi strukturların formalaşdırılması, Silahlı Qüvvələrin imkan daxilində hərtərəfli təşkili, bir sıra digər sahələrdə də çox böyük işlər görmüş, zəngin biliyini və əvəzsiz təcrübəsini doğma xalqının naminə əsirgəməmişdi.

Ömrünün 40 ildən artıq bir dövrünü çar ordusunda xidmətdə keçirmiş, yüksək peşəkarlığı və sədaqəti nəticəsində Rusiya dövlətinin ən nüfuzlu hərbçi-generallarından birinə çevrilmiş, hakimiyyət tərəfindən dəfələrlə mükafatlandırılmış, bir-birindən qiymətli hədiyyələr almış Səməd bəy Mehmandarovun Cümhuriyyət dövründə ən məsul vəzifələrdən birinə təyin olunması nə dərəcədə ölçülüb-biçilmiş addım idi? Əlbəttə, indi tamamilə yersiz və əsassız görünən bu sualın o vaxt Azərbaycana rəhbərlik edən, gənc respublikanın taleyi üçün cavabdehlik daşıyan şəxslər tərəfindən verilməsi qətiyyən məntiqsiz səslənmirdi və regionda yaranmış son dərəcə mürəkkəb vəziyyətdə başqa cür ola da bilməzdi. Müstəqil dövlət kimi ilk addımlarını atan bir ölkədə peşəkarlığın, sədaqət və vətənpərvərlik kimi keyfiyyətlərlə bir sırada dayanması tamamilə qanunauyğun, təbii hal idi və əlimdə heç bir tarixi sənəd və fakt olmasa da, mən bu qənaətdəyəm ki, Səməd bəy hərbi nazirlikdə yüksək vəzifəyə gətirilməzdən qabaq onun keçmişi, hazırkı mövqeyi ilə bağlı kifayət qədər götür-qoy edilmişdi.

7 noyabr 1918-ci il. Həmin gün Nazirlər Şurasının qərarı ilə "Azərbaycan Respublikasında hərbi nazirlik yaradılması" qərara alınmış, "hərbi nazir vəzifəsi Nazirlər Şurasının sədri F.Xoyskiyə həvalə olunmuş, onun müavini isə general Səməd bəy Mehmandarov təyin edilmişdir." Eyni gündə "Azerbaycan"

qəzeti hərbi nazirin müavini S.Mehmandarovun qeyd edilən təyinatla əlaqədar hərbi dəftərxana üzrə əmrinin mətnini dərc etmişdir:

"Nazirlər Şurasının qərarı ilə mən hərbi nazirin müavini təyin edilmişəm. Mən öz vəzifə borcumun yerinə yetirilməsinə başlayaraq görməli olduğum nəhəng işin bütün ciddiliyini, mürəkkəbliyini və çətinliyini gizlətmədən, hərbi nazirliyin bütün rütbəli şəxslərinin işə birgə, dostcasına və vicdanlı münasibəti ilə onun öhdəsindən gəlməyin tamamilə mümkün olduğunu bildirirəm. Döyüşə qadir ordu yaradılması işinin uğuru bütünlüklə bu işin düzgün qoyuluşundan asılıdır. Hamını birgə, yoldaşcasma işləməyə çağırmaqla, mən bütün səviyyələrdəki rəislərdən qoşunun təlim-tərbiyəsi, öyrədilməsi və möhkəm nizam-intizam yaradılması işinə tam ciddi diqqət yetirmələrini, xidməti işə, qayda-qanuna, vəzifə borcuna məhəbbətlə yanaşmalarını, tabeliyində olanlara qayğıkeş münasibət göstərmələrini istərdim".

Bu elə bir dövr idi ki, Qafqaz İslam Ordusunun getməsi ilə kifayət qədər hərbi qüvvəsi olmayan, özünümüdafiə imkanından faktiki surətdə məhrum edilmiş Azərbaycan daxildə bolşeviklər və daşnaklarla, xaricdə Rusiya və Ermənistanla üz-üzə dayanmışdı. Bu təhlükələrdən əlavə onu Çar Rusiyasını xilas etməyə çalışan general Denikinin Könüllü Ordusu, Bakıya tərəf irəliləməkdə olan və milli hakimiyyətə qarşı olduğunu gizlətməyən Biçeraxovun qüvvələri və başqa təhlükələr də təhdid edirdi.

Arxiv sənədləri belə bir mürəkkəb və gərgin vəziyyətdə faktiki olaraq hərbi quruma rəhbərlik edən şəxsin hansı tədbirləri gördüyünü və hansı məsələlərə xüsusi diqqət yetirdiyini tam aydınlığı ilə göstərir. Yəqin ki, Səməd bəyin Azərbaycan dövlətçiliyinə sonsuz sədaqətlə xidmət etdiyini

sübuta yetirmək üçün bu gün həmin arxiv sənədlərindən daha etibarlı bir mənbə tapmaq çətindir.

Hərbi nazirlikdən 21 aprel 1919-cu ildə Gəncə şəhərindən şəxsən Nazirlər Kabinetinin sədri N.Yusifbəyliyə (Nəsib bəy eyni zamanda daxili işlər naziri idi) çatdırılmalı olan 1663 saylı məxfi raport göndərilir: "Bu il aprelin 15-dəki 1631 saylı raportla mən bolşeviklər tərəfindən orduda təbliğata başlamağa hazırlıq barədə məlumat vermişdim. Bakıda öz işini başa çatdıran həmkarlar ittifaqları qurultayı belə bir bəyannamə qəbul etmişdir: "İttifaqın məqsədi Zaqafqaziya hüdudunda sovet hakimiyyəti qurulmasının həyata keçirilməsi üçün hərtərəfli siyasi cəhd göstərməkdən ibarət olmalıdır." Bu bəyannamə yerli bolşeviklərin Azərbaycanın müstəqilliyini məhv edib, onu Sovet Rusiyası ilə birləşdirmək cəhdləri ilə artıq şübhə doğurmur. Bəyannamə nəzərə alınaraq, Hökumətin fəaliyyətinin əsasında Azərbaycanın müstəqilliyinin müdafiəsi durmalıdır və mən şübhə etmirəm ki, bolşeviklərin dağıdıcı cəhdlərinə qarşı zəruri tədbirlər görüləcəkdir. Mən Bakı qarnizonunun qoşunlarına bolşeviklərin təsir göstərəcəklərindən ehtiyat edirəm, çünki Bakı hazırda Zaqafqaziya bolşeviklərinin fəaliyyət mərkəzidir. Buna görə, xahiş edirəm Bakı xəfiyyə bölməsi qarnizon qoşunlarında zərə rlitəbliğatayolverilməməsiüçünöznəzarətinigücləndirsin və bu sahədə rəhbər şəxslərə hərtərəfli köməklik göstərsin.

Mənim tərəfimdən həmçinin qoşunlarda daxili nizam-intizama nəzarəti gücləndirmək tələb edilmişdir. Bu barədə ona görə xahiş edirəm ki, hərbi nazirlik Bakıda kəşfiyyat işini təşkil etmək və həyata keçirmək üçün kifayət qədər hazırlıqlı, yerli şəraitə bələd olan agentlərə malik deyil.

Ümid edirəm ki, ordunu və bununla da Azərbaycanın müstəqilliyini saxlamaq uğrundakı ümumi mübarizə işində

Hərbi Nazirlik Daxili İşlər Nazirliyindən ancaq Bakıda deyil, respublika ərazisinin hər yerində, hərtərəfli dostluq köməyi görəcəkdir. Bunun üçün mən Zati Alilərinizdən general-qubernatorlara və qubernatorlara müvafiq əmrlə bildirməyinizi xahiş edərdim. Tam artilleriya generalı Mehmandarov, Baş Qərargah rəisi general-leytenant Sulkeviç".[189]

Hökumətin gördüyü tədbirlərə baxmayaraq, bolşeviklər hər vasitə ilə öz işlərini davam etdirməyə, orduda anarxiya yaratmaqla, onun hakimiyyəti müdafiə etmək əzmini sarsıtmağa və öz tərəflərinə çəkməyə çalışırdılar. Bunu 11 may 1919-cu ildə Tam Arlillerya generalı S.Mehmandarovun Baş Nazir N.Yusifbəyliyə məruzəsi də aydın sübuta yetirir:

«Mənim tərəfimdən belə bir məlumat alınmışdır ki, Bakıda müsəlmanlardan ibarət olan xeyli bolşevik təmayüllü şəxs hər vasitə ilə kazarmalara daxil olmağa, təbliğatla ordunun əsaslarını sarsıtmağa və bolşevik ideyalarını aşılamağa can atırlar."[190]

Yenə də arxiv materiallarına istinadən demək olar ki, müstəqi1 Azərbaycan hökumətinin həyata keçirdiyi ardıcıl tədbirlər nəticəsində artıq 1919-cu ilin ikinci yarısına doğru yeni hakimiyyət respublikanın bütün ərazisində möhkəmlənmiş, mərkəzlə yanaşı yerlərdə də idarəetmə orqanlarının tam formalaşdırılmasına başlanmmışdı. Ancaq bu proseslərin getməsində qətiyyən maraqlı olmayan, əksinə həm daxili, həm də xarici təsirlərdən istifadə ilə hər cür maneçilik göstərməyə cəhd edən qüvvələr də fəallaşmışdılar. Necə deyərlər, məsələ hər iki tərəf üçün tam aydın idi: artıq dünyanın aparıcı xarici dövlətləri tərəfindən tanınmaq ərəfəsində olun müstəqil Azərbaycan Cümhuriyyətinin

189 ARDA, f.894, s.7, iş.5, v. 50
190 ARDA, f.894, s 10, iş.96, v. 30

sonrakı inkişafının qarşısına sədd çəkilməsə, onu öz yolundan sapdırmaq mümkün olmayacaqdı. Buna görə də, düşmən qüvvələr də hədsiz quduzlaşmış, görünməmiş fəallıqla öz qara niyyətlərini reallaşdırmağa girişmişdilər. Onlar indi daha ciddi-cəhdlə əhali arasında, xüsusilə hərbi hissələrdə təbliğat aparmağa, fəhlə-kəndli hökuməti qurmaq vədləri ilə özlərinə yeni tərəfdarlar toplamağa çalışırdılar.

Bunun qarşısının alınması üçün nazir Melmandarov və yeni Baş Qərargah rəisi general-mayor Səlimovun imzası ilə 2-ci piyada diviziyasının rəisinə Azərbaycan Respublikasının hərbi nazirinin 18 noyabr 1919-cu il tarixli 399 saylı tam məxfi əmri göndərilir: "Alınmış məlumatlara görə, son vaxtlar, əsgərlər arasında, xüsusilə onların getdiyi fəhlə klublarında bolşevik təbliğatı xeyli güclənmişdir. Hissələrdə bolşevik təbliğatının yayılmasının bütün məsuliyyətini yüksək vəzifəli rəislərin, xüsusilə komandirlərin üzərinə qoyaraq bu təbliğatın qarşısının alınması üçün aşağıdakı tədbirlərin görülməsini əmr edirəm: 1. Adamlara bu təbliğatın bütün fəlakəti izah edilsin. 2.Bütün bolşevik təbliğatçılarının Azərbaycanın qatı düşmənləri olduları izah edilsin. 3.Bütün kazarmalara güclü nəzarət edilsin və bolşevik təbliğatı aparan şəxslər dərhal həbs olunsunlar. 4.Kazarmaların yerləşdiyi ərazilərdə heç bir kənar şəxsin oraya girə bilməməsi üçün etibarlı növbətçilər olsunlar. 5.Hissələrin bütün rütbəli şəxslərinə elan olunsun ki, bolşevizmə uyan şəxslər şəhərdən kənarlaşdırılacaq və qanunla ciddi cəzalandırılacaqlar".

Bu əmr əsasında elə həmin gün 2-ci piyada diviziyası komandirinin və podpolkovnik Zeynalovun imzası ilə 5-ci piyada Bakı alayının komandirinə belə bir əmr göndərilmişdi: "Hərbi nazirə məlumat çatmışdır ki, əsgərlərin bir çoxu fəhlə klublarına və digər yerlərə gedir və burada siyasi və hökumət

əleyhinə bolşevik təbliğatının təsiri altına düşürlər. Belə halı siyasətdən və partiyalılıqdan kənarda dayanmalı olan orduda yolverilməz sayaraq, Zati Aliləri fəhlə klublarına və digər partiya dərnəklərinə getməyi tamamilə qadağan etmək, Bakı şəhər sakini olan əsgərlərə xüsusi diqqət yetirmək əmri vermişdir. Bu əmrin yerinə yetirilməsində günahkar olan əsgərlər məhkəmə qarşısında ciddi məsuliyyət daşımaqla yanaşı, aşkar edilən kimi uzaq məsafələrə göndəriləcəklər. Rəis şəxslər tabeçiliklərində olanlara daimi ciddi nəzarət etsinlər. Axşam yoxlamalarından sonra rota və komandalarda növbətçilər əsgərlərin hamısının yerində olmalarına nəzarət etməli, alay üzrə növbətçilər və onların köməkçiləri isə tez-tez rota və komandaları gəzib şəxsi heyətin sayını yoxlamalıdırlar. Xəbərdarlıq edirəm, mənim tələblərmi yerinə yetirməyənlər vəzifədən kənarlaşdırılacaq və əmri yerinə yetirmədiyinə görə məsuliyyətə cəlb olunacaqdır. Diviziyanın müvəqqəti komandiri, qərargah rəisi podpolkovnik Zeynalov".

Cümhuriyyət tarixinin ən unudulmaz hadisələrindən biri olan Lənkəran qəzasının müxtəlif antiAzərbaycan qüvvələrindən təmizlənərək, idarəçiliyin Azərbaycan hökumətinə tabe etdirilməsində Səməd bəyin müstəsna xidmətləri vardır. Dünyaya göz açdığı bu dilbər diyarın özünü "Muğan respublikası" adlandıran xəyanətkar qüvvələrin və onlara bu işdə havadarlıq edənlərin fəaliyyəti nəticəsində 1919-cu ilin iyun ayına qədər müstəqil respublikanın hüdudlarından kənarda qalması onu, Azərbaycanın bütövlüyü yolunda xidmət göstərməyi ən müqəddəs vəzifə borcu sayan Səməd bəyi ciddi narahat edirdi. O, Lənkəranı bolşeviklərin də daxil olduğu qaragüruhun əlindən xilas etmək üçün bu gün əyninə general mundiri geyinib qayıtmışdı. O bu gün 40 ıl əvvəl onun kimi türk balaları üçün əlçatmaz sayılan hərbi şöhrət və şücaətin

ən yüksək zirvəsində dayanmışdı. Ancaq onun bütün bunlar barəsində düşünməyə nə vaxtı, nə də həvəsi vardı. Ölkənin taleyi üçün hər günün deyil, hər saatın mühüm əhəmiyyət kəsb etdiyi bir vaxtda başqa cür də ola bilməzdi.

"Azərbaycan Respublikası hökumətinin iradəsi ilə mən Lənkəran qəzasına vətəndaş müharibəsini birdəfəlik kəsmək, qayda-qanun yaratmaq, yerli əhalini zalımlardan və qatillərdən qurtarmaq üçün dəstə göndərirəm. Azərbaycan qoşunları Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu yerin bütün millətlərdən olan əhalisi üçün qanunçuluğun və ədalətin müdafiəçisi kimi gəlir. Silahlı Qüvvələrin himayəsi altında ölkənin bütün sahələrinin idarəçiliyində təxirəsalınmadan mülki idarəçilik tətbiq ediləcəkdir... Bununla yanaşı xəbərdar edirəm ki, hər hansı komitə, yaxud "Muğan respublikası" şəklində heç bir özbaşına təşkilatın olmasına yol verilməyəcəkdir. Lənkəran qəzasında yalnız Azərbaycan Respublikasının hakimiyyəti tanınacaqdır və onun sərancamlarını yerinə yetirməyənlər qiyamçı kimi hərbi dövrün qanunlarına uyğun məsliyyət daşıyacaqlar. Xəbərdarlıq edirəm ki, rus əhalisinə qarşı heç bir qarətə və zorakılığa yol verilməməlidir, çünki onlar da qəzanın digər millətlərinin nümayəndələri ilə bərabərhüquqlu Azərbaycan Respublikasının vətəndaşlarıdır... Öz növbəmdə mən dəstə rəisinə qoşunların əhaliyə heç bir zərər verməməsi və mülki əhaliyə qarşı hər cür zorakılıq edənləri ciddi cəzalındırmağı əmr etmişəm." Bu sətirlər, hərbi nazir S.Mehmandarovun Lənkəran qəzasının əhalisinə 4 iyun 1919-cu il tarixli müraciətindən götürülmüşdür.[191]

Birinci müstəqillik dövründə də gənc respublikanın ən çox narahatlıq doğuran bölgələrindən biri Qarabağ bölgəsi idi. O zaman da ərazi iddiaları ilə Azərbaycanı müharibəyə

191 ARDA, f.894, s.10, iş. 124, v. 15-16

cəlb etməyə çalışan ermənilər İrəvanda, Zəngəzurda, Naxçıvanda, Qarabağda kütləvi qırğınlar törədir, həmin ərazilərdəki kəndlərin yerli türk, müsəlman əhalisini öz dədə-baba yurdlarını tərk etmək məcburiyyəti qarşısında qoyurdular. Görünməmiş vəhşiliklərlə həyata keçirilən bu soyqırım aksiyalarında nəinki Andranik kimi qaniçən cəlladlar, həmçinin Ermənistan hökumətinin tabeliyində olan hərbi qüvvələrin bir çox nümayəndələri də iştirak edir, qədim türk yurdlarının talanmasında xüsusi canfəşanlıq göstərirdilər. Ocaqları söndürülmüş yerli əhalinin Azərbaycanın içərilərinə axışmaqdan başqa çarəsi qalmırdı.

Tiflişdən general Sulkeviçin adına göndərilən 18 aprel 1919-cu il tarixli teleqram göstərir ki, həmin illərdə ermənilər nəinki qədim Azərbaycan torpaqlarına, hətta Türkiyə ərazilərinə göz dikmişdilər: "Soçı istiqamətində irəliləyən gürcülər zabitlərdən ibarət könüllülər alayını əsir alıblar. Mənim tərəfimdən Aleksandropolsk dəstəsinin rəisi general Ospyantsın əmri ələ keçirilmişdir. Bu əmrdə əhaliyə Qars vilfyətinin Ermənistanın tərkibinə bir hisssə kimi daxil olduğu elan edilir. Hökumətin və müttəfiqlərin sərancamına uyğun olaraq, erməni hökumətinin iradəsi qanunsuz sayılmışdır. Şayiələrə görə ingilislər ultimativ qaydada naxçıvanlılara Ermənistan hakimiyyətini tanımağı təklif etmişlər. Naxçıvan əhalisinin etirazı ilə əlaqədar ingilis zirehli maşını və erməni qoşunları hərəkətə başlamışdır. №1548. Əliyev".

Məhz belə ağır bir dövrdə Azərbaycan hökumətinin Qarabağda həyata keçirdiyi tədbirlərin operativliyi və səmərəliliyindən çox şey asılı idi. Bununla əhalidə dövlətin onları müdafiə elmək qüdrəti və qüvvəsinə malik olduğu inamı yaradıla, torpaqlarımızın boşaldılmasının qarşısı alınardı. Əlbəttə, gənc hökumət qeyd edilən sahədə az iş

görməmişdi və bu işdə Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun da kifayət qədər böyük xidmətləri olmuşdur. Yalnız oxucuların diqqətini Qarabağa hökumət adamlarımız tərəfindən necə böyük diqqət yetirildiyini göstərən bir fakta cəlb etməklə kifayətlənirik.

Baş Nazir N.Yusifbəylinin və hərbi nazir S.Mehmandarovun Qarabağa gəlmələri haqqında məlumat verən "Azerbaycan" qəzeti 3 avqust 1919-cu il sayında yazırdı: "Qarabağın həyatında daha əlamətdar bir hadisə - bu 29-30 iyul günləri oldu. Bu günlərdə Qarabağ özünün ən əziz və sevimli qonaqlarını - Gəncə qubernatoru Rəfibəyovun müşayət etdiyi Baş Nazir N.Yusifbəyllni və hərbi nazir S.Mehmandarovu qəbul etmək sevincini yaşadı. Qonaqlar iyulun 29-da Xankəndinə gəldilər, orada qoşunların paradı oldu. Paradı Baş Nazir N.Yusifbəyli qəbul etdi... İyulun 30-da əziz qonaqlar Şuşaya gəldilər. Şəhərdə qonaqlar ruhanilər və əhali tərəfindən duz-çörəklə qarşılandılar. Sonra qonaqlar Azadlıq meydanına gəldilər və burada ruhanilər və əhali tərəfindən nitqlər söyləndi. Cavab nitqi söyləyən Baş Nazir müsəlmanların başqa millətlərin nümayəndələri ilə dinc yanaşı yaşamalarının zəruriliyindən danışaraq, qeyd etdi ki, bunsuz Azərbaycanın rifahı mümkün deyil."[192]

İndisə Nəsib bəyin, Səməd bəyin nitq söylədiyi gözəl Şuşa torpağı erməni tapdığı altında öz xilaskarını gözləyə-gözləyə inləyir. Ancaq qəvi düşmən də yaxşı bilir kı, Şuşanın və başqa işğal edilmiş ərazilərimizi, XX əsrin əvvəllərində Azərbaycandan qopardığı torpaqlara qata bilməyəcək, tez-gec o yerlər azad ediləcək.

Bu günə qədər Səməd bəy haqqında yazan müəlliflər (Ə.Şıxlinski "Xatirələrim", SSRİ EA 1944, Hacıağa

192 "Azerbaycan" qəzeti, 1919-cu il, 3 avqust

İbrahimbəyli (Səməd bəyi yaxından tanıyan bir şəxs olub və mayor rütbəsindək yüksəlib) "Səməd bəy Mehmandarov" 1946-cı il, onun ümumxalq, ümumdövlət işinə necə məsuliyyətlə yanaşdığını, hətta bu məsələlər ən yaxın, ən doğma adamlanna aid olduqda belə heç bir güzəştə getmədiyini dəfələrlə qeyd ediblər. Belə məqamlardan biri haqqında Azərbaycanda ilk müstəqil xüsusi xidmət orqanı - "Əksinqilab ilə mübarizə təşkilatı"nm rəisi Nağı bəy Şıxzamanlı Türkiyədə mühacirətdə olduğu zaman qələmə aldığı xatirələrində söhbət açıb. Bakıda tutulan genaral Denikinin agenti kapitan Starkov onda tapılan hərbi sənədləri guya general S.Mehmandarovun nəvəsinin mürəbbiyəsi vasitəsilə əldə etdiyini bildirir. Bunun həqiqiliyini yoxlayan Nağı bəy vəzifəsini yerinə yetirərək, Müdafiə Komitəsinə raport təqdim dir və məsələ barəsində hökumət rəhbərliyinə müvafiq məlumat çatdırır:

"Verdiyim raport Komitədə oxunarkən general Mehmandarlının avtomobilinin idarəmizin qapısının qarşısında dayandığını gördüm. Növbətçi general Mehmandarlının gəldiyini bildirdi. Mən onu qarşıladım. Çox əsəbi idi. Nağı bəy, siz bu alçağın raportuna inandınızmı? deyə məndən soruşdu. Mən də "Paşam, sənədi verəni gizlətmək üçün mürəbbiyə məsələsini ortaya atır. İcazənizlə iki günə tamamilə bu məsələni aydınlaşdıracam. Ancaq, qərargah zabitlərindən şübhələndiklərimi nəzarət altına götürmək üçün indidən sizin razılığınızı istəyirəm" cavab verdim. General Mehmandarlı dedi: "Bu milli və istiqlalımızla bağlı bir işdir. Kimi istəsəniz nəzarət altına alın, məndən icazə istəməyin. Ancaq mən bu alçağı görmək istəyirəm". Starkovun gətirilməsini əmr etdim. General əyləşmir, otaqda gəzirdi. Starkov içəri girdi və generalı görcək diz çökdü. General bu mənzərə qarşısında: "Alçaq, qorxaq, sənin cəzan ölümdür. Sənin kimi şərəfsiz və qorxaq

bir kapitanı rus ordusunda ilk dəfə görürəm" dedi və mənimlə xudafizləşib getdi. Kapitan hələ də diz çökmüş vəziyyətdə durmuşdu."[193]

Azərbaycan Respublikası Dövlət Arxiv Fondunda işləyərkən Səməd bəy Mehmandarovla bağlı indiyədək heç bir yazılı mənbədə (kitab, məqalə və s.) rast gəlmədiyim iki faktla, onun hərbi nazir kimi imzaladığı iki əmrlə tanış oldum. Səməd bəyin 8 aprel 1920-ci ildə imzaladığı 197 saylı əmrdə deyilir: "Bu il aprel ayının 6-da səhhətimlə bağlı istefaya getdiyim barədə xidmətdən azad olunmağım üçün raport vermişəm. Bu barədə Hərbi Nazirlik üzrə elan edir, nazir müavini artilleriya general-leytenantı Şıxlinskiyə qanuni surətdə Hərbi Nazirliyin müvəqqəti idrə olunmasına başlamasını təklif edirəm. Yeni hərbi nazirin təyin olunmasına qədər məni xəstə hesab edin".[194]

İkinci əmr birincidən 16 gün sonra, 24 aprel 1920-ci ildə imzalanmışdır. Həmin 222 saylı əmr hərbi nazirin yenidən öz vəzifələrinin icrasına başladığı barədədir: "Bu gündən mən öz vəzifələrimin icrasına başlayır və nazir müavini artilleriya general-leytenantı Şıxlinskiyə özünün birbaşa vəziflərinin icrası ilə məşğul olmasını təklif edirəm. Hərbi Nazirliyin bütün hərbi hissələrin, qərargahların, idarələrin, müəssisələrin, təsisatlarının rəislərinə bildirirəm ki, öz istəkləri, rəhbərliyin sərəncamı, yaxud başqa dövlət orqanına keçmələrindən asılı olmayaraq xidmətdən azad edilən zabitlər və məmurlar mənzil hüququndan məhrum olunurlar. Onlar mənzilləri boşaltmalı, ya da onun sahibləri ilə qarşılıqlı razılaşma əsasında dəyərini ödəmələdirlər.". Hər iki əmri nazirlə birlikdə Baş Qərargah rəisi

193 Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri, Bakı, Azərbaycan nəşriyyatı, 1997, s. 88
194 ARDA, F. 2894, s. 6, iş 7, v. 169

vəzifələrinin müvəqqəti icraçısı general-mayor Ə.b.Qaytabaşı imzalayıb.[195]

Səməd bəy Mehmandarovun hərbi nazir vəzifəsindən səhhətinə görə istefa verməsi o qədər də ağlabatan deyil. Çünki onun 16 gün sonrakı əmri və bu qərarından sonra təqribən 11 il yaşaması səhhətinin istefaya səbəb olacaq qədər ağır olması ehtimalını aradan qaldırır. Bəs Azərbaycana bütün varlığı ilə xidmət edən bir insanın ölkədə hökumət böhranının davam etdiyi bir vaxtda son dərəcədə mühüm bir postu tərk etmək fikri nədən qaynaqlana bilərdi. Bəri başdan deyim ki, ortada dəlil-sübut sayılacaq arxiv sənədi, yaxud hansısa etibarlı mənbənin məlumatı olmadığından bu suala istənilən cavab subyektiv və birtərəfli olacaq. Yalnız onu qeyd etmək lazımdır ki, səbəb, yaxud səbəblər arasında daha çox uyğun gələni həmin vaxt Azərbaycanda həm ölkə daxilində, həm də xaricdən gözlənilən təhlükələr qarşısında Səməd bəy Mehmandarovun qətiyyətli və birmənalı mövqeyi yeni hökuməti formalaşdırmaq istəyən qüvvələrin mövqeyi ilə nəinki uyğun gəlmirdi, buna daban-dabana zidd idi. Bəlkə də 6-cı hökumətin qurulmasına cavabdeh şəxslər və qüvvələr üzərlərinə düşən vəzifənin yerinə yetirilməsi üçün onun istefasını şərt kimi irəli sürmüşdülər. Bunda xarici təzyiqlərdən qaynaqlanan və ölkənin işğalı ilə nəticələnən proseslərin də təsiri ola bilərdi. Bütün bunların cavabını dəqiq bilmədiyimiz və ən başlıcası əlahəzrət faktın otada olmamasını nəzərə alıb məsələyə aydınlıq gətirilməsini zamana buraxırıq.

Bir daha qeyd edim ki, Səməd bəyin müstəqil respublikanın hərbi naziri kimi genişmiqyaslı fəaliyyətinə və göstərdiyi tarixi xidmətlərə şahidlik edən yüzlərlə arxiv sənədi, zəmanəsinin görkəmli şəxsiyyətlərinin onun haqqında yazdığı

195 ARDA, F. 2894, s. 6, iş 7, v. 188

xatirələr və başqa materiallar var. Yəqin ki, bütün bunlar barəsində gələcək tədqiqatçılar daha ətraflı söhbət açacaq, onun nəsillərə nümunə olan həyatı və əməllərini doğma xalqına hərtərəfli çatdıracaqlar. Əlbəttə, 1920-ci ilin aprel işğalı ilə Azərbaycanın müstəqil dövlətinə qəsd edilməsəydi Səməd bəyin cəmi il yarım çəkmiş nazirlik fəaliyyəti davam edər, o, güclü və mütəşəkkil ordu yaratmaq sahəsindəki planlarını daha dolğun şəkildə reallaşdıra bilərdi. Aprel işğalı nəinki onun və dostu Əliağa Şıxlinski kimi hərbi dühaların, həmçinin gənc dövlətin özü kimi gənc sərkərdələrinin də arzularını yarımçıq qoydu. Aralarında xarici ölkələrə mühacirət edənlər, bolşevik gülləsinə tuş gələnlər və repressiyanın başqa formalarına məruz qalanlar oldu. O və dostu Əlağa Şıxlinski üçüncü qrupa düşdülər. Hər ikisi bir müddət həbs edilərək, bolşevik çekasının cəza üsullarının "ləzzətini"gördülər.

Səməd bəy Mehmandarov 1920-ci il iyun ayının 3-də həbs edildi Ancaq bu gözlənilən aksiyanın reallaşdırılması üçün işğaldan ötən müddət ərzində bir neçə hazırlıq tədbiri görülmüşdü. Bunlardan biri 11-ci ordunun 5-ci Bakı alayının hərbi komissarının 11-ci ordu hərbi şöbəsinin rəisinə yazdığı məlumat idi. Həmin məlumatda deyilirdi: "Məruzə edirəm ki, 1 iyun 1920-ci ildə mənim tərəfimdən alayın məxfi kağızlar yeşiyi açılmış və həmin kağızların arasından hələlik 399, 88, 96 saylı kağızlar tapılmışdır. Onları sizin sərancama göndərirəm."

Bu sənədlər 5-ci alayın hərbi rəhbərliyin tapşırığı ilə bolşevik təhlükəsinə qarşı hansı tədbirlər gördüyünü, yaxud görməyi planlaşdırıldığını sübuta yetirirdi. Artıq yeni hökumətin utanmadan əksinqilab adlandırdığı bu hərəkətlərin arxasında əslində müstəqil dövlətin özünü təxribat xarakterli təbliğatlardan qorumaq kimi tam qanuni tələbi dayandığına açıq-aydın göz yumulurdu. Çekanın «bolşeviklər təqib

ediliblər, deməli qatı cinayətə yol verilib" məntiqi istənilən şəxs barəsində istənilən hökmün çıxarılmasına əsas verirdi.

İkinci bu tipli sənəd yeni hökumətin hərbi dəniz komissarı Çingiz İldırım tərəfindən 11-ci ordunun xüsusi şöbə rəisi Pankratova göndərilib. Özü də birincidən fərqli olaraq, burada keçmiş hərbi xadimlərin ciddi cəzalandırılmasına açıq təhrik ifadə edilib:

«Yol. Pankratova. Mənim teleqramlarıma və məlumatlarıma baxmayaraq, keçmiş hərbi nazir Mehmandarov və Bakı komissarının köməkçisi Azad Vəzirov hələ də azadlıqdadırlar. Yuxarıda göstərilən şəxsləri təcili həbs etmək, keçmiş polis Mirzəyevin qohumu qatı müsavatçı Axundov İbrahimi, "Axundzadə"ni tutub saxlamaq barədə tədbir görün. Hərbi Dəniz komissarı İldırım".

Artıq heç bir qüvvə Səməd bəyi həbs olunmaqdan qurtara bilməzdi. Nə Qornizon rəisinin 18 may 1920-ci il 10 saylı əmri ilə verilmiş şəhadətnamə: "Bu sənədi təqdim edən vətəndaş Mehmandarava 27139 №-li "Naqan" tapançasını saxlamağa və üstündə daşımağa icazə verilir. Əsas: Qornizon rəisinin 18 may 1920-ci il 10 saylı əmri", nə də onun Bakı şəhər komendantından 22 may 1920-ci ildə aldığı vəsiqə: "... vətəndaş Mehmandarov mənim tabeliyimdə olan idarədə 232 №-li qeydiyyat kitabçasında qeydiyyatdadır. Bakı şəhəri və onun rayonlarının komendantı hərbi komissar".

Artıq daha yüksək məqamdan başqa tələb irəli sürülmüşdü və komissarın bu tələbi Azərbaycan SSR Fövqəladə Komissiyası tərəfindən məmuniyyətlə yerinə yetirildi. 226 saylı orderlə 3 iyun 1920-ci ildə: "Komissar Vekeşpevə Mehmandarovun mənzilinin axtarışı və həbs edilməsi həvalə olundu".

Sənədin arxasında həmin komissarın qeydi var: "Məhbusu qəbul etdim".

4 iyun 1920-ci ildə Kains Vekeşpev tərəfindən həbs edilmiş 64 yaşlı Azərbaycanın hərbi naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarov həbsxanada Safronov tərəfindən qəbul edilir və Az.SSR FK-nm 953 saylı həbs kağızı təqdim olunur.

Elə həmin gün 226 saylı order əsasında Orlovsk küçəsi 116 №-li evdə yaşayan Mehmandarovun mənzilində "yol. Kamyatina və Feoktistovun iştirakı ilə" axtarış aparılıb və axtarış zamanı aşağıdakılar aşkarlanaraq FK-ya aparılıb: "Brauninq" tapançası №19294, "Naqan" №27139, yeddi ədəd güllə ilə birlikdə müxtəlif cür sənədlər və yazışmalar, foto kartoçkası və paqonlar".

Bu gün DTX arxivində saxlanılan Səməd bəy Mehmandarov haqqında istintaq işində belə bir qeyd var: "Azərbaycanın keçmiş hərbi naziri Mehmandarov Səməd Sadıq oğlunun işi № 485, 11-ci ordunun Hərbi İnqilabi Şurası yanında xüsusi şöbə. 4 iyun 1920-ci il. 30 iyul 1920-ci il".

Başqa sənədlərdən isə aydın olur ki, istintaq işi həbs aksiyasindan 14 gün sonra, 17 iyun 1920-ci ildə Az.SSR FK-nın 577 saylı işi kimi başlamış, 18 avqust 1920-ci ildə isə indiki sayla qeydə alınaraq, davam etdirilmişdir.

Əslində Səməd bəyin və keçmiş hökumətdə yüksək vəzifə postu tutmuş bir neçə başqa görkəmli hərbi və siyasi xadimin həbsində təəccüblü heç nə yox idi. Bu hakimiyyət dəyişikliyi ilə əlaqələndirilməkdən başqa həmin ərəfədə baş vermiş çox mühüm bir hadisə - Gəncə üsyanı ilə də bağlı ola bilərdi. 1920-ci ilin may ayının sonlarında olmuş həmin üsyanda bolşeviklər on min nəfərə yaxın itki vermişdilər və sonrakı ərəfədə belə kütləvi çıxışların başqa ərazilərdə gözlənilməsi

barədəki məlumatlar həbs tədbirlərini tam əsaslandırırdı. İstintaqın başlıca məqsədi Səməd bəyin və başqalarının bu üsyanla nə dərəcədə əlaqəli olduqlarını aydınlaşdırmaqdan və ən kiçik əlaqə ehtimalı aşkarlandığı halda onu istənilən vasitə ilə sübuta yetirməkdən ibarət idi. Əlbəttə, bu ehtimal doğrulmadığı təqdirdə ehtiyatda kifayət qədər başqa ittihamlar vardı və hökumətin hərbi naziri olmuş bir şəxsin nədəsə günahkar olduğunu aşkarlamaq üçün rəsmi sənədləri bir-iki gün araşdırmaq yetərli idi. Təkcə orduda bolşevik təhlükəsinə qarşı tədbirlər görülməsinə aid belə sənədlər isə onlarla idi və onlardan bir neçəsini artıq diqqətə çatdırmışıq. Yeni faktlara, yaxud şahid ifadələrinə gəlincə isə, FK heç bir korluq çəkmirdi. Müstəqil Azərbaycanın dövlət adamlarını ittiham etməyə istənilən qədər erməni, rus şahidi həvəslə ifadə verirdi. Əlbəttə, bu prosesdən əksəriyyəti bolşevik təbliğatına uymuş, yaxud da şəxsi-qərəzlik prinsipi ilə intiqam aldığını düşünən bəzi azərbaycanlılar da kənarda qalmırdılar. Ancaq nədənsə, Səməd bəylə bağlı bu üsullardan çox cüzi isitfadə olunub. Bəlkə də bu generalın müəyyən müddətdən sonra Moskvaya aparılaraq, azadlığa buraxılması ilə əlaqədar olub. Yaxud inandırıcı olmasa da, belə yüksək səviyyəli bir hərbçiyə qarşı primitiv üsullarla ittiham irəli sürməkdən çəkiniblər.

S.Mehmandarovun daha çox Gəncə üsyanı ilə bağlılığının dəqiqləşdirilməsi məqsədilə həbs edildiyini iki fakt da sübuta yetirir. Bunlardan birincisi və təkzibedilməzi N.Nərimanovun Leninə 1 avqust 1920-ci ildə yazdığı 2 səhifəlik şəxsi məktubudur. Surəti arxiv-istintaq işində saxlanılan bu məktub 20.09.1956-cı ildə Az.KP MK-nın katibi Əfəndiyevin göstərişi ilə DTK sədri vəzifəsini icra edən Səmədov tərəfindən ona göndərilmişdir: "Əziz Vladimir İliç! Gəncə üsyanı zamanı köhnə Azərbaycan ordusunun bütün zabitləri həbsə alınmışdı.

Bu məktubu Sizə təqdim edən məşhur general Mehmandarov və Şıxlinski də onların içərisində idi. Diqqətli yoxlama nəticəsində məlum oldu ki, generalların üsyanla əlaqəsi olmamışdır. Lakin mövqeyimiz sakitləşənə qədər və ümumi işimizə kömək məqsədilə biz hər halda bu qərara gəldik ki, generalları qərargahda işləmək üçün Sizin sərancamımza göndərək, çünki onlar hərbi mütəxəssislər olmaq etibarı ilə əvəzsizdirlər. Onlardan biri Şıxlinski Nikolay ordusunda "artilleriyanın Allahı" sayılırdı. Polşa cəbhəsi qurtarana qədər qoy onlar Moskvada işləsinlər, sonra Sizdən xahiş edəcəyəm ki, bizim əsgəri hissələrimizi təşkil etmək üçün onları buraya göndərəsəniz. Bu müddətdə onların qayğısına qalmaq lazımdır. Kommunist salamı ilə N.Nərimanov".

Göründüyü kimi, məktubda Azərbaycanın hər iki generalı Gəncə üsyanında iştiraklarının olub-olmadıqlarının müəyənləşdirilməsi məqsədilə həbs edildikləri göstərilir.

İkincisi, istintaq işində saxlanılan Azərbaycan 1-ci piyada diviziyasının (general Cavad Şıxlinskinin komandanlığı altında) Qərargah rəisi Vasili Nikolayeviç Sokolovun istintaq işidir. Onun həbsi ilə bağlı qərarda deyilir:

"Mən 11-ci ordunun xüsusi şöbəsinin baş müstəntiqi Qubin 20-ci atıcı diviziyanın Qərargah rəisi Könüllü Ordunun generalı ilə əlaqəyə girməkdə günahlandırılan V.N.Sokolovun istintaq işinə baxaraq müəyyən etdim: Baş qərargahın polkovniki Sokolov bütün vətəndaş müharibəsi ərzində daim Gəncə üsyanını təşkil və ona rəhbərlik edən Cavad Şıxlinskinin başçılıq etdiyi Azərbaycan ordusu 1-ci piyada diviziyasının qərargah rəisi olub. Gürcüstandan general İrmanovun Əliağa Şıxlinski və Mehmandarova ünvanladığı məktub I -ci piyada diviziyasının qərargahına daxil olub, burada gerbli, sürquçlu, möhürlə məxfi xidməti məktub şəklinə salınmış və bu şəkildə

ünvanına göndərilmişdir. Bu işdə möhürün yalnız onda saxlandığı nəzərə alınmaqla Sokolovun iştirakı şübhəsizdir. Ona görə də Sokolova qarşı irəli sürülən ittihamı qüvvədə saxlamağı düzgün sayıram. Müttəhim Sokolovun ÜFK XŞ-nə göndərilən Mehmandarovun və Şıxlinskinin fəaliyyəti ilə tanışlığını və hərbi işi bildiyi halda 11-ci orduda və Azərbaycan qırmızı hissələrində xidmət göstərmək istəmədiyni nəzərə alaraq, qərara gəldim: Vasili Nikolayeviç Sokolov 575 №-li işlə birlikdə UFK-nm sərəncamına göndərilsin". Sənədin üstündə 11-ci ordu xüsusi şöbəsinin rəisi Pankratovun razılaşdığını bildirən qeydi var.

Müstəntiq Qubinin 1920-ci il 29 iyun tarixində casusluqla bağlı ittiham olunan Şahtaxtinski İlyas Əliqulu oğlunu dindirərək tərtib etdiyi protokolda belə bir qeyd var: "Hərbi nazir Mehmandarov haqqında deyə bilərəm ki, o da bolşeviklərə və sovet hökumətinə pis münasibət bəsləyirdi. Mən bunu onunla bağlı deyirəm ki, mən bolşevikləri Mehmandarovun şəxsi əmri ilə həbs etmişəm və onları tək çörəklə suyun ümidinə qoymuşam. Həmçinin Mehmandarovun əmri vardı ki, bolşevik fəaliyyəti ilə azacıq əlaqəsi olanları həbs edib ciddi rejim altında saxlamaq..."

Bütün bunlardan sonra əlində kifayət qədər dəlil-sübut topladığını güman edən müstəntiq Qubin iyul ayının 29-da 11-ci ordu xüsusi şöbəsinin istintaq materialları əsasında qərar verir: "Mən keçmiş Azərbaycan Respublikası hərbi naziri, tam artilleriya generalı, 64 yaşlı Səməd Sadıq oğlu Mehmandarovun işinə baxaraq müəyyən etdim: yuxarıda adı çəkilən vətəndaş Mehmandarov əksinqilabi Müsavat partiyasının vəzifəyə qoyduğu adamdır və 399 №-li əmrdən göründüyü kimi onu müdafiə etməklə, orduda bolşevizmin aradan qaldırlması üçün həmin partiyanın qarşısında duran vəzifələri həyata

keçirmişdir. Mehmandarovun əksinqilabi fəaliyyəti, yaxud Azərbaycanda sovet hakimiyyətinin devirilməsi məqsədilə törədilən hadisələrə aidiyyatı barədə digər məlumatlar yoxdur. Bunu nəzərə alaraq qərara gəldim: vətəndaş Səməd Sadıq oğlu Mehmandarov keçmiş hərbi nazir kimi ÜFK xüsusi şöbəsinin səraəncamma göndərilsin."

Sənədin üstündə Pankratovun qeydi var: "Qərar təsdiq olunur əksinqilabi hökumətin naziri kimi göndərilir".

Moskvaya göndərilən Mehmandarov doldurduğu Sorğu vərəqində 1914-cü il müharibəsinə qədər nə ilə məşğul olub sualına cavabda: "21-ci piyada diviziyasının rəisi olduğunu", müharibədən fevral inqilabına qədər "2-ci Qafqaz Korpusunun komandiri və dəfələrlə birləşmiş korpuslar komandiri olduğunu", 1917-ci ilin avqustundan 1918-ci ilin yanvarın 1-nə qədər Alekesandrovski yaralılar komitəsinin üzvü olduğunu" göstərir. Gedişinin səbəbi kimi "Az.SSR hərbi komissarı tərəfindən RSFSR İnqilab Şurasına ezam olunduğunu" bildirir və bütün bunlardan sonra isə yazırdı: "Sənədlərim Xüsusi Şöbədədir".

Əlavə şərhə ehtiyac yoxdur.

Moskvaya göndərilərkən Səməd bəyə və ailə üzvlərinə İnqilabi Komitənin müvafiq vəsiqələri təqdim edilir. Çünki ən qısa müddət ərzində bolşeviklər ölkədə elə sərt tədbirlər görmüşdülər ki, vətəndaşlar əllərində pasportları, başqa sənədləri olduğu halda, bu komitə tərəfindən şəxsiyyətini təsdiqləyən vəsiqələr olmadan daimi yaşayış yerini dəyişə, başqa yerə gedə bilməzdilər. Artıq o qədər də uzaq olmayan gələcəkdə dünyanın 6-da birində tətbiq ediləcək əhalinin ümumi nəzarət altında saxlanılması, kütləvi izlənilməsi kimi repressiv metodlar həyata ilk vəsiqəsini almaqda idi.

S.Mehmandarov ÜFK Xüsusi İdarəsi komendantlığı tərəfindən 18 avqust 1920-ci ildə qəbul edilib və bu vaxt onun üstündən hansı əşyaların çıxdığı barədə qeyddə "qızıl qolbağı ilə birlikdə, qızıl saat" olduğu göstərilib.

1 oktyabr 1920-ci ilə aid 346 saylı agentura qeydindən isə aydın olur ki, hər iki general Moskvaya hərbi müşayətlə deyil, sərbəst gəlmişlər. "Alınmış arayışlara görə, vətəndaşlar Mehandarov və Şıxlinski Moskvaya gələn kimi həbs edilib, Butırsk türməsinə göndərilmişlər. Hazırda onların harada olduqları bilinmir."

Onlar isə ÜFK Xüsusi Şöbəsində saxlanılırdılar və bunu 10 oktyabr 1920-ci ildə həmin şöbəyə Az.SSR-in fövqəladə nümayəndəsi tərəfindən göndərilən məktub da sübut edir: "Xahiş edirəm mənim katibim Şahbazova hərbi işin mütəxəssisi kimi Bakıdan Moskvaya göndərilən Az.SSR vətəndaşları Əliağa Şıxlinski və Səməd Mehmandarovun işlərinin vəziyyəti barədə məlumat verməkdən imtina etməyəsiniz. Fövqəladə Səlahiyyətli nümayəndə B.Şahtaxtinski"

Haşiyə çıxıb qeyd edək ki, bir diplomat kimi tanınmış Behbud ağa Şahtaxtinski 1881-ci ildə məşhur Şahtaxtı kəndində anadan olmuşdur. 0,1917-18-ci illərdə Bakı soveti İcraiyyə Komitəsinin, Bakı XDS fövqəladə komissiyasının üzvü, "Hümmət" təşkilatı mərkəzi komitəsinin sədri olmuş, sovetləşmədən sonra Xalq Ədliyyə komissarı, eyni zamanda Azərbaycanın RSFSR-dəki fövqəladə səlahiyyətli nümayəndəsi işləmişdir. Daha sonra isə Türkiyədə Azprbaycanın səlahiyyətli nümayəndəsi və Sovet-Türkiyə danışıqlarında Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdur. 1920-ci il sentyabrın 30-da RSFSR və Azərbaycan arasında hərbi iqtisadi ittifaq haqqında müqaviləni Leninlə birgə B.Şahtaxtinski imzalamışdır.

Bəli, başqa cür də ola bilməzdi. Azərbaycan milli hökumətində hərbi nazir və onun müavini işləmiş şəxslərə onların ordu quruculuğunda istər nəzəri, istər təcrübi baxımdan əvəzsiz hərbi dühalar olduqları etiraf edilsə belə, səviyyələrindən qat-qat aşağı vəzifələrin etibarı da mümkün deyildi. Səməd bəy Mchmandarov həbsxanada saxlanılarkən guya ona hörmət əlaməti olaraq mundirinin və ordenlərinin gətirilməsinə, xalça verilməsinə mane olmamağı tapşırmaqla bu şəxsiyyətin böyüklüyü qarşısında nə qədər cılız göründüklərini başa düşürdülər. Ancaq Azərbaycanın müstəqilliyi yolundakı tarixi xidmətləri barədə düşünəndə, yeni hakimiyyətin nəzərində Səməd bəyin bolşevik düşməni olduğunu dəlil-sübutsuz təsdiqləyən bu faktı yada salanda onu nəinki vəzifələrə yaxın buraxmaq istəmir, hətta əllərində imkan olsa, ən ağır cəzaya layiq görmək istəyirdilər. Elə bunun nəticəsi idi Səməd bəy dünyasını dəyişdikdən xeyli sonra da onun yeganə oğlu İqoru incidir, sanki atasının intiqamını almaqlarından həzz duyuldular. Halbuki Azərbaycan milli dövləti çar ordusunda xidmət göstərmiş generala etibar edib, ölkənin müdafiəsi sahəsində ən məsul postu ona tapşırmışdı.

3-cü Sibir korpusunda artilleriya rəisi təyin edilidiyi 1908-ci ilin 18 noyabrında oğlunun dünyaya gəlməsindən hədsiz şad olan S.Mehmandarov onun adını Pir qoyub, sonra isə bu ad dəyişdirilərək İqor edilib. Səməd bəy 1915-ci ildə 2-ci Qafqaz Korpusunun komandanı təyin ediləndə İqorun yeddi yaşı, Azərbaycanın ikinci hökumətində nazir olanda 10, həbs olunanda isə cəmi 12 yaşı vardı və təbbi ki, bu yaşda uşağın atasının fəaliyyətində hansı şəkildəsə iştirakı qeyri-mümkün idi. Ancaq çeka cəlladları üçün bütün bunların heç bir əhəmiyyəti yox idi, əhəmiyyətlisi onun kimin oğlu olması, yeri gəlsə, hətta əsli-köküydü.

Pirin xatirələrindən: “Atamdan sonra tez-tez anamı və məni çekaya çağırırdılar. Min cür hədələyici suallar verirdilər. Suallara düzgün cavab versək də, verməsək də bizi döyüb incidirdilər. Bir dəfə lap cana doyub ağlaya-ağlaya soruşdum ki, axı məni niyə döyürsünüz? Verdiyiniz sualların cavabını mən həqiqətən də bilmirəm, yalandan nə deyim? Mənim günahım nədir?

- Günahınız ondan ibarətdir ki, özünüzə yaxşı valideynlər seçməmisiniz.”

Butırsk həbsxanasının rəisinə 3 noyabr 1920-ci ildə 1512 saylı talon göndərən ÜFK-nın xüsusi şöbəsi “bu sənədi alan kimi Səməd bəy Mehmandarovu təcili həbsdən azad edəsiniz” tapşırığı verir. Həbsdən buraxılan keçmiş hərbi nazir 1921-ci ilin payızında Moskvadan Bakıya qayıdır. Elə həmin il Səməd bəy Mehmandarov Azərbaycan SSR Hərbi-dəniz komissarlığında məsləhətçi vəzifəsində işləmiş, 1924-cü ildən 1927-ci ilin axırına qədər isə Azərbaycan hərbi məktəbində və Zaqafqaziya hərbi-piyada məktəbində dərs demiş, həmçinin Bakı Zabitlər evində fəaliyyət göstərən “Hərbi-elmi cəmiyyət”in sədri olmuşdur. 1928-ci ildə istefaya buraxılan Azərbaycanın ilk və son ordu generalı, Cümhuriyyətin dalbadal dörd hökumətdə hərbi nazir postunu tutmuş Səməd bəy Mehmandarov 1931-ci ilin fevral ayının 12-də Bakıda vəfat etmişdir.

Xalqımız qarşısında müstəsna xidmətlər göstərmiş, hərb tariximizə parlaq səhifələr yazmış Səməd bəy Mehmandarovun 160 illik yubileyi 2015-ci ildə dövlət səviyyəsində qeyd olunmuşdur.

Sultanovların nazir qardaşı - Xosrov bəy Sultanov

Azərbaycan Xalq Cümhuriyyətinin öz müstəqilliyini bütün dünyaya elan etdiyi gün, may ayının 28-də Tiflis şəhərində millət fədaisi Fətəli Xan Xoyskinin sədrliyi ilə təşkil olunan Azərbaycanın birinci hökumət kabinəsində (28 may - 17 iyun 1918-ci il) ən mühüm vəzifələrdən biri, gənc respublikanın müdafiə naziri vəzifəsi Xosrov bəy Əli Paşa bəy (əksər mənbələrdə Paşa bəy kimi verilb) oğlu Sultanova həvalə edilmişdi. Bu təsadüfi deyildi, çünki Milli Şuranın Azərbaycanın istiqlal bəyannaməsini qəbul edən 26 üzvündən biri də Zaqafqaziya Seyminin üzvü olmuş Xosrov bəy Sultanov idi. Gələcəkdə Qarabağın general-qubernatoru kimi hərtərəfli fəaliyyəti də Xosrov bəyin belə yüksək şərəfə layiq görülməsinin heç də təsadüfi olmadığını göstərəcəkdi. Ancaq birinci hökumətin ölkə hüdudlarından kənarda yaradılması bir sıra mühüm dövlət qurumlarının lazımınca təşkili sahəsində qarşıya çoxlu problemlər çıxırmışdı və bu problemlərin bir hissəsini hökumətin Azərbaycan ərazisində fəaliyyətə başlamadığı halda yerinə yetirmək əslində mümkün deyildi. Daxili işlər, hərbiyyə, əkinçilik, əmək və s. nazirliklər bu qəbildən idi. Məhz buna görə də Xosrov bəy Sultanovun respublikanın ilk hərbi naziri kimi nəzərdə tutduğu işlərin böyük qismi ideya olaraq qaldı və onların reallaşdırılması, Azərbaycanda ordu quruculuğu prosesi ikinci hökumətin fəaliyyəti dövrünə, tam artilleriya generalı Səməd

bəy Mehmandarov kimi bu sahənin dərin bilicisi, zəmanəsinin görkəmli hərbi dühalarından sayılan bir şəxsin bu qurumun rəhbəri olduğu dövrə təsadüf etdi. Ancaq qeyd etdiyimiz kimi Xosrov bəyin ilk hərbi nazir postunu tutmağa namizədliyi təsadüfi bir addım deyildi. Onun 1918-ci il may ayının 28-də Nəsib bəy Yusifbəyli və Şəfi bəy Rüstəmbəyli ilə birlikdə Gəncəyə əmin-amanlıq yaratmağa göndərilməsi faktının özü də göstərirdi ki, bu şəxsinAzərbaycan daxilində böyük nüfuzu var.

Bu nüfuz birincisi Xosrov bəyin Zəngəzurun sayılıb-seçilən, əsil-nəcabətli bir ailəsindən çıxmasının – Paşa bəy kimi hörmətli bir şəxsin övladı olması ilə əlaqədardı. Sultanovlar ailəsi böyük mal-mülk sahibi idi. Bəzi məlumatlara görə, Qafan mis mədənləri də böyük maldarlıq və əkinçilk təsərrüfatı olan bu ailəyə məxsus imiş.

Ailənin şöhrətinin yaxın-uzaq ellərə yayılması isə xüsusilə Paşa bəyin böyük oğlu Sultan bəyin adı ilə bağlı olub. O, nəinki Zəngəzurda, Qarabağda, bütün Azərbaycanda ad-san sahibiydi. Bu gün bu adın şöhrəti bütün türk dünyasına yayılıb desək yanılmarıq. Xosrov bəyin böyük qardaşı Sultan bəy Sultanov tariximizin ən ağır dövrlərindən birində xalqı ən ciddi təhlükələrdən xilas etmiş, onun müdafiəsinin təşkili üçün çox böyük işlər görmüş həmin məşhur şəxsdir. Zəngəzur mahalında xalq arasında: «Paşa bəyin ədaləti, Sultan bəyin cəsarəti» zərb-məsəli elə-belə yaranmayıb.

İndiki Laçın rayonunun Kürdhacı kəndində yaşayan Sultan bəyin Çalbayır yaylaqlarında on minlərlə davarı, qaramalı saxlanırmış. Kürdhacıda o dövr üçün müasir olan yağ-pendir zavodu tikdiribmiş. Bu zavodun əsas müştəriləri arasında Hacısamlı, Şəlvə, Kürdhacı meşələrinin qırmızı palıdını konyak istehsal edən zavodlara daşıtdıran Fransa

tacirləri də olub. Sultan bəyin və ailəsinin var-dövlətini mühafizə etmək üçün çox kiçik süvari dəstəsi də varmış. Bu dəstə ilk dəfə 1905-1906-cı illər erməni-müsəlman münaqişəsində Paşa bəyin başçılığı altında Sultan bəyin də iştirak etdiyi döyüşlərdə sınaqdan keçirilmişdi. 1918-ci ildə isə bir qədər də gücləndirilən həmin dəstə digər qüvvələrlə bərabər bölgənin erməni təcavüzlərindən müdafiəsində yaxından iştirak etmişdir.

Sultan bəyin göstərdiyi igidliklər haqqında müxtəlif mənbələrdə və o dövrün hadisələrindən bəhs edən sənədli, yaxud bədii yazılarda kifayət qədər söhbət açılmışdır. Milli qəhrəman kimi bütün Qarabağ, Zəngəzur zonasında ad çıxarmış, xalqın ümid, pənah yeri olmuş Sultan bəy Sultanovun başçılıq etdiyi silahlı milis dəstələri 1917-1920-ci illərdə minlərlə azəbaycanlı ailəsini real ölümdən, erməni təcavüzündən xilas etmişdir. Həmin hadisələrə dair yalnız bir faktı qeyd etmək kifayətdir. Qarabağda nahaq qanlar axıdan Andranikin dəstəsinin əsas hissəsi Zabux dərəsində Sultan bəyin başçılığı altında mühasirəyə alınaraq məhv edilmiş, Qaragöl ətrafında toplanan çoxsaylı erməni silahlılarından 600 nəfər əsir alınmışdır. İrana keçmək istəyən yüzlərlə erməni silahlısı isə Araz çayı yaxınlığında məhv edilmişdir.

Sultan bəy həmçinin dövrünün əsl zəka və ağıl sahibi kimi tanınmış, milli münaqişələrin həlli ilə bağlı bir sıra məsələlərin çözülməsində müxtəlif missiyalar tərəfindən Azərbaycanla Ermənistan arasında aparılan danışıqlarda iştirak etmiş, bəzi hallarda hətta son söz söyləmək hüququna malik olmuşdur. Azərbaycanda demokratik hökumət devrildikdən sonra Sultan bəy xaricə mühacirət etmiş, İrana, oradansa Türkiyəyə keçmişdir. İranı tərk etmələrinin başlıca səbəbi sovet casusları tərəfindən burada qardaşları Rüstəm bəyin

öldürülməsi olmuşdur. Rüstəm bəy başçılıq etdiyi üsyançılar dəstəsi ilə tez-tez Azərbaycanın Qarabağa yaxın ərazilərinə (Arazboyu) hücumlar edib Sovet hökumətinə ciddi problemlər yaradırmış. Oğlu İskəndər bəy də 1922-23-cü illərdə İran ərazisindən sovet hakimiyyətinin təmsilçilərinə, xüsusilə rus, erməni hərbçiləri və milis qüvvələrinə qarşı keçirilən bu əməliyyatlarda iştirak edib. Onların bu xidmətləri mübarizliyi ilə ad çıxarmış Sultanovlar ailəsinin nüfuzunu həm İranda, həm Türkiyədə daha da artırıb. Buna görə də sovet xüsusi xidmət orqanları Xosrov bəyin qardaşını öz adamları vasitəsi ilə aradan götürmüşdülər. İranda təhlükəsizliklərinin təmin oluna bilməyəcəyini görən Sultanov qardaşları Türkiyə getməyi qərar alırlar. Sultan bəyin müraciətinə müsbət cavab verən Türk dövləti qardaşları ölkəyə dəvət edir. 1923-cü ildə rəsmi keçidlə qarşılanan Sultan bəy və Xosrov bəy Sultanovlar Qars vilayətinin Köçköy kəndində mülk və malikanə ilə təmin olunurlar.

Sultan bəy 1942-ci ildə vəfat edib. Türkiyənin «Cumhuriyyət» qəzetinin 4 aprel 1942-ci il tarixli sayında Xosrov bəy Sultanovun bu barədə elanı çap olunub.

X.P.Sulatanov mühacirət illərində Azərbaycanın müstəqilliyinin bərpası uğrunda ardıcıl mübarizə aparıb. Onun bu dövrdə Türkiyədəki fəaliyyəti xüsusilə səmərəli olmuşdur. Bu barədə G.Mamuliya və R.Abutalıbovun 2014-cü ildə Bakıda Azərbaycan və rus dillərində nəşrdən çıxmış "Odlar yurdu azadlıq və müstəqillik uğrunda mübarizədə. Azərbaycan mühacirətinin siyasi tarixi. 1920-1945-ci illər" kitabında ətrafı bəhs edilib.

Müəlliflərin yazdığına görə, 1924-cü ildə Müsavat partiyasını tərk etmiş bir qrup şəxs X.P.Sulatanovun rəhbərliyi ilə İstanbulda Azərbaycan Milli Demokratik Respublika

Rartiyasını yaratdıqlarını elan ediblər. Bu qrup mühacirlərin mərkəzi orqanı olan İstiqlal Komitəsini tanımayaraq ondan ayrı fəaliyyət göstərib. Polşanın Türkiyədəki rəsmi nümayəndəsi Roman Knoll 1924-cü ilin oktyabr ayında Xosrov bəylə görüşərək ona birləşmək tərəfdarı olan Qafqaz təmsilçilərindən ibarət qrup yaratmağı təklif edib. İlk dəfə ona olunan bu təkliflə bağlı Xosrov bəy Azərbaycan və Şimali Qafqaz nümayəndələrindən ibarət olacaq böyük bir birlik yaratmağa çalışıb. Bu danışıqlara Qafqaz İslam Ordusunun keçmiş komandanı Nuru Paşa da qoşulub. Prosesə müdaxilə edən Polşa səfirliyinin Türkiyədəki hərbi attaşesi polkovnik T.Setselin təklifi ilə gizli əməliyyatların keçirilməsi üçün müvafiq azsaylı komitənin yaradılması məqsədəuyğun hesab olunub və İstanbulda Qafqaz Konfederatoraları Birliyi Komitəsinin yaradılması qərara alınıb. Həmin Komitədə Azərbaycanı Xosrov bəylə birlikdə Ə.Əmircanov, Ə.Şeyxülislamov təmsil ediblər. [196]

Mühacirləri təşkilatlandırmaq məqsədi ilə Xosrov bəy 1924-cü ilin oktyabr ayında İrana gedərək Xoy şəhərində və noyabrın 21-də Təbrizdə görüşlər keçirib. Bu görüşlərdə qardaşı oğlu İsgəndər bəy də iştirak edib. Xosrov bəy Təbriz toplantısında yaratdıqları partiyanın gürcü milli-demokratları, dağlılarla Qafqaz Konfederasiyası məsələsində razılaşdıqlarını İngiltərə və Polşanın onları bu işdə müdafiə edəcəklərini bildirib. O, tezliklə SSRİ-də dəyişikliklərin olacağını, yaxud ona hücum ediləcəyini demiş və azərbaycınlıların buna hazır olmalarını vacib hesab etmişdi. Xosrov bəyin təmsil olunduğu qrup müsavatçılardan fərqli olaraq, mübarizədə Avropa

196 Г.Мамулиа, Р.Абуталыбов. Страна огней в борьбе за свобову и независимость. Политическая история азербайджанской эмиграции 1920-1945. Париж-Баку, с. 254-255

seçimini üstün tutub. Onun fikrincə, türklər öz daxili işləri ilə məşğul olduqlarından SSRİ ilə mübarizə aparmaq istəməirlər. "İngiltərənin isə Qafqazda maraqları var, Polşaya gəlincə gələcək müharibədə Qafqaz Konfederasiyasını özünə müttəfiq kimi görür". [197]

İran hökumətinə Şimal-Qərbi diviziyanın tərkibində Qafqaz mühacirlərindən ibarət dəstə formalaşdırmaq təklifi irəli sürmək istəyən Xosrov bəy 1924-cü il dekabrın 6-da Tehrana gedib. Onun fikrincə, Sovet dövlətində daxili vəziyyət kəskinləşəyi halda bu dəstəfən istifadə edilə bilərdi. Danışqlar uğurlu olarsa, Polşadan silah alıb İran Azərbaycanına gətirilməsi nəzərdə tutulurdu.

[198] 1930-cu il aprelin 13-də SSRİ Xarici İşlər Nazirliyi İrana azərbaycanlı üsyançı dəstələrin İran Azərbaycanı ərazisində və SSRİ-İran sərhədində baza yaratmağından narahatlığını bildirmiş, rəsmi Tehranı Azərbaycanlı partizanların qarşısını almamaqda günahlandırmışdı. Həmin il mayın 24-də İranın SSRİ-dəki səfirliyinə verilən notada müsavatçıların Təbrizdə, Ərdəbildə, Astaradakı fəaliyyətindən narahatlıq ifadə olunmuşdu. 1931-ci ildə Sovet qoşun hissələri azərbaycanlı üsyançı dəstələri məhv etmək üçün Araz çayından keçərək İrana daxil oldu. Çoxlu mühacir həbs edildi və öldürüldü. [199]

1931-ci ilin dekabrında X.P.Sultanov baş verənlərlə bağlı Ə.M.Topçubaşova yazırdı: "Vətəndə və İranda hansı dəhşətlərin törədilməsi, həmvətənlərimizin hansı sıxıntılara məruz qalması təsvirə belə gəlməz. İran həbsxanaları azərbaycanlı mühacirlərlə doludur". [200]

197 Yenə orada s. 254-255.
198 Yenə orada, s. 256.
199 Yenə orada, s. 354-355.
200 Yenə orada, s. 357.

Bu fəaliyyətlərinə görə, M.Ə.Rəsulzadə ilə fikir ayrılıqlarına baxmayaraq, Xosrov bəy Qafqaz Konfederatorları Birliyi Komitəsində Azərbaycanı onunla birlikdə təmsil edirdi.

Xosrov bəy 1938-ci ildə böyük Atatürkün dəfn mərasimində Ş.Rüstəmbəyli ilə birlikdə Azərbaycan adından rəsmi nümayəndə kimi iştirak etmişdi.

Təsadüfi deyildi ki, Polşa Türkiyə ərazisində Qafqaz Konfederasiya Şurasını yaratmaq istəyəndə İstanbul filial üçün rəhbər namizəd seçimində Mustafa bəy Vəkilov və Xosrov bəy Sultanovun üzərində dayanmışdı. X.P.Sultanov 1942-43-cü illərdə Berlindəki Azərbaycan Milli Komitəsinin də üzvü olub.[201]

Ancaq tale nə Sultan bəyə, nə qardaşı Xosrov bəyə, nə də digər millət fədailərinə Azərbaycan davasının uğurla başa çatdığı günü görməyi qismət etmədi. Millətin yolunda xidmətdən canını əsirgəməyən Sultanov qardaşları ömürlərinin qalan hissəsini bütün varlıqları ilə bağlı olduqları Azərbaycandan kənarda, onun həsrəti ilə qovrulduqları mühacirətdə yaşamaq məcburiyyətində qaldılar. Gözlərini son kərə yumduqları gündə onlar da böyük millət mücahidi, öndər Məmməd Əmin Rəsulzadə kimi "Azərbaycan, Azərbaycan!" dedilər. Allah bütün millətsevərlərin, Vətənsevərlərin məzarını nurla doldursun. Onlar Vətənin, millətin şərəfini uca tutmaqla bizlərə, min bir ürək çırpıntısı ilə qoyub getdikləri əmanətə bu gün və sabah cavabdeh olacaq şəxslərə Vətəni, milləti sevmək, ona sədaqətlə xidmət etmək dərsi öyrədiblər...

Azərbaycan hökumətinin Tiflisdən Gəncəyə köçürülməsinin səhəri günü, 1918-ci il iyun ayının 17-də Gəncə şəhərində Fətəli xan Xoyskinin sədrliyi ilə Azərbaycan

201 N.Yaqublu, Cümhuriyyət qurucuları, B. "Nurlar", 2018, 504 s. s. 167.

Cümhuriyyətinin ikinci müvəqqəti hökuməti fəaliyyətə başladı. İyunun 19-da Nazirlər Şurasını təşkil edən nazirliklərə rəhbərlər təyin olundu. Tiflisdə elan edilən və bir sıra nazirliklərin funksiyaları ilə bağlı sahələrdə konkret fəaliyyət göstərmək imkanına malik olmayan birinci hökumətdən fərqli olaraq yeni hökumət konkret əməli işlər görmək, gənc respublikanın hüdudları daxilində səlahiyyəti həddindəki bütün məsələləri həll etmək iqtidarında idi. Bu baxımdan, yeni təyin olunmuş nazirlərin üzərinə çox məsul vəzifələr düşürdü. Onlar həm rəhbərlik etdikləri nazirliklərin strukturunu, ştat vahidini, maliyyə- təsərrüfat və spesifik fəaliyyətlə əlaqədar istiqamətlərini konkret müəyyənləşdirməli, həm nazirliyin bütün respublika ərazisində gündəlik işinin təşkilinə nail olmalı, həm də digər strukturlarla əlaqəli işləri lazımi səviyyədə qurmaqla hökumətin tam normal fəaliyyət göstərməsinə şərait yaratmalı idilər. Belə məsul dövrdə son dərəcə vacib vəzifələrdən biri də Xosrov bəy Sultanova həvalə olundu. Xosrov bəy Sultanov Torpaq və əkinçilik naziri təyin edildi.

Əhalisinin əksər hissəsinin kənddə yaşadığı bir respublikada bunun nə demək olduğunun əlavə izahata yəqin ki, ehtiyacı yoxdur. Yalnız belə bir faktı yada salaq ki, həmin ərəfədə Rusiyada baş vermiş sonuncu fevral burjua demokratik inqilabı da daxil olmaqla əksər inqilabların və üsyanların qarşıya qoyduğu başlıca tələblərdən biri məhz torpaq məsələsi (torpağın kəndlilərə paylanması) olmuşdu. Bu amil də nəzərə alınsa, yeni hakimiyyətin yerlərdə möhkəmlənməsi əslində bu problemi necə həll etməsindən çox asılı olacaqdı və bunu Cümhuriyyət dövlətini təmsil edən şəxslər də yaxşı başa düşürdülər. Yenə də Fətəli xan Xoyski tərəfindən təşkil olunan üçüncü hökumətdə də (26 dekabr 1918-ci il - 14 aprel 1919-cu il) X.P.Sultanov Torpaq və əkinçilik naziri təyin edilmişdi. Təkrar

eyni vəzifəyə təyinat alması Xosrov bəyin bu sahənin rəhbəri kimi öz işinin öhdəsindən layiqincə gəldiyini sübuta yetirən ən tutarlı və təkzibolunmaz fakt, dəlildir. Yeri gəlmişkən, bir faktı da oxucuların diqqətinə çatdıraq ki, X.Sultanov başqa vəzifəyə keçiriləndən sonra onun yerinə həmin sahəyə nazir üçüncü hökumətdə əvvəl poçt-teleqraf və əmək naziri olan A.Səfikürdlü təyin edilmişdir.

Xosrov bəy Sultanov 1880-ci ildə Qarabağda, Şuşa şəhərində (bəzi mənbələrə görə 1879-cu il may ayının 10-da Zəngəzur qəzasının Hacısamlı nahiyəsinin Qasımuşağı obasının Kürdhacı kəndində (indiki Laçın rayonu)) anadan olmuşdur. İbtidai təhsilini Şuşada alan X.Sultanov rus dilini mükəmməl öyrənmiş və Xarkov şəhərində institutun tibb fakültəsinə daxil olmuşdur. Atasının arzusu onu tibb, Sultanı isə hərb elminə yiyələnmiş şəxslər kimi görmək idi. Xosrov bəy tibb təhsilini Xarkov şəhəri ilə yanaşı, bir müddət Odessa şəhərində davam etdirmiş, burada N.Nərimanovla tanış olmuş və dostluq etmişdir. Tələbəlik illərində bir rus zabiti ilə duelə çıxan bu qızğın gənc sol gözündən zədə almışdır. Ancaq bu zərbədən qəti özünü itirməyən Xosrov bəy həmin zabiti bir atəşlə yerə sərmişdir. Ali təhsilini başa vurduqdan sonra Vətənə dönən Xosrov bəy fevral burjua inqilabına qədər öz ixtisası üzrə Bibiheybət xəstəxanasında həkim işləmiş, Bakının ictimai-siyasi həyatında yaxından iştirak etmişdir.

"Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar 1918-1920-ci illər" məcmuəsindən: "X.P.Sultanov (1879-194l) Novorossiysk universitetinin tibb fakültəsini bitirmişdir (1903). Tiflisdə həkim işləmişdir. 1917-ci ilin fevral inqilabından sonra "Müsavat" partiyasına daxil olmuşdur. Zaqafqaziya Seyminin üzvü olmuş və "İttihad" partiyasına keçmişdir. Birinci hökumətdə hərbi nazir, ikinci və üçüncü

hökumətdə torpaq naziri, 12 fevral 1919-cu ildə Qarabağ general-qubernatoru təyin olunmuşdur. 1920-ci ilin 28 aprelindən sonra Türkiyədə yaşamışdır.

Bu mənbədə həm Xosrov bəyin anadan olduğu və vəfat etdiyi illər, həm tibbi təhsil aldığı şəhərin adı fərqli göstərilmiş, həm də onun sovet cəza orqanları tərəfindən həbs olunduğu, Fransa, Polşa və Almaniyada yaşadığı, Almaniyada Tibb Universitetində professor vəzifəsində çalışması, ümumiyyətlə mühacirət dövrü fəaliyyəti barədə bir çox faktlar verilməmişdir.

Digər mənbələrdə Xosrov bəyin 1879-cu il mayın 10-da anadan olduğu, 7 yanvar 1943-cü ildə vəfat etdiyi və məzarının İstanbulun Fəriköy qəbiristanlığında olduğu göstərilir. Sonuncu faktı təsdiq edən foto şəkillər artıq ictimaiyyətə təqdim olunmuşdur.

1915-1916-cı illərdə vətənpərvər bir ziyalı kimi millətinin tərəqqisi və sağlamlığı yolunda qeyrətlə çalışması, milli mənafelərlə bağlı məsələlərin həllində həmişə prinsipial mövqe tutması onu gələcək əqidə yoldaşları ilə yaxınlaşdırır. Bunların bir çoxu o şəxslər idilər ki, az sonra Azərbaycanın müstəqillik qazanmasında böyük işlər görəcək, Şərqdə ilk Demokratik Respublikanın yaradıcıları sırasında layiqli yer tutacaqdılar. X.Sultanovun taleyinə həmin şəxslərlə bir yerdə olmaq, onlara çiyindaşlıq etmək, milli hökumət quruculuğunda iştirak etmək qisməti düşmüşdü. Bu vaxt Birinci Dünya müharibəsinin davam etməsi ilə əlaqədar Azərbaycanın yerləşdiyi bölgədə, xüsusilə müharibəyə qoşulduğu üçün Türkiyədə vəziyyət getdikcə gərginləşirdi. Qarsda, Ərdahanda, Batumda vəziyyət xüsusilə ağır idi. Bu bölgələrdə yaşayan ermənilər rus ordusunun köməyi və Rusiyanın bölgədəki nümayəndəsinin susqunluğu ilə yerli türk əhaliyə qarşı kütləvi qətllər törətmişdilər. Hadisələrlə əlaqədar bölgəyə səfər edən

Azərbaycan nümayəndələri əhalinin vəziyyəti barədə məruzə hazırlayıb hökumətə təqdim etmişdilər.

[202]1915-ci ilin noyabrında Bakı Cəmiyyəti Xeyriyyə təşkilatından və başqa xeyriyyə cəmiyyətlərindən ibarət bir komitənin yaradılması qərar alındı. M.Əsədullayevin sədrliyi ilə yaradılan heyətin təşkili Bakıda Xosrov bəyə, Gəncədə Aslan bəy Səfikürdskiyə həvalə olunmuşdu. Komitə göstərilən və digər ərazilərdə əhaliyə yardımlar etmiş, onları faktiki məhv olma təhlükəsindən qurtarmışdı. X.P.Sultanov bu barədə "Qardaş köməyi" jurnalında dərc edilmiş məqaləsində yazırdı: "ilk vaxtlar məhəlli əhali çəkmiş olduqları müsibət, görmüş olduqları həqarət və təcavüz edilmiş namuslarına baxaraq, eyni zamanda, qardaş köməyi uzadan əllərin varlığına şad olaraq deməyə söz tapmır, ancaq "Sizi Allah göndərmişdir", deyirdilər". [203]

Onun bu fəaliyyəti və digər xidmətləri unudulmamış, artıq qeyd etdiyimiz kimi Türkiyə hökuməti tərəfindən zamanı yetişəndə lazımi səviyyədə qiymətini almışdı.

Bu xidmətlər isə təsəvvürəgəlməz dərəcədə çox olub. Əlbəttə, onların əksəriyyətini Xosrov bəy öz xalqı, Vətəni qarşısında göstərib. Dediklərimizin ən yaxşı şahidi Tarix, ən güclü təsdiqi əlahəzrət faktlardır. 15 yanvar 1919-cu ildə Gəncə quberniyasından ayrılaraq təşkil edilən yeni Qarabağ general-qubernatorluğunun qubernatoru təyin edilən Xosrov bəy 1919-cu il martın 21-dən 30-na qədər Əsgəran döyüşlərində general Dronun quldur dəstələrini darmadağın edilməsində iştirak edib. Başqa bir fakt. Həmin il iyun ayının əvvəllərində Şuşaya gizli yolla silah gətirən erməni milli şurasının üzvlərini həbs edib, onları Qarabağ ərazisindən çıxartdırıb.

202 "Qardaş köməyi" jurnalı, B., 2013-cü il, s. 44.

203 Yenə orada, s. 46.

Yəqin gələcəkdə arxiv materiallarının daha dərindən araşdırılması tədqiqatçılara Xosrov bəyin hökumət üzvü kimi əməli fəaliyyətinin tam dolğunluğu ilə işıqlandırılaraq, xalqa çatdırılmasına imkan verəcəkdir. Həmçinin onun həyatının sonrakı, mühacirət dövrü ilə bağlı da daha geniş tədqiqat-araşdırma işləri aparacaqdır. Mövcud materialların əksəriyyəti onun avtobioqrafiyasının general-qubematorluq mərhələsi haqqında daha geniş söhbət açmağa imkan verir. Əvvəla onu qeyd edək ki, 1918-ci ildə Zəngəzurda və digər ərazilərdə ermənilərin azərbaycanlılara qarşı vəhşilikləri daha geniş miqyaslar almağa başlamışdı. Azərbaycan əhalisinin müdafiəsizliyindən istifadə edən daşnak tör-töküntüləri ağlasığmaz cinayətlər törədir, yerli əhalini öz dədə-baba yurdundan didərgin salmağa, həmin əraziləri ələ keçirməyə çalışırdılar. Aşağıdakı teleqram həmin dövrdə baş vermiş onlarla kütləvi qanlı hadisələrdən biri ilə bağlıdır.

Zəngəzur qəza rəisinin Andranikin və onun dəstəsinin törətdiyi vəhşiliklər haqqında teleqramı: "Gəncədəki hökumətdən aşağıdakı məzmunda teleqram alınmışdır: "İngilis-fransız nümayəndələrinin tələbilə Andranikin hərbi hərəkətləri dayandırmasına inanan müsəlmanlar ermənilərin qarşısını kəsdikləri mövqeləri tərk etmiş, evlərə dağılışmışlar. Bundan istifadə edən quldur Andranik Türkiyə və yerli ermənilərdən ibarət dəstəsinə qonşu müsəlman kəndlərinə qəfil hücumlar etməyi əmr etmişdir. Bu siqnalla bütün ermənilər silaha sarılmış, yaxınlıqdakı müsəlman kəndlərinə basqın etmiş və yaşına, cinsinə fərq qoymadan əhalini qırmış, meyidləri təhqir etmişlər; öldürdükləri qadınların döşlərini kəsib südəmər körpələrin ağzına soxmuşlar; əyləncə məqsədilə iki qadını lüt soyundurmuş və buraxmışlar. Dekabrın 9-da on ikidən çox kəndi yandırmışlar. On nəfər qadın hazırda ermənilərin

əsiridir. Qoşun göndərilməsi barədə sərancam verməyinizi xahiş edirəm. Zəngəzur qəza rəisi Məlik-Namazəliyev, 11 dekabr 1918-ci il".

Zəngəzurda və Qarabağda yaranmış vəziyyətlə əlaqədar müəyyən məsləhətləşmələrdən sonra Azərbaycan hökumətinin 1919-cu il 29 yanvar tarixli iclasında "Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarına general-qubernator təyin edilməsi haqqında DİN-in məruzəsi dinlənildi və aşağıdakılar qərara alındı:

1. Xosrov bəy Sultanov general-qubernator təyin edilsin;

2.Nazirliyin 20 milyonluq fondundan general-qubematorluğun ehtiyacları üçün 5 milyon manat ayrılsın;

3.Həmin məbləğdən 1 milyon manatın general-qubernatorun sərancamına indi buraxılması, ondan isə 728 min 300 manatı qubernatorluğun ştatının saxlanılması, 600 nəfərlik süvari dəstəsinin təşkili və bir ay müddətində təmin olunmasına, 271 min 700 manatın isə gözlənilməz, təcili tədbirlərə xərclənilsin;

4.Yuxarıda qeyd olunan dəstənin sayının 3000 nəfərə çatdırılmasının mümkünlüyünü nəzərdə tutulmaqla bunun hökumətin xüsusi göstərişi ilə həyata keçirilməsi təmin edilsin.

Bu təyinat təsadüfi qərarın nəticəsi deyildi. Xosrov bəy həmin bölgədə böyük nüfuza malik olmaqla, siyasi, hərbi və idarəçilik sahəsində bişmiş bir dövlət adamı olmaqla, yerli şəraitə dərindən bələd idi. Üzeyir bəy Hacıbəyov «Azərbaycan» qəzetinin 24 iyun 1919 il tarixli nömrəsində yazırdı: «Həqiqətən, Xosrov bəy Qarabağ üçün ən münasib bir rəisidir. Qarabağ həyatına tamamilə aşna olan bu zat sağlam bir vücuda malik olan kimi sağlam və salamat politika yeridən və təht idarəsinə tapşırılmış olan ümum mənafeyini xüsusi surətdə nəzərdə tutan bir zatdır. Ermənilər Qarabağda qəsdən

süni iğtişaşlar çıxarmaqla Qarabağ general- qubematorunu baş komandanlıq gözündə ləkələmək istəyirlər. Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni cəmaəti tərəfindən dəxi möhtərəm sayılan Xosrov bəy Qarabağın hökuməti başında olmasa idi burası Azərbaycanın cənnəti hesab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətli-qital ocağı olmuşdu».

X.b.Sultanov hələ Bakıda ikən general-qubematorluğun təşkili ilə əlaqədar bəzi işləri görmüş, 1919-cu il fevralın 12-də Şuşaya gələrək öz vəzifəsinin icrasına başlamışdı.

ADR hökumətinin bu addımı azərbaycanlı əhali tərəfindən böyük ümid və razılıqla qarşılanmışdı. Çoxsaylı arxiv sənədləri və materialları (İ.Şaxdin, T.Svyataxovski və başqalarının araşdırmaları) sübut edir ki, AXC hökuməti tərəfindən Zəngəzur qəzasını da əhatə edən Qarabağ general-qubematorluğunun yaradılması və xüsusilə də X.Sultanovun oraya başçı təyin olunması Ermənistanı xeyli təşvişə salmış və onun diplomatik-hərbi fəallığını artırmışdı. R.Hovannesyan bu barədə belə yazırdı: "Acıqlanmış ermənilərin özləri üçün təhqir üstündən təhqir hesab etdikləri, bir də bərk qorxduqları məşhur armenofob Xosrov Sultanovun Tomson tərəfindən hər iki ərazinin qubernatoru təyin edilməsi idi. Qeyd edək ki, general-qubernatorun müavini bolşevik Çingiz İldırım təyin olunmuşdu".

Nazirlər Şurasının torpaqlarımızın bir hissəsində - Zəngəzur və s. qəzalarda general-qubernatorluq təşkil etməsi qərarını Ermənistan hökuməti özünün etiraz notaları ilə qarşıladı. Ermənistanın xarici işlər naziri S.Tiqranyan 1919-cu ilin yanvarında AXC hökumətinə teleqramında hər iki bölgəyə dair irəli sürülən ərazi iddialarını davam etdirərək yeni general-qubernatorluğun yaradılmasına etirazını

bildirmiş, bunu "Ermənistanın ərazi hüquqlarına qəsd" kimi qiymətləndirmişdi.

Bu dövrdə daşnak hökumətinin Azərbaycandakı diplomatik nümayəndəsi olan T.Bekzadyan Britaniya komandanlığının nümayəndələri ilə görüşlərində müttəfiqlərin bölgələrin məsələsini Ermənistanın xeyrinə həll etməyəcəyi təqdirdə, heç olmazsa, burada müvəqqəti ingilis general-qubernatorluğu yaradılmasına çalışırdı.

Cümhuriyyət hökuməti Ermənistanın əsassız ərazi iddialarına və bölgələrimizin idarə olunmasına müdaxiləsinə biganə qalmadı. Xarici işlər nazirini əvəz edən A.Ziyadxan 1919-cu il yanvarın 31-də Ararat Respublikasının XİN-nə göndərdiyi 178 saylı teleqramda bildirirdi ki, Azərbaycanın Zəngəzur və digər rayonlarında müvəqqəti general-qubernatorluğun yaradılmasına hər hansı bir etiraz əsassızdır; çünki həmin ərazilər Azərbaycanın ayrılmaz tərkib hissələridir".

Daha sonra teleqramda yazılırdı ki, öz torpaqlarında qayda-qanun yaratmaq, milliyətindən asılı olmayaraq bütün vətəndaşların ləyaqətini və əmlakını məsuliyyətsiz şəxslərin özbaşınalığından müdafiə etmək Azərbaycan hökumətinin nəinki hüquqi, hətta mənəvi vəzifəsidir. A.Ziyadxan general-qubernatorun təyin edilməsi barədəki qərarın heç də Ermənistanın ərazi hüquqlarına qəsd olmadığını, əksinə onun hökumətinin etirazını isə daxili işlərimizə qarışmağa cəhd göstərməklə süverenliyimizə qəsd kimi qiymətləndirirdi.

Tomsonun 1919-cu il yanvar ayının ortalarında Qarabağın və Zəngəzurun Azərbaycan Respublikasının müvəqqəti idarəçiliyinə verildiyini bəyan etməsi, həmin bölgələrdə müvəqqəti general-qubernatorluğun yaradılmasına obyektiv münasibət bəsləməsi də Ermənistan rəhbərliyini xeyli

çaşdırmış və narazı salmışdı. O, ermənilərin bununla bağlı etirazlarına cavab olaraq demişdi: "Məsələ bundadır ki, bəzi ermənilər Azərbaycanın Britaniya tərəfindən tutulmasından intiqam məqamı kimi istifadə edə bilmədiklərindən çox mütəəssir olmuşlar. Onlar başa düşməyə borcludurlar ki, məsələni hərbi qüvvələr deyil, Sülh konfransı həll edəcəkdir". Müttəfiqlərin komandanlığının müvəqqəti general- qubernatorluğun təşkilini himayə etməsini onun tərəfindən 1919-cu ilin fevralında Şuşaya göndərilən mayor Mak- Mossenə və xüsusi komissiyaya verilən təlimatdan da görmək olar. Həmin təlimatda Azərbaycan tərəfi üçün müəyyən məna və əhəmiyyət kəsb edən bəzi məqamlara nəzər salaq. Təlimatda göstərilirdi ki, Zəngəzur və Qarabağın Azərbaycana və Ermənistana mənsub olması məsələsi yerlərdə həll oluna bilməz, komissiya da bu işə heç bir təsir göstərmək imkanına malik deyildir və onun yoluna qoyulması yalnız Sülh konfransı vasitəsilə mümkündür. Burada daha sonra doktor Sultanovun bölgələrin general-qubernatoru təyin edilməsi bildirilir, onun: 1. "modus vivende" tapmaq; 2.vilayəti qüvvə tətbiq olunmadan idarə etmək; 3. ərazi iddiaları haqqında məsələ qaldırmaqdan çəkinmək kimi vəzifələri sadalanır və bunları həyata keçirməkdə ona hərtərəfli yardım göstərilməsi tapşırılırdı.

Komissiyanın qarşısında qoyulan və təlimatda öz əksini tapan vəzifələrdən biri sənədin 4-cü bəndində yazılmışdı. Həmin bəndə görə Mak-Mossen və komissiya qoşunların tərxis olunması haqqında təlimatı Andranikə çatdırmalı, onun hərbi hissələrinin Yevlaxa daşınması, orada isə ləğv olunduqdan sonra dəmir yolu ilə Ermənistana ötürülmələri, qaçqınların bu yazda öz vətənlərinə göndərilmələri üçün lazımi sərancamlar verməlidirlər; Şuşaya gedən iki erməni nümayəndəsi isə onlara

hərtərəfli köməklik göstərməli idi. Komissiyanın ardınca isə X.Sultanovun general-qubernator təyin edilməsi 1919-cu il aprelin 3-də polkovnik Şatelvortun bəyanatı ilə müttəfiqlərin komandanlığı tərəfindən rəsmən tanındı və təsdiq edildi.

"Müvəqqəti general-qubernator X.P.Sultanovun Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının əhalisinə müraciəti"nin (11 fevral 1919-cu il) tarixi dəyərini nəzərə alaraq cüzi ixtisarla oxuculara çatdırırıq:

"Azərbaycan hökumətinin yanvar ayı qərarı ilə Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları xüsusi general-qubernatorluğa ayrılmışdır. Bu fövqəladə tədbirlər fövqəladə vəziyyətdən irəli gəlmişdir: Azərbaycanın təqribən yarısında – onun ən yaxşı hissəsi – 4 qəza - artıq bir ilə yaxındır ki, anarxiya ucbatından dağılır. Şəxsi fıravanlığı yüksək ideal sayan məsuliyyətsiz elementlərin rəhbərliyi altında olan bandalar diyarı viranə qoyur; kəndləri yandırır, əhalini qırır, on minlərlə yurdsuz-yuvasız qadın və uşaq qaçqın düşmüşdür, yuxarıda göstərilən elementlər milli ədavət yayırlar. Əhalidən ümumi siyasi vəziyyət gizlədilir. Bu şəxslər öz şəxsi mənafelərini güdür, öz cəhdlərini partiya ideya forması donuna salırlar.

Öz həyatını xalqa xidmətə sərf etmiş ictimai xadim kimi mən milli mənsubiyyətindən asılı olmayaraq hamıya eyni münasibət göstərməyi, ciddi ədalət və qanunçuluq mövqeyində dayanmağı hakimiyyətin borcu sayıram. Azərbaycanın müstəqilliyi, ərazi toxunulmazlığı, şəxsiyyətin ciddi məsuliyyəti və əmlak toxunulmazlığı – diyarın həyatı bu əsaslar üzərində qurulacaqdır.

... General-qubematorluğun ərazisindəki rayonlarda yeganə hakimiyyət general-qubernatorun şəxsində Azərbaycan hökumətinə məxsusdur və hamı ona tabe olmağa borcludur. Qayda-qanunun hər hansı şəkildə pozulması, anarxiyaya

aparan hər hansı hərəkətin kim tərəfindən törədilməsindən asılı olmayaraq, qanunun bütün qüvvəsi ilə fövqəladə mühafizəyə əsasən məhkəməyə verilməklə qarşısı alınacaqdır. Qanun qarşısında hamı bərabərdir. Bununla yanaşı qaçqınlara ərzaq, tibbi köməklik göstərilməsi üçün geniş tədbirlər görülür. Kasıbların ehtiyacları mənim qəlbimə yaxındır. Mənim qapılarım hər vaxt hər kəsin ehtiyac və şikayətini eşitmək üçün açıqdır. Dərindən inanıram ki, öz maraqlarını hər şeydən üstün tutanlar istisna olmaqla hamı sülh, firavanlıq və dinc yanaşı yaşamaq arzulayır. Əhalinin mənə olan inamına ... və general-qubernatora verilən səlahiyyətlərdən istifadə edərək mənə həvalə olunmuş müvəqqəti general-qubematorluğun ərazisində, Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzalarında qayda-qanun, sakitlik və xoş münasibət yarada biləcəyəm.

Müvəqqəti general-qubernator X.b.Sultanov".[204]

General-qubernatorluğun yaradılması və onun idarəçiliyi məsələsi general Tomsonun Ermənistan hökumətinin üzvləri ilə İrəvanda 1919-cu il martın 28-də və aprelin 6-da keçirilən müşavirələrdə ermənilər tərəfindən bir daha qaldırıldı. Birinci müşavirədə Ermənistan rəhbərliyi Tomsona verdiyi məktubda Qarabağın dağlıq hissəsinin Ararat Respublikasının ayrılmaz tərkib hissəsini təşkil etməsi fikrini təkrarlayaraq, vilayətin idarəçiliyinin əhalinin iradəsinə uyğun olaraq Milli Şuranın əlində qalması, bu işə nəzarətin isə ingilislər tərəfindən həyata keçirilməsi şərtlərini irəli sürdü.

İkinci müşavirədə Xatisyan (Ermənistanın Baş Naziri) doktor Sultanovun general-qubernator təyin edilməsinə kəskin etirazını bildirdikdə Tomson onun namizədliyini diplomatcasına müdafiə edərək demişdi: "Sultanov ingilis zabiti Mak-Mossenə tabe olacaqdır".

204 "Azərbaycan" qəzeti, 1919-cu il, 11 fevral

Uzun sürən müzakirə və mübahisələrdən sonra ingilislər nəhayət ki, bu məsələdə güzəştsiz mövqe tutaraq ermənilərdən müttəfiqlərin komandanlığının qərarlarına tabe olmağı, Qarabağda və Zəngəzurda Azərbaycan hakimiyyətini tanımağı tələb etdilər.

Qəza rəisləri və ictimai xadimlərinin X.Sultanovun sədrliyi ilə 1919-cu il fevralın 15,16 və 17-də keçirilən ümumbölgə müşavirəsində Zəngəzurda indiyədək 166 kəndin dağıdılması, onların əhalisinin 30 faizinin məhv edilməsi qeyd olunaraq, Andranikin silahlı dəstəsinin tərkibi barədə məlumatlar verilməklə onun mahaldan çıxarılması məsələsi qətiyyətlə qoyuldu. Azərbaycan hökumətinin 1919-cu il martın 26-da bu məsələ ilə əlaqədar keçirilən iclasında daxili işlər nazirinin Qarabağa dair məruzəsi müzakirə edildi.

Azərbaycan ordusu 1-ci piyada diviziyasının komandiri hərbi nazirə "Andranikin dəstəsində siyasi vəziyyət və əhval-ruhiyyə haqqında" raportunda Qarabağ general-qubernatorundan aldığı 1919-cu il 28 fevral tarixli məlumata əsasən yazırdı ki, Andranikin dəstəsi 1300 nəfər piyadadan, 500 atlı və artilleriyadan ibarətdir.

X.Sultanov DİN-nin 1919-cu il 9 aprel tarixli teleqramına özünün 13 aprel 1919-cu il cavabında bildirirdi ki, o, hələ Bakıda olarkən Britaniya missiyasından Andranikin Gorusdan getməsi və Sisyanda olmasına dair məlumat almışdır.

Həmin vaxtlarda X.Sultanov həmçinin idarə etdiyi general-qubernatorluğun hüdudlarında vəziyyət və oradakı milli ordu hissələrinin statusu, onunla hərbi hakimiyyət arasındakı münasibətlərin xarakteri ilə bağlı Azərbaycan hökuməti qarşısında müəyyən məsələlər qaldırmışdı. O, 1919-cu il aprelin 2-də Nazirlər Şurasının sədrinə məktubunda yazırdı: "Belə ağır anda general-qubernatorluğun hüdudlarında tam siyasi

məsuliyyət daşıdığı halda hərbi hissələrin onun hakimiyyətinə tabe olmaması, bir tərəfdən, mahalda ikihakimiyyətlilik yaradır, digər tərəfdən də general-qubernatoru lazım gəldikdə silahlı qüvvədən əməli surətdə istifadə imkanından məhrum edir. Və hətta ermənilərin hücumları baş verdikdə hökumətlə ilkin əlaqə yaratmadan (teleqramın çatdırılması ilə bağlı çətinliklər xüsusilə nəzərə alınmaqla) silahlı qüvvələrdən istifadə etməyin qeyri-mümkünlüyü bölgəni böhranlı vəziyyətə sala bilər".

Burada daha sonra qeyd edilirdi ki, qanuna görə general-qubernatorun hakimiyyəti Baş komandanın hakimiyyətinə bərabər tutulur və hərbçi olmasa da general-qubernatorluğun ərazisindəki silahlı hissələr də onun tabeçiliyinə keçməlidir.

Sultanovun bu təklifi hökumətin 1919-cu il 4 aprel tarixli iclasında müzakirə edildi. Nazirlər Şurası sədrinin müvafiq məruzəsi və fikir mübadiləsindən sonra:

a) general-qubernatorluqda yerləşən hərbi hissələrin, hərbçi olmadığına görə, general-qubernatora tabe etdirilməsinin qeyri-mümkünlüyü;

b) qanunda nəzərdə tutulduğu kimi ona yalnız fövqəladə hallarda silahlı qüvvələrin köməyindən istifadə etmək hüququnun verilməsi;

v) general-qubernatorluğun hüdudlarındakı hərbi hissələrin hər cür hərəkəti və say tərkibinin dəyişdirilməsinin yalnız onun tələbi və razılığı ilə həyata keçirilə bilməsi qərara alındı.

Hökumətin bu qərarı ilə kifayətlənməyən general-qubernator yenidən DİN-ə yolladığı 1919-cu il 6, 7, 14 aprel tarixli, Azərbaycan hökumətinin başçısına ünvanladığı 14 aprel tarixli məktublarda öz mövqeyində qaldığını təkrarlayırdı. 0, 1919-cu il aprelin 14-də DİN-nə yazdığı məktubunda Qarabağ qubernatorluğuna aid ərazilərin, yəni Zəngəzurun

da məsələsinin qəti həlli üçün 2000 nəfər əsgərin və kifayət qədər hərbi sursatın lazım olduğunu söyləyir və məhz bu məqsədlə də bölgələrdəki hərbi hissələrin onun tabeçiliyinə keçirilməsini, əks-təqdirdə isə istefaya buraxılmasını xahiş edirdi. Buna görə də hökumətin 19 aprel 1919-cu il tarixli iclasında Nazirlər Şurasının sədri X.Sultanovun rəhbərlik etdiyi qubernatorluqdakı hərbi hissələrin ona tabe olması haqqında əlavə vəsadətinə dair məruzə ilə çıxış etdi. İclasda Qarabağ general-qubernatorluğunun hüdudlarında yerləşən hərbi hissələrin Xosrov bəyin icazəsi və razılığı ilə hərəkət etməsi, buna görə də onun silahlı qüvvələrdən istifadə edilməsinə dair öz sərancamlarına görə məsul olması qərara alındı. N.Yusifbəyli bu qərara müvafiq olaraq hərbi nazirliyə məktubunda X.Sultanovun vəsadətini yerinə yetirməyi və bu sahədə general-qubernatora kömək göstərməyi tapşırdı.

AndranikOnun fikrincə, Qarabağın ermənilərin əlinə keçməsi torpaqlarımızın ən yaxşı hissəsinin, digər tərəfdən Naxçıvan və Ordubadın, ümumiyyətlə isə bütün Azərbaycanın itirilməsi demək idi. AndranikMəruzədə general- qubernatorun 4 aylıq fəaliyyəti ərzində ingilislərsiz bir addım belə atmamasına baxmayaraq, onların verdikləri vədlərin heç birinə əməl etmədikləri dolayısı ilə bildirilir, X.Sultanovun Şatelvortla söhbətində ikincinin bu halın təkzibi üçün qətiyyən əsas tapmadığı aydın olur.

İngilislərin məsələnin həllini yubatmaqla Azərbaycan üçün əlverişsiz şərait yaratdığını gördükdə qəti tədbirlərə əl atan general-qubernator müttəfiq qoşunları komandanlığının heç bir hüquqi və mənəvi əsası olmayan ultimatum səciyyəli və ahəngli tələbləri ilə qarşılaşmışdı. Hətta ingilislər Qarabağ məsələsində onların ziddiyətli siyasətləri ilə razılaşmayan, hökumətin xəttini qətiyyətlə yeridən X.Sultanovun

vəzifəsindən kənarlaşdırılmasını tələb etmişdilər. İngilislər onu səhlənkarlıqda günahlandırmağın əsassız olduğunu yaxşı bildiklərindən öz hökumətinin siyasətini düzgün aparan və bununla da ermənilərin, onların Milli Şurasının Qarabağda möhkəmlənməsinə mane olan bir şəxs kimi işdən uzaqlaşdırmağa çalışırdılar.

Zəngəzurla bağlı hadisələrə toxunan X.Sultanov ingilislərin öz vədlərinə xilaf çıxaraq bu bölgədə hakimiyyəti Azərbaycana yox, Erməni Milli Şurasına verdiklərini, Ermənistan hökumətinin agentləri olan Arzumanovun, Çilingərovun ingilis bayrağının himayəsi altında buraya pul və təlimatlar gətirmələrinə dair faktları qeyd edirdi.

Xosrov bəy yerli şəraiti bilməsinə əsaslanan dərin inamını belə ifadə edirdi:

1. Qarabağ-Zəngəzur məsələsinin həllində ingilis köməyindən qətiyyətlə imtina etmək lazımdır;

2.İngilislər bu işdə bizə yalnız maneçilik törədirlər;

3.Nə qədər ki, daşnakların partiyası orada iş aparır, məcburedici tədbirlər görülməzsə, ermənilər Azərbaycan hökumətinin tabeçiliyinə razı olmayacaqlar;

4.Bu məsələni bir ay da həllsiz qoymaq əhalini hökumətin gücsüzlüyünə inandırmaq, müsəlman hissəsində anarxiyaya səbəb olmaq və bölgələrdən həmişəlik əlini üzmək deməkdir.

Yaranmış mövcud təhlükəli vəziyyəti düzgün qiymətləndirən X.Sultanov ondan çıxış yolunu bu kimi təcili tədbirlərin həyata keçirilməsində görürdü:

a.Təxirə salmadan hərbi hissələri Zəngəzura yeritmək, eyni vaxtda da ermənilərin İrəvandan Azərbaycan torpaqlarına hərəkətinin qarşısını kəsmək;

b.Dağlıq Qarabağa Azərbaycanın hakimiyyətini tanımaq barədə ultimatum vermək və altı gün vaxt qoymaq;

v.Eyni zamanda, bütün ermənilərə müsəlman rayonlarından getməyi təklif etmək və ultimatum müddətinədək onlarla hər cür əlaqələrin kəsiləcəyini bildirmək;

q. Şuşa şəhəri üçün istisna ediləcəyini göstərmək;

d. Azərbaycan hökuməti tanınmazsa, altı gündən sonra hərbi əməliyyatlara başlamaq və bunun məsuliyyətinin tamamilə erməni əhalisi başçılarının üzərinə düşəcəyini bildirmək.

General-qubernator onun təklif etdiyi tədbirlərin ləngidilməsi və ya qəbul olunmaması şəraitində bölgələri nələrin gözlədiyini belə yekunlaşdırmışdı:

1.Ermənilərin Zəngəzurdan irəliləməsi və Dağlıq Qarabağ erməniləri ilə birləşməsi və onların pulla, döyüş sursatı ilə təchiz olunmaları;

2.Müsəlman rayonlarında anarxiya;

3.Köçərilərin bütün arandan təcrid olunmaları;

4.Qarabağın itirilməsi ehtimalı.

X.Sultanovun 1919-cu il iyunun 25-də general Şatelvortla Qarabağ məsələsinə dair söhbətində aşağıdakı konkret problemlər ətrafınada fikir mübadiləsi olmuşdu:

- ingilislərin Qarabağ məsələsində üzərlərinə götürdükləri öhdəliklər və onlara əməl edilməməsi;

- Azərbaycan hökuməti nümayəndələrinin bu sahədəki tədbirləri;

- bölgələrdəki dörd aylıq birgə fəaliyyətin və ingilis siyasətinin nəticələri.

Razılaşdırılmış siyasətə və xəttə uyğun olaraq ingilislər bu kimi tədbirləri görməyi öz üzərlərinə götürmüşdülər:

1.Ermənilər tərəfindən atəşə tutulan Ağdam-Füzuli və erməni rayonlarından keçən Şuşa-Füzuli yollarının açılması;

2.X.Sultanovun Şuşadakı ingilis missiyası ilə birgə işləyib hazırladığı və erməni Milli Şurası tərəfindən qətiyyətlə rədd edilən "modus vivende" formulasının reallaşdırılması;

3.Dağlaq Qarabağda Azərbaycan hakimiyyətinin bərqərar olunmasının təmin ediləcəyi;

4.Andranikin və onun dəstəsinin Ermənistana Yevlaxdan keçirilməsi;

5.Azərbaycan hakimiyyətinin bərqərar olunması üçün ingilis dəstəsinin ardınca Azərbaycan qoşunlarının Gorusa gətirilməsi;

6.Ermənistan hökumətinin Qarabağ məsələsində əli olmasının (Azərbaycanı tanımamaq haqqında Qarabağ ermənilərinə yardım mənasında) sənədlərlə müəyənləşdiriləcəyi təqdirdə Ermənistana qarşı ölçü götürüləcəyi.

Beləliklə X.Sultanov dörd aylıq birgə işin - ingilis komandanlığının yardımının nəticələrini yekunlaşdıraraq bildirirdi ki, bir tərəfdən, ingilislər qəbul etdikləri qərarların heç birini, xüsusilə də Zəngəzur və Qarabağ ermənilərinin Azərbaycan hakimiyyətini dinc yolla tanımalarını təmin edəcəklərinə dair vədlərini yerinə yetirməmişlər. Digər tərəfdən isə, Qarabağ məsələsinin həlli ləngidilmiş, Zəngəzurun idarəçiliyi müvəqqəti olaraq erməni Milli Şurasına verilmiş, Dağlıq Qarabağda Azərbaycanın hakimiyyəti bərqərar edilməmiş, nəticədə də bölgədə millətlərarası münasibətlər xeyli kəskinləşmişdi.

Bütün işlərində son dərəcə dəqiq və məsuliyyətli olan Xosrov bəy Müvəqqəti Qarabağ general-qubernatorluğunun dəftərxanasının işə düşdüyü 1919-cu il fevralın 5-dən dekabrın 31-nə qədərki apardığı pul əməliyyatlarının illik hesabatlarına qədər bütün sənədləri də saxlamışdır. 1920-ci il

yanvar ayının 5-də Şuşa şəhərində tərtib olunmuş illik hesabata görə Müvəqqəti Qarabağ general-qubematorluğuna:

"Bakı şəhər xəzinədarlığından fevralın 1-də 1 saylı orderlə bir milyon rubl, aprelin 7-də 19 saylı orderlə 1 milyon 560 min rubl, iyunun 12-də 38 saylı orderlə 2 milyon 140 min rubl, iyulun 16-da Şuşa xəzinədarlığı vasitəsilə 2 milyon rubl vəsait ayrılıb".

Bundan əlavə özünün xüsusi qəzetini çıxarmaq məqsədi olan General-qubernatorluğa bu məqsədlə qəzet kağızına 5460, yazı makinalarına (Reminqton, Kontinental, Smist-Premyer adlı makinalara) 11 min, şrift və mətbəə üçün kassalara 34919 rubl pul ayrılıb. 100 ədəd milli bayraq üçün 4250 rubl ayrılıb. Bu kimi işlərə də özünün son dərəcə məhdud vaxtını ayıran X.Sultanovu narahat edən başlıca məsələ isə sözsüz ki, Qarabağda və Zəngəzurda baş verən hadisələr, onlardan düzgün çıxış yollarının tapılması, Azərbaycanın dövlət və milli mənafelərinin bu bölgələrdə tam qorunmasına nail olunması idi.

X.Sultanovun 1919-cu il dekabrın 14-də daxili işlər nazirunə göndərdiyi məktubda Zəngilan əhalisinin ermənilərdən müdafiəsi üçün ona kömək göndərildiyi barədə məlumat verilirdi. [205]

Zəngəzurdakı gərgin vəziyyətdən çıxış yolları arayan X.Sultanovun Baş Nazirə və DİN-ə göndərdiyi 2 yanvar 1920-ci il tarixli məktubu Qərb dövlətlərinin regiondakı nümayəndəliklərinin və rəsmi İrəvanın mövqeyini açıqlamaqla o dövrün siyasi şəraitini aydınlaşdırmağa imkan verir. Məktubdan aşkarlanır ki, Abdallardan (Laçın) nizami hissələrin çıxarılması ilə 100 verstlik ərazidə 250 mühafizəçi

205 ARDA, f. 894, s. 7, iş 7, v. 112

və 1500 partizanın ümidinə qalan azərbaycanlı əhalisinin çıxılmaz vəziyyətə düşməsinə dair X.Sultanovun bəyanatları elə bir əməli nəticə verməmişdi. General-qubernator belə bir cəhəti də qeyd edirdi ki, onun Haskel və Xatisyandan aldığı teleqramlardan göründüyü kimi, ermənilərin həm təcavüzkarlıq hərəkətləri, həm də niyyət və planları dəyişməz qalır və hələlik tədbirlər görülmür. Məktubun sonunda isə Zəngəzurun azərbaycanlı əhalisinin hər cür təhlükəsizliyi üçün yardım göstəriləcəyinə bel bağlamağın mümkünlüyü sualı qoyulurdu. Həmin qarətçilik hərəkətləri və erməni nizami hissələrinin Zəngəzurdan Şuşa istiqamətində irəliləməsi barədə AXC tərəfindən Ermənistan hökumətinə nota verildi. Ermənistan hökuməti isə müəyyən hazırlıq tədbirlərindən sonra 1920-ci il yanvarın 19-dan etibarən bölgədəki müharibənin yeni, daha amansız mərhələsini başladı.

O dövrdə Qarabağ və Zəngəzurda baş verən hadisələr bütün respublika ictimaiyyətinin diqqət mərkəzində idi və nəinki ziyalılar, əhalinin ən savadsız hissəsi də imkan düşdükcə bu hadisələr barədə öz narahatlığını hakimiyyət orqanlarına çatdırmağa cəhd göstərirdilər. Bütün bunları nəzərə alan "Azərbaycan" qəzeti 5 aprel 1919-cu ildə Qarabağ general-qubernatoru X.P.Sultanovla müsahibə dərc etmişdi. Bu müsahibə həmin dövrdə ümumən regionda baş verən hadisələr barəsində müəyyən təsəvvür yaratması ilə bərabər, onun başqa bir əhəmiyyəti X.Sultanovun bir ziyalı kimi ümummilli problemlərə hansı mövqedən yanaşdığını göstərməsindən ibarətdir. Müsahibədən bəzi məqamlar:

"Belə bir fakt kədər doğurur ki, Qarabağda milli məsələlərin düzgün işıqlandırılmaması Qarabağ əhalisinin xeyirxah qarşılıqlı münasibətlərinə çətin aradan qaldırılan zədə vura bilər. Əhali üçün arzu edilən hakimiyyət ən nəhayət

onu tox saxlayan və ehtiyaclarını ödəyən, həmçinin həyatını və əmlakını təhdid edən təhlükədən qoruyan hakimiyyətdir. Qarabağ əhalisi müxtəlif tipli eksperimentlərdən, millətçi, həm də sosialist tipli, azmı ziyan çəkmişdir ki, bir də siyasi mübarizədə fəal iştirak etsin. Təəssüf ki, özlərini demokrat sayan, ancaq xalq maraqlarının ifadəsi baxımından demokratiya ilə heç bir yaxınlığı olmayan siyasi partiyaların bəzi nümayəndələri xalqı özlərinin doğru hesab etdikləri yolla aparırlar və öz məqsədlərinə çatmaqdan onları hətta terror aktları da dayandıra bilməz. Əhali üzərində aparılan eksperimentlərin əsasında ən yaxşı halda partiya xarakterli terrorçu düşüncə, ən pis halda isə şəxsi maraq və mənfəətləri dayanır. Son iki ay ərzində ermənilər tam təhlükəsiz şəraitdə Qarabağın müsəlman (azərbaycanlı) rayonlarına gəlib-gedirlər. Digər tərəfdən, biz görürük ki, müsəlmanların erməni kəndlərinə gediş-gəlişi təhlükəlidir və nadir hallarda müsəlmanlardan kimsə öz işi ilə bağlı buna cəsarət edə bilər. Bunda günahı mən xalq kütləsində deyil, ayrı-ayrı şəxslərdə, bu kütləni terror altında saxlayan, öz proqramının həyata keçrilməsinə məcbur edənlərdə görürəm. Qarabağı iqtisadi cəhətdən bütöv hesab edib, onu siyasi cəhətdən ikiyə parçalamaq olmaz. Bütün Qarabağ bütöv və bölünməzdir, bədəni başdan və yaxud başı bədəndən ayırmaq və bədənin yaşamasını arzu etmək mümkün deyil. Qarabağın parçalanmasını arzulayan şəxslər öz xalqının düşmənidir... Qarabağ iqtisadi və fizioloji cəhətdən Azərbaycanın digər əraziləri ilə sıx surətdə bağlıdır. Əhalisinin böyük əksəriyyəti azərbaycanlılardır. Müsəlman rayonları ilə tam əhatə olunmuş erməni rayonunun Ermənistanla heç bir iqtisadi əlaqəsi və ərazi bağlılığı yoxdur. Söhbət yalnız ədalətli və qərəzsiz idarəetmə nümunəsi yaratmaqdan gedə bilər. Əhalinin firəvanlığını,

qanunçuluğu və hüquqi normaları əsas tutan bütün dövlətlər isə buna əməl etməyə borcludurlar.”

X.P.Sultanovun həyatında öz xalqının mənafeyini hər şeydən üstün tutduğunu sübuta yetirən belə məqamların sayı çoxdur. Onun əsl vətənpərvər, millətsevər olduğunu təsdiqləyən belə faktlar arasında mühacirət həyatı ilə bağlı olanlar da az deyil. Ancaq mühacirətə getməzdən bir neçə ay qabaq X.Sultanov da yüzlərlə, minlərlə millət fədaisi kimi sovet cəza orqanlarının repressiyalarına məruz qalmışdı. 28 aprel çevrilişi ilə müstəqil Azərbaycan dövlətinin taleyini əvvəlcə XI qırmızı orduyla, sonra qırmızı imperiyaya bağlayan bolşeviklərin özlərinin qatı düşməni bilib ilk həbs etdikləri şəxslər sırasında Xosrov bəy də var idi. Sovet cəza oqanları tərəfindən həbs edildiyi vaxt o, Qarabağ hərbi İnqilabi Komitəsinin sədri (təqribən iki həftə) işləyirdi. Ancaq sovet hökumətinin ilk illərində çox mühüm post sayılan bir vəzifədə olması da onu respressiyadan xilas edə bilmədi.

Xosrov Paşa oğlu Sultanovun 519 saylı həbs kağızından məlum olur ki, o, 12 may 1920-ci ildə həbs olunarkən Şuşa şəhərində İnqilabi Komitənin sədri imiş. Həmin həbs kağızında daha sonra: “ixtisası həkim, həkim işləyir. Ailəsi yoxdur”, yazılmışdır. Hansı əsasla tutulduğu qeyd edilən qrafada isə “Pankratovun göstərişi ilə həbs olunub”, yazılmışdır.

X.Sultanovun Qarabağ İnqilabi Komitəsinin sədri təyin olunması ilə bağlı qərar 1920-ci il may ayının 1-də verilib. Həmin gün axşam saat 9-da öz iclasını keçirən İnqilabi Komitə Qarabağ ərazisində bütün qəza komissarlarına, qəzalara və Yevlax komissarına elan olunması üçün aşığıdakı qərarları qəbul edir: Azərbaycanda sovet hökumətinin qurulması və Xalq Komissarları Şurası Hökumətinin təşkil olunması ilə əlaqədar Qarabağda müvəqqəti general-qubematorluq

haqqında əsasnamə 28 apreldən etibarən ləğv edilmiş hesab olunsun.

1.Keçmiş Qarabağ general-qubernatorluğunun dəftərxanası İnqilabi Komitənin dəftərxanasına çevrilsin.

2.Qəza hüdudunda - Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarında bütün hakimiyyətin İnqilabi Komitə təşkilatına verilməsi elan edilsin.

3.İnqilabi Komitənin heyəti: sədr Xosrov Sultanov, sədr müavini Bahadur Vəlibəyov, katib Məmməd Həsən Mirzəcanov, İnqilabi Komitənin üzvləri: Ocaqqulu Musayev, Məmməd Əli Qayıbov, Fərhad Ağayevdən ibarət olsun.

4.Qəza rəisləri və pristav vəzifələri ləğv edilmiş sayılır və onlar qəza və sahə komissarları ilə əvəz olunur.

5.Mühafizəçilərin adı dəyişdirilib xalq milisi olur.

6.Partizanlar bu gündən etibarən qırmızı kəndli qvardiyası adlanır.

Xosrov bəyin bu komitəyə sədr təyin edilməsi sözsüz ki, onun bütün Zəngəzur və Qarabağda böyük nüfuz sahibi olması ilə bağlı idi və yəqin bolşeviklər ilk günlərdə milli münaqişələrin hər an alovlana biləcəyi belə mühüm bir bölgəyə təsadüfi adamı təyin etmək istəmirdilər. Bəlkə də bu təyinatda X.Sultanovun bir vaxtlar N.Nərimanovla dost olması da müəyyən qədər rol oynamışdı. Ancaq bütün bunlara baxmayaraq, 1 may 1920-ci il qərarının müvəqqəti xarakter daşımasını 11 gün sonrakı həbs tədbiri sübuta yetirdi.

Ali İnqilabi Tribunalın istintaq şöbəsinin 1 avqust tarixli 1762 saylı blankından:

"Azərbaycan SSR (Staro-Poliçeyskaya d.№ 23.) İnqilabi Komitənin 22 may və Xalq Ədliyyə komissarlığının kollegiyasının may qərarı ilə keçmiş qubernator Rəfibəyov və general-qubernator Sultanov (onların hər ikisi eyni gündə həbs

olunmuşdular – L.Ş.) Ali İnqilabi Tribunalın məhkəməsinə veriliblər və onlar haqqındakı iş mənim icraatımdadır. Mənə çatan məlumata görə FK müstəntiqi Səfikürlüdə də X.Sultanova qarşı ittihamedici materiallardan ibarət iş var. Yuxarıda göstərilən iki qərarla bağlı Komissiyadan xahiş edirəm: 1. Keçmiş general-qubernator Sultanovun ittiham olunması ilə əlaqədar işi və bütün ittihamedici materialları və əgər varsa, Rəfibəyovun əksinqilabda iştirakı barədə materialları da mənə göndərsin. 2. Hər iki müttəhim Ali İnqilabi Tribunalın müstəntiqinin öhdəsinə verilsin və bu barədə mənə məlumat çatdırılsın. Həbs edilənlərlə əlaqədar tərtib olunan xüsusi arayışdakı münc möhüründən aydın olur ki, blank Bakı şəhərində tərtib edilib.

X.Sultanovun işi ilə bağlı 14 may 1920-ci ildə XI ordunun İnqilabi Hərbi Şurası yanında xüsusi şöbənin hərbi müstəntiqi M.Səfikürdlü tərəfindən aparılan dindirmə əsasında aşağıdakı məzmunda Protokol tərtib olunur:

"Mən, XI ordunun İnqilabi Hərbi Şurası yanında xüsusi şöbənin hərbi müstəntiqi Səfikürdlü may ayının 14-də əksinqilabi işdə ittiham olunan Xosrov Paşa oğlu Sultanovu dindirdim. O, Xarkovda institutun tibb fakültəsində oxumuş, inqilaba qədər Bibiheybət xəstəxanasında həkim işləmişdir. Hazırda Qarabağ İnqilabi Komitəsinin sədridir. Sonuncu il Şuşada yaşayıb".

X.Sultanov protokolu oxuyub: "Özümə qarşı irəli sürülən ittihamı qəbul etmirəm" qeydini edir.

Əlbəttə, iki gün qabaq Müvəqqəti Qarabağ İnqilabi Komitəsi tərəfindən mandat alaraq İnqilabi Komitənin işlərini yerinə yetirmək səlahiyyətlərinə malik olan bir şəxsin ona qarşı irəli sürülən ittihamları qəbul etməməsi təbii idi.

Ancaq bir həqiqət də vardı ki, bolşeviklər Azərbaycanda milli dövlət quruculuğunda iştirak etmiş şəxslərin, xüsusilə də X.Sultanov kimi yüksək vəzifə sahiblərinin sovet hökumətinə xidmət göstərəcəyinə qəti inana bilməzdilər və əslində bu inamsızlıqlarında onlar tam haqlı idilər. Ona görə də adı hər hansı şəkildə müstəqil Azərbaycanla bağlı olan şəxslərin taleyinə tez-gec qaranlıq çökməli idi. X.Sultanov isə bu yolda mütləq birincilər sırasında olmalıydı. Çünki onun müstəqil Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsində böyük əməyi olmuşdu və yenidən cüzi bir məqam yaranacağı təqdirdə o, öz xalqı qarşısında yeni xidmətlər göstərməyə hazır idi. Buna görə də Azərbaycanda hakimiyyəti əslində zorla ələ almış bolşeviklər istənilən an onun barəsində məmnuniyyətlə ən ağır cəzaya layiq görülməsi ilə bağlı qərar çıxara bilərdilər. Və doğrudan da, X.P.Sultanov haqqında belə bir qərarın çıxarılması ərəfəsində idi.

Qərar: "Mən, Azərbaycan FK-nm müvəkkili M.Səfikürdlü 1920-ci il avqust ayının 9-da Xosrov Sultanovun Ali Tribunalın məhkəməsinə verilməsi ilə bağlı İnqilabi komitənin 22 may, həmçinin Ədliyyə Komissarlığının 22 may qərarlarına uyğun olaraq və Ali İnqilabi Tribunalın 1 avqust tarixli 1762 saylı qərarını nəzərə alaraq Xosrov Sultanov haqqında bütün materialları Azərbaycan SSR Ali Tribunalına təhvil verirəm".

X.Sultanov haqqında Azərbaycan SSR Ali Tribunalının hansı qərarı qəbul etdiyi, yaxud onunla bağlı işin nə üçün dayandırıldığı barədə istintaq işində heç bir qeyd yoxdur. İşdəki növbəti sənəd isə arxiv qeydiyyat şöbəsinin 20 sentyabr 1954-cü il tarixli arayışıdır. Moskva şəhərinə, Baş Hərbi Prokurorun müavini general-mayor Kitayevə göndərilmiş həmin arayışda deyilir:

"SSRİ Prokurorluğunun nümayəndəsi yol. Bazenkonun xahişi ilə Sultanov Xosrov Paşa oğlunun 1225 saylı arxiv-istintaq işini tanış olmaq üçün göndəririk. İstifadə edildikdən sonra işi bizə qaytarmağınızı xahiş edirik. Qoşma: mətn üzrə 1 cild, 21 səhifə. Azərbaycan SSR Nazirlər Kabineti yanında DTK-nın qeydiyyat-arxiv şöbəsinin rəis müavini podpolkovnik Qnezdov, 3-cü bölmənin rəisi mayor Subbotin. 18.9.54".

Arayışın ruhundan görünür ki, onu Stalinin ölümündən sonra sovet cəza orqanlarının əli ilə repressiyalara məruz qalmış şəxslərə bəraətlərin verildiyi dövrdə hazırlamış, ancaq X.Sultanovun Cümhuriyyət hökumətinin rəhbərlərindən olduğunu nəzərə alaraq, heç bir qərar qəbul etməmişlər.

Yeri gəlmişkən, X.Sultanovun kiçik qardaşı Rüstəm bəy Sultanov və Rüstəm bəyin oğlu İskəndər bəy Sultanov da sovet cəza orqanları tərəfindən həbs edilmiş və repressiyaya məruz qalmışlar. Rüstəm bəy həbs edilərkən doldurulmuş anketdə göstərilir ki, o, 1875-ci ildə Qurdhacı kəndində anadan olub. Bakıda Malıgin küçəsi ev 2-də yaşayıb. Həyat yoldaşı Zeynəb 60 yaşındadır. "Türk xalqı uğrunda mübariz və sovet hakimiyyətini devirməyə çalışan şəxs" kimi ittiham olunmuş İskəndər bəy isə XDİK orqanları tərəfindən 1935-ci ildə həbs edilmişdir.

X.P.Sultanovun xaricə necə mühacirət etməsi, ona bu işdə kimin, yaxud kimlərin köməklik göstərməsi, ilk dəfə hansı ölkədə olması və sonralar haralarda yaşaması barədə qənaətlərə gəlincə, burada ən əvvəl iki faktı yada salmaq istərdik. Bunlardan birincisi onun Qarabağın müvəqqəti general-qubernatoru olarkən Çingiz İldırımın orada müavin işləməsi ilə və ikincisi, qeyd etdiyimiz kimi, N.Nərimanovla dost olması ilə bağlıdır. Taleyin hökmü ilə Xosrov bəylə çiyindaşlıq etmiş bolşevik Ç.İldırım da sovet Azərbaycanında

ən yüksək vəzifələrdən birini - Hərbi və dəniz komissarı vəzifəsini (Ə.Qarayevdən əvvəl) tuturdu. Bu isə sözsüz ki, ona istədiyi şəxsə köməklik göstərmək imkanı verə bilərdi.

Bəzi məlumatlara görə, həbsdən qurtulduqdan sonra Xosrov bəy 1922-ci ildə İrana gedənə qədər Laçın rayonu ərazisində (Abdallar nahiyyəsi) gizli yaşamışdır. İrandan isə qeyd etdiyimiz kimi Türkiyəyə getmiş və mühacirət həyatının bir hissəsini yaşadığı Avropaya bu ölkədən keçmişdir. Avropada o, Fransa, Polşa və Almaniyada yaşamışdır. İranda olarkən Xosrov bəy Qarabağa yaxın bölgələrlə əlaqə saxlayaraq, onların sovet hakimiyyətinə qarşı çıxış etmələrinə çalışmışıdır.

Almaniyada yaşayarkən qardaşı oğlunun vasitəsilə bu ölkənin rəhbərliyi ilə müyyən əlaqələr yaratmağa nail olmuş və vətənini sovet imperiyasının işğalından qurtarmaq üçün mübarizəsini davam etdirmişdir.

Görkəmli Azərbaycan maarifçisi və yazıçısı, ictimai xadim S.M.Qəniyevin istintaq işindən (MTN arxivi PR 25450 saylı iş) də X.P.Sultanovun bir müddət Türkiyədə, sonra isə Almaniyada yaşadığı və bu ölkələrdə olarkən üzvü olduğu "İttihad" partiyasının üzvləri ilə əlaqə saxladığı aydınlaşır.

Qeyd edək ki, Xosrov bəy əvvəl "Müsavat" partiyasının üzvü olmuşdur. O, birinci hökumətdə hərbi nazir kimi "Müsavat" və "İttihad" partiyalarını, ikinci, üçüncü hökumətlərdə torpaq naziri kimi isə yalnız "İttihad" partiyasını təmsil etmişdir. S.M.Qənizadənin "İttihad" partiyasının parlamentdəki fırqəsinin rəhbəri kimi X.P.Sultanovla sözsüz ki, aralarında yaxınlıq və xoş münasibətlər ola bilərdi və bunu nəzərə alan sovet cəza orqanları 1937-ci ildə həbs etdiyi şəxslərin də başlıca günahını onların milli hökumətin nümayəndələri ilə yaxınlığında, AXC-nin bərpası ideyaları ilə yaşamalarında görürdü. 37-nin qurbanlarından, tanınmış dilçi

alim B.Çobanzadənin verdiyi ifadəyə görə "İttihadçılar xaricdə yaşayan X.b.Sultanovla onun qardaşı Rüstəm bəy Sultanovun vasitəsilə əlaqə saxlayıblar".

Xosrov bəyin "Müsavat" dan "İttihad" partiyasına keçməsinə gəlincə, bu fakta ən yaxşı açıqlamanı M.Ə.Rəsulzadə "Azərbaycan" qəzetinin 24 sentaybr 1919-cu il tarixli sayında dərc olunmuş "Qondarma həqiqət" adlı məqaləsində verir. O dövrdə "Müsavat" partiyasının Azərbaycan hökumətinin siyasətinə əsaslı təsir göstərməsi barədə danışıqlara cavab verən M.Ə.Rəsulzadə yazırdı: "Söhbət guya hökumətin siyasətinə təsir göstərən partiyanın fəaliyyətindən gedir, buna görə də "Müsavat" partiyasının sədri kimi mən Daxili İşlər Nazirliyinin partiyalı olmasına dair ittihamların əsassız olduğunu əyani surətdə sübut etmək istəyirəm. İsrar edirlər ki, nazirliyə təyin olunma partiya xarakteri daşıyır, partiya üzvü olmadan idarəetmədə yer tutmaq mümkün deyil. Görək bu nə dərəcədə faktlarla uyğun gəlir. Kənar idarəetmə vəzifələrindən başlayaq:

1.Qarabağ general-qubernatoru X.b.Sultanov nəinki müsavatçı deyil, hətta bir vaxtlar nümayişkaranə surətdə partiya sıralarını tərk etmişdir.

2. Daxili işlər nazirinin Qazaxdakı xüsusi səlahiyyətli nümayəndəsi Rza Qaraşarov sosialistdir.

3. Zaqatala qubernatoru M.Şahmalıyev bitərəfdir.

4. Keçmiş Bakı qubernatoru R.Axundzadə bitərəfdir".

X.P.Sultanovun Müvəqqəti Qarabağ general-qubernatoru kimi fəaliyyəti dövründə daha bir maraqlı məqam haqqında da oxuculara məlumat vermək istərdik.

"Daxili işlər naziri X.Xasməmmədovun Şuşa şəhərinin general-qubernatoruna N.Nərimanovun həbs edilməsi barədə

sərancamı 8 aprel 1919-cu il. Müvəqqəti general-qubernator doktor X.Sultanova:

"Hərbi nazirin aldığı agentura məlumatına görə bolşevik Nərimanov Bakıya gəlib orada parlamentin "Hümmət"dən olan üzvləri, başlıcası isə Sanıyev və Qarayevlə görüşmüş, sonra isə Şuşa və Qazax qəzalarının əhalisi ilə görüşmək və imkan daxilində qoşun daxilində bolşevizmi təbliğ etmək məqsədilə həmin qəzalara getmişdir. Hərbi nazir təsdiq edir ki, belə təbliğatın nəticəsində orduya gənclərin axını xeyli azalmış və təhlükə doğuracaq həddə çatmışdır. Bu barədə Sizə məlumat verməklə mən əlahəzrətinizdən Sizin general-qubernatorluğun ərazisində göründüyü vaxt Nərimanovun tutulması üçün sərancam verməyinizi xahiş edirəm. Bu barədə tərəfimdən Gəncə qubernatoruna da teleqrafla bildirilmişdir. Daxili işlər naziri Xasməmmədov".

Bu xahişin nəticəsi barədə əlimizdə hər hansı arxiv sənədi yoxdur. Ancaq Xosrov bəyin vəzifə borcunu yerinə yetirmək üçün necə çətin bir durum qarşısında qaldığını güman edirik. O, neçə illər dostluq etdiyi bir şəxsi həbsə almalı, yaxud vəzifə borcuna əməl etməməli idi. Əsl həqiqətdə necə olduğunu isə yəqin gələcək tədqiqatlar deyəcəkdir. N.Nərimanovun Azərbaycan tarixində hansı rolu oynaması barədə mübahisələrə qoşulmadan və bu böyük şəxsiyyətin xalqımız qarşısındakı danılmaz tarixi xidmətlərini azaltmadan yalnız onu deyə bilərik ki, Azərbaycan daxilində aparılan bolşevik təbliğatı nəticədə respublikanın dövlət müstəqilliyinin itirilməsinə, Rusiya imperiyasının yeni cilddə sərhədlərimizdə peyda olmasına və Vətənimizi işğal edilməsinə gətirib çıxardı. Yerli xəyanətkarların əli ilə baş tutmuş həmin çevriliş aktından təqribən iki il sonra vaxtilə bolşevik təbliğatı aparan N.Nərimanov bir nömrəli bolşevik Leninə yazacıqdı: "Müstəqil

Azərbaycan sözü məgər sizin dilinizdən çıxmamışdırmı". Ancaq onun az qala acı fəryad kimi səslənən bu sualına yalnız 71 ildən sonra cavab veriləcəkdi.

Xosrov bəy Paşa bəy oğlu Sultanovun keşməkeşli həyatının Azərbaycanın XI qırmızı ordu tərəfindən işğal olunmasına qədərki dövrü haqqında qısa şəkildə qeyd etdiyimiz bu faktların, eləcə də, ömrünün mühacirətlə bağlı mərhələsinə aid faktların arxasında onun çoxsahəli, əvəzedilməz fəaliyyəti, Azərbaycanın tərəqqisi və xoşbəxt gələcəyi yolunda böyük xidmətləri durur. Qədirbilən xalqımız bu gün həmin xidmətləri yüksək qiymətləndirir. Xosrov bəyin adı Azərbaycanın ilk demokratik respublikasının yaradıcıları sırasında fəxrlə çəkilir.

“Artilleriyanın Allahı” - Əliağa Şıxlinski

“Sizə tam artilleriya generalı böyük hərbi mütəxəssis

Əliağa Şıxlinskini həbs edib Ü K-nın Qafqaz idarəsinin istənilən şöbəsi vasitəsilə Moskvaya göndərməyi təklif edirəm”.

Hərbi İnqilabi Şuranın üzvlərindən birinin 11-ci ordunun Xüsusi şöbəsinin rəisi Pankratova 10 may 1920-ci il, 382 saylı bu müraciəti məmnuniyyətlə yerinə yetirildi. “Böyük hərbi mütəxəssis olduğu etiraf edilən general Əliağa Şıxlinski həmin günlərdə qırmızı ordunu onun kimi nadir hərbi dühaların köməyi ilə nizami qoşun hissəsinə çevirməyə çalışan bolşeviklər tərəfindən həbsə alındı və Azərbaycanın böyük sərkərdəsi, müstəqil dövlətin müdafiə naziri olmuş tam artilleriya generalı Səməd bəy Mehmandarovla birlikdə Moskvaya göndərildi.

Ancaq bu iki müxtəlif hadisənin baş verdiyi zaman kəsiyində onu sovet hakimiyyəti əleyhinə əksinqilabi fəaliyyətdə, Gəncə qiyamında iştirakda suçlayaraq, istintaq altında saxladılar. 55 yaşlı general həbsxana şəraitində komandanlığında çavuş olmağa ləyaqəti çatmayan dünənki qaragüruh nümayəndələri tərəfindən heysiyyatına toxunan sorğu-suala tutuldu.

Belə günlərdən biri. 1920-ci ilin 31 mayı. İstintaq-arxiv işindəki həmin tarixdə tərtib edilmiş Protokoldan aydın olur ki, Əliağa Şıxlinski may ayının 31-də işlə bağlı şahid qismində dindirilib: “Çevrilişdən sonra Gəncə ilə danışıqlar aparılırdı.

İnqilabi Komitə məsələyə kəskin yanaşırdı, onlar tərəfindən əmr olunmuşdu ki, telefon vasitəsilə əməliyyat göstərişləri verilməsin. Danışıqları diviziya komandiri C.Şıxlinski və onun adyutantı Əfəndiyev aparırdı. Mən C.Şıxlinski ilə bir dəfə şəxsi məsələmə görə (24.05) söhbət etdim. O soruşdu ki, nə vaxta qədər ehtiyata təyin edilib. Bilmək istəyirdi əşyalarını Gəncədə qoysun, yoxsa özü ilə götürsün. Novruzov çevrilişdən bir neçə gün sonra raport yazmışdı. Ona getməyə icazə verildi. C.Şıxlinski telefonla məlumat verdi ki, gürcü zabitlər istefa veriblər və İvorin bütün gürcüləri həbs etmək göstərişi verib. Sonra da bütün zabitlərə elan edib ki, kim xidmət etmək istəmirsə, qoy silahını qoyub getsin... Bizə İrəvandan xəbər verdilər ki, əvvəl diplomatik nümayəndə (Haqverdiyev), sonra parlament üzvləri Camalbəy Qasımbəyov və Kazımbəyov bizdə Qərargahda Şıxlinski, Şahtaxtınksi, Qədimov və familyalarının müəyyənləşdirilməsi mümkün olmayan üç rus satqın var...”

Azərbaycanda milli ordu quruculuğunda böyük xidmətlər göstərməsindən başqa general daha hansı “günahlar”ın sahibi idi. Bolşevik orqanının tam məxfi qrifli “Agentura məlumatından çıxarışı”nda bu “günahlar belə sıralanıb: “tam artilleriya generalı, hazırda Az. SSR Hərbi-dəniz komissarının müavini Əliağa Şıxlınski:

1. 1917-1918-ci illərdə sovet hakimiyyətinə qarşı mübarizə aparmaq üçün hərbi hissələr yaratmaqda fəal iştirak etməkdə;

2. 1920-ci ildə qırmızı orduya qarşı cəbhə yaradılmasında ciddi cəhd göstərməkdə;

3. Fürsətdən istifadə edərək Hərbi-dəniz komissarının etimadını qazanmış, fəhlə-kəndli hakimiyyətinin Gəncə və

Gürcüstandakı düşmənləri ilə gizli əlaqə saxlamaqda davam etməkdə;

4. Sovet hakimiyyətinə rəğbət göstərən bütün Azərbaycan zabitlərinin həbsə almaqda və həbs edilməsinə yardım etməkdə;

5. 15-17 mayda çevrilişdən sonra çox mühüm əhəmiyyətə malik olan Könüllü Ordu sənədlərinin məhv edilməsində iştirak etməkdə;

6. Mayın 25-də Gəncədəki üsyan barəsində xəbəri olmaqda və onun təşkilatçıları ilə əlaqəsi saxlamaqda ittiham olunmuşdur.

Bu ittihamların hər biri qaniçən rejim qullarının fikirləşmədən istənilən şəxsi divara dayayıb güllələməsi üçün kifayət edərdi. 1917-1918-ci illərdə sovet hakimiyyətinə qarşı mübarizə aparmaq üçün hərbi hissələr yaratması və 1920-ci ilin aprel çevrilişi ərəfəsində qırmızı ordunun Azərbaycana müdaxiləsinin dayandırılması istiqamətində işlər görülməsi kimi bu gün hər bir vətənpərvərdə qürur hissi doğuran, generala bəslənən məhəbbəti qat-qat artıran ittihamlar isə nəinki müttəhimin özünün, bütün nəslinin məhv edilməsi üçün yetərli idi. Sovet hakimiyyətinin düşməni sayılmaqdan, qırmızı orduya qarşı çıxmaqdan daha dəhşətli bir günah ola bilərdimi? Əsla təsadüfi deyildi ki, generalın bu sahədəki fəaliyyətinin aşkarlanması və dəqiqləşdirilməsi məsələsini Az.FK-nın sədri Pankratov kimsəyə etibar etməmiş, özü üzərinə götürmüşdü.

Həmin Protokol bu sözlərlə başlayır: "1920-ci il iyun ayının 1-də mən, Azərbaycan Fövqəladə Komissiyasının sədri Pankratov tərəfimdən həbs edilmiş general Şıxlınski dindirildi. Şıxlinski bəyan etdi ki, hələ Qırmızı Ordunun gəlişindən əvvəl Azərbaycan hüdudlarında Yusifbəyov hökuməti tərəfindən sərhədlərin hər hansı qoşun, o cümlədən qırmızı ordunun

müdaxiləsindən qorunması barədə qərar qəbul edilmişdi. Ancaq qırmızı orduya qarşı çıxmağa silah və əsgəri güc kifayət etmədiyi və mümkün olmadığı üçün parlament iclasında vətəndaş müharibəsinin qarşısının alınması məsələsi qoyulmuşdu. Bu məsələnin müzakirəsi zamanı aydın oldu ki, kommunist fraksiyasından başqa parlamentin heç bir fraksiyası öz üzərinə Azərbaycanda kortəbii hərəkətlərin qarşısını almağı götürmədi. Onlar öz ultimatumlarında hakimiyyəti təhvil verməyi tələb etdilər. Azadlığına təminat alan hökumət (bolşeviklərin təminatı bütün milli hökumət üzvlərinin, o cümlədən general Əliağa Şıxlinskinin repressiyaya məruz qalmaları oldu) öz səlahiyyətlərindən əl götürüb bu səlahiyyətləri kommunistlərə verdi. Azərbaycanın müdafiəsi məsələsi hökumətdə dəfələrlə qaldırılmışdı. Ancaq sonuncu dəfə bu məsələ silahın çatışmaması və dəniz qüvvələrinin olmamasına görə çətinləşmişdi. İngiltərəyə göndərilən sorğuya cavab alınmışdı ki, Azərbaycan hökumətində qalmış silah ehtiyatı, onun say tərkibi və zəruri tələbatı barədə məlumat verilsin. Uzun cəhdlərdən sonra qırmızı ordunun Qafqaza irəliləməsinin dayandırılması fikrinə gəlindiyi üçün Antanta Azərbaycan hökumətinə zəruri silahları vermək qərarına gəldi. Bü vəd sadə bir səbəbə görə - qırmızı ordunun təcili hərəkəti ilə yerinə yetirilməmiş qaldı.

Azərbaycan hökumətinin Dağıstan tərəfdən sərhədi möhkəmləndirməsi, yaxud Sovet Rusiyası ilə əlaqə yarandıqda sərhədlərlə bağlı müqavilə şərtlərinin yerinə yetirilməsinə çalışılması qəribə mövqe nümayiş etdirməkdən başqa bir şey olmazdı. Hələ Könüllü Ordunun tərksilah edilməsi və silahın alınması zamanı hökumətdə tərksilah edilmiş zabitlərdən istifadə olunması fikri yaranmışdı. Bu barədə rəsmi qərar yox idi, ancaq məsələ özlüyündə həll edilmişdi. Hərbi nazirlik

onları qəbul etməmişdi, ancaq hökumət tərəfindən bir neçə vədə əsasən bəzi adamlar qəbul edildilər, baxmayaraq ki, rəsmi şəkildə Azərbaycan Ordusunun tərkibinə daxil olmadılar. Polkovnik Qluxaryev və yüngül top bateriyasında xidmət edən digər zabitlərlə də belə oldu. Bu batareya mümkün olduğu halda bolşeviklərin çıxışlarının qarşısını almaq üçün ezam olunmuşdu...

Ancaq çevriliş yolu ilə hakimiyyəti ələ keçirmiş bolşeviklər ona ciddi ehtiyac duyduqları üçün həbs olunmasına baxmayaraq, generalı ən azı müyyən müddət başqa milli hökumət üzvlərinin taleyinə yazılmış amansız qərar gözləmirdi. Onun xeyrinə olan digər, əsasən subyektiv amillər də vardı. Bunlar arasında generalın N.Nərimanov kimi himayədarının olmasını, onun çevrilişdən az sonra Ç.İldırım kimi nüfuz sahbi ilə bir yerdə işləməsini və s. əlaqələrini göstərmək mümkündür. Ona qarşı irəli sürülən son dərəcə ağır ittihamlara baxmayaraq, sağ saxlanılması və mərkəzə xüsusi məqsədlə yola salınmasının bizə məlum olmayan digər səbəblərinin mümkünlüyünə şübhə ilə yanaşsaq da, bunu tamamilə istisna da etmirik.

Yəqin yuxarıda sadaladığımız amillərlə əlaqədar idi ki, onun verdiyi ifadədə özünümüdafiə çalarlarından daha çox arxayınçılıq, sanki nəyəsə ümidli olması görünməkdədir: "...Həmin batareyanı hərbi məktəbə qarnizon komandirinin müavini general Usubbəyov yerləşdirmişdi. Bu sahədə keçirilən bütün tədbirlərdən onun sözsüz xəbəri olmalı idi. Gürcü zabitləri barədə nə qədər düzgün məlumatlandırılmışam, bilmirəm. Cavad Şıxlinski tərəfindən İnqilabi Komitəyə hərbi komissar Çingiz İldırıma telefonla məlumat verilmişdi ki, gürcü zabitləri istefa vermişlər və İldırımın əmri ilə zabitlər həbs olunmuşlar. Bu əmr İldırımın Hüseynovla və başqaları ilə məsələnin müzakirəsi nəticəsində qəbul edilmişdi. Bu

müzakirələrdə mən iştirak etmədim, ancaq o zaman təsadüfən İnqilabi Komitədə olmuşdum. Mənim fikrim belə idi ki, onları mane olan şəxslər kimi təcrid etmək, bununla da təhlükəni aradan qaldırmaq lazımdır. Hərbi komissarlıqda olan əsgərlər tərəfindən gəmidən tapılmış sənədləri müəyyən etmək üçün mən Qaytabaşıya tapşırıq verdim və indi hərbi komissarlığın kvartirmeystr şöbəsində xidmət edən podporuçik Qulubəyovu ona köməkçi təyin etdim. Bu sənədlər Denikin ordusunun Azərbaycanda casusluq fəaliyyətinin açılması baxımından əhəmiyyət kəsb edirdi. Orada bu sahədə iş görmüş çoxlu adamların soyadları vardı və həmin adlar barəsində məndən başqa Qaytabaşı, Karqalateli və Qulubəyov da bilirdilər. General Mehmandarov da bilirdi. Bu sənədlərin sonrakı taleyi belədir - mənim göstərişimlə onlar məhkəmə şöbəsinə verilməli idi, ancaq sonradan general Qaytabaşı mənə məruzə etdi ki, sənədlər Fövqəladə Komissiyaya verilib. Sənədlərin sonrakı taleyi mənə məlum deyil. Həmin casuslara gəlincə, onlar arasında Mazayev və daha iki nəfər var idi, hər üçü mənim tərəfimdən həbs olunub və komendantlıqda həbsdə saxlanırdılar…

1-ci Tatar, 2-ci Qarabağ qoşunlarının və 3-cü Şəmkir alayının Gürcüstan cəbhəsinə atılmasına gəlincə, heç nə deyə bilmərəm, çünki bunların heç biri ilə bağlı mən əmr verməmişəm. Mən ancaq demişəm ki, əgər köməklik göstərmək mümkündürsə, bunu yaxın olduğu üçün güman ki, Gəncədən etmək olar. Ancaq mən eyni zamanda, demişəm ki, bu təhlükəlidir, çünki erməni sərhədi ilə yaxındır və Gəncə üçün təhlükə yarana bilər... 1 iyun 1920-ci il Ə.Şıxlınski."

"Elm" nəşriyyatının 1997-ci il tarixli məcmuəsində Əliağa İsmayıl oğlu Şıxlinskinin (1865-1943) qısa tərcümeyi-

hal qeydlərində yazılır: "Tiflis hərbi gimnaziyasını və Mixaylovski artilleriya məktəbini (Peterburq) bitirmişdir.

Rus-yapon müharibəsinin (1904-1905) iştirakçısı, Port- Arturun müdafiəsində batareyaya komandirlik etmişdir. Döyüş ordenləri ilə təltif olunmuşdur. Çarskoselsk artilleriya məktəbində oxumuş və burada dərs demişdir (1906). 1910-cu ildən etibarən artilleriya diviziyasının komandiri olmuş, sonra yenidən pedoqoji fəaliyyətə qayıtmışdır. Birinci dünya müharibəsinin iştirakçısı kimi müxtəlif komandir vəzifələrində olmuşdur. 1914-cü ildə general-mayor, 1917-ci ildə general-leytenant rütbəsi almışdır. 1917-ci ilin noyabrında istefaya çıxmışdır. Həmin il noyabrın 15-də Qafqaza qayıdararaq bir ay sonra Azərbaycan korpusunu (Gəncə) formalaşdırmışdır.

Azərbaycanlılardan ibarət olan bu korpusun yaradılmsına hələ Tiflisdə başlanmışdı. Bununla da Azərbaycan Xalq Cümhuriyyəti Silahlı Qüvvələrinin bünövrəsi qoyulmuşdur. Ə.Şıxlinski «Xatirələrim» memuarında bu barədə yazırdı: "Tiflisə qayıtdıqda, müvəqqəti olaraq mənə korpus komandanlığı həvalə olduğu barədə əmri oxudum. Öz xalqımın, baş verə biləcək xarici təzyiqlərdən və daxili qarışıqlıqlardan özünü qorumasına xidmət etmək arzusu ilə korpus təşkil etməyi qət edib, Tiflisdə öz qərargahımı düzəltməyə başladım... Dekabrın otuz birində mən öz qərargahımın ilk heyəti ilə Gəncəyə getdim ki, orada hissələrin təşkil edilməsilə məşğul olum".

Azərbaycan hökumətində hərbi nazirin müavini vəzifəsi postunu tutmuşdur. 1919-cu ilin iyulunda tam artilleriya general rütbəsi verilmişdir. 1920-cu il 9 martda ilk dəfə onun təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətində Azərbaycan Qızıl Aypara Cəmiyyəti təsis olunmuşdur. 1920-ci iln avqustunda N.Nərimanovun təklifi ilə S.Mehmandarovla birlikdə Moskvaya göndərilmişdir. 1921-ci ilin payızından

Bakıda olmuşdur. Hərbi məktəbdə dərs demişdir. "Qısa rus-türk hərbi lüğəti"ni (1926) tərtib etmişdir.

Əliağa Şıxlinski rus-yapon və birinci dünya müharibəsi cəbhələrində sərkərdəlik qabiliyyəti və rəşadət nümayiş etdirmiş bir hərbçi idi. Onun döyüşlərdə göstərdiyi böyük şücaət qeyri-millətlər, o cümlədən ruslar tərəfindən dəfələrlə etiraf olunmuş, təkcə Port-Arturun müdafiəsinə görə 6 orden almışdır. O, qazandığı xidməti uğurlara və döyüş əməliyyatlarında göstərdiyi komandirlik məharətinə görə, həmçinin "İgidliyə görə" sözləri yazılmış qılınc, 4-cü dərəcəli Anna ordeni, Qızıl qılınc nişanı, qılınc və bantla birgə Vladimir ordeni və Georgi ordeninin 4-cü dərəcəsi ilə təltif olunmuşdur. 1908-ci ilin noyabr ayının 25-də ona vaxtından qabaq polkovnik hərbi rütbəsi verilərkən əla xidmət göstərdiyi xüsusi vurğulanmışdı. Port-Artur döyüşlərinin şahidləri rus yazıçıları – Aleksandr Stepanovun "Port-Artur" və "Zvonaryovlar", Trofim Borisovun "Port-Arturçular" romanlarında Mehmandarov və Əliağa Şıxlınskinin qəhrəmanlıqlarından rəğbət və məhəbbətlə bəhs edilib.

Təsadüfi deyildi ki, çarizmin süqutundan sonra Cənubi Qafqazın idarəçiliyi məqsədilə yaradılmış Zaqafqaziya Komissarlığı azərbaycanlılardan ibarət ilk hərbi birləşmənin komplektləşdirilməsi vəzifəsini general-leytenant Əlağa Şıxlinskiyə həvalə etmişdi. Komissarlığın 1917-ci il dekabrın 11-də verdiyi dekretə əsasən yaradılacaq Müsəlman Korpusunun komandiri təyin olunması bu böyük insan və həqiqi sərkərdənin Azərbaycan Silahlı Qüvvələrinin təşkili sahəsində gələcək fəaliyyətinin başlanğıcı idi. Korpusun qərargahı Tiflisdə yerləşdiyindən 1917-ci ilin dekabrı, 1918- ci ilin əvvəllərində onun təşkili ilə bağlı bütün işlərə bu şəhərdən rəhbərlik edilirdi.

Əliağa Şıxlinskinin mili Silahlı Qüvvələrimizin formalaşmasındakı xidmətlərindən daha bir yarpaq. Müsəlman Korpusunun təşkilində çətinliklərdən biri də aşağı rütbəli milli zabitlərin çatışmaması ilə əlaqədar idi. Bu problemin aradan qaldırılmasına çalışan Korpus komandanlığı çıxış yolu kimi Bakıda aşağı rütbəli milli zabit kadrları hazırlayacaq hərbi məktəbin açılması məsələsini qaldırmışdı. Həmin məqsədlə Korpusun komandiri Ə.Şıxlinski və qərargah rəisi polkovnik Mençukov 1918-ci il fevralın 6-da Qafqaz cəbhəsi qoşunlarının Baş komandanına raportla müraciət etmiş, Bakıda 1-ci Müsəlman diviziyasının nəzdində milli hərbiyyə məktəbinin açılmasına razılıq verilməsini xahiş etmişdilər. Qafqaz cəbhəsi qoşunları baş komandanlığının raporta müsbət cavabına, belə bir hərbi məktəbin açılmasını məqsəduyğun saymasına baxmayaraq, təşkilati məsələlərin uzanması və bölgədə baş verən hərbi-siyasi proseslər nəticəsində milli hərbiyyə məktəbinin fəaliyyətə başlaması yalnız Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından sonra mümkün oldu.

Əliağa Şıxlinskinin bilavasitə müstəqillik dövründə Azərbaycanda hərbi nazirliyin və milli ordunun təşkilində göstərdiyi xidmətlər barədə də çox yazılıb. Müstəqillik dövründə il yarıma yaxın müddətdə (25 dekabr 1918-ci ildən) hərbi nazirin müavini olmuş məşhur general gənc dövlətin etibarlı müdafiəsi ilə bağlı məsələlərin həllində yorulmaq bilmədən çalışmış, Azərbaycan ordusunu yüksək döyüş qabiliyyətinə malik səviyyəyə çatdırılmasında şəxsi təcrübəsini, bütün biliyini və səyini əsirgəməmiş, gələcək hərbi kadrların və mütəxəssislərin hazırlanmasını da unutmamışdır. Hərbi nazirliyin müvafiq strukturlarının formalaşdırılması kimi son dərəcə mühüm iş Səməd bəylə yanaşı, həmçinin onun şəxsi qayğısı və gündəlik nəzarəti altında həyata keçirilmiş,

artıq 1919-cu ilin ikinci yarısında bu hərbi qurum nəinki həmin, hətta hazırkı dövrün tələblərinə tam cavab verən bir orqana çevrilmişdi.

Ə.Şıxlinskinin hökumətin bütün dairələrində, ölkə rəhbərliyi səviyyəsində nüfuz sahibi kimi qəbul olunması yalnız bu fəaliyyətinin deyil, həmçinin onun istənilən məsələyə ümumdövlət mənafeyindən yanaşmasının, Azərbaycan naminə kimsəyə güzəştə getməməsinin nəticəsi idi. Ancaq o, bəzən belə yüksək hörmət və nüfuz sahibi olmasından başağrısı da çəkib, əsəb və gərginlik də keçirib. DTX-nın Arxiv-istintaq işində saxlanılan bir sənəd buna şahidlik edir. Ə.Şıxlınski hökumət səviyyəsində söz sahibi olmasından narahatlıq keçirən şəxslərin yaydıqları şayiələrə cavab olaraq Qazax general-qubernatoru Əmir Xan Xoyskiyə yazırdı:

"Əziz Əmir Xan" Qəzetdə təqribən aşağıdakı məzmunda material gedib: "Qazaxdan provakasiya xarakterli şayiələr eşidilir ki, guya general Əliağa Şıxlinski, doktor Qarabəyov və Qarabağ general-qubernatoru hakimiyyəti ələ keçirmək üçün hərbi çevriliş etmək barədə düşünürlər... Sorğular göstərdi ki, bu barədə Siz, Ömər Faiq Əfəndi və Parlamentin üzvü Mustafa Vəkilovla danışmısınız. Siz özünüz bilirsiniz yüksək hərbi mənsəbli hərbi adam üçün belə sui-qəsdlərdə iştirak etmək necə ağır cinayətdir. Cəmi bir dəfə mənə Sizi görmək nəsib olub və mən əminəm ki, tutarlı əsas olmadan Siz mənə qarşı belə ittiham irəli sürməzdiniz: görünür, Siz özünüz bu barədə etibar etdiyiniz adamdan eşitmisiniz. Sizdən xahiş edirəm təcili surətdə mənə, Sizə tendensiyalı, tamamilə yalan xəbəri kimin dediyi barədə məlumat verəsiniz, bununla mən özümə qarşı qərəzli böhtanın kökünü kəsə və günahkarı məsuliyyətə cəlb etdirə bilərəm. Sizə hörmət edən Ə.Şıxlinski".

Ə.Şıxlinski Azərbaycanda zabit kadrlarının çatışmadığı bir dövrdə keçmiş çar ordusunda xidmət etmiş azərbaycanlıların, xüsusilə zabitlərin vətənə qayıtmaları və milli hərbi hissələrdə yerləşdirilmələri ilə bağlı az iş görməmişdir. O, nəinki azərbaycanlıların, hətta vaxtılə hərbi qulluq illərindən yaxşı tanıdığı bir sıra digər xalqların nümayəndələrinin hərbi quruculuq proseslərinə cəlb edilmələri üçün şərait yaratmışdır. Aşağıdakı məktub məhz onun belə xeyirxahlıqlar göstərməsindən xəbər verən daha bir sənəddir.

"Çox hörmətli Əliağa! Mən bu gün keçmiş rus ordusundan xidmət yoldaşım və dostum tam artilleriya generalı Mehmandarova məktub yazdım. Əliağa sənə qarşı da eyni hisslərlə müraciət edirəm, mənə Azərbaycan ordusunda hansısa vəzifə verəsiniz. Mən Könüllü Orduda kiçik bir vəzifə – kazak briqadasının komandiri vəzifəsi tuturdum. Mən ailəmi dolandırmaq naminə hər cür vəzifə ilə kifayətlənərəm. Siz bilirsiniz mən hər cür vəzifənin öhdəsindən gələ bilərəm və Azərbaycan Respublikasına sədaqətlə xidmət edəcəyim barədə and içə bilərəm. Həyat yoldaşım və qızlarım Vera və Nadejda Sizə, Əliağa və həyat yoldaşınız - Nigar xanıma səmimi salam göndərirlər. Sizə sədaqətli olan V.İrmanov. 31 mart 1920-ci il, Kutaisi şəhəri".

Zəngin bir ömür tarixçəsinə malik general Ə.Şıxlınski millətin başını ucaldan şəxsiyyətlərdəndir. 1920-ci il avqust ayının 1-də N.Nərimanov V.İ.Leninə yazdığı məktubda "Şıxiınski Nikolay ordusunda "artilleriyanın Allahı sayılırdı, "onlar hərbi mütəxəssislər olmaq etibarı ilə əvəzsizdirlər", deyəndə qətiyyən mübaliğəyə yol vermirdi. General Əliağa Şıxlınski nəinki döyüş əməliyyatlarında, həmçinin nəzəri baxımdan artilleriyanın Allahı idi. Onun 1910-cu ildə Peterburq yaxınlığında Luqa şəhərində V.M.Kuroçkinin

yeni mətbəəsində çapdan çıxmış "Səhra toplarının cəbhədə işlədilməsi" adlı kitabı minlərlə artilleriyaçının yetişdirilməsində əvəzsiz mənbə olmaqla yanaşı, bu elm sahəsində çox yüksək elmi dəyərə malik bir əsərdir. Belə ki, Əliağa Şıxlinski artilleriya tarixində ilk dəfə gözlə görünməyən hədəfə toplardan atəş açmaq texnikasını işləyib hazırlamış və onların təkmilləşdirilməsi işinə yeniliklər gətirmişdir. Ömrünün ahıl çağlarında Bakı qarnizonunun hərbi elmi cəmiyyətinin sədr müavini işləyəndə "Səhra toplarının cəbhədə işlədilməsi" adlı artilleriyaçı kadrların hazırlanmasında dəyərli mənbə olan əsərindən, eləcə də "Gələcək müharibədə toplar", "Topların dağlıq yerlərdə atəş xüsusiyyəti haqqında", "Alay topları haqqında" və s. silsilə mühazirələr oxumuşdur. Bu işlərin hərbi elm üçün böyük əhəmiyyəti olduğunu mütəxəssislər dəfələrlə vurğulamışlar. Artilleriya atəşinin aparılmasında məşhur "Şıxlınski üçbucağı"nın böyük rolu isə dünyanın bir sıra ölkələrinin tanınmış hərbi mütəxəssisləri tərəfindən etiraf edilmişdir. Belə ki, "Şıxlınski üçbucağı" təkcə rus artilleriyasında deyil, Fransa, İsveçrə, Norveç və Avstriya artilleriyalarında da böyük şöhrət qazanmışdır.

"Üçbucağın ətraflı şərhi və yazılışı" ilk dəfə 1912-ci ildə çap olunmuşdur. O, həmçinin hava hədəflərini vurmaq üçün atəş qaydalarının hazırlanması, alay və batalyon toplarının yaradılması kimi gərəkli hərbi ideyaların müəllifi idi. Əliağa Şıxlınski həmçinin "Rusca-azərbaycanca qısa hərbi lüğətin ilk yaradıcısıdır. 1926-cı ildə "Azərbayan hərbi redaksiyasında nəşr edilmiş lüğət doğma dilimizdə hərbi nizamnamələrin hazırlanmasında, hərbi elmi ədəbiyyatın tərcüməsində xüsusi rol oynayıb.

Əliağa Şıxlinskinin öz hərbi və bədii əsərlərini sadə, oxunaqlı dildə yazmasını onun çoxsahəli istedadının başlıca

xüsusiyətlərindən hesab edən görkəmli Azərbaycan filosofu Heydər Hüseynov EA-nın "Xəbərlər məcmuəsi"nin 8-ci sayında 1945-ci ildə yazırdı: "Əliağa Şıxlinski dünyada şöhrət qazanmış rus topçuluq elmi sahəsində kəşflərlə tanış olmaqla yanaşı, dil və ədəbiyyat məsələləri ilə də yaxından məşğul olurdu. O, Azərbaycan dilini təkmil bilirdi. İslah ifadə quruluşu, yeni söz yaradıcılığı ilə ciddi məşğul olmuşdur".

Əliağa Şıxlinski öz xatirələrini Heydər Hüseynovun məsləhətilə qələmə almışdır.

Əliağa Şıxlinskinin atası İsmayıl ağa Şıxlinskilər nəslində ilk savadlı adam olub. O, hərbi işə də meyl göstərmiş, süvari dəstəsinin tərkibinə daxil edilmişdi. 1804-cü ildə Qazax-Dilican yolu üstündə şahzadə Abbas Mirzənin qoşunlarını məğlub edən süvari dəstəsinin üzvlərindən biri olması dediklərimizə əyani sübutdur. Məhz atasının yolu ilə gedən Əliağa Şıxlinskilər nəsilində Avropada (Rusiya) təhsil alan ilk şəxs olub və hərb sənətində ondan neçə mərtəbələrlə yüksəklərə ucalıb. Yeri gəlmişkən, Əliağa Şıxlınskinin qardaşı da süvari zabiti adı alıb.

Şıxlinskilər nəslinin məlum olan ən birinci nümayəndəsi Ağdodaq Məmmədağa 16-cı əsrdə Qazax qəzasında ad çıxarmış şəxs imiş. Ulu babalarından Əli Qazax oğlu çox dəli-dolu, igid bir adam olub.

Əliağa Şıxlinski Molla Vəli Vidadinin nəvəsi idi. Şıxlinskilər nəslindən çıxmış başqa məşhur şairlərdən biri aşıq şeri və klassik üslubda yazıb-yaratmış Kazım ağa Salikdir. Şəcərədən gələn bu fitri istedad nəslin bir çox başqa nümayəndələrinin, o cümlədən onun özünə də təsirsiz qalmamışdı. Əliağa Şıxlinski ara-sıra bədii yaradıcılıqla da məşğul olmuş, gözəl şerlər yazmışdır.

Onun həyat yoldaşına, ilk azərbaycanlı hərbi şəfqət bacısı Nigar xanıma yazdığı "Ey sevdiyim, ey dilruba" şeri doğrudan da, istedad sahibi olduğunu göstərir.

Ey sevdiyim, ey dilruba,
Səbrim, qərarımsan mənim
Səd mərhaba, səd mərhaba
Nə türfə yarımsan mənim...

Mənim baharda bülbülüm,
Mənim qızılca sünbülüm
Gülşəndələrdə zərif gülüm
Bağlarda barımsan mənim.

Nigar xanım Əliağa Şıxlinskinin anası Şah Yəmən xanımın əmisi oğlu Hüseyn Əfəndi Qayıbzadənin qızıdır. Onlar Molla Vəli Vidadinin nəvəsidir. Əliağa Şıxlinski təhsilini Tiflisdə sonra qayınatası olan Hüseyn Əfəndinin yanında almışdı. O, Nigar xanımla 1909-cu il oktyabr ayının 27-də ailə həyatı qurub. Nigar xanım 1931-ci il avqustun 15-də vəfat edib.

Klassik ədəbiyyatı gözəl bilən Əliağa Şıxlinski həm də öz gənc müasirləri S.Vurğun, O.Sarıvəllinin şerlərini rus dilinə tərcümə etmişdir. S.Vurğun "Böyük ədib", "Sədaqət", O.Sarıvəllinin C.Cabbarlının ölümünə həsr etdiyi "Yaşar şerləri" tərcüməsi arxivində qalıb. C.Cabbarlı yaradıcılığına onun xüsusi məhəbbəti olub. Bunu "Zabitin yaddaşı" dəftərçəsindəki qeydlərdən aydın görmək olar.

Ədəbiyyatla yanaşı, digər elm sahələrinə də xüsusi maraq göstərən Əliağa Şıxlinski yüksək intellekt sahibi, əsl ziyalı idi. Onun son dərəcə gözəl dildə və üslubda yazılmış

“Xatirələrim” əsəri həm Azərbaycan hərb tarixinin çox mühüm bir dövrünün öyrənilməsi baxımından son dərəcə böyük əhəmiyyətə malikdir, həm də bir sənət əsəri kimi qiymətlidir. “Xatirələrim” ilk dəfə SSRİ EA-nın Azərbaycan filialı tərəfindən rus və Azərbaycan dillərində 1944-cü ildə çap olunmuşdur. Əliağa Şıxlinski dövrünün Səməd bəy kimi hərbi dühalarının və bir sıra digər istedadlı sərkərdələrinin ilk portret cizgilərini yaratdığı xatirələrini görkəmli filosof H.Hüseynovun məsləhəti və onun birbaşa köməyi ilə ömrünün ahıl çağında qələmə almışdır. Son nəfəsinə qədər vətənə, millətə sədaqətlə xidmət göstərmiş bu nadir şəxsiyyətin həmin əsəri onun Azərbaycana sonuncu övladlıq borcu olmuşdur. Hərbi memuarlar sırasında layiqli yer tutan “Xatirələrim” hələ Azərbaycanın neçə hərbçi nəslinin yetişdirilməsində əvəzsiz mənbələrdən biri olacaq, türk balaları üçün mərdlik, kişilik məktəbinin əbədi kitabı kimi yaşayacaqdır.

Az.FK Ə.Şıxlinskinin kimliyini, hansı imkanlara malik olmasını yaxşı bildiyi üçün onu həbsə almaqla öz nəzarəti altında saxlamağa, beləliklə də bolşevik hərbi işinin dirçəldilməsində iştiraka məcbur etməyə çalışırdı. Bunun ən yaxşı və asan vasitələrindən biri sözsüz ki, keçmiş çar və milli Azərbaycan ordusu generalının günahkar olduğunu sübuta yetirmək idi.

FK-nın növbəti dindirməsində artıq ona qarşı irəli sürülən ittihamların konkretləşdirilməsinin müşahidə olunması bu sifarişlə bağlı idi. Onun Gəncə üsyanının təşkilində müəyyən rol oynadığına şübhə etməyən müstəntiq bu fəaliyyətin nədən ibarət olduğunu müəyyənləşdirməyə çalışırdı: “- Sizin soyadlınız Cavad Şıxlinski ilə münasibətəlriniz necədir?

Cavab: Çox mehriban, qohumluq duyğularından başqa bizim yoldaşlıq münasibətlərimiz də olub. Belə ki, cavanlıq

illərində bir yerdə xidmət etmişik, bir komandada. Mən Yapon müharibəsində və Çin yürüşündə olarkən məzuniyyətə gələndə həmişə elə məqamlar seçirdim ki, məzuniyyət vaxtı Cavadla görüşüm. 1918-ci ildə təqribən fevralda Cavadla birlikdə Azərbaycanda xidmətə başladıq.

Sual: Siz Cavaddan və onun vasitəsilə neçə məktub almısınız?

Cavab: İki məktub almışam. Birini diviziyanın böyük adyutantı Əfəndiyev vasitəsilə, ikincini qol çəkməklə. Biri məndə indi kitelimin cibində qalır.

Sual: Bu məktublarda nə barədə məlumat verilirdi?

Cavab: Onların məzmunu ancaq ailə münasibətlərinə aid idi. Xidmətə aid heç bir ciddi şey yox idi.

Sual: Cavad tərəfindən çətin vəziyyətə düşdüyü və şimalla bağlı sizə ciddi suallarla müraciət etdiyi ifadə edilmirdi ki?

Cavab: Cavad möhkəm adamdır, ideyasına inamlı və iradəildir və həmişə öz sərbəstliyini nümayiş etdirməyə çalışıb. Ancaq mənim dəllillərimlə də həmişə hesablaşıb və onlara böyük əhəmiyyət verib.

Sual: Hansı məsələlərlə bağlı o sizə məsləhət üçün müraciət edib, təsadüfi, yoxsa, özünün şəxsi?

Cavab: Konkret halları xatırlamıram. Ancaq əksər hallarda taktiki məsələlərlə bağlı və s. Yaxud hansısa, göstəriş alırdı, hərdən gəlib mənimlə necə hərəkət etmək barədə bir stəkan çay süfrəsi arxasında məsləhətləşirdi. Şəxsi məsələlərlə bağlı onunla tez-tez məsləhətləşirdik.

Sual: Çevrilişdən (müstəntiq haqlı olaraq çevriliş deyir, çünki Azərbaycanda heç bir üsyan baş verməmişdi – L.Ş) sonra siyasi məsələlərlə bağlı danışıqlar olurdumu?

Cavab: Çevrilişdən sonra nə şəxsi, nə də başqa cür Cavadla siyasi məsələlərlə bağlı söhbətimiz olmayıb. Ancaq bir dəfə Çingiz Cavadı telefonla yanına çağırdı və dedi ki, 1-ci diviziyada döyüş şəraiti yaranıb və buna görə də onu döyüş sahəsinə rəis təyin etmək lazımdır. Bununla əlaqədar Çingiz Cavadın fikrini də soruşmuşdu ki, o, yeni hakimiyyətdə xidmət etmək istəyrimi. Cavad soruşmuşdu, Əliağanın özü yerində qalırmı? Çingiz tərəfindən Əliağanın fikrindən asılı olmayaraq bu məsələ ilə bağlı cavab gözlənildiyi üçün Cavad müsbət cavab vermişdi. Qeyd etmək lazımdır ki, mən istəməzdim ki, təcrübəli böyük zabitlər kənarda qalsınlar, yaxşı nə varsa saxlamaq lazımdır. Mən qəti əminəm ki, sovet hakimiyyətinə uyğunlaşacaq və əla döyüş materialı verəcək və yeni quruluşa sadiq olacaq.

Sual: Cavad sizə üsyan məsələsi ilə əlaqədar müraciət etməmişdi ki?

Cavab: Güman edirəm ki, Cavad bu barədə mənə heç vaxt xəbər verməzdi. Birincisi, ona görə ki, mənim xidmətə münasibətimi bilir, ikincisi, məni qatmamaq üçün. Gəncədə üsyan olduğu barədə mən heç nə bilmirdim.

Onun günahının sübuta yetirilməsi üçün Azərbaycan ordusunun həmin dövrdə həbs edilmiş başqa bir yüksək rütbəli zabiti, casusluqda ittiham olunan İlyas Əliqulu oğlu Şahtaxtınski müstəntiq Qubin tərəfindən dindirilir. Həmin dindirilmə protokolundan çıxarış (1920-ci il 29 iyun) eyni qovluqda saxlanılan digər istintaq işinə daxil edilmişdir. İ.Şahtaxtınskinin ifadəsindən bəzi məqamları nəzərinizə çatdırırıq: "General Ə.Şıxlinskini mən Azərbaycan ordusunun qərargahında xidmətdən tanıyıram. Onun sovet hakimiyyətinə qarşı münasibəti ilə əlaqədar deyə bilərəm ki, o azacıq da olsa razı deyildi, əksinə həmişə köhnə general

kimi qırmızı ordunun hərdən məruz qaldığı məğlubiyyətlərə sevinirdi. Könüllü Orduya qarşı Ə.Şıxlinski çox mehriban və nazakətli idi. Könüllü Ordunun nümayəndələrinə qarşı bomba atılanda Ə.Şıxlinski tutulmuş bolşevik terrorçuları ilə öz yaveri kapitan Çaevskiyə məmuniyyətlə bildirmişdi. "Siz eşitmisinizmi həmin yaramazları artıq həbs ediblər. bu sözləri mən özüm eşitmişdim. Sonra qırmızı ordu Dərbənddə olarkən Ə.Şıxlınski Azərbaycan Ordusu Qərargahının qeri-nizami rotasının komandiri Kalımova əmr etmişdi ki, silahlarını təmizləyib, daim Qərargahda olsunlar. Belə əmrin səbəbini onunla izah etmişdi ki, qırmızı ordu yaxınlaşır, buna görə də bolşeviklərin Bakıda çıxışları ola bilər. Bu il aprel ayının 15-də (təqribən) mən Şuşaya Qarabağ qoşunlarının qərargahına ezam olundum. Bu vaxt hərbi nazirin vəzifəsini müvəqqəti icra edən Ə.Şıxlınskidən general Səlimovun adına vəziyyətin ciddiliyi nəzərə alınaraq, Quba alyanın batalyonunun, bütün Tatar atlı alayının bolşeviklərlə mübarizə üçün göndərilməsi barədə şifrteleqram gəldi. Bu teleqramı mən oxudum. General Səlimov cavab teleqramı göndərdi ki, Azərbaycan iki cəbhədə davam gətirə bilməz. General Şıxlınskinin sovet hakimiyyəti dövründəki xidməti işləri barədə mən heç nə deyə bilmərəm, çünki həmin vaxtı həbsdə olmuşam".

Növbəti dindirmələrdən biri:

Sual: Nə üçün Cavad Şıxlinski məhz Əliağa Şıxlinskiyə müraciət edirdi?

Cavab: Ona görə ki, o, Əliağa Şıxlınskini bütün həyati məsələlərdə yüksək nüfuz sahibi sayırdı və ona müraciət edirdi.

Sual: Cavad Şıxlinski Əliağa Şıxlinski ilə Yelizavetpolda sovet hakimiyyəti əleyhinə qarşı üsyanın təşkili və ona rəhbərlik barədə məsləhətləşirdimi?

Cavab: Əgər Cavad Şıxlinski üsyanın təşkilində iştirak etmişdisə, o, Əliağa Şıxlınski ilə məsləhətləşməli idi. Üsyanda iştirak edənə qədər onu necə təşkil etmək barədə.

Bütün bu araşdırmalar və dindirmələrdən sonra 1920-ci il iyun ayının 29-da artıq 11-ci ordu xüsusi şöbəsinin baş hərbi müstəntiqi olan Qubin tərəfindən qərar verilir:

"Az.SSR Hərbi-dəniz komissarının müavini Əliağa Şıxlinskinin əksinqilabda ittiham olunması ilə bağlı işə baxaraq, aşkar etdim:

Keçmiş hərbi nazirin müavini tam artilleriya generalı Əliağa Şıxlinski özünün əksinqilabi hökumətinin müdafiəsi, RSFSR qırmızı qoşunlarının Azərbaycan ərazisinə buraxılmaması üçün tədbirlər görmüş… özünün xidməti vəziyyətindən istifadə edərək, dəfələrlə birbaşa teleqraf xətti və telefonla qohumu Az.SSR 1-ci piyada diviziyasının keçmiş komandiri general Cavad Şıxlınski ilə nəzarətsiz danışıqlar aparmışdır (sonuncu dəfə 24 mayda, üsyana bir gün qalmış). Bütün ciddi məsələlərdə dayısı Əliağa Şıxlinski ilə məsləhətləşən və onu yüksək nufuz sahibi hesab edən Cavad Şıxlinski Gəncədə sovet hakimiyyətinə qarşı çıxışların təşkilatçıları və rəhbərlərindən biri olmuşdur. C.Şıxlinskiyə məsləhətlər verməsi və onu yönəltməsi halı Əliağa Şıxlınskinin üsyanda iştirak etdiyini söyləməyə tam əsas verir. Könüllü Ordunun güllələnmiş polkovniki Qluxarevin Ə.Şıxlinskinin sovet hökumətinin devrilməsini nəzərdə tutan tezliklə yaxşı günlərin gələcəyinə ümid etməsi barədəki ifadəsi Ə.Şıxlinskinin sovet hakimiyyəti əleyhinə çıxış etməyə hazırlaşması faktını təsdiq edir…

Müttəhimin hərbi texnika (artilleriya) sahəsində zəngin biliyə malik olmasını və Qafqaz İnqilabi cəbhəsinin hərbi inqilabi şurasının üzvü y.Orconikidzenin təklifini nəzərə

alaraq, qərara gəldim: Ə.Şıxlinskini işinə baxılmaq üçün ÜFK-ya göndərmək. Qərar təsdiq edilir. Xüsusi şöbənin rəisi Pankratov, 29 iyun 1920-ci il".

Moskvada Ə.Şıxlinskinin şəxsi əşyalarını yoxlayan ÜFK Xüsusi şöbəsinin komendantlığı 1920-ci il avqustun 18-də 2462 №-li qəbz tərtib edir: "Əliağa İsmayıl oğlu Şıxlınskinin üstündən səksən iki min beş yüz rubl, 14 nikolay rublu, cib saatı metal qolbağla, bir soyadlı möhür, bıçaq, dəri pulqabı, dəri bumajnik, 10 ədəd açar çıxdı".

Əliağa Şıxlinskinın Bakının Cəfər Cabbarlı küçəsində yaşadığı binada xatirə- barelyefi

Əliağa Şıxlinski bir müddət Moskvada Ali topçuluq məktəbində müəllim işlədikdən sonra Peterburqda topçuluq Akademiyasında mühazirələr oxuyur. Bir il Rusiyada yaşadıqdan sonra N.Nərimanovun xahişi ilə yenidən Bakıya qayıtmış, Bakı qarnizonunun hərbi-elmi bilik cəmiyyətində topçuluqdan mühazirələr oxumuşdur.

Ə.Şıxlinski 1943-cü ildə vəfat etdi. Dünyadan sonsuz köçməsinə baxmayaraq, bu gün onun qoyub getdiyi zəngin hərbi elmi irs vətənin neçə gənc hərbçilər nəslinin yetişməsində əvəzsiz mənbədir. Bu gün Azərbaycan ordusunun hərbi və döyüş qabiliyyətini durmadan artırmağı, millətə təmənnasız xidməti, mənəvi təmizliyini qorumağı öz müqəddəs vəzifəsi sayan hər bir əsgər və zabit onun övladı, davamçısı adlanmağa layiqdir.

Moskvaya gedən Əliağa Şıxlinski ona verilmiş Sorğu vərəqində "hərbi işə münasibəti qrafasında yazıb: "bütün ömrü boyu hərbi xidmətdə olub - könüllü şəkildə". Bu onun bir insan kimi öz həyatının mənasını təşkil edən başlıca amili müəyyənləşdirməsi, keçdiyi ömür yolunu qiymətləndirməsi idi. Bəli, Ə.Şıxlinski bütün ömrü boyu hərbi xidmətdə oldu, çar ordusunda qulluq etdiyi vaxtda da, sonra müstəqil Azərbaycanda hərbi işin möhkəm təməlinin qoyulmasında bütün varlığı ilə çalışında da, nəhayət sovet rejiminin ciddi nəzarəti və təzyiqi altında işləyəndə də əsl hərbçi kimi qaldı. Əsgəri xidmətdən tam artilleriya generalı rütbəsinə qədər yüksəlmiş bu insanın həyatında, taleyində çox şey dəyişdi, yalnız xidməti borca münasibəti, dəmir hərbi nizam-intizamı dəyişmədi. Əsgər Əliağa ilə general Əliağa arasındakı fərq də yalnız daşıdıqları çindən ibarət oldu.

General Masey bəy Sulkeviç

Əsl-nəcabətli zədagan nəslinə mənsub, mənşəcə Litva tatarlarından olan Masey (Məmməd) bəy Sulkeviç 20 iyul 1865-ci ildə Litvanın Viena quberniyası, Lida qəzasının Kemeyşı adlanan məntəqəsində anadan olub. Əsilzadə, həm də hərbçi ailəsində böyüməsi onun yetişməsində və sonrakı taleyində az rol oynamamışdır.

Atası Aleksandr Sulkeviç Qusar (süvari) alayında podpolkovnik rütbəsinə qədər xidmət yolu keçmişdi. Masey bəy ümumi təhsilini Voronejdəki Mixaylovski kadet məktəbində almış və 1886-cı ildə Peterburqdakı Mixaylovski artilleriya məktəbində oxuyarkən yunker rütbəsində hərbi xidmətə başlamışdır. O, həmin il həm də ilk zabit rütbəsini almış, hərbi məktəbi birinci dərəcə ilə bitirərək podporuçik rütbəsində 6-cı artilleriya briqadasına göndərilmişdir.

1889-cu ıl oktyabr ayının 3-də artıq poruçik rütbəsi daşıyan Masey bəy Sulkeviç müvəffəqiyyətlə imtahan verib Rusiya İmperiyasının Baş Qərargahının Nikolayevsk Akademiyasının dinləyicisi adını qazanmışdı. Qeyd edək ki, Sulkeviç bu akademiyada oxuyan ilk müsəlman tələbə olub.

Hərbi Akademiyanı 1894-cü ildə bitirən gənc zabit həmin ilin iyulunda təhsildə qazandığı əla nəticələrə və nümunəvi xidmətə görə əvvəl ştabs-kapitan, 20 iyuldan isə kapitan rütbəsinə layiq görülmüşdü. O, Odessa hərbi dairəsi komandanlığının təyinatı ilə xidmətini davam etdimək üçün

7-ci ordu qərargahına göndərilmişdir. Xidmət ərzində nizam-intizamı və bacarığı ilə seçilən, tapşırıqların öhdəsindən layiqincə gələn Masey bəy 1899-cu ildə Müqəddəs Stanislav ordeni ilə təltlf olunur və elə həmin il ona podpolkovnik hərbi rütbəsi verilir. Odessa hərbi dairəsinin Desant alayının qərargahında xüsusi tapşırıqlar üzrə qərargah zabiti (baş yavər) olan podpolkovnik Sulkeviç 17 dekabr 1900-cu ildə Oçakov qalasının qərargah rəisi vəzifəsinə təyin edilir.

1903-cü il oktyabrın 3-də Sulkeviç irəli çəkilərək daha məsul vəzifəyə, 15-ci piyada diviziyasının qərargah rəisi vəzifəsinə təyin olunmuşdur. Həmin il dekabrın 6-da isə ona polkovnik hərbi rütbəsi verilmişdir. 1900-1901-ci illər rus- çin və 1904-1905-ci illər rus-yapon müharibələrində iştirak edən Masey bəy ikinci müharibə zamanı 8-ci ordu korpusunda xidmət etmişdir. Bir sıra, o cümlədən fevralın 6-dan 25-dək davam edən Mukdensk döyüşündə fərqləndiyi üçün 1905- ci ilin iyun ayında 57-ci Modlinsk piyda alayının komandiri vəzifəsinə təyin olunmuşdur. Onun bu illərdəki xidmətləri 2-ci dərəcəli Müqəddəs Anna (qılıncla birlikdə), 4-cü dərəcəli Müqəddəs Vladimir (qılınc və bantla birlikdə) ordenlərinə layiq görülmüşdür. Beləliklə, polkovnik Sulkeviç 1904- cü il noyabrın 8-dən müharibənin sonunadək döyüşən ordu hissələrində xidmətdə olmuşdur.

1907-ci ildə şərəfli döyüş yoluna və hərbi xidmətdə əldə etdiyi uğurlara görə M.Sulkeviç üzərində "İgidliyə görə" sözləri yazılmış qızıl silahla təltif edilmişdir.

Məhz mühüm hərbi xidmətlərin nəticəsində Masey bəy Sulkeviç 1910-cu ildə general-mayor hərbi rütbəsi almışdır. Bir qədər sonra isə İrkutsk hərbi dairəsinin qərargahında general-kvartirmeyster şöbəsinin rəisi təyin olunmuşdur.

Müqəddəs Vladimir ordeninin 2-ci və 3-cü dərəcələri, 1915- ci ildə Müqəddəs Stanisalav ordeninin 1-ci dərəcəsi onun general-mayor kimi xidmətlərinə verilən qiymət idi. 1915-ci il fevral ayının 26-da 33-cü piyada diviziyasının komandiri təyin olunan M.Sulkeviç hərbi və döyüş xidmətlərinə görə 1916-cı il aprel ayının 26-da general-leytenant hərbi rütbəsinə layiq görülmüşdür.

Sulkeviç Birinci dünya müharibəsində əvvəlcə 37-ci piyada korpusunun qərargah rəisi, daha sonra Şimal cəbhəsinin 3-cü piyada diviziyasının və 1917-ci ilin 27 fevralından 37-ci piyada korpusunun komandiri vəzifələrində xidmət edib. Rus, yaxud slavyan olmayanlar üçün bunlar həqiqətən də yüksək vəzifələr idi.

1917-ci il mayın 1-11-də Ümumrusiya müsəlmanları qurultayında türk-müsəlman əhalinin təhlükəsizliyinin qorunması üçün "Hərbi qurumlar haqqında" qətnamə qəbul edildi. Qurultayın qərarı ilə müsəlman əsgər və zabitlərdən ibarət hərbi hissələrin təşkili işi Masey bəy Sulkeviçə həvalə olunmuşdu. 1917-ci ilin iyulunda Kazanda Rusiya müsəlmanlarının qurultayında yaradılması qərara alınan "Əsgəri şura"ya da rəhbərlik M.Sulkeviçə tapşırılmışdı. 1917-ci ilin oktyabrında general Sulkeviç Müvəqqəti hökumət tərəfindən 1-ci Müsəlman Korpusunun komandiri vəzifəsinə təyin olunmuşdur. Bu təsadüfi deyildi. Çünki Masey bəy Müvəqqəti hökumətin qərarı ilə bir neçə ay qabaqcadan Rumıniya cəbhəsindəki hərbi hissələrdəki üç diviziyanın tərkibində müsəlman korpusunun yaradılmasına başlamış və həmin birləşmənin komandiri vəzifəsinə təyin edilmişdi. Müvəqqəti hökumətin süqutu ilə əlaqədar Rusiyanın tərkibində Korpusun tam formalaşdırılması mümkün olmadığından general Sulkeviç həmin işləri öz şəxsi nüfuzu

və əlaqələri hesabına davam etdirmişdir. General Sulkeviçin həmin fəaliyyəti haqqında Ümumrusiya Müsəlman Şurasının "Xəbərlər"ində 1917-ci ildə xalqa məlumat çatdırılıb. Təqribən eyni vaxtda Azərbaycanda da Zaqafqaziya Komissarlığının dövründə qəbul edilmiş qərarla Müsəlman Korpusunun yaradılması istiqamətində işlərə başlanmış və qeyd etdiyimiz kimi həmin korpusun komandiri digər görkəmli generalımız, general-leytenant Əliağa Şıxlinski olmuşdur.

Rusiyasının süqutundan bir neçə ay sonra bolşeviklərin hakimiyyəti ələ alması bir çoxları kimi M.Sulkeviçin də həyatını tamamilə dəyişdi. Hərbi xidməti tərk edən Sulkeviç bütün qüvvəsini Müsəlman Korpusunun təşkilinə sərf etməyə başladı. Onun qısa müddətdə yaratdığı korpusun komandir heyəti əsasən Polşa-Litva tatarlarından ibarət idi. Dini və milli hissələrini daim diri saxlayan Masey bəyin Müsəlman Korpusu yaratmaqda məqsədi nə vaxtsa öz xalqının yolunda xidmət göstərmək idi. Tale ona belə bir şansı Krımda yaratdı.1918-ci ilin yazında "Əsgəri şura" Sulkeviçi korpusu ilə Krıma göndərdi.

Masey bəy 1918-ci ilin may ayının 1-dən Almaniya kayzer ordusunun general Koşun komandanlıq etdiyi üç piyada diviziyası və bir süvari briqadasından ibarət qüvvələri tərəfindən işğal altında olan, özünə doğma bildiyi Krıma gəlir. Bu vaxt Krımda vəziyyət olduqca ağır idi. Alman generalının dəstələri Sulkeviçin Korpusunun yolunu kəsib onu tərkisilah edir. Ancaq münasibətləri tezliklə qaydaya salmaq mümkün olur. Krım xalqının etimadını qazanan Masey bəy Sulkeviç qısa müddət sonra, iyun ayının 25-də Almaniya tərəfinin dəstəyi ilə Krım Diyar hökumətinin Baş Naziri, daxili işlər və hərbi naziri vəzifələrinin icrasına başlayır. Çox keçmir, general Sulkeviçin fəaliyyətinə görə hörmət əlaməti olaraq Krım tatarları onu

«Süleyman Paşa» adlandırır, onu özlərinin xilaskarı hesab edirlər. Tatar xalqının müstəqilliyi qardaş Türkiyə tərəfindən böyük coşqu ilə qarşılanır: "Krım hökumətinin Baş Naziri general Süleyman bəy Sulkeviçə!

Флаг Крымского краевого правительства М. Сулькевича

Cəfər bəylə birgə Krımda hökumət yaratdığınıza görə Sizi təbrik edirəm. Sizə işinizdə uğurlar diləyir və yeni nailiyyətlər arzu edirəm. Türkiyə hökuməti öz müttəfiqi kimi Sizə kömək etməyi özünə borc bilir. Osmanlı İmperiyası da Sizə arxa olacaq və yardım göstərəcəkdir.

Hərbi nazir, Ali Baş Komandan Ənvər Paşa".

"Tavriçeski qolos"qəzeti 1918-ci ilin iyun ayında "Müsəlman millətlərinin müdafiə cəmiyyəti" adlı xəbərində bildirirdi ki, general-leytenant Sulkeviçin fəal təşəbbüsü ilə Simferopol şəhərində "Rusiyada Müsəlman millətlərinin müdafiə cəmiyyəti" yaradılmışdır.

General Sulkeviçin Krım dövrü onun bir dövlət adamı, həm də bir siyasətçi kimi xarakterinin yeni cəhətlərini üzə çıxardı. Həqiqi siyasi fəallığı ilə seçilən general Sulkeviç Krımın bütün səviyyələrdə tanıdılması üçün ciddi səylər

göstərmiş, gənc dövlətin üzləşdiyi çoxsaylı problemlərin aradan qaldırılması üçün çalışmışdı.

Ən mühüm addımlarından biri Krım hökumətinin səfiri kimi tatarların "Millət" qəzetinin keçmiş baş redaktoru Həsən Səbri Ayvazovu (1878-1988) İstanbula Krım dövlətinin səfiri göndərməsi olmuşdu. Bu da Türkiyədə böyük ruh yüksəkliyi ilə qarşılanmış, Həsən bəyə Avropa səfirləri arasında fəxri yer ayrılmışdı. General Sulkeviç hökuməti keçmiş Rusiya imperiyasının ərazisində yaranmış başqa müsəlman dövlətləri ilə də əlaqə yaratmışdı. Bu məqsədlə Port-Artur döyüşlərindən tanıdığı Azərbaycanın hərbi naziri general Səməd bəy Mehmandarova xoş məramlı məktub göndərmişdi.

Sulkeviç Osmanlı imperiyasının dəstəyi, Rusiya ərazisində yaranmış digər müsəlman ölkələri ilə əlaqələr qurmaqla paralel müstəqil dövlətin hakimiyyət strukturlarının formalaşdırılması, müdafiə və təhlükəsizliyin təmin olunmasının əsas məsələlər olduğunu yaxşı bilir və bu istiqamətdə tədbirlər görülməsinə çalışırdı. Xalqın seçilmiş övladlarının dəstəyi ilə hakimiyyət tezliklə möhkəmləndirilməli, ən başlıcası xarici müdaxilə təhlükəsinin neytrallaşdırılması istiqamətində təcili addımlar atılmalıydı. Onun və həqiqi vətənpərvərlərin səmərəli fəaliyyəti nəticəsində bütün bunlar müəyyən zaman çərçivəsində mümkün ola bilərdi. Ancaq onlara bu zamanı vermək istəyən vardımı? Əksinə hər vasitə ilə yollarını kəsmək istəyən müxtəlif qüvvələr meydana çıxmışdı. Əlbəttə, bunların arasında ən kəmfürsəti və təhlükəlisi Könüllü Ordu (Denikin) timsalında Rusiya ağqvardiyaçı qüvvələri idi. Alman qoşunlarının Krımdan çəkilməsindən sonra elə onlar tərəfindən Krım işğal olundu. 1918-ci il noyabr ayının 15-də Süleyman bəy Sulkeviç hakimiyyəti Solomon Samueleviç Krımın başçılıq etdiyi ikinci Krım Diyar hökumətinə təhvil

vermək məcburiyyətində qaldı. Çünki Könüllü Ordunun komandanı Anton Denikin Krımı tərk etməsi üçün ona ciddi təzyiq göstərirdi. Krım hakimiyyətinin hansı formadasa, hətta formal olaraq qalması naminə tatarların ümidgahı diyarı tərk etməli oldu.

1919-cu ilin fevralında general-leytenant Sulkeviç bundan sonra həm də Məmməd bəy kimi tanınacağı Azərbaycana gəlir. Əslində onu Azərbaycana Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarov dəvət etmşdi. Səməd bəy rus ordusunda xidmət illərindən hərbi biliyinə və qabiliyyətinə, yüksək şəxsi keyfiyyətlərinə bələd olduğu general Sulkeviçin ordu quruculuğuna mühüm töhfələr verəcəyinə inandığı üçün bu addımı atmışdı. Bəzi mənbələrdə Sulkeviçin Azərbaycana gəlmə tarixi 1918-ci ilin dekabrı olaraq qeyd edilir. Həmin məlumatlara görə, Məmməd bəy Sulkeviç 1918-ci ilin dekabrın sonlarından 1919-cu ilin martın 26-dək Gəncədə yerləşən Birinci Müsəlman Korpusunun komandiri olub. Onunla bağlı növbəti əmr bu məlumatları tam da olmasa təsdiq edir.

Belə ki, Azərbaycana gəldikdən qısa müddət sonra Sulkeviç Cümhuriyyət hökuməti qarşısında qaldırılan vəsatətlə və Hərbi Nazirlik üzrə 1919-cu il 26 mart tarixli, 147 saylı əmrlə Azərbaycana Xalq Cümhuriyyəti ordusunun Baş Qərargah rəisi vəzifəsinə təyin edilir. Həmin əmrdə deyilirdi: "Birinci Müsəlman Korpusunun keçmiş komandiri general-leytenant Məmməd bəy Sulkeviç bu il mart ayının 19-dan Baş Qərargah rəisi vəzifəsinin icrasına buraxılır". [206]

Göründüyü kimi əmrdə onun Birinci Müsəlman Korpusunun keçmiş komandiri olduğu göstərilib. Ancaq hansı tarixdə, bu qeyd edilməyib. Digər bir məqam. Əmrdə

206 ARDA, f. 2894, s. 1, iş 3, v. 31.

general Sulkeviçin adı Məmməd bəy kimi verilib. Bu, onun Cümhuriyyət ordusuna qəbul olunmadan öncə öz adını dəyişərək Məmməd bəy adını götürdüyünü göstərir.

Həmin əmrin 2-ci və 4-cü paraqraflarında general-kvartirmeystr, hərbi-topoqrafiya, rabitə və avtomobil xidmətinin, qoşunların daşınması üzrə idarənin Ümumi Qərargahdan Baş Qərargahın tərkibinə verilməsi, 3-cü paraqrafında Baş Qərargahın Baş İdarəsinin qoşunların təşkili, təlimi və dislokasiya məsələləri ilə məşğul olması, Ümumi Qərargahda komplektləşdirmə, yerləşmə və qoşunların daxili təsərrüfat vəzifələrinin saxlanması əksini tapmışdı. Həmin əmrlə Baş Qərargah rəisi Hərbi Şura üzvləri sırasına daxil edilir, miçman İslam bəy Maqsudov Baş Qərargah rəisinin yavəri təyin edilirdi.

Ordunun Baş Qərargah rəisi vəzifəsinin təsis edilməsi ilə bağlı Səməd bəy Mehmandarov hökumətə məktub ünvanlamışdı. Hərbi nazir bu strukturun səlahiyyət dairəsinin dəqiq müəyyən olunmasının qoşunlar üçün necə mühüm əhəmiyyət kəsb etməsini konkret, ancaq hərtərəfli əsaslandırmışdı. O, təlim və döyüş hazırlığı ilə təminat-təchizat, cari təsərrüfat və s. məsələlərin eyni bir strukturda, Ümumi Qərargahda cəmləşməsinin gözlənilən nəticəni vermədiyini, Baş Qərargahın səlahiyyət dairəsinin müəyyənləşdirilməsinin çoxdan vaxtı çatdığını israrla bildirirdi. Nazirin fikrincə, ordu ilə bərabər onun təsərrüfatının da böyüməsi, təchizat və təminat qayğılarının artması, həmin məsələlərə xeyli vaxt və qüvvə sərfi qoşunların təşkili, döyüş hazırlığının lazımi səviyyəyə qaldırılmasına maneçilik yaradırdı. Buna görə də Baş Qərargahın təsis olunması məqsədəuyğun hesab edilirdi. Belə bir strukturun indiyədək yaradılmamasını yüksək hazırlıqlı kadrların olmaması ilə əlaqələndirən hərbi

nazirə görə, təcrübəli hərbçi, üç müharibə iştirakçısı, general-leytenant Məmməd bəy Sulkeviç məhz bu keyfiyyətlərə malik kadrdırdır və onun gəlişi həmin strukturun təşkili üçün imkan yaradıb.

Təsadüfi deyildi ki, Məmməd bəy Sulkeviçin Cümhuriyyət ordusunun Baş Qərargah rəisi vəzifəsinə təyinatı hökumət üzvləri tərəfindən də müsbət qarşılanmışdı. Ona qədər Cümhuriyyət ordusunda Baş Qərargah rəisinin vəzifələrini həmin strukturun tərkibində olduğu Ümumi Qərargahın rəisi, general-mayor Həbib bəy Səlimov tərəfindən icra edilmişdi.

Həqiqətən də, çar ordusunda zəngin hərbi təcrübə əldə edərək general-leytenant rütbəsinə qədər yüksələn Məmməd bəy Sulkeviç xüsusilə silahlı qüvvələrin beyni sayılan qərargahın işinin təşkili sahəsində hərtərəfli yetişmiş, hamının hesablaşdığı nüfuzlu mütəxəssis idi. O, qərargah işi ilə bağlı yüksək biliyi, zəngin təcrübəni 30 ildən artıq davam edən hərbi xidmət illəri ərzində tabordan tutmuş korpusa qədər müxtəlif səviyyələrdə olan qərargahlarda işləyərkən və həmin struktur bölmələrə rəhbərlik zamanı əldə etmişdi. Bu keyfiyyətlər onun Azərbaycan Xalq Cümhuriyyəti ordusunun formalaşmasında, döyüş qabiliyyətinin yüksəlməsində son dərəcə mühüm xidmətlər göstərməsinə imkan verirdi. M.Sulkeviç bu imkandan maksimum istifadə edərək özünə ikinci Vətən bildiyi Azərbaycan naminə nəinki bilik və bacarığını, həyatını da əsirgəmədi.

General Sulkeviç Cümhuriyyət ordusunda xidmətin təşkili ilə bağlı bir sıra normativ və istiqamətləndirici sənədlərin (əsasnamə, təlimat, direktiv, əmr, göstəriş və s.) işlənib hazırlanmasında xüsusi rol oynayıb. M.Sulkeviç nazirliyin qoşun növləri üzrə hərbi nizamnamələrinin təkmilləşdirilməsi sahəsində hərbi nazirə 8 aprel 1919-cu il tarixli məruzəsində

bildiridi: "Hazırkı müharibənin nəticələri nəzərə alınaraq və qoşunların mütləq şəkildə döyüş ruhunda hazırlanmaları məqsədilə, yeni döyüş nizamnaməsinə tam uyğunlaşdırılmaları üçün nizami, piyada, süvari, artilleriya, çöl nizamnamələri, piyadalar və artilleriya üçün atəş təlimatları təcili surətdə nəzərdən keçirilməlidir. İşin əsasını köhnəlmiş formaların təcrid edilməsi, mətnin qısaldılması və sadələşdirilməsi təşkil etməlidir. Bizim əsgərlərin hazırlanmasındakı çətinlik nəzəriyyədən daha çox təcrübənin mənimsənilməsini, danışıq deyil, əyanilik tələb edir. Həmçinin bizim gənc zabitlərin də hərbi işin əlifbasını mənimsəməyə ehtiyacları var.

Zati-Alilərinizdən qeyd olunan nəzamnamələrin və təlimatların işlənməsi üçün Gəncə qarnizonunun zabitlərindən ibarət Komissiyaların yaradılmasına icazə verməyinizi xahiş edirəm. Bununla əlaqədar təklif edirəm:

1.Piyada qoşunu nizamnaməsi və atəş təlimatının yenidən işlənməsi üçün Piyada qoşun komissiyası.

2.Süvari nizamnaməsi nizamnaməsinin işlənməsi üçün Süvari komissiyası.

3.Çöl nizamnaməsinin işlənməsi üçün bütün silah növləri üçün ümumi komissiya.

Birinci komissiyaya general-mayor Usubovu, ikinci komissiyaya Süvari diviziyanın qərargah rəisi general- mayor Amaşukkeli, üçüncüyə həmçinin general-mayor Amaşukkeli təyin edirəm.

Hər üç komissiya mənim ümumi nəzarətim altında işləyəcəkdir.

4. Artilleriya nizamnaməsinin işlənməsi üçün Artilleriya komissiyası Artilleriya İdarəsi rəisinin nəzarəti altında fəaliyyət göstərəcəkdir".[207]

207 ARDA, f. 2894, s. 1, iş 26, v. 12

Sulkeviçin gəlişi ilə Azərbaycanın milli qoşun hissələrinin formalaşdırılması prosesi daha da sürətləndirildi, döyüş hazırlığının səviyyəsi yüksəldildi. Əlbəttə, Baş Qərargah rəisi kimi o, qoşunların həyatı ilə bağlı bütün məsələlərin həllinə birbaşa məsuliyyət daşıyırdı. Yeni hərbi hissə və bölmələrin yaradılması, mövcud olanların daha yüksək ixtisaslı kadrlarla komplektləşdirilməsi, xüsusilə döyüş hazırlığının səviyyəsinin durmadan artırılması üçün müvafiq proqram və cədvəllərinin tərtibi, kəşfiyyat işinin təşkili, nizam-intizamın möhkəmləndirilməsi və s və i. Bütün bu məsələləri nəzarətdə saxlamağı, nizamlamağı və uzlaşdırmağı bacaran M.Sulkeviçin sayəsində Azərbaycan ordusu öz inkişafının tamailə yeni mərhələsinə daxil oldu.

Onun tərəfindən 11 oktyabr 1919-cu il tarixdə imzalanmış 99 saylı əmr isə tamamilə fərqli problemə, spesifik bir sahəyə, topoqrafi xəritələrin dəqiq qeydiyyatının aparılması və onlarla iş məsələlərinə aid idi. Əmrlə bütün hərbi hissələrə, idarə və müəssisələrə çatdırılan tapşırıqda Azərbaycanda xəritələr istehsal olunmadığı, Gürcüstandan alındığı üçün Ordumuzun maraqları naminə onların dəqiq qeydiyyatının aparılması, saxlanması, istifadəsi sahəsində qaydalara ciddi əməl edilməsi tələb olunurdu.[208]

Bu işlərin və hərbçi kimi həqiqi nüfuzunun nəticəsi idi ki, M.Sulkeviç1919-cu ilin iyunun 9-da Azərbaycan Parlamentinin qərarı ilə Nazirlər Şurası tərəfindən yaradılan Dövlət Müdafiə Komitəsinin üzvü təyin olunmuşdu.

Azərbaycan ordusunun piyada və süvari alayları, eləcə də ayrıca taborları, hərbi məktəblər üçün bayrağın hazırlanmsı barədə 1919-cu il 10 avqust tarixli 561 saylı əmri də türklərin tarixi keçmişinə, milli rəmzlərə dərindən bələd olan M.Sulkeviç

208 ARDA, f. 2894, s. 6, iş 4, v. 3

imzalamışdı. Hərbi məktəblərin zabit və yunkerlərinin geyim formasının, ölkədə səfərbərlik planının hazırlanması və s. istiqamətlərdə görülən işlərdə Sulkeviç sadəcə iştirak etməmiş, bu işlərə rəhbərlik etmişdi.

Hərbi Şuranın ölkənin müdafiəsi, hərbi təhlükəsizlik məsələləri ilə bağlı bir çox mühüm qərarlar qəbul olunan iclasları onun rəhbərliyi altında keçirilmişdi. Baş Qərargah rəisi general-leytenant M.Sulkeviçin sədrlik etdiyi Hərbi Şuranın belə iclaslarından birində, 1920-ci il 11 yanvar tarixində Bakı möhkəmləndirilmiş rayonu rəisinin 27 dekabr 1919-cu il tarixli, 888 saylı təqdimatı əsasında Bakı Hərbi Limanının və "Astarabad" hərbi gəmisinin ştatlarının təsdiq olunması barədə qərar qəbul edimişdi. Bu qərarın qəbulu Denikin təhlükəsinin artması ilə əlaqədar Bakının dənizdən və qurudan müdafiəsinin gücləndirilməsi, yaradılmaqda olan müvafiq sistemin etibarlılığının daha da yüksəldilməsi zərurəti ilə bağlı idi. Bunun üçün o, ingilislərin "Qars", "Ərdahan" və "Göytəpə" hərbi gəmilərinin Azərbaycana verilməsini gözləmədən dənizin müşahidəsinin təşkili ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsini, sahil kəşfiyyatının aparılmasını məqsədəuyğun sayırdı. Belə ki, ilk dövrdə Yollar Nazirliyinin təklif etdiyi iki gəmi alınmalı, heyətləri azərbaycanlılarla komplektləşdirilməli, şəhərin etibarlı müdafiəsi məqsədi ilə döyüş imkanı artilleriya vasitələri və pulemyotların hesabına artırılmalı idi. Bakı ətrafı məhz bu tədbirlərin operativ surətdə həyata keçiriləcəyi təqdirdə düşmən gəmilərindən etibarlı qoruna bilərdi.

General Sulkeviç mütəxəssis rəylərinə istinadən qeyd edirdi ki, Bakının yerləşdiyi mövqe onun çarpaz top atəşləri ilə etibarlı müdafiəsinə imkanı verir. Buna görə də Bayıl, Zığ və Nargin adalarında yerləşdirilmiş toplar şəhərin

müdafiəsini xeyli gücləndirə bilərdi. Gürcüstandan alınması nəzərdə tutulan iriçaplı sahil topları nəinki şəhərin, hətta dəniz sahilindəki digər məntəqələrin və bu xətt boyunca uzanan dəmir yolunun mühafizəsinin təşkilinə imkan verərdi. Əslində müstəqilliyin ilk günlərindən mövcud olan şimaldan təhlükə ehtimalı 1919-cu ilin avqustunda ingilislərin Bakını tərk etməsindən sonra artmışdı. Həmin vaxt vəziyyətin gərginləşməsi ilə əlaqədar general Sulkeviç 2-ci Azərbaycan piyada diviziyasının komandirinə göndərdiyi teleqramda bildirirdi ki, Bakı şəhərinin şimal tərəfdən qorunması həmin diviziyanın alaylarına tapşırılacaq və onlara əlavə olaraq 5 min nəfərlik partizan dəstəsi veriləcək.

Bakı limanındakı bəzi ticarət və nəqliyyat gəmilərinin hərbiləşdirilərək, şəhərin müdafiəsinə cəlb edilməsi ideyası da Sulkeviçə məxsus olmuşdur.

Qoşun hissələrinin atəş hazırlığının yüksəldilməsi üçün Sulkeviç 1919-cu ilin mayında Gəncə, Xankəndi, Şəki, Zaqatala, Qusar və Bakı qarnizonlarının rəisləri qarşısında atəş meydanlarının təchiz olunması məsələsini qoymuşdu. Hərbi Nazirlikdə 1919-cu ildə "Azərbaycan ordusunun piyada və süvari hissələri üçün atəş hazırlığı tədris kursu" metodik göstərişinin və rəhbər sənədlərin işlənib hazırlanması üçün yaradılmış komissiyanın sədri M.Sulkeviç, üzvləri general-mayor Usubov, general-mayor Amaşukkeli və podpolkovnik Dyaqkov idi.[209]

Qoşunların təliminə, gənc zabitlərin hərbi işin incəliklərini mənimsəmələrinə xüsusi önəm verən Sulkeviç Nazirliyin Hərbi məktəbinin yeni əsasnaməsinin və ştat layihələrinin işlənib hazırlanmasında da az rol oynamamışdı.

209 ARDA, f. 2894, s. 6, iş 20, v. 297-300

Belə ki, o, həmin layihələrin işlənməsi ilə məşğul olan komissiyanın üzvü, bəzi hallarda sədri olmuşdu. Hərbi nazirin

9 may 1919-cu il tarixli, 532 saylı əmri ilə Praporşiklər məktəbinin adı dəyişdirilərək Hərbi məktəb adlandırılsa da, onun əsasnaməsi və ştatları hərbi nazirin 31 oktyabr tarixli əmri ilə təsdiq edilənədək dəyişməz olaraq qalırdı.[210]

Baş Qərargah rəisi yerlərdə çavuş məktəblərinin, Bakıdakı ingilis qüvvələrinin komandanlığı ilə razılaşma əsasında ingilis toplarının öyrənilməsi üçün 50-80 nəfərlik xüsusi qrupun yaradılamasına (qrupda dərsləri ingilis zabitləri aparırdı), mövcud hərbi məktəblərin tədris proqramlarının təkmilləşdirilməsinə nail olmuşdu.

Səfərbərlik elan ediləcəyi təqdirdə dəmir yolu xətlərinin qorunması haqqında təlimat, Ermənistan və Könüllü Ordunun Azərbaycana təcavüzü halında qoşun hissələrinin yerləşdirilməsi, müharibə başlanarsa, Gəncədə arxa cəbhə komandanlığının yaradılması planları və digər mühüm sənədlər Sulkeviç tərəfindən hazırlanmışdı.

M.Sulkeviç Qarabağın və Zəngəzurun müdafiəsinin təşkili istiqamətində mühüm işlər görmüş general kimi də tariximizdə şərəfli yer tutur. Müharibə və münaqişələr sahəsində böyük təcrübəsi olan Məmməd bəy xüsusilə Qarabağda erməni separatçılarının və həmin əraziyə müxtəlif adlar altında intensiv hücumlar təşkil edən erməni hərbi birləşmələrinin qarşısının qətiyyətlə alınması üçün həm müvafiq müdafiə tədbirlərinin görülməsində, həm də bu planların birbaşa icrasında yaxından iştirak edib. Onun bu sahədəki təklif və təşəbbüsləri, hərbi nazir və digər ordu rəhbərləri ilə birlikdə vaxtında qəbul etdiyi qərarlar bölgədə Azərbaycanın suveren hüquqlarının bərpasında az rol oynamayıb. Belə təkliflərdən

210 ARDA, f. 2894, s. 6. iş 5, v. 2-3

biri yerli əhali arasından 20-40 yaş arasında təcrübəli, cəsur insanlardan seçilərək piyada və süvari dəstələrinin təşkili ilə bağlı olub. Çünki ərazilərə yaxşı bələd olduqlarından lazım gəldikdə yerli sakinlərdən partizan müharibəsi üçün istifadə edilə bilərdi.

General-leytenant Sulkeviçin Qarabağda gedən hərbi əməliyyatların gedişi ilə bağlı Hərbi Nazirliyə teleqramları da onun Azərbaycan naminə göstədiyi fədakarlıqlardan xəbər verir. 1920-ci il yanvar ayının 28-də Qarabağdakı vəziyyətlə bağlı Şuşadan general Əliağa Şıxlinskiyə vurduğu teleqram Sulkeviçin hərbi strateq kimi bacarığını aydın göstərir: "Gürcü təyyarəçilərinin Svanetidə üsyanı yatırmaq təcrübəsi çətin keçilən dağ yerlərində bu üsulun əlverişli olduğunu sübut etdi. Gürcü təyyarəçilərinin arasında beş pudluq mərmini üsyan qaldırmış kəndin üzərinə atan leytenant Makeyev də var idi. Bu təcrübədən tez, qəti nəticələr verə bilən Zəngəzurda da eyinilə istifadə etmək olar. Telefonla Tiflislə əlaqə saxlayıb məsələni aydınlaşdırın, Zaxaradze ilə gürcü dilində danışın. Bir aeroplan göndərmək olar, özü də təyyarəçisi Xan Əfşar ola bilər. Beləliklə gürcü zabitlərinin bizim daxili ekspedisiyalarda iştirakını qadağan edən hərbi konvensiyanı pozmurlar. Uçuşlar da qısa olacaq, uçuş radiusu yüz verstdən uzaq olmayacaq. Aviasiya bazası Şuşada və ya Xankəndindədir. Cavabı mənə teleqrafla çatdırın. Yanvarın 29-da Xankəndində, yanvarın 30-da axşam Yevlaxda, yanvarın 31-də Bakıda olacam. Bu halda cavabı mənə evə çatdırın. Yevlaxa vaqon göndərmək üçün komendanta tapşırıq vermişəm. Baş Qərargah rəisi Sulkeviç".

Teleqramda adı çəkilən təyyarəçisi Xan Əfşar Baş Qərargah rəisi general Məmməd bəy Sulkeviçin 19 avqust 1919-cu ildə imzaladığı 370 saylı əmrlə Azərbaycan Respublikası qoşunları sırasına podporuçik rütbəsində, kiçik

zabit əmək haqqısı almaqla 17 avqust 1919-cu ildən hərbi xidmətə qəbul edilmişdi.[211]

"Təcili. Hərbi Nazirliyə, general Şıxlinskiyə.

Bu gün, yanvarın 27-də saat 12-də avtomobillə general Teymir bəy Novruzovla birlikdə Şuşaya yola düşdük, Xankəndi qarnizoninin rəisini də oraya çağırtdırmışam. Süvari diviziyasının qərargahı Yevlaxdan Xankəndinə yürüş edir.

Baş Qərargah rəisi Sulkeviç".[212]

"Təcili. Hərbi Nazirliyə, general Şıxlinskiyə.

Şuşa-Yevlax arasında etap xəttinin təmin olunması və piyada qoşun növbəsinin ixtisarı üçün zirehli avtomobili Ağdama göndərmək lazımdır. Konstruksiyasına görə həmin maşın ora gedib çata bilər. Baş Qərargah rəisi Sulkeviç".[213]

Sulkeviçin danılmaz xidmətləri arasında Azərbaycan Cümhuriyyətinin hərbi əməkdaşlıq istiqamətində həmin illərdə həyata keçirdiyi fəaliyyətlərdə yaxından iştirak da var. Azərbaycan Respublikası tərəfindən xarici işlər naziri Məmməd Yusif Cəfərov, hərbi nazir Səməd bəy Mehmandarovla yanaşı, Baş Qərargah rəisi Məmməd bəy Sulkeviçin də 1919-cu il iyun ayının 16-da imzaladığı Gürcüstanla üç illik hərbi müdafiə sazişinə görə hər hansı üçüncü dövlət tərəfindən bu dövlətlərin müstəqilliyi və ərazi bütövlüyünə təcavüz olunacağı təqdirdə, tərəflər bir-birinə yardım göstərməyə borclu idilər. Hər iki ölkə üçün ciddi müdafiə xarakteri daşıyan, qarşılıqlı əməkdaşlığın strateji səviyyəyə qaldırılmasını nəzərdə tutan bu müqavilənin həmin dövr üçün mühüm əhəmiyyəti var idi.

Hərbi nazirin 28 fevral 1920-ci ildə imzaladığı 124 saylı əmrdən: "Hərbi Nazirlik üzrə bu ilin 17 fevral tarixli, 105 saylı əmrin 1-ci hissəsinə əlavə olaraq Baş Qərargah rəisi generel-

211 ARDA, f. 2894, s. 6. iş 3, v. 113
212 ARDA, f. 2898, s. 1. iş 6, v. 47
213 ARDA, f. 2898, s. 1. iş 6, v. 51

leytenant Sulkeviç raportu əsasında xidmətdən tərxis edilmiş və ordu sıralarından çıxarılmış hesab olunsun".[214]

Öz xahişi ilə ordu sıralarından tərxis edilən Sulkeviç az sonra Nazirlər Şurasının qərarı ilə, Bakıdan keçərək, Rusiyaya gedən Könüllü Ordu qalıqlarından silah və təchizatı qəbul edən idarələrarası komissiyanın sədri təyin olunmuşdu.

Hərbi xidmətlə yanaşı, xeyriyyəçilik fəaliyyəti ilə də məşğul olan general Polşa tatarlarının etnoqrafiyasının tətqiqində və təbliğinə, həmin araşdırmaların dövri mətbuatda dərc olunmasına yardım edib. Məhz 1902-ci ildə onun təşəbbüsü ilə Peterburq Universitetinin polşalı professoru şərqşünas Anton Muxlinskinin (1808-1877) "Litva tatarlarının mənşəyi və hazırkı vəziyyətinin tədqiqi" kitabına "Ön söz" yazıb. Həmin kitab Odessa hərbi dairəsinin mətbəəsində M.Sulkeviçin şəxsi vəsaiti ilə çapı edilmişdir. İstedadlı sərkərdə həm də hərb elminin tanınmış alimi idi. Məmməd bəy Sulkeviç özünün elmi əsərlərindən, məsləhətlərindən, xidməti istifadə üçün hazırladığı normativ sənədlərdən ibarət ikicildlik əsərlərini nəşr etdirmişdir. Rus tədqiqatçılarının yazdığına

214 ARDA, f. 2894, s. 6. iş 7, v. 104

görə, onun hərbi tövsiyələrindən nəinki Rusiyada, hətta xarici ölkələrin ordularında da istifadə olunmuşdur.

"Dövlət Təhlükəsizliyi Xidmətinin arxivində saxlanılan PS-1746 saylı arxiv-istintaq işində M.Sulkeviçin adı Matvey olaraq qeyd olunub. Məlum olur ki, onu RSFSR XI ordusunun Hərbi İnqilabi Şura yanında Xüsusi şöbəsinin 438 saylı orderi əsasında həbs ediblər. Həbs olunanda onun 54 yaşı vardı. Həbs müddətində M.Sulkeviçlə bağlı istintaq aparılmayıb. 1920-ci ilin sentyabrında Moskvadan ÜFK-nın Xüsusi şöbəsindən göndərilmiş və arxiv-istintaq işində saxlanılan bir teleqram da bunu deməyə əsas verir. M.Sulkeviç haqqında soruşulan həmin teleqramın üzərində karandaşla yazılıb: "güllələnib". İşdəki 17 iyun 1920-ci il tarixli arayışda onun "əksinqilabi fəaliyyətdə" ittiham əsasında güllələnib, işinin arxivə verildiyi qeyd olunur".[215]

Məmməd bəy Sulkeviç Bayıl həbsxanasında əksinqilabi fəaliyyətdə günahlandırılaraq 1920-ci il iyun ayının 15-də güllələnib.

Məmməd Əmin Rəsulzadə «Azərbaycan Cümhuriyyəti» kitabında yazır: «Qardaşım parlament üzvü Mehmed Əli bəyin hekayətini ilk dəfə xalqa çatdırmaq istəyirəm. O, qorxmaz general Məmməd bəy Sulkeviçin qəhrəmancasına ölümünün şahididir. Onunla bir kamerada olan Mehmed Əli bəy söyləyirdi: «Generala əmr etdilər ki, çekistlərin ardınca getsin. Bizə aydın oldu ki, onun ölüm saatı çatıb. Ətrafa ölüm sükutu çökmüşdü. Onun gözlərinə baxmağa cəsarət etmirdik, biz təsəlli sözü tapa bilmirdik. General Sulkeviçin özü bizi qabaqladı, sakit, qətiyyətli səslə dediyi sözləri ömrüm boyu unutmayacağam: «Xoşbəxtəm ki, müsəlman Ordusunun zabiti kimi ölürəm. Xudahafiz!».

215 Yaqublu N., Cümhuriyyət qurucuları, B., 2018, s. 397

"İyirminci ilin iyulunda (bəzi müəlliflər, həmçinin Ş.Nəzirli Sulkeviçin 15 iyun deyil, 15 iyulda güllələndiyini qeyd edirlər – L.Ş.) general Məmməd bəy Sulkeviçin son gününün şahidlərindən biri də Bakıda bolşeviklər tərəfindən həbs olunan Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi diplomatik departamenti ümumi şöbəsinin müdiri Meçislav Stanislavoviç Rudzinski olmuşdur:

- 1920-ci il aprelin iyirmi səkkizində Azərbaycanda bolşevik çevrilişi baş verdi. Mən Polşa nümayəndə heyətinin üzvləri ilə birlikdə həbs edildim. Bir neçə gündən sonar bizi Bakı Fövqəladə Komitəsinə apardılar. Az sonra general Məmməd bəy Sulkeviç də buraya gətirildi. Onun əhval-ruhiyyəsi çox pis idi. Fikirləşirdi ki, güllələyəcəklər. Özü haqqında veriləcək qərarı təmkinlə gözləyirdi. Onunla bir kamerada olduğumdan bütün günü dərdləşirdik. Birinci günü döşəmədə yatır və başımızın altına yastıq əvəzi qəzet qoyurduq. Sonra rəflər düzəldildi. Çevrilişdən bir neçə həftə sonra sübh çağı çekistlər içəri girərək bir neçə nəfəri oyatdılar, onlara şeylərini yığmağı əmr etdilər. Çekistlər tələsdirir, haraya aparacaqları barədə məhbuslara heç nə demirdilər. Mən general Məmməd bəy Sulkeviçin yaxınlığında yatmışdım. General bizlərdən bir neçə nəfərin əlini sıxmağa macal tapdı. Xudahafizləşərkən o, tam yəqinliklə bildirdi ki, güllələməyə aparırlar. Özümüzün sağ qalacağımıza heç bir ümidimiz olmasa da, ona təsəlli verirdik. Onu da qeyd etməliyəm ki, general özünü çox ləyaqətli və mərdanə aparırdı. Bir neçə gündən sonra qəzetlərdə "əksinqilabi fəaliyyətdə" ittiham olunanların güllələnməsi haqqında məlumatı oxuduq. Bu siyahıda general-leytenant Məmmədbəy Sulkeviçin familiyası da vardı. O da mənə məlumdur ki, general Sulkeviç haqqında heç bir araşdırma, məhkəmə istintaqı olmadı. O, Azərbaycan

Demokratik Ordusunun generalı olduğuna görə sorğusuz-sualsız güllələndi".

Azərbaycan onu öz doğma Vətəni qədər sevən, ona varlığı ilə bağlı olan bir ləyaqətli və yeri hər zaman görünəcək övladını da itirdi.

Azərbaycan Ordusunun ilk Qərargah rəisi - Həbib bəy Səlimov

"Azərbaycanın sərhəd mühafizəsi tarixindən" kitabı

üzərində işləyərkən tanış olduğum arxiv sənədlərində 1919-1920-ci illərdə respublikanın cənub sərhədlərinin Muğana və xüsusilə Lənkərana aid hissəsində mühafizə məsələlərinin təşkili, ümumiyyətlə ilk mstəqil milli demokratik dövlətimizin bu regionda hakimiyyət strukturlarının yaradılması sahəsində çox böyük əməyi olan şəxsiyyətlər sırasında general Həbib bəy Səlimovun adına bir neçə dəfə rast gəlmişdim. Azərbaycan Hərbi Nazirliyində Baş Qərargah rəisi, Qarabağda yerləşdirilən ordunun komandanı olmuş, Vətən qarşısında həqiqətən də danılmaz xidmətlər göstərmiş bu tarixi şəxsiyyət haqqında oxucuya az məlumat çatdırılıb. Həbib bəy kimdir, hansı xidmətlərinə görə bu gün minnətdarlıq hissi ilə yad edilməyə haqqı var, bir vaxtlar mühüm dövlət postları tutmuş bu şəxsin sonrakı taleyi necə olub?

AR Nazirlər Kabineti yanında Milli Arxiv İdarəsinin və təhlükəsizlik orqanlarının arxivindən topladığımız sənədlər əsasında bu sualların bir qisminə cavab verməyə çalışacağıq. Ancaq əvvəl H.Səlimovun çoxsahəli fəaliyyəti ilə bağlı belə bir mühüm cəhəti qeyd edim ki, yaşadığı dövrün tarixi şəraiti ilə əlaqədar onun ömür yolu bir qədər mürəkkəb və ziddiyətli keçmiş, bu günün prizmasından yanaşıldıqda çətin anlaşılan hərəkətlərdən də xali olmamışdır. Bütün bu

ziddiyət və anlaşılmazlıqlara baxmayaraq, Həbib bəy işlədiyi müxtəlif sahələrdə, ona tapşırılan ən məsul vəzifələrin yerinə yetirilməsində və qarşılaşdığı çoxsaylı məsələlərin həllində həmişə özünü əsl peşəkar kimi göstərmiş, başqalarının hesablaşdığı söz və əməl sahibi sayılmışdır.

Cəmi 39 il ömür sürmüş Həbib bəy Səlimovun həyat yolundan bəhs etməzdən qabaq onun Azərbaycan dövləti qarşısında ən böyük xidmətlərindən biri - 1919-cu ilin avqust və sentyabr aylarında Lənkəran qəzasının milli hakimiyyətin idarəçiliyi altına alınması yolunda gördüyü işlər barəsində söz açmaq istərdim. Bir ildən artıq müddətdə öz dövlət müstəqilliyini əldə etmiş gənc Azərbaycan Respublikasının ölkənin bütün ərazisində hakimiyyət dayaqlarını möhkəmləndirmək cəhdlərinə baxmayaraq, 1919-cu ilin sentyabr ayına qədər Lənkəran qəzasında hökumətə tabe strukturlar yaratmaq mümkün olmamışdı. O dövrdə Lənkəranda vəziyyətin həqiqətən də gərgin olduğunu göstərən dəqiq məlumatlardan biri Hərbi Nazirliyin Baş Qərargah üzrə 420 saylı 19 sentybr 1919-cu il tarixli əmri sayıla bilər. Hərbi nazir S.Mehmandarovun və Baş Qərargahın qərargah rəisi general-mayor Əbdülhəmid bəy Qaytabaşının imzaladıqları həmin əmrdə deyilir: "Lənkəran şəhərinin alınması və həmin rayonda qayda-qanun yaradılması, Azərbaycan hökuməti hakimiyyətinin bərqərar olunması üçün mənim tərəfimdən Baş Qərargahın qərargah rəisi general-mayor Səlimovun komandanlığı altında üç növ qoşun hissəsindən ibarət xüsusi dəstə təşkil edilmiş və Lənkərana göndərilmişdir."

Əmrdə Hacıqabuldan Lənkərana qədər və geriyə 430 verstlik çətin keçilən, su ehtiyatının az olduğu yolu güclü istidə 15 günə xəstə və geri qalanlar olmadan keçmiş gənc ordunun uğurları qürur hissi ilə bildirilir və bu uğurların qazanılmasında

xidmətlərinə görə general-mayor Həbib bəy Səlimova təşəkkür elan edilir. Bu tədbirlərin görülməsi Lənkəran qəzasında hakimiyyətin dayaqlarının möhkəmləndirilməsi, sərhədin mühafizəsinin gücləndirilməsi, ümumiyyətlə ərazinin hər hansı müdaxilədən müdafiəsi məqsədilə zəruri idi.

Həmin illərdə Lənkəran qəzası da daxil olmaqla İranla sərhədboyu ərazilərdə ayrı-ayrı silahlı dəstələr və qaçaqlar yerli sakinlərə əziyyət verir, kəndlərin əhalisini soyub-talayır, hətta öldürürdülər. Gənc dövlət üçün mühüm əhəmiyyət kəsb edən həmin vəzifələrin həyata keçirilməsində əsl hərbi peşəkarlıq və qətiyyət nümayiş etdirmiş general-mayor Həbib bəy Səlimov o dövrdə Hərbi Nazirliyin Lənkərandakı dəstəsinin rəisi olmaqla yanaşı, Baş Qərargahın məsul işçisi idi. Bu hadisələrlə bağlı Azərbaycan Milli Ordusunun zabiti (polkovnik) olmuş, sonralar mühacirətdə yaşamış İsrafil bəy Yadigarovun (İsrafilbəyli) xatirlərində də maraqlı məqamlar vardır: "Gənc Azərbaycan ordusunun ilk səfər təcrübəsi, top, silah və ərzaq ehtiyatı ilə təhciz olunaraq Azərbaycan hökumətini tanımaq istəməyən Muğan səhrası Lənkəran qəzalarından bir hissəsini işğal etmiş rusları itatə gətirməsi idi. Buradakı ruslar müharibə görmüş qüvvələrdən ibarətdi. 1919-cu ilin sentyabr ayında, bolşeviklərin 1920-ci ildə edam etdikləri general Səlimovun komandanlığı altında Azərbaycan ordusu rusları məğlub etmək üçün Lənkərana doğru hərəkətə keçdi. Bakı əhalisi gənc əsgərlərini ilk səfərə çox mütəəssir olmuş şəkildə, stansiyaya qədər "yaşasın əsgərlərimiz" nidalarıyla yola salırdı."[216]

Lənkəran qəzasında 1919-cu ilin avqust-sentyabr aylarında baş verən hadisələr barəsində daha obyektiv təsəvvür yaratmaq üçün hadisələrin başqa canlı şahidinin yazdıqlarını

216 "Odlu yurd" jurnalı, № 3, 1931-ci il

kiçik ixtisarla diqqətə çatdırırıq. Ağqvardiyaçı zabit praporşik Dubininin Port-Petrovsk şəhər müdafiəsinin rəisinə 20 sentyabr 1919-cu il 3 №-li raportundan (Azərbaycanda Könüllü Ordunun xeyrinə ağqvardiyaçı işindən): "Avqustun ilk günlərində kommunistlər gəmi ilə Lənkərandan qaçdılar, şəhəri antibolşevik qoşunlar tutdular və mülki hakimiyyət Muğan Diyar bitərəf idarə orqanının əlinə keçdi. Baş komandan vəzifəsinə polkovnik İlyaçiyev bərpa edildi. Nəticədə şəhər Azərbaycana təhvil verildi. İngilis nümayəndələr muğanlıları əmin etdilər ki, Azərbaycan Parisdə sülh konfransı tərəfindən tanınıb və Muğan Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Bağlanmış müqaviləyə görə toplar, pulemyotlar və silahlar Muğanda qalmalıdır... Muğan, Könüllü Ordu, ingilislər, Azərbaycanın hərəsindən bir nümayəndə olmaqla nümayəndələr yığıncağı keçirilsin. Oradaca qeyd olunurdu ki, sərhədlə bu günlərdə Azərbaycan ordusu məşğul olacaq. Ancaq sərhədə gedən dəstə təsadüfən Muğanı tərksilah edə bilər. General-mayor Səlimovun komandanlığı altında olan dəstə Səlyandan Təkoymaya yaxınlaşanda ona mənim tərəfimdən Pakrovkada Muğan qərargahının rəisi adından təklif edildi ki, qoşun öz istiqamətini dəyişsin, Muğana və Lənkərana deyil, sərhədə hərəkət etsin. O, cavab verdi ki, Lənkərana hərəkət etməlidir və bundan sonra sərhədə gedəcək və ona Muğanda olan topları və pulemyotları götürmək zəruridir... Dəstə Lənkərana hərəkət etdi, yolda 22 top və 27 pulemyot götürüldü... atlar və dövlət yəhərləri hamıdan alındı. Dəstə Hacıqabula getdi, sərhəddə mövqe tutmadı. Dəstə Muğanda olarkən general Səlimov hər yerdə qocalarla və zabitlərlə söhbət edir, qoşunda qayda-qanun və intizam yaradılması barədə lovğalanır və daim deyirdi ki, onlar Könüllü Ordu ilə həmrəydirlər, bütün zabitləri, hətta unter zabitləri onlarda xidmət etməyə dəvət edirdi. Səlimovun

dəstəsinin Muğandan getməsindən sonra rusları yığmağa başladılar..."

Raportdakı iki məqam xüsusi maraq doğurur. Birincisi, Həbib bəyin Lənkəran qəzasını gənc respublikanın hakimiyyəti altına qaytarmaq üçün çox düzgün manevr edib, ərazidəki əsas silahları ələ keçirməsi və ikincisi, o zaman regionda heç də az təsir imkanlarına malik olmayan Könüllü Ordu tərəfdarlarını öz tərəfinə çəkməklə onlardan istifadə etməyə çalışması. Tabeçiliyindəki qüvvələri əvvəl sərhədə deyil, Lənkərana hərəkət etdirib, məqsədinə nail olduqdan sonra sərhəd məsələlərini də yaddan çıxarmaması onun düzgün strateji qərarlar qəbul etmək bacarığından xəbər verirdi. Özü də Səlimov raportda göstərildiyinin əksinə olaraq sərhədin mühafizəsi problemlərini ikinci dərəcələ məsələ hesab etmirdi, sadəcə bu işi yerdə hakimiyyətin möhkəmləndirilməsindən sonra həyata keçirməyi daha doğru sayırdı.

Arxiv sənədləri də göstərir ki, Həbib bəy Lənkərana hərbi yürüş edərkən həmin ərazilərdə dövlət sərhədlərinin qorunması problemlərini ilə də məşğul olmuş və bu barədəki fikir-mülahizələrini o zaman sərhədlərin mühafizəsi məsələlərinə cavabdehlik daşıyan müvafiq strukturların rəhbərlərinə çatdırmışdır. Həbib bəyin 1919-cu il avqust ayının 31-də maliyyə nazirinə vurduğu teleqram sərhədlərin mühafizəsinə onun necə diqqətlə yanaşmasını göstərmək baxımından xüsusi əhəmiyyət daşıyır. Həmin teleqramla əlaqədar maliyyə naziri Nazirlər Şurasının sədrinə 1919-cu il sentyabr ayının 1-də yazdığı məktubda aşağıdakıları göstərir: "General Səlimovun bu il avqust ayının 31-də vurduğu teleqramın surətini də təqdim edərək məruzə edirəm ki, qanunla yaradılması nəzərdə tutulan sərhəd mühafizəsi yalnız qaçaqmalçılıqla mübarizə məqsədi daşıyacaq və tərkibi, qarşısında qoyulan vəzifələr

baxımından quldurların böyük qüvvələrindən sərhəd əhalisini müdafiə edib, onlarla mübarizə apara bilməz. Sərhəd boyunca Bəhrəmtəpə postundan Astara postuna qədər 180 nəfərlik mühafizəçidən, onlardan 60-ı atlı və 120-si piyada, 4 zabitdən ibarət 18 sərhəd postu yaradılacaqdır. Səlimovun teleqramında yaradılması nəzərdə tutulan dəstə həm tərkibinə görə (16 zabitin daxil olduğu 750 nəfər), həm də təşkilati cəhətdən tam hərbi dəstədir və Hərbi Nazirliyə, yaxud Daxili İşlər Nazirliyinə tabe olmalıdır. Bu dəstənin sərhəd mühafizəçilərinə münasibətinə gəlincə, arzu olunar ki, o sərhəd mühafizəçilərinə sərhədə nəzarətlə bağlı xidməti borclarını yerinə yetirmək sahəsində apardıqları mübarizədə lazımi köməklik göstərməklə kifayətlənə idi".

Həbib bəy cənub sərhədlərində yaranmış gərgin vəziyyəti düzgün qiymətləndirərək, bu ərazilərdə mühafizə işinə azı 750 nəfərin cəlb edilməsinin zəruri olduğu qənaətinə gəlmiş və bu məsələnin öz həllini tapacağı halda yaradılacaq dəstənin strukturu və daxili bölgüsü haqqında hərbi mütəxəssis kimi öz təklifini bildirmişdi. Ancaq təəssüf ki, başlıcası maliyyə çətinlikləri ilə əlaqədar olaraq onun bu təkliflərinin həyata keçirilməsi mümkün deyildi.

"Azərbaycan" qəzetinin 1919-cu il 2, 13, 14, 21 avqust tarixlərində dərc edilmiş məlumatlar da Lənkəranın azad olunmasının xalq tərəfindən necə coşqu ilə qarşılandığını təsdiq edir: "Dünən Lənkərana ingilis komandanlığının iki nümayəndəsi ilə birlikdə Azərbaycan hökumətinin nümayəndələri getmişlər. Nümaynədə heyətinə polkovnik İlyaşeviçə Azərbaycan hökumətinə tabe olmaq və Lənkəranı, həmçinin Muğan diyarını təslim etmək tapşırığı verilmişdir. Muğanlılar Azərbaycanın Muğan sərhədlərinin İran tərəfindən rus və müsəlman əhalini narahat edən şahsevənlərdən mühafizə

ediləcəyi şərti ilə 5 gün ərzində silahı təhvil verməyə və Azərbaycan hökumətini tanımağa razı olmuşlar. 12 avqustda gündüz saat 5-də muğanlılar könüllü olaraq hakimiyyəti Azərbaycanın nümayəndələrinə təhvil vermişlər. Musiqi sədaları ilə Lənkərana daxil olan Azərbaycan qoşunu orada 3 top və 2 pulemot quraşdırmışdır. Polkovnik İlyaşeviçin Muğan dəstəsinin ancaq ermənilərdən ibarət olan bir hissəsi, 400 nəfərə yaxın danışıqsız təslim olmuş və silahı təhvil vermişlər. Onlar Bakıdan vətənlərinə göndəriləcəklər. Ruslardan ibarət olan digər hissə təslim olmaq istəməmiş və Muğan çölünə üz tutmuşdur.

Parlament üzvləri M.Ə.Rəsulzadə, A.Kazımzadə və M.Şeyxzamanov üç günlük Lənkəran qəzası səfərindən qayıtmışlar. Onlar ötən hadisələrlə əlaqədar yerdə şəhər və qəza əhalisinin vəziyyəti ilə tanış olmuşlar."

Hərbi işi mükəmməl səviyyədə bilməsinin, lazımi məqamlarda qəti qərar qəbul etmək bacarığının nəticəsi idi ki, Cümhuriyyətin Hərbi Nazirliyinin təşkil olunduğu ilk dövrlərdən etibarən ona ən məsul vəzifələr həvalə edilmişdi. 1918-ci ilin iyul-avqust aylarında Gəncədən milli Azərbaycan hökumətinin Bakıya köçürülməsi ideyasının reallaşdırılması üçün əməli işlərə başlanılması ilə vahid cəbhəni iki qrupa ayıran Nuru paşa Cənub qrupuna komandir Həbib bəyi təyin etmişdi. Bütün bir cəbhənin gənc zabitin ixtiyarına verilməsi heç də təsadüfi qərar deyil, həmin şəxsin hərbi bilik və sərkərdəlik bacarığına olan inamın təsdiqi idi. Gəncə-Bakı dəmir yolu ilə irəliləyən Cənub qrupunun komandiri kimi H.Səlimovun göstərdiyi bacarıq, təşkilatçılıq qabiliyyəti Azərbaycan hökuməti tərəfindən layiqincə qiymətləndirilmiş və elə bolşevik-daşnak qoşunlarına qarşı döyüşlərin gedişində

ona polkovnik rütbəsi verilmişdi. Şimal qrupunun komandiri qərargah podpolkovniki Osman bəy təyin edilmişdir.

Sonralar Türkiyədə çıxan "Böyük hərbdə Bakı yollarında 5-ci Qafqaz piyada firqəsi" kitabında podpolkovnik Rüştü bəy Həbib bəy haqqında yazacaqdı: "Cəsur, döyüş texnikasını gözəl bilən türk ordusunun yüksək rütbəli zabitləri tərəfindən layiqincə qiymətləndirilən polkovnik Həbib bəy rus ordusunda yetişmiş azərbaycanlı zabitləndəndir".

Bir müddət sonra general Həbib bəy Səlimov Baş Qərargahın rəisi kimi yüksək vəzifəni icra etmiş, Azərbaycanın erməni separatçılarına və Ermənistandan gələn quldur dəstələrinə qarşı Qarabağa döyüşməyə göndərdiyi ordunun komandanı olmuşdu. Bu etimada qədər onun Vətən qarşısındakı xidmətlərinin daim yüksək qiymətləndirildiyini daha bir fakt, polkovnik Həbib bəy Səlimova 1919-cu il fevral ayının 28-də Nazirlər Şurasının 4 saylı qərarı ilə general-mayor hərbi rütbəsi verilməsi də təsdiq edir. Bununla bağlı hərbi nazir 6 mart 1919-cu il tarixli, 108 saylı əmr imzalayıb: "Azərbaycan hökumətinin bu ilin 28 fevral tarixli 4 saylı hərbi rütbələr haqqındakı qararı ilə döyüş şücaətlərinə görə Baş Qərargahın Ümumi Qərargahının rəisi polkovnik Səlimova 1 yanvar 1919-cu ildən yüksək çinli zabit hesab olunmaqla, Baş Qərargahın zabitləri siyahısında saxlanılaraq general-mayor hərbi rütbəsi verilsin.".

Həmin qərarla hərbi xidmətdə fərlənməyə görə süvari hissəsi üzrə 1-ci Tatar süvari alayının tərkibində saxlanmaqla 1-ci Cəvanşir piyada alayının komandiri Sofiyevə və artilleriya üzrə Qaubitsa divizionun komandiri Rüstəm bəy Şıxlinskiyə tutduğu vəzifədə saxlanmaqla polkovnik rütbəsi verilmişdir.

Qeyd edək ki, general Həbib bəy general-leytenant Məmməd bəy Sulkeviçdən sonra Azərbaycan Ordusunda

xidmət edən ikinci ali hərbi (Rusiya Baş Qərargahının Nikolayev Hərbi Akademiyası) təhsilli generaldır.

1920-ci il mart ayının 2-də Hərbi Nazirliyin Baş Qərargahının yeni strukturunun hazırlanması üçün yradılmış komissiyanın təqdim etdiyi layihə əsasında Azərbaycan hökuməti Baş Qərargahın yeni strukturuna uyğun ştatının təsdiqi barədə qərar qəbul etdi.

Hərbi nazirin göstərilən qərarla bağlı əmrində aşağıdakılar qeyd edilirdi: "Mənim təqdimatm əsasında Baş Qərargahla Ümumi Qərargahın Baş İdarəsinin ştatları vahid Qərargahda birləşdirilərək, bundan sonra Azərbaycan Ordusunun Qərargahı adlandırılmışdır. Baş Qərargahın Ümumi Qərargahının Baş İdarəsinin rəsi, general-mayor Səlimov mart ayının 1-dən Azərbaycan Ordusu Qərargahının rəisi təyin edilir".[217]

Həbib bəyin ordu sərkərdəsi kimi Qarabağda göstərdiyi böyük şücaətlərdən bir yarpaq: 1920-ci il mart ayının 22-də Qarabağın dağlıq hissəsini Azərbaycandan ayırmaq istəyən daşnaklar Əsgəran keçidini ələ keçirməyə cəhd göstərdilər. Son dərəcə təhlükəli vəziyyət yarandığını nəzərə alan hökumət hərbi yürüşlərdə kifayət qədər təcrübəsi olan general Həbib bəy Səlimovun komandanlığı altında Yuxarı Qarabağa güclü əsgəri qüvvə göndərdi. Bu qüvvə işğalçı erməni dəstələri ilə 12 gün amansız, qanlı döyüşlərdən sonra daşnak ordusunu darmadağın etdi və erməni generalı Dəli Qazar öldürüldü. Həbib bəyin sərkərdəlik məharəti nəticəsində Azərbaycan əsgəri özünün ən şanlı vuruşlarından birini də zəfərlə başa çatdırmağa nail oldu. Tarixə "Əsgəran müharibəsi" kimi düşmüş bu savaş Vətən yolunda silaha sarılan türk oğlunun qarşısını heç bir qüvvənin almağa qadir olmadığını düşmənlərimizə bir daha göstərdi.

217 ARDA, f. 2894, s. 1, iş 13, v. 45

Həmin döyüşün iştirakçısı İsrafil bəyin xatirələrindən: "Əslən Dağıstandan olan polkovnik Əfəndiyevin komandası altındakı 8-ci Ağdam alayı və Parlamentin mühafizə dəstəsi Əsgəran qalasını azad etdi. Mənim komandiri olduğum 5-ci Bakı piyada alayı isə qaladan şərq tərəfdəki yüksəkliyi ələ keçirdi. Həlak olanlar və yaralananlarla birlikdə itkimiz 40 nəfər idi. Döyüşdə 5-ci batalyonun komandiri podpolkovnik Kutetaladze də yara almışdı. Ermənilər vahimə içərisində qaçmağa başlamışdılar. Ehtiyatda saxlanılan 1-ci Tatar süvari alayı onları təqib etmək istəyirdi. Lakin qaranlığın düşməsi buna imkan vermədi.

Ağdamda artıq qələbəmizi bayram edirdilər. "Yaşasın!" şüarı və milli marşın sədaları Əsgəran qalasına qədər gəlib çatırdı. Düşməndən geri alınmış mövqelərdə möhkəmlənən əsgər və zabitlərimiz həmin axşam həyatlarının ən xoşbəxt, təntənəli dəqiqələrini yaşayırdılar. Axşama doğru, dəstə rəisi general Səlimov döyüşçülərin yanına gəldi. O, əsgər və zabitlərə hərbi nazirin təşəkkürünü çatdırdı, ordunu qələbə münasibəti ilə təbrik etdi".

[218]Həbib bəyin məhz Azərbaycan Ordusunda tutduğu yüksək və məsuliyyətli vəzifələrlə bağlı yuxarıda qeyd olunan hər iki məqamla bağlı kifayət qədər məlumatlar var. Belə bir danılmaz həqiqəti xüsusi vurğulamaq istərdik ki, Həbib bəyin yüksək bacarıqlı, vətənpərvər şəxs olduğunu yaxşı bildiyi üçün yeni, sovet hakimiyyətinin ona inanmamağı təbii idi və general Səlimovun bağışlanacağı barədə düşünmək sadəlöhvlük olardı. Bolşeviklərin onunla bağlı məqsədlərini bürüzə vermələrini isə çox gözləmək lazım gəlmədi. Aprel çevrilişindən cəmi üç ay keçməmiş "müsavatçı general"ın işi yada düşdü.

218 "Горцы Кафказа", 1932, № 35-36, s. 17-19.

"Əksinqilabçı genaral Həbib Səlimov Naxçıvanda əhali arasında şayiə yayır, bəy və xanlarla birgə sovet hakimiyyəti əleyhinə iş aparır. O, ilk dəfə Naxçıvanda olarkən inqilabi Türk hökumətinə raport yazmışdı ki, yerli Azərbaycanın ... əhalisi qırmızı ordu tərəfindən istimar olunur. İndi o, özü İrana qaçmış bəy və xanlarla birlikdə işləyərək əhalinin sakitliyinə mane olur və əsgərləri təhlükəsizlikdən mərhum etməklə daşnakların qələbəsinə şərait yaradır. Bunu nəzərə alaraq xahiş edirik onu oradan təcili Bakıya aparasınız. AFK məxfi-əməliyyat şöbəsi."

Az. KP-yə göndərilmiş bu məlumat keçmiş müsavat generalı Həbib bəy Səlimov barəsində çoxdan formalaşmış düşmən obrazının qabardılması və onun həbs edilməsi üçün ilk addım kimi qiymətləndirilə bilər. Çünki Bakı şəhərində – mərkəzdə aprelin sonlarından başlayaraq artıq üç aya yaxın idi ki, Az.FK-nın at oynadır, milli hökumətin üzvlərinə qarşı görünməmiş amansızlıqla kütləvi cəza tədbirləri həyat keçirirdi. Yeni quruluşun dayaqlarının nəyin bahasına olur-olsun möhkəmləndirilməsi məqsədinin qarşıya qoyulduğu belə bir vaxtda Həbib bəy kimi təhlükəli və əks mövqeli bir şəxs necə kənarda qala bilərdi. Özü də mərkəzdə onun nəinki müstəqil Azərbaycan hökuməti dövründəki fəaliyyəti, hətta yeni hakimiyyətə, bolşeviklərə qarşı düşmənçilik hərəkətlərinə yol verməsi barəsində də kifayət qədər məlumat vardı.

Onlardan biri 1920-ci il iyulun 19-da "tam məxfi" qrifi ilə Ordunun xüsusi şöbəsinə göndərilən 18 saylı sənəddir: "Lənkəran və Cavad qəzalarından alınan məlumatlara görə Lənkəran qəzasında müsavatçı general Səlimovun, Tağıyevin, Hüseyn Ramazanovun başçılıq etdikləri sayı 1500-ə çatan quldur dəstəsi fəaliyyət göstərir. Bu dəstə tərəfindən Astaraya hücum edilmişdir, nəticələr barədə hələlik məlumat yoxdur. Şaykanın tərkibi süvarilər və piyadalardan ibarətdir. Silahları

müxtəlifdir, əsasən rus və fransız tüfənglərindən ibarətdir. Şayka daha çox Biləsuvar rayonunda və Lənkəranın 50-100 verstliyində olur. Elə hallar olmuşdur ki, onlar şəhərin 40-50 verstliyinə yaxınlaşmılar. Şayka kəndlərə basqın etmiş, mal-qara aparmışdır. Toqquşmalar zamanı bizim hissələrin itkiləri belədir: 3 nəfər ölmüş, 4-ü yaralanmış, 2-si itkin düşmüş, 70 at və silahlar itirilmişdir. Şayka ərzaq və yemi əhalidən alır, silah əksinqilabçılara Bakı və Salyandan gəlir. Siyasi idarənin rəisi."

Sovet hakimiyyətinə qarşı çıxanları "quldur dəstəsi", "şayka", "şübhəli elementlər", "proletar düşmənləri" və s. yarlıqlarla damğalayıb, onu başlıca dayağından, kütlələrdən mərhum edən, əhalinin siyasi cəhətdən azsavadlı hissəsində müstəqillik və azadlıq uğrunda çarpışanlara inamsızlıq yaradan bolşeviklər mübarizənin sonrakı mərhələlərdə bu yarlıqları "anti-sovet", "əksinqilabçı", "pantürkçü", "xalq düşməni" və başqa daha ümumi yarlıqlarla əvəz etdilər.

General Səlimov bolşeviklərin nəzərində quldur dəstəsinin başçısı idi və vətəndaş Qubinin (FK əməkdaşı) onun barəsində raportunda aşağıdakılar göstərilmişdi: "Bildirirəm ki, Səlimovun təşkilatı barədə tərəfimdən yığılan arayışlar nəticəsində aşağıdakılar aydın olmuşdur. General rus hərbi xidmətinin Baş qərargahının sürətləndirilmiş buraxılışının keçmiş podpolkovnikidir. Azərbaycan hökumətində general olmuşdur. Hazırda ingilislər tərəfindən yardım edilən dəstə yaratmışdır. Dəstənin fəaliyyət sahəsi Araz çayıdır. Dəstə ağqvardiyaçı quldur dəstələrin tör-töküntülərindən və şahsevənlərdən ibarətdir. Komanda heyəti ağqvardiyaçı zabitlər, ruslar, gürcülər və ermənilərdən ibarətdir. Dəstənin təşkilatlanması aparılmışdır: ermənilərin və Gürcüstanın hücuma keçəcəyi halda onlar Bakı-Tiflis dəmiryolunu

kəsəcəklər. Təşkilat işlərində Ənvər Paşanın hələlik heç bir iştirakı və ümumi iş birliyi yoxdur. General Səlimov müsavat hökuməti dövründə Xəlil Paşa ilə münaqişəyə görə müsəlmanlar arasında məşhur deyil. 15.10.20."

Sonluğu açıq şəxsi qərəzlik və həsəd hissi ilə yazılmış həmi raportunmüəllifi Qubinguya Səlimovun istintaqa verdiyi ifadə əsasında belə nəticə çıxarmışdı ki: "Azərbaycanda iki üsyançı təşkilat fəaliyyət göstərir, biri Tiflisdə, digəri Bakıda. Onların məqsədi birgə üsyan qalıdrmaqdır. Vəsaitin bir hissəsi Bakıdakı kapitalistlər tərəfindən, bir hissəsi Vrangelin Tiflis və Batumdakı nümayəndəsi tərəfindən buraxılır. Silahı qaçaq yol ilə Batumdan və Gürcüstandan general Səlimov gətirir və o, Tiflis təşkilatı ilə əlaqələrə malik olmaqla Bakı quberniyasında, Cavad qəzasında İran quldurlarına və Muğan sakinlərinə arxalanaraq, Bakıda bir neçə agenti olmaqla, burjuaziyanın və digər şübhəli elementlərin şəxsində iş aparır."

Beləliklə, Həbib bəyin həbsi üçün ilkin materiallar toplanmışdı və artıq çıxarılması nəzərdə tutulan qərarın qarşısını heç nə ilə almaq mümkün deyildi. İndi necə deyərlər, bu məşum saatın gəlib çatması üçün FK-nın son sözü qalırdı və bu söz 1920-ci il sentyabr ayının 1-də 11-ci ordunun Qafqaz cəbhəsinin 28-ci atıcı diviziyası qərargahının xüsusi şöbə rəisi, hərbi komissarın 2 saylı arayışında deyildi: "Bununla Naxçıvanın keçmiş hərbi komissarı keçmiş general Həbib Səlimov ittihamedici materiallarla istintaq aparılması üçün göndərilir. Əlavə: yazışmalar 56 səhifədə."

Sənədə belə bir dərkənar qoyulub "iş açılsın və araşdırılsın, 2. 091920."

Artıq Həbib bəyə yeni hökumətin gəlişinin ilk həftəsindən etibarən ona xidmət göstərdiyinin təsdiqləyən vəsiqələr də köməklik edə bilməzdi: "bu vəsiqəni təqdim

edən şəxs yoldaş Həbib Səlimov həqiqətən də 11-ci ordunun piyada müvəkkilinin sərancamındadır və Azərbaycan qırmızı ordusunun qərargahına ezam olunub. 16 may 1920 № 922, Bakı şəhəri".

Müvəqqəti vəsiqə: "Verilir yoldaş Həbib Səlimova ona görə ki, o, həqiqətən də 11-ci ordunun piyada müvəkkilinin sərancamındadır və tədris hissəsində dərslər üçün ezam olunub. 1 iyul 1920-ci il".

Naxçıvan icraiyyə komitəsinin 26 avqust 1920-ci ildə verdiyi vəsiqə arayışdan: "Bu vəsiqə yoldaş Həbib Səlimova ondan ötrü verilir ki, o, həqiqətən də 30 iyun 1920-ci ildə Naxçıvana gələn kimi Qırmızı ordunun gəlişinin gözlənilməsi ilə əlaqədar ərzaq ehtiyacının ödənməsi üçün ərzaq hazırlığı görülməsinə və eyni zamanda, Naxçıvan rayonunda hərbi hissələrin (qırmızı milis) yaradılmasına başlayıb. Bu imza və möhürlə təsdiq edlir."

Yaxud: Azərbaycan Respublikası cənubi-qərbi Azərbaycan general-qubernatorluğunun vəsiqəsi (19 iyul 1920): "Verilir Naxçıvan şəhərinin sakini Həbib Səlimova ona görə ki, ona ticarət işləri üçün İrana, Təbriz şəhərinə getməyə icazə verilir. Vəsiqə 14 gün qüvvədədir. Onun atları və kateri var. General-qubernator. Dəftərxana müdiri".

Naxçıvan qəza inqilabi komitəsinin 2 avqust 1920-ci ildə verdiyi 10 saylı Mandat: "Verilir Naxçıvan qəza inqilabi komitəsinin üzvü yol. Həbib Səlimova ki, həmin inqilabi komitəsinin qərarı ilə o, inqilabi komitə sədrinin müavini təyin edilir."

11-ci ordu hissələrinin cəmi 4 gün əvvəl - iyulun 28-də Naxçıvana daxil olmasından sonra əhali arasında nufuza malik bir şəxsin bu vəzifəyə təyin edilməsi təsadüfi deyildi. Məqsəd bu cür üsullarla sovet hökumətini qəbul etməyənləri

də müyyən təsir dairəsində saxlamaq, inandıqları adamlar vasitəsilə onların yalançı etimadını qazanmaqdan ibarət idi. Bu cür vasitələrə əl atan bolşeviklər yerlərdə azacıq möhkəmlənən kimi öz əvvəlki qərar və hərəkətlərini asanlıqla unudur, əsl simalarını büruzə verirdilər. Cəmi 18 gün sonra Naxçıvan kommunist təşkilatının 20 avqust yığıncağında Naxçıvan İnqilab Komitəsinin fəaliyyəti və tərkibi haqqında məsələ müzakirə edilməsi, İnqilabi Komitənin tərkibinin yalnız fəhlə, kəndli və qırmızı əsgərlərdən ibarət olması prinsipi ilə "sinfi düşmənlər"in inqilab komitələrinin tərkibindən çıxarılması buna əyani sübutdur. Təbii ki, Həbib bəy də sinfi düşmən idi və yuxarıda gətirdiyimiz siyahını nə qədər artırılmasından asılı olmayaraq o, məhv edilməli idi. Qeyd etdiyimiz kimi belə müvəqqəti imtiyazların heç biri Həbib bəyə yeni hakmiiyyətin gözündə haqq qazandıra bilməzdi və qazandırmadı da.

FK-nın onun barəsində müvafiq tədbirlər görmək üçün hazırladığı zəminin kifayət qədər əsaslı olması üçün 22 avqust 1920-ci ildə birinci süvari alayının hərbi komissarı yol. Starovun sədrliyi və yol. Feodorovun katibliyilə Naxçıvan hərbi inqilab komitəsi ilk təşkilatının növbəti iclasında aşağıdakı Protokol tərtib edildi: "6 nəfər komitə üzvünün iştirakı ilə növbəti iclasda yol. Səlimovun hərəkətləri barəsində məsələ dinlənildi. Yol. Şahtaxtinski dedi: Səlimov zəhmətkeşləri satmışdır. O, Azərbaycan müsavat ordusunda olarkən və vəziyyətin pisləşdiyini görüb Bakıdan İrana, oradan Naxçıvana qaçmışdır. Orda sovet hakimiyyəti əleyhinə olan başçıları dilə tutub ki, buraya hərəkət edən 600 nəfərlik, 10 top və bir neçə pulemyotu olan süvari alayına qarşı çıxsınlar. Əhali arasında sovet hakimiyyəti əleyhinə təbliğat aparıb. Sovet hakimiyyətinə tabe olmaq istəməyib, silahı və gülləni çörəyə dəyişib.

Yol. Rüstəmov Şahtaxtinskinin dediklərini təsdiqləyirərək deyir ki, Səlimov bolşeviklərlə mübarizə məqsədilə əhalini belə bir alay yaratmağa və komandanlığı ona həvalə etməyə sövq edib. Qırmızı ordu və sovet hakimiyyəti əleyhinə təbliğat aparıb.

Yol. Xəlil paşa deyir: Bakıda hakimiyyət müsavat Azərbaycanı hökumətində idi. Mən Bakıda partiya sıralarında idim. Bir vaxt daşnaklar Şuşaya hücum etmişdilər. Azərbaycan hökuməti Səlimova tapşırmışdı ki, piyada və süvarilərdən ibarət dəstə yaradıb onları müsəlman əhalinin müdafiəsi üçün daşnaklara qarşı göndərsin. Bacarıqsızlığına görə Səlimov 500 nəfər itirmişdi. Buna görə sovetlərə öz xidmətini təklif etdi. Biz işə qarışdıqdan sonra daşnaklar qovuldular. Qırmızı ordu Bakı yaxınlığında olanda Səlimova 2 piyada alayı və 3 süvari alayı həvalə etmişdilər. Mən təklif etdim ki, Qırımızı ordu Bakıya girəndə o, özünü və tabeliyindəki ordunu sovet hökuməti tərəfdarı elan etməlidir. O, mənim təklifimlə razılaşdı, ancaq Qırmızı ordu yaxınlaşanda öz vədini yerinə yetirmədi, xaincəsinə qaçdı və Sovet hakimiyyəti əleyhinə təbliğat apardı.

Yol. Starov onun satqın fəaliyyətini yekunlaşdıraraq təklif edir ki, Səlimov həbs edilsin və materiallarla birlikdə 11-ci ordunun inqilab tribunalına göndərilsin. Təklif yekdilliklə qəbul olundu. Sədr, katib."

İlk təşkilatın qərarı 28-ci atıcı diviziyanın əlahiddə süvari briqadasının 1-ci süvari alayının 27 avqust 1920-ci il 4607 saylı göndərişi ilə 11-ci ordunun inqilabi hərbi tribunalına çatdırılır: "Naxçıvan şəhərinin keçmiş hərbi komissarı, keçmiş general Həbib Səlimov ittiham materialları ilə göndərilir. Qoşma: yazışmalar 54 səh. və Naxçıvan şəhərində 22 avqustda

keçirilmiş inqilabi komtənin ilk təşkilatının qarnizon rəisi və hərbi komissar tərəfindən imzalanmış iclas protokolu".

Azərbaycanda aprel çevrilişindən sonra bütün Cənubi Qafqazı ələ keçirməyə çalışan sovet Rusiyası bu məqsədlə həm diplomatik vasitələrdən istifadə edir, həm də guya ermənilərlə azərbaycanlılar arasında millətlərarası toqquşmalara yol verməmək adı altında hərbi əməliyyatlar üçün yeni planlar işliyib hazırlayırdı. Rusiya rəhbərliyinin tövsiyyələrinə əməl edən 11-ci ordunun komandanı Levandovski bunu bəhanə gətirərək "Azərbaycanın Gürcüstan və Ermənistanla sərhədlərinin mühafizəsi haqqında" 1920-ci il may ayının 18-də 58 saylı əmr vermişdi. Əmrin 4-cü bəndinə əsasən 11-ci ordunun 32-ci diviziyasının rəisi Şteygerə Naxçıvan-Cülfa-Ordubadı ələ keçirmək üçün həmin məntəqələr mayın 25-də güclü dəstələr göndərmək tapşırığı verildi. Lakin sovet hakimiyyəti əleyhinə Gəncə, Qarabağ üsyanları ilə əlaqədar bu dəstələrin göndərilməsi işi bir qədər ləngidi. Naxçıvanda isə həmin dövrdə vəziyyət həddən artıq ziddiyətli idi. Müstəqil Azərbaycan tərəfdarları ilə 11-ci ordunun yaxınlaşdığını duyduqca fəallaşan bolşevikpərəst qüvvələr arasında qarşıdurma günbəgün artırdı. Yerli bolşeviklər və AKP (b) MK Azərbaycan İnqilab Komitəsinin Naxçıvana göndərdikləri kommunistlər qrupu əhali arasında sovetləşmə təbliğatı aparırdılar. Ancaq hələ ki, bölgədə vəziyyətə Naxçıvan Milli Komitəsi nəzarət edirdi və Türkiyə əsgərlərinin kiçik bir dəstəsi ilə Xəlil bəy də burada idi.

Həmin dövr hadisələrini hərtərəfli təhlil etmiş İ.Musayev "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)" monoqrafiyasında yazır: "Belə bir şəraitdə Şərurda azərbaycanlı əhalinin ermənilərin hərəkətlərinə qarşı çıxışları baş verdi.

Milli Komitənin silahlı dəstələri də Kəlbalı xanın və Xəlil bəyin başçılığı altında köməyə gəldilər. Tarixçilərimizdən bir qismi bu köməyi Kəlbalı xanın və Xəlil bəyin Şərur kəndlərinin daşnaklara və "müsavatçılara qarşı üsya"nından öz məqsədləri üçün istifadə edərək onu növbəti millətlərarası toqquşmaya çevirmək, qəzanı ələ keçirmək cəhdi kimi qiymətləndirmişlər... Daşnak hökuməti isə bu zaman Zəngibasar və Vedibasarda "daxili qarşıdurmanı dayandırmaq" adı altında həmin yerləri və hətta Cülfayadək olan əraziləri böyük əksəriyyət təşkil edən azərbaycanlı əhalidən təmizləməyə çalışırdı. Erməni hərbi hissələri iyulun əvvəlində Zəngibasara hücum edib, bu qanlı yürüşlərini Şahtaxtı stansiyası və Şərur qəzasının tutulması ilə başa çatdırdılar."

[219]Həmin dördə Naxçıvan və Zəngəzur üçün ciddi təhlükələr yarandığını görən Türkiyə hökuməti rusların da bölgədəki hərbi qüvvələrindən istifadə etməklə ərazilərin ermənilər tərəfindən tutulmasının qarşısını almağa çalışmışdı. Ermənilərin bölgə üçün ciddi təhlükə yaratdığını görən Türkiyə Bəyazid diviziyası iyunun sonunda 9 min nəfərlik qoşunla Naxçıvan-Cülfa-Ordubad istiqamətində hərəkətə başladı və artıq iyulun 2-də 3 min nəfər Naxçıvan-Şahtaxtı rayonuna daxil oldu. Ancaq Şahtaxtı stansiyasından Naxçıvan dəstəsinə komandanlıq edən Kəlbalı xanın 14 və 16 iyul 1920-ci ildə general Həbib bəy Səlimova göndərdiyi məlumatlardan aydın olur ki, türklərin gəlişi də vəziyyəti o qədər düzəltməmiş, yerli əhalidən təşkil edilmiş hərbi dəstələrdə nizamsızlığı sonadək aradan qaldırmaq mümkün olmamışdı: "Qıvraqdan hamı qaçıb. Mən onları öz yerlərinə qaytarmağa çalışacağım. Azərbaycan süvariləri hələ bizim tərəfimizə keçməyiblər.

219 İ.Musayev "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)"

Məlumat üçün bildirəm ki, Şərur istiqamətinə kəşfiyyat dəstəsi göndərilib." "Rotalarda tam dağınıqlıqdır. Zabitlər heç bir əmri yerinə yetirmək istəmirlər, nə mənim, nə polkovnik Sofiyevin."

Məhz bu vəziyyətdən istifadə edən və özünün hərbi hazırlıq işlərini müəyyən qədər başa çatdıran 11-ci ordu hissələri isə iyulun 28-də Gorus, Şahbuz və Cəhridən keçərək Naxçıvana daxil oldu. Naxçıvan inqilab komitəsi yaradıldı. Bu vaxt Həbib bəy İranda idi. O, 1920-ci il iyulun 19-da Naxçıvan şəhər general-qubernatorunun 3402 saylı rəsmi sənədi ilə 14 günlüyə Təbriz şəhərinə ticarət məsələləri ilə məşğul olmaq üçün göndərilmişdi.

Avqustun 26-da Naxçıvan inqilabi komitəsinin sədri 11-ci ordunun xüsusi şöbəsinin rəisi Pankratova yazılı məlumatdan da aydın olur ki, "Həbib bəy Səlimov İrandan iyulun 30-da qayıdıb və Qızıl ordunun ehtiyac duyduğu ticarət məhsullarından kifayət qədər gətirə bilmişdir".

11-ci ordunun xüsusi şöbəsinə ASSR Xalq Hərbi və Dəniz komissarından 21 sentyabr 1920-ci il 923 saylı rəsmi məktub göndərilir: "Az.FK-nın bu il 17 sentyabr, 2110 saylı məktubuna əsasən Səlimovu həbs etmək" məlumatın üstündə Xalq Hərbi və Dəniz komissarının dərkənarı qoyulmuşdur. Əlavə: 2110 saylı rəsmi məktub və ərizə".

Ancaq DTX arxivində saxlanılan PS-10217 istintaq-arxiv işindəki 64 saylı İstintaq protokolundan görünür ki, Həbib bəy 1920-ci il sentyabr ayının 2-də, bu dərkənarın qoyulduğu vaxtdan 19 gün qabaq həbs edilib. Sonuncu sənəddən bir gün əvvəl imzalanmış RSFSR 11-ci ordusunun inqilabi hərbi şurası yanında xüsusi şöbənin 2017 saylı həbs orderindən isə aydın olur ki, o, 1 sentyabr 1920-ci ildə həbsə alınıb və Qladilin soyadlı bir əməkdaş tərəfindən qəbul edilib. Orderdəki qeyddə

onun həmin vaxt 39 yaşında olduğu, təhsilinin baş qərargah səviyyəsində, rütbəsinin general-mayor, Naxçıvanın hərbi komissarı işlədiyi, əmək haqqı ilə yaşadığı, subay olduğu, 1353/op saylı əsasa görə həbs edildiyi bildirilir.

İnqilabi hərbi şura yanında xüsusi şöbənin 2-ci bölməsindən 11-ci ordunun xüsusi şöbəsinə (№1312 sentyabr 1920-ci il): "2 saylı Xüsusi bölmənin komendaturası Sizin sərancamınıza göndərilən Səlimovdan həbs edildiyi vaxt götürülmüş 40 min rubl miqdarında (müxtəlif kredit biletləri ilə) pulu və bir qızıl saatı, qolbağı ilə birlikdə 458 saylı iş də daxil olmaqla, işdəki 127 saylı qəbzə uyğun olaraq ünvanınıza yola salır. 28-ci atıcı diviziyanın yanında 2 saylı Xüsusi bölmənin komendantı."

Həqiqətən də həbs olunduğu gündən etibarən Həbib bəy Səlimov barəsində 458 saylı iş açılıb və səhəri gün qeyd etdiyimiz 64 saylı protokol tərtib edilib: "Səlimov Həbib Yusif oğlu, 39 yaş, Naxçıvan şəhərində anadan olub, qardaşı ilə birlikdə 20 sot torpağı, 3 sot bağ sahəsi var. Bitrəfdir. Sovet hökumətinə yazığı gəlir. Mülki təhsilini müəllimlər seminariyasında, hərbi təhsilini, Baş Qərargahın məktəbində alıb. 1914-cü ilə qədər Kozlovski alayında podpolkovnik

rütbəsinədək xidmət edib. Fevral burjua inqilibına qədər cəbhədə diviziyada adyutant olub. Oktyabr inqilabına qədər Petroqradda Baş Qərargahın Nikaleyvsk Akademiyasında oxuyub. Bu Akademiyada 7 mrat 1918-ci ilə qədər təhsil alıb, sonra onu birinci dünya müharibəsi cəbhələrinə göndəriblər. Almaniya-Türkiyə qüvvələrinə qarşı döyüşmək üçün Türkiyə cəbhəsindəki qüvvələrin tərkibində olub. Əvvəllər mühakimə edilməyib".

Bu qısa təqdimatda Həbib bəyin ilk təhsilini Yerevanda gimnaziya bitirməsi, 12 avqust 1900-cü ildə orduya könüllü yazılaraq 156-cı Yelizavetpol süvari alayında 1il 2 ay xidmət etməsi, unter-zabit rütbəsi alması, 1902-ci ildə Tiflisdə süvari məktəbini bitirməsi və Üçüncü Qafqaz Atıcı batalyonunda podporuçik rütbəsində xidmət etməsi (1907-ci ildə rota komandiri təyin olunub) və s. barədə məlumat verilməyib. Başqa mənbələrdə Həbib bəyin İrəvanda doğulduğu göstərilib. Onu da qeyd edək ki, Həbib bəy «Müqəddəs Vladimir» ordeni ilə təltif edilib və 1908-1910-cu illərdə həmin batalyonun tərkibində Naxçıvanın Culfa sərhədlərində xidmət edərkən məxfi tapşırıqla Tehrana göndərilib.

Həbib bəyin istintaq işində onun həqiqətən də Nikolayevsk hərbi Akademiyasını bitirdiyini göstərən 773 saylı Şəhadətnamə var: "Verilir Nikolayevsk hərbi Akademiyasının yuxarı snif dinləyicisi Həbib bəy Səlimova ondan ötəri ki, həqiqətən də Nikoloyavesk hərbi Akademiyasının tam 2-ci sinifini bitirib və müharibə, yaxud dinc vaxtı əlavə sinfə müəllim və Baş Qərargahda təmsil olunmaq hüququ ilə göndərilib, "Nikolayevsk hərbi Akademiyasının sürətləndirilmiş kursları haqqında nizamnaməsi" maddə 34. Əsas: 3 mart 1918-ci il Konfransının qərarı. Petroqrad şəhəri 4 mart 1918-ci il. Nikolayevsk hərbi Akademiyasının rəisi".

11-ci ordunun yanında xüsusi şöbənin hərbi müstəntiqi Antonenko 1920-ci il sentyabr ayının 5-də H.Səlimova 458 saylı iş üzrə ittiham irəli sürürüb və həbs qəti imkan tədbiri seçib. H.Səlimov ittihamedici aktın ona təqdim olunduğunu imzası ilə təsdiq edib.

Təhlükəli düşmən hesab edilən bir şəxsi tezliklə "layiq olduğu cəzaya" çatdırmağa tələsən FK işçiləri gün ərzində 14-16 saat işləyir, bir sənədin mürəkkəbi qurumamış, digərini tərtib edirlər. Bu sahədə həmkarlarından geri qalmayan hərbi müstəntiq Antonenko sentyabrın 5-də belə bir Qərar verir: "mən 28 atıcı diviziyanın 2-ci xüsusi şöbəsinin müstəntiqi Antonenko 1920-ci il sentyabr ayının 5-də sovet hakimiyyətinə qarşı əksinqilabi fəaliyyətlə əlaqədar ittiham edilən, həbs olunmuş general-mayor Səlimov Həbib Yusif oğlu ilə əlaqədar 458 saylı işə baxdım. Səlimov Bakı şəhərində yaşamaqla Bakı şəhər hərbi komissarı tərəfindən sərancama çağrılmış şəxs kimi 11-ci ordunun qərargahına keçirilib. Orduda mühaziraçi olub və Xəlilovun evində yaşayıb. Səlimovla birlikdə həmin evdə onun qohumu da yaşayıb. 26 mayda o, Xəlilovun kantorunda olarkən qaça-qaça yanına gələn qohumu bildirib ki, həmin tarixdə axşam evləri "erməni" milliyətindən olan qırmızı ordu əsgərləri tərəfindən mühasirəyə alınıb və onu hansı səbəbdənsə axtarırlar. O, bu barədə bildikdən sonra 11-ci ordu qərargahının tədris hissəsinin rəisi yol. Loqinova məktub yazaraq xahiş edib ki, onun təhlükəsizliyinə ayrı-ayrı şəxslərin hücumundan təminat versin. Loqinov guya kantora gəlib və Səlimovun qohumuna deyib ki, onun şəxsi təhlükəsizliyinə təminat verə bilməz, qoy o, dərslərə gəlsin. Bu barədə öyrənən Səlimov tədris hissəsinin rəisinə ikinci dəfə yazıb və bildirib ki, ermənilər ondan qisas alacaqlar və o, evə, İrandan Naxçıvana getmək istəyir. O Naxçıvana gələndə guya burada

əksinqilabçılar, Nuru paşa, Zeynalov və başqaları var idi və onlar sovet hakimiyyəti əleyhinə idilər. Səlimov yazır ki, o adı çəkilən şəxsləri Türkiyəyə getmək üçün dilə tutub. Ona görə belə təklif edib ki, guya ona sovet hökumətinin xeyrinə təbliğat aparmaq asan olub. Beləliklə o, antisovet təbliğatı apardığını rədd edir. Səlimov öz ifadəsində göstərir ki, Zeynalovu yola gətirmək daha çətin olub. Onun dəstəsi ingilislərlə birləşmək üçün Təbrizə və Zəncəna gedirmiş və Təbrizə 30 verst qalmış, Xudafərin körpüsündən Əhərə doğru Zeynalovun dəstəsi 3 mərmidən başqa bütün mərmiləri atıb hazırda orada yerləşir. "Bu barədə mən agenturaya tədbir görülməsi üçün raportla müraciət etmişəm".

Raportda daha sonra deyilir: "Səlimov qırmızı dəstənin komandanına yazır ki, erməni hissələri Naxçıvandan 70 verst məsəafədə olanda Naxçıvanda hər şey sakit idi və əhali siyasi cəhətdən sovet hakimiyyətini dəstəkləyirdi. Halbuki o, naxçıvanlılara deyib ki, Bakıdan rus qırmızı ordusuna görə yox, ermənilərə görə qaçıb. Ruslar bura gəlsə, onlara heç nə olmayacaq, ancaq ermənilərlə gəlsələr, o heç nəyə ümid etmir və bununla xalqın milli ədavət hissələrini alovlandırıb. Qırmızı ordunun Azərbaycana girməsindən qabaq Səlimov Şuşada olan 23 minlik əsgər və partizan ordusuna komandanlıq edib. Oraya məşhur Türk inqilabçısı Xəlil paşa və Tələt bəy gəliblər. Xəlil paşanın sualına cavab olaraq Səlimov deyib ki, Müsavat hökuməti qırmızı orduya qarşı çıxmağı tələb etsə, o, bu əmri yerinə yetirməyəcək və o, guya bunu etməyib. Bu barədə Xəlil paşadan aldığı türk dilində yazılmış vəsiqə var. Səlimov göstərir ki, ilk təşkilatın 22 avqust 1920-ci il yığıncağında Xəlil paşa iştirak etmirdi və deyə bilməzdi ki, o, öz vəzifə borcunu yerinə yetirməyib.

Bütün bunlara əsasən qərar alıram:

Həbs edilmiş Səlimovdan götürülmüş pul və əşyalar və 11-ci ordunun xüsusi şöbəsinə göndərilmək qərarı ilə birlikdə iş baxılmaq və təsdiq olunmaq üçün xüsusi şöbənin rəisinə təhvil verilir.”

11-ci ordunun siyasi şöbəsi 11-ci ordunun xüsusi şöbəsinə orada 8044 sayla 3.10.20-ci ildə qeydiyyata alınmış təcili məxfi qrifli sənəd göndərir: “Naxçıvan inqilabi komitəsi arzuedilməz şəxslərdən ibarətdir. Sədrin müavini keçmiş general Səlimov Bakıdan İrana qaçarkən qırmızı döyüşçülər tərəfindən tutulmuşdur. İnqilabi komitənin üzvləri: keçmiş general-qubernatorun köməkçisi və şəhər rəisidir. Qeyd: siyasi məlumatdan çıxarış 28-30.08. İnformasiya şöbəsinin rəisi, ümumi siyasi şöbəsinin rəisi.”

RSFSR ÜFK xüsusi şöbəsi qeydiyyat hissəsinə 16.10.20-ci ildə belə bir məlumat verir: “General Səlimovun işi üzrə yazışmaları göndərərək, əgər belə yazışmalar Sizin hissədən keçmişsə onu işə tikməyi xahiş edirəm. Əks halda yazışmaları geri qaytarın. 11-ci ordunun xüsusi şöbəsinin fəal hissəsi”.

Həbib bəy ilk dəfə 1920-ci ilin 20 sentyabrında dindirilir. Sual: Siz Bakıdan nə vaxt getdiniz, getdiniz, yoxsa qaçdınız, Siz 11-ci ordunun tərkibində xidmətdə idiniz, kiməsə getməyiniz barədə məlumat verdinizmi?

Cavab: Mən Bakıdan propusksuz getdim. Bu barədə tədris hissəsinin rəisi Loqinova məlumat verib, ondan mayın 27-də xidməti yerimi tərk edib getməyim barədə icazə almadım. Məni Bakıdan getməyə erməni qırmızı ordu üzvlərinin mənim hərəkətlərimi məhdudlaşdırmaları məcbur etdi.

Sual: Siz nə ilə izah edə bilərsiniz ki, Sovet Azərbaycanında bir aylıq xidmətinizdən sonra heç bir zabit titulu qalmadığı halda, siz Naxçıvanda gizlənəndə general titulu daşıyırdınız və belə titullu şəxslərin imzası ilə məlumatlar alırdınız?

Cavab: Bu həmin şəxslərin əvvəlki vərdişləri, yeni qaydalara adət etməməsi ilə bağlı idi.

Sual: Naxçıvanda sovet hakimiyyəti nə vaxt bərpa edildi?

Cavab: Bakıdan iki ay sonra, 26 iyul 1920-ci ildə, Naxçıvana mənim dəvətimlə sovet qoşunları gələndə.

Sual: İyul ayı ərzində döyüş xarakteri daşıyan və hərəkət edən hərbi hissələrə göndərilmiş məlumat nə deməkdir. Kimə qarşı hərbi əməliyyatlar aparılırdı?

Cavab: Qoşunların hərəkəti, bu ingilislərlə birləşməyə gedən və mənim tərəfimdən hərbi əməliyyatlardan Naxçıvan qəzasına qaytarılan Zeynalovun dəstəsinin qalıqlarına aid idi. Hərbi əməliyyatlara gəlincə, bu türk qırmızı hissələri ilə birlikdə Naxçıvana hücum edən Dronun və Şelkovnikovun dəstələrinə qarşı idi. Bu əməliyyatlar Azərbaycanda kimin hakimiyyətdə olmasından asılı olmayaraq aparılırdı, həmçinin Azərbaycanın mərkəzi ilə əlaqə yox idi.

Sual: Siz Azərbaycan müsavat hökumətində hansı vəzifələr tutmusunuz? Lənkəranda indi general Səlimovun başçılıq etdiyi əksinqilabi quldur dəstələri fəaliyyət göstərir, Azərbaycanda başqa general Səlimov varmı?

Cavab: Azərbaycanda müsavat hökuməti formalaşdırılmasının lap əvvəlindən 24 mart 1920-ci ilə qədər Azərbaycan ordusunun Baş Qərargah rəisi olmuşam, sonra isə Droya qarşı fəaliyyət göstərən Qarabağ dəstəsinin komandanı olmuşam. Şəxsən mən 1920-ci ildə Lənkəran qəzasında olmamışam və qırımızı orduya qarşı heç bir əməliyyatda iştirak etməmişəm. Həmin vaxt ərzində daim Lənkəran qəzasından 600-700 verst məsafədə yerləşən Naxçıvanda olmuşam. Azərbaycanda məndən başqa general Səlimov yoxdur, görünür kimsə mənim məşhurluğumdan Lənkəran qəzasında istifadə

edir. Oraya mən Azərbaycan müsavat hökuməti zamanında top və pulemyotları almaq üçün göndərilmişəm. Belə ki, məlumat vardı ki, Lənkəran qəzasında və Muğanda bu silahlardan Denikin tərəfindən istifadə edilə bilər. Mənim tərəfimdən həmin silahlar heç bir hadisə baş vermədən, hansısa cəza tədbiri görülmədən alındı. Əlavə edirəm ki, mənim vicdanım sovet hakimiyyətinə qarşı təmizdir və hakimiyyətdən icazəsiz Bakıdan getməkdən başqa heç bir günahım yoxdur.

Sual: Naxçıvanda Nuru paşa və Zeynalovla görüşdə Sizin onlarla hansı danışığınız oldu?

Cavab: Mən kəskin şəkildə Nuru paşa və Zeynalova irad tutdum ki, onlar xalqın iradəsi ziddinə olaraq belə bir avantüra törətmişlər. Mən onlara göstərdim ki, sovet hökumətinin qurulması tamamilə xalqın iradəsidir və mən bunu bildiyim üçün hələ sovet qoşunları gəlməzdən xeyli qabaq bu iradəyə tabe olmuşdum. Nuru paşa bildirdi ki, o, indi başa düşür ki, səhv edib. Zeynalov isə dedi ki, o, xanların və bəylərin məhv edilməsinə və bu şəxslərin hər yerdə həbs olunmalarına sakitliklə baxa bilmir. Sonra Zeynalov bildirdi ki, o, öz arxa təminatını ingilislərlə birləşmək və onlardan pul köməyi üçün Xudafərində qoşunları atıb, Əhərə və Zəncəna gedib ki, orada ingilislərə qoşula bilsinlər. Bunu öyrənib mən ikinci Türk diviziyasının rəisləri ilə danışıqlara girdim ki, Nuru paşa və Zeynalovu tezliklə Naxçıvandan Türkiyəyə kənarlaşdırım və buna nail olduqdan sonra qoşunları Əhərdən Naxçıvana qaytardım və onları türk komandanlığına təhvil verdim.

Daha sonra Həbib bəydən işin mahiyyəti üzrə ifadə alınır. Həmin ifadəsində özünü real məhvedilmə təhlükəsindən qorumağa çalışan general aşağıdakıları söyləyir: "Sovet hökumətinə qarşı heç bir günahım olmayıb və yoxdur. Mən daim bu hakimiyyətin möhkəmlənməsi üçün çalışmışım, bunu

sənədlər və işim təsdiq edir. Düşünürəm ki, münaqişə ona görə baş verib ki, mən Naxçıvanda inqilabi komitənin sədr müavini idim və iki dəfə komitənin ilk təşkilatının iclasında onun düzgün qərarlar qəbul etmədiyini sübut etmişəm.

… Mən alayın hərbi komissarına bildirdim ki, mövqelərə getdiyim üçün öz atımı ona verə bilmərəm. Bununla güman edirəm ki, özümə ikinci şəxsi düşmən qazındım və həmin şəxs ilk təşkilatda əsas rol oynadığından mənim taleyim həll edildi. İlk təşkilatın bütün müsəlman üzvləri barədə danışmayacağam çünki, onların arasında az qala qaranlıq keçmişi olmayan bir nəfər də yoxdur. Müsavat general-qubernatlrluğunun dəftərxanasının rəisi olmuş Məmmədov kimi. Onların törətdikləri işlər açıla bilər və mənim sözlərimin xüsusi əhəmiyyəti ola bilər. Mən Naxçıvana 30 iyunda İrandan getmişəm. Biləsuvar, Ərdəbil, ... və Təbrizdən keçib. ... Mən daşnaklara qarşı döyüşən dəstəyə başçılıq etmişəm. 11-ci ordunun tədris şöbəsinin rəisi yol. Lotnova məktub yazmışam ki, mən avantürist və sovet hökuməti əleyhinə deyiləm. Əgər onlar ermənilərin məni öldürməyəcəyinə qarantiya verə bilərlərsə, üzə çıxa bilərəm. Ancaq yol. Lotnov mənim qohumumun idarəsinə gədib ona deyib ki, təhlükəsizliyimin ayrı-ayrı şəxslərdən qorunmasına təminat verə bilməz, ancaq mən işə çıxmalıyam. Bu barədə biləndə təkrar onun yanına adam göndərib bildirdim ki, öldürüləcəyimdən qoxaraq, mən Azərbaycanda sakitlik yaranana qədər İrandan Naxçıvana getmək istəyirəm.

Naxçıvana gəlib orada Nuri paşanın, Bəhyəddin və Zeynalovun yanında oldum. Onlar artıq kütlələri sovet hakimiyyətinə qarşı qaldırmışdılar və çıxış etməyə hazırlaşmışdılar. Onda mən onları dilə tutmağa çalışdım ki, Türkiyəyə getsinlər, çünki hadisələrin inkişafının sovet

hakimiyyətinin xeyrinə dəyişdiyinə onları inandırmaq asan oldu. Zeynalovu dilə tutmaq daha çətin oldu. O, öz dəstəsi ilə Təbrizə gedib, ingilislərin tərəfinə keçmək istəyirdi, onun dəstəsi 1200 nəfərdən, 27 top, kifayət qədər güllə, mərmidən ibarət idi... Ondan sonra Zeynalov kimi Nuru paşa da Türkiyəyə getdi. Mən qoşun arasındakı nüfuzumdan istifadə etdim ki, qoşunu Naxçıvana qaytarım. 800-ə yaxın əsgəri qaytarıb Naxçıvandakı Türkiyə komandanlığına təhvil verdim. Onda ermənilər Naxçıvandan hələ 70 verst məsafədə idilər. Mən Naxçıvan Milli Şurasına məsləhət bildim ki, qırmızı ordudan kömək istəmək üçün nümayəndələr göndərsinlər. Özüm isə onların qərarını gözləmədən qırımızı dəstənin komandanına məktub yazdım. Orada mən Naxçıvandakı hərbi və siyasi vəziyyət barədə məlumat verərək, Naxçıvanda ermənilərsiz sovet hakimiyyətinin qarşılanmasına qarantiya verdim. Həmin məktubda mən nə üçün Naxçıvanda olduğumu aydınlaşdırmışdım. Mənim məktubum tam bəyənilmiş və inam doğurmuşdu...".

Naxçıvanın Hərbi komissarı olduğu üçün bu bölgəyə gələn hərbi qüvvələrin ilk növbədə ona müraciət edirdilər. 11-ci ordunun yüksək rütbəli zabitlərindən biri tərəfindən yazılmış belə müraciətlərdən biri (Səlimova 12 avqust 1920): "Gorus şəhərinə getməkdə hansı yolla olsa mənə köməklik göstərəsiniz. Mənim Sizə belə bir xahişim var. Gorusa qədər yolda Sizin atlı əsgərlərə məni müşaiyət etmək barədə tapşırıq verəsiniz. Tək getmək tam təsadüfi hadisələrə görə təhlükəsiz deyil. Güman edirəm ki, 10 nəfər yolun təhlükəsizliyinə təminat üçün kifayətdir. Fikirləşirəm ki, bu xahişim çətinə düşməyəcək və mən bəri başdan sizə öz səmimi təşəkkürümü bildirirəm. Vediyiniz sərancam barədə məni xəbərdar etməyinizi xahiş

edirəm. RS-lə öz adamlarımı götürməyi mümükün hesab etmirəm".

Həbs ediləcəyini və barəsində ən sərt tədbir görüləcəyini isə Həbib bəy lap əvvəldən bilirdi. Onun Naxçıvan şəhərindən Ə.Qarayevə avqustun 7-də yazdığı məktub da bunu aydın göstərir: "Hörmətli yol. Əli Heydər! Qoy mənim məktubum Sizi təəcübləndirməsin. Mən bu günlərdə Sizin Hərbi və dəniz komissarı təyin olunmağınız barədə bildim və qərar gəldim ki, Sizə bir neçə kəlmə mənim üzərimə atılan şərdən öz bəraətim üçün yazıb bildirim, mənim familyam avantürüstlərlə bir yerdə hallana bilməz. Mən heç vaxt fikirləşmədən hərəkət etməmişəm və heç kimə xoş gəlməyə çalışmamışam. Xalqa təmiz xidmət etmişəm və məni ancaq xidməti işdəki kobudluq və tələbkarlıqda günahlandıra bilərlər. Dövlət puluna toxunmamışam. Mənim siyasi fizionomiyama gəlincə, denikinçilər tərəfindən ölümə məhkum edilmişəm, bolşeviklərə münasibətim bərədə isə, aşağıdakı faktlar əsasında hökm çıxara bilərsiniz: Mən Qarabağda qoşunlara komandanlıq edəndə, bolşeviklərin Azərbaycana gəlişinə qədər daşnaklara qarşı döyüşdüyüm 20 gün ərzində yanıma Şuşaya Xəlil paşanın və Tələt bəyin xüsusi nümayəndələri gəldi. Onlar mənə belə bir sualla müraciət etdilər ki, əgər Musavat hökuməti qoşunları şimala yönəltməyi əmr etsə, mən nə edəcəyəm. Mən onlara ləyaqətlə cavab verdim ki, qoşunları bolşeviklərə qarşı yönəltməyəcəm və müsavat hökumətinin əmrini yerinə yetirməyəcəyəm. Bundan əlavə mən bolşeviklər gələnə qədər müsavat hökumətinə xidmət etmək istəmədiyim üçün istefa verəcəyəm. Deyilənləri Xəlil paşa və Tələt bəy təsdiqləyə bilərlər (sonuncu Bakıda, birinci isə Naxçıvandadır və hər ikisi bəlkə də dindiriləcəklər). Mən fəxrlə deyə bilərəm ki, bunda mənim böyük xidmətim var. Əgər mən avantürüst

hərəkət edib qoşunları qırmızı orduya qarşı çevirsəydim nə ola bilərdi?

Onda mən Zeynalovun intriqasına görə əvəz edildim və Bakıya çağrıldım və bu Xəlil paşa ilə razılaşdırılmamışdı ki, o, mənim barədə danışsın. Sizin diqqətinizi çox almaq istəmirəm. Qısaca desək mən Bakıdan ermənilərdən və məni də avantürüstlərə qoşa biləcəklərindən qorxduğum üçün getdim. İrana və oradan Naxçıvana getdim. Burada da mən ilk dəfə məktubla qırmızı ordunu çağırdım. Mən hərbi işi bilən, geniş hərbi Akademiya təhsilli şəxs kimi Sizə lazım ola bilərəm, xidmət göstərə bilərəm, təki məni ləyaqətlə işləməyə dəvət etsinlər, yoxsa general olduğum üçün həbs etməsinlər. Mənim başqa günahım yoxdur. Bildirirəm ki, mən kommunist deyiləm, bitərəfəm, ancaq xalqın rifahı üçün xidmət göstərən təmiz adamam. Ətraflı şəkildə yol. Nərimanova və İldırıma iki məktub yazmışam. Mən Sizin üçün necə işçi ola bilərəm, hamı deyər. Əgər mənə Naxçıvanda hərbi gücləri təşkil etmək həvalə olunsa, onda mən bütün qüvvəmlə çalışaram. Sizin doğru münasibətinizə ümidlə, Sizə hörmətlə Baş Qərargahdan keçmiş general Səlimov. 7 avqust Naxçıvan şəhəri."

Növbəti məktublardan birini isə Həbib bəy Xüsusi Şöbənin rəisi Pankratova həbsə alındıqdan 3 ay yarım keçdikdən sonra yazdı: "Artıq 3 ay yarımdan çoxdur ki, mən həbs altında saxlanıram və belə düşünməyə haqlıyam ki, ilk təşkilat tərəfindən Naxçıvanda mənə qarşı ədalətsiz surətdə irəli sürülən ittiham məni həbsdə bu qədər uzun müddətdə saxlamağa əsas verə bilməz. Yəqindir ki, burada mənim keçmiş xidmətim rol oynayır, yaxud dəqiq desək bu xidmət haqqında pis informasiya. Sizə mənim işimdən daha asan baş çıxarmaq üçün işdən halı edərək, fəaliyyətim barədə bir neçə faktı, xronoloji ardıcıllıqla çatdırmaq istəyirəm. Aprelin əvvəllərində

Denikin ordusunun qalıqları darmadağın edildi və Qırmızı ordu Dağıstanı tutaraq Azərbaycan sərhədinə yaxınlaşdı, mən, bu vaxt Azərbaycan ordusunun başında Qarabağda məşhur Dronun komandanlığı altında martın 21-indən 22-nə keçən gecə vəhşicəsinə hücuma keçən daşnaklara qarşı mübarizə aparırdım. 7 apreldə mən Şuşada olanda oraya Xəlil paşa və Tələt bəy gəldilər və mənə məlumat verdilər ki, qırmızı ordunun Azərbaycana hərəkətinə ancaq mənim ordum maneçilik törədə bilər. Bununla əlaqədar onlar mənə sual verdilər. Mən müsavat hökumətinə, əgər onlar daşnaklarla müqavilə bağlayıb qoşunları şimal sərhədlərinə qırmızı orduya müqavimət göstərmək üçün keçirmək barədə qərar qəbul etmək haqqında mənə əmr verməyi tələb etsələr onlara tabe olacağammı? Mən cavab verdim ki, xalq arasından çıxmış, xan, bəy, mülkədar olmayan bir şəxs kimi mən bütün ömrüm boyu xalqa xidmət etmişəm və ona qarşı getmərəm, bilərəkdən ki, xalq Azərbaycanda sovet hakimiyyəti qurulmasının tərfdarıdır, mən qırmızı orduya qarşı çıxış etmərəm və müsavat hökumətinin qoşunları şərqə keçirmək barədə əmrini yerinə yetirmərəm. Qırmızı ordunun Bakıya gəlişini mən salamladım və mayın 10-da Hərbi dəniz komissarının çağrışı ilə Bakıya gəldim. Burada mənim əvvəlki vəzifəm tutulduğu üçün mən xahiş etdim ki, məni 11-ci ordunun sərancamına göndərsinlər, haradakı mən komandir kurslarında mühaziraçi təyin edildim. Burada mənim tərəfimdən qərargah işçilərinin kurslarının təşkil işinə də başlanıldı. Sovet hökumətinin və Azərbaycan xalqının düşmənləri Gəncə avantürasını törətdilər. Bununla əlaqədar həbslər başlandı. Məni də həbs etməyə gəldilər, ancaq mənim deyil, qohumlarımın mənzilində. Təsadüfən, yoxsa qəsdən deyə bilmərəm arxamca gələnlərin əksəriyyəti ermənilər imiş və mən onların mənə qarşı düşmən münasibətini bilərək onlara

etibar göstərməyə qorxdum və növbəti gün xidmətə getməmək qərarına gəldim. Bu mayın 28-də oldu. 29-da mən tədris hissəsinin rəisi Loqinova kağız yazdım ki… Təkrar edirəm ki, mənim üçün ən yaxşısı müvəqqəti qarnizondan uzaqlaşmaq idi, başqa cür mənim adım avantüristlərin cərgəsindən çıxarıla bilməz. Mənim tam haqlı olduğum göründü. Mən Naxçıvanda qırmızı ordu ilə bir yerdə işlədim və nəticədə xüsusi şöbədə həbs altında saxlanıldım. Adım üsyan etmiş Lənkəran qəzası quldurları ilə bir yerdə çəkildi, o yerə ki, 1920-ci ildə mənim ayağımın dəymədiyi ümid edirəm aydınlaşacaq. Mən Bakıdan 29 mayda getdim və sonrakı marşrutum belə oldu: mayın 31-də Kürü Səlyan yaxınlığındakı Cavad qəzasının Ərəbtalan kəndindən keçdim və iyunun 1-də Biləsuvar yaxınlığından sərhədi keçdim. Nəcəfqulu xanın qonağı oldum (Şahsevən xanı). Orada iyunun 10-na qədər qonaq qaldım, sonra o, öz adamları ilə məni Ərdəbilə yola saldı. Oraya mən 12 iyunda çatdım. Oradan qubernator yerli demokratik partiyanın sədri Hacı Şaban Əli ilə məni Təbrizə, bütün Şimali İranın demokratik hökumətinin başçısı Şeyx Məhəmməd Xiyabaninin yanına göndərdi. Bu o vaxt idi ki, ingilislər bütün İranAzərbaycanından qovulmuşdular və sonuncu özünü Azəristan adı ilə azad elan etmişdi. Təbrizə mən 21 iyunda gəldim və orada 5 gün qalıb oradan Naxçıvan şəhərinə getdim. Təbrizdə mən Şeyx Məhəmmədlə (demokratik partiyanın sədri, Azərbaycanın azadlığı uğrunda böyük mübariz, İranda milli Azərbaycan dövlətinin qurucusu Şeyx Məhəmməd Xiyabani - L.Ş.), Hacı İsmayılla, görkəmli sosialistlə görüşdüm. Hazırda onların ikisi də ingilislərin tərəfdarları tərfindən öldürülüb. Təkrar edirəm ki, hər yerdə yol boyu məni sovet hökumətinin agenti hesab edirdilər. Təbrizdə də belə oldu. Xiyabani mənimlə sovet hakimiyyəti ilə bağlı onu maraqlandıran məsələlər barədə

fikir mübadiləsindən sonra mənə təklif etdi ki, Azərbaycanın hər iki vilayətinin birləşdirilməsinə və Azəristanda sovet hakimiyyətinin qurulmasına çalışım. Mən Naxçıvanda olarkən bu istiqamətdə çox çalışdım və bunu çoxlu şahidlər təsdiq edə bilərlər. Onlardan birini mənimlə Şeyx Məhəmməd arasında əlaqədə əsas vasitəçini Naxçıvan şəhər sakini Hacı Mir Bəşir ağanı göstərə bilərəm. Ətraflı yazmaq istəmirəm, çünki sizi maraqlandırmayacağından qorxuram, ancaq əgər siz şimali İran barədə ətraflı öyrənmək istəsəniz, ordakı əhalinin ovqatı, onların məişəti, adətləri, cəhdləri, bir sözlə hər kəndin olmasa da, hər qəzanın nə ilə yaşadığı, nəfəs aldığı barədə ətraflı və hərtərəfli cavab verə bilərəm. Bütün Gilan, Qəzvin, Həmadan və Zəncanı yaxşı tanıyıram, Ərdəbili, Təbrizi, Mərəndi və Xoyu əla tanıyıram, oradan bu yay keçmişəm. Cəsarətlə deyə bilərəm ki, hərbçilər arasında İranı mənim qədər tanıyan yoxdur, üstəlik mən onların dilində danışır və yazıram.

28 iyunda Naxçıvana gəlib mən oraya Bakıdan qaçmış Bəhyəddinin başçılığı ilə Türkiyənin avantürüstlərilə Naxçıvana gəlmiş Nuru paşaya və Zeynalova yazdım. Zeynalovdan mən Qarabağ üsyanı barəsində ətraflı öyrəndim və soruşanda ki, onun dəstəsinin qalıqları haradadır, o cavab verdi ki, onlar Xudafərin körpüsündən İranın Əhər şəhərinə hərəkət edirlər, oradan Təbrizə və Zəncəna ingilislərlə birləşmək üçün gedəcəklər. Mən təcili zəruri tədbirlər gördüm. Bir tərəfdən Təbrizə hərəkət edən dəstənin rəisi Sofiyevə Naxçıvana gəlmək barədə xahiş etdim. Digər tərəfdən, 11-ci türk diviziyasının rəisi Cavad bəydən xahiş etdim ki, Nuru paşanı, Zeynalovu və türk avantüristlərini təcili Naxçıvandan çıxarsın. Hər iki fikrim baş tutdu, çünki Azərbaycan qoşunları mənə böyük etibar göstərirdi, türklər isə mənim şəxsimdə keçmiş Azərbaycan ordusunun qərargah rəisini görürdülər. Bütün bunlar haqqında

mən gizli düşünürdüm, çünki Naxçıvanda antisovet təsiri artıq kök atmışdı və ehtiyatlı hərəkət etmək lazım idi. Nuru paşa, Zeynalov və başqalarının getməsi ilə mən güclü işləməyə başladım. Bu vaxt daşnakların Naxçıvanın rayonu Şərura hücumu başladı. Əhəli bundan qorxuya düşmüşdü və onlar məni siyasi və hərbi işlərə rəhbər seçdilər. Naxçıvanda onda ermənilərlə barışıq tərəfdarları vardı, hətta İrəvana nümayəndələr göndərilmişdi, onların başında əsasən xanlar dururdu. Ancaq xalqın əksəriyyəti mənim tərəfimdə idi və mən Gorusdakı qırmızı dəstənin komandirinə məktub yazdım və ona bütün vəziyyəti göstərdim, Kamalçılarla qırmızı ordunun arasında birləşdirici həlqə və Təbrizə hərəkət etməyin mümkün olduğu Naxçıvan qəzasının böyük əhəmiyyətini qeyd etdim. Həmin məktubda mən həmçinin Naxçıvan-Şərur əhalisinin sovet hakimiyyəti əleyhinə olan bütün məlumatların yalan olduğunu və əhalinin dəstəni görünməmiş şəkildə qəbul edəcəyini və buna cavabdehlik daşıdığımı və hər cür köməklik göstərəcəyimi qeyd etdim. Mənim məktubuma 11-ci ordunun inqilabi komitəsində baxılmış və mənim hərəkətlərimdən razılıq edilərək, böyük etibar göstərilmişdi. Məktub iyul ayının 15-də yazılmış və doktor Abbasovla göndərilmişdi. 20 iyulda qırmızı ordunun kəşfiyyat hissəsi Bazarçaya gəlib mənim yazdıqlarımı yoxladılar və iyulun 26-da birinci kavaler alayı Naxçıvana gəlib çatdı. Mənim tərəfimdən qarşılandı və Naxçıvanda yerləşdirildi. İyulun 15-dən 26-na qədər mənim yaratdığım 7 minlik milislə daşnaklarla, nəyin bahasına olur-olsun Naxçıvanı tutmaq istəyən Dronun dəstəsi ilə müharibə apardım. Birinci süvari alayının Naxçıvana gəlməsindən sonra da mən Naxçıvan-Şərur rayonunun milis ordusuna komandanlıq etməkdə davam etdim və onlarla birlikdə daşnaklarla döyüşdüm. Avqust ayında Dronun Gorusa hücumu vaxtı mən

öz milislərimlə onların arxasına keçdim ki, qırmızı əsgərlərin onları dağıtmasına kömək edim. Sonra mən eyni vaxtda hərbi komissar kimi inqilabi komitəyə seçildim və alayda işlədim, onun təminatı ilə məşğul oldum, emalatxana düzəldib, İrandan nallar gətirtdim ki, hakimiyyət yuxarıda göstərdiyim xan partiyasının əlindən çıxsın, hansı ki, bütün gücü ilə mənə qarşı idi. Uzun müddət onlar heç nə edə bilmədilər. Ancaq nəhayət bir neçə keçmiş müsavatçı, məsələn Cabbar Məmmədov, İbrahim Şahtaxtlı (nəhəng mülkədar), Əziz Rüstəmov (keçmiş pristav) yerli ilk təşkilatı sıxışdıra bildilər. Həmin şəxslər hər vasitə ilə sübut etməyə çalışdılar ki, mənim fəaliyyətim xalqa zərərlidir, təkcə onu göstərirdilər ki, mən keçmiş generalam. Bu azmış kimi onlar özlərinin 22 avqust qərarlarına guya Xəlil paşanın məni ifşa edən ifadəsini saldılar. Halbuki aşağıdakı səbəblərə görə Xəlil paşa belə bir ifadə verə bilməz:

a) 18-28 avqustda Xəlil paşa ümumiyyətlə Naxçıvanda olmayıb, o, Bəyaziddə olub, oraya Mustafa Kamal tərəfindən çağrılıb.

b) Xəlil paşa mənim ona yanaşdığım kimi mənə böyük hörmətlə yanaşır və mənə vəsiqə verib ki, mən qırımızı orduya qarşı çıxış etməkdən imtina etmişəm, o, öz sözünü dəyişib yalan ifadə verə bilməz, çünki çox yaxşı bilirdi ki, mən Şuşadan 10 maya qədər heç yerə getməmişəm və Bakıya Hərbi dəniz komissarı yol. İldırımın çağrışı ilə gəlmişəm. Naxçıvana gələndə o, mənim həbsim haqqında qərar çıxarmış ilk təşkilatın hərəkətindən xəbər tutmayıb.

Təkrar edirəm bütün məsələ bundadır ki, məni hansı yollasa Naxçıvandan uzaqlaşdırmaq, komandanlığı keçmiş qvardiyaçı zabit Kəlbalı xan Naxçıvanskiyə təhvil vermək və inqilabi komitənin sədri Cəfərqulu xan Naxçıvanskini qoymaq.

Mənim həbs edilməyim və Naxçıvandan çıxarılmağım çox tez, eyni gündə baş verib.

Şuşada 28-ci diviziyanın xüsusi şöbəsinin zabiti tərəfindən dindirilində, hansı ki, mənə elan etdi ki, mənim ittihamım tam boş şeydir və Bakıya gələn kimi mən təcili azadlığa buraxılacağam.

Xüsusi şöbəyə 10 sentyabrda gəldim. Sentyabrın 18-də əlavə dindirilmə aparıldı və həmin vaxtdan heç bir səs-səmir yoxdur. İndiki az qala bütün dünyanın iki yerə - kapitalistlər və proletarlara ayrıldığı, mübarizə apardığı bir vaxtda bu mübarizədə Şərqin əzilən xalqları möhtəşəm rol oynaya bilər. Cəsarət edirəm deyim ki, bu mübarizənin nəticəsi Şərq xalqlarının hansı tərəfə atılmasından asılı olacaqdır. Ancaq bu xalqları öz tərəfinə çəkmək üçün əvvəlcə bu xalqları bacarıqlı əllərlə saxlamaq lazımdır, əks-halda o sürüşə bilər. Məgər mənim keçmiş general olmağım məni xalqına xeyir vermək istəyənlərin cərgəsindən silməlidirmi. Kasıb poçt məmurunun oğlu mən çətinliklə özümə yol açmışam və bu mənə ziyanmı gətirməlidir. İş verib, yoxlayın, əgər yararsız olsam, onda məni heç nəyə yaramayan alaq otu kimi birdəfəlik həyatdan məhrum edin. İndisə mən Şərqin (İran, Türkiyə) əla bilicii kimi bu istiqamətlərdə iş xahiş edirəm… 11-ci ordunun inqilabi hərbi şurasına çatdırasınız ki, mən iş istəyirəm. Mən Gürcüstanı və Ermənistanı da əla tanıyıram. Mən Baş Qərargah işçisi kimi əvvəl olduğutək mühazirələr oxuya bilərəm. Bir sözlə istənilən hərbi istiqamətdə işləyə bilərəm. Əgər hansı fikirlərə görəsə məni burada, yerdə işə təyin etmək olmazsa, yaxud İran və Türkiyədə, onda çox xahiş edirəm məni keçmiş generallar Mehmandarov və Şıxlinski kimi mərkəzin sərancamına göndərəsiniz. Güman edirəm ki, orada mən Rusiyanın ümumi quruculuğuna öz payımı verə bilərəm. Hər halda mənə qarşı

yazığınız gəlməsini istəmirəm, çünki mən özümü heç nədə günahkar saymıram, mənim işim üzrə məqsədəuyğun və təcili qərar çıxarmazdan əvvəl, mənə işə vərdiş etmiş şəxs kimi yanaşasınız, 3 ay yarım ərzində bu edilməyib. Həbib Səlimov".

Az.FK isə onun barəsində məlumatlar toplamaqda yenə də bütün kanallarından istifadə etməkdə idi. Məqsəd yalnız general Səlimovla əlaqədar nəzərdə tutulan qərarın çıxıralması deyil, həm də o dövrün təbirincə desək onun rəhbərlik etdiyi əksinqilabçılar şəbəkəsinin müəyyənləşdirilib tamamilə ləğv olunması idi. Az.FK-nın 60 saylı gizli agentinin məlumatından: "25 oktyabr 1920-ci il. Məmməd Rəsulun danışdığına görə, bir qrup müsəlman Nuri Paşanın və general Səlimovun rəhbərliyi altında işləyir. Mərkəzi komitə Temirxan Şurada yerləşir. Hazırda keçmiş yunker zabitləri Temirxan Şuraya göndərirlər. Agentlər Rəşt, Ənzəli şəhərlərində yerləşir, tək-tək Hacıqabulda, Lənkəranda var və ümid edirlər ki, hər yerdə təşkilatları var."

Bir vaxtlar isə Həbib bəyə hərbi mütəxəssis kimi işə cəlb olunmaq üçün Bakıda ayrıca mənzil verməyi zəruri sayırdılar. Bakı mənzil şöbəsinə 11-ci ordunun piyada müvəkkilliyinin tədris hissəsindən: "Tədris hissəsinin əməkdaşı Səlimovun vəziyyəti barədə təcili cavab verməyinizi xahiş edirəm. Səlimova tədris proqramı və planlarının hazırlanması kimi tamamilə təcili işlər həvalə olunub. Mənzilin olmaması işi tam tormuzlayır. Hərbi komissarın müavini, tədris hissəsinin rəisi, 23. 05. 1920".

Keçmiş genaral Səlimov Həbib Yusif oğluna əksinqilabi fəaliyyətinə görə aşağıdakı ittihamlar irəli sürülür:

1. Müsavat ordusunu Bakı Möhkəmləndirilmiş rayonunda döyüş hazırlığı vəziyyətinə gətirməklə sovet hakimiyyəti əleyhinə ona komandanlıq etməkdə.

2. Gəncədə üsyan zamanı sovet Azərbaycanından qaçmaqla Muğanda İran tərəfdən qırmızı ordu ilə mübarizə üçün üsyançı dəstələrin hazırlanması.

3.1919-cu ildə Muğanın inqilabçı kəndlilərinin tərksilah edilməsi (istintaq onu əhalinin soyulması hesab edib).

Bu cinayətlərin müqabilində qərar alınır: "İrəli sürülən ittiham, Səlimovun sovet hökumətinə qarşı digər cinayətkar hərəkətləri kimi təsdiq olunmuşdur. Qərara alındı: Səlimov Həbib Yusif oğlu güllələnsin. Ondan müsadirə olunan şeylər Respublikanın gəlirinə müsadirə olunsun. Akt işlə bərabər arxivə verilsin. Əsli 11-ci ordunun Xüsusi şöbə rəisi Pankratov və böyük müstəntiq Qubin tərəfindən imzalanmışdır".

11-ci ordu hərbi inqilabi şurasının yanında Xüsusi şöbənin müstəntiqi Kovalyev Səlimov Həbib Yusif oğlunun əksinqilabda təqsirldəndirilməsi ittihamı ilə əlaqədar 1241 saylı işə baxaraq müəyyən edir:

"Səlimov 18-ci ilin martında Petroqadda Baş Qərargahın Akademiyasını bitirmişdir, keçmiş rus ordusunun podpolkovnikidir, Azərbaycan-müsavat əksinqilabi hökumətində general-moyor rütbəsi almışdır. 1920-ci ilin 24 martına qədər Azərbaycan ordusunun qərargah rəisi və Bakı Möhkəmləndirilmiş rayonunun rəisi olmuşdur, sonra isə Qarabağda qoşunlara komandanlıq etmişdir. Azərbaycanda sovet hakimiyyəti bərpa olunduqdan sonra Səlimov Azərbaycan qırmızı ordusunun qərargahına ezam edilmiş və 11-ci ordunun mühəndis-piyada hissəsində tədris şöbəsində müəllim iləmişdir. Səlimov eyni zamanda, Azərbaycanda sovet hökumətini devirməyi qarşısına məqsəd qoymuş əksinqilabi təşkilata rəhbərlik etmişdir. Bu təşkilatın Tiflislə, Vrangellə, Bakı quberniyasındakı əksinqilabçılarla və İranla

əlaqəsi olmuşdur. Bu təşkilat Vrangel və iri Bakı burjuaziyası tərəfindən maliyyələşdirilmişdir".

Vət. Qubinin genenral Səlimovun işi üzrə ifadəsindən: "Sovet hakimiyyəti əleyhinə Gəncə və digər üsyanların yatırılmasından sonra bu üsyanlarda sözsüz fəal iştirk etmiş Səlimov həbs ediləcəyini bilib 27 mayda Bakıdan xaincəsinə İran vasitəsilə Naxçıvana Nuru paşanın və Zeynalovun şəxsində əksinqilabi Türk zabitlərinin toplaşdığı qərargaha qaçmışdır. Öz sözünə görə Naxçıvana bu il 30 iyunda gəlmişdir. İrana gedərkən yolda Səlimov quldur dəstələri təşkil etmiş, qırmızı ordu hissələrinə kütləvi basqınlar təşkil etmişdir. Nəticədə ordu canlı qüvvə, silah və atlar itirmişdir. Naxçıvanda Səlimov Nuru paşa və ingilislərlə əlaqəsi olan, onlardan maddi kömək alan Zeynalovun dəstələrinin bütün əksinqilabi hissələrini birləşdirmiş, özünü əvvəlki titulu ilə general adlandırılmağa başlamışdır. (Səlimovun ifadəsi və Xüsusi şöbə əməkdaşının raportu). Naxçıvan istiqamətində cəbhə xəttindən əlavə bu dəstə qarşısına sovet Azərbaycanına daşnakların və Gürcüstanın hücumu zamanı Bakı-Tiflis yolunu kəsmək məqsədi qoymuşdu. Naxçıvanda olduğu vaxt Səlimov bütün vaxt xanlar və bəylərlə ittifaqla sovet hakimiyyətinə və qırmızı orduya qarşı satqınlıq etmiş, yerli əhalini onun əleyhinə çevirmşdir. Naxçıvanda sovet hakimiyyətinin bərpa olunmasının qarşısının alınmasına cəhd sözsüz ki, Səlimov tərəfindən aparılmışdır. Naxçıvanda sovet hakimiyyətinin bərpa olunması ilə bu il 27 iyul o, hansı yollasa hərbi komissar, Naxçıvan iqilabi komitəsinin üzvü, hətta sədrin müavini olmuşdur. Ancaq Naxçıvan iqnilabi komitəsinin ilk təşkilatı özünün növbəti 22 avqust tarixli iclasında partiya yoldaşlarının məruzələri ilə genaral Səlimovun əksinqilabi fəaliyyəti haqqında məlumat alaraq qərar çıxarmışdır: onu həbs etmək və inqilabi hökumətə təhvil

vermək. İfadəsində Səlimov özünə haqq qazandırır və özünü sovet hakimiyyətinə qarşı təmiz sayır və fakt kimi onu 1919-cu ildə guya Könüllü Ordunun qəti əleyhdarı adlandırmalarını misal gətirir. Ağqvardiyaçı praporşik Dubininin Port-Petrovsk müdafiəsinin rəisinə raportundan göründüyü kimi 1919-cu ildə dəstəyə şəxsən rəhbərlik etməklə Muğan əhalisini tərksilah etmiş, 22 top, 27 pulemyot və s. müsadirə etmişdir, nəticədə müqavimət göstərməyə qadir Muğan əhalisi müsəlmanlar və quldurlar tərəfindən soyularaq müqavimət göstərməyə qabil olmayan vəziyyətə salınmışdır. Əhali və zabitlərlə söhbətlərində o, Könüllü Ordu ilə iş həmrəyliyindən danışmış və zabitləri özünün əksinqilabi Müsavat hökumətinə cəlb etmək üçün dilə tutmuşdur. General Səlimov əksinqilabi fəaliyyətdə günahlandırılır, ona görə ki, o, əksinqilabi Müsavat hökumətində sədaqətlə xidmət göstərməklə general-mayor rütbəsi almış, məsuliyyətli vəzifə tutmuş və rəhbər, hökumətin sağ əli olmuşdur. Könüllü Ordu və Azərbaycanda sovet hakimiyyətini devirməyə çalışan əksinqilabi təşkilatlarla əlaqələri olmuş, qırmızı ordu sıralarında məsul postda olarkən fərarilik etmiş, İran quldurları tərəfindən hücum təşkil etməklə qırmızı ordunun itkilər verməsinə səbəb olmuş, Naxçıvanda əksinqilabi dəstələr təşkil etmiş bu qüvvələri sovet hakimiyyətinə qarşı yönəltmiş, əhali və ordunun əsgərləri arasında antisovet təbliğatı aparmışdır. Öz cəldliyinə ümid edərək, yenidən Fəhlə-kəndli hökumətini aldadacağını düşünərək və güman etmək olar ki, əksinqilabi məqsədlə hərbi komissarlığa nail olmuş, Naxçıvan hərbi inqilabi komitənin üzvü və hətta sədrin müavini olmuşdur. Bütün bunları sübut hesab edir və şüurlu əksinqilabçı general Səlimova qaşı ən yüksək cəza "güllələnmə" tətbiq edilməsini zəruri hesab edirəm. Hərbi müstəntiq Kovalyev."

11-ci ordu Xüsusi şöbəsinin rəisi Pankratov, böyük müstəntiq Qubindən ibarət üçlük tərəfindən Həbib bəy barəsində ən yüksək cəza tətbiq edilməsi ilə bağlı 19 dekabr 1920-ci ildə 12 saylı protokol tərtib edildi və bu zaman ÜFK-nın xüsusi şöbəsinin 7 mart 1920-ci il 1237/ş 2955 saylı əmri əsas götürüldü.

Beləliklə, Azərbaycanın görkəmli generallarından biri - Həbib bəy Səlimov bolşevik cəza maşınının qanlı pəncəsində ölümə məhkum edildi. Vətəni canından əziz tutan fədakar general 1920-ci il dekabrın 30-da saat 10.30 dəqiqədə milli xəyanət yolu tutmuş bolşeviklərin 11-ci ordunun tərkibində Azərbaycana gəlmiş havadarları tərəfindən güllələndi.

General Süleyman bəy Əfəndiyev

"Bu gün Ağdamdan Azərbaycan 1-ci piyada diviziyasının rəisi general-mayor Əfəndiyevin səpmə yatalaq xəstəliyindən vəfat etməsi haqqında kədərli telrqram alınmışdır. 1917-ci il fevral çevrilişindən sonra general-mayor (o vaxt polkovnik) Əfəndiyev həm ictimai təşkilatlarda, həm də vətənin maraqlarının müdafiəsində yorulmadan çalışaraq var qüvvəsi ilə xalqına xidmət etməyə başladı. Yeri gəlmişkən, qeyd edək ki, Gəncədə mərhum tərəfindən gələcək Azərbaycan qoşunları üçün təlimatçılar hazırlayacaq tədris dəstəsi yaradlmışdı. Bu kiçik dəstə polkovnik Əfəndiyevin şəxsi rəhbərliyi altında vətənimizin mərkzi olan Gəncənin anarxiyadan qorunması, eşalonların tərksilah edilməsi, bu şəhərdə xalq əmlakının müdafiəsində mühüm rol oynamışdı.

Müsəlman Korpusunun təşkli zamanı polkovnik Əfəndiyev Gəncədə yerləşən keçmiş beşinci Müsəlman alayının komandiri təyin edildi. Tiflisdəki müxtəlif məsuliyyətsiz təşkilatların açıq mübarizəsi və rəsmi dairələrin Müsəlman Korpusuna qarşı məharətlə gizlədilən mənfi münasibəti, keçmiş Zaqafqaziya Respublikasının təchizat müəssisələrindən nəsə almağın son dərəcədə çətin olduğu bir vaxtda polkovnik Əfəndiyev öz bacarığı və doğma işə sevgisi ilə, heç bir məhdudiyyət tanımadan Tiflis Ləvazimat İdarəsindən alayına ayrılmış əmlakın böyük hissəsini əldə etməyə və Gəncəyə gətirməyə nail olmuşdu.

Könüllülərdən təşkli olunmuş beşinci atıcı alay hərbi idarəyə həm toplantıda, həm fərarilərin tutulmasında köməklik göstərəcək yerli hakimiyyətin mövcud olmadığı bir şəraitdə əksəriyyəti normal geyimli, tox və qaneedici səviyyədə təlim görmüş əsgərlərdən ibarət idi. Alay komandiri yalnız əsgərlərə

deyil, zabitlərə də qayğı göstərirdi. Polkovnik Əfəndiyev onlar üçün ucuz yeməkxana təşkli etmişdi. Azərbaycan Korpusunun piyada hissələri müvəqqəti buraxılanda polkovnik Əfəndiyev Qərargaha çoxlu əmlak və xeyli ərzaq ehtiyatları təhvil verdi. Bundan sonra Qarabağ 2-ci süvari alayının komandiri təyin olunan polkovnik Əfəndiyev bir çox çətinlikləri adlayaraq alayı həqiqi hərbi hissəyə çevirdi və əla vəziyyətdə hərbi nazirə təqdim etdi.

Hərbi nazir tərəfindən polkovnik Əfəndiyevə bu il yanvar ayının 6-da general-mayor rütbəsi verilməklə 1-ci piyada diviziyasının rəisi təyin edildi.

General Əfəndiyev hazırkı vaxtda dinclik bilmədən, özünə acımadan diviziyanın təşkil olunması kimi çətin işə başlamışdı, Azərbaycanın ən vacib bölgəsində hərbi hissələrin qurulmasına, qayda-qanun yaradılmasına çalışırdı.

Öz diviziyasının sanitar vəziyyətindən narahat olan general Əfəndiyev hərbi xəstəxananın təşkilinə şəxsən rəhbərlik edir, daim xəstələrə baş çəkərək, tez-tez onların arasında olur, bəzən xoş sözlərlə, bəzən rəhbər tələbkarlığı ilə onların dərdinə şərik olurdu. Qayğıların çoxluğundan özü barədə düşünməyə macal tapmırdı, səpmə yatalaq xəstəliyinə yoluxdu və ölümü postdakı əsgər kimi qarşıladı. Məzarın nurla dolsun, Vətənin mərd oğlu, usanmaz döyüşçü!

Vəfat etmiş general Əfəndiyevin Batum şəhərində yaşayan ailəsi tam vəsaitsiz qalmışdır. Böyük oğlunun ölüm xəbərini alsa da, o, üzərinə düşən vəzifələrin böyük əhəmiyyətini düzgün qiymətləndirərək, öz postunu tərk etməmişdi.

Əmr edirəm mərhumun dəfni ilə bağlı bütün xərclər xəzinənin hesabına ödənilsin və ailəsinə 5000 rubl məbləğində birdəfəlik müavinət verilsin. Eyni zamanda, hazırda Bakıda

olan hərbi nazir qarşısında onun ailəsinə normal dolanması üçün pensiya ayrılması barədə vəsatət qaldırıram. Hərbi nazir vəzifələrinin müvəqqəti icraçısı general-leytenant Şıxlinski, Baş Qərargahın Ümumi Qərargah rəisi polkovnik Səlimov".[220]

Bu, Azərbaycan Respublikası Hərbi Nazirliyi üzrə 21 fevral 1919-cu il tarixdə Gəncə şəhərində imzalanan 89 saylı əmrin tam mətnidir. Bundan 1 gün sonra nazirliyin eyni vəzifə sahibləri tərəfindən imzalanan 93 saylı əmrdə isə bildirilirdi ki, 1-ci piyada diviziyanın rəisi mərhum general-mayor Əfəndiyevin nəşinin Ağdamdan Gəncəyə gətiriləcəyi, nəşin vağzalda qarşılanaraq Şah Abbas məscidinə və oradan dəfn üçün müşayiət olunması zamanı hərbi ehtiram göstərilməsi məqsədilə Praporşiklər məktəbindən bir yunkerlər bölüyü, musiqi orkestri ilə, 1-ci Tatar süvari alayından 100 nəfər süvari və birinci yüngül artilleriya divizionundan bir taqım, lazımi qədər zabitlə birgə ayrılacaqdır. Fəxri qarovula (növbəyə) podpolkovnik Kəsəmənski komandirlik edəcəkdi. Vaxt, göstərilən hissələrin vağzala gəlmə saatı barədə əlavə məlumat veriləcəkdi.[221]

Ancaq bu əmrdən sonra da mərhum general Süleyman bəy Əfəndiyevin həyat yoldaşı Laləndar xanımın ərinin Gəncədə deyil, Qazax qəzasında dəfn olunması xahişi ilə əlaqədar 3-cü, 26 fevral 1919-cu il tarixli 100 saylı əmr də imzalanmışdı. Bu əmrdə göstərilirdi ki, həyat yoldaşının xahişi nəzərə alınaraq, mərhum 1-ci piyada diviziyanın rəisi, general-mayor Əfəndiyev Gəncədə deyil, Qazax qəzasında dəfn olunacaqdır.[222]

Azərbaycan Cümhuriyyəti ordusunun qurulmasında mühüm xidmətləri olan, barəsində bu qədər xoş sözlər deyilən

220 ARDA, f. 2894, s.6, iş 1, v. 101
221 ARDA, f. 2894, s.6, iş 1, v. 102
222 ARDA, f. 2898, s. 2, iş 1, v. 77

general-mayor Süleyman bəy Əfəndiyev kim idi? Bugünki nəsil istənilən xalqın qürur duya biləcəyi bu peşəkar hərbçi, vətənpərvər insan haqqında nə bilir? Açığını deyim ki, bəzi tədqiqatçılarımız tərəfindən əldə olunmuş cüzi məlumatlar istisna edilməklə çox az şey. Xüsusilə Süleyman bəyin həyatının ilk dövrləri, Birinci dünya müharibəsi zamanı hansısa döyüşlərə qatılıb-qatılmadığı, hərbi xidmətdən ayrıldıqdan milli hərbi hissələrin təşkilində iştiraka qədərki fəaliyəti və s. barədə araşdırılası çox məsələlər var. Məncə, tədqiqatını gözləyən arxiv sənədləri ilə yanaşı, bunların bir qisminə onunla eyni dövrdə hərbi xidmət yolu keçmiş və ya şəxsi tanışlığı olan görkəmli şəxsiyyətlərimizin yazdıqları əsasında da işıq tutmaq mümkündür.

Məsələn onun vəfatı ilə bağlı "Azərbaycan" qəzetinin 3 mart 1919-cu il nömrəsində dərc olunmuş "Möhtərəm bir generalın ölümü" nekroloq-məqalədə yazılanların azacıq incələnməsi ilə. "Süleyman bəy Rusiya inqilabından sonra Zaqafqaziya islamçılarının hərbi təşkilatında qiymətli bir üzv olaraq çalışmış və çalışdığı işlərdə böyük bir əzm və səbat göstərmişdir.

Gəncədən Tərtərə getmiş və orada islam təşkilatlarını müvəffəqiyyətlə ikmal etmişdir. Sonra Qarabağa Ağdama gələrək ifayi-vəzifə xüsusunda böyük bir qabiliyyət və qeyrət göstərmişdir. Süleyman bəy hiss və fikircə çox nəziz və təmiz adam idi".

Bu, Süleyman bəyin Müsəlman Korpusunda mühüm vəzifə tutmasını və hərbi hissələrin təşkili ilə bağlı Gəncədə, Tərtərdə, Ağdamda hazırlıq işləri apardığını təsdiq edir.

Artıq təsdiqini tapmış məlumatlar isə aşağıdakılardan ibarətdir.

Süleyman bəy Əlisüleyman oğlu Əfəndiyev 1864-cü il oktyabr ayının 5-də Ağdamda dünyaya gəlmişdir. İlk təhsilini Gəncədəki progimnaziyada almışdır. 1880-ci ildə ilk təhsilini tamamlayan Süleyman bəy elə həmin il Yelizavetqrad (İndiki Kirovoqrad şəhəri) süvari məktəbinə daxil olmuş və 1885-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Süleyman bəy hərbi xidmətə Qafqaz süvari ordusunun polis nəzarəti idarəsində başlamış, iki il sonra, mayın 18-də ona kornet-zabit rütbəsi verilmişdir. Eskadron komandiri olan Süleyman bəy Əfəndiyev nümunəvi xidmətinə görə 1899-cu il martın 15-də rotmistr rütbəsinə layiq görülmüşdür. Süvari fəxri adı verilən Süleyman bəy 1900-cü ildə üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunmuşdur.

1907-ci il fevralın 28-də Zaqafqaziya polis keşikçi dəstəsinin Kutaisi quberniyası üzrə baş nəzarətçisi təyin olunanadək onun xidmət yeri bir neçə dəfə dəyişdirilmişdir.

Süleyman bəy Əfəndiyevə 1912-ci il dekabrın 6-da polkovnik rütbəsi verilmişdir. Xidməti vəzifələrini daim qüsursuz yerinə yetirən, bilik və bacarığını əsirgəməyən Süleyman bəy "Müqəddəs Anna" və "Müqəddəs Vladimir"

ordenlərinin üçüncü, "Müqəddəs Stanislav" ordenin ikinci dərəcəsi ilə təltif olunmuşdur.

1917-ci ilin fevral çevrilişindən sonra Müvəqqəti hökumətin bütün səylərinə və Birinci dünya müharibəsini davam etdirən müttəfiqlərinə verdiyi vədlərə baxmayaraq, Qafqaz cəbhəsinin faktiki dağılması prosesi başlandı. Bu zaman başıpozuq vəziyyətə düşən Qafqazdakı Rusiya ordusunun buraxılmaqdan başqa çarəsi qalmadı. Bir çox azərbaycanlı general və zabitlər kimi S.Əfəndiyev də rus ordusundan istefa verməli oldu. Beləliklə, polkovnik Süleyman bəy Əfəndiyevin Rusiya imperiya ordusundakı hərbi xidməti 1912-ci ildə təyin edildiyi Əlahiddə Qafqaz ordusunda Zaqafqaziya polis keşikçi dəstəsinin təftiş-yoxlama üzrə baş nəzarətçisi vəzifəsində başa çatdı.

Keçmiş imperiyanın dağılmasından sonra Cənubi Qafqazda yaranmış vəziyyət Süleyman bəyi də düşündürməyə bilməzdi. Bir hərbçi kimi özünü siyasətdən, siyasi məsələlərdən nə qədər uzaq tutsa da, sürətlə cərəyan edən proseslərin Vətəninə, soydaşlarına hansı təhlükələr gətirə biləcəyini yaxşı görürdü. Xüsusilə dağılan Qafqaz cəbhəsinin silah-sursatının kimlər tərəfindən ələ keçirildiyindən, gələcəkdə hansı məqsədlərlə istifadə edilə biləcəyindən xəbərdar idi. Həm də doğulduğu Qarabağ torpağında baş verən hadisələr, ermənilərin planları və silahlanmaları barədə kifayət qədər məlumatlı idi. Ona görə də hələ Azərbaycana gəlməmişdən qəti qərar vermişdi. Nə qədər çətin də olsa, imperiya ordusunun tərkibində müharibə cəbhələrində iştirak etmiş həmyerlilərin köməyi ilə hərbi hissələr yaratmaq lazımdır. İlk belə hissələrin zabit heyəti Birinci dünya müharibəsi döyüşlərində ad çıxarmış Tatar süvari diviziyasının adlı-sanlı qəhrəmanlarından formalaşdırıla bilərdi.

Bu fikirlərlə Gəncəyə qayıdan Süleyman bəy milli hərbi hissələrin təşkili sahəsində işə başladı. Bu zaman Bakıda daşnak-bolşevik qaragüruhunun mövqeləri daha güclü olduğundan Gəncə əslində Azərbaycanın milli mübarizəsinin mərkəzi rolunu oynayırdı. Burada fəaliyyət göstərən Milli Komitə Vətənin gələcəyi naminə iş görməyə qadir və niyyətli olan hər kəsi öz ətrafında toplaya bilmişdi. Rusiyanın parçalanması nəticəsində yaranmış şəraitdən yararlanaraq Azərbaycanın siyasi taleyinin müəyyənləşməsində mühüm rol oynamış millət başbilənləri arasında 1917-ci ilin son ayları, 1918-ci ilin əvəllərində bu şəhərdə fəaliyyət göstərən Nəsib bəy Yusibəyli, Xəlil bəy Xasməmmədov, Xudadat bəy Rəfibəyli, Məmmədbağır bəy və Nağı bəy Şeyxzamanlı qardaşları və başqaları vardı. Azərbaycanın müdafiəsi üçün gərək olacaq hərbi qüvvələrin yaradlmasına da bu şəxslər bacardıqları maddi və mənəvi köməkliyi göstərmişdilər. Xüsusilə rus eşalonlarından silah-sursatın məcburən alınmasında, silahlı dəstələrin formalaşdırılması üçün könüllülərin cəlb edilməsində, yer və ərzaq sarıdan problemlərin aradan qaldırılmasında Məmmədbağır bəy və Nağı bəy Şeyxzamanlı qardaşları Süleyman bəy Əfəndiyevə az yardım etməmişdilər. Xüsusi hərbi hazırlıq keçilməsi məqsədi ilə hərbi məktəbin açılmasında da həmin yardım olunmuşdu.

Əlbəttə, bir əsrdən artıq müddətdə çar rejimi tərəfindən məqsədli olaraq orduda xidmətdən kənarda saxlanılmış azərbaycanlılardan ibarət hərbi hissələrin təşkili asan məsələ deyildi. Bütün problemlərlə yanaşı, mütləq əksəriyyəti hərbi xidmət, təlim, əsgəri nizam-intizam görməmiş, ov tüfəngindən başqa heç bir silahla nəinki davranmağı bacaran, hətta tanımayan adamlara hərb işini öyrətmək əslində çox çətin idi. Bunu yalnız xalqını, torpağını ürəkdən sevən, həqiqi

vətənpərvər olan Süleyman bəy Əfəndiyev kimi təmkinli insanlar bacara bilərdilər.

Süleyman bəysə doğma vətənə məhz bu məqsədlə gəlmişdi, gələcək Azərbaycan milli ordusunun ilk hərbi hissələrini yaratmaq və əliyalın xalqı hər an fürsət güdən düşmənlərindən qorumaq. O, bu müqəddəs işə əslində Gəncəyə gəldiyi 1917-ci il iyul ayından başlamışdı. Ancaq həmin ilin sonlarında bölgədə gedən proseslər nəticəsində Rusiyadan birbaşa asılılığı olmayan yeni hökumətin – Zaqafqaziya Komissarlığının elan olunması milli hərbi birləşmələrin təşkilini gündəmə çıxardığından bu sahədə fəaliyyətə nisbətən münbit şərait yaranmışdı.

“Möhtərəm bir generalın ölümü” nekroloqundan: “Müəyyən bir vəzifə ilə mavərayi - Qafqaz hökuməti tərəfindən ezam edilmiş idi, vəzifəsi isə təşkil ediləcək süvari milis alayı üçün kiçik zabitlər yetişdirmək idi. Mərhum Gəncə şəhərinə varid olan kimi Gəncə Müsəlman Milli Komitəsinə təşrif gətirərək bəyanat verdi. Və Azərbaycan türklərinin qəvay əsgəriyyəsi olması və buna əşd ehtiyac xüsusunda izahat verərək əlavə etdi ki, əgər bu məsarifi Gəncə Milli komitəsi öz öhdəsinə götürərək qəvay əsgərliyə təşkili əsasına ibtidar etmək arzusunda bulunarsa, məalməmnuniyyə bu xüsusda heç bir fədakarlıqdan çəkinməyəcəkdir Milli komitə işə başladı. Yüz əlli nəfərlik gecə-gündüz olaraq bir məktəb hərbiyyə güşadına qərar verdi. Bu miqdan Gəncə vilayəti qəzaları arasında nüfuz etibarı ilə təqsim edərək namizədlər və onların məsariflərini göndərmək xüsusunda cümlə qəzaların Milli komitələrinə müraciət etdi. Bəzi qəzalardan mütəllimlər göndərildi, lakin məsarif üçün para gəlmədi. Bəzi komitələr tərəfindən para göndərildisə, nəhayət, az miqdar. Mərhum Süleyman bəy çalışmağa başladı. Pulsuzluq, aclıq, əlbəsizlik

onu məyus etmədi, qorxutmadı. Hətta özü 1917-ci sənə avqustun əvvəlindən vəzifəyə başladığı halda 1918-ci sənənin şəbat ayında keçmiş maaşlarını almaq üçün özü utanıb bəndəni vasitə etdi. Bu qədər müddət öz hesabına xidmət etdikdən sonra yenə maaş istəməyi özünə bir müşkül əmr hesab ediyordu. Gəncədə anarşi başlandı, cümlə mülki və hərbi məmurlar dəxi qarətkarlara, talançılara iltihaq etdilər. Kimsə kimsəni tanımaq istəmədi, kimsə kimsəyə itaət etmədi, şübhə etmək olur ki, düz, doğru, qeyrət və namuslu şəxslər tapılmayacağı bir dərəcəyə gəldi. Mərhum Əfəndiyev gündüzlər ac, gecələr uyğusuz öz cavan müəllimləri ilə şəhərin hərastına, şəhərdə əmin-asayişi əmələ rəyə gedilsə, Süleyman bəy görünürdü. Özü namus və qeyrətli, mütəllimləri düz, doğru... Gəncədə qəvay əsgəriyyə təşkilinə başlandı. Mərhum Süleyman bəy beşinci alay komandanlığına təyin edilərək yenidən Gəncəyə təşrif gətirdi. Yenə fəaliyyətə, fədakarlığa başladı.”.

Bu məlumatlar Süleyman bəyin ilk dəfə Azərbaycan ərazisində könüllülərdən ibarət bir Gəncə süvari alayının təşkil etdiyini və könüllülərin xidmətə hazırlanmaları ilə məşğul olan tədris dəstəsi yaradığını təsdiqləyir. Bu dəstə gələcəkdə açılacaq hərbi məktəblərin qaranquşu idi. Görkəmli sərkərdə təsadüfən təlim-tədris məsələlərini xüsusi diqqətdə saxlamırdı. Bu həm xidmətə təzə başlayanların öyrədilməsi, həm də az da olsa ixtisaslı hərbçi kadrların yetişdirilməsinə şərait yaradılması məqsədi güdürdü.

Bəzi məlumatlara görə, Süleyman bəy Əfəndiyev Ağdamda Pulemyotçu kiçik zabit məktəbi də yaradıbmış. Zabitlərin tələbələrlə birlikdə çalışıb öyrəndiyi bu hərbi məktəbdə general Süleyman bəy Əfəndiyev də onlarla birlikdə torpağa uzanaraq təlim keçirmiş.

Süleyman bəy bolşevik-daşnak qoşunlarının Azərbaycanın yeni yaranan müstəqil dövlətini məhv etmək məqsədi ilə Gəncə üzərinə hücumunun dəf edilməsində və Bakının azad olunmasında Qafqaz İslam Ordusunun apardığı döyüşlərdə fəal iştirak edib. Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyinin təşkilinədək Süleyman bəy Tərtərdə yerləşən formalaşdırılmasına böyük əmək sərf etdiyi, bir sıra əməliyyatlarda özünü göstərmiş 2-ci Qarabağ süvari alayının komandiri olub.

Süleyman bəyin Cümhuriyyət ordusundakı xidmətləri barədə bu gün əldə olunmuş məlumatlar da yetərincə deyil. Əvvəla, bu onun çox qısa müddətdə milli ordu sıralarında olması, ikincisi isə tutduğu vəzifələrlə bağlı rəsmi sənədlərdə adının nisbətən az keçməsi ilə bağlıdır. Belə ki, nazir yanında tapşırıqlar üzrə general vəzifəsində olarkən, yaxud 1-ci piyada diviziyasının rəisi kimi o, daha çox tapşırıqların icrası və hərbi hissənin təşkli ilə məşğul idi.

Azərbaycan Respublikasının Hərbi Nazirliyi üzrə 4 saylı əmr, paraqraf 4. Gəncə, 3 yanvar 1919-cu il. “Hərbi Nazirlik yanında tapşırıqlar üzrə general vəzifəsində olan polkovnik Əfəndiyevə Nazirlər Şurasının 29 dekabr 1918-ci il tarixli qərarı ilə tutduğu vəzifəyə təyin olunmaqla və süvari qoşunlarına daxil edilməklə general-mayor rütbəsi verilib”.[223]

Bu, Azərbaycan Respublikasının ilk milli ordu generalı rütbəsi ilə təltifi idi.

Azərbaycan Respublikasının Hərbi Nazirliyi üzrə 22 saylı əmr. Gəncə, 14 yanvar 1919-cu il. “Tapşırıqlar üzrə general, general-mayor Əfəndiyev bu ilin yanvar ayının 6-dan 1-ci piyada diviziyasının rəisi təyin olunur. Podpolkovnik

223 ARDA, f. 2894, s. 6, iş 2, v.4

İsrafilov bu ilin yanvar ayının 12-dən 1-ci Cavanşir alayının komandiri təyin olunur”.[224]

Birinci piyada diviziyasının komandiri Süleyman bəy Əfəndiyev həmin gündən vəfat etdiyi vaxtadək son dərəcədə mühüm strateji mövqelərin müdafiəsinə cəlb olunmuş bu hərbi hissənin yenidən təşkili üçün yenə bütün qüvvəsi ilə, fədakarlıqla çalışmağa başladı. Diviziyanın qarşısına qoyulmuş vəzifələri əslində zaman özü diqtə edirdi və işlərin hər hansı şəkildə ləngiməsi Azərbaycana böyük itkilər hesabına başa gələ bilərdi. Söhbət Qarabağda, Zəngəzurda ermənilər tərəfindən hər gün törədilən qanlı hadisələrin qarşısının alınmasından, yerli azərbaycanlı əhalinin müdafiəsinin təmin olunmasından gedirdi. Bu diviziya həmin ərazilərdə fasiləsiz xarakter alan erməni təcavüzkarlığının qarşısının alınmasında əsas qüvvə sayılırdı. Yeri gəlmişkən, qeyd edək ki, Xankəndi və Şuşa qarnizonlarının işinin təşkilinə də əslində bu divizaya məsuliyyət daşıyırdı. Bunun üçünsə, diviziya qısa müddətdə formalaşdırılmalı, döyüş qabiliyyəti artırılmalıydı. Ölkə üçün taleyüklü vəzifənin general Süleyman bəy Əfəndiyev tərəfindən necə yerinə yetirildiyini 1-ci piyada diviziyasının 1919-1920-ci illərdə apardığı uğurlu hərbi əməliyyatlar aydın göstərdi. Həmin dövrdə xüsusilə Qarabağda əldə olunan qələbələrdə Süleyman bəyin danılmaz əməyi vardı.

Hərbi nazirin vəzifələrinin müvəqqəti icraçısı general-leytenant Ə.Şıxlinskinin 27 yanvar 1919-cu ildə imzaladığı 52 saylı əmrlə Daxili İşlər Nazirliyində Hərbi mükəlləfiyyət üzrə Mərkəzi təşkilatın sədri, general-mayor, Şahzadə Əmənulla Mirzə Qacar Azərbaycan Respublikası qoşunlarına hərbi xidmətə qəbul edilmiş və Xankəndi qarnizonunun rəisi vəzifələrinin həvalə edilməsi ilə 1-ci piyada diviziyasının rəis

224 ARDA, f. 2894, s. 6, iş 2, v.15

müavini təyin olunmuşdu. Həmin əmrlə ona eyni zamanda, Şuşa qarnizonunun işinə hər baxımdan nəzrət etmək də həvalə edilmişdi. [225]

Bu əmr bir daha göstərir ki, 1-ci piyada diviziyasının xidməti vəzifələrinin məsuliyyəti çox yüksək idi.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü, jurnalist, hüquqşünas, rus dilində nəşr edilən «Azərbaycan” qəzetinin redaktoru, daxili işlər nazirinin müavini olmuş Şəfi bəy Rüstəmbəyov “Azərbaycan” qəzetinin 1919-cu il 5 mart tarixli 48-ci nömrəsində dərc olunmuş “General Süleyman bəy Əfəndiyev” məqaləsində yazırdı: “Tanınmış ictimai xadim, Azərbaycanın ilk hərbi hissələrinin təşkilatçısı General Süleyman bəy Əfəndiyev xidməti vəzifələrinin icrası zamanı yoluxduğu səpmə yatalaq xəstəliyindən fevralın 21-də Ağdamda vəfat etmişdir. Mərhum Əfəndiyev hələ polkovnik ikən fevral inqilabından sonra öz işini Gəncəyə keçirtmiş, və burada onun tərəfindən gələcək Azərbaycan ordusu üçün təlimatçılar hazırlayacaq ilk təlim komandası təşkil edilmişdir. Bütün ölkə ərazisinin anarxiya və hərc-mərcliklə əhatə olunduğu, eləcə də ötüb keçən eşalonların vətənimiz üçün təhlükə törətdiyi vaxtlarda mərhum generalın başçılıq etdiyi kiçik bir dəstə ölkənin qorunmasını öz üzərinə götürmüş yeganə mütəşəkkil qüvvə olmuş və o, Şamxor hadisələri zamanı hərbi hərəkata başçılıq etmişdir. Mərhum Əfəndiyev öz həyatını dəfələrlə təhlükələrə ataraq ömrünü tamamilə vətənə xidmətə həsr etmişdir. Mərhum Gəncə milli komitəsinin işində bilavasitə iştirak edərək komitənin bütün ciddi çıxışlarının fədakar icraçısı olmuşdur. Şamxor hadisələri günlərində mərhum Süleyman bəy gecə və gündüz döyüş meydanını tərk etməyərək hücum edən eşalonlara qarşı

225 ARDA, f. 2894, s. 6, iş 8, v. 2

döyüşmüşdür. O hərbi mülkiyyətin soyğunçulardan qorunub saxlanması yolunda da çox işlər görmüşdür. Onun yorulmaz və fədakarcasına fəaliyyəti nəticəsində çoxlu sayda hərbi əmlakın talan edilməsinin qarşısı alınmışdır.”.

Süleyman bəy peşəkar hərbçi olmaqla yanaşı, xalqın maariflənməsində də fəal iştirak edib. O, Qori seminariyasında oxuyan azərbaycanlı balalarının təhsili və güzəranı ilə daim maraqlanmış, onlara maddi köməyini əsirgəməmişdir. Süleyman bəy Tiflisdə azərbaycanlıların təşkil etdiyi mədəni-maarif cəmiyyətinin işində yaxından iştirak etmişdir.

Bəli, müasirlərinin dediyi kimi Süleyman bəy “hiss və fikircə çox incə və təmiz adam idi”. “General Süleyman bəy Əfəndiyev eyni zamanda, bütün Azərbaycan zabitləri arasında çalışması ilə, təşkilatçılığı ilə də birinci tanınıb bilinmiş bir zat idi. Əvət! Azərbaycan üçün bu ziya böyük bir ziyadır. Bu ziya qarşısında mütəəssir olmamaq qabil degildir.”.

Bunun təsdiqlərindən biri də Parlamentin 1919-cu il mart ayının 6-da keçirilmiş iyirminci iclasıdır. Parlamentin sədr əvəzi Həsən bəy Ağayev həmin iclası bu sözlərlə açmışdır: “növbədəki məsələyə keçməmişdən əvvəl özümə borc bilirəm ki, sizə əfzəl və ələmənkiz iki xəbər verim. Belə ki, sabiq Azəri türklər arasında iki qiymətli vücud: birisi sabiq Seym əzası və Milli Şuranın sədr müavini dəva vəkili Hidayət Seyidov 23 fevralda Ordubadda vəfat etdiyi; ikincisi general-mayor Süleyman Əfəndiyevin keçən ayın 21-də Ağdamda səpmə yatalaqdan vəfat etdiyidir. Əlbəttə, siz bunları tanıyırsınız. Birincisi: Mirhidayət Seyidov - ziyalılarımızın ən müstəid və ləyaqətlisi və çalışqanı idi. İkincisinin bizim əsgəri işlərimizdə böyük xidmətləri olmuşdur. Əlbəttə bunu da bilirsiniz. Mən təklif edirəm ki, əvvəla bunların əqrəbalarına təziyyat teleqramı göndərilsin; saniyən onların tərəhhüm ruhları üçün

Parlamentə ayağa qaxmağı təklif edirəm. (Hamı qalxır). Təklif də qəbul olunur”.[226]

Bu sayğı duruşu, göstərilən böyük ehtiram hər iki şəxsin Vətən, millət qarşısında əvəzsiz xidmətlərinin etirafı, onların qazandıqları əbədi minnətdarlığın təzahürü idi. Bu həm də gələcək nəsillərə, öz qəhrəmanlarını, fədailərini tanımaq üçün ötürülən, tez-gec mütləq ünvanına çatacaq mesaj idi.

Doğrudan da, Süleyman bəyin qəhrəmanlığı özündən sonraya yetişdi, Azərbaycan hərb tarixinə əbədi yazıldı. Bu, Azərbaycana şərəf gətirən insanın özü üçün də böyük bir şərəfdir.

226 Arxiv, f. 895, s. 7, iş 39, v. 1-36

General Əbdülhəmid bəy Qaytabaşı

General-mayor Əbdülhəmid bəy Qaytabaşı 1884-cü iliyul ayının 10-da Tiflis quberniyasında anadan olmuşdur. Əbdülhəmid bəy Şərif bəy oğlu Qaytabaşının ulu babası Əbdülməcid bəy XVIII əsrin sonlarında İstanbuldan Tiflisə köçmüşdür. Osmanlı ordusunda əsgəri birlik başçısı olan Əbdülməcid bəy tutduğu vəzifəyə uyğun olaraq Haytabaşı hərbi adı daşımışdır (Hayta Türkiyədə Bəyşəhər yaxınlığında Anamus dağlarında yaşamış böyük bir tayfanın adıdır. Tayfanın bir qolu sonradan Aydın ətrafına, digəri Çuxurobaya da yayılmışdır. Hayta həm də XVIII əsrin əvvəli XIX əsrin birinci yarısında Osmanlı paşalarının (general) yanında xidmət edən əsgəri birliyə verilən addır). Xidmətini Rusiya imperiyasının ordusunda davam etdirən Əbdülməcid bəyin adı təhrif olunaraq Qaytabaşı yazıldığından o, həmin vaxtdan bu soyadla tanınmışdır.

1835-ci il oktyabr ayının 26-da Tiflis şəhərində dünyaya gələn Əbdülhəmid bəyin atası Şərif bəy Qaytabaşı da hərbçi olub. 1890-cı il aprel ayının 19-da tərtib edilmiş "Tam xidmət kitabçası»ndan aydın olur ki, o, rus ordusunun Tiflisdəki Mərkəzi Qərargahının Dəftərxanasında Şərq dilləri üzrə tərcüməçi işləmişdir. Şərif bəy orduda podpolkovnik rütbəsinədək xidmət edib. Şərif bəy hərbi xidmətlərinə görə rus ordusunun dördüncü dərəcəli «Müqəddəs Vladimir», ikinci dərəcəli «Müqəddəs Anna», ikinci və üçüncü dərəcəli

«Müqəddəs Stanislav" kavaler ordenləri və bir neçə medalla təltif olunub.

Şərif bəy Qaytabaşı həyat yodaşı vəfat etdiyinə görə iki dəfə ailə həyatı qurub. İkinci dəfə o, Qazax qəzasınm Şıxlı kəndindən olan mülkədar Mirzə Əliağa oğlunun qızı Xədicə xanımla evlənib. Bu nigahdan olan Əbdülhəmid ailənin yeddinci övladı idi.

Əbdülhəmid bəy Qaytabaşı 1908-ci ildə Peterburq yaxınlığındakı Pavlovsk Hərbi Məktəbini bitirib. Azərbaycan Mərkəzi Dövlət arxivinin 2898 saylı Fondunun 1-ci siyahısının 4-cü işində 2-ci bölüyün yunkeri Əbdülhəmid bəy Qaytabaşının 3 ədəd göy üzlü dəftəri, bacısı, şahzadə Mələk xanım Qacara yazdığı məktublar, ona məxsus 97 saylı vəsiqə və 1905-ci il avqustun 22-də komandirinə yazdığı raport saxlanılır. İşin19-cu vərəqindən başlanan bu dəftərlərdə Əbdül Həmid Bəy Qayta Başının (dəftərlərin üstündə belə yazılıb – L.Ş.) həmin illərdə apardığı konspektlər, dərslərə davamiyyəti haqqında qeydlər yer alıb.

12 vərəqdən ibarət olan birinci dəftərdə hərbi təhsilə yeni başlayan Qaytabaşının əsasən ümumi hərbi biliklərlə bağlı qeydləri toplanıb. Piyada qoşunlarının hər bir sıravisi üçün məcburi olan biliklərə dair məlumatlar sırasında: Allaha dua etmək və 10 vəsiyyət, əsgərin təyinatı (əsgər kimdir? Bu ad kimə məxsusdur? Xarici və daxili düşmənlər. Nəyə görə əsgər adı şərəflidir? Əsgərin başlıca vəzifəsi?), hərbi and (Hərbi and nədir? Hərbi andın qəbul qaydası. Xidmətə başlayarkən neçə dəfə və harada and içmək lazımdır?), bilik, xidmətə başlamaq, xidmətkeçmə, hissələrin yerləşməsi, hərbi ierarxiya, Rusiya İmperiyası, rəis şəxslər, təltif və fərqlənmə, təminat və hərbi intizam kimi məsələlər barədə qeydlər var. Bu dəftərdə həmçinin məzuniyyətə gedərkən və qayıtdıqda, xidmətə

başladıqda yunkerlər tərəfindən yazılmalı olan raportların nümunələri, bayraq haqqında qeydlər yazılıb.

21 vərəqdən ibarət olan (işin 33-53-cü vərəqləri) ikinci dəftərin üzərində Əbdülhəmid bəy Qaytabaşının adı ilə bərabər müəllim polkovnik Antipov sözləri də yazılıb. Görünür bu şəxs müəllim kimi Əbdülhəmid bəyin aid olduğu taborun komandiri olub, yaxud hərbi məktəbdə hansısa vəzifə tutub. Çünki sıravi müəllimin polkovnik rütbəsi daşıması o qədər də inandırıcı deyil. Bu dəftərdəki məlumatlar Hərbi Nazirlik, Hərbi Adminstrasiya, istiqamətin müəyyən olunması, komplektləşdirmə, taktika qanunu, hərbi taktika, hərbi strategiya, piyada, süvari, mühəndis qoşunları, hərbi polis, dəmiryol, tibbi, hərbi-sanitar taborları, bütün ordunun Ali Baş Komandanı, hərbi intizam, qoşunların idarəolunması, hücum və s. bu kimi vacib hərbi məsələləri əhatə edir.

Yenə 21 vərəqdən ibarət olan üçüncü dəftərin üzərində yazılıb: "Тетрадь по формефикации юнкера 5 отделения старщего курса Абдуль Гамид Бея Гайта Баши". Bu dəftərdə artıq yuxarı kurs tələbəsi olan Əbdülhəmid bəy qalalar, hücum və müdafiə, qəti hücum, mühasirə, qala artilleriyası, gəmi artilleriyası, ehtiyat artilleriyası, döyüşün idarəolunması və s. barədə məlumatları qeydə almışdır.

Bütün bunlar Əbdülhəmid bəy Qaytabaşının hərbi məktəbdə oxuyarkən biliklərə səylə yiyələndiyini, vaxtını həqiqətən də səmərəli keçirdiyini göstərir.

Təhsilini bitirdikdən sonra leytenant rütbəsi alan gənc Qaytabaşı təyinatla Şamaxıda yerləşən Yelizavetpol korpusunun 261-ci piyada alayına göndərilir. 1906-cı ildə 16-cı Qrenadyor-Minqrel alayında xidmət edən Əbdülhəmid bəy Qaytabaşı Birinci dünya müharibəsində Qafqaz Korpusunun 52-ci Hərbi birləşməsinin 205-ci piyada bölüyünün komandiri

kimi iştirak etmişdir. 1916-cı ilin martında döyüşlərdə göstərdiyi rəşadətə görə o, dördüncü dərəcəli «Müqəddəs Vladimir» ordeni ilə (qılınc və bantla birgə) təltif edilib.

Rusiyada çar rejiminin süqutu ilə bağlı rus ordusunun Birinci dünya müharibəsi cəbhələrini, o cümlədən Qafqaz cəbhəsini tərk etməsindən sonra Əbdülhəmid bəy Qaytabaşının harada xidmət etməsi ilə bağlı dəqiq məlumatlara malik deyilik. Onun milli qoşun hissələrinin formalaşmasındakı iştirakına gəlincə, məlumat qıtlığı ilə bağlı bu barədə də geniş bəhs etmək mümkün deyil. Tədqiqatçılar bu məsələ ilə bağlı azsaylı məlumatlar arsında diqqəti əsasən Müsəlman Korpusunun komandanı, general-leytenant Əliağa Şıxlinskinin 6 mart 1918-ci il tarixli əmrinə yönəldirlər. Tiflis şəhərində imzalanan bu əmrlə polkovnik Əbdülhəmid bəy Qaytabaşı Müsəlman Korpusunun Qərargah rəisi təyin edilmişdir. Əmrdən görünür ki, Əbdülhəmid bəy Qaytabaşı cəmi 11 ildən bir qədər artıq davam edən hərbi xidməti ərzində leytenantdan polkovnik rütbəsinə qədər yol keçmişdir. Təbii ki, çar ordusunda qeyri-rus və qeyri-slavyan zabitlərə bu rütbələri yalnız bir halda vaxtından qabaq, yaxud növbədənkənar verə bilərdilər. Bunun üçün həmin zabit hərbi vəzifələrin öhdəsindən layiqincə gəlməli, hansısa yüksək uğurları, daha çox döyüşdə qazandığı uğurlarla diqqəti cəlb etməli idi. Müharibə getdiyini və Rusiyanın 1917-ci ilin martına qədər həmin müharibədə yaxından iştirakını, eləcə də sonrakı xidmət illərində nümayiş etdirdiyi yüksək hərbçi keyfiyyətlərini nəzərə alsaq Əbdülhəmid bəy Qaytabaşının qısa müddətdə polkovnik rütbəsinədək çatmasına aydınlıq gətirmiş olarıq. Bütün bunları ən qısa şəkildə belə ifadə etmək mümkündür – hərbçi peşəkarlığı.

1917-ci il mart ayının 28-dək Müsəlman Korpusunun qərargah rəisi vəzifəsində çalışan Əbdülhəmid bəy 1918-ci

il noyabr ayının 15-də o zaman hərbi nazirin müavini olan Səməd bəy Mehmandarovun 2 saylı əmri ilə Hərbi Nazirliyin Ümumi Qərargahının tərkibində növbətçi general vəzifəsinə təyin olunmuşdur.

Hərbi nazirin 03 yanvr 1919-cu il, 4 saylı əmr ilə Azərbaycan Respublikası Hərbi Nazirliyi üzrə hərbi hissələrin, idarə və müəssisələrin ştatlarının və əmək haqqı cədvəllərinin hazırlanması məqsədi ilə nazir müavinin sədrliyi altında yaradılmış komissiyanın üzvləri arasında Baş Qərargahın növbətçi generalı vəzifəsinin icraçısı polkovnik Qaytabaşı da vardı.[227]

Bu komissiyaya daxil olan şəxslərin hamısının təcrübəli və yüksək rütbəli zabitlər olması Ə.Qaytabaşıya olan münasibətin, onun hərbi bilik və səviyyəsinə göstərilən etimadın nəticəsi sayıla bilərdi.

Hərbi nazirin 22 iyun 1919-cu il, 307 saylı əmr ilə Həbib bəy Səlimovun Bakı şəhərinə ezam olunması ilə əlaqədar olaraq Baş Qərargah rəisi vəzifələrinin müvəqqəti icrası öz birbaşa vəzifələrini yerinə yetirilməklə, növbətçi general polkovnik Qaytabaşıya həvalə edilmişdi.[228]

Əbdülhəmid bəy Qaytabaşı Cümhuriyyət ordusunda general rütbəsi alan ən gənc şəxs olmuşdur. Belə ki, 1919-cu il iyun ayının 25-də Respublika Nazirlər Şurasının qərarı ilə Əbdulhəmid bəy Şərif bəy oğlu Qaytabaşı general-mayor rutbəsinə layiq görülmüşdür.

Hərbi nazirin 10 dekabr 1919-cu il, 568 saylı əmr ilə isə Həbib bəy Səlimov Bakı Möhkəmləndirilmiş rayonunun rəisi təyin edildiyinə görə, Baş Qərargahın Ümumi Qərargahının növbətçi generalı artıq general-mayor olan Qaytabaşı Baş

227 ARDA, f. 2894, s. 6, iş 2, v. 4
228 ARDA, f. 2894, s. 6, iş 4, v.3

Qərargah rəisi vəzifəsinin müvəqqəti icraçısı təyin edilmişdir. Bu vəzifəni o, Azərbaycan ordusunun Qərargahı yaradılana qədər icra etmişdir.[229]

1920-ci il martın 1-dən fəaliyyətə başlayan Azərbaycan ordusu Qərargahında Qaytabaşı növbətçi generalın idarəsinə rəhbərlik edirdi. Hərbi nazirlikdə struktur dəyişikliklərindən sonra ümumi bölmə, təftiş bölməsi, pensiya bölməsi və nəşriyyat işləri bu idarənin tabeliyinə verilmişdi.

Hərbi Nazirlik üzrə 18 dekabr 1919-cu il tarixli, 581 saylı ehtiyatda olan general-mayor, Şahzadə Əmir Kazım Mirzə Qacarın Azərbaycan Respublikası qoşunlarına xidmətə götürülməsi və Gəncə şəhərinin komandantı vəzifəsinə təyin edilməsi, 21 dekabr 1919-cu il tarixli, 586 saylı Şahzadə Sədrəddin Qacarın Hərbi Nazirliyin dəftərxanasının rəisi vəzifəsinin icrasına buraxılması əmrlərini hərbi nazirlə, 27 yanvar 1920-ci il tarixli, 52 və 54 saylı 1-ci piyada diviziyasının rəis müavini general-mayor, knyaz Makeyevin 2-ci piyada diviziyasının rəis müavini, 29 yanvar 1920-ci il tarixli, 57 saylı Hərbi limanın komendantının müavini, dəniz xidməti kapitanı Həsən Çilingərzadənin "Ərdəhan" gəmisinin komandiri təyin edilmələri barədə əmrləri isə nazir müavini Ə.Şıxlinski ilə birlikdə Qaytabaşı imzalamışdı.

Dövlət Müdafiə Komitəsinin 16 aprel 1920-ci il tarixli qərarı ilə növbətçi general Qaytabaşının Baş Qərargah rəisi vəzifəsi üçün təminatının saxlanılması barədə hərbi nazirin məruzəsi dinlənərək qəbul edilmişdi.[230]

Bütün bunlar, hələ də arxivlərdə öz tədqiqtçılarını gözləyən neçə-neçə başqa faktlar peşəkar hərbçi kimi Milli Ordu quruculuğunda Əbdülhəmid bəyin əvəzsiz xidmətləri

229 ARDA, f. 2894, s. 6, iş 6, v.9
230 ARDA, f. 2894, s. 1, iş 17, v. 40

olduğunu göstərir. General Əbdülhəmid bəy Qaytabaşı 1920-ci ilin mart ayında yazırdı:

"Cəmi bir il ərzində Baş Qərargahın fəaliyyəti təşkil olunub qaydaya düşdü. Öhdəmizə düşən bütün vəzifələri qərargahın digər üzvləri ilə birlikdə vicdanla, namusla və yorulmadan yerinə yetirdik".

General-mayor Əbdulhəmid bəy Qaytabaşı 1920-ci il aprelin 30-da bolşevik ordusunda muvəqqəti Qərargah rəisi təyin edilib. Həmin ilin iyun ayında Gəncə usyanı ilə bağlı gunahlandırılaraq gullələnmişdir.

General Murad Gəray Tlexas

General-mayor Murad Gəray Tlexas 1874-cü ildə Kuban vilayətinin Yekaterinodar, indiki Krasnodar şəhərində hərbçi ailəsində anadan olub. Milliyətcə çərkəzdir. İlk təhsilini Maykop şəhərində alıb. Sankt-Peterburqdakı Mixaylovsk artilleriya məktəbini bitirib. 1912-13-cü illərdə 51-ci Artilleriya briqadasında kapitan rütbəsində xidmət edib. Rus-yapon və Birinci dünya müharibəsinin iştirakçısı olub. Cəsarətli, bilikli, döyüşü idarə etməyi bacaran zabit kimi tanınıb. Xidmətinin ilk illərində «Müqəddəs Georgi» ordeni ilə təltif olunub.

Tlexasın Azərbaycana gəlişi Şimali Qafqazda ağqvardiyaçıların möhkəmlənməsi, 1918-ci ilin payızında Kuban və Adigeyin tutulması ilə əlaqədar olub. İslam ölkəsi və milli yaxınlıq onun bu seçimində başlıca rol oynayıb. O, əvvəlcə Əlahiddə Azərbaycan Korpusunun tərkibində olan ikinci nişançı topçu briqadasının komandiri təyin edilib. Ancaq Hərbi Nazirliyin strukturlarının formalaşdırılmağa başlanması və bir müddət sonra ləğv edilməsi nəzərdə tutulan Əlahiddə Azərbaycan Korpusu zabitlərinin nazirlikdə müxtəlif vəzifələrə keçirilməsi ilə əlaqədar M.G.Tlexas Baş Qərargahın növbətçi generalı vəzifəsinin icraçısı vəzifəsinə təyin edilib. Tlexas bu vəzifədə qısa bir müddət işləmiş, 1918-ci il dekabr ayının 30-da imzalanmış 39 saylı əmrlə Hərbi Nazirlik üzrə noyabrın 15-də verilmiş 2 saylı əmr dəyişdirilərək 27

noyabrdan etibarən Hərbi Nazirliyin Artilleriya İdarəsinin rəisi təyin olunmuşdur.[231]

Təbii ki, bu təyinatda onun hərbi ixtisası, artilleriyaçı zabit kimi təcrübəsi və peşəkarlığı əsas rol oynamışdı.

Hərbi Nazirliyin İntendant şöbəsi üzrə 1 dekabr 1918-ci il tarixli əmrin ikinci paraqrafında qeyd olunanlar da həmin vəzifəyə təyinatını təsdiqləyir. Belə ki, həmin əmrlə Baş Qərargahın Artilleriya İdarəsinin əsgərlərinə çatacaq əmək haqqının ödənilməsi üçün hərbi nazirin dərkənarı ilə Artilleriya İdarəsinin rəisi general-mayor Tlexasa 3 min rubl vəsait ayrılmışdır. [232]

Hərbi nazirin 3 yanvar 1919-cu il tarixli, 4 saylı əmri ilə Azərbaycan Respublikası Hərbi Nazirliyi üzrə hissələrin, idarə və müəssisələrin ştatlarının və əmək haqqı cədvəllərinin hazırlanması məqsədi ilə nazir müavini general-leytenant Əliağa Şıxlinskinin sədrliyi altında yaradılmış komissiyanın üzvlərindən biri də Artilleriya İdarəsinin rəisi general-mayor Tlexas idi.[233]

General-mayor Tlexas Azərbaycan ordusunun müddətdən artıq xidmət qulluqçuları haqqında əsasnamənin işlənib hazırlanması məqsədilə hərbi nazirin 18 may 1919-cu il tarixli, 37 saylı əmri ilə yaradılmış başqa bir komissiyanın isə sədri təyin olunmuşdu. Bu komissiyanın üzvləri arasında nazirliyin komendantı polkovnik İvanov, hərbi nazirin yanında tapşırıqlar üzrə qərargah-zabiti polkovnik Novruzov, 3-cü piyada Gəncə alayının komandiri Dyaqkov da vardı. Komissiya əmr alan kimi işə başlamalı, nəticənin Baş Qərargah rəisi

231 ARDA, f. 2894, s. 6, iş 20, v. 12
232 ARDA, f. 2894, s. 4, iş 1, v. 9.
233 ARDA, f. 2894, s. 6, iş 2, v. 4

tərəfindən hərbi nazirə məruzə edilməsi üçün may ayının 30-dan gec olmayaraq işi başa çatdırmalı idi. [234]

Ümumiyyətlə, Tlexas 1919-cu ilin yanvar ayından həmin ilin dekabr ayına qədər Cümhuriyyət ordusunun qurulması, ən başlıcası qarşıda duran vəzifələrlə əlaqədar Hərbi Nazirliyin strukturunun təkmilləşdirilməsi prosesində yaxından iştirak edən şəxslərdən biri olmuş, bəzi hallarda hətta bu sahədə təşəbbüskarlıq göstərmişdir. General-mayor Tlexas 1919-cu il sentyabr ayının 2-də Hərbi Şuraya göndərdiyi 4412 saylı məruzəsində diqqəti nazirliyin perspektiv inkişafı ilə bağlı mühüm məsələlərə yönəldirdi. Məruzədə bildirirldi ki, "Azərbaycan Respublikası qoşunlarının ştatları ilk dəfə müəyyənləşdiriləndə gənc, o qədər də böyük olmayan ordunun yaradılması ilə bağlı təşkil olunan idarələrin, hərbi hissələrin zəruri vasitələr və heyət kimi ən ciddi ehtiyaclarının ödənilməsinə çalışılırdı. Hazırda sürətlə böyüyən Azərbaycan ordusunun həyatının daha geniş fəaliyyət arenası tələb etdiyi bir vaxtda, ona xidmət göstərən Artilleriya İdarəsi bu gün öz fəaliyyət sahəsində onu sıxan vəziyyətdə, təşəkkül tapdığı dövrdəki kimi qalmaqda davam edir. Belə davam edə, onun işi yalnız hansısa artilleriya əmlakını qəbul edib, buraxmaqla məhdudlaşa bilməz. Belə ki, orduda, onun xüsusi sahələrində yalnız əmlakın qəbulu və buraxılması ilə məşğul olan deyil, Hərbi Nazirlik qarşısında məsuliyyət daşıyan, öz fəaliyyət istiqamətində həmin işin texniki, taktiki, nizami tərəflərini bütünlüklə əhatə etməklə ona rəhbərlik edən hissə və idarənin olması lazımdır.

Bunlar nəzərə alınaraq, Hərbi Şurada Artilleriya İdarəsinin adının Baş Artilleriya İdarəsinə dəyişdirilməsi

234 ARDA, f. 2898, s. 2, iş 1, v. 27.

təklifimə və həmin idarənin təqdim etdiyim (vəziyyətin izahına dair qeydlərlərimlə birgə) ştatları məsələsinə baxılması mümkün ola bilərmi? Eyni zamanda, məruzə edirəm ki, bu yeni idarənin xərcləri hazırda mövcud olandan çox cüzi fərqlənir. Belə ki, ayda indikindən cəmi 1300 rubl artıq vəsait xərci lazım gələcəkdir. General-mayor Tlexas". [235]

1919-cu il sentyabr ayının 13-də Baş Artilleriya İdarəsinin rəisi Murad Gəray Tlexas Dövlət Müdafiə Komitəsinin qərarı ilə həmçinin Bakının hərbi General-qubernatoru vəzifəsinə təyin olundu. Həmin vaxt eyni zamanda, iki mühüm vəzifəni yerinə yetirən Tlexasa belə böyük etimad göstərilməsi bir daha onun yüksək idarəçilik keyfiyyətlərinə malik olmasının etirafı idi. O, yüksək məsuliyyət tələb edən bu vəzifənin icrasına başlayarkən demişdi: "Mənə göstərilən etimad və ümidi həqiqətə çıxarmaqdan ötrü mən bütün var qüvvəmi ədalətli və bitərəfanə bir surətdə işə şüru edirəm".

1919-cu ilin oktyabrında hərbi nazir və Baş Qərargah rəisi Azərbaycan Respublikası Artilleriya İdarəsinin rəisi general-mayor Tlexasın 2 sentyabr 1919-cu il tarixli məruzəsi əsasında mövcud idarənin bazasında Baş Artilleriya İdarəsinin yaradılması ilə bağlı Nazirlər Şurasına müraciət etdilər. Bu müraciətə həmin struktur bölmənin ştat layihəsi və Əsasnaməsi də əlavə edilmişdi. Nazirlər Şurasının qəbul etdiyi müvafiq qərarla general-mayor Tlexasın qaldırdığı məsələ həllini tapmışdı.

General Tlexas Hərbi Nazirliyin Baş Artilleriya İdarəsinin formalaşdırılması, ölkənin müxtəlif ərazilərində yerləşən hərbi hissələrdə müvafiq strukturlarının, o cümlədən emalatxanaların yaradılması üçün səmərəli fəaliyyət göstərib.

235 ARDA, f. 2894, s. 1, iş 23, v. 7-8.

Nəticədə Azərbaycan ordusu xüsusilə mühüm strateji istiqamətlərdə düşmənlə müqayisədə əhəmiyyətli üstünlük əldə edib və döyüşlər zamanı əksər hallarda həlledici sayılan bu imkandan lazımınca istifadə olunub.[236]

1919-cu il dekabr ayının 4-də hərbi nazir və Baş Qərargah rəisinin imzaladıqları 559 saylı əmrdə bu barədə yazılırdı: "Baş Artilleriya İdarəsinin rəisi Murad Gəray Tlexas Hərbi Nazirliyin yaradıldığı dövrdə bu vəzifənin icrasına başlamışdı. Ordunun özü kimi, onun mərkəzi idarələri və təsisatları da demək olar ki, yox yerdən yaradılırdı. Mənim ilk silahdaşlarımdan biri kimi Murad Gəray Tlexas ordunun qurucularından oldu. Cəngavər insan, yorulmaz, işə can yandıran təcrubəli hərbçi Tlexas ordunun silahlanması, butun Azərbaycan boyu səpələnmiş artilleriya əmlakının toplanması, artilleriya anbarları və emalatxanalarının təşkilinə vicdanlı əmək sərf etdi. İndi həmin generala respublikanın müdafiəsi üzrə son dərəcədə mühüm hərbi vəzifələrin həvalə edilməsi ilə əlaqədar olaraq, ümumi işin xatirinə onun Baş Artilleriya İdarəsi rəisi vəzifəsindən azad edilməsini daha faydalı bilirəm. Bu vəzifənin yerinə yetirildiyi bir illik müddətdə nümunəvi işinə, göstərdiyi səyə və böyük nailiyyətlərinə görə, hörmətli Murad Gəray Tlexasa səmimi təşəkkür elan edirəm". [237]

Onun xidmətləri sırasında Bakı Möhkəmləndirilmiş rayonun rəisi kimi strateji əhəmiyyət malik bir sahədə gördüyü işlər də var. O, bu vəzifədə qısa müddətdə işləməsinə baxmayaraq, təcrübəli hərbi mütəxəssis kimi Bakının mövcud müdafiə sistemlərinin təkmilləşdirilməsi və əsasən yenilərinin qurulmasına bütün bilik və bacarığını sərf edib.

236 ARDA, f. 2894, s. 1, iş 23, v. 7-10
237 ARDA, f. 2894, s. 6, iş 6, v. 7.

Hərbi nazirin 551 saylı, 1 dekabr 1919-cu il tarixli əmri ilə Baş Artilleriya İdarəsinin, Bakı Möhkəmləndirilmiş rayonun rəisi, Bakının hərbi generel-qubernatoru general-mayor Murad Gəray Tlexas tutduğu birinci 2 vəzifədən azad edilmiş, 1-ci Artilleriya briqadasının rəisi, general-mayor Şəhzadə Məmməd Mirzə Qacar Baş Artilleriya İdarəsinin rəisi, Baş İntendant İdarəsinin rəis müavini polkovnik Əlibəyov Baş Artilleriya İdarəsinin rəis müavini, Hərbi məktəbin rəisi Şıxlinski 2-ci Artilleriya briqadasının rəisi, 1-ci Tatar alayının komandiri polkovnik Sofiyev 1-ci Cavanşir alayının komandiri təyin olunmuşdular. [238]

Baş Qərargah rəisinin 6 dekabr 1919-cu il tarixli, 117 saylı əmri ilə isə nazirliyin Bakı şəhərində və Bakı qəzasında yerləşən bütün hərbi hissələri, idarələri, müəssisələri, həmçinin Hərbi məktəb Qarnizon rəisi kimi Bakı Möhkəmləndirilmiş rayonun rəisinə tabe etdirildi. [239]

Həmin əmrdən 4 gün sonra hərbi nazir tərəfindən imzalanmış 10 dekabr 1919-cu il tarixli, 568 saylı əmrdə deyilirdi: "Hazırda Bakı general-qubernatorluğunun respublikanın daxili sabitliyi və xarici təhlükəsizliyi üçün çox mühüm əhəmiyyət kəsb etməsi kimi mövcud xüsusi şərait nəzərə alınaraq, general-qubernatorluq tərəfindən Bakı rayonunun müdafiəsinin təşkilinin hərbi-texniki hazırlığının müvəqqəti geri alınmasını zəruri edir. Bunula əlaqədar Bakı hərbi general-qubernatoru, general-mayor Tlexası Bakı Möhkəmləndirilmiş rayonun rəisi vəzifəsindən azad edirəm.

Baş Qərargahın Baş İdarəsinin rəisi general-mayor Səlimov korpus komandiri və Bakı qarnizonunun rəisi

238 ARDA, f. 2894, s. 6, iş 6, v. 4.
239 ARDA, f. 2894, s. 6, iş 6, v. 9.

hüququna malik olmaqla Bakı Möhkəmləndirilmiş rayonun rəisi vəzifəsinə təyin edilir.

Qeyd olunan rayonda yerləşən bütün nizami hissələr hər baxımdan korpus komandiri kimi general Səlimova tabedirlər. Baş Qərargahın növbətçi generalı general-mayor Qaytabaşı Baş Qərargahın rəisi vəzifəsinin müvəqqəti icraçısı təyin olunur." [240]

Həmin dövrdə Bakının etibarlı müdafiəsinin təşkli ilə bağlı məsələnin getdikcə daha aktual olmasını sonrakı 2 ay ərzində qəbul edilən qərar və əmrlər də aydın göstərirdi. Bunula bağlı növbəti qərarlardan biri hərbi nazirin müavini generel-leytenant Ə.Şıxlinskinin sədrlik etdiyi Hərbi Şuranın 27 dekabr 1919-cu il tarixli iclasında Bakı möhkəmləndirilmiş rayonunda 4 piyada və bir pulemyot bölüyündən ibarət ayrıca qala taborunun yaradılması olmuşdu.[241]

Bu məlumatlara istinadən ehtimal etmək olar ki, general-mayor M.G.Tlexas Bakı möhkəmləndirilmiş rayonun hərbi general-qubernatoru vəzifəsinə 1919-cu ilin noyabr ayında təyin olunmuşdur. Azərbaycanda ordu quruculuğu sahəsində yaxından iştirak edən Murad bəy bu xidmətlərinə, xüsusi tapşırıqların öhdəsindən layiqincə gəldiyinə görə bir neçə dəfə hərbi nazir və Baş Qərargah rəisinin əmri ilə mükafatlandırılmışdır.

Bunlardan biri də Hərbi Nazirlik üzrə 19 sentyabr 1919-cu ildə verilmiş 421 saylı əmrdir: "Bir sıra ciddi manelərə baxmayaraq, qısa müddət ərzində, son dərəcədə əlverişli qiymətlərə xeyli dəyərli hərbi əmlak alınmış, Gəncə və Bakıya gətirilmişdir. Əldə olunan vasitələrin əksəriyyəti tamamilə yenidir, əvvəllər istifadə edilənlər isə yararlı vəziyyətdədir.

240 ARDA, f. 2894, s. 6, iş 6, v. 9.
241 ARDA, f. 2894, s. 6, iş 6, v. 9

Tərəfimdən komissiyanın üzərinə qoyulmuş vəzifəni layiqincə yerinə yetirmiş, böyük enerji və məsuliyyət nümayiş etdirmiş general-mayor Tlexasa xidmət adından səmimi təşəkkür elan edirəm. Vasitələrin alınması, qəbulu və göndərilməsinə böyük əmək sərf etmiş komissiya üzvlərinə də təşəkkür edirəm. Hərb naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarov, Baş Qərargah rəisi, general-mayor Həbib bəy Səlimov".

Əmrdə göstərilən hərbi vasitələr və hərbi əmlak Gürcüstandan hərbi nazirin 20 iyun 1919-cu il tarixli, 304 saylı əmri ilə yaradılmış komissiya tərəfindən alınmışdı. Həmin komissiyanın sədri Hərbi Nazirliyin Artilleriya İdarəsinin rəisi general-mayor Tlexas idi. Bu komissiyaya Artilleriya İdarəsinin rəis müavini qvardiya polkovnik Rozenmeyer, İntendant, Mühəndis, Hərbi-sanitar idarələrinin hərəsindən bir nəfər zabit, yaxud məmur, Gürcüstandakı diplomatik nümayəndəliyin hərbi attaşesi podpolkovnik Əliyev daxil edilmişdilər. Komissiya sədrinə həmçinin nazir müavini general-leytenant Şıxlinskidən təlimat almaq tapşırılmışdı. [242]

General-mayor Murad Gəray Tlexas Bakı möhkəmləndirilmiş rayonun hərbi general-qubematoru olarkən vəzifə səlahiyyətlərinin icrası ilə əlaqədar Bakıda asayişin qorunması, müxtəlif qüvvələr tərəfindən təxribatlar törədilməsinin qarşısının alınmasında bütün qətiyyəti ilə mübarizə aparmış, heç kimə güzəştə getməmişdir. Xüsusilə 1919-cu ilin sonları, 1920-ci ilin əvvəllərində bolşeviklərin xeyli fəallaşması ilə bağlı bu fəaliyyət bir qədər də genişlənmiş və daha ciddi xarakter almışdır. Bakıda ixtişaş törətmək istəyənlərə qarşı müvafiq tədbirlər görüləcəyi haqqında general-qubernatorluğu elanı vəziyyətin qiymətləndirilməsi baxımından əhəmiyyətli ola bilər: "Mənə məlumatlar çatır

242 ARDA, f. 2898, s. 2, iş 1, v. 314.

ki, şəhərdə əhali arasında yaxın günlərdə tətillərin, talanların və ictimai asayişi poza biləcək buna bənzər hadisələrin baş verə biləcəyi haqqında şayiələr gəzir. Bu məlumatların bədniyyətli adamlar tərəfindən şəhərin rəvan ictimai həyatını açıq-aşkar pozmaq və əhalinin səbatsız ünsürlərini hökumət əleyhinə qaldırmaq məqsədilə yazıldığını nəzərə alaraq, bununla bəyan edirəm ki, mən heç bir vəchlə heç bir talana, yaxud hər hansı digər zorakılıq hərəkətlərinə yol verməyəcək, hökumət əleyhinə istənilən çıxış sərəncamımdakı ixtiyaratın bütün ciddiliyi ilə beşiyindəcə boğulacaq və təxribatçı şayiələr yayan şəxslərə qarşı onların müharibə dövrünün qanunları ilə mühakimə olunmaları üçün hərbi məhkəmələrə verilmələrinədək tərəfimdən ən qətiyyətli tədbirlər görüləcək. Bunu nəzərə alaraq, Bakı şəhəri və onun rayonunun dinc vətəndaşlarından buna bənzər şayiələrə uymamağı və məndən asılı olan bütün tədbirlərlə zəmanət verdiyim adi həyat tərzlərini, sakitliyi saxlamalarını rica edirəm. Bununla yanaşı, vətəndaşların diqqətinə çatdırıram ki, hal-hazırda ağır ərzaq böhranı keçirməyimizi nəzərə alaraq aztəminatlı və digər əhaliyə ucuz qiymətlərlə ilk tələbat mallarını almaq imkanı yaratmaqla, böhranı daim səngitmək üçün hökumət tərəfindən bir sıra təcili tədbirlər görülmüş və beləliklə yaxın günlərdə böhran əhali üçün əlverişli tərzdə həll olunmalıdır. Bakı mohkəmləndirilmiş rayonunun Hərbi general-qubernatoru, general-mayor Murad Gəray Tlexas".

Yeri gəlmişkən, Tlexas 1919-cu il sentyabrın 13-də Dövlət Müdafiə Komitəsinin əmri ilə Bakının Hərbi General-qubernatoru vəzifəsinə təyin edilmişdir.

Yerli bolşeviklər ermənilərlə birləşərək əhali arasında antiazərbaycan təbliğatı aparır, həyəcan və şiayiələr yayırdılar. Bunlardan narahat olan general-qubernator Tlexas 1920-

ci il yanvar ayının 25-də "Azərbaycan" qəzetinə verdiyi müsahibədə demişdir: "Son günlərdə şəhərdə şayiələr yayılır ki, bolşeviklər çıxış edib bazar-dükanı talan edəcəklər. Əhali həyəcana gəlmişdi. Boş laqqırtılar böyük meydan alır. Belə hərəkətlər olmayacaqdır. Əgər baş verərsə, rəhmsizcəsinə basılacaq, hökumətin lazımı miqdarda qüvvəsi vardır. Heç kəsə şəhərə daxil olmağa müsaidə edilmir. Körpülərə vaporlar vürud edir. Sərnişinlərin yalnız bəzilərinə şəhərə girməyə icazə verilir. Üç gündə Ənzəli, Petrovski və Təzə şəhərdən (Krasnovodsk) yeddi vaporda beş yüz nəfər gəlmişdir. Qismən şəhərə buraxılıblar. Lakin tezliklə də şəhərdən çıxarılıblar. Bəziləri Tiflisə gedir. Ermənilər Ermənistana, iranlılar isə İrana qaytarılır. Əcnəbilər müməsillərinə verilir… Lakin əcnəbi heyətlərə, siyasi nümayəndələrə və dövləti işlər üçün gələnlərə icazə veriləcək. Köhnə rus pasportları etibardan saqiət edilir, bir aya bütün vətəndaşlar türk pasportu almalıdırlar".

Bakının general-qubernatoru kimi o, şəhərin müdafiə istehkamlarını möhkəmlətmək, tabeliyindəki hərbi qüvvələrdən, donanmadan səmərəli istifadə etməklə şəhər civarından gözlənilən bolşevik hücumlarının qarşısını almağa və daxildən olan üsyanları yatırmağa çalışırdı. Tlexas hesab edirdi ki, "Qars", "Ərdahan", "Astarabad" hərbi gəmiləri ilə sahil istehkamlarından Bakının dəniz istiqamətini müdafiə etmək mümkündür. O, bu məqsədlə ona qeyri-məhdud vəzifə səlahiyyətləri verilməsini belə tələb etmişdi.

General Tlexas 1920-ci ilin aprelində Bakıda silahlı çevrilişin hazırlanması və həyata keçməsində fəal iştirakda, eləcə də Əli Bayramovun qatillərindən biri kimi günahkar bilinərək sovet cəza orqanları tərəfindən həbs edilərək mayın 21-dən 29-dək Ali İnqilabi Tribunalın məhkəməsində şahid kimi dindirilmişdir.

Lakin Tlexas heç bir "günah"ını etiraf etməmiş, onu müttəhimlər kürsüsünə qətiyyən tanış olmayan mühitə düşməsinin gətirdiyini və "əsgər" mənəviyyatı ilə tərbiyə olunduğu üçün rəislərinin əmrlərini müzakirəsiz yerinə yetirdiyini bildirmişdir. Kasıb praporşik oğlu "Əgər məndən soruşsamz ki, Bakıdakı fəaliyyətim dövründə kimləri özümə düşmən hesab edirdim. Cavab verərdim: ancaq və ancaq Azərbaycanın müstəqilliyinə qəsd etmək istəyən könüllülər mənim qatı düşmənimdir", deyib.

Tlexas daha sonra dediklərində də səmimi və qorxmaz idi: "Mən heç vaxt siyasi partiyaların işinə qoşulmazdım. Mənim məqsədim milli ordu yaratmaq, milli qırğının qarşısını almaq idi. Qırx altı yaşım var. Ömrümün yarıdan çoxunu hərbi xidmətdə keçirmişəm. Atam evdəki yeganə samovarı satıb məni atın sağrısında Yekaterinardan oxumağa göndərib... O ki qaldı ağqvardiyaçı general Denikinə qoşulmağım, könüllülər ilə işləməyim, heç cür mümkün deyil. Çünki bütün il boyu mən denikinçilərə qarşı mübarizə aparmışam. Onun kəşfiyyatçıları mənim əməkdaşlarımdan və şəxsən məndən oddan qorxan kimi qorxurlar. Əgər siz bolşeviklər yox, Denikin Bakıya girməli olsaydı birinci məni güllələyərdi. Boynuma alıram ki, Azərbaycanda caynağımıza keçən Denikin kəşfiyyatçılarına qarşı çox amansız olmuşam".

Buna görə də, bolşeviklərin general Tlexası ağqvardiyaçıların xəfiyyəsi kimi gülləmək üçün göstərdikləri cəhdlər uğyrsuzluğa düçar oldu, əlacları kəsildiyindən onu əksinqilabcı və Musavat generalı kimi mayın 29-da gecə saat 2-də gullələdilər.

"Yalnız Bakının general-qubernatoru Murad Gəray Tlexas məğrur oturub zəhimli gozləri ilə salona baxırdı. Bu comərd generalın varlığında qorxudan əsər-əlamət yox idi".

Ali İnqilabi Tribunalın 1920-ci il 29 may tarixli sənədindən.

Arxiv sənədləri arasında general Tlexasın həyat yoldaşı Əminət xanım Tlexasın 1920-ci il iyunun 6-da Azərbaycan Sovet Sosialist Respublikası Ali İnqilabi Tribunalının sədrinə yazdığı ərizə də saxlanılır: «1920-ci il mayın 29-da Ali İnqilabi məhkəmənin qərarı ilə ərim Murad Gəray bəy Tlexas güllələnmişdir. Ərim həbs olunan günü evimizdən sizin əməkdaşlar ailəmizə məxsus olan qızıl və gümüş əşyalannı da aparmışlar. Acizanə surətdə xahiş edirəm, həmin qızıl və gümüş əşyalarınm qaytarılması barədə sərəncam verəsiniz. Həmin əşyalar yenicə həddi-bulağa çatmış iki qızıma və şəxsən mənə məxsusdur. İmza: Əminət xanım Tlexas".

Ancaq bolşevik rəhbərin katibliyə tapşırığı ilə "vətəndaş Əminət xanım Tlexasa" heç nə qaytarılmayaca"ğı barədə məlumat verildi.

Əminət xanım 1920-ci ildə İrana getmiş, orada yaşamışdır. Tlexasların böyük qızı Cənnət xanım Müsavat dövründə Bakıda İran konsulu işləyən bir nəfərlə ailə qurmuşdur. General Tlexasi indiki «Araz» kino teatrı olan binada yaşamışdır.

Qaynaqlar

Aərbaycan dilində:

1. ARDA, f. 894, s. 2, iş 88, v. 1-3.
2. ARDA, f.894, s.7, iş.5, v. 50.
3. ARDA, f. 894, s. 7, iş 7, v. 112.
4. ARDA, f.894, s 10, iş. 96, v. 30.
5. ARDA, f. 894, s.10, iş.124, v.15-16.
6. ARDA, f.894, s10, iş 135, v. 5.
7. ARDA, f. 895, s. 1, iş. 1, v. 38-48.
8. ARDA, f. 895, s. 1, iş. 1, v. 50-57.
9. ARDA, f. 895, s. 1, iş. 91, v. 1-39.
10. ARDA, f.895, s. 1, iş. 94, v. 143, 160.
11. ARDA, f.895, s.1, iş 100. v.1-32.
12. ARDA, f. 895, s. 1, iş. 130, vər. 1-23.
13. ARDA, f.895, s.1, iş 177, v. 18-47.
14. ARDA, f. 895, s. 1, iş 177, v. 90-92.
15. ARDA, f. 895, s.1, iş 249, v. 13, 14, 15.
16. Arxiv, f. 895, s. 7, iş 39, v. 1-36.
17. ARDA, f. 970, s.l, iş 1, v.51.
18. ARDA, f. 970, s.l, iş 4, v.1-2.
19. ARDA, f.970, s. 1, iş 5, v. 1.
20. ARDA, f. 970, s.1, iş 142, v. 91-93.
21. ARDA, f. 970, s.1, iş 144, v 66-67.
22. ARDA, f. 2894, c. 1, iş 1, v. 6.
23. ARDA, f 2894, s. 1 iş 3, v. 211.
24. ARDA, f. 2894, s. 1, iş 23, v. 29
25. ARDA, f. 2894, s. 1, iş 23, v. 42.
26. ARDA, F. 2894, s. 1 iş 26, v. 16.
27. ARDA, f. 2894, s. 1 iş 35, v. 9.

28. ARDA, f. 2894, s. 1 iş 35, v. 26.
29. ARDA, f 2894, s. 1, iş 3, v. 31.
30. ARDA, f. 2894, s.1, iş 3, v. 77.
31. ARDA, f. 2894, s.1, iş 4, v. 65.
32. ARDA, f. 2894, s. 1, iş 4, v. 135.
33. ARDA, f. 2894, s. 1, iş 4, v. 136.
34. ARDA, f. 2894, s. 1, iş 5, v. 144.
35. ARDA, f. 2898, s.1, iş 6, v. 3.
36. ARDA, f. 2898, s. 1. iş 6, v. 47.
37. ARDA, f. 2898, s. 1. iş 6, v. 51.
38. ARDA, f. 2894, s. 1, iş 13, v. 45.
39. ARDA, f. 2894, s. 1, iş 13, v. 78
40. ARDA, f. 2894, s. 1, iş 13, v. 160.
41. ARDA, f. 2894, s. 1, iş 15, v. 81.
42. ARDA, f. 2894, s. 1, iş 15, v. 83.
43. ARDA, f. 2894, s. 1, iş 15, v. 108.
44. ARDA, f. 2894. s. 1, iş 16, v. 1.
45. ARDA, f. 2894, s. 1, iş 16, v. 92.
46. ARDA, f. 2894, s. 1, iş 16, v. 96.
47. ARDA, f. 2894, s. 1, iş 17, v. 40.
48. ARDA, f. 2894, s. 1, iş 23, v. 4.
49. ARDA, f. 2894, s. 1, iş 23, v. 6.
50. ARDA, f. 2894, s. 1, iş 23, v. 7-10.
51. ARDA, f. 2894, s. 1. iş 23. v. 20-21.
52. ARDA, f. 2894, s. 1, iş 23, v. 29.
53. ARDA, f. 2894, s. 1, iş 26, v. 12.
54. ARDA, f. 2894, s. 1, iş 26, v. 13.
55. ARDA, f. 2894, s. 1, iş 26, v. 14.
56. ARDA, f. 2894, s. 1 iş 26, vər. 16.
57. ARDA, f. 2894, s. 1, iş 26, v. 28.
58. ARDA, f. 2894, s. 1, iş 35, v. 20.

59. ARDA, f. 2894, s 1, iş 35, v. 32.
60. ARDA, f. 2894, s. 1, iş 35, v. 39.
61. ARDA, f. 2894, s. 1, iş 35, v. 43.
62. ARDA, f. 2894, s. 1, iş 35, v. 66.
63. ARDA, f. 2894, s. 4, iş 1, v. 9.
64. ARDA, f. 2894, s. 6 iş 1, v. 16.
65. ARDA, f. 2894, s. 6, iş 1, v. 55.
66. ARDA, f. 2894, s.6, iş 1, v. 101.
67. ARDA, f. 2894, s.6, iş 1, v. 102.
68. ARDA, f. 2894, s. 6 iş 1, v. 126.
69. ARDA, f 2894, s. 6 iş 2, v. 4.
70. ARDA, f. 2894, s. 6, iş 2, v. 9.
71. ARDA, f. 2894, s. 6 iş 2, v. 11.
72. ARDA, f. 2894, s. 6, iş 2, v. 13.
73. ARDA, f. 2894, s. 6, iş 2, v.15.
74. ARDA, f. 2894, s 6, iş 2, v. 24.
75. ARDA, f. 2894, s. 6, iş 2, v. 37.
76. ARDA, f 2894, s. 6 iş 2, v. 40.
77. ARDA, f. 2894, s. 6, iş 2, v. 50.
78. ARDA, f. 2894, s. 6, iş 3, v. 11.
79. ARDA, f. 2894, s. 6, iş 3, v. 27.
80. ARDA, f. 2894, s. 6. iş 3, v. 113.
81. ARDA, f. 2894, s. 6, iş 3, v.192.
82. ARDA, f. 2894, s. 6, iş 4, v. 3.
83. ARDA, f 2894, s. 6 iş 4, v. 14.
84. ARDA, f. 2894, s. 6, iş 4, v. 18.
85. ARDA, f. 2894, s. 6, iş 4, v. 19.
86. ARDA, f. 2894, s. 6, iş 4, v. 33.
87. ARDA, f. 2894, s. 6, iş 4, v. 36.
88. ARDA, f 2894, s. 6, iş 4, v. 54.
89. ARDA, f. 2894, s. 6, iş 5, v. 2-3; 26.

90. ARDA, f. 2894, s. 6, iş 5, v. 34.
91. ARDA, f. 2894, s. 6, iş 5, v. 37.
92. ARDA, f. 2894, s. 6, iş 6, v.4.
93. ARDA, f. 2894, s. 6, iş 6, v. 7.
94. ARDA, f. 2894, s. 6, iş 6, v. 9.
95. ARDA, f. 2894. s. 6, iş 7, v. 90.
96. ARDA, f. 2894, s. 6. iş 7, v. 104.
97. ARDA, f. 2894, s. 6, iş 7, v. 108.
98. ARDA, F. 2894, s. 6, iş 7, v. 169.
99. ARDA, F. 2894, s. 6, iş 7, v. 188.
100. ARDA, f. 2894, s. 6, iş 8, v. 2.
101. ARDA, f. 2894, s. 6, iş 9, v. 29.
102. ARDA, f. 2894, c. 6, iş 20, v. 1.
103. ARDA, f. 2894, s. 6, iş 20, v. 12
104. ARDA, f. 2894, s. 6, iş 20, v. 38
105. ARDA, f. 2894, s. 6, iş 20, v. 131.
106. ARDA, f. 2894, s. 6, iş 20, v. 137.
107. ARDA, f. 2894, s. 6, iş 20, v. 297-300.
108. ARDA, f. 2894, s. 6, iş 21, v. 27.
109. ARDA, f. 2896, s. 1, iş 7, v. 284.
110. ARDA, f. 2898, s. 1, iş 6, v. 30.
111. ARDA, f. 2898, s. 1, iş 6. v. 35.
112. ARDA, f. 2898, s. 1. iş 6, v. 51.
113. ARDA, f. 2898, s. 1, iş 13, v. 1.
114. ARDA, f. 2898, s. 1, iş 13, v. 3.
115. ARDA, f. 2898, s.1, iş 13, v. 10.
116. ARDA, f. 2898, s. 1, iş 13, v. 12.
117. ARDA, f. 2898, s. 1, iş 13, v.16.
118. ARDA, f. 2898, s.1, iş 13, v. 17.
119. ARDA, f. 2898, s. 1, iş 13, v. 51.
120. ARDA, f. 2898, s. 1 iş 20, v. 13.

121. ARDA, f. 2898, s. 2, iş 1, v. 1.
122. ARDA, f. 2898, s. 2, iş 1, v. 27.
123. ARDA, f. 2898, s. 2, iş 1, v. 77.
124. ARDA, f. 2898, s. 2, iş 1, v. 314
125. ARDA, f. 2898, s. 2, iş 1, v. 324.
126. ARDA, f. 2898, s. 2, iş 22.
127. “Azərbaycan» qəzeti, 1918. № 1. 15 seniyabr.
128. “Azərbaycan” qəzeti, 1918. № 2, 19 sentyabr.
129. “Azərbaycan” qəzeti 1918-ci il 17 noyabr.
130. “Azərbaycan” qəzeti, 1918-ci il, 10 dekabr.
131. “Azərbaycan” qəzeti 1918-ci il, 15 dekabr.
132. “Azərbaycan” qəzeti, 1918-ci il 21 dekabr.
133. “Azərbaycan” qəzeti, 1918, 22 dekabr.
134. “Azərbaycan” qəzeti, 1918, 21, 22, 24 dekabr.
135. “Azərbaycan” qəzeti, 1918, 29 dekabr.
136. “Azərbaycan” qəzeti, 1919-cu il, 11 fevral.
137. “Azərbaycan” qəzeti, 1919-cu il, 7 mart.
138. “Azerbaycan” qəzeti, 1919-cu il, 3 avqust.
139. “Azərbaycan” qəzeti, 1919-cu il, 30 sentyabr.
140. “Azərbaycan” qəzeti, 1919-cu il, 30 oktyabr.
141. Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar 1918-1920-ci illər, “Elm”, 1998.
142. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, C. I., C. II. /Baş red. Yaqub Mahmudov. B., 2004, Lider nəşiriyyatı.
143. Azərbaycan tarixi 7 cilddə, 5-ci cild, Bakı, Elm, 2001, s. 286.
144. “Azərbaycan yurd bilgisi” jurnalı, 1934, №24, s.164-165.
145.Aşırlı A., Cümhuriyət dövrü mətbuatında Qafqaz İslam Ordusu, Nurlan, B., 2007, s. 30.

146. Baykara H., Azərbaycan istiqlal mübarizəsi tarixi. B., Azərnəşr,1992, s. 228.
147. Cəfərli M., Azərbaycan Demokratik Respublikasının xüsusi xidmət orqanları, B., 1997, s. 8.
148. Çəmənzəminli Y.V., Müstəqilliyimizi istəyiriksə. B., Gənclik,1994, s. 28.
149. «Elm», 11 may 1991-ci il, N19-20, səh 3,6.
150. Əhmədov B., XX Yüzil Azərbaycan ədəbiyyatı – mərhələlər, istiqamətlər, problemlər, "Elm və təhsil" nəşriyyatı, B., 2015.
151. ƏliyevN, https://azertag.az/xeber/Azerbaycan_Xalq_Cumhuriyyeti_hokumetinin_fealiyyetinde_herbi_deniz_aspektleri-1137851
152. Hərbi bilik jurnalı, 1996 № 4, s. 85-86.
153. "Xalq Ordusu" qəzeti, № 3, 1992-ci il 25 fevral.
154. İbrahimova A.Z., Azərbaycan Böyuk Oktyabr sosialist inqilabının hazırlanması dövründə. Mart – oktyabr 1917-ci il. B., ADU, 1988.
155. İsgəndərov A., Müsəlman Şərqində ilk demokratik dövlət - Azərbaycan Xalq Cümhuriyyəti, "Azərbaycan" qəzeti, 2018-ci il, 22 may.
156. İsmayılov R., Azərbaycan tarixi, B., 1993, s. 129-130.
157. İstefada olan podpolkovnik Rüşti. Bakı yollarında. Hərbi məcmuə. № 93, səh. 24-25.
158. "Kommunist" qəzeti, 1920, 16 may.
159. «Kommunist» qəzeti, N 42, 1920-ci il 22 iyun.
160. Mahmudov Y. Azərbaycan: qısa dövlətçilik tarixi, B., "Təhsil", 2005. 140 s.
161. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, B., 1992, 246 (1) s.

142. Musayev İ. "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)" B., 1996.
162. Nərimanoğlu H., "15 sentyabr - Anadolu və Qafqaz türklərinin əbədi qardaşlıq günü" 525-ci qəzet, 2018-ci il, 11 sentyabr.
163. Nəzirli Ş., 1920-ci ildə Qarabağ döyüşləri, B., 2009.
143. "Qardaş köməyi" jurnalı, B., 2013-cü il, s. 44.
164. "Odlu yurd" jurnalı, № 3, 1931-ci il.
165. Yaqublu N., Cümhuriyyət quruculları, B., 2018.
166.«Yeni Qafqasiya» jurnalı, İstanbul, 1923-cü il № 14.
167. "525-ci qəzet" 2018-ci il, 7 mart.
168. Rəsulzadə M.Ə., Milli Azərbaycan hərəkatının xarakteri, «Azərbaycan yurd bilgisi» jurnalı, 1934, №24, s.164-165.
169. Rüşdü, Böyük Hərbdə Bakı yollarında. 5-ci Qafqaz piyada firqəsi.
170. Süleymanov M., Azərbaycan ordusu. B., 1998, s.107.
171. Süleymanov M., Azərtac 2018, 23 yanvar, https://azertag.az/xeber/Azerbaycan_Xalq_Cumhuriyyeti_dovrunde_ordu_quruculugu-1130835.
172. Süleymanov M., Qafqaz İslam Ordusu və Azərbaycan, B., "Hərbi Nəşriyyat", 1999, 440 s.
173. Şeyxzamanlı N., Azərbaycan istiqlal mücadiləsi xatirələri" "Azərbaycan" nəşriyyatı, B., 1997. s.10.
174.Şüküroğlu L., Azərbaycanın sərhəd mühafizəsi tarixindən (1918-1920-ci illər), B., Şirvannəşr, 1999.
175. Şüküroğlu L., Cümhuriyyət hökuməti repressiya məngənəsində, 2 cilddə, B., Şirvannəşr, 2000.

176. Təkləli M., Rıhtım M. Qafqaz İslam Ordusunun xronologiyası, B., Nurlar, 2008.
177. Topçubaşov Ə.Ə., Azərbaycan Cümhuriyyətinin yaradılması. B., Təknur, 2013, s. 45.

Rus dilində:

178. Азербайджанская Демократическая Республика, (Отв. редактор Агамалыева Н.), Б.,1998.
179. Азербайджанская Демократическая Республика (1918-1920), Армия, Б.,1998.
180. Азербайджанская Республика. Документы и материалы 1918-1920 гг. (под ред. Дж.Б.Кулиева), Б.,1998.
181. «Возрождения», 1918, № 158, 6 октября.
182. Газ. Каспий, Баку:1917, 31 марта.
183. Газ. "Баку", № 80, 1917 г. 12 апреля.
184. Г.Мамулиа, Р.Абуталыбов. Страна огней в борьбе за свобову и независимость. Политическая история азербайджанской эмиграции 1920-1945. Париж-Баку, CBS, 2014.
185."Горцы Кафказа", 1932, № 35-36, s. 17-19.
186. МИА АН Азербайджана, Научный архив, инвент. № 2143.
187. МИА АН Азербайджанский научный архив, инвентар № 2143. с. 14.
188. Наджафов Б. Лицо врага. История Армянского национализма в Закавказъе в конце XIX - начале XX века, Б., 1993, с. 28-29.
189. Насиров Т. Борьба за власть в Азербайджане (1917-1920 гг.), Б., 1993, с. 84.

Mündəricat

Müəllifdən ----------3

Milli Ordumuza məhəbbətlə ---------- 5

Giriş ----------10

Cümhuriyyətin yaranması ərəfəsində və dövlət quruculuğunun ilk aylarında Azərbaycanda silahlı qüvvələrintəşkili. Azərbaycan silahlı qüvvələrinin yaradılması istiqamətində ilk addımlar ---------- 27

Müsəlman Korpusunun yaradılması ---------- 33
Cümhuriyyətin ilk aylarında ordu quruculuğu -- 53

Hərbi Nazirlik – Cümhuriyyətin milli ordu quruculuğu prosesində yeni mərhələ ---------- 67

Ordu quruculuğunda mühüm mərhələ Silahlı Qüvvələrinin formalaşdırılmasında ardıcıl və planlı fəaliyyətin təşkili ---------- - -79

Ordu quruculuğu prosesində yeni mərhələ -

1919-cu ilin yayı-payızı ----------119

Cümhuriyyət dövründə ordu həyatının və vətənpərvərliyin təbliği ---------- -------149

Cümhuriyyətin süqutu ərəfəsində Silahlı Qüvvələrin vəziyyəti.Cümhuriyyət ordusunun qurulmasında son mərhələ ---------- səh 161

Uğurlu Qarabağ əməliyyatları və bolşevik təcavüzünə qarşı mübarizə ----------173

Nəticə ----------187

Fətəli Xan Xoyski ---------- 196

Milli tərəqqi yolunun cığırdaşı -
Nəsib bəy Yusifbəyli ----------223

Azərbaycanın ilk ordu generalı -

Səməd bəy Mehmandarov ----------249

Sultanovların nazir qardaşı -
Xosrov bəy Sultanov ----------276

"Artilleriyanın Allahı" - Əliağa Şıxlinski --------310

General Masey bəy Sulkeviç ----------329

Azərbaycan Ordusunun ilk Qərargah rəisi -
Həbib bəy Səlimov ---------- 347

General Süleyman bəy Əfəndiyev ----------386

General Əbdülhəmid bəy Qaytabaşı ---------- 399

General Murad Gəray Tlexas ---------- 405

Qaynaqlar ----------416

Mündəricat ----------424

Lətif Şükür oğlu Babayev, «Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu» (Azərbaycan dilində) Bakı, 2018

Texniki redaktoru və kompüter dizayneri: F.Zəkizadə
Korrektoru:

Yığılmağa verilmiş 01.09.2018.
Çapa imzalanmış 11.09.2018.
Fiziki çap vərəqi . Uçot nəşr vərəqi . Ofset kağız №1.
Nəşrin formatı: 60x84 1/16.
Şərti çap vərəqi.
Sifariş № . Tiraj: . nəşriyyatda çap olunmuşdur.